
Fifty Shades
of Grey
E L James

**Erika Leonard**

# Ceyms Bozun əlli çaları

**Erika Leonard Ceyms**

# Bozun əlli çaları

**Bakı - 2015**


www.kitabyurdu.blogspot.com

# Erika Leonard Ceyms

# Bozun əlli çaları

# I hissə

## 1-ci fəsil

Mən nifrətlə aynadakı əksimə baxıram. Saçlarım niyə dağınıqdır – biz kimi durur! Ketrin Kavana da xəstələnməyə vaxt tapdı, indi əzabı mən çəkməliyəm!.. Bir həftədən də az vaxt qalmış buraxılış imtahanlarına hazırlaşmaq əvəzinə, sürüşən tellərimi hamarlamağa cəhd edirəm. ―Yaş saçla yatağa uzanmaq olmaz, yaş saçla yatağa uzanmaq olmaz‖ – bu mantranı bir neçə dəfə təkrarlayaraq yapıxmış tüklərimi qaydaya salmağa cəhd edir və yorğunluqdan gözlərimi yumuram. Aynadan mənə solğun simalı, tünd-şabalıdı saçlı və sifəti üçün çox iri olan, mavi gözlü qız boylanır. Yeganə çıxış yolu – saçları at quyruğu kimi peysərdə yığmaqdır: belədə, heç olmasa, abırlı görünər.

Keyt – otaq qonşumdur. İşə bir bax, adını belə heç vaxt eşitmədiyim bir sənaye maqnatından tələbə qəzeti üçün müsahibə götürəcəyi bir gün qrip onu yatağa sərib. Buna görə də müsahibə üçün onun yerinə mən getməli olacam. Bugün-sabah imtahanlardır, tamamlanmamış kurs işləri... və bu axşam öz işlərimlə məşğul olmalıydım, amma bunun yerinə, Sietli mərkəzinə doğru altmış beş mil yol ölçməliyəm – ―Qrey enterprayzes‖in baş direktoru ilə görüşmək üçün. Sirli Mister Qrey – tanınmış sahibkar və universitetimizin ən böyük sponsoru, vaxtı qızıl, mənim vaxtımdan da dəyərli bilən insan – Keytə müsahibə verməyə razılıq verib. ―Hər gün ələ düşməyən bəxt‖, – dedi Keyt. Lənətə gəlsin onun ictimai fəaliyyətini!

O, divanda özünə yer eləyib.

\- Hirslənmə, Ana! Düz doqquz ay müsahibə üçün onu dilə tutmuşam. İndi vaxtı dəyişməli olsam, yarım il xahişi-xahişə calamalıyam. O vaxtacan hər ikimiz universiteti bitirərik. Redaktor kimi bu şansı əldən buraxa bilmərəm. Yaxşı da, xahiş edirəm!


www.kitabyurdu.blogspot.com

Keyt mənə xırıltılı, soyuqlamış səslə yalvar-yaxar edir. Bunu, görəsən, necə bacarır? Hətta xəstə ikən o, elf kimi füsunkardır: qızılı-kürən saçlar kip halda bir-birinə oturub; qızarmış, yaşarmış yaşılı gözlər isə bununla belə şölə saçır.

- Əlbəttə, gedərəm, Keyt. Sənə ―naykvil‖ alım? Yoxsa ―taylenol‖?

- ―Naykvil‖, zəhmət olmasa. Suallarım olan siyahını və portativ diktofonu özünlə götürmək yaddan çıxmasın. Sən ancaq ―play‖ düyməsini basmalısan. Sonra mən yazıya köçürərəm.

- Axı mən onun haqqında heç nə bilmirəm, – deyə təlaşımı yatırtmaq üçün donquldanıram.

- Səndə hazır suallar var – bu artıq işin yarısıdır. Get, yoxsa gecikərsən. Yol uzundur.

- Yaxşı, gedirəm. Yatağa uzan. Səninçün şorba bişirmişəm, sonra qızdırıb içərsən.

Mən şəfqətlə ona baxıram. ―Yalnız sənin xətrinə, Keyt‖.

- Oldu. Uğurlar. Sağ ol, Ana, sən həmişə xilaskarımsan.

Çəpəki gülümsəyib və çantamı çiynimə atıb küçəyə, maşına doğru çıxıram. Məni razı salmasına özüm də inana bilmirəm. Hərgah Keyt diliylə ilanı da yuvadan çıxarar. Ondan yaxşı jurnalist çıxar. Bunun üçün onda bütün keyfiyyətlər var: aydın zəka, iradə, qüdrət, inandırmaq məharəti. Bundan əlavə, o, sadəcə, gözəldir və mənim ən sevimli rəfiqəm!..

***

Səhər tezdən Vankuverdən – Vaşinqton ştatı – I-5 şosesinə çıxıram. Yolda maşın hələ azdır, Sietldə isə saat ikidə olmalıyam. Xoşbəxtlikdən Keyt özünün idman üslublu ―Mercedes SLK‖sını mənə verib. Çətin ki, Vanda – mənim köhnə ―Folksvagen-Böcək‖im qısa müddətə bu məsafəni vaxtında-vədəsində qət edə bilərdi. ―Mers‖də yol getmək xoşdur: sonadək qaza basıram və millər bir-bir arxada qalır.


www.kitabyurdu.blogspot.com

Mister Qreyin qlobal imperiyasının iqamətgahına gedirəm. Bu, şahanə görkəmli əyri şüşə və metaldan ibarət iyirmi mərtəbəlik ofis binasıdır – memarın utilitar fantaziyası... ġüşə giriş qapılarının üzərində polad hərflərlə ―Qrey Haus‖ yazısı həkk olunub. İkiyə on beş dəqiqə qalmış (Tanrıya şükür, gecikmədim!) böyük, adamı ürpərdən qumdaşı ilə bəzədilmiş holla daxil oluram.

Masa arxasından sığallı-sarışın qız mənə baxıb gülümsəyir. Əynində gözqamaşdırıcı ağ köynəkli boz pencək var. Çox yaraşıqlı görünür.

- Mənim mister Qreylə görüşüm nəzərdə tutulub. Anasteyşa Stil Ketrin Kavana əvəzinə.

- Bir dəqiqə, miss Stil, – sarışın qaşlarını azca əyir.

Qarşısında durub dəhşətli dərəcədə ürkək dayanmışam və Keytdən pencəyini götürmədiyimə və göy gödəkcədə gəlməyimə heyifsilənirəm. Yeganə ətəkliyimi geymişəm, dizədək olan çəhrayı çəkmələri və mavi cemperi. Mənim meyarlarıma görə, bu, çox zövqlüdür. Telimi qulağımın arxasına çəkirəm və özümü elə göstərirəm ki, sanki qorxmuram.

- Miss Kavana üçün görüş təyin edilib. Zəhmət olmasa, burda imza atın, miss Stil. Sağ tərəfdə sonuncu lift, iyirminci mərtəbə.

Sarışın qız mənim necə imza atmağıma baxaraq məmnunluqla gülümsəyir. Görünür, onun üçün bu gülməlidir.

O, buraxılış vəsiqəsini mənə uzadır; üstündə iri hərflərlə ―Qonaq‖ yazılıb. Mən səfeh təbəssümü gizlədə bilmirəm. Hə, əlbəttə, alnıma yazılıb ki, mən, sadəcə, qonağam. Belələrinə burada yer yoxdur. ―Bunda yeni heç nə yoxdur‖, – deyə içimdə özümə deyirəm. Minnətdarlığımı bildirib, əla tikilmiş qara geyimi olan iki mühafizəçinin arasından keçərək liftlərə doğru gedirəm. Onlar məndən də yaraşıqlı görünür.

Lift quduz sürətlə məni iyirminci mərtəbəyə qaldırır. Qapılar avtomatik açılır və mən başqa bir böyük hollda peyda oluram – yenə şüşə, polad və ağ qumdaşı. Qarşımda daha bir masa və növbəti bir sarışın qadın var. Qara işgüzar kostyumda və ağ köynəkdə. Məni görcək o yerindən qalxır.

– Miss Stil, burada gözləyə bilərsinizmi? – o, ağ dəri üzlüklü kürsü cərgəsini mənə göstərir.

Dəri üzlüklü kürsülərin arxasında şüşə divarla ayrılmış geniş danışıqlar zalı var. Tünd, uzun ağac masa və yanlarında düzülmüş iyirmi stul. Onun arxasında divar boyu şüşə pəncərə. Buradan körfəzədək uzanan Sietlin panoramı görünür. Görünüş möhtəşəmdir və mən ani olaraq məftunluqdan yerimdə donub qalıram. Möhtəşəmdir!

Kürsüyə oturub çantamdan sual siyahısını çıxarıram və onları yenidən nəzərdən keçirirəm – fikrən Keyti lənətləyərək. Mister Qreyin qısa tərcümeyi-halını belə mənə vermədiyi üçün. Axı mən müsahibə götürəcəyim adam haqqında heç nə bilmirəm. Onun otuz yaşı da ola bilər, doxsan da. Mübhəmlik məni qıcıqlandırır. Və həyəcandan oturduğum yerdə qurcalanıram. Heç vaxt üz-üzə müsahibə götürməyi xoşlamamışam. Mətbuat konfranslarının anonimliyi daha yaxşıdır, orda arxa sırada sakitcə otura bilirsən. Əgər lap düzünü desəm, kürsüdə yumağa dönərək klassik Britaniya romanını oxumaq daha ürəyimcədir, nəinki həyəcandan haldan düşərək iri, şəffaf zallarda oturmaq.

Fikrən gözlərimi yumuram: ―Özünü cəmlə, Stil!‖ Steril təmizliyi və binanın müasirliyini nəzərə alaraq mister Qreyin qırx yaşından təzəcə adlamış olduğunu demək olar: təmkinli, əsmər və sarışın – öz əməkdaşlarına tay.

Daha bir yaraşıqlı, şıq geyinmiş sarışın qız sağdakı böyük qapıdan çıxır. Maraqlıdır, burdakıların hamısı belədir? Lap Stepfordakı kimi. Dərindən nəfəs alaraq yerimdən qalxıram.

– Miss Stil? – deyə sonuncu sarışın soruşur.

– Hə, – xırıltılı səslə deyirəm və boğazımı arıtlayıram. – Hə. – İndi azca inamlı səsləndi.

– Mister Qrey bir azdan sərbəst olacaq. Gödəkcənizi verərsinizmi?

– Hə, buyurun. – Jaketdən xilas oluram.

– İçki istərdinizmi?

– E-e... yox.

Ah, deyəsən, mən bir saylı sarışına badalaq vurdum?

İki saylı sarışın sımsırığını sallayır və masa arxasındakı qadına sərt nəzərlə baxır.

– Nə istərdiniz: çay, qəhvə, su? – deyə yenidən mənə sarı çönür.

– Bir stəkan su, zəhmət olmasa, – deyə donquldanıram.

– Oliviya, zəhmət olmasa, miss Stilə bir stəkan su gətirin. – Səsində metal cingiltisi var.

Oliviya yerindən qopur və dördnala foyenin əks tərəfində, sondakı qapı arxasında yox olur.

– Bağışlayın, miss Stil, o, bizim yeni əməkdaşdır. Xahiş edirəm, bir qədər oturun. Mister Qrey sizi beş dəqiqədən sonra qəbul edəcək.

Oliviya bir stəkan su ilə geri qayıdır.

– Buyurun, miss Stil.

– Sağ olun.

İki saylı sarışın dabanlarını cingiltiylə şaqqıldadıb şəstlə yerə vuraraq böyük masaya doğru addımlayır və otururlar, hər ikisinin başı iş-gücə qarışır.

Yəqin ki, mister Qrey işə yalnız sarışın qadınları götürür. Mən dağınıq halda düşünürəm: görəsən, bu, qanuna zidd hərəkət deyil ki? Və bu an kabinetin qapısı açılır. Ordan ucaboy, zövqlə geyinmiş zənci kişi çıxır. Hə, geyim məsələsində mən yanlışlığa yol vermişəm.

O çevrilir və çiyni üstdən deyir:

– Qolf oyunu bu həftəyədir, Qrey.

Cavabı eşitmirəm. O çevrilir, məni görüb azca tünd gözlərini qıyaraq gülümsəyir. Oliviya yerindən atılır və liftin düyməsini basır. Deyəsən, o, bu işi yaxşıca məşq edib və məndən də artıq həyəcanlıdır.

– Salamat qalın, xanımlar, – deyə kişi açılıb-bağlanan qapı arxasında yox olur.

– Mister Qrey sizi qəbul eləməyə hazırdır, miss Stil, içəri keçin, – bunu iki saylı sarışın deyir.

Yerimdən qalxıram və hiss edirəm ki, ayaqlarım qatlanır. Əsəblərimi cilovlamağa çalışır çantamdan yapışıram və su stəkanını elə kürsüdə qoyaraq yarıaçıq qapıya doğru istiqamətlənirəm.

– Qapını döyməyə bilərsiniz, sadəcə içəri keçin, – deyə o, nəzakətlə gülümsəyir.

Qapını açıram, içəri boylanır, öz ayaqlarıma dolaşıram və başımla içəri yıxılıram.

Lənət şeytana, axı bu qədər də yöndəmsiz olmaq olmaz! Diz üstə çökərək mister Qreyin kabinetinin qapısında dayanmışam və kiminsə xeyirxah əlləri ayağa qalxmağıma yardımçı olur. Səfeh bir durum!.. Baxışlarımı qaldırmağa qorxuram. Lənət şeytana! O, çox cavandır.

– Miss Kavana. – Təzəcə ayağa qalxıram ki, o, uzunbarmaqlı əlini mənə uzadır, – Kristian Qrey. Əzilmədiniz ki? Əyləşin.

Gənc, ucaboy və çox yaraşıqlı. Valehedici boz kostyumda və qara qalstuklu ağ köynəkdə. Tünd-mis rəngli saçları, nüfuzedici boz gözləri ilə məni diqqətlə süzür. Danışmaq qabiliyyətimi bərpa edənədək nə qədərsə vaxt keçir.

– Yox, belə alındı ki... – deyə donquldanıram.

Əgər onun otuz yaşı varsa, onda mən lap uşağam. İxtiyarsız olaraq əlimi ona uzadıram. Barmaqlarımız bir-birinə toxunduqda bədənimdən qəribə, ovsunlayıcı titrətmə keçir. Mən əlimi geri dartıram. Yəqin ki, elektrik qığılcımı. Kirpiklərim ―döyünür‖, ürəyimin döyüntüsü kimi.

– Miss Kavana xəstələnib, mən onun yerinə gəlmişəm. Ümid edirəm, etiraz etmirsiniz, mister Qrey.

– Bəs siz kimsiz?

Səsdə bir hərarət var. Görünür, durum onu əyləndirir, hərgah təmkinli simasına baxaraq mühakimə yürütmək çətindir. Ola bilsin ki, o cazibədardır, lakin əsas məsələ – nəzakətlidir.

– Anasteyşa Stil. Mən Keytlə birgə ingilis ədəbiyyatını öyrənirəm, e-e... Miss Kavana ilə.

– Aydındır, – o, çox sadə danışır. Deyəsən, üzündə təbəssüm dolaşır, amma mən əmin deyiləm.

– Əyləşin. – O, ağ, dəri üzlüklü künc divanına yönəlik jest edir.

Onun kabineti bir adam üçün qədərindən artıq böyükdür. Divarı büsbütün əhatə edən əks tərəfdəki nəhəng pəncərədə qara ağacdan olan bənzərsiz bir iri masa durur, onun ətrafında altı nəfər asanlıqla yer tuta bilər. Divanın yanındakı jurnal masası da eyni üslubdadır. Yerdə qalanlar – tavan, döşəmə və divarlar ağ rəngdədir – qapının yanında asılmış otuz altı kiçik rəsmdən ibarət iri kvadrat mozaika istisna olunmaqla. Sıradan bir, gündəlik əşyalar rəsmlərin üzərində elə dəqiq çəkilib ki, sanki qarşındakı fotolardır. Hər şey ümumən heyrətamiz görünür, adam heyran qalır.

– Yerli rəssamdır. Trouton, – deyə baxışlarımı izləyərək Qrey izahat verir.

– Əladır. Heyrətamizdir, – deyə onun rəsmlə bağlı qeydindən utanaraq donquldanıram.

O, başını yana əyir və diqqətlə mənə baxır.

– Sizinlə tamamilə razıyam, miss Stil, – deyə Qrey astaca deyir və nədənsə sifətim allanır.

Rəsmləri saymasaq, onun kabineti soyuq, təmiz və tamamilə sterildir. Maraqlıdır, bu – incəliklə mənimlə üzbəüz olan kürsülərdən birinə oturan adam məhz Adonisin daxili aləminin inikasıdır? Gərəksiz fikirləri özümdən qovmağa çalışaraq başımı silkələyirəm və Keytin mənə verdiyi suallar siyahısını çantamdan çıxarıram. Sonra portativ diktofonu işlək hala gətirməyə çalışıram. Heç nə alınmır, onu iki dəfə jurnal masasının üstünə düşürürəm. Mister Qrey susur və əminəm, səbirlə gözləyir, mən isə daha çox həyəcanlanır və əsəbiləşirəm. Nəhayət, gözlərimi ona zilləmək cəsarətini özümdə tapdım. O, bir əlini sərbəst halda dizi üstünə, digər əlini çənəsinin altına, uzun şəhadət barmağını isə dodağına qoyaraq, məncə, gülüşünü boğmağa çalışır.

– Üzr istəyirəm... – Ah, nəhayət, alındı. – Mən hələ alışmamışam.

– Tələsməyin, miss Stil, – deyə Qrey dillənir.

– Cavablarınızı əllə yazsam, etiraz etməzsiniz?

– Böyük çətinliklə diktofonu qoşa bildikdən sonra? Siz hələ soruşursunuz?

Yanaqlarıma boya axır. Gözümü döyürəm, nə deyəcəyimi bilmirəm. O, deyəsən, mənə yazığı gələrək, yumşalır:

– Mən əleyhinə deyiləm.

– Keyt, yəni miss Kavana, müsahibənin məqsədlərini sizə deyibmi?

– Hə, müsahibə tələbə qəzeti üçündür, çünki mən buraxılış mərasimində diplomları təqdim etməliyəm.

Aha! Mənimçün bu, yenilikdir və yaşca azca böyük adamın mənə necə diplom təqdim etməsini əsəbi halda təsəvvürümə gətirirəm. Dəxli yoxdur, qoy lap super uğur qazanmış adam olsun. Qaşqabağımı tökürəm, sürüşüb əldən çıxa biləcək daha yaxın vəzifənin icrası üçün diqqətimi toplamağa çalışıram.

– Yaxşı. – Ağzımın suyunu uduram. – Sizə bir neçə sualım var.

Yenə də sözəbaxmaz telimi qulağımın ardına keçirirəm.

– Təəccüblənmirəm, – deyə o, sakit tərzdə dillənir. Hə, bu mister Qrey mənə lağ edir! Yanaqlarım yanır, boyca hündür görünmək və inamlı təsir bağışlamaq üçün düz oturmağa və çiyinlərimi düzəltməyə çalışıram. Xalis peşəkar görkəmi ilə diktofonun düyməsini basıram.

– Çox gəncsiniz, bununla belə, öz imperiyanıza sahibsiniz. Öz uğurunuzla nəyə borclusunuz?

O, mərhəmətlə gülümsəyir, amma bir qədər məyus görünür.

– Biznes – insanlar deməkdir, miss Stil və mən onlardan yaxşı baş çıxarıram. Mən bilirəm insanları nə maraqlandırır, onlar nəyə sevinirlər, onları nə ilhamlandırır və onları necə həvəsləndirmək olar. Mənim şirkətimdə əvəzolunmaz mütəxəssislər işləyir və mən onlara yaxşı maaş verirəm. – O susur və diqqətlə mənə baxır. – Məncə, hər hansı bir işdə uğur qazanmaq üçün ona dərindən yiyələnməlisən, onu daxildən ən xırda təfərrüatlarına qədər öyrənməlisən. Buna görə də mən çox işləyirəm. Qəbul elədiyim qərarlar faktlara və məntiqə söykənir. Mənim dəyərli ideya və


www.kitabyurdu.blogspot.com

yaxşı əməkdaş seçməkdə təbii vergim var. Nəticə həmişə insanlardan asılıdır.

– Bəlkə sadəcə bəxtimiz gətirib? – Bu, Keytin suallarındandır, amma o, elə təkəbbürlüdür ki!

Mən onun gözlərində heyrətin doğuşunu görürəm.

– Mən təsadüfə, yaxud bəxtə bel bağlamıram, miss Stil. Nə qədər çox işləyirəmsə, o qədər də bəxtim gətirir. Əsas məsələ ondadır ki, komandaya düzgün adamları yığasan və onların enerjisini lazımi axara yönəldəsən. Deyəsən, Harvi Fayrstoun deyib: ―Lider qarşısında duran ən möhtəşəm vəzifə insanların böyüməsi və inkişafıdır‖.

– Siz, deyəsən, diktatorsuz. – Sözlər təmkinimdən irəlidə gedir. Dodağımdan qopur.

– Hə, mən hər şeyi nəzarətimdə saxlamağa çalışıram, miss Stil.

Mister Qreyin sözlərində bir damla belə zarafat yoxdur. Ona baxıram, o da heç halını pozmadan baxışlarını düz gözümə zilləyib. Ürəyim bərkdən döyünməyə başlayır, yenə qızarıram.

Niyə mən bu qədər utanıram? Bəlkə ona görə ki o, misilsiz dərəcədə yaraşıqlıdır? Yaxud onun gözlərindəki parıltıdan? Ya da o, şəhadət barmağını üst dodağına toxundurduğu üçün? Yaxşı olardı ki, o belə etməsin.

– Bundan başqa, mütləq hakimiyyətə o adam malik olur ki, qəlbinin dərinliklərində insanlara hökm vermək üçüm doğulmasına dair əminlik var, – deyə mister Qrey asta səslə söhbətə davam eləyir.

– Siz mütləq hakimiyyəti hiss edirsiniz?

―Xalis diktatordur a!‖

– Mən qırx min adama iş verirəm, miss Stil, buna görə də özümdə müəyyən məsuliyyət hiss eləyirəm. Buna hakimiyyət də deyə bilərsiniz: istəyirsinizsə. Əgər birdən telekommunikasiya biznesinin məni artıq maraqlandırmadığını hiss eləsəm və onu satmaq qərarına gəlsəm, onda bir ay sonra, yaxud təxminən bu qədər müddətə iyirmi min adam artıq ev üçün krediti ödəmək qabiliyyətində olmayacaq.

Heyrətdən gözlərim kəlləmə çıxır. Bu, tam insafsızlıqdır.


www.kitabyurdu.blogspot.com

– Məgər ġura qarşısında cavabdehliyiniz yoxdur?

– Mən şirkətin sahibiyəm. Heç kim qarşısında da cavabdehliyim yoxdur.

O, mənə baxaraq qaşlarını çatır. Yenidən qızarıram. Hə, əlbəttə, müsahibəyə hazırlaşıramsa, bunu bilməliydim. Həyasızdır a!.. Ona başqa tərəfdən yaxınlaşmağa çalışacam.

– İşdən başqa nəyə maraq göstərirsiniz?

– Maraqlarım müxtəlifdir, miss Stil. – Təbəssümün kölgəsi dodaqlarına toxunur. – Çox müxtəlifdir.

Bilmirəm niyə, amma onun dik baxışı məni utandırır və qayğılandırır. Qreyin gözlərində hansısa əxlaqsızlıq nişanəsi görürəm.

– Amma çox işlədiyinizdən siz yorğunluq yükünü bədəninizdən necə çıxarırsınız?

– Necə çıxarıram? – O, ağ, sıra ilə düzülmüş dişlərini çölə çıxararaq gülümsəyir. Nəfəsimi içimə çəkirəm. Belə gözəl olmaq... – Amma dediyiniz kimi, yorğunluq yükünü bədənimdən çıxarmaq üçün mən yelkənləri açıram, təyyarədə uçuram və müxtəlif növ fiziki fəaliyyətlə məşğul oluram. Mən çox zəngin adamam, miss Stil və buna görə də mənim bahalı və ciddi məşğuliyyətlərim var.

Mövzunu dəyişmək üçün Keytin mənə verdiyi tələsik suallar siyahısına baxıram.

– Siz istehsala investisiya qoyursunuz? Niyə?

Niyə onun yanında özümü narahat hiss edirəm?

– Mən yaratmaqdan zövq alıram. Əşyaların quruluşunu, nədən düzəldiyini öyrənmək xoşuma gəlir. Xüsusən də gəmiləri sevirəm. Daha nə demək olar ki?

– Belə çıxır ki, siz qəlbinizin səsinə hay verirsiniz, faktlara və məntiqə deyil.

O qımışır və qiymət qoyurmuş kimi baxır.

– Ola bilər. Hərgah bəziləri deyir ki, mən daşürəkliyəm.

– Niyə?


www.kitabyurdu.blogspot.com

– Çünki məni yaxşı tanıyırlar. – Onun dodaqları təbəssümlə əyilir.

– Adamlarla asan dil tapırsınız?

Bu sualı verən kimi dərhal heyifsiləndim. Keytin siyahısında o yox idi.

– Mən çox qapalı adamam, miss Stil. ġəxsi həyatımı mühafizə eləmək üçün çox şeyi də qurban verməyə hazıram. Buna görə də nadir hallarda müsahibə verirəm, – deyə o, söhbəti tamamlayır.

– Bəs niyə bu dəfə razılıq verdiniz?

– Çünki mən universitetə maliyyə dəstəyi verirəm və bundan əlavə, miss Kavanadan elə-belə qopmaq olmur. O, mənim ictimaiyyətlə əlaqələr şöbəmdən elə möhkəm yapışmışdı ki... mən isə belə inadkarlığa hörmət edirəm.

Hə, Keytin inadına söz ola bilməz. Məhz buna görə imtahanlara hazırlaşmaq əvəzinə, mən burda oturmuşam və Qreyin nüfuzedici baxışları altında xəcalətdən qurcalanıram.

– Siz kənd təsərrüfatı texnologiyalarına da sərmayə qoyursunuz. Sizi niyə bu məsələ maraqlandırır?

– Pul yeyilmir, miss Stil, planetimizin hər altıncı adamı isə aclıq çəkir.

– Yəni siz bunu xeyriyyəçilik məqsədi ilə edirsiniz? Sizi ərzaq çatışmazlığı problemi narahat edir?

Qrey qeyri-müəyyənliklə çiyinlərini çəkir.

– Bu, yaxşı biznesdir, – deyir, məncə, qeyri-səmimi.

Mən burda gəlirin çoxaldılması üçün heç bir imkan görmürəm, yalnız xeyriyyəçilik. Bir qədər şübhə ilə növbəti sualı verirəm:

– Sizin öz fəlsəfəniz var? Əgər cavab ―bəli‖dirsə, bu fəlsəfənin mahiyyəti nədir?

– Öz-özlüyündə fəlsəfəm yoxdur. Ancaq Karnegidən əxz elədiyim rəhbər prinsipim var: ―Yalnız öz zəkasına tam hakim olan adam qanunla ona məxsus olana yiyə olacaq‖. Mən məqsədyönlü və məğrur insanam. Mən hər şeyi nəzarətdə saxlamağı xoşlayıram: özümü də, məni əhatə edənləri də.


www.kitabyurdu.blogspot.com

– Deməli, siz sahiblikdən xoşlanırsınız?

–Müstəbid!‖

– Sahiblik, lakin bütöv halda – hə, bu, xoşuma gəlir.

– Siz superistehlakçısız?

– Dübbədüz dediniz.

O gülümsəyir, hərgah gözləri ciddiliyini qoruyur. Bu, onun acları doydurmaqla bağlı dediyi sözlərlə üst-üstə düşmür. İçimdə xoşagəlməz bir hiss var, sanki başqa bir şey haqqında danışırıq, amma mən nədənsə söhbətin məzmununu anlamıram. Ağzımın suyunu uduram. Otağın havası istilənir; bəlkə mənə qızdırma gəlib? Bircə müsahibə tez qurtaraydı. Axı Keytin yetərincə materialı var... Sonrakı suallara baxıram.

– Siz övladlığa götürülmüsünüz. Bu, xarakterinizə necə təsir edib?

Ah, mən lap ədəbsizlik etdim! Qreyə baxıram, ümid edirəm ki, xətrinə dəyməmişəm. O, qaşlarını çatır.

– Bunu öyrənmək imkanım yoxdur.

Bu cavab marağımı artırır.

– Övladlığa götürüldükdə neçə yaşınız vardı?

– Bu məlumatları ictimai mənbələrdən götürə bilərsiniz, miss Stil.

Zəhmlidir. Mən yenidən allanıram. Lənət şeytana! Əlbəttə, əgər müsahibəyə hazırlaşsaydım, onun tərcümeyi-halını öncədən bilərdim. Tələsik siyahıdakı o biri bəndə keçirəm.

– Ailəniz yoxdur, çünki çox işləyirsiniz.

– Bu, sual deyil, – çox qısa.

– Üzr istəyirəm. – Onun yanında özümü dəcəl uşaq kimi hiss edirəm. – Ailə həyatını işinizə qurban vermisiniz?

– Ailəm var. Qardaşım, bacım və sevimli valideynlərim. Mənə başqa bir ailə lazım deyil.

– Siz geysiz, mister Qrey?

O, kəskin şəkildə köksünü ötürür və mən ürpənti ilə büzüşürəm. Niyə hər şeyi ardıcıl oxuyuram? İndi necə izah edim ki, sualları mən yazmamışam? Ah Keyt! Soruşmağa şey tapdı da!

– Yox, Anasteyşa, gey deyiləm.

Qaşlar heyrətamiz dərəcədə yuxarı qalxıb, baxışlarda soyuq parıltı var. Deyəsən, ona xoş deyil.

– Üzr istəyirəm, burda belə yazılıb.

Bütün bu müddət ərzində o, ilk dəfə məni adımla çağırdı. Ürəyim bərkdən döyündü, yanaqlarım isə yenidən allandı. Mən yenidən sürüşmüş tellərimi qulağımın arxasına keçirməyə çalışıram.

O, başını yana əyir.

– Sualları özünüz yazmamısınız?

Yanaqlarımdan sanki qan axır. Bircə bu olmasın.

– E… yox. Keyt, yəni miss Kavana mənə siyahı verib.

– Onunla birgə tələbə qəzetində işləyirsiniz?

Lənət şeytana! Mənim tələbə qəzetinə heç bir aidiyyətim yoxdur. Bu, onun ictimai işidir, mənim yox. Sifətim yanır.

– Yox, o, mənim otaq yoldaşımdır.

Qrey fikirli halda çənəsini qaşıyır, onun boz gözləri müştəri baxışı ilə mənə zillənib.

– Özünüz bu müsahibəni boynunuza götürmüsünüz? – deyə halını pozmadan soruşur.

Dayanın, kim kimdən müsahibə götürür? Onun dağlayıcı baxışları altında həqiqəti deməliyəm.

– Məndən xahiş ediblər. Keyt xəstələnib, – deyə, az qala, pıçıldayıram.

– Onda məsələ aydındır.

Qapı döyülür, iki saylı sarışın içəri daxil olur.

– Üzr istəyirəm, mister Qrey, iki dəqiqədən sonra növbəti qonağınızı qəbul etməlisiniz.

– Biz hələ söhbəti bitirməmişik, Andrea. Zəhmət olmasa, o görüşü təxirə salın.



www.kitabyurdu.blogspot.com

Andrea qətiyyətsiz halda, görünür, nə edəcəyini bilməyərək ona baxır. Qrey astaca ona tərəf çevrilir və qaşlarını qaldırır. Andreanın yavaş-yavaş sifəti allanır. Aman Tanrım, deməli, təkcə mən belə deyiləm.

– Yaxşı, mister Qrey, – deyə qadın donquldanır və çölə çıxır.

O, üzünü turşudur və yenidən diqqəti mənə yönəldir.

– Hə, söhbətimiz nədə yarımçıq qalmışdı, miss Stil?

Aha, biz yenidən ―miss Stil‖ə qayıtdıq.

– Sizi işdən ayırmaq istəməzdim.

– Haqqınızda daha çox şey bilmək istərdim. Məncə, bu, ədalətli istəkdir.

Onun boz gözlərində maraq hissi alovlanır. İşə düşdük də! Ona nə lazımdır? O, əllərini kürsünün qoltuqaltılarına qoyur, barmaqlarını çənəsinin altında cütləşdirir. Onun ağzı məni dəhşətli dərəcədə söhbətdən yayındırır. Ağız suyumu uduram.

– Maraqlı heç nə yoxdur, – yenidən qızararaq deyirəm.

– Universitetdən sonra nə işlə məşğul olmaq fikrindəsiniz?

Onun diqqətindən xəcalət çəkərək çiyinlərimi çəkirəm. ―Keytlə birgə Sietlə köçərəm, ev taparam, işə düzələrəm‖, – bundan uzağa getməmişəm niyyətlərimdə.

– Hələ qərara gəlməmişəm, mister Qrey. Əvvəlcə buraxılış imtahanlarını verməliyəm.

İndi mən məhz bununla məşğul olmalıyam – imtahanlara hazırlaşmalıyam – geniş, təmiz ofisdə oturmalı deyiləm. Sizin nüfuzedici baxışlarınız altında zülm çəkərək.

– Bizdə məzunlar üçün yaxşı təcrübə proqramları var, – astaca deyir Qrey və gözlərim kəlləmə çıxır. O, mənə iş təklif edir?

– Yaxşı, bunu nəzərə alaram, – deyə tamamilə özümü itirərək donquldanıram, – hərgah məncə, sizə yaramıram.

Lənət şeytana! Sussaydım, bundan yaxşı olardı.

– Niyə belə düşünürsünüz?

O, sual dolu baxışlarla başını yana əyir, dodaqlarında təbəssümün kölgəsi oynaşır.

– Axı bu, açıq-aşkardır.

Mən yöndəmsiz, əzik-üzük və qeyri-sarışınam.

– Məncə, yox.

Onun baxışları diqqətlidir, o heç də zarafat eləmir və qəfildən qarnımın dərinliklərində əzələlərim bir-birinə dolaşır. Mən baxışlarımı kənara, bir-birinə calanmış barmaqlarıma yönəldirəm. Nə baş verir? Getmək vaxtıdır. Əlimi diktofona doğru uzadıram.

– İcazə versəniz, sizə burada hər şeyi göstərərəm, – deyə o, təklif edir.

– Sizi işlərinizdən ayırmaq istəməzdim, mister Qrey, bundan başqa, yolum da çox uzaqdır.

– Siz elə bu gün Vankuverə, universitetə qayıtmaq istəyirsiniz? – O heyrətlənib və hətta həyəcanlanıb. Ürkək tərzdə pəncərəyə baxır, yağış damlaları şüşəni döyür. – Ehtiyatla gedin, – sərt şəkildə deyir. Görən, ona nə olub? – İstədiyiniz sualların hamısını verdinizmi?

– Hə, ser, – deyə diktofonu çantama dürtərək cavab verirəm. – Müsahibəyə görə çox sağ olun, mister Qrey.

– Sizinlə tanış olmaq çox xoş idi. – Dəyişilməz olaraq nəzakətlidir.

Yerimdən qalxıram. Qrey də qalxır və əlini mənə uzadır.

– Tezliklə görüşənədək, miss Stil.

Bu, xəbərdarlığa, yaxud təhdidə bənzəyir. Ayırd eləmək çətindir. Mən üzümü turşuduram. Niyə görüşməliyik ki? Onun əlini sıxdıqda, aramızda yenə də qəribə cərəyan hiss edirəm. Yəqin, mən çox həyəcanlanmışam.

– Salamat qalın, mister Qrey.

Xalis atlet lütfkarlığı ilə o, qapıya yaxınlaşır və onu açaraq mənə yol verir.

– Gəlin mən sizə burdan çıxmaqda kömək edim, miss Stil. – Qrey azca gülümsəyir. Görünür, onun kabinetində heç də xoş olmayan peyda olma vəziyyətimə eyham vurur.

– Siz çox tədbirlisiniz, mister Qrey, – deyə dişlərimi qıcayıram və onun təbəssümü daha da genişlənir. ̶ Sizi əyləndirə bilməyimə ‗ şadam, mister Qrey‖, – deyə fikrən onu çimdikləyirəm və qeyzlənərək foyeyə çıxıram. Təəccüblü olsa da, o, mənimlə birgə çıxır. Andrea və Oliviya başlarını qaldırır, onlar da təəccüb içindədir.

– Palto geyinmişdiniz? – deyə Qrey soruşur.

– Hə.

Oliviya yerindən atılır və gödəkcəmi gətirir, amma mənə verməyə imkan tapmır – Qrey onu götürür. O, geyinməkdə mənə kömək edir, məni xəcalət təri basır, gödəkcəni əynimə keçirirəm. Bir anlığa Qrey əlini çiyinlərimə qoyur. Nəfəsim daralır. Əgər mənim durumumu anlayırsa, bunu heç nəylə bildirmir. Onun uzun şəhadət barmağı liftin çağırış düyməsini basır və biz dayanıb gözləyirik: mən – naqolaylıqdan əzab çəkərək, o – tamamilə təmkinli. Nəhayət, liftin qapıları xilasa doğru yolun qapısını açır. Burdan mümkün qədər tez çıxmaq gərəkdir. Çönüb görürəm ki, Qrey əlini divara söykəyərək liftlə yanaşı durub. O çox, çox yaraşıqlıdır. Bu, məni utandırır. O, nüfuzedici boz gözlərini məndən çəkmədən deyir:

– Anasteyşa.

– Kristian, – deyə cavab verirəm.

Xoşbəxtlikdən qapılar bağlanır.

## 2-ci fəsil

Ürəyim bərkdən döyünür. Lift birinci mərtəbəyə enir və mən cəld liftin içindən çölə atılıram, elə qapılar açılan kimi... ayaqlarım yeridikcə bir-birinə dolaşır, lakin xoşbəxtlikdən ayaq üstə qala bilirəm. Bircə burada, tamamilə dübbədüz daş döşəmədə yerə yıxılmaq çatışmırdı... Mən güllə kimi geniş şüşə qapılardan çıxıram və Sietlin canlandırıcı rütubətli havasına baş vururam. Başımı qaldırıram, yağışın təravətli, soyuq damlaları üzümə çilənir və itirilmiş ruhi tarazlığı bərpa eləməkdən ötrü dərindən nəfəs almağa çalışıram.

Hələ heç bir kişi məni Kristian Qrey qədər məftun etməyib. Onda xüsusi nə var ki? Zahiri görkəmi? Cazibə? Zənginliyi? Hakimiyyət? Yenə də aydın deyil, mənə nə olub? Yaxşı ki, hər şey geridə qaldı. Mən rahatlanaraq köks ötürürəm, polad sütuna söykənir, var gücümlə fikirlərimi cəmləməyə çalışıram. Başımı yelləyirəm. Aman Tanrım, bu nə deməkdir! Nəhayət, qəlbim sakitləşir və mən yenidən rahat nəfəs ala bilirəm. İndi maşına tərəf getmək olar.

ġəhərdən çıxar-çıxmaz müsahibəni dönə-dönə beynimdə fırladıram. Yöndəmsiz, səfeh qız! Görünür, mən hər şeyi uydurmuşam, indisə narahat

oluram. Tutalım, o çox yaraşıqlıdır, qərarlı, amiranə, özünə güvənəndir. Eyni zamanda, kübar davranışına baxmayaraq, soyuq, təkəbbürlüdür. Lakin bütün bunlara başqa tərəfdən də baxmaq olar. Kürəyimdən ürpənti keçir. Hə, təkəbbürlüdür, amma bunun üçün onun əsasları var: belə gənc olsa da, çox şeyə nail olub. O, axmaqları sevmir, onları kim sevir ki? Mən yenidən Keyti acılayıram: onun tərcümeyi-halı haqda öncədən mənə heç nə demədi.

I-5 şosesində bu sual mənə rahatlıq vermir: insanı uğura nə sövq edir? Qreyin bəzi cavabları tapmacaya oxşayır. Sanki onlarda hansısa qapalı məna var. Hələ sualları demirəm! Övladlığa götürülməni insandan necə soruşmaq olar? Hələ onun gey olub-olmamasını? Diksinirəm. Doğrudanmı mən bunu ucadan demişəm? Hə, cəsarətə bax! İndi ədəbsizliyimdən əzab çəkəcəyəm… Ketrin Kavanaya lənət!

Spidometrə baxıram: sürət normadan da azdır. Və mən bilirəm: bu, iki nüfuzedici boz gözlərə və maşını diqqətli idarə etmək barədə sərt xəbərdarlığa görədir. Mən başımı silkələyir və anlayıram ki, Qrey özünü yaşından iki dəfə kiçik, lap uşaq kimi aparır.

–Unut onu, Ana‖, – deyə özümü çəkindirirəm. Maraqlı sərgüzəşt idi, amma onu çək-çevir etməyə dəyməz. Hər şey artıq bitib. Onu heç vaxt görməyəcəyəm. Bu fikirdən əhvalım o dəqiqə yaxşılaşır. MP3-pleyeri işə salıram, səsi artırıram, kürsünün belinə yayxanıram və səs-küyün nəbzli döyüntüsü ilə qaza basıram. I-5-ə girişdə görürəm ki, sürəti artırmışam, çünki belə istəyirəm.

***

Biz Vankuverdə (Vaşinqton ştatı) yaşayırıq, kiçik taunhaus qəsəbəsində, universitet düşərgəsindən çox da uzaq olmayan yerdə. Bəxtim gətirib: Keytin valideynləri ona burada ev alıblar və kirayəyə görə məndən gülməli məbləğdə haqq alır. Onun mənzili son dörd ildə evimiz olub. Maşını qapı ağzına sürərkən başa düşürəm ki, ətraflı cavab almayınca Keyt


www.kitabyurdu.blogspot.com

yaxamdan əl çəkməyəcək. Yaxşı ki, diktofon yazısı var. Ümid edirəm, müsahibədən başqa ona əlavə heç nə haqda deməli olmayacağam.

– Ana! Qayıtmısan! – Keyt kitabla dolu qonaq otağında oturub. O, aydındır ki, imtahanlara hazırlaşırmış, düzdür, əynində yenə də əvvəlki kimi çəhrayı rəngli flanel, üstündə yaraşıqlı dovşan balalarının rəsmi olan pijama var. Keyt onu yalnız kefsiz olanda geyinir: növbəti boyfrendlə ayrıldıqdan sonra, xəstələndikdə, yaxud əhvalı pis olanda. O, yerindən atılaraq mənə doğru gəlir və məni möhkəm qucaqlayır.

– Mən artıq həyəcanlanmağa başlamışdım. Fikirləşirdim ki, tez qayıdacaqsan.

– Əgər müsahibənin uzandığını nəzərə alsaq, mən hələ tez gəlmişəm.

– Ana, çox sağ ol! Mən sənə ömrümün sonunadək minnətdaram. Danış görək, nə oldu? O necədir?

Hə! Suallar başladı!

Gəl indi buna cavab ver də. Nə deyə bilərəm ki?

– Yaxşı ki, hər şey bitdi və onunla bir daha görüşmək lazım deyil. Əgər düzünü desəm, mən ondan qorxuram, – çiyinlərimi çəkirəm. – Çox inadkardır, hətta həyasızdır. Həm də cavan.

Keyt məsum baxışlarla mənə baxır. Mən üzümü turşuduram.

– Özünü elə göstərmə ki, guya heç nə bilmirdin! Niyə mənə onun tərcümeyi-halını verməmişdin? O, məni səfeh zənn elədi. Müsahibə aldığım adam haqqında qətiyyən heç nə bilmirdim.

Keyt əli ilə ağzını yumur.

– Lənət şeytana! Ana, bağışla, mən bunu heç düşünmədim.

Hirslənirəm.

– Qrey nəzakətlidir, ciddi və bir qədər rəsmiyyətçi, sanki yaşından çox-çox böyükdür. Heç vaxt deməzsən ki, yaşı otuzdan azdır. Ümumiyyətlə, onun neçə yaşı var?

– İyirmi yeddi. Lənət şeytana, Ana, bağışla. Mən sənə onun haqqında danışmalıydım.



www.kitabyurdu.blogspot.com

– Yaxşı görünürsən. ġorbanı içdin? – deyə söhbətin mövzusunu dəyişmək üçün soruşuram.

– Hə, həmişəki kimi çox dadlı idi. O dəqiqə yüngülləşdim. – O, minnətdarlıqla gülümsəyir.

Saata baxıram.

– Mən qaçmalıyam. Hələ –Kleytons‖a çataram.

– Ana, axı sən yorulmusan.

– Boş şeydir. Hələlik.

***

Vaşinqton Universitetinə daxil olandan –Kleytons‖da işləyirəm. Bu, Portlenddə alətlər və inşaat materialları satan qeyri-şəbəkə mağazasıdır. İşlədiyim müddətdə satdığımız əşyalardan baş çıxarmağı az-maz öyrəndim, amma əlimdən əsla ustalıq gəlmir. Bizim ailədə hər cür təmir işləri ilə atam məşğul olur. Amma buxarının yanındakı kürsüdə kitab oxumaq mənlikdir. Öz növbəmə çatdığıma sevinirəm, indi fikrimi Kristian Qreydən savayı işlərə cəmləyə bilərəm. Müştərilərimiz çoxdur: yay mövsümü başlayır, hamı təmir istəyindədir. Missis Kleyton gəlişimə çox sevinib.

– Ana, fikirləşirdim ki, bu gün gəlməyəcəksən!

– Tez azad oldum. Odur ki, bir-iki saat işləyə bilərəm.

– Lap yaxşı.

O, məni anbara göndərir: ehtiyatlarımızı artırmaqdan ötrü və tezliklə başım işə qarışır.

***

Evə qayıdıb Keyti oturaq halda, qulaqcıq və noutbukla yaxalayıram. Burnu hələ də qıpqırmızıdır, amma o, quduz sürətlə klaviaturanı döyəcləyir. Gücüm heç qalmayıb: uzun yol, yorucu müsahibə və –Kleytons‖da ağır iş növbəsi məni tamamilə əldən-ayaqdan salıb. Taxta sərilirəm, yarımçıq

qalmış kurs işi və müsahibəyə itirdiyim vaxtı necə geri qaytarmaq haqda düşünürəm.

– Əla materialdır, Ana. Sənə halaldır. Amma başa düşmürəm, o sənə öz mülklərini göstərmək istədikdə bundan niyə imtina eləmisən. O, açıq-aşkar səni ləngitmək istəyib.

Keyt sualedici baxışla mənə baxır.

Mən allanıram və ürəyim var gücüylə döyünməyə başlayır. O heç də buna görə deyil, sadəcə, göstərmək istəyirdi ki, öz mülkünün ağası və hökmdarıdır. Hiss edirəm ki, dodağımı dişləyirəm, əminəm Keyt bunu görmədi. Görünür, başı tamamilə işə qarışıb.

– İndi aydındır, ―rəsmiyyətçilik‖ dedikdə nəyi nəzərdə tuturdun. Sən nəyisə kağıza köçürürdün?

– Yox, yazmamışam.

– Yaxşı, eyib etməz. Burda bir yazılıq material var. Eh, heyif ki, fotoqrafımız yoxdur. Yaraşıqlıdır, köpək oğlu, deyilmi?

Mən qızarıram.

– Hə, pis deyil, – deyə daha laqeyd çalarda cavab verirəm. Deyəsən, məndə alınır.

– Di bəsdir, Ana, yəni heç xoşuna gəlmədi o? – Keyt ideal qaşlarını qaldırır.

Sənə nə!.. Mən yaltaqlığı işə salıram, bu üsul həmişə işə yarayır:

– Sən ondan daha çox söz qopарardın.

– Buna çox şübhə edirəm. O, demək olar ki, sənə iş təklif edib! Müsahibə götürmənin son anda sənin boynuna düşdüyünü nəzərə aldıqda, işin öhdəsindən əla gəlmisən.

O, düşüncəli halda mənə baxır və mən tələm-tələsik mətbəxə çəkilirəm.

– De görək, onun haqqında nə düşünürsən?

İşə düşdük də! Sanki danışmağa başqa mövzu yoxdur.


www.kitabyurdu.blogspot.com

– O, çox məqsədyönlüdür, ciddidir, təkəbbürlüdür, hətta qorxulu dərəcədə, amma çox harizmatikdir. Onda cazibə var, bu danılmazdır, – həqiqəti deyirəm, ümid edirəm ki, mövzu artıq qapanıb.

– Sən ona məftun olmusan? Bu, nəsə yeni bir şeydir, – deyə Keyt fınxırır.

Mən sendviçləri doğramağa başlayıram ki, o, sifətimi görə bilməsin.

– Niyə onun gey olub-olmadığını soruşmağı nəzərdə tutmusan? Yeri gəlmişkən, bu, digər suallarla müqayisədə ən səfeh sual idi. Mən sadəcə ölmüşdüm, heç o da bu suala sevinmədi.

Mən yalnız o xatirənin özündən üz-gözümü turşuduram.

– Kübar xəbərlərdə onun qız tanışları haqda heç bir xəbər yoxdur.

– Çox pis duruma düşdüm. Elə bütün müsahibə də… yaxşı ki, onu bir daha görməyəcəm.

– Di bəsdir, sən dedin, mən də inandım. Deyəsən, onun xoşuna gəlmisən.

Məni bəyənib? Cəfəngiyatdır!

– Sendviç istəyirsən?

– Hə, çox sağ ol.

***

Bəxtimdən Kristian Qrey haqda söhbətə bir daha qayıtmırıq. ġam yeməyindən sonra nahar masasında Keytlə yanaşı otururam və o, müsahibə üzərində iģlədiyi müddətdə –Erbervillər nəslindən olan Tess‖ mövzusunda iģ yazıram. Lənət şeytana, o, lazım olmayan vaxtda lazım olmayan yerdə doğulub. Yazını bitirdikdə artıq gecəyarısıdır, Keyt çoxdan yuxuya gedib. Mən otaqda yorğun halda var-gəl edirəm, amma özümdən razıyam, bazar ertəsi günü o qədər iş görmüşəm ki...

Ağ, dəmir çarpayıda kömbə kimi, həm də anamın verdiyi qurama yorğana bükülmüşəm, gözlərimi yumuram və ani olaraq mürgüləyirəm. Qaranlıq hollar, soyuq ağ döşəmələr və boz gözlər yuxuma girir.


www.kitabyurdu.blogspot.com

***

Həftənin yerdə qalan hissəsi bütünlüklə əzbərçiliyə və işə həsr olunub. Keyt də məşğuldur: tələbə qəzetinin son nömrəsini buraxmalıdır (sonra o, bu işi yeni redaktora təhvil verəcək) və əlbəttə, imtahanlara hazırlaşır. Çərşənbə axşamınadək onun vəziyyəti, demək olar ki, yaxşılaşıb və mən artıq onun flanel pijamasındakı dovşan balalarını seyr etməli olmayacağam. Mən anama, Corciya ştatına zəng edirəm, bilmək istəyirəm, işlər nə yerdədir, üstəlik, buraxılış imtahanlarında mənə uğur diləməsinə ehtiyacım var. O, mənə yeni məşğuliyyətindən danışır – şam istehsalından. Anamın beynində daim yeni-yeni biznes ideyalar peyda olur. Əslində, o, çox darıxır, buna görə də başını qatmağa məşğuliyyət axtarır, amma o, bir şey haqda uzun-uzadı düşünə bilmir. Gələn həftə yenə təzə bir ideyası olacaq. Bu, məni narahat edir. Müəssisə açmaq üçün onun evi girov qoymadığına inanmaq istərdim. Ümid edirəm, Bob – şərti olaraq yeni, ondan yaşca çox-çox böyük olan əri mənim yoxluğumda onun qayğısına qalır. O, üç saylı ərdən daha praktikdir.

– Sənin işlərin necədir, Ana?

Yalnız bir anlıq susuram və o, dərhal qayğılanır.

– Hər şey qaydasındadır, ana.

– Ana? Özünə oğlan tapmısan?

Başqa işim-gücüm yoxdu! O, necə duyuq düşdü? Onun səsində açıq-aşkar həyəcan duyulur.

– Yox, ana, adam yoxdur. Mən birinci sənə deyəcəm, olarsa.

– Ana, sən tez-tez adam arasına çıxmalısan. Səninçün narahatam.

– Anacan, hər şey qaydasındadır. Bob necədir?

Yayındırma ən faydalı taktikadır, – bu, çoxdan məlumdur.

Axşama yaxın Reyə zəng edirəm – atalığıma, anamın iki saylı keçmiş ərinə, özümə ata bildiyim və soyadını daşıdığım adama. Biz qısa danışırıq. Əslində, bu, heç söhbət də deyil: o, suallarıma cavabda ancaq


www.kitabyurdu.blogspot.com

nıqqıldayır. Rey çox da danışqan deyil. Lakin o hələ də sağdır, hələ də televizorda futbola baxır, boulinqə və balıq tutmağa gedir, yerdə qalan vaxtda mebel hazırlamaqla məşğul olur. Rey usta dülgərdir. Məhz onun sayəsində mən rəngsaz malasını bıçqıdan ayıra bilirəm.

Cümə günü biz Keytlə axşam hara gedəcəyimizi müzakirə edirik – məşğələləri, işi və tələbə qəzetini unudub dincəlmək üçün. Bu vaxt qapının zəngi çalınır. Astanada bir şüşə şampan şərabı ilə köhnə dostum Xose dayanıb.

- Xose! Səni görməyimə necə də sevindim! – Bir anlığa onu bağrıma basıram. – İçəri keç!

Xose Vaşinqton Universitetinə yenicə gəldiyim, özümü tənha və yalqız hiss elədiyim zaman tanış olduğum ilk adam olub. Biz o dəqiqə can dostu olduq. Hər ikimizdə təkcə yumor hissi eyni deyil. Sonradan aydınlaşdığı kimi, Rey və ata-Xose ordunun eyni bölüyündə xidmət ediblər. Yəni atalarımız da dost oldu. Xose mühəndis təhsili alır. Ailəsində o, kollecə daxil olmuş ilk adamdır. Qabiliyyətli oğlandır, lakin onun əsl istedadı fotodur. O, yaxşı kadrları seçə bilir.

- Təzə xəbər var. – Onun dodağı qaçır, tünd gözləri işıldayır.

- Demək istəyirsən ki, səni hələ də universitetdən qovmayıblar? – deyə onu cırnadıram və o, yalandan üz-gözünü turşudur.

- Gələn ay Portlend qalereyasında fotolarımın sərgisi keçiriləcək.

- Əla! Təbrik edirəm! – sevincdən onu yenidən bağrıma basıram.

Keyt də işıldayır.

- Sükanı belə saxla, Xose! Mən mütləq qəzetdə bu haqda yazacam. Ah, Cümə günü, son dəqiqədə qəzetdə redaktor dəyişikliyini etməyi necə də sevirəm! – deyə o gülür.

- Bunu qeyd eləmək lazımdır. Səni açılışa dəvət edirəm. – Xose diqqətlə mənə baxır. Qızarıram. – Hər ikinizi, əlbəttə, – deyə o, Keytə baxaraq əlavə edir.

Xose ilə yaxın dostuq, hərgah zənnimcə, o, münasibətlərimizdə bundan artığını istərdi. O, xoşrəftar və zəkalı oğlandır, amma mənim üçün o


www.kitabyurdu.blogspot.com

qardaş kimidir. Ketrin tez-tez mənə lağ edir, deyir ki, məndə boyfrend tələbatına cavab verən gen yoxdur, əslində isə rastıma elə bir adam çıxmayıb ki... xoşuma gəlsin. Hərgah qəlbimin dərinliklərində dizlərin titrəməsini, ürəyin sinədən qopmasını başgicəllənməni və yuxusuz gecələri hey arzulayıram.

***

Bəzən düşünürəm: bəlkə, problem məndədir? Bəlkə, romantik qəhrəman qadınların cəmiyyətində çox vaxt keçirmişəm və indi şişirdilmiş gözləntilərim var? Əfsus, heç kim, heç vaxt məndə bu cür duyğular oyatmayıb.

‒Yaxın vaxtlara qədər‖, – deyə təhtəlşüurum güclə eşidiləcək tərzdə pıçıldayır. Yox! Mən xatirələri basdırmağa çalışıram. Heç nə haqda düşünməyəcəm... düşünməyəcəm! Üstəlik bu dəhşətli müsahibə! ‒Siz geysiz, mister Qrey?‖ – xatirələrdən əzilib-büzülürəm. Hə, görüşümüzdən sonra, az qala, hər gecə yuxuma girir… hərgah zəhlətökən düşüncələrdən xilas olmağa çalışıram, deyilmi?

Mən Xosenin şampan şüşəsini necə açdığına baxıram. O ucaboydur, futbol köynəyi və cins şalvar onun enli kürəklərini və möhkəm əzələlərini şax saxlayır; dərisi əsmərdir, tünd saçları var, qaraqaş-qaragözdür. Hə, Xose əla oğlandır, amma məncə, o çoxdan anlayıb ki, biz sadəcə dostuq, vəssalam. Tıxac gurultulu şappıltıyla havaya atılır, Xose mənə baxır və gülümsəyir.

***

ġənbə günü mağazada sadəcə dəhşətdir iynə atsan, yerə düşməz. Öz evini təmir etmək istəyən bacarıqlı izdiham bizi gözləyir. Mister və missis Kleyton, Con və Patrik – daha iki tələbə və mən əldən düşürük. Nahar fasiləsinə yaxın sakitlik çökür və nə qədər ki mən kassa ilə yanaşı piştaxta

arxasında, tələsmədən beyqli yeyə-yeyə oturmuşam, missis Kleyton məndən sifarişləri yoxlamağı xahiş edir. Bizə gərəkli malların kataloq nömrələrini və sifariş verdiklərimizi yoxlamaq lazımdır. Onların uyğunluğunu yoxladıqca baxışlarım sifariş blankından kompüter monitoruna qədər qalxıb-enir və əksinə. Buna görə də başımı qaldırıram... Kristian Qreyin boz, özünə inamlı gözlərini görürəm, onlar diqqətlə piştaxta tərəfə – mənə zillənib.

Ürəyim yerindən qopur.

– Miss Stil, nə xoş təsadüf. – O, gözlərini kənara çəkməyi belə düşünmür.

Lənət şeytana! O, bura necə gəlib çıxıb, həm də bu səfər geyimində: uzanmış saçlar, kobud toxumalı sviter, cins şalvar və turist botları? Ağzım açıla qalıb və başımda bircə fikir belə qalmayıb.

– Mister Qrey, – deyə pıçıldayıram, çünki başqa heç nəyə qabil deyiləm.

Onun dodaqlarından təbəssümün kölgəsi keçir, gözləri gülüşdən parlayır, sanki o yalnız özünün anladığı bir zarafatdan həzz alır.

– Mən təsadüfən yaxınlıqdan keçirdim və bir az alış-veriş etmək qərarına gəldim. Sizi bir daha görməyə şadam, miss Stil.

Onun hərarətli və asta səsi isti qara şokolad kimi… ya da buna bənzər bir şey kimi içimə axır.

Fikrimi cəmləmək üçün başımı silkələyirəm. Qəlbim quduz ritmlə döyünür, boz gözlərin diqqətli baxışından nədənsə sifətim lalə rənginə boyanır. Onun varlığından dilim tutulur. Əvvəllər mənə elə gəlirdi ki, o, sadəcə yaraşıqlıdır. Amma belə deyilmiş. Kristian Qrey cazibədar, füsunkardır, onun gözəlliyi adamın ağlını başından alır. Və o burada dayanıb, ―Kleytons‖ inşaat materialları mağazasında. İşə bir bax! Nəhayət ki, mənə düşünmək qabiliyyəti qayıdır.

– Ana, adım Anadır, – deyə donquldayıram. – Sizə necə kömək edə bilərəm, mister Qrey?

O yenə də elə gülümsəyir ki, sanki böyük bir sirri faş edib. Dərindən nəfəs alaraq, özümə peşəkar görkəmi verirəm – ―yüz-il-diki bu ma-ğa-za-da da iş-lə-yir-əm‖. Məndə alınır.

– Əvvəlcə mənə kabel qarmaqlarını göstərin, – deyir. Boz gözlərin baxışları təmkinli, lakin düşüncəlidir.

Kabel qarmaqları?

– Bizdə müxtəlif ölçülü qarmaqlar var. Sizə göstərim? – deyə qırıq səslə cavab verirəm və özümə əmr edirəm: ―Özünü cəmlə, Stil‖.

Mister Qreyin gözəl qaşları bir qədər çatılır.

– Hə, göstərin, miss Stil, – deyə o cavab verir.

Mən piştaxta arxasından çıxır, özümü heç nə olmamış kimi aparmağa çalışıram, lakin fikrimdə yalnız bir şey var: bircə yıxılmayım. Ayaqlarım qəfildən jeleyə çevrilib. Nə yaxşı ki, bu gün ən yaxşı cins şalvarımı geyinmişəm.

– Bu, elektrik malları arasındadır, səkkizinci cərgədə. – Səsim lazım olduğundan da sevincli səslənir. Ona baxıram və dərhal peşman oluram. Lənət şeytana, o necə də gözəldir!

– Yalnız sizdən sonra, – Qrey misilsiz manikürlü əli ilə mənə dəvətedici jest edərək deyir.

Nəfəs almaq çətinləşir: ürəyim düz boğazımdadır və bir az da keçsə, ağzıma gələcək. Seksiyalar arasından elektrik malları bölməsinə keçirəm. O, Portlenddə necə peyda olub? ―Kleytons‖da ona nə lazımdır? Təfəkkürümün çox kiçik, yüklənməmiş küncü xəbərdarlıq edir: ―O, sənə görə burdadır‖. Yox, boş sözdür, ola bilməz! Bu yaraşıqlı, zəngin kübar davranışlı adamın nəyinə lazımam? Fikir mənə ağılsız görünür və mən onu başımdan atıram.

– Portlendə işinizlə bağlı gəlmisiniz? – deyə cingiltili səslə soruşuram, sanki barmağım qapı arasında qalıb.

―Lənət şeytana! Ana! Sakitləşməyə çalış! – deyə özümə təlqin edirəm.


www.kitabyurdu.blogspot.com

– Vaşinqton Universitetinin Vankuverdə yerləşən eksperimental fermasına baş çəkmişdim. Mən növbəli əkin və torpaqşünaslıq sahəsində bəzi tədqiqatları maliyyələşdirirəm, – deyə o, laqeydliklə cavab verir.

–Görürsən də? Heç də səni tapmaq üçün gəlməyib‖, – deyə mənə gülür təhtəlşüurum; ucadan, qürurla və narazı halda. Mən başımdan səfeh, dəvətsiz fikirləri atıram.

– Bu, sizin dünya ərzaq planınızın bir hissəsidir?

– Nəsə buna bənzər, – deyə Qrey etiraf edir və onun dodaqları yarıtəbəssümlə əyilir.

O, mağazamızdakı kabel qarmaqlarına göz gəzdirir. Onlarla nə etmək fikri var? O, ev ustasına heç bənzəmir. Onun barmaqları rəfə qoyulmuş bağlamalara toxunur və hansısa izaholunmaz səbəblə mən buna baxa bilmirəm. Qrey əyilir və paket seçir.

– Bax bunlar yarayar, – deyir o, qəsdçi təbəssümlə gülümsəyir.

– Daha nəsə götürəcəksiniz?

– Hə, mənə izolent lazımdır.

– Təmir aparırsınız? – Sözlər düşüncəmdən qabağa keçir. Əlbəttə, o, fəhlə tuta bilməz, həm də yüzə-yüz onun bu işlər üçün xüsusi şöbəsi var.

– Bu, təmir üçün deyil, – deyə o, cavab verir və mən ürpənti ilə anlayıram ki, o mənə gülür.

Mənim haram gülməlidir ki? Zövqsüz geyinmişəm?

– Bura zəhmət olmazsa, – deyə xəcalət çəkərək donquldanıram. – İzolent təmir malları olan sıradadır.

Qrey arxamca gəlir.

– Burda çoxdan işləyirsiniz?

Niyə onun varlığında bu qədər qayğılanıram? Özümü ön dörd yaşlı qız kimi hiss edirəm – naqolay və yad. Qəddini düzəlt, Stil!

– Dörd ildir.

Biz gəlib çıxdıq. Yayınmaq üçün əyilirəm və mağazamızda olan iki izolent dolamasını üzə çıxarıram.


www.kitabyurdu.blogspot.com

– Mən bax bunu götürəcəm, – Qrey ona uzatdığım enli izolenti göstərərək incə tərzdə deyir. Barmaqlarımız bir anlığa bir-birinə toxunur və mən yenidən elektrik cərəyanının qığılcımını hiss edirəm, sanki odlanmış naqilə toxunmuşam. İmpulsun bədənimdən necə keçdiyini duyuram və qarnımın dərinliklərində yox olur, acizliklə tarazlığımı yerinə qaytarmağa cəhd edərək ixtiyarsız olaraq nəfəsimi içimə çəkirəm.

– Daha nəsə götürəcəksiniz? – deyə xırıltılı səslə qəfildən maraqlanıram.

Onun gözləri azca genişlənir.

– Yəqin ki, kəndir, – elə mənim kimi xırıltı ilə tələffüz edir o.

– Bura zəhmət olmasa. – Utancaqlığımı gizlətmək üçün başımı əyirəm və keçidlə gedirəm. – Nə cür kəndir? Bizdə sintetik və natural lifdən var… ciyə… qaytan…

Onun parlaqlığı azalmayan gözlərinin baxışları altında susuram. Lənət şeytana!

– Təbii lifdən olandan beş arşın kəsin, zəhmət olmasa.

Titrəyən barmaqlarımla xətkeş götürüb beş arşın ölçürəm, öz üzərimdə odsaçan baxışları hiss edirəm. Gözlərimi qaldıra bilmirəm. Aman Tanrım, niyə bu qədər titrəyirəm? Cins şalvarın arxa cibindən dəftərxana qayçısını çıxararaq kəndiri kəsirəm və əvvəlcə sürüşkən ucunu düyünləmədən onu dolayıram. Hansısa möcüzə ilə barmağımı cızmamağa çalışıram bu zaman.

– Siz skaut düşərgəsində olmusunuz? – deyə o soruşur və onun hissiyyatlı dodaqları heyrətdən əyilir. –Onun ağzına baxma!‖– deyə özümə əmr edirəm.

– Yox, hərbi-səhra oyunları mənlik deyil, mister Qrey.

O, qaşlarını qaldırır.

– Bəs nəyi xoşlayırsınız, Anasteyşa? – incə səsdə gizli istehza hiss olunur.

Heç bir söz deməyə qabil olmadan baxışlarımı ona doğru qaldırıram. ―Çalış, özünü ələ ala biləsən, Ana‖, – deyə demək olar ki, yalvarır hissiyyatlı təhtəlşüur.

– Kitablar, – deyə pıçıldayıram, lakin qəlbim ona bunu demək üçün yerindən qopmağa hazırdır: ―Siz! Xoşuma gələn sizsiniz!‖ Mən dərhal bu fikri kənara atıram, daxili ―mən‖imə çox uzağa getdiyinə imkan verdiyimdən dəhşətə gələrək.

– Nə cür kitablar? – O, başını yana əyir.

Ona nə?

– E-e-e, adi klassika, əsasən Britaniya ədəbiyyatı.

Qrey sanki cavab barədə düşünərək uzun şəhadət barmağı ilə çənəsini qaşıyır. Böyük ehtimalla, onunçün bu, sadəcə darıxdırıcıdır və o, sadəcə, bunu gizlətməyə çalışır.

– Sizə daha nəsə lazımdır? – Mövzunu dəyişmək lazımdır: üzə toxunan barmaqlar fikrimi dəhşətli dərəcədə yayındırır.

– Heç bilmirəm. Nə məsləhət görərdiniz?

―Axı mən necə məsləhət verə bilərəm? Axı mən nə işlə məşğul olmanız barədə bircə şey bilmirəm‖, – az qala dodaqlarımdan qopacaqdı, amma ucadan bunu deyirəm:

– Nəsə düzəltmək fikrindəsiniz? – Sifətim allanır və baxışlarım nədənsə öz-özünə onun cins şalvarına doğru enir. – Fəhlə kombinezonu alın, – deyə davam edirəm, anlayaraq ki, artıq sözlərimə nəzarət edə bilmirəm.

O qaşlarını qaldırır: görünür, yenidən onu güldürmüşəm.

– Paltarı bulaşdırmamaq üçün. – Mən onun cins şalvarına yönəlik qeyri-müəyyən jest edirəm.

– Onu hər zaman çıxarmaq olar, – deyə Qrey gülümsəyir.

– Hmm. – Hiss edirəm ki, yanaqlarım yenə də allanır. Yəqin, mən indi Kommunist Partiyasının Manifesti rəngindəyəm. ―Bəsdir çərənlədin. Dərhal dayandır gəvəzəliyi‖, – deyə təhtəlşüur əmr edir.

– Bir cüt kombinezon götürərəm. Yoxsa Tanrı göstərməsin, paltarımı bulaşdıraram, – üzündə heç bir ifadə olmadan deyir o.


www.kitabyurdu.blogspot.com

Mən Kristian Qreyi cins şalvarsız təsəvvürümə gətirirəm və dərhal bu təsəvvürdən xilas olmağa çalışıram.

– Daha nəsə?.. – deyə cingildəyirəm bir cüt göy kombinezonu ona uzadaraq.

O, sualıma əhəmiyyət vermir.

– Müsahibə ilə işlər necə gedir?

Nəhayət ki, normal sual, heç bir eyham olmadan və cavab verə biləcəyim sual. Mən ondan möhkəm, hər iki əllə yapışıram, xilasedici sal kimi və doğru-düzgün cavab verirəm:

– Müsahibəni mən yox, Ketrin yazır. Miss Kavana. Mənim otaq yoldaşım, gənc jurnalist. O, tələbə qəzetinin redaktorudur və sizdən şəxsən müsahibə ala bilmədiyi üçün çox qayğılanmışdı. Məyus olmuşdu. – Onun ikibaşlı qeydlərindən, nəhayət ki, qurtulmağıma çox sevinirəm. – Müsahibə əla alınıb, amma Keyt çox təəssüflənir ki, onda sizin fotoşəkliniz yoxdur.

Qrey qaşlarını qaldırır.

– Ona nə cür fotoşəkil lazımdır?

Gözlənilməz sualdır. Başımı yelləyirəm, çünki cavabı bilmirəm.

– Yaxşı, mən hələ burdayam. Bəlkə sabah … – o susur.

– Siz foto-sessiyaya razısınız? – yenidən ciyildəyirəm. Keyt xoşbəxtlikdən göyün yeddinci qatında olacaq, bu işi təşkil edə bilsəm. ‒Və sən sabah yenidən onu görə biləcəksən‖, – təhtəlşüurun qaranlıq bucağı astaca pıçıldayır. Mən bu səfeh, məntiqsiz fikri başımdan atıram.

– Keyt çox sevinəcək… əgər biz fotoqraf tapsaq, əlbəttə. – Özümdən razıyam ki, qulaqlarımın dibinə kimi qızarıram.

Qrey ağzını açır, sanki nəfəsi çatmır və kirpiklərini döyür. Hansısa anda özünü itirmiş kimi görünür. Yer kürəsi öz oxu ətrafında fırlanır və tektonik təbəqələr öz yerindən tərpənir.

Aman Tanrım! Deyəsən, Kristian Qrey karıxıb.

– Sabahla bağlı mənə məlumat verin. – O, arxa cibindən cüzdanını çıxarır və mənə vizit kartını uzadır. – Kartımı götürün. Bu, mobil telefonun nömrəsidir. Sabah saat ona kimi zəng edin.

– Yaxşı. – Cavab verərkən gülümsəyirəm. Keyt sevindiyindən uçacaq.

– Ana!

Keçidin o biri başında Pol görünür – mister Kleytonun kiçik qardaşı. Eşitmişəm ki, o Pristondan qayıdıb, amma onu bu gün görəcəyimi gözləmirdim.

Polla həmişə dost olmuşuq və indi qarşımda zəngin, möhtəşəm, son dərəcə cazibədar, hər şeyi nəzarətində saxlamağa öyrəşmiş Kristian Qreyin durduğu anda normal bir insanla danışmağa böyük ehtiyac var. Pol məni qəfil yaxalayır və möhkəm qucaqlayır.

– Ana, salam, səni görməyə çox şadam! – deyə o, coşquyla qışqırır.

– Xoş gördük, Pol! Nə var, nə yox? Qardaşının ad gününə gəlmisən?

– Hə. Sən çox gözəl görünürsən, Ana, – əl uzunluqdakı məsafədən məni nəzərdən keçirib gülümsəyir. Sonra məni özündən aralayır, lakin əlini çiynimdə saxlayır. Utandığımdan bir ayağımı götürüb, o birini qoyuram. Pol yaxşı oğlandır, ancaq bir qədər nəzakətsizdir.

Mən baxışlarımı yenidən Kristian Qreyə yönəldirəm: o, bizə baxır qırğı kimi: boz gözlər aşağı endirilib və düşüncəlidir, dodaqlar kip bağlanıb. Qarşımdakı artıq diqqətli alıcı deyil, başqa biridir – soyuq və uzaq adam.

– Pol, mən müştəri ilə məşğulam. Onunla tanış olmalısan, – deyirəm Qreyin gözlərindəki düşmənçiliyi yox eləməkdən ötrü. Polu onun yanına aparıram və onlar bir-birini baxışları ilə dəyərləndirirlər. Atmosfer – sadəcə buzlaq.

– Pol, bu, Kristian Qreydir. Mister Qrey, bu Pol Kleytondur, mağaza sahibinin qardaşı.

Özüm də anlamadan sonrakı izahlara ehtiyac duyuram.

– Biz çoxdan tanışıq, burda işlədiyim vaxtdan... ancaq az-az görüşürük. Pol Prinstoin Universitetində menecment ixtisasına yiyələnir, – deyə kəkələyirəm. ―Sus, bəsdir!‖

– Mister Kleyton. – Kristian əlini uzadır, lakin üzündəki ifadədən heç nə anlamaq olmur.


www.kitabyurdu.blogspot.com

– Mister Qrey – Pol onun əlini sıxır. – Bir dəqiqə, siz həmin Kristian Qreysiz? –Qrey enterprayzes‖in başçısı? – Bir saniyədə Polun üzündəki düşmənçilik ehtiramlı həyəcanla əvəz olunur. Qrey nəzakətlə gülümsəyir, lakin gözləri hələ də soyuqdur. – İşə bir bax! Sizə nəyləsə kömək edə bilərəmmi?

– Anasteyşa artıq hər şeyin öhdəsindən gəlib. O, çox diqqətcil idi. – Zahirən o, çox sakitdir, lakin sözləri … sanki o, nəsə başqa bir şeyi nəzərdə tutur. Mən tam karıxmışam.

– Əla, – Pol dillənir. – Görüşərik, Ana.

– Əlbəttə, Pol, – mən onun yardımçı anbarın qapısı arxasında necə itdiyini izləyirəm. – Daha nəsə istərdinizmi, mister Qrey?

– Yox, bəsdir. – Kəsik-kəsik və soyuq danışır. Lənət şeytana! Xətrinə dəymişəm? Dərindən ah çəkib çönür və kassaya tərəf gedirəm. Ona nə olub?

Kəndir, kombinezonlar, izolent və kabel qarmaqlarının haqqını kassaya vururam.

– Hamısı bir yerdə qırx üç dollar. – Yaxşı olardı ki, ona baxmayım. O, diqqətlə məni süzür, boz gözlər diqqətcil və dumanlıdır. O dəqiqə özümü pis hiss edirəm.

– Paket lazımdır? – deyə ondan kredit kartını alaraq soruşuram.

– Hə, Anasteyşa. – Onun dili adımı sığallayır və ürəyim yenidən bərkdən döyünür. Bir qədər nəfəs alıb alınmış malları plastik paketə qoyuram.

– Sizə fotoşəkillər lazım olarsa, mənə zəng edəcəksiniz? – O, yenidən işgüzar tonda danışır.

Nitq qabiliyyətimi növbəti dəfə itirərək başımı yelləyirəm və kredit kartını ona uzadıram.

– Yaxşı. Güman ki, sabaha qədər. – O çıxıb getmək üçün çönür, sonrasa ayaq saxlayır. – Hə, bir də… bilirsinizmi, Anasteyşa, mən şadam ki, miss Kavana müsahibəyə gələ bilmədi.

O gülümsəyir və geniş qərarlı addımlarla çıxışa doğru gedir, içimdə saysız-hesabsız dəlisov qadın hormonlarını cuşa gətirərək. Mən bir neçə dəqiqə bağlanmış qapıya baxıram, onun indi çıxıb getdiyi planetinizə yenidən qayıdışınadək.

Yaxşı, etiraf eləmək lazımdır, o xoşuma gəlir. Bundan sonra riyakarlıq eləmək mənasızdır. Mən əvvəllər heç vaxt belə hisslər keçirməmişəm. O çox, çox yaraşıqlıdır. Amma bu, ümidsiz işdir, bilirəm və eyni zamanda acı və şirin təəssüflə ah çəkirəm. Onun bura gəlişi, sadəcə, təsadüfdür. Amma kimsə mənə ona uzaqdan məftun olmağı qadağan eləmir, axı bu da doğrudur? Bu, mənimçün qorxulu deyil. Əgər fotoqraf tapsam, onda sabah pərəstiş etdiyim adamı görə bilərəm. Xəyalın həzzindən dodağımı dişləyirəm və məktəbli qız kimi səfehcəsinə gülürəm. Keytə zəng etmək və fotosessiya təşkil eləmək lazımdır.

## 3-cü fəsil

Keyt ekstazdadır.

– ―Kleytons‖da ona nə lazım idi?

Onun marağı telefon dəstəyindən çölə sızır. Mən yardımçı anbarda dayanıb sanki heç nə olmayıbmış kimi danışıram.

– Təsadüfən mağazanın yanından keçirmiş.


www.kitabyurdu.blogspot.com

– Təsadüflər nədənsə yaman çoxdur, Ana. Bəlkə səni axtarırmış? – deyir o, mənalı tərzdə.

Bu fikrin özündən qəlbim yerindən atılır, lakin sevincim uzun çəkmir. Nə qədər kədərli olsa da, etiraf etmək lazımdır: Qrey işlə bağlı gəlmişdi.

– O, Vaşinqton Universitetinin eksperimental fermasına baş çəkib. Orada hansısa tədqiqatları maliyyələşdirir, – deyə mızıldanıram.

– Hə, o, universitet üçün iki milyon dollarlıq qrant ayırıb.

Oho!

– Hardan bilirsən?

– Ana, mən jurnalistəm, onun haqqında məlumatlar toplamışam. Belə şeyləri bilmək mənim işimdir.

– Yaxşı, Karl Bernstayn,[1] sakitləş. Sənə fotoşəkillər lazımdır?

– Əlbəttə. İndi məsələ onları kimin və harada çəkməsidir?

– Biz bunu soruşa bilərik. O indi burdadır.

– Onunla əlaqə yarada bilərsən?

– Məndə onun mobil telefonunun nömrəsi var.

Keyt dərindən ah çəkir.

–Vaşinqton ştatının ən zəngin, əlçatmaz, ən şən, ən sirli subayı elə-belədən sənə öz mobil telefonunun nömrəsini verib?

– Hə.

– Ana! Sən onun xoşuna gəlirsən. Bu yüzə-yüzdür, – o, əminliklə deyir.

– Keyt, bu, sadəcə, lütfkarlıqdır.

Sözümü tamamlamamış anlayıram ki, bu yalandır.

Lütfkarlıq Kristian Qreyin xarakterinə xas deyil. O, sadəcə nəzakətlidir. Və kiçik, sakit səs pıçıldayır: ola bilsin ki, Keyt haqlıdır. Bu

---

[1] Uoterqeyt qalmaqalı ilə bağlı yazıları ilə tanınan ünlü amerikalı jurnalist (*tərc.*)


www.kitabyurdu.blogspot.com

fikirdən tüklərim biz-biz durur. Axı o dedi: ―gadam ki, Keyt müsahibəyə gəlmədi‖. Səssiz coşquda əllərimi belimə qoyub bir yandan o biri yana hərəkət edirəm, doğrudan da, az müddətə olsa da, onun xoşuna gəldiyim haqda özümü inandırıram. Keyt məni gerçəyə qaytarır.

– Amma bizim fotoqrafımız yoxdur. Levi məhz bu istirahət günləri evinə yollanıb, Aydaho_Folza. Tanınmış Amerika sənayeçilərindən birinin fotosunu çəkə bilmək şansını əlindən buraxdığını bilsə, o, çox pərt olacaq!

– Hm… Bəlkə Xosedən xahiş edək?

– Ağıllı fikirdir! Ondan xahiş elə, sənin üçün nə desən, edər. Sonra Qreyə zəng edərsən, öyrən, onun üçün hara münasibdir. – Xose ilə bağlı məsələdə Keyt çox təklifsizdir.

– Məncə, sən özün ona zəng eləməlisən.

– Kimə, Xoseyə? – deyə Keyt məni ələ salır.

– Yox, Qreyə.

– Ana, onun xoşuna gələn sənsən.

– Xoşuna gələn? – səsim bir neçə oktava yüksəlir. – Biz elə təzəcə tanış olmuşuq.

– Axı, hər halda, onunla söhbət eləmisən, – deyə Keyt pərtliklə cavab verir. – Və belə görünür ki, o səninlə yaxından tanış olmaq istəyir. Ana, sadəcə, ona zəng et, vəssalam, – o, amiranə tonla deyir ədayla və dəstəyi asır. Onda hərdənbir liderliyə meyil peyda olur. Mən telefona baxaraq qaşqabağımı sallayır və ona dil çıxarıram.

Xoseyə ismarıc göndərər-göndərməz Pol anbara daxil olur. Ona sumbata kağızı lazımdır.

– Ana, müştəri əlindən iynə atmağa yer yoxdur.

– Üzr istəyirəm, – deyə getmək üçün çevrilirəm.

– Kristian Qreylə harda tanış olmusan? – deyə Pol qəsdən saymazyana soruşur.

– Keyt xəstələndikdə bizim tələbə qəzeti üçün ondan müsahibə götürmüşəm.

Sözlərin təbii səslənməsi naminə çiyinlərimi çəkirəm, amma Poldan fərqli olaraq məndə bu, yaxşı alınmır.

– Kristian Qrey –Kleytons‖da. İşə bir bax! – O, qəribə bir tərzdə fısıldayır və başını yelləyir. – Yaxşı. İstəyirsən bu gün birlikdə harasa gedək?

Hər dəfə Pol evə qayıtdıqda məni görüşə dəvət eləyir və mən də hər dəfə təklifdən imtina edirəm. Bu artıq ənənə halını alıb. Pol jurnal üzlüyündəki tipik amerikalı oğlan təsiri bağışlayır, amma o, ədəbi qəhrəmanlarla əsla oxşar deyil, onu bu görkəmdə nə qədər təsəvvür etməyə çalışsam da. Bəs Qrey? – deyə təhtəlşüur sanki qaşlarını çataraq məndən soruşur. Mən tez onun ağzını bağlayıram.

– Məgər bu gün qardaşının ad gününü qeyd etməyəcəksiniz?

– Sabah.

– Gələn dəfəyə qalsın, Pol. Gələn həftə buraxılış imtahanlarım var, məşğul olmalıyam.

– Ana, sən nə vaxtsa mənə –hə‖ deyəcəksənmi! – O gülümsəyir, mən isə ticarət zalına qaçmaqla Poldan qurtuluram.

***

– Ana, mən interyerlərin fotosunu çəkirəm, portretlər deyil, – deyə Xose inləyir.

– Xose, xahiş edirəm. – Telefonu sıxaraq addımlarımla mənzilimizin qonaq otağını ölçürəm və pəncərədən axşamın qaralan işığına baxıram.

– Telefonu mənə ver.

Keyt mobil telefonu əlimdən alır, ipək qızılı saçlarını çiyninin arxasına aşırır.

– Qulaq as, Xose, Xose Rodriges, əgər bizim qəzetdə sənin sərginin açılışı haqqında reportajın dərc edilməsini istəyirsənsə, sabah çəkilişdə olmalısan, anladın? – Keyt istəyinə nail olmağı bacarır. – Yaxşı. Ana sənə zəng edib deyəcək harda və nə vaxt. Sabahadək. – O, telefonu qapadır. –

Məsələni həll etdik. Qaldı bircə yeri və saatı danışmaq. Ona zəng elə. – Keyt telefonu mənə uzadır. Qarnım sancılanır. – Elə indi zəng elə.

Hirsli baxışlarımı ona zilləyir və əlimi şalvarımın arxa cibinə salıram. Vizit kart üçün. Dərindən nəfəs alaraq titrəyən barmaqlarımla nömrəni yığıram.

O, ikinci zəngə cavab verir. Səsi sakit və soyuqdur.

– Qreydir.

– E… mister Qrey? Bu Anasteyşa Stildir. – Öz səsimi tanımıram. Qısa pauza. Bu, sadəcə, dözülməzdir. Ürəyim əsir.

– Miss Stil. Sizin səsinizi eşitməyimə şadam. – Səsin ahəngi dəyişir. Deyəsən, o təəccüblənib; səsdə hərarət duyulur… və hətta nəvaziş. Nəfəsim kəsilir, mən qızarıram. Qəfildən anlayıram ki, Ketrin Kavana ağzı açılı halda mənə baxır, onun nüfuzedici baxışlarından yayınmaq üçün mətbəxə qaçıram.

– Mən müsahibə üçün fotosessiyaya görə zəng eləmişəm. – ―Ana, nəfəs al, nəfəs al‖. Ciyərlərim təlaşla havanı özünə çəkir. – Sabah, əgər siz məşğul deyilsinizsə, nə vaxt desəniz, ser?

Mən, demək olar ki, sfinksin təbəssümünü görürəm.

– Portlenddə ―Hitman‖ otelində qalıram. Hə, gəlin, təxminən sabah səhər, onun yarısında görüşək bəlkə?

– Yaxşı, biz gələrik. – Sevincdən özümdə deyiləm. Vaşinqton ştatının qanununa görə səsvermə və alkoqol alma hüququ olan həddi-büluğa çatmış, yetkin bir qadın kimi deyil, lap kiçik qızcığaztək.

– Yolunuzu intizarla gözləyirəm, miss Stil. – Onun gözlərindəki təhlükəli sayrışmanı təsəvvürümə gətirirəm. Görəsən, beşcə kəlməyə əzabverici tovlamanı o necə bacarır? Mən özümdən gedirəm. Keyt artıq mətbəxdədir və üzündəki diqqətli ifadə ilə məni süzür.

– Anasteyşa Rouz Stil. O xoşuna gəlir! Sənin kiməsə bu cür münasibətini heç vaxt görməmişəm. Əməlli-başlı qızarmısan.

– Di bəsdi, Keyt, mən həmişə qızarıram. Bu vərdişimdir. Özündən hoqqa çıxarma, – deyə dişlərimi qıcırdıram. – Sadəcə, onun yanında özümü dəhşətli dərəcədə naqolay hiss edirəm, vəssalam.

– ―Hitman‖... bu, məni rahatladır, – deyə Keyt donquldanır. – Menecerə zəng etmək və fotoçəkiliş yeri barədə razılaşmaq gərəkdir.

Mən şam yeməyini hazırlayım, sonra imtahanlara hazırlaşmalıyam. – Qıcığımı gizlədə bilməyib yemək hazırlamaqdan ötrü bufeti açıram.

***

Gecə pis yatır, bir böyürdən o birinə çevrilirəm. Yuxuma dumanlı boz gözlər, kombinezonlar, uzun ayaqlar, incə barmaqlar və qaranlıq, naməlum yerlər girir. İki dəfə yuxum yarıda qalır, çünki qəlbim bərkdən döyünür, sinəmdən atılıb düşmək istəyir. Yuxusuz gecədən sonra səhər necə də pis görünəcəyəm! Mən balışı döyəcləyir və nəhayət, yerimi rahatlamağa çalışıram.

***

―Hitman‖ oteli Portlendin düz göbəyində özünə rahat yer tapıb. Çəhrayı daşdan olan bu möhtəşəm bina 1920-ci illərin sonunda, iflas ərəfəsində tikilib. Xose, Trevis və mən öz ―Böcəy‖imdə yol gedirik, Keyt isə öz ―SLK‖-sında, çünki mənim maşınıma hamımız yerləşə bilmədik. Trevis – Xosenin dostu və köməkçisidir, o, işığı quraşdıracaq. Keyt ―Hitman‖la razılaşa bilib ki, çəkiliş üçün bizə otaq ayırsınlar, əvəzində isə qəzetdə otelin adı xatırlanacaq. O, resepşna izah verəndə ki, biz məşhur sahibkar Kristian Qreyin fotoşəkillərini çəkməyə gəlirik, bizə dərhal lüks nömrə verdilər. Adi ölçülü lüks, çünki ən böyük otağı, görünür, mister Qreyin özü tutub. İnzibatçı bizə otaqları göstərir, o çox gəncdir və nədənsə çox təlaşlanır. Böyük ehtimalla Keytin gözəlliyi və amiranə tərzləri ona təsir

edib, çünki o, heykəltəraşın əlindəki gil kimi Keytə itaət edir. Otaqlar yaraşıqlı və mebellə zövqlü bəzədilib.

Saat doqquzdur. Bizim hələ yarım saatımız var. Keyt bütün varlığı ilə iş başındadır.

– Xose, məncə, onun şəklini divarın fonunda çəkmək lazımdır, mənimlə razısan? – Keyt cavabı gözləmir. – Trevis, stulları götür. Ana, qulluqçuya zəng elə... zəhmət olmasa, de ki, içkilər gətirsin. Qreyə də de ki, biz artıq burdayıq.

Bunun əmr verməyinə bax!.. Mən gözlərimi süzürəm, amma əmr ediləni icra edirəm.

Yarım saat sonra Kristian Qrey otağımıza daxil olur.

Paho! Onun əynində ağ köynək var, yaxalığı açıq və ombalarına oturan boz, flanel şalvar. Dağınıq saçları duşdan sonra da nəmdir. Mən ona baxıram və ağzım quruyur. O, dəhşətli dərəcədə seksualdır. Qreyin arxasınca təxminən otuz beş yaşlı, tüklü və saçları qısa kəsilmiş bir kişi içəri girir, onun əynində tünd-qara kostyum və qalstuk var. Sakitcə küncdə dayanır. Qonur gözləri bizi izləyir.

- Sizi görməyə şadam, miss Stil – Qrey əlini uzadır və mən onu sıxıram, gözlərimi döyə-döyə. Ah… o… heyranlıqdan donub-qalmışam. Onun əlinə toxunuram, hiss edirəm ki, bədənimdə xoş bir cərəyan gəzir, utanır və qızarıram. Yəqin ki, mənim əsəbi tənəffüsümü ətrafdakıların hamısı eşidir.

- Misrer Qrey, bu Ketrin Kavanadır. – İrəli çıxaraq düz onun gözlərinə baxan Keytə sarı jest edərək donquldanıram.

- İnadkar miss Kavana. Necəsiniz? – O, xoş üzlə gülümsəyir. – Əminəm, yaxşılaşmısınız? Anasteyşa dedi ki, keçən həftə xəstələnmişdiniz?

- Hər şey qaydasındadır, çox sağ olun, mister Qrey. – Heç gözünü də qırpmadan Keyt onun əlini sıxır.

Keyt Vaşinqton ştatının ən yaxşı liseyində təhsil alıb. Onun varlı valideynləri var və o, özünə və dünyadakı yerinə inamlı şəkildə böyüyüb. Mən ona pərəstiş edirəm.

- Sağ olun ki, bizim üçün vaxt tapdınız. – Keyt nəzakətlə gülümsəyir.

- Dəyməz, – deyə o, cavab verir və yenidən boz gözlərin baxışlarını mənə ərməğan edir. Üzüm yenidən allanır. Lənət şeytana!

- Xose Rodriges, bizim fotoqraf, – deyə gülümsəyərək təqdim edirəm. Xose cavab olaraq incə tərzdə gülümsəyir. Baxışlarını Qreyə yönəltdikdə onun gözləri soyuqlaşır. – Mister Qrey, – başıyla jest edir.

- Mister Rodriges. – Xoseni dəyərləndirərkən Qreyin üzündəki ifadə də dəyişir. – ġəkillərimi harada çəkmək istəyirsiniz? – Səsin ahəngi bir qədər təhdidli səslənir. Lakin Keyt baş rol mövqeyini Xoseyə vermək fikrində deyil.

- Mister Qrey, siz burada otura bilərsinizmi? Ehtiyatlı olun, naqilə dolaşmayın. Sonra biz bir neçə şəkil çəkərik. – Keyt divarın yanındakı kürsünü ona göstərir.

Trevis işıqları yandırır, Qrey bir anlığa kor olur və Trevis üzrxahlıqla donquldayır. Sonra biz Trevislə dayanıb baxırıq, Xose kameranı şıqqıldadır. O, sınaq üçün Qreydən gah bu, gah da o biri tərəfə dönməsini, biləyini qaldırmasını, sonra endirməsini rica edərək bir neçə fotoşəkil çəkir. Sonra Xose kameranı ştativə qoyur və daha bir neçə fotoşəkil çəkir, Qreysə bütün bu müddətdə – təxminən iyirmi dəqiqə – oturur və səbirlə poza verir. Arzum çin oldu – onu yaxından seyr edə bilirəm. Baxışlarımız iki dəfə toqquşur və mən onun dumanlı baxışlarından güclə yayınıram.

- Oturaq vəziyyətdə bəsdir, – deyə Keyt yenidən işə qarışır. – İndi ayaq üstə, mister Qrey, etiraz etmirsinizsə.

O, ayağa qalxır və Trevis kürsünü götürməyə tələsir. Xose yenidən öz –Nikon‖unu şaqılldadır.

- Məncə, kifayətdir, – deyir beş dəqiqə sonra o.
- Əla, – deyir Keyt. – Bir daha çox sağ olun, mister Qrey.

Keyt onun əlini sıxır, onun ardınca da Xose.

- Müsahibənin dərcini gözləyəcəm, miss Kavana, – deyə Qrey artıq qapının astanasında mızıldanır, sonra mənə sarı çönərək deyir: – Məni ötürməzsiniz, miss Stil?

- Əlbəttə, – deyirəm tamamilə karıxaraq. Keytə qayğılı nəzər salıram, o çiyinlərini çəkir. Onun arxasındakı Xose qaşqabağını tökür.

- Sağ olun, – deyir Qrey qapını açaraq və məni irəli buraxaraq.

İşə düşdük də!.. Görən nə işdir? Məndən nə istəyir? Bir ayağımın yerini o biri ilə dəyişərək astanada donub-qalıram və şıq geyimli mister ―Boks‖un müşayiəti ilə otaqdan çıxıram.

- Mən sənə zəng edərəm, Teylor, – deyir o. Teylor dəhlizlə gedir və Qrey özünün odsaçan baxışlarını mənə zilləyir. Aman Tanrım! Nəyisə səhv eləmişəm? – Mənimlə qəhvə içmək istərdiniz?

Ürəyim boğazımda ilişib qalıb. Bu görüşdür? Kristian Qrey məni görüşə dəvət edir? O soruşdu, qəhvə istəyirsənmi? ―Yəqin, ona elə gəlir ki, sən hələ yuxudan durmamısan‖, – deyə təhtəlşüurum mənə rişxənd edir.

- Mən hamını evinə aparmalıyam, – qollarımı bir-birinə dolaşdıraraq üzrxahlıq tonu ilə donquldanıram.

- Teylor, – deyə gözlənilməzlikdən yerindən atılaraq o qışqırır. Artıq uzaqlaşmış Teylor yenidən bizə yaxınlaşır.

- Onlar universitet şəhərciyində yaşayır? – deyə Qrey astaca soruşur.

Ağzımı açmaq gücündə deyiləm.

- Onları Teylor aparar – sürücüm. Bizim böyük yolsuzluq avtomobilimiz var, avadanlıq da ora yerləşər.

- Bəli, mister Qrey? – deyə Teylor heç nə olmayıbmış kimi soruşur.

- Fotoqrafı, assistenti və miss Kavananı evinə apara bilərsiniz?

- Əlbəttə, ser.

- Hə, məsələ həll edildi. İndi mənimlə qəhvə içərsiniz? – Qrey gülümsəyir, sanki sövdələşmə imzalayıb.

Mən qaşqabağımı tökürəm.

- E-e… Mister Qrey, ümumiyyətlə … Qulaq asın, onları aparmağa Teylor borclu deyil. – Qreyə becid bir baxış yönəldib deyirəm və o, hələ də


www.kitabyurdu.blogspot.com

simasının təmkinli görkəmini saxlayır. – Əgər etiraz etməsəniz, biz Keytlə maşınlarımızı dəyişərdik.

Qreyin qayğısız təbəssümündən dodaqları aralanır. Aman Tanrım… və o, otel otağının qapılarını açır. Mən içəri atılıram və Keyti Xose ilə hansısa məsələni müzakirə edən vəziyyətdə görürəm.

- Ana, sən yüz faiz onun xoşuna gəlirsən, – deyə heç bir giriş vermədən o dillənir. Xose qınayıcı tərzdə mənə baxır. – Amma mən ona etibar edirəm, – deyə Keyt əlavə edir.

Məni dinləməsi ümidi ilə əlimi qaldırıram.

- Keyt, biz maşınlarımızı dəyişə bilərikmi, sən ―Böcəy‖i götürərdin?

- Niyə?

- Kristian Qrey məni qəhvə içməyə dəvət edib.

Onun ağzı açıla qalır. Necə də füsunkar andır: Keyt danışıq qabiliyyətini itirib, dili tutulub!.. O, dirsəyimdən tutub məni qonaq otağından yataq otağına dartır.

- Ana, ona nəsə olub. Qrey yaraşıqlıdır, razıyam, amma o, təhlükəli tipdir. Xüsusilə sənin kimilər üçün.

- ―Sənin kimilər‖ nə deməkdir?

- Başa düşürsən, özünü bilməməzliyə vurma. ―Sənin kimi bakirə qızlar üçün‖ demək istəyirəm, – Keyt bir az qıcıq halda dillənir.

Mən qızarıram.

- Keyt, biz, sadəcə, qəhvə içəcəyik. Gələn həftə imtahanlarım var, hazırlaşmalıyam, buna görə də onunla uzun-uzadı oturmayacam.

Keyt dodaqlarını sıxır, sanki mənim təklifimi düşünür. Nəhayət, o, cibindən açarları çıxarır və mənə verir. Mən də öz maşınımın açarlarını ona.

- Gözləyəcəm. Ləngimə, yoxsa xilasedici komandanı ardınca göndərəcəm.

- Çox sağ ol. – Keyti qucaqlayıram.

Kristian Qrey divara söykənərək gözləyir, parlaq üzlü kişi jurnallarının üz qabığındakı manekenlər kimi.

- Vəssalam, mən qəhvə içməyə hazıram, – deyə donquldanıram; həmişəki kimi qızararaq.

Qreyin dodağı qaçır.

- Buyurun, miss Stil.

O, işarə ilə qabağa keçməyimi istəyir. Titrəyən ayaqlarımla dəhlizlə addımlayıram, başım fırlanır, qəlbim həyəcanlı əsəb ritmindədir. Mən Kristian Qreylə qəhvə içməyə gedirəm... və qəhvəyə nifrət edirəm.

Geniş dəhlizdə birlikdə liftə doğru addımlayırıq. Ona nə deyəcəm? Beynimdə ürpəntili öncəgörmə var. Nə haqda danışacağıq? Söhbət üçün hansı ümumi mövzularımız ola bilər ki?

İncə, hərarətli səs məni düşüncələrdən ayırır:

– Ketrin Kavananı çoxdan tanıyırsınız?

Aha, başlanğıc üçün asan sual.

– Birinci kursdan. O, yaxın rəfiqəmdir.

– Hm, – deyə qeyri-müəyyən tərzdə dillənir Qrey. Görən, ağlındakı nədir?

O, liftin çağırış düyməsini basır və zəng demək olar ki, ani olaraq səslənir. Qapılar açılır və biz ehtiraslı şəkildə qucaqlaşaraq yerində donub-qalmış cütlüklə qarşılaşırıq. Gözlənilməzlikdən onlar bir-birini özündən itələyir və günahkarcasına baxışlarını aşağı endirirlər. Qreylə içəri daxil oluruq.

Mən sifətimin təmkinli ifadəsini qorumağa çalışır, buna görə də döşəməyə baxıram və yanaqlarımın necə rəng alıb-verdiyini hiss edirəm. Altdan-altdan Qreyə baxıram; deyəsən, o, dodaqaltı gülür, lakin bunu yüzəyüz demək çətindir. Oğlan və qız da kəlmə kəsmir və naqolay sükut içində birlikdə birinci mərtəbəyədək enirik. Liftdə heç musiqi də yoxdur ki, bu durumdan çıxa bilək.

Qapılar açılır və təəccüblü olsa da, Qrey əlimdən tutur və uzun, sərin barmaqları arasında sıxır. Mən bədənimdən elektrik cərəyanının keçdiyini hiss edirəm və onsuz da bərkdən döyünən ürəyimin ritmi daha da sürətlənir.


www.kitabyurdu.blogspot.com

O, məni liftdən çıxarır və biz arxamızca gələn cütlüyün boğuq gülüşünü eşidirik. Qreyin dodağı qaçır.

– Bu liftlərdə daha nələr baş verir?! – deyə o donquldanır.

Biz geniş, qələbəlik holldan keçərək çıxışa doğru gedirik, lakin Qrey fırlanan qapıdan keçmir. Maraqlıdır, niyə o, əlimi buraxmaq istəmir?

May, isti bir bazar günü. Günəş işıq saçır və demək olar ki, küçədə maşın gözə dəymir. Qrey sağa dönür və dördyol istiqamətində addımlayır, burada dayanıb yaşıl işığın yanmasını gözləyirik. O, hələ də əlimi buraxmayıb. Mən küçə ilə gedirəm və Krisrtian Qrey əlimdən tutub. Hələ heç kim bu vaxtacan əlimdən tutmayıb. Tüklərim biz-biz olub, başım hərlənir. Mən üzümdəki səfeh təbəssümü o qulaqdan bu qulağa qədər silmək istəyirəm. İşıqforda ―yaşıl adamcığaz‖ – piyadalar üçün keçid işarəsi peyda olur və biz küçəni adlayırıq.

Dörd məhəlləni ötür və nəhayət, ―Portlend kofe haus‖a yetişirik, burda Qrey qapını açmaq üçün əlimi buraxır. İçəri daxil oluram.

– Hələlik masa seçin, mən qəhvə dalınca gedim. Sizə nə gətirim? – deyə o, həmişəki kimi nəzakətlə soruşur.

– Mən çay içəcəm… ―İngilis naharı‖, paketi dərhal çıxarsınlar.

Qrey qaşlarını qaldırır.

– Bəs qəhvə?

– Xoşlamıram.

O gülümsəyir.

– Yaxşı, çay, paket dərhal çıxarılsın. ġirin?

Bunu nəvazişli müraciət sanaraq özümü itirərək bir anlıq susuram. Lakin təhtəlşüur dodaqlarını sıxaraq məni gerçəyə qaytarır. Ağılsız, o soruşur, çaya şəkər qatılsın, ya yox?

– Yox, şəkərsiz. – Mən aşağı, bir-birinə dolaşmış barmaqlarıma baxıram.

– Nə yeyəcəksiz?

– Yox, çox sağ olun. – Başımı yelləyirəm və o, piştaxtaya doğru gedir.

Qrey növbədə durduğu zaman altdan-altdan onu seyr edirəm. Mən günlərlə ona baxa bilərəm. O, ucaboy, enlikürək və tökməbədəndir; görən, onun ombaları bu şalvarı onun əynində necə saxlayır… Aman Tanrım! Bir neçə dəfə o, uzun, zərif barmaqlarını artıq qurumuş, dağınıq saçlarında gəzdirir. Hm... mən özüm məmnuniyyətlə barmaqlarımı o saçlarda gəzdirərdim. Bu fikir məni coşdurur və almacıqlarım yenidən qızarır. Mən dodağımı dişləyir və yenidən aşağıya, əllərimə baxıram.

– İstəyirsiniz deyim siz indi nə haqda düşünürsünüz? – Qrey dübbədüz mənə baxır.

Mən rəng alıb, rəng verirəm. Barmaqlarımı saçlarında gəzdirmək haqda, başqa nə ola bilər ki... Bilmək istərdim ki, onlar yumşaqdır, ya yox… Başım mənfi mənada yelləyirəm. Qrey məcməyini toz ağacından olan kiçik, dairəvi masaya qoyur. O, fincanı kiçik nəlbəki ilə birgə mənə uzadır. Sonra kiçik çaydanı və ―Twinings English Breakfast‖ etiketli yeganə paketi – mənim sevimli çayım. Özü ağ köpüklü qəhvə içir. Maraqlıdır, o, bunu necə edir? – deyə bikarçılıqdan düşünürəm. Özünə mərcanı ―maffin‖ də götürüb. Məcməyini kənara qoyaraq Qrey qarşımda oturur və uzun ayaqlarını çarpazlayır. Onun davranış hərəkətləri sərbəstdir, o öz bədəninin tam sahibidir. Ona həsəd aparıram; həm də öz naqolaylığımı nəzərə alaraq. Mənim üçün A məntəqəsindən B məntəqəsinə yetişmək və yolda büdrəməmək çətindir.

– Hə, nə haqda düşünürsünüz? – deyə inadla soruşur.

– Bu, xoşladığım çaydır. – Səsim sanki yerin dibindən çıxır. İnana bilmirəm ki, Kristian Qreylə Portlenddəki qəhvəxanada üz-üzə oturmuşam. O, qaşqabağını tökür, hiss edir ki, mən nəyisə gizlədirəm. Mən paketi fincana endirirəm, o dəqiqə də çay qaşığı ilə çıxarıram və nəlbəkiyə qoyuram. Qrey sual dolu nəzərlə mənə baxır, başını yana əyərək.

– Mən südsüz açıq çayı xoşlayıram, – deyə sanki özümə haqq qazandıraraq donquldanıram.

– Başa düşürəm. O sevgilinizdir?

Aha, sözə bax da… görən, nəyə işarə edir?

– Kim?

– Fotoqraf. Xose Rodriges.

Heyrətdən əsəbi halda gülürəm.

– Yox, Xose mənim köhnə dostumdur, aramızda başqa heç nə yoxdur. Niyə bu qənaətə gəlmisiniz ki, o sevgilimdir?

– Sizin bir-birinizə baxaraq gülümsəməyinizə əsasən bu nəticəni çıxardım. – Qrey düz gözlərimin içinə baxır. Özümü çox narahat hiss edirəm... dəhşətli dərəcədə və baxışlarımı kənara çəkməyə çalışıram, amma əksinə, ona məftunluqla baxıram.

– O, demək olar ki, ailənin üzvüdür, – deyə pıçıldayıram.

Qrey astaca başını endirir, görünür, qaneedici tərzdə. Onun uzun barmaqları məharətlə kağızı ―maffin‖in üstündən çıxarır.

– Bir tikə istəməzsiniz? – deyə soruşur və yenidən yüngülcə gülümsəyir.

– Yox, sağ olun. – Mən yenidən qaşqabaqlıyam və yenidən baxışlarımı onun əllərinə zilləyirəm.

– Bəs o, dünən mağazaya gələn?

– Pol sadəcə dostumdur. Dünən sizə demişəm. – Söhbət səfeh axar alır. – Niyə soruşursunuz?

– Deyəsən, kişilər arasında həyəcan keçirirsiniz.

Lənət şeytana, niyə mən bunu onunla müzakirə eləməliyəm? ‒Mən ancaq sizinlə birgə olanda əsəb keçirirəm, mister Qrey‖, – deyə fikrən ona cavab verirəm.

– Sizdən qorxuram. – Qulaqlarımın dibinədək qızarıram və səmimiliyimə görə məmnun halda fikrən əlimi kürəyimə vururam və yenidən öz əllərimə baxıram.

– Bəli, siz məndən qorxmalısınız, – O, başını yelləyir. – Səmimiliyiniz xoşuma gəlir. Zəhmət olmasa, baxışlarınızı aşağı endirməyin, üzünüzü görmək istəyirəm.

Ah. Mən ona baxıram və Qrey ürəkverici tərzdə, amma əyri-əyri gülümsəyir.

– Məncə, nə haqda düşündüyünüzü bilirəm. Siz başdan-ayağa sirsiz, miss Stil.

Kim, mən? Təpədən-dırnağa sirr?

– Sirli heç nəyim yoxdu.

– Məncə, özünüzü yaxşı ələ ala bilirsiniz.

Doğrudanmı? Əla... doğrudanmı məndə bu alınıb? Təəccüblüdür. Mən özümə hakim ola bilirəm? Heç vaxt!..

– Hə, əgər sizin tez-tez qızarmağınızı nəzərə almasaq. Bilmək istərdim niyə? – Qrey ―maffin‖in kiçik tikəsini ağzına qoyur və məndən gözünü çəkmədən yavaş-yavaş çeynəyir və mən sanki siqnal alaraq qızarıram. Lənət şeytana!

– Siz həmişə belə üzlüsünüz?

– İnanmıram ki, bu belə adlanır. Xətrinizə dəydim? – o, deyəsən heyrətlənib.

– Yox, – deyə doğru cavab verirəm.

– Yaxşı.

– Siz çox hökmlü şəxssiz, – cavab zərbəsi endirirəm.

Qrey qaşlarını qaldırır və sanki bir az qızarır.

– Mən alışmışam ki, başqaları mənə tabe olsunlar, Anasteyşa, – deyir o. – Hər şeydə.

– ġübhə etmirəm. Niyə mənə adınızla müraciət etməyi təklif etmədiniz? – Özüm öz həyasızlığıma heyrətlənirəm. Niyə söhbət bu qədər ciddiləşdi? Bunu heç gözləmirdim. Niyə birdən onun üstünə atılmışam? Deyəsən, o, məni məsafədə saxlamağa çalışır.

– Məni adımla yalnız ailə üzvləri və yaxın dostlar çağırır. Belə xoşuma gəlir.

Aha. Bununla belə o dedi: ―Mənə Kristian deyə müraciət edin‖. O, həqiqətən diktatordur, hər şey də bununla izah olunur. Qəlbimin dərinliklərində düşünməyə başlayıram ki, Keyt özü ondan müsahibə götürsəydi, yaxşı olardı. İki diktator üz-üzə gələrdi. Həm də hər ikisi sarışındır – hə, qızılı-kürən, – onun ofisindəki qadınlar kimi. Kristian və

Keyt haqda fikirlər xoşuma gəlmir. Mən bir qurtum çay içirəm və Qrey ―maffin‖in daha bir tikəsini ağzına qoyur.

– Siz yeganə uşaqsınız?

Hə, budur, yenidən mövzunu dəyişir.

– Hə.

– Valideynləriniz haqda danışın.

Soruşmağa şey tapdı da. Bu, dəhşətli dərəcədə darıxdırıcıdır.

– Anam Corciya ştatında yeni əri Bobla birgə yaşayır. Atalığım isə Montesanoda.

– Bəs atanız?

– O, mən hələ kiçik olarkən ölüb.

– Bağışlayın.

– Mən onu heç xatırlamıram.

– Bundan sonra ananız ikinci dəfə ərə gedib?

Fınxırıram.

– Demək olar ki, hə.

Qrey qaşqabağını tökür.

– Özünüz haqda danışmağı xoşlamırsınız? – Quru tərzdə deyir, çənəsini sanki dərin düşüncədə ovuşduraraq.

– Elə siz də.

– Siz artıq məndən müsahibə götürmüsünüz və xatırladığım qədər, çox intim suallar verirdiniz. – Onun dodağı qaçır.

Hə, əlbəttə. Geylik haqda sual. Mən yerin dibinə girməyə hazıram. Gələcəkdə ümid edirəm, bu anı xatırlayarkən əzablı xəcalət çəkməmək üçün intensiv psixoterapiya kursu keçməli olacam. Yalnız xoşagəlməz fikirlərdən qurtulmaq üçün anam haqqında nəsə donquldayıram.

– Anam əla qadındır. O, sağalmaz romantikdir. Bu, onun dördüncü nikahıdır.

Kristian heyrətlə qaşlarını çatır.

– Onunçün darıxıram, – deyə davam edirəm. – İndi Bob yanındadır. Ümid edirəm ki, o, anamın qayğısına qalar və iflasa uğradıqdan sonra onun

yüngül ideyalarının nəticələrini ütüləyər. – Anam haqda düşünərkən gülümsəyirəm. Onunla çoxdan görüşmürük. Kristian diqqətlə mənə baxır, və hərdən qəhvədən bir qurtum alır. Yaxşı olar ki, onun ağzına baxmayım. Dodaqları məni həyəcanlandırır.

– Atalığınızla münasibətiniz yaxşıdır?

– Əlbəttə, mən onunla böyümüşəm. O, yeganə atamdır.

– Nə cür adamdır?

– Rey... qaraqabaqdır.

– Vəssalam? – deyə həmsöhbətim təəccüblə soruşur.

Çiyinlərimi çəkirəm. Bəs o, nə eşitmək istəyirdi ki? Mənim həyat hekayəmi?

– Qaraqabaqdır, qızlığı kimi, – deyə Qrey təkrarlayır.

– O, futbol vurğunudur, xüsusilə Avropa futbolunun, üstəgəl, boulinq və balıq ovunu xoşlayır. Həm də mebel ustasıdır. Keçmiş hərbiçi. – Ah çəkirəm.

– Onunla yaşayırsınız?

– Hə. Anam üç saylı ərinə mənim on beş yaşım olarkən rast gəldi. Mən də Reylə qaldım.

Qrey qaşqabağını sallayır, sanki məni anlamağa çalışır.

– Üç saylı ər Texasda yaşayırdı. Mənim evimsə Montesanododadır. Bundan əlavə… anam yenicə ərə gedib. – Susuram. Anam heç vaxt üç saylı əri haqda danışmır. Qrey bu söhbəti niyə saldı? Axı bunun ona dəxli yoxdur. Mən də özümü sonadək belə apara bilərəm.

– Valideynləriniz haqda danışın, – deyə xahiş edirəm.

O, çiyinlərini çəkir.

– Atam – vəkil, anam – uşaq həkimidir. Onlar Sietldə yaşayırlar.

A-a… onun zəngin valideynləri var. Bəxtiyar cütlükdür, üç uşağı övladlığa götürüblər və onlardan biri yaraşıqlı oğlana çevrilir və dünya biznesinin zirvələrini fəth edir. Buna necə nail olub? Valideynlər onunla, yəqin ki, fəxr edirlər.

– Bəs bacı və qardaşınız nə edir?

– Eliot inşaatla məşğuldur, kiçik bacımız isə indi Parisdə hansısa məşhur fransız aşpazın rəhbərliyi ilə kulinariyanı öyrənir. – Onun gözləri qıcıqdan dumanlanır. O, açıq şəkildə özü və ailəsi haqda danışmaq istəmir.

– Eşitmişəm ki, Paris füsunkar şəhərdir, – deyə mızıldanıram. Maraqlıdır, niyə o, ailəsi haqda söhbətdən yayınır? Övladlığa götürüldüyünə görəmi?

– Hə, çox gözəldir. Parisdə olmusunuz? – deyə soruşur və dərhal da sakitləşdirir.

– Xaricdə heç vaxt olmamışam. – Yenidən bayağı mövzuya qayıtdıq. O, nəyi gizlədir?

– Getmək istərdinizmi?

– Parisə? – Təəccüblənirəm. Niyə də yox! Bundan kim imtina edər ki! – Əlbəttə, istərdim, – deyə səmimi etiraf edirəm. – Amma daha çox İngiltərəyə.

Qrey başını yana əyir və şəhadət barmağını üst dodağına qoyur. Aman Tanrım.

– Niyə?

Mən gözlərimi döyə-döyə qalmışam. Özünü topla, Stil.

– Bu, ġekspirin, Ostenin, Bronte bacılarının, Tomas Hardinin vətənidir. Onların kitablarının yazıldığı yerləri görmək istərdim.

Ədəbiyyat haqda söhbət mənə imtahanları xatırladır. Saata baxıram.

– Getməliyəm. İmtahana hazırlaşmalıyam.

– İmtahanlara?

– Hə, tezliklə – çərşənbə axşamı.

– Miss Kavananın maşını hardadır?

– Otelin yanındakı park yerində.

– Sizi ötürərəm.

– Çay üçün sağ olun, mister Qrey.

O, özünün qəribə, sirli təbəssümünü sərgiləyir.

– Dəyməz, Anasteyşa. Mənə çox xoş idi. Gedək, – əmr edir və mənə əlini uzadır. Əlindən tuturam, karıxaraq və onun ardınca küçəyə çıxıram.


www.kitabyurdu.blogspot.com

Biz yenidən otelə tərəf üz tuturuq və qarşılıqlı razılaşma ilə bir-birimizə heç nə demirik. Zahirən Qrey təmkinlidir. Bir fincan qəhvə ilə keçən görüşümüzü dəyərləndirməyə çalışıram. Hiss edirəm ki, sanki hansısa boş qalmış vəzifə ilə bağlı müsabiqəyə dəvət olunmuşam.

– Siz həmişə cins şalvar geyinirsiniz? – deyə qəfildən Qrey soruşur.

– Demək olar ki.

O, razılıq işarəsi olaraq başını tərpədir. Biz yenə də işıqforun yanındayıq. Mən həyəcanla beynimdə bugünkü səhərin gedişatını fırladıram. Necə də qəribə sualdır… indi biz ayrılacağıq. Vəssalam. ġansım vardı və mən onu əldən buraxdım. Ola bilsin ki, onun həyatında başqa qadın var.

– Sevdiyiniz qadın varmı? – deyə ağzımdan qaçırıram. Aman Tanrım, doğrudanmı mən unu ucadan dedim?

Onun dodaqları yarıtəbəssümlə əyilir.

– Yox, Anasteyşa, sevgilim yoxdur və ola bilməz, – astaca deyir.

Aha... o, bununla nə demək istəyir? O gey deyil? Yoxsa geydir? Bəlkə, o müsahibədə həqiqəti deməyib? İlk anda mən söhbətin davamını gözləyirəm, lakin Qrey susur. Hə, artıq getmək vaxtıdır. Mən hər şeyi düşünməliyəm. Mən onu tərk etməliyəm. İrəliyə doğru bir addım atıram, ayağım burxulur və üzüqoylu yola yıxılıram.

– Lənət şeytana, Ana! – Qrey qolumdan elə möhkəm dartır ki, arxaya yıxılıram, birtərəfli hərəkət olan yolda avtomobil axınının əksinə gedən velosipedin qarşımdan keçməsindən bir saniyə əvvəl.

Hər şey bir anda baş verir: mən yıxılıram və budur, onun qolları arasındayam və o, məni bağrına basır. Mən onun təmiz, canlı ətriylə nəfəs alıram. Ondan yenicə yuyulmuş kətan köynəyin və bahalı duş gelinin ətri gəlir. Aman Tanrım… başım gicəllənir. Dərindən nəfəs alıram.

– Əzilmədiniz ki? – deyə Qrey pıçıldayır. O, məni bağrına basır, bir əli ilə çiynimdən tutaraq. O biri əlinin barmaqları yüngül toxunuşla üzümdə gəzir. O, böyük barmağı ilə üst dodağıma toxunur və hiss edirəm ki, onun tənəffüsü dayanıb. Qrey düz gözümün içinə baxır və mən onun həyəcanlı,

odlayıcı baxışlarını tuturam. Bu, əbədiyyət qədər uzanır, Qreyin gözəl ağzından başqa heç nəyi görmürəm. Aman Tanrım! İyirmi bir yaşında mən ilk dəfə həqiqətən öpülmək istəyirəm. Onun dodaqlarını öz dodaqlarımda hiss etmək istəyirəm.


www.kitabyurdu.blogspot.com

**4-cü fəsil**

–Öp məni!‖ – tərpənməyə halım olmadan fikrən yalvarıram. Mən qəribə, naməlum istəklə iflic olmuşam. Sehrlənmiş halda Kristian Qreyin cizgilənmiş ağzına baxıram, osa yuxarıdan-aşağı mənə baxır. Göz qapaqları örtülüb, gözləri tünd çalar alıb. O, güclə nəfəs alır, mənsə heç nəfəs almıram. Sənin əllərindəyəm. Xahiş edirəm, məni öp. O, gözlərini qapadır, dərindən nəfəs alır və sanki səssiz sualıma cavab verərək başını yelləyir. Gözlərini yenidən açdıqda orada polad bir qətiyyət oxunur.

– Anasteyşa, məndən uzaq dur. Mən sənə lazım olan adam deyiləm, – Qrey pıçıldayır.


www.kitabyurdu.blogspot.com

Nə? Axı niyə belə? Axı bu haqda o yox, mən qərar qəbul etməliyəm. Eşitdiyimə inanmayaraq sifətimi turşudaram.

– Nəfəs al, Anasteyşa, nəfəs al. İndi səni ayağa qaldıracam, – astaca deyir və məni özündən aralayır.

Mənim xilasım və ya Kristian Qreyin təması ilə yaranmış Adrenalin parlayışı yox olur və mən özümü zəif və əsəbi edirəm. ―Yox!‖– deyə qəlbim hayqırır o məni dayaqdan məhrum edərkən. O, məni məsafədə saxlayır və diqqətlə reaksiyamı gözləyir. Başımda yalnız bir fikir var: mən ona işarə etdim ki, öpüş gözləyirəm, o isə məni öpmədi. Ona lazım deyiləm. Məni qəhvə içməyə dəvət edərkən şansım var idi, mənsə hər şeyi korladım.

– Aydındır, – deyə köks ötürürəm, yenidən səsə malik olaraq və alçalmadan əzab çəkərək donquldanıram: – Çox sağ olun.

Durumu dəyərləndirərkən nə vaxt səhv eləmişəm? Tez-tələsik ondan ayrılmalıyam.

– Nə üçün? – əlini götürmədən üzünü turşudur.

– Məni xilas elədiyiniz üçün, – deyə pıçıldayıram.

– Bu dəli əks istiqamətdə hərəkət edirdi. Yaxşı ki, yanındaydım. İşin nə ilə bitəcəyini düşünmək belə qorxuludur. Bəlkə, mənimlə otelə gedəsiniz? Oturarsınız, özünüzə gələrsiniz.

O, məni buraxır, indi qarşısında durmuşam və özümü səfeh durumda hiss edirəm.

Özümə gələrək mənasız fikirləri beynimdən qovuram. Getmək lazımdır. Bütün dolaşıq, deyilməmiş ümidlərim tar-mar edilib. Ona lazım deyiləm. ―Nə düşünürdün? Kristian Qrey sənin kimi birisinə ilişəcək?‖ – deyə təhtəlşüurum məni cırnadır. Bəxtimdən ―yaşıl adamcığaz‖ peyda olur. Mən cəld küçənin o biri başına keçirəm, hiss edirəm ki, Qrey arxamca gəlir. Otelin qarşısında geriyə çönürəm və baxışlarımı qaldırmağa halım yoxdur.

– Çay və fotosessiyaya razılaşdığınız üçün sağ olun, – deyə donquldanıram.

– Anasteyşa, mən… – o susur və səsindəki ağrı diqqətimi tələb edir, çünki iradəmin əksinə olaraq ona baxıram. Boz gözlər kədərlidir. Qrey kefi

pozulmuş görünür, üzündə pərişan ifadə var, əvvəlki özünənəzarətdən heç bir iz qalmayıb.

– Hə, Kristian?

Mən titrək barmaqlarıma baxıram, o, kəlmə kəsmir, müraciətim cavabsız qalır. Tez-tələsik çıxıb getmək istəyirəm. Yaralanmış qüruru tikə-tikə toplayıb yığmaq lazımdır və itirilmiş ruhi tarazlığı geri qaytarmaq...

– İmtahanlardasa uğurlar, – deyə güclə nəhayət, səsini çıxarır.

Nə? Buna görəmi onun bədbəxt görkəmi var?

Bu vidalaşma nə üçündür? Mənə imtahanlarda uğur diləmək üçünmü?

– Çox sağ olun, – kinayəmi gizlədə bilmirəm. – Xudahafiz, mister Qrey.

Dabanlarımı qaldırıb çevrilirəm, qəribə olsa da və geriyə baxmıram, dördyoldan yeraltı qaraja doğru gedirəm.

Beton qarajın soyuq alatoranında, zəif işıqlanan lüminset işıqların altında, divara söykənir və əllərimlə başımı tuturam. Nə fikrə düşmüşdüm? Gözlərim qəfildən yaşla dolur. Niyə ağlayıram? Mən göylərdən yerə enirəm, bu cür absurd reaksiyaya görə özümə hirslənərək, əllərimlə dizlərimi qucaqlayıram və yumaqlanmağa çalışıram. Bəlkə kiçilsəm, mənasız ağrı azalacaq deyə. Başımı dizimə sarı əyərək göz yaşlarımı saxlaya bilməyib ağlayıram. Nəyisə itirdiyimə ağlayıram, məndə olmayana. Axmaqlıqdır. Olmayan üçün dərdə düşmək səfehlikdir – kamına çatmayan arzular, dağılmış istəklər, saxta gözləntilər.

Mən heç vaxt imtina ilə üzləşməmişəm. Hə… əgər məni heç vaxt basketbol və ya voleybol oynamağa götürmədiklərini nəzərə almasaq. Bu, məlum məsələdir. Qaçmaq və eyni vaxtda topu vurmaq məndə çox pis alınır. İdman meydançasında mən istənilən komanda üçün artıq yükəm.

Romantik planda mən heç nə istəmirdim. Mən alışmışam ki, çox solğun simalı, yaraşıqsız, arıq, yöndəmsizəm – çatışmazlıqlarımın siyahısını sonsuzluğa qədər artırmaq olar. Buna görə də həmişə mövcud pərəstişkarlarımı yola salmışam. Məsələn, kimya qrupundakı o oğlan kimi.


www.kitabyurdu.blogspot.com

Onların hamısı mənim üçün maraqsız idi, yalnız Kristian, lənətə gəlmiş Qrey istisna olmaqla. Yəqin ki, mən Pol Kleyton və Xose Rodriges kimilərə qarşı daha mehriban olmalıydım, hərgah əminəm ki, onlardan heç biri mənim kimi yeraltı qarajda xəlvətcə gözyaşı tökməyib. Bəlkə mən yalnız ağlayıb içimi boşaltmalıyam...

–Bəsdir, dərhal dayan! – sanki təhtəlşüurum üstümə qışqırır, əllərini böyrünə qoyaraq və hiddətlə ayaqlarını yerə vuraraq. – Otur maşına və evə get, imtahanlara hazırlaş. Onu unut… dərhal! Bəsdir burnunun suyunu axıtdın‖.

Dərindən nəfəs alır və ayağa qalxıram. Özünü topla, Stil. Maşına doğru gedirəm göz yaşlarımı silə-silə. Bəsdir onu düşündüm. Bundan gələcək üçün nəticə çıxarmaq və fikri imtahanlara toplamaq lazımdır.

Keyt noutbukla masa arxasında oturub. Məni görcək sevincli təbəssümü üzündən itir.

– Ana, nə olub?

Vəssalam… bircə sorğu-sual çatışmırdı. Başımı yelləyirəm, düz onun kimi, ondan əl çəkilməsini istəyərkən o belə edir, amma Keyt istəyimə kar və kor qalır.

– Ağlamısan. – Sanki görünmür. – O alçaq sənə neyləyib? – deyə o bağırır və onun siması tam qorxu içindədir.

– Heç nə, Keyt. Məsələ onda deyil. – Bu fikirdən əyri-əyri gülümsəyirəm.

– Onda niyə ağlamısan? Sən heç vaxt ağlamırsan. – Keyt məni qucaqlayır, onun yaşıl gözləri həyəcanla doludur. Nəsə demək lazımdır ki, məni rahat buraxsın.

– Məni, az qala, velosiped vuracaqdı. – Bu, ağlıma gələn ilk şey olur, amma Keyt o dəqiqə Qreydən söz salır.

– Aman Tanrım, Ana! Əzilmisən? – O, məni özündən ayırır və bədənimə baxmağa başlayır.

– Yox, Kristian məni xilas etdi, – pıçıldayıram. – Mən qorxmuşam.

– Bu təbiidir! Bəs qəhvə? Axı sən onu xoşlamırsan?

– Mən çay içdim. Bir az söhbət elədik, amma sənə danışmalı heç nə yoxdur. Heç bilmədim məni niyə dəvət eləyib.

– Onun xoşuna gəlirsən, Ana. – Keyt əllərini yana salır.

– Artıq xoşuna gəlmirəm. Bir daha görüşməyəcəyik. – Bunu sakit ahənglə deməyə gücüm çatdı.

– Hə?

Lənət şeytana! Keytdə maraq oyanıb. Mətbəxə gedirəm ki, Keyt üzümü görə bilməsin.

– Mənim kimilər ona tay deyil, – bacardığım qədər quru danışıram.

– Hansı mənada?

– Di bəsdir, guya özün bilmirsən. – Çevrilirəm və Keytin qapı ağzında durduğunu görürəm.

– Yox, bilmirəm.

– Keyt, o… – Çiyinlərimi çəkirəm.

– Ana, sənə nə qədər demək olar? Lap uşaq kimisən! – deyə o, sözümü kəsir. Yenə öz bildiyini edir.

– Keyt, məni rahat burax. Mən imtahanlara hazırlaşmalıyam, – deyə sözümü kəsirəm.

O, üz-gözünü turşudur.

– Müsahibəyə baxmaq istəyirsən? Yazıb tamamladım. Xose əla şəkillər çəkib.

Mən bir daha valehedici Kristiana baxmaq istəyirəmmi, mən-dən u-zaq dur, Qrey?

– Əlbəttə, istəyirəm. – Hansısa möcüzəylə üzümdə təbəssüm ifadəsi təsvir etməyə nail oluram və masaya doğru gedirəm. Qrey dəyərləndirici şəkildə noutbukdakı ağ-qara fotoşəklindən mənə baxır. Deyəsən, mən onu qane etmirəm.

Özümü elə göstərirəm ki, guya müsahibəni oxuyuram, amma əslində o boz gözlərin diqqətli baxışlarını üstümdə duyuram və güman etməyə çalışıram: niyə o, özünün dediyi kimi, mənə lazım olan adam deyil? Və birdən izah öz-özünə peyda olur. O, son dərəcə gözəldir. Biz iki fərqli

qütbük, ayrı-ayrı dünyaların varlıqları. Mən İkar kimi Günəşə çox yaxınlaşmış, nəticədə qanadlarımı yandırıb yerə enmişəm. Qreyin sözlərində məna var. O, mənə yaraşmır. O məhz bunu nəzərdə tuturdu və indi onun imtinasını anlamaq asandır … demək olar ki.

– Əla, Keyt, – güclə deyirəm. – Gedim işimlə məşğul olum.

‒Hələlik onun haqqında düşünməyəcəyəm,‖ – deyə özümü dilə tutur və dəftəri açaraq mütaliəyə başlayıram.

Yataqda mürgüləməyə çalışıram və fikrən əcaib-qəraib səhərə qayıtmağa çalışıram. Onun sözlərini xatırlayıram: ‒Mənim sevgilim yoxdur və ola bilməz‖ və özüm özümə əsəbiləşirəm ki, onun qolları arasında olarkən bu sözləri nəzərə almamışam. Axı o demişdi ki, ona qız lazım deyil. O biri böyrü üstə çevrilirəm. Beynimə müxtəlif fikirlər girir: bəlkə o, bakirliyini qoruyur? Gözlərimi qapayır və mürgüləməyə çalışıram. Bəlkə, o özünü qoruyur? ‒Səninçün deyil‖, – yuxulu təhtəlşüurum sonuncu dəfə mənə lağ edir, yuxulardan qurtulmağa çalışaraq.

Yuxuda boz gözləri, südlü köpüklü qəhvə görürəm və yenidən şimşəklərin işıqlandırdığı qaranlıq otaqlarda qaçışıram və bilmirəm, kimdən kimə doğru qaçıram…

***

Qələmi yerə qoyuram. Vəssalam. Sonuncu imtahan da verildi. Çeşir pişiyinin[1] təbəssümü üzümdə dolaşır. Yəqin ki, bütün həftə boyu ilk dəfə gülümsəyirəm. Bu gün cümədir və bu gün möhtəşəm axşam şənliyi olacaq. Ola bilsin ki, əyyaşlıq etdim: həyatımda ilk dəfə olaraq.

Zalı nəzərdən keçirib Keytə baxıram. Sona beş dəqiqə qalmış o, çılğınca hələ nəsə yazır. Vəssalam, təhsil bitdi. Bir daha imtahanlarda

[1] Lyuis Kerrollun "Alisə möcüzələr ölkəsində" əsərindəki personaj, daim gülümsəyən pişik (*tərc.*)


www.kitabyurdu.blogspot.com

oturmayacağam. Fikrən başım üstündən tullanıb fırlanıram… Keyt yazısını bitirir və qələmi əlindən buraxır. Baxışlarımız toqquşur və onun üzündə də Çeşir pişiyinin təbəssümünü görürəm.

Biz evə onun ―Mersedes‖ində qayıdırıq və yenicə bitmiş imtahanı müzakirə etməyə heç bir istəyimiz yoxdur. Keyti daha çox bu axşam bara gedərkən nə geyinəcəyi maraqlandırır, mənsə açarı tapmaqçün çantamı eşələyirəm.

- Ana, burda sənə bağlama var. – Keyt giriş qapısının ağzındakı pillədə durub, əlində çəhrayı kağıza bükülü qutu var. Qəribədir, son vaxtlar mən ―Amazon‖dan heç nə sifariş etməmişəm. Keyt bağlamanı mənə verir və giriş qapısını açmaq üçün açarı məndən alır. Bağlama miss Anasteyşa Stilə ünvanlanıb. Üstündə nə göndərənin ünvanı, nə də adı var. Yəqin, ya anamdan, ya da Reydəndir.

- Valideynlər göndərib …

- Tez aç görək! – Keyt yüksək əhvali-ruhiyyə ilə mətbəxə yollanır, məxsusi olaraq bu gün üçün saxlanılmış şampan şərabını götürmək üçün.

Mən bağlamanı açıram və içində dəri üzlüklü qutu görürəm, onun içində üç, görünüşcə yeni, amma köhnə, parça ilə cildlənmiş kitab və bir parça qalın karton var. Üstündə kalliqrafik xətlə qeyd:

―Niyə demədin ki, mən kişilərdən ehtiyatlanmalıyam?

Niyə məni xəbərdar etmədin?

Varlı qadınlar bilirlər ki, nədən ehtiyatlanmalıdırlar, çünki bu hoqqalar haqda romanlar oxuyurlar…‖.

Bu, ―Tess‖dən götürülmüş sitatdır.

İnanılmaz təsadüf: imtahanda düz üç saat Tomas Hardinin romanları haqda esse yazmışam. Bəlkə bu, heç də təsadüf deyil… bəlkə bu, bilərəkdən edilib. Diqqətlə kitablara göz gəzdirirəm: ―d`Erbervillər nəslindən olan Tess‖in üç cildi. Titul səhifəsində qədim-qaim şriftlə yazılıb:

London. Jek R. Osqud, Makilveyn və Ko, 1891.

Bax a! İlk nəşr. Yəqin bu, çox bahalı şeydir və mən o dəqiqə bağlamanı göndərənin kim olduğunu anlayıram.



www.kitabyurdu.blogspot.com

Keyt arxamda duraraq kitablara baxır. Sonra kartı götürür.

– İlk nəşr, – deyə pıçıldayıram.

– İnanılmazdır! – Keyt heyrətdən geniş açılmış gözləri ilə mənə baxır. – Qrey?

Başımla təsdiqləyirəm.

– Başqa kim ola bilər ki...

– O nə kartdı elə?

– Heç nə anlamıram. Məncə, bildirişdir. – Keyt eyham vurur ki, ondan uzaq durum. Hətta bilmirəm niyə. Guya onun qabağını kəsmişəm.

– Əgər istəyirsənsə oxu, bu, bildirişdir, Ana, öz işindir, amma o, sənə açıq-aşkar biganə deyil.

Bütün son həftəni mən Kristian Qrey haqda düşünməyi özümə qadağan eləmişdim. Di yaxşı, etiraf edim… gecələr yenə də boz gözlər yuxuma girir və onun məni ağuşuna alan əllərini və ecazkar qoxusunu unutmaq üçün əbədiyyət gərəkdir. Amma bunu mənə niyə göndərib? Axı mən onun tayı deyiləm?

– Nyu-Yorkda satışa çıxarılmış ―Tess‖in ilk nəşrini tapmışam. Onun üçün on dörd min dollar istəyirlər. Lakin səndəki nüsxə daha yaxşı vəziyyətdədir. Güman edirəm ki, onun dəyəri daha çoxdur. – Keyt artıq məsləhətləşib öz mehriban dostu ilə – Google-la. – Sitat: ―Tessin anasına müraciət edərək dediyi sözlər. Aleks d'Erbervillin onunla nalayiq hərəkət elədiyini etiraf etdikdən sonra.

– Xatırlayıram, – deyə Keyt düşüncəli halda bildirir. – Amma o, bununla nə demək istəyir?

– Bilmirəm və bilmək də istəmirəm. Mən belə bir hədiyyəni qəbul edə bilmərəm. Bağlamanı yenidən, haradansa kitabın ortalarından olan elə bu anlaşılmaz sitatla geri göndərmək lazımdır.

– Enjel Kler hansı yerdə deyir bu cümləni: ―S..dirib əl çək məndən?‖ – deyə Keyt tam təmkinli halda soruşur.

– Hə, məhz bu. – Gülürəm. Keyt çətin anda dəstək verə bilir.

Kitabları yenidən yerinə qoyur və masa üzərində saxlayıram. Keyt şampan qədəhini mənə uzadır.

– İmtahanların bitməsi və bizim Sietldə yeni həyatımız şərəfinə, – deyə o gülümsəyir.

– İmtahanların bitməsi, Sietldə yeni həyatımız və əla qiymətlərin şərəfinə!

Biz qədəhləri toqquşdurur və içirik.

***

Barda səs-küy və qələbəlikdir, məzunların əlindən iynə atmağa yer yoxdur. Bu gün onlar küpünə kimi içmək istəyindədir. Xose də bizə qoşulur. O hələ bir il də oxumalıdır, amma şənlənmək həvəsindədir, bizdən azadlıq nəfəsini duymaq və qoxumaq üçün, bütün şənlik dəstəmiz üçün ―Marqarita‖ küpü alır. Dördüncü qədəhi boşaltdıqdan sonra, bu qədər ―Marqarita‖ içmək – həm də şampan şərabından sonra – heç də yaxşı ideya deyil.

– Sonrası nə olacaq, Ana? – Xose səs-küydə nəsə deməyə çalışır.

– Keytlə Sietlə köçəcəyik. Valideynləri ona orada mənzil alıb.

– Tanrım, insanlarda pul var da... Amma sən sərgimə gələcəksən, deyilmi?

– Əlbəttə, Xose, bunu necə yaddan çıxara bilərəm! – Gülümsəyirəm, o, belimdən yapışaraq məni qucaqlayır və özünə doğru çəkir.

– Sənin gəlişin mənim üçüm çox vacibdir, Ana, – deyə o, qulağıma pıçıldayır. – Yenə ―Marqarita‖ istəyirsən?

– Xose Luis Rodriges, sən məni dəmləndirmək istəyirsən? Deyəsən, səndə alınır, – deyə hırıldayıram. – Yox, pivə içəcəm. Gedim küpü gətirim.

– Yenə içmək istəyirsən, Ana! – Keyt qışqırır.

Keyt at kimi içir və dəmlənmir. Bir əli ilə o, Levini qucaqlayır – kurs yoldaşımızı və tələbə qəzetindəki fotoqrafımızı. Levi artıq əhatəsindəki kütləvi əyyaşlıq mənzərəsinin fotolarını çəkməkdən bezib, indi də gözlərini Keytdən çəkmir. Keytin əynində kiçik bretel və dar cins şalvar var, ayağında

hündürdaban çəkmələr. Saçları yuxarıdan topa halında yığılıb, yalnız bir neçə teli üzünü yüngülcə örtür – Keyt həmişəki kimi füsunkar görünür. Mənsə... ümumiyyətlə, ked və futbol köynəklərini xoşlayıram, bu günsə ən yaxşı cins şalvarımı geymişəm. Xosenin ağuşundan qoparaq masa arxasından dururam. Aha! Başım fırlanır. Stulun belindən tutmaq lazım gəlir. Tekilalı kokteyli bu qədər içmək olmaz.

Bara yaxınlaşıb qərara gəlirəm ki, ayaqyoluna getmək lazımdır – nə qədər ki ayaq üstə dura bilirəm. Çox düzgün qərardır, Ana. Kütlənin arasından dürtülürəm. Əlbəttə ki, orda növbə yaranıb, amma dəhlizdə sakitlik və sərindir. Burda dayanıb darıxmamaq üçün mobil telefonu çıxarıram. Bax belə… sonuncu dəfə kimə zəng etmişəm, Xose? Bəs bu nə nömrədir? Tanış gəlmir. Hə! Qrey. Hırıldayıram. Yəqin, indi çox gecdir və zəngim onu yuxudan oyadacaq. Amma bilməliyəm axı bu kitabları mənə niyə göndərib, üstəlik, o sirli məktubla. Əgər mənim ondan uzaq durmamı istəyirsə, qoy özü məni rahat buraxsın.

Sərxoş gülüşümü güclə saxlayaraq, ―çağırış‖ klavişini basıram. Qrey, demək olar ki, dərhal zəngə cavab verir – ikinci çağırışda.

- Anasteyşa? – Ona zəng edəcəyimi gözləmirdi. Amma düzünü desək, özüm də bunu gözləmirdim. Sonradan bu dumanlanmış beyinə gəlib çatır ki… axı o hardan bilir ki, bu mənəm?

- Mənə niyə kitab göndərmisiniz? – Kəkələyə-kəkələyə tələffüz edirəm.

- Anasteyşa, sənə nə olub? Özünü qəribə aparırsan. – O, açıq-aşkar qayğılanır.

- Mən yox, siz özünüzü qəribə aparırsınız!

Bax mən belə cəsarətliyəm, həm də dörd qədəh ―Marqarita‖dan sonra!

- Anasteyşa, sərxoşsan?
- Sizə nə?
- Sadəcə, maraqlıdır. Hardasan?
- Barda.


www.kitabyurdu.blogspot.com

– Hansında? – deyəsən, o hirslənir.
– Portlenddəki barda.
– Evə necə gedib çıxacaqsan?
– Birtəhər. – Söhbət istədiyim kimi alınmır.
– Hansı barda?
– Mənə niyə kitab göndərmisiniz, Kristian?
– Anasteyşa, hardasan? Elə bu dəqiqə de. – səsin ahəngi elə amiranədir ki... xalis müstəbid. Mən Qreyi səssiz kino dövrünün kinorejissoru kimi təsəvvürümə gətirirəm: dar bric geyimdə, əlində rupor, o birində də qamçı. Bu mənzərəyə gülməkdən fınxırıram.
– Mənimçün narahat olmayın? – hırıldayıram.
– Eləsə mənə kömək elə, sənin ananı! Hardasan?
Kristian Qrey söyüş söyür! Yenidən hırıldayıram.
– Portlenddə … Sietldən uzaqda.
– Portlendin harasında?
– Gecəniz xeyrə qalsın, Kristian.
– Ana!
Mən ―no‖ düyməsini basıram. Ha! Amma o, yenə də kitablar haqda mənə heç nə demədi. Heyif. Missiya yerinə yetirilmədi. Mən tamamilə sərxoşam, nə qədər ki növbədə durmuşam, başım elə hey gicəllənir. Axı mən özüm içib sərxoş olmaq istəyirdim. Buna nail oldum. Hərgah təkrarlamağa dəyməz. Vəssalam, növbəm çatdı. Kabinənin üzərindəki plakat təhlükəsiz seksin üstünlüklərini xatırladır. Doğrudanmı mən indicə Kristian Qreyə zəng vurmuşdum? Cəsarətə bir bax!.. Telefonum zəng çalır və mən qəfil zəngdən, az qala, yerimdən atılıram.
– Allo, – deyə bərkdən böyürürəm telefonda. Zəngi gözləmirdim.
– İndi dalınca gələcəm, – deyir o və telefonu söndürür. Yalnız Kristian Qrey bu cür ürküdücü və eyni zamanda, təmkinli danışa bilir.
Lənət şeytana! Cins şalvarı yuxarı çəkirəm. Ürəyim bərkdən döyünür. Ardımca gələcək? Yox əşşi! İndi də ürəyim bulanır … yox… Hər şey yaxşıdır. Dayan. O, başımı tovlayır. Axı mən harda olduğumu ona

demədim. Özü isə məni tapa bilməyəcək. Həm də o, Sietldən bura o vaxt gəlib çıxacaq ki, artıq şənlik bitəcək, biz də dağılışacağıq. Əllərimi yuyur və güzgüdəki əksimə baxıram. Yanaqlarım yanır, baxışım bir qədər dağınıqdır. Hm… tekiladandır.

Mən əbədiyyət qədər uzun bir vaxtı piştaxta qarşısında dayanır, pivə parçının gətirilməsini gözləyirəm və öz masamıza qayıdıram.

– Harda itmişdin? – deyə Keyt məni danlayır.

– Tualetdə növbə gözləyirdim.

Xose və Levi arasında yerli beysbol komandası ilə bağlı qızğın mübahisə gedir. Xose hamıya pivə süzmək üçün coşqun üçlüyün arasında dayanıb və mən içkidən böyük bir qurtum alıram.

– Keyt, mən çölə çıxıb havamı dəyişmək istəyirəm.

– İçki səni yaman tez tutdu!

– Beş dəqiqə, çox yox.

Yenidən qələbəliyin arasından dürtülüb keçmək istəyirəm. Ürəyim bulanmağa başlayır, başım xaincəsinə fırlanır və ayaq üstə güclə dururam. Durumum çox pisdir.

Soyuq axşam havasından möhkəm sərxoş olduğumu anlayıram. Tom və Cerri haqdakı köhnə cizgi filmlərindəki kimi, ətrafda hər şey ikiləşir. Qorxuram, indicə qusacam. Niyə bu qədər içmişəm?

– Ana. – Xose ardımca çölə çıxıb. – Halın pisdir?

– Məncə, yetərindən artıq içmişəm. – deyə güclə gülümsəyirəm.

– Elə mən də, – deyə o, qara gözlərinin diqqətli baxışını məndən çəkməyərək pıçıldayır. – İstəyirsənsə, mənə söykən. – O, bir az da mənə yaxınlaşır və çiyinlərimi qucaqlayır.

– Çox sağ ol, Xose, lazım deyil. Özüm öhdəsindən gələrəm.

Onu özümdən aralamaq istəyirəm, amma gücüm qalmayıb.

– Ana, xahiş edirəm, – deyə o pıçıldayır və məni bağrına basır.

– Xose, nə edirsən?

– Ana, sən çoxdan xoşuma gəlirsən. – O, başımı geri ataraq bir əli ilə belimi, o biri ilə çənəmdən tutur. Aman Tanrım… o, məni öpməyə hazırlaşır.

– Yox, Xose, əl çək! Yox! – Mən onu özümdən itələyirəm, amma o, polad əzələlərdən ibarət divar kimidir, onu tərpədə bilmirəm. Onun əli saçlarımda dolaşır, mənə çevrilməyə belə imkan vermir.

– Ana, xahiş edirəm, – deyə Xose, demək olar ki, dodaqlarıma toxunaraq pıçıldayır. Onun nəfəsi nəmdir və çox şirin qoxuyur: ―Marqarita‖ və pivə. O, incəliklə yanağımı, ağzımın yuxarı kənarını öpür. Mən ürpənirəm, sərxoş və köməksizəm, güclə nəfəs alıram.

– Xose, lazım deyil, – deyə yalvarıram.

―Mən istəmirəm. Sənə dost kimi yanaşıram və indi qaytaracam‖, – deyə təhtəlşüurum qışqırır.

– Məncə, xanım ―yox‖ dedi, – deyə qaranlıqdan təmkinli bir səs gəlir. Aman Tanrım! Kristian Qrey. O bura necə gəlib çıxıb?

Xose məni buraxır.

– Qrey, – deyə o, qısa şəkildə deyir.

Mən həyəcanlanmış halda Qreyə baxıram. O, qəzəbli halda Xoseyə baxır, gözlərindən şimşək çaxır. Lənət şeytana! Mən daha alkoqolu bətnimdə saxlamaq gücündə deyiləm. Mədəm sürüşərək ağzıma gəlir, yarıyacan əyilirəm və nümayişkaranə tərzdə qusuram.

– Aman Tanrım, Ana! – Xose iyrənərək geri atılır.

Qrey saçlarımı geri çəkir və qoluma girərək ehmalca parklama yerinin kənarındakı hündür olmayan kərpic dibçəkliyə sarı aparır. İçimdə dərin minnətdarlıq hissi keçirərək oranın qaranlıq olduğunu görürəm.

– Yenə qusmaq istəyirsənsə, bura ən münasib yerdir. Mən səni tutaram.

O, bir əli ilə çiynimdən yapışıb, o biri ilə üzümə tökülməsin deyə, improvizə edərək saçlarımı at quyruğu formasında yığır. Mən yöndəmsizcəsinə onu özümdən itələməyə çalışıram, amma yenidən ürəyim bulanır… və yenə qusuram. Aman Tanrım… bu, nə qədər davam edəcək?

Hətta indi, mədəm tam boşaldıqdan sonra və çölə heç nə çıxmadıqda belə, bədənimi dəhşətli titrəmə bürüyür. Mən susqun halda özüm özümə and verirəm ki, bir daha spirtli içki içməyəcəm. Nəhayət, hər şey bitir.

Tamamilə əldən düşmüş halda güc-bəla ilə dibçəkliyin kərpic divarından tutmuşam. Qrey məni buraxır və cib yaylığını mənə verir. Ondan başqa kimin cibində xalis kətandan, üzərində KTQ monoqramı olan təmiz yaylıq ola bilər ki? Maraqlıdır, onları harda satırlar? Ağzımı silərkən mən süst halda düşünürəm: ―T hərfi nəyi bildirir?‖ Başımı qaldırmaq və Qreyə baxmaq mümkün deyil. Xəcalət çəkirəm. Yerin dibinə girsəydim, bundan yaxşı olardı.

Xose hələ də barın girişində dayanıb və bizi izləyir. İnləyərək üzümü əllərimlə tuturam. Bu, həyatımdakı ən pis anlarımdan biridir. Mən ən pisini xatırlamağa çalışıram və yadıma yalnız Kristianın məndən imtinası düşür. Nəhayət, mən cəsarətlənir və çəkinə-çəkinə ilk baxşımı ona zilləyirəm. Qrey yuxarıdan-aşağı mənə baxır və üzündəki ifadədən heç nə anlamaq olmur. Çevrilərək xəcalətli Xoseni görürəm. Deyəsən, Qreyin yanında o, özünü tamamilə itirib. Xoseyə necə də hirslənmişəm! Mənim bu qondarma dosta deyiləcək bir cüt ―yaxşı‖ sözüm var, onları tanınmış sahibkar Qreyin yanında deməyə cəsarətim çatmır. Qusuntumu yerə necə boşaltdığımı onun görməsindən sonra əsl ledi sayıla bilərəmmi?!

– Mən... e-e… sizi barda gözləyəcəm, – deyə Xose donquldanır.

Hər ikimiz ona əhəmiyyət belə vermirik və o, qapı arxasında itib-batır. Qreylə təkbətək qalırıq. Bircə bu çatışmırdı. Ona nə deyəcəm? Telefon zənginə görə üzr istəmək lazımdır.

– Bağışlayın, – deyə gözümü cib yaylığına dikərək və onu əlimlə didişdirərək kəkələyirəm. ―Necə də yumşaqdır‖.

– Nəyə görə üzr istəyirsən, Anasteyşa?

– Əsasən ona görə, ki sərxoş halda zəng etmişəm. Həm də ona görə ki... – qızardığımı hiss edərək, demək olar ki, pıçıldayıram: ―olar mən elə indi ölüm!‖ Kimə üz tutaraq yalvardığımı bilmirəm.

– Olan şeydir, – deyə quru-quru deyir o. – Adam gərək öz imkanlarını bilə. Yox, mən, əlbəttə, qabiliyyətlərin artırılması tərəfdarıyam, sidq-ürəklə, amma bu, yetərindən artıq idi. Səninlə tez-tez belə olur?

Alkoqolun artıqlığından və hirsimdən başım fırlanır. Bunun ona dəxli var? Mən ki onu bura çağırmamışam. Özünü mənimlə böyük kimi aparır, sanki dəcəllik eləmiş uşağam. Demək istəyirəm ki, əgər istəsəm, hər axşam içib sərxoş olacam və bunun ona heç bir dəxli yoxdur, lakin indi düz onun gözləri qarşısında qaytardıqdan sonra susmaq məsləhətdir. O, niyə çıxıb getmir?

– Yox, – deyə günahkarcasına cavab verirəm, – belə bir şey birinci dəfə baş verir və indi eksperimenti təkrarlamaq arzum yoxdur.

Heç cür anlamıram, o niyə burdadır… qulaqlarımda uğultu yaranır. Qrey görür ki, indilərdə yıxılacağam, odur ki, məni qolları arasına alıb uşaq kimi ağuşuna basır.

– Sakit ol, səni evə aparacam, – sakitcə deyir o.

– Keyti xəbərdar etməliyəm. – ―İlahi, məni xilas et, yenə də onun qolları arasındayam‖.

– Qardaşım ona deyər.

– Kim?

– Qardaşım Eliot indi miss Kavana ilə söhbət edir.

– E?.. – Heç nə anlamıram.

– Sən zəng etdikdə o, mənimlə idi.

– Sietldə? – Kələfin ucunu tamamilə itirmişəm.

– Yox, mən ―Hitman‖da yaşayıram.

―Hələ də? Niyə?‖ – deyə anlamıram.

– Məni necə tapdınız?

– Sənin mobil telefonunla. Onu izlədim, Anasteyşa.

Belə bir şey mümkündürmü? Bu qanunidir? ―O, səni izləyir‖, – beynimi hələ də dumanlandıran tekila buludları arasından təhtəlşüurum xəlvətcə pıçıldayır, amma məni izləyən Qreydisə, əleyhinə deyiləm.

– Özünlə gödəkcə, yaxud çanta götürmüşdünmü?


www.kitabyurdu.blogspot.com

– E-e … əslində, hə. Hər ikisi vardı. Kristian, xahiş edirəm, mən gərək Keyti xəbərdar edim. Yoxsa o narahat olacaq.

Onun dodaqları nazik bir xətdə birləşir.

– Əgər lazımdırsa…

O, məni qucağından düşürüb yerə qoyur və əlimdən tutaraq yenidən bara aparır. Mən taqətsizəm, ürkmüşəm, hələ də sərxoşam və inanılmaz dərəcədə həyəcanlıyam. O, əlimdən tutub və biləyimi sıxır – hisslərin qəribə cilalanması!

İçəri gurultulu və qələbəlikdir. Musiqi səslənir və rəqs meydançasında böyük kütlə toplaşıb. Keyt masamızın arxasında görünmür, Xose də harasa yoxa çıxıb. Levi hamı tərəfindən tərk edilmiş və bədbəxt halda tək-tənha oturub.

– Bəs Keyt hardadır? – deyə hay-küydə ona eşitdirmək istəyirəm. Başımın nəbzi ağır baslarla döyünür.

– O, rəqs edir, – deyə cavabda Levi qışqırır. O, dəhşətli dərəcədə acıqlıdır və Kristiana şübhəli nəzərlərlə baxır. Mən öz qara gödəkcəmi güclə dartıb geyinir və çantamın kəmərini başımdan keçirirəm. Keyti tapan kimi burdan dərhal getmək istəyirəm.

– O, rəqs meydançasındadır. – Mən azca ona toxunur və qulağına doğru əyilirəm. Burnumun ucu saçlarına toxunur, onun təmiz, təravətli qoxusunu tuturam. İlahi! Yasaq, naməlum hisslər inkar etməyə çalışdığım dərinliklərdən yuxarı qalxır və iztirablı bədənimə dolaşır. Qızarıram, hardasa dərinliklərdə əzələlərim nəşəli halda sıxlaşır.

Qrey gözucu mənə baxır, yenidən əlimdən tutur və barın piştaxtasına sarı aparır. Ona dərhal xidmət göstərirlər: mister Qrey gözləməyə öyrəşməyib. Doğrudanmı onunçün hər şey asanlıqla başa gəlir?

– İç, – deyə o, çox böyük stəkana süzülmüş buzlu suyu içməyi təklif edir.

Musiqi ilə eyni ritmdə yanıb-sönən, qəribə şələlər saçan rəngli işıqlar barın bütün divarlarında əks olunur. Yol yoldaşım fasilələrlə gah yaşıl, gah



www.kitabyurdu.blogspot.com

mavi, gah ağ və şeytani qırmızı rəng alır. O, diqqətlə mənə baxır. Qorxa-qorxa bir qurtum su içirəm.

– Sonadək iç!

Necə olur olsun, o əsl müstəbiddir. Qrey açıq-aşkar kefi pozulmuş haldadır, barmaqlarını dağınıq saçlarında gəzdirir: görən onun nə problemləri var? Hə, gecəyarısı zəng edən səfeh sərxoş qızı nəzərə almamaq şərtilə. O, ani olaraq qərara gəlir ki, qızı xilas eləmək lazımdır və yeri gəlmişkən, öz qərarında haqlı çıxır. Sonra da qızın ürək bulantısını müşahidə eləmək lazım gəlir… ―Ah, Ana, eyni şeyi nə qədər təkrarlamaq olar?‖ – deyə təhtəlşüurum acıqlı halda məni çimdikləyir. Mənə elə gəlir ki, o, eynəyinin üstündən hirsli halda mənə baxır.

Yer ayağımın altından qaçır və Qrey yıxılmamağım üçün əlini çiynimə qoyur. Buzlu suyu sonadək içirəm. Onu içdikdən sonra ürəyim yenə də bulanmağa başlayır. Qrey stəkanı götürür və barın piştaxtasına qoyur. Kirpiklərimin arasından görürəm ki, o, enli zolaqlı pencək, kətan köynək və cins şalvar geyinib, ayağında qara ked – ―konvers‖ var. Köynəyin yaxası açıqdır, sinəsindəki tüklər görünür. Mənim dumanlanmış təfəkkürümdə o, çox yaraşıqlı görünür.

Qrey yenidən əlimdən tutur. Ah, anacan!.. o, məni rəqs meydançasına dartır. Lənət şeytana! Mən rəqs etmirəm. Hiss edirəm ki, ona söykənmişəm və rəngli şüaların altında onun özündənrazı, bir qədər məkrli təbəssümünü görürəm. Qrey əlini mənə uzadır və kəskin şəkildə dartır: mən onun qolları arasında peyda oluram və yenidən hərəkət etməyə başlayır, məni özüylə əyləndirərək. Aha! O, əla rəqs edir və təəccübümə baxmayaraq, onun hərəkətlərini təkrarlayıram; bəlkə də sərxoş olduğum üçün. Qrey məni özünə tərəf çəkir. Yoxsa mən onun ayaqları altına yıxılardım. Beynin hansısa bucağında anamın xəbərdarlığı üzə çıxır: ―Heç vaxt yaxşı rəqs edən kişilərə etibar etmə‖.

Biz qələbəliyin arasından keçərək rəqs meydançasının o biri başına keçirik və Keytlə Eliotun – Kristianın qardaşının yanında peyda oluruq. Musiqinin gurultusu beynimi deşir. Nəfəsim kəsilir. Keytin kefi kökdür, dəli

kimi rəqs edir. O, nadir hallarda belə olur: yalnız kimsə möhkəm xoşuna gəldikdə. Doğrudan da, Eliot onun xoşuna gəlir. Və deməli, sabah səhər, naharda süfrə arxasında üç nəfər olacağıq. Ah, Keyt!

Kristian əyilir və Eliotun qulağına nəsə pıçıldayır. Eliot ucaboy, enlikürək, dalğalı parlaq saçlıdır, gözlərində məkrli parıltı var. Projektorların döyünən işığında mən onların rəngini təyin edə bilmirəm. Eliot gülür və Keyti qucaqlayır. Deyəsən, o xoşbəxtdir… Keyt! Hətta bu durumumda belə mən şokdayam. Axı onlar indicə tanış olublar!.. Keyt başı ilə işarə edərək nəsə deyir və mənə sarı əlini yelləyir. Kristian bir an içində bizi rəqs meydançasından uzaqlaşdırır.

Amma biz Keytlə kəlmə belə kəsmədik. Aydındır hər şey nəyə doğru gedir. Onlara təhlükəsiz seks barədə təcili mühazirə gərəkdir. Əminəm, o, tualetin qapısındakı plakatı görüb. Başım fikirlərlə dolub-daşır – sərxoş duman arasından sivrişib çıxmaq ümidi ilə. Bura yaman istidir, üstəlik, çox hay-küylü və işıq da gözlərimi deşir. Başım hərlənir… deyəsən, döşəmə düz üzümə doğru qalxır. Kristian Qreyin qolları arasından huşsuz halda yerə yıxılmazdan öncə eşitdiyim son şey söyüş olur:

– Sənin ananı!

## 5-ci fəsil

Sakitlik. Qapalı pərdələr. İsti və rahat çarpayı. Həə… gözlərimi açıram və ilk anda şəraitdən həzz alıram. Maraqlıdır, hardayam? Arxam, çarpayının baş tərəfi günəş şəfəqi formasındadır. Nəsə bu mühit mənə tanış gəlir. Böyük və geniş otaq çəhrayı-boz və qızılı rəngli əşyalarla zövqlə bəzədilib. Buna bənzər şeyi sanki bir dəfə görmüşəm. Amma harda? Yuxulu zəkam yaxın keçmişin tanış obrazlarını aydınlaşdırmağa çalışır. Qəfildən anlayıram: mən ―Hitman‖ otelindəyəm… lüks nömrədə. Biz Keytlə belə birisində artıq olmuşuq. Amma bu otaq o birindən böyükdür. Lənət şeytana! Mən Kristian Qreyin otağındayam. Bura necə düşmüşəm?

Tədricən ötən axşam barədə qırıq xatirələrə qayıdıram. Mən içib sərxoş oldum, Qreyə zəng etdim, ürəyim bulandı. Sonra Xose, daha sonrasa yenidən Kristian. Dəhşət! Mən daxilən sıxılıram. Bura necə düşdüyümü xatırlamıram. Əynimdə futbol köynəyi, liftçik və tuman var. Corab yoxdur. Cins şalvar da. Lənət şeytana!

Çarpayının yanındakı kiçik masada portağal şirəsi ilə dolu stəkan və iki həb var. Aydındır. Kristian qayğıma qalıb! Mən çarpayıda oturur və həbləri uduram. Ümumən özümü yaxşı hiss edirəm, düzünü desək, layiq olduğumdan da yaxşı. Portağal şirəsi ləzzətdir! Təşnəmi yatırır və təravət verir. Təravətli portağal şirəsindən başqa heç nə ağızın quruluğunu aradan qaldırmır.

Qapı döyülür. Ürəyim qorxudan ağzıma gəlir və mən bircə kəlmə belə deyə bilmirəm. Qrey məndən cavab almadan qapıdan içəri keçir.

Buna bax bir! İndicə məşqdən qayıdıb. Əynində sərbəst trikotaj şalvar və tərdən qaralmış fufayka var. Tərli Kristian Qrey haqda fikirlər məni qəribə tərzdə həyəcanlandırır. Dərindən ah çəkirəm, göz qapaqlarımı endirirəm, sanki ikicə yaşım var və əgər gözlərimi yumsam, məni heç kim tapmayacaq.

– Sabahın xeyir, Anasteyşa. Özünü necə hiss edirsən?

Hə, vəssalam.

– Layiq olduğumdan da yaxşı, – deyə donquldanıram.

Kristian böyük idman çantasını kürsüyə qoyur və boynundan asılmış məhrəbanın uclarından yapışaraq mənə baxır. Mübhəm boz gözlər ... Adətən olduğu kimi, onun nə haqda düşündüyünü anlamıram. O, fikir və hisslərini gizlətməyi bacarır.

– Bura necə gəlib çıxmışam? – səsim sakit və mütidir.

Qrey mənə yaxınlaşır və çarpayının kənarında oturur. Mənə elə yaxındır ki, hətta ona toxuna bilərəm, onun ətrini duyuram. Aman Tanrım… bədəninin və duş üçün gelin qoxusu məstedici ―Marqarita‖ kokteylindən (bunu artıq öz təcrübəmdən bilirəm) də çox-çox güclüdür.


www.kitabyurdu.blogspot.com

– Huşunu itirəndə səni evə aparmağa risk etmədim. Səni burda saxlamaq lazım gəldi, – deyə o, biganə tərzdə cavab verir.

– Məni yatağa kim uzatdı?

– Mən. – Onun simasında dəyişiklik yoxdur.

– Ürəyim yenə də bulanmışdı?

– Yox.

– Məni soyunduran da sən idin? – demək olar ki, pıçıldayıram.

– Hə, mən idim. – O, qaşlarını əyir, mənsə əlacsızlıqdan qızarıram.

– Biz səninlə… – güc-bəla ilə sözümü deyirəm, dəhşətdən ölüyə oxşayıram. Cümləni tamamlaya bilmirəm və əllərimə baxaraq susuram.

– Anasteyşa, sən koma vəziyyətindəydin. Nekrofiliya mənlik deyil. Mən qadının canlı olmasına və hərəkətli olmasına üstünlük verirəm, – deyə o, quru tərzdə izah edir.

– Çox utanıram.

Onun dodaqları bir qədər əyri istehza ilə yuxarı qalxır.

– Hə, vaxtı şən keçirdiniz. Bu axşam hələ uzun müddət xatırlanacaq.

– Elə mən də...

O, mənə lağ edir, əclaf! Özü ardımca gəlib, heç kim ondan xahiş etməyib, nəticədəsə məni günah keçisi təyin ediblər.

– Öz şirkətinizdə işləyib hazırladığınız hər cür casus texnologiyalarından qızı güdmək üçün istifadə düzgün deyil, – deyə acıqlanıram.

Kristian mənə təəccüblə və deyəsən, acıqlı baxır.

– Birincisi, mobil telefonu internetlə də güdmək olar. İkincisi, şirkətim izləmə və qapalı müşahidəetmə üzrə aparatura istehsalı ilə məşğul olmur. Üçüncüsü, əgər ardınca gəlməsəydim, sən gözlərini fotoqrafın yatağında açacaqdın. Xatırladığım qədər, sən o aşnadan heyranlıq duymurdun, – deyə o, məni sancır.

Aşna!.. Kristian Qrey əsəbiləşir, onun boz gözləri təhqir olunmuş tərzdə parlayır.

– Hə, sən orta əsrlər xronikasından olan cəngavərsən, – deyə onu sancıram.

O, bir qədər soyuyur. Üzünün ifadəsi yumşalır və gözəl cizgilənmiş dodaqlarda təbəssüm kölgəsi dolaşır.

– Yox, Anasteyşa, heç oxşamıram. Olsa-olsa, ancaq və ancaq qara cəngavər. – Kristian kinayəli tərzdə gülümsəyir. – Dünən yemək yemisən? – deyə o, sərt şəkildə soruşur.

Başımı yelləyirəm. Daha nə cinayət işləmişəm ki? Hərgah onun dodaqları kiplənir, siması hissiyyatsız qalır.

– Mütləq yemək lazımdır. Sənsə ac qarına içki içmisən, ona görə də halın pisləşib. Düzünü bilmək istəsən, Anasteyşa, yemək içkidə ən birinci qaydadır.

O, əli ilə saçlarını qarışdırır, deməli, hələ də hirslənir.

– Sən mənə hələ çox ədəb-ərkan öyrədəcəksən?

– Bu, belə adlanır?

– Məncə, hə.

– Sən hələ yaxşı qurtardın.

– Hansı mənada?

– Əgər sən mənə məxsus olsaydın, dünənki həngamədən sonra hələ bir həftə oturub-durmağın çətin olardı. Ac qarına içmisən, küpünə kimi, az qala, başına iş də açacaqdılar… – Qrey gözlərini yumur, onun gözəl simasında ikrah peyda olur və o, azca diksinir. Sonra gözlərini açır və acıqlı halda mənə baxır. – Nə baş verəcəyini düşünmək belə adamı ürpəndirir.

Ona nə dəxli var? Əgər mən ona məxsus olsaydım… amma mən onun deyiləm. Əslində, ola bilsin ki, qəlbimin dərinliklərində mən bunun əleyhinə deyiləm. Bu fikirlə bərabər, onun müştəbehliyindən hirslənirəm. Mən qızarıram: təhtəlşüurum şən bir rəqsi oynayır, bircə ona mən onun ola biləcəyim fikrindən.

– Mənimlə heç nə baş verə bilməzdi. Mən Keytlə bir yerdə idim.

– Bəs fotoqraf? – deyə o fınxırır.

Hm… Xose-oğul. Ona bir-iki kəlmə ―xoş söz‖ demək lazım gələcək.



www.kitabyurdu.blogspot.com

– Xose sadəcə içkidən ağlını itirmişdi. – Çiyinlərimi çəkirəm.

– Məncə, kimsə bu fotoqrafa ədəb-ərkan öyrətməlidir ki, bir daha həddini aşmasın.

– Elə sərtsən ki, – deyə fınxırıram.

– Ah, Anasteyşa, sən heç təsəvvürünə belə gətirmirsən. – Kristianın gözləri kiçilir, üzünə dəcəl təbəssüm qonur.

Qreyin təbəssümü məni tamamilə tərk-silah edir. Bir az əvvəl hirslənirdim, indisə baxışlarımı ondan çəkə bilmirəm. Ah!.. Bu təbəssümə görə hər şeyi bağışlamaq olar. Yəqin ki, o çox nadir hallarda gülümsədiyi üçün. Mən hətta nə haqda danışdığımızı belə unutdum.

– Mən yuyunmaq üçün hamama gedirəm. Yoxsa sən birinci olmaq istəyirsən? – O, başını yana əyir – hələ də gülümsəyərək. Ürəyim bərkdən döyünür, beyin tənəffüs üçün cavabdeh olan neyronlara impuls göndərməyi dayandırıb. Qreyin təbəssümü genişlənir, o böyük barmağını yanağımda və alt dodağımda gəzdirir.

– Nəfəs al, Anasteyşa, – deyə Qrey pıçıldayır və qalxır. – On beş dəqiqə sonra nahar yeməyini gətirəcəklər. Sən, yəqin ki, acsan. – O, hamam otağına doğru gedir və qapını bağlayır.

Nəhayət, dərindən nəfəs ala bilirəm. Niyə o, bu qədər gözəldir? Yerimdən qalxıb onun yanına, hamama getmək istəyirəm. Əvvəllər heç vaxt belə bir hiss keçirməmişəm. Hormonlar şahə qalxıb. Hələ də yanağımda və dodağımda onun toxunuşunu hiss edirəm. Bədənimə ağır, xəstə diskomfort hissi yayılır. Mənə nə olub? Hmm… ġəhvət. Hə, sən demə, o belə olurmuş.

Mən yenidən başımı pərqu balışlara qoyuram. –Əgər sən mənim olsaydın...‖ Aman Tanrım… Ona məxsus olmağımdan ötrü mən nələri qurban verməzdim! Kristian Qrey – ürəyimi bərkdən döyünməyə məcbur edən yeganə kişi... Damarlarımdakı qan coşur. Əslində, onun xasiyyətində olan heç də hər şey xoşuma gəlmir: çox qapalı və ziddiyyətlidir. O gah məni özündən itələyir, gah on dörd min dollarlıq kitablar hədiyyə göndərir, hələ sonra da izləyir, sanki mən hansısa məşhuram, osa üzlü pərəstişkar. Bütün bunlarla bərabər, gecəni onun otel otağında keçirmişəm və özümü tam

təhlükəsizlikdə hiss edirəm... onun müdafiəsində. O, məni özünün uydurduğu təhlükədən xilas etmək üçün dördnala qaçıb gəlib. Yox, o, zalım cəngavər deyil, əsl mərd cəngavərdir, parıltılı zirehli geyimdə, klassik romantik qəhrəman, ser Haveyn, yaxud Lanselot kimi.

Mən yataqdan qalxıram və cidd-cəhdlə öz cins şalvarımı tapmağa çalışıram. Qrey duşdan yaş-yaş çıxır; sudan parıldayaraq və hələ də üzünü qırxmamış halda. Əynində heç nə yoxdur, yalnız qurşağı ətrafına dolanmış məhrəba. Və əlbəttə, mən çılpaq ayaqlarımla dayanıb xəcalətdən yerə girirəm. O, mənim çarpayıdan qalxmağıma təəccüblənib.

‒ Cins şalvarını yuyulmağa vermişəm. – Onun baxışında boz obsidian var. – Qusarkən onu bulaşdırmışdın.

‒ Oh. – Mən turp kimi qızarıram. Niyə o həmişə məni pis yerdə yaxalayır?

‒ Teylordan xahiş elədim ki, sənə bir cüt cins şalvar və ayaqqabı alsın. Onlar kürsüdəki çantanın içindədir.

Təmiz pal-paltar. Gözlənilməz bonusdur.

‒ E… mən hamama gedirəm, – donquldanıram. – Çox sağ ol.

Daha nə demək olar ki? Çantadan yapışıb qaçaraq duşa gedirəm, Kristian Qreyin adamı həyəcanlandıran çılpaqlığından uzaq olmaqdan ötrü. Mikelancelonun ―David‖i onunla müqayisədə heç nədir.

Hamam isti və rütubətlidir, hələ havasını dəyişməyə macal tapmayıb. Paltarı tez əynimdən çıxarıb su altına girmək lazımdır. Üzümü xoş su axını yuyur. Mən Kristian Qreyi istəyirəm. Çox, çox istəyirəm. Bu, sadəcə, faktın təsdiqidir. Həyatımda ilk dəfə olaraq mən kişiylə yatağa uzanmaq istəyirəm. Onun əllərinin və dodaqlarının toxunuşunu hiss eləmək istəyirəm.

O dedi ki, həssas qadınlara üstünlük verir. Deməli, bəkarətini qoruyur. Amma o nə Pol, nə də Xose kimi mənə yaxınlaşmağa da cəhd eləməyib. Başa düşmürəm. Ötən həftə o, məni heç öpmədi də. Mən onu cəlb eləmirəm? Onda o, niyə məni bura gətirib? ‒Sən bütün gecəni onun yatağında keçirmisən, Ana, osa sənə heç barmağını da toxundurmayıb.

Nəticə çıxar‖, – deyə təhtəlşüurum yenidən öz idbar, zalım başını qaldırır. Mən ona əhəmiyyət vermirəm.

Su isti və rahatlayıcıdır. Sonsuzluğadək su altında qalardım... Maye sabundan Kristianın qoxusu gəlir. Adamın ağlını başından alır bu qoxu! Mən onu bədənimə çəkirəm, təsəvvür edirəm ki, bu, onun özüdür – Kristiandır – o, uzun barmaqları ilə bu möcüzəvi sabunla sinəmi sabunlayır, qarnıma, ayaqlarımın arasına çəkir. İlahi!.. Ürəyim yenidən bərkdən sancır, bu… elə məstedicidir ki...

– Nahar hazırdır. – Qrey qapını döyür və döyüntüdən mən diksinirəm.

– Gəlirəm. – reallıq məni erotik xəyallardan ayırır.

Kabinədən çıxıb özümlə iki məhrəba götürürəm: birini başıma dolayıram, Karmen Miranda üslubunda və o biri məhrəba ilə isə tələsik qurulanıram, mənim yüksək hissiyyatlı dərim üçün bu cür toxunuşların necə xoş olduğuna əhəmiyyət verməyərək.

Cins şalvarlar olan çantaya baxıram, Teylor təkcə yeni cins şalvarlar və ―konvers‖ almayıb, çantada həm də solğun, mavi rəngli köynək, corab və alt paltarı var. İlahi!.. Təmiz lifçik və tuman!.. Onları darıxdırıcı sözlə – ―sadə‖ adlandırmaq ədalətsizlik olardı. Bunlar zərif əşyalardır, hansısa dəbli Avropa firmalarına məxsusdur. Solğun, mavi rəngli, naxışlı və bəzəkli. Bax ha! Alt paltarı məni heyran edir və eyni zamanda qorxudur. Bundan əlavə, ölçüləri dübbədüz mənimkinə uyğundur. Qrey bunu hardan bilir? Üzüm allanır, çünki mister Boksun – Teyloruni bahalı mağazada mənə necə tuman aldığını təsəvvürümə gətirirəm. Maraqlıdır, onun daha hansı cari vəzifələri var...

Mən tez-tələsik geyinirəm. Hər şey mənə əla oturur. Bircə başımı qaydaya salmaq qalır və mən cidd-cəhdlə yaş saçlarımı məhrəba ilə qurulayıram. Həmişəki kimi onlar sözə baxmır və onları quyruq kimi yığmaqdan başqa çarə qalmır. Baxmaq lazımdır, çantada rezin qaytan varmı? Dərindən nəfəs alıram: vəssalam, mən mister Zırrama ilə görüşə hazıram.


www.kitabyurdu.blogspot.com

Bəxtimdən yataq otağında kimsə yoxdur. Çantanın axtarışına başlayıram, heç yerdə tapılmır. Dərindən ah çəkib, qonaq otağına keçirəm. Nəhəng otaq. İstirahət bölümündə üstü balışlarla dolu geniş, uzun xovlu məxmər divan, yumşaq taxtlar və bir yığın kitabla zövqlü jurnal stolu var; işgüzar bölümdə son model ―Mak‖; divarda nəhəng plazma ekran. Kristian otağın o biri başındakı masa arxasında oturub və qəzet oxuyur. Bütün məkan tennis kortu boydadır (özüm tennis oynamıram, amma bir neçə dəfə Keytin necə oynadığını görmüşəm). Keyt!

– Lənət şeytana, Keyt! – deyə qışqırıram.

Kristian diqqətlə mənə baxır.

– Mən Eliota xəbər göndərmişəm, – o, bir qədər kinayəli danışır. – Keyt bilir ki, sən burdasan və hələ sağsan.

Ah, bircə bu çatışmırdı. Mən onun dünən axşamkı çılğın rəqsini və Kristianın qardaşını yoldan çıxarmaq üçün elədiyi özəl hərəkəti xatırlayıram. O, mənim haqqımda nə düşünəcək? Mən evdən kənarda heç vaxt gecələməmişəm. Deməli, o hələ də Eliotla bir yerdədir. Onun başına belə iş ikicə dəfə gəlib və hər ikisində bütün həftəni onun dəhşətli çəhrayı pijaması ilə üzləşmək məcburiyyətində qalmışam. Keyt düşünəcək ki, mən də bir gecəlik macəra tapmışam özümə.

Kristian amiranə baxışını mənə yönəldir. Onun əynində kətan köynək var, yaxalığı və manjetləri açıqdır.

– Otur, – deyə o əmr edir və masa arxasında mənə yer göstərir. Bütün otaqdan keçərək, əmr edildiyi kimi, onunla üzbəüz oturuuse. Masada yemək ucbatından boş yer yoxdur.

– Könlündən nə keçəcəyini bilmirdim, buna görə də səhər menyusundan bir neçə yemək növü sifariş elədim, – əyri, azca üzrxahlıq bildirən təbəssümlə deyir o.

– Bu bədxərclikdir, – deyə onun seçimindən heyrətlənərək donquldanıram, əslindəsə dəhşətli dərəcədə acam.

– Hə, demə heç, – səsinin ahəngi bir qədər günahkarcasınadır.

Mən fəsəli, ağcaqayın şərbəti və bekonlu qayğanağı seçirəm. Kristian təbəssümünü gizlətməyə çalışır və yumurta zülalından olan omletini yeməyə başlayır. Yemək çox dadlıdır.

– Çay içirsən?

– Hə, zəhmət olmasa.

O, mənə qaynar sulu kiçik çaydanı və nəlbəkidə ―İngilis naharı‖ paketini ötürür. Mat qalmalıdır, hansı çayı xoşladığımı hələ də xatırlayır.

– Saçların nəmlidir.

– Feni tapmadım, – utanaraq donquldanıram. Sözün düzü, onu heç axtarmamışdım.

Kristianın dodaqları qaçır.

– Təmiz paltar üçün təşəkkür.

– Dəyməz. Bu rəng sifətinə düşür.

Mən qızarıram və baxışlarım əllərimə enir.

– Bilirsənmi, sən komplimentləri qəbul etməyi öyrənməlisən, – deyə o, mühakiməedici tərzdə deyir.

– Paltarın pulunu ödəmək istəyirəm.

O mənə elə baxır ki, sanki xətrinə dəymişəm. Tələsik əlavə edirəm:

– Mənə artıq kitablar bağışlamısan, yeri gəlmişkən, onları qəbul edə bilmərəm. Heç olmasa, mənə aldığın paltarın pulunu ödəməyə izin ver. – İnamsız tərzdə gülümsəyirəm.

– Anasteyşa, inan ki, sənə bu imkanı verə bilmərəm…

– Axı sən niyə mənə hədiyyə göndərməlisən?

– Çünki mənimçün bu heç nədir. – onun gözlərində incik parıltı var.

– Bu hələ səbəb deyil, – sakitcə cavab verirəm. O qaşını çatır, gözünü döyür və qəfildən anlayıram ki, biz nəsə başqa bir şeydən danışırıq, amma nə haqda – bilmirəm. Dərhal xatırlayıram…

– O kitabları mənə niyə göndərdin, Kristian? – sakitcə soruşuram.

O, çəngəl-bıçağı kənara qoyur və diqqətlə mənə baxır. Onun gözlərində anlamsız hiss parlayır.

– Səni, az qala, velosipedin vurduğu vaxtı xatırlayırsan? Sanki deyirdin: ―Öp məni, Kristian‖. – Qrey çiyinlərini çəkir. – Hiss edirdim ki, üzr istəməliyəm və nə cürsə könlünü almalıyam. – O, saçlarını əliylə qarışdırır. – Anasteyşa, mən qəhrəman-aşiq deyiləm. Mən sevgi macəralarına girişmirəm və zövqlərim də özünəməxsusdur. Yaxşı olar ki, məndən uzaq gəzəsən. – O, gözlərini qapadır, sanki özündə qalibliyi saxlamaq üçün. – Amma səndə elə bir cazibə var ki, məni yenidən və bir daha sənə qayıtmağa məcbur edir. Məncə, özün də bunu anlayırsan.

Artıq iştaham qaçıb.

– Niyə sənə müqavimət göstərim ki? – pıçıldayıram.

Gözlərini geniş açaraq o, ürpəntili ah çəkir.

– Sən nə danışdığını bilmirsən.

– Onda mənə izah elə.

Biz üz-üzə oturmuşuq, heç birimiz yeməyə toxunmuruq.

– Sən bakir qalmaq andı içmisən? – deyə ağzımdan qaçırıram.

Onun boz gözlərində gülüş parıltısı peyda olur.

– Yox, Anasteyşa, belə bir andım yoxdur. – Kristian Qrey susur, mənim məlumatı təhlil etməyim üçün və mən qulaqlarımın dibinədək qızarıram. Doğrudanmı mən bu sözləri ucadan demişəm! Yox, yaxşısı budur ki, çeynəyim, nəinki çərənləyim.

– Yaxın günlərə nə planların var? – deyə o, sakitcə soruşur.

– Günortadan sonra işləyirəm. Saat neçədir indi? – qəfildən qorxuya düşürəm.

– Saat onu keçib, hələ vaxtın var. Bəs sabah?

O, biləklərini masaya və pərçimlənmiş uzun barmaqlarını çənəsinə qoyaraq qarşımda oturub.

– Biz Keytlə əşyaları yığmaq istəyirdik. Gələn istirahət günlərinə Sietlə köçməyi düşünürük. Və bütün bu həftəni mən ―Kleytons‖da işləməliyəm.

– Sietlin harasında yaşayacağını bilirsənmi?

– Hə.

– Harda?

– Ünvanı xatırlamıram. Təxminən Payk-market rayonunda.

– Mənim ünvanımdan uzaqda deyil. – Onun dodaqları yarıtəbəssümlə əyilir. – Sietldə harada işləməyi düşünürsən?

O, niyə bunu soruşur? Kristian Qrey Ketrin Kavanadan da betər sorğu-sual təşkil etməyi bacarır.

– Sənədlərimi eyni vaxtda bir neçə yerə göndərmişəm. İndi cavab gözləyirəm.

– Mənim şirkətimdə işləmək istəməzdin?

Gözlərimi endirirəm. Əlbəttə ki, yox.

– Əslində, yox.

– ġirkətimdə səni nə qane etmir?

– Sənin şirkətində, yoxsa –Qrey enterpraysez‖də? – gülürəm.

– Siz mənə gülürsüz, miss Stil? – O, başını yana əyir. Deyəsən, söhbət onu əyləndirir, amma əslində, belə olduğunu söyləmək çətindir. Baxışımı tamamlanmamış nahar yeməyi olan boşqaba sarı endirirəm. Onun gözlərinə baxmağa gücüm yoxdur.

– Mən bu dodağı dişləmək istərdim, – acıqlı Kristian deyir.

İlahi. Özüm də bilmədən, ixtiyarsız olaraq alt dodağımı dişləyirəm. Ağzım açıla qalıb, havanı udmaq və içimə çəkmək istəyirəm. Bu indiyəcən eşitdiyim ən seksual cümlədir. Ürəyim dəli ritmlə döyünür, nəfəsim kəsilir. Lənət şeytana, mən ehtirasdan tir-tir əsirəm, hərgah o, mənə heç toxunmayıb. Gözlərimi qaldıraraq onun basqınçı baxışlarını görürəm.

– Səni nə saxlayır ki? – deyə cilvəylə soruşuram.

– Sənə heç yaxın da gəlməyəcəm, Anasteyşa, buna sənin yazılı razılığın olmadan. – Onun dodağında təbəssüm kölgəsi oynaşır.

– Hansı mənada?

– Birbaşa. – O, köks ötürür və başı ilə mənə razılıq işarəsi edir, özündənrazı, amma eyni zamanda, bir qədər acıqlı. – Mən sənə hər şeyi göstərəcəm, Anasteyşa. İşin saat neçədə qurtarır?

– Təxminən səkkizdə.

– Biz Sietlə gedib evimdə şam yeməyi yeyə bilərik. Orda sənə hər şeyi başa salaram. Bu günə istəyirsən, yoxsa növbəti şənbə günü? Özün seç.

– Niyə sən bunu elə indi deməyəsən? – səbir edə bilməyib soruşuram.

– Çünki səninlə birgə nahar yeməyindən həzz alıram. Bütün həqiqəti bildikdən sonra, sən yəqin ki, artıq məni bir daha görmək istəməyəcəksən.

Lənət şeytana! O, nəyi nəzərdə tutur? O, dünyanın hansısa ucqar yerində uşaqları kölə kimi satır? O, hansısa gizli cinayətkar təşkilatın tərkib hissəsidir? Onda aydındır bu qədər pul haradandır. O, çox ifrat dindardır? O impotentdir? Əlbəttə yox, bunun əksini elə indi isbatlaya bilər. İlahi, mən yenə qızarıram. Beləcə sonsuzluğa qədər düşünüb-daşınmaq olar. Kristian Qreyin bu sirrini nə qədər tez öyrənsəm, bir o qədər yaxşıdır. Sirrini öyrəndikdən sonra bir daha onunla təmasda olmaq istəməsəm, onda, sözün düzü, bu lap yaxşı olar. ―Özünü aldatmağa dəyməz, – deyə təhtəlşüurum istehza ilə dillənir, – iş o qədər pis olmalıdır ki, sən hər şeyi atıb qaçasan‖.

– Bu gün.

O, qaşını qaldırır.

– Sən dərkermə ağacının meyvəsini dadmağa tələsən Həvva kimisən.

– Siz mənə gülürsünüz, mister Qrey? – deyə maraqlanıram.

Özündənrazı eşşək.

O, gözlərini qırpır, öz ―blekberi‖sini götürür və düyməni basır.

– Teylor, mənə ―Çarli Tanqo‖ lazım olacaq.

Çarli Tanqo? Bu kimdir?

– Portlenddən təxminən iyirmi otuzda … yox, qoy Eskalada gözləsin… Bütün gecə.

―Bütün gecə!‖

– Hə. Sabah səhər zəng et. Mən Portlenddən Sietlə uçacam.

―Uçacam?‖

– Ehtiyat pilot iyirmi üç otuz.

O, telefonu yerə qoyur. Nə ―sağ ol‖, nə də ―Zəhmət olmasa‖.

– İnsanlar həmişə səni etirazsız dinləyir?



www.kitabyurdu.blogspot.com

– Hə, adətən, əgər işlərini itirmək istəmirlərsə.

– Əgər sənin yanında işləmirlərsə?

– Mənim inandırmaq vasitələrim var, Anasteyşa. Nahar yeməyini tamamla. Səni evə aparacam, saat səkkizdə, işi bitirdikdə isə ardınca ―Kleytons‖a gələcəm. Biz Sietlə uçacağıq.

Gözlərimi dayanmadan döyürəm.

– Uçacağıq?

– Hə, mənim helikopterimdə.

Əla. Sirli Kristian Qreylə ikinci görüşüm. Hər şey qəhvədən başladı, indisə məsələ helikopterli gəzintilərə keçib. İşə bir bax!

– Maşınla getmək olmaz?

– Yox.

– Niyə?

O gülümsəyir.

– Çünki mən belə istəyirəm. Yeməyini tamamla.

İndi necə yeyim? Mən Kristian Qreylə birgə Sietlə helikopterlə uçuram. Və o, mənim dodağımı dişləmək istəyir.

– Ye, – o, sərt şəkildə deyir. – Anasteyşa, mən yeməyin tullanmasına əsla dözə bilmirəm, tez ol.

– Mən bu qədər yeyə bilmərəm, – özümə haqq qazandırıram.

– Boşqabında nə varsa, ye. Əgər dünən axşam normal yemək yesəydin, indi burda olmazdın və mən sənə öz sirlərimi belə tez paylaşmalı olmayacaqdım – o, dodaqlarını kip sıxır. Deyəsən, əsəbiləşir.

Mən qaşqabağımı tökür və yenidən soyumuş fəsəli və qayğanağı yeməyə başlayıram. ―Mən çox həyəcanlanmışam, yemək boğazımdan keçmir, Kristian! Niyə bunu anlamırsan?‖ – bunu ucadan deməyə cəsarət tapmıram, xüsusən indi, o qaşqabaqlı olduqda. Lap uşaq kimidir. Hətta dəcəl.

– Burda gülməli nə var ki? – deyə o soruşur.

Başımı yelləyirəm, cavab verməyə qərar verə bilməyərək və başımı boşqabdan ayırmıram. Fəsəlinin sonuncu tikəsini udaraq Kristian Qreyə nəzər yetirirəm. O, düşüncəli halda mənə baxır.

– Afərin. İndi səni evinə aparacam, amma öncə saçlarını qurut. Xəstələnməyini istəmirəm.

Onun sözlərində hansısa bulanıq vəd duyulur. O, bununla nə demək istəyir? Masa arxasından qalxıram. Bəlkə öncədən icazə almaq gərək idi? Yox, təhlükəli presedent yaratmaq gərək deyil. Yenidən yataq otağına yollanıram və qəfil ağlıma gəlmiş fikirdən yarı yolda donub qalıram.

– Bəs sən gecə harda yatmışdın? – deyə hələ də masa arxasında oturan Kristian Qreyə tərəf çevrilirəm. Qonaq otağında heç bir mələfə və adyal görünmür.

– Səninlə eyni yataqda, – deyə o, üzündəki dəyişməz ifadə ilə cavab verir.

- İşə bax.

- Hə, mənim üçün tamamilə yeni hisslərlə, – deyə o gülümsəyir.

- Sən, yəqin ki, seksi nəzərdə tutmursan?

Hə, axır ki bu sözü dedim. Yanağım allandı, əlbəttə.

- Yox. – Qrey başını yelləyir və üz-gözünü turşudur, sanki nəsə pis bir şeyi xatırlayır. – Kiminləsə birgə eyni çarpayıda yatmaq hissini.

O, qəzeti əlinə götürür və mütaliəyə başlayır.

Ah, bunun nə demək olduğunu necə də bilmək istərdim. O, heç vaxt başqası ilə yatmayıb? O bakirdir? Çətin ki. Mən ona inamsızcasına baxıram. O tanıdıqlarım arasında ən mübhəm personajdır. Və elə bu zaman anlayıram ki, Kristian Qreylə yatmışam. Ona yatmış halda baxmaq üçün dünyada hər şey, verərdim. Onu aciz görmək üçün. Bunu təsəvvür etmək nədənsə çətindir. Yaxşı, deyəsən, bu axşam hər şey aydınlaşmalıdır.

Yataq otağındakı komoda baxıram və orada fen tapıram. Barmaqlarımı şotka əvəzinə istifadə edərək, necə gəldi saçlarımı quruduram. İşi bitirib, dişlərimi fırçalamaq üçün hamam otağına gedirəm və orda Kristianın fırçasını görürəm. İndi təsəvvürümə gətirəcəm ki, bu odur. Hm…

cinayətkar kimi çiynimin üstündən geri baxaraq, fırçanın dişciklərini yoxlayıram. Deməli, o, istifadə olunub. Fırçanı götürür, məcunu üstünə sıxıram və tez-tələsik dişlərimi fırçalayıram. Özümü əxlaqsız kimi hiss edirəm. Amma bu, necə də xoşdur.

Mən dünənki futbol köynəyimi, lifçik və tumanı Teylorun təmiz paltarla mağazadan gətirdiyi paketə atır, sonra çanta və jaketi tapmaq üçün qonaq otağına gedirəm. Sevincimin həddi-hüdudu yoxdur! Çantada rezin qaytan var. Kristian saçlarımı peysərimdə at quyruğu kimi necə yığmağıma baxır. Üzünün ifadəsindən anlamaq olur ki, o nə haqda düşünür. Kimləsə telefonla danışır.

- Onlara iki lazımdır?.. Bu neçəyə başa gələcək?.. Yaxşı, təhlükəsizlik tədbirləri nə yerdə qaldı? Onlar Süveyşdən keçəcək?.. Boşalma Port-Sudanda olacaq?.. Darfura nə vaxt yetişəcəklər?.. Yaxşı, elə belə də edərik. Məni işlərin gedişindən agah et. – ―No‖ düyməsini basır. – Hazırsan?

Başımla təsdiqləyirəm. Maraqlıdır, söhbət nə haqda idi?

- Sizdən sonra, miss Stil, – qarşımdakı qapını tutaraq Qrey deyir. O, necə də nəzakətlidir!

Mən onun görünüşündən xoşhallanaraq lazım olduğundan bir qədər çox ləngiyirəm. Gecə onunla yatmışam və bütün dünənki hadisələrdən sonra (tekila və sonrakı nəticələr) o hələ də məndən iyrənmir. Bundan əlavə, məni özüylə Sietlə aparır. Niyə məhz mən? Bunu anlamaq gücündə deyiləm. Qapıya doğru gedirəm, onun sözlərini xatırlayaraq – ―səndə nəsə qeyri-adi bir şey var‖. Deməli, hisslərimiz qarşılıqlıdır, mister Qrey və mən hər şeyi aydınlaşdırmaq istəyirəm.

Biz danışmadan dəhlizlə gedirik. Lifti gözləyərkən kirpiklərim arasından Kristianı süzürəm, osa gözünün kənarı ilə mənə baxır. Mən gülümsəyirəm, onunsa dodağı qaçır.

Lift gəlib çıxır, içəri keçirik. Birdən hansısa izaholunmaz səbəbə görə – ola bilsin ki, qapalı məkanda yaxınlığımızdan – aramızdakı atmosfera dəyişir, məstedici hissiyyata yoluxuruq. Tənəffüsüm sürətlənir, ürəyim


www.kitabyurdu.blogspot.com

bərkdən döyünür. O, azca mənə tərəf dönür, gözləri qrafitdən də tünddür. Dodağımı dişləyirəm.

– Cəhənnəm olsun sənədlər, – deyə Qrey mırıldayır. O, üstümə atılır və məni liftin divarına sıxır. Özümə gəlməyə imkan verməyərək o, sanki məni məngənədə sıxır, əlləriylə biləklərimi tutur və onları başımın üstündən yuxarı qaldırır, eyni zamanda da ombaları ilə məni divara dirəyir. O-o! O, bir əliylə –at quyruğu‖mu aşağı çəkir, elə ki sifət ona sarı çönsün. Dodaqları dodaqlarıma toxunur. Ağrıdır, demək olar ki, açıq ağzına inləyirəm; bundan istifadə edərək o, dilini ağzıma soxur və diqqətlə ağzımı öyrənməyə başlayır. Məni heç kim bu cür öpməyib. Bir qədər qətiyyətsiz şəkildə dilimi onun diliylə təmasa uzadıram və biz toxunuşların və nəvazişlərin, ehtiras və hisslərin asta erotik rəqsini edirik. Əllərim divara mıxlanıb, başım geriyə atılıb, onun ombaları mənə tərpənmək imkanı vermir. Qarnımla onun ereksiyasını hiss edirəm.

İlahi… O, məni istəyir! Yunan ilahəsi kimi yaraşıqlı Kristian Qrey mənimlə cütləşmək istəyir və mən də… elə buradaca, liftdə.

– Sən... Elə... ġirinsən. – o, hər bir sözü ayrı-ayrılıqda tələffüz edir.

Lift dayanır, qapılar açılır və Kristian bir andaca geri çəkilir. İşgüzar kostyumlu üç kişi içəri girir və bizə baxaraq gülümsəyirlər. Ürəyim bərkdən döyünür, sanki indicə dağa çıxmışam. Oturmaq və dizlərimdən yapışmaq istəyirəm… lakin bunu edə bilmərəm.

Oğrun-oğrun ona baxıram. Kristian Qrey tamamilə təmkinli görünür, sanki indicə qəzetdə krossvord həll edib. Dözülməz ədalətsizlikdir. Yəni onun, doğrudan da, vecinə deyil ki yanında, burada dayanmışam? O, mənə oğrun-oğrun baxır və dərindən nəfəs alır.

Amma düşündüyüm kimi deyil! Və içimdəki kiçik tanrıça, axarlı ombalarını oynadaraq qələbə sambasını rəqs edir.

Biznesmenlər ikinci mərtəbədə liftdən çıxırlar. Bircə mərtəbə enmək qalır.

– Dişlərini fırçalamısan, – Qrey mənə baxaraq deyir.

– Sənin diş fırçanla.


www.kitabyurdu.blogspot.com

Dodağında azca əyri təbəssüm peyda olur.

– Ah, Anasteyşa Stil, bilmirəm səninlə nə edim?

Qapılar açılır, o, əlimdən tutaraq ardınca aparır.

– Bu liftlərin qəribə səciyyəsi var... – gedə-gedə Kristian düşüncəli halda deyir, daha çox mənə deyil, özünə müraciət edərək. Mən ixtiyarsız olaraq ondan geri qalmamağa çalışıram; indi düşünməyə qabil deyiləm. Beynim ―Hitman‖ otelindəki üç saylı liftdə yerə çırpılaraq darmadağın edilib.

## 6-cı fəsil

Kristian qara rəngli ―tank‖ın – ―Audi‖nin sərnişin oturacağı yerinin qapısını açır və mən içəri daxil oluram: liftdə baş vermiş ehtiras partlayışı haqqında heç nə danışmayaraq. Bunu xatırlatmağa dəyərmi, yoxsa özünü elə göstərir ki, sanki heç nə olmayıb? Mən özüm də bunun baş verdiyinə güclə inanıram – ilk həqiqi öpüşüm. Vaxt keçdikcə o, daha çox, mifə oxşayır – kral Artur əfsanəsi, yaxud batmış Atlantida. Heç nə baş verməyib və baş verə də bilməzdi. Yəqin ki, bu, ilğım idi. Öpüşdən şişmiş dodaqlarıma toxunuram. Heç bir fantaziya yoxdur. Mən artıq əvvəlki kimi deyiləm. Mən bu kişini dəlicəsinə istəyirəm, o da məni.


www.kitabyurdu.blogspot.com

Kristian, adətən olduğu kimi, nəzakətli davranır və azca laqeyd.

Bunu necə anlamalı?

O, mühərriki işə salır, park yerindəki məkanından çıxır və MP3-pleyerini işə salır. Maşının salonuna şirin, sehrli musiqi səsi dolur – iki qadın oxuyur. Əla… hisslərim buxovlardan çıxır və musiqi mənə daha çox həzz verir. Fərəhdən tüklərim ürpəşir. Kristian maşını Park-avenyuya sarı döndərir. O, avtomobili sakit, lakin qətiyyətlə sürür.

– Bu nə musiqidir?

– Delibin ―Akme‖sindən çiçək dueti. Xoşuna gəlir?

– Füsunkardır.

– Hə, əladır, – Kristian mənə baxır və gülümsəyir. Hansısa anda o gəncləşir, qayğısızlaşır, fövqəladə gözəl olur, öz yaşından da cavan. Bəlkə, elə bu, onun qəlbinə açardır? Musiqi? Yerimdə donub-qalaraq, fərəhləndirici və ovsunlayıcı mələk səslərini dinləyirəm.

– Onu bir daha dinləmək olarmı?

– Əlbəttə.

Kristian düyməni basır, musiqi məni xumarlandırır və onun zərif hakimiyyətinə təslim oluram.

– Klassik musiqini xoşlayırsan? – deyə soruşuram, ümid edirəm ki, heç olmasa bu yolla onun şəxsi maraqlarını öyrənə biləcəyəm.

– Mənim eklektik zövqüm var, Anasteyşa. Mən çox şey xoşlayıram, Tomas Tallsdan başlayaraq ―Kinqs of Leon‖a qədər. Hər şey əhvali-ruhiyyədən asılıdır. Bəs sən?

– Elə mən də. Amma Tomas Tallsın kim olduğunu bilmirəm.

– İmkan düşərsə, onun ifasını sənə eşitdirərəm. O, XVI əsr ingilis bəstəkarıdır. Tüdor dövrünün dini musiqisi, – Kristian gülümsəyir. – Ezoterikaya oxşayır, anlayıram, amma o, adamı sehrləyir.

O, düyməni basır, ―Kinqs of Leon‖un mahnısı səslənir. Bu, mənə tanışdır. ―Odda-alovda seks‖. Lap yerinə düşəndir. Stereosistemin dinamiklərindən gələn musiqi mobil telefonun səsini kəsir. Kristrian sükandakı düyməni basır.

– Qrey, – kəsik-kəsik deyir o. O, necə də kobuddur.

– Mister Qrey, bu Uelçdir. Məndə sizə gərək olan informasiya var. – Dinamiklərdə qıcırtıdan mexaniki səs gəlir.

– Yaxşı, onu elektron poçtuma atın. Nəsə əlavə etmək istərdiniz?

– Yox, ser.

Qrey düyməni basır, danışıq bitdi, yenidən musiqi səslənir. Nə ―salam‖, ―nə sağ ol‖. Yaxşı ki, onun yanında işləmək barədə təklifi qəbul eləmədim. Bu fikrin özündən belə diksinirəm. Öz işçilərinə qarşı o, çox tələbkar və soyuqqanlıdır.

Telefon zəngi yenidən musiqi sədalarını yarıda kəsir.

– Qrey.

– Məxfilik haqqında müqavilə poçtunuza göndərilib, mister Qrey. – Qadın səsi.

– Yaxşı. Başqa heç nə yoxdur, Andrea?

– Xoş gününüz olsun, ser.

Kristian sükandakı düyməni basaraq əlaqəni kəsir. Musiqi yenidən səslənməyə macal tapmamış telefon zəngi səslənir. İlahi, yəni o, bütün günü bu sonsuz telefon zənglərinə cavab verməli olur?

– Qrey, – deyir o.

– Salam, Kristian. Hə, vəziyyət necədir? Onunla yatdınmı?

– Salam, Eliot. Telefon danışığım eşidilir və mən maşında tək deyiləm. – Kristian ah çəkir.

– Yanındakı kimdir?

– Anasteyşa Stil.

– Salam, Ana!

―Ana!‖

– Sabahın xeyir, Eliot!

– Sizin haqqınızda çox şeylər eşitmişəm, – səsini alçaldaraq deyir o.

– Keytin dediyi sözlərin heç birinə inanmayın.

Eliot gülür.



www.kitabyurdu.blogspot.com

– Mən Anasteyşanı evə çatdırım. – Kristian vurğulu şəkildə adımı tam şəkildə tələffüz edir. – Səni də götürüm?

– Hə, əlbəttə.

– Görüşərik.

Yenidən musiqi səslənir.

– Niyə mənə ―Anasteyşa‖ deyə müraciət edirsən?

– Çünki bu, sənin adındır.

– Mənim ―Ana‖dan xoşum gəlir.

– Hələ də? – deyə o donquldanır.

Biz, demək olar ki, evə çatmışıq. Nə tez!

– Anasteyşa, – tələsmədən Qrey tələffüz edir. Ona acıqlı halda nəzər yetirirəm, amma o, buna fikir vermir. – Liftdə baş verən şey bir daha təkrarlanmayacaq. İndi hər şey plan üzrə gedəcək.

Mənzilimizin astanasında xatırlayıram ki, o, mənim harada yaşadığımı heç soruşmayıb. Ah, hə… axı o, mənə kitablar göndərmişdi və deməli, ünvanımı bilir. Mobil telefonları izləmək imkanı olan və şəxsi helikopterə malik olan insan üçün ünvanı aydınlaşdırmaq problem deyil.

Niyə o, məni bir daha öpmək istəmir? Xətrimə dəyir və səbəb mənə aydın deyil. Qrey kübarlıqla maşından düşür və mənimçün qapı açmağa tələsir. Əsl centlmen, liftdəki dəyərli anlar istisna olmaqla. Mən qızarıram, dodaqlarımızın toxunuşunu xatırlayaraq və ani olaraq dərk edirəm ki, ona toxuna bilməmişəm. Mən barmaqlarımı bu çox qəşəng, dağınıq saçlara keçirmək istəyirdim, amma əllərimi tərpətmək halında belə deyildim. Heyifsilənirəm xatırlayaraq.

– Liftdəki xoşuma gəldi, – maşından düşərkən astaca deyirəm. Sonra zəif tərzdə köks ötürüb düz giriş qapısına sarı yollanıram.

Keyt və Eliot yemək masası arxasında oturublar. On dörd min dollarlıq kitablar heç yerdə görünmür. Di yaxşı. Mənim onlarla bağlı öz planlarım var. Keytin simasında qəribə bir təbəssüm dolaşır, sanki coşqun gecədən sonra hələ də özünə gəlməyib.

– Salam, Ana! – Keyt yerindən qopur və məni qucaqlayır, sonrasa yaxşıca nəzərdən keçirməkdən ötrü uzadılmış əllər məsafəsində məni özündən ayırır. Üzünü turşudaraq Qreyə tərəf çevrilir. – Sabahın xeyir, Kristian, – deyir və onun səsinin ahəngində azca düşmənçilik hiss olunur.

– Miss Kavana, – deyə o sırf rəsmi tərzdə tələffüz edir.

– Kristian, onun adı Keytdir, – deyə Eliot işə qarışır.

– Keyt. – Qrey nəzakətlə başıyla təsdiqləyir və gülümsəyən, hər ikimizi bağrına basmaq üçün yerindən qalxan Eliota acıqlı halda baxır.

– Salam, Ana. – Onun mavi gözləri sevinclə parlayır və o, ilk baxışdan xoşuma gəlir. O Kristiana heç oxşamır… düzdür, axı onlar övladlığa götürülmüş uşaqlardır.

– Salam, Eliot, – deyə mən də gülümsəyir və dodağımı dişləyirəm.

– Eliot, getmək vaxtıdır, – Kristian təzyiqlə tələffüz edir.

– Gəlirəm.

O, Keytə sarı dönür, onu qucaqlayır və uzun-uzadı öpür. Vəssalam… yer tapdılar da. Xəcalətdən tər tökərək dayanmışam, Kristian isə diqqətlə mənə baxır. Acıqlı halda gözlərini qıyır. Niyə o, məni öpə bilmir? Eliot Keytdən qopmur, onu öpərkən elə əyilib ki, saçları az qala döşəməyə dəyir.

– Sağ ol, qızcığaz.

Keyt sadəcə əriyir. Əvvəllər heç vaxt onu bu cür görməmişəm: ağlıma bu sözlər gəlir – ―sevimli‖ və ―üzüyola‖. Üzüyola Keyt! Bax a! Eliot, yəqin ki, əla.... Kristian gözlərini qapadır və donuq ifadə ilə baxır, hərgah deyəsən, onunçün bu mənzərə çox xoşdur. O, ―at quyruğu‖ndan çıxmış telimi qulağımın arxasına keçirir və bu toxunuşdan nəfəsim tutulur. Başımı onun əlinə doğru azca əyirəm. Kristianın baxışında hərarət duyulur və o, barmağını üst dodağıma toxundurur. Damarlarımdakı qan cuşa gəlir. Və o dəqiqə də dayanır bu coşqu – Qrey əlini götürür.

– Hələlik, quzum, – deyə o, astaca tələffüz edir və mən təbəssümümü gizlədə bilmirəm – bu, ona heç bənzəməyən bir jest idi. Axı anlayıram, bu lağdır, lakin bu müraciət qəlbimin dərinliyində mənə xoş gəlir. – Saat səkkizdə ardınca gələcəm.

Qrey çevrilir, qapını açır və çölə çıxır. Eliot onun ardınca maşına doğru gedir, lakin maşına oturmazdan öncə Keytə öpüş göndərir. Mən qısqanclıq hiss edirəm.

– Hə, de görək aranızda nə oldu? – deyə Keyt, onların maşına oturaraq uzaqlaşmaqlarına baxaraq soruşur. Onun səsində aydın şəkildə coşqun maraq hiss olunur.

– Yox, – deyə sorğu-suala son qoymaq üçün acıqlı halda dişlərimi qıcayıram. Biz mənzilə dönürük. – Amma sənə yüzəyüz nəsə olub... – həsədimi gizlədə bilmirəm. Keyt üçün istənilən kişini əldə etmək su içmək kimidir. O gözəl, seksual, hazırcavab, diribaşdır… məndən fərqli olaraq. Amma onun cavab təbəssümü yoluxucudur.

– Onunla bu gün axşam görüşürəm. – O, əllərini sinəsinə sıxır və uşaq kimi coşqudan havaya atılır. Keyt öz sevincini və həyəcanını gizləmək gücündə deyil və bu, məni sevindirir. Xoşbəxt Keyt… maraqlıdır.

– Kristian məni bu axşam Sietldəki evinə dəvət edib.

– Sietlə?

– Hə.

– Bəlkə orda?..

– Ümid edirəm.

– O, xoşuna gəlirmi?

– Hə.

– O qədər xoşuna gəlir ki, sən hər şeyə hazırsan?..

– Hə.

Keyt qaşlarını çatır.

– Oho! Ana Stil nəhayət ki, aşiq olub və onun seçdiyi Kristian Qreydir, gözəl oğlan və multimilyarder.

– Aha. Hər şey məhz pula görədir, – cavab verirəm və hər ikimiz uğunub gedirik.

– Yeni bluz-köynək? – deyə Keyt soruşur və mən ötən gecənin bütün xoşagəlməz təfərrüatlarını, danışmağa məcbur oluram.

– O heç səni öpdümü? – kofe dəmləyə-dəmləyə soruşur o.



www.kitabyurdu.blogspot.com

Qızarıram.
– Bircə dəfə.
– Bircə dəfə! – deyə Keyt gülür.
Xəcalət çəkə-çəkə başımla təsdiqləyirəm.
– O, çox təmkinlidir.
Keyt üzünü turşudur.
– Qəribədir.
– Hə! – deyə donquldanıram.
– Deməli, bu gün axşam, sən sadəcə, füsunkar olmalısan.
Hə də… görünür, prosedura uzun çəkəcək, ağrılı və alçaldıcı.
– İşə getmək vaxtımdır.
– Gecikmərik.
Keyt əlimdən tutaraq məni öz otağına aparır.

***

Alıcılar çox olsa da, ―Kleytons‖da keçən gün sonsuzluğa qədər uzanır. Buna görə də mağazanın bağlanmasından sonra əlavə iki saat işləyirəm: malları rəflərə düzürəm. Sırf mexaniki məşğuliyyətdir, amma mənə düşünmək imkanı verir.

Keytin sayıq və düzünü desək, nəzakətsiz rəhbərliyi ilə ayaqlarımın və qoltuqlarımın altı tərtəmiz qırxılıb, qaşlarım alınıb və nəyləsə boyanıb. Heç də xoş deyil, amma Keyt məni inandırıb ki, indi kişilər bunu bəyənir. Maraqlıdır, o məndən daha nə gözləyir? Keyti inandırmalı oldum ki, onu özüm istəyirəm. Nədənsə onun Qreyə inamı yoxdur. Ola bilsin ki, o çox ciddi və rəsmiyyətçidir. Söz verdim ki, Sietlə çatan kimi onu xəbərdar edəcəyəm. Helikopter haqda heç nə demədim, yoxsa o, təlaşa düşərdi.

Hələ Xose ilə məsələni həll etmək lazımdır. Mənə üç ismarıc göndərib və səkkiz dəfə zəng edib, amma mən hələ zənglərə cavab verməmişəm. İki dəfə də evə zəng edib və Keytlə danışıb. Keyt harda olduğumu ona deməyib, əlbəttə, yəqin anlayacaq ki, sərgüzəştlərimi ört-


www.kitabyurdu.blogspot.com

basdır edir. Keyt elə-belə izi itirən deyil. Qoy əzab çəksin. Hələ də ona acıqlıyam.

Kristian hansısa sənəd işlərindən söz açmışdı və bilmirəm, o, zarafat edirdi, yoxsa ciddiydi. İndi gəl tap görək də. Əsəblərimi cilovlaya bilmirəm. Bu gecə!.. Mən buna hazırammı? Daxili ilahəm hirsli halda kiçik ayaqlarını bərkdən döyəcləyir. O, artıq çoxdan buna hazırdır. Həm də Kristian Qreylə. Amma mən hələ də anlamıram, o məndə nə tapıb – boz siçan Anasteyşa Stildə.

Qrey təbii ki, vaxt məsələsində dəqiqdir və mən ―Kleytons‖dan çıxdıqda, qara ―Audi‖ məni qapıda gözləyir. Kristian sərnişin qapısını açmaq üçün maşından çıxır və mehribancasına gülümsəyir.

– Salam, miss Stil, – o deyir.

– Axşamınız xeyir, mister Qrey, – deyə nəzakət göstərib başımla onu salamlayır və arxa oturacaqda otururam. Sükan arxasında Teylordur. – Salam, Teylor.

– Axşamınız xeyir, miss Stil.

Kristian o biri tərəfdən oturur, əlimdən tutur və onun toxunuşu bütün bədənimdə üzücü bir əks-səda verir.

– İşlər necədir? – deyə o soruşur.

– Baş qaşımağa vaxt yox idi, – istəkdən doğan xırıltılı səslə cavab verirəm.

– Hə, bu gün mənim üçün də yorucu bir gün idi, – o, tamamilə ciddidir.

– Nə edirdin ki?

– Eliotla piyada gəzirdik.

Onun böyük barmağı barmaqlarımın sümüklərinə incəliklə tumar çəkir, ürəyim az qala nəbzini dayandırır, tənəffüsüm sürətlənir. O, buna necə nail olur? O yalnız yüngülcə əlimə toxunub, hormonlarsa indidən çalıb-oynayır.

Səfər uzun çəkmir və mən gəlib çatdığımızı o qədər də tez anlamıram. Maraqlıdır, helikopter harda ola bilər? Hər yerdə tikililərdir,


www.kitabyurdu.blogspot.com

hətta mən də bilirəm ki helikopterin havaya qalxması üçün meydança lazımdır. Teylor maşını dayandırır, çölə çıxır və mən tərəfdən qapını açır. Bir an içində Kristian yenidən yanımda peyda olur və əlimdən tutur.

- Hazırsan? – deyə soruşur. Başımla təsdiqləyirəm və əlavə etmək istəyirəm ―Hər şeyə‖, amma həyəcandan bir kəlmə belə tələffüz edə bilmirəm.

- Teylor.

Zərif bir baş yelləmə ilə o, sürücüyə sərbəstlik verir. Biz binaya daxil oluruq və düz liftlərə doğru gedirik. Lift! Yenidən səhərki öpüşümüzü xatırlayıram. Bütün günü o, ağlımdan çıxmırdı. ―Kleytons‖da, piştaxta arxasında durmuşdum, fikirlərim isə çox uzaqda idi. Missis Kleytons iki dəfə məni səsləməli oldu – məni göylərdən yerə endirməkdən ötrü. Kristian yuxarıdan-aşağı mənə baxır, dodaqlarında isə xəfif təbəssüm peyda olur. Aha! Mənim kimi o da düşünür.

- Burda cəmi üç mərtəbə var. – Onun boz gözlərində gülüş qığılcımları işıldayır. O, aşkar şəkildə fikirlərimi oxuyur. Dəhşət!..

Liftdə öz hisslərimi heç nəylə aşkar etməməyə çalışıram. Lakin ikilikdə qaldıqda yenidən aramızda qəribə bir cazibə qüvvəsi yaranır. Özümə hakim olmaq üçün cidd-cəhdlə gözlərimi qapadıram. O, biləyimi bərkdən sıxır. Cəmi beşcə saniyə və biz binanın damına yetişirik. Meydançada helikopter dayanıb, üzərində mavi hərflərlə ―Qrey enterprayzes‖ yazısı və şirkətin emblemi var. ġirkət mülkiyyətindən məqsədə uyğun olmayan istifadə – bunu belə qeydə alarıq.

Qrey məni kiçik bir kabinetə aparır, orda masa arxasında hansısa yaşlı bir dayı oturub.

- Uçuş vərəqəniz, mister Qrey. Maşın yoxlanılıb, ser. Uça bilərsiniz.

- Sağ olun, Co.

Kristian səmimiyyətlə gülümsəyir.

Oho! Kimsə onun nəzakətiylə mükafatlandı… yəqin ki, bu, şirkət əməkdaşı deyil. Mən qocaya ehtiram hissiylə baxıram.

- Gedək, – deyir Kristian və biz helikopterə sarı yollanırıq. Yaxından o daha böyük görünür, əvvəl göründüyündən fərqli olaraq. Mən gözləyirdim ki, o, idman avtomobilindən iki dəfə böyükdür, orda səkkiz yerlik kürsü var. Kristian qapını açır və mənə pilot yanındakı yeri göstərir.

- Otur və heç nəyə toxunma, – ardımca helikopterə girərək deyir.

Qapı gurultu ilə bağlanır, yaxşı ki, hələ meydançanın hər tərəfində projektorlar yanır, yoxsa kiçik kabinədə heç nə görünməzdi. Yerimi rahatlayıram, Kristian isə kəmərləri bərkitmək üçün əyilir. Bu dörd bərkitmə nöqtəsi olan sistemdir, bircə mərkəzi toqqaya bağlanır. Kristian yuxarı boyun qayışını dartıb çəkir. O, mənə elə yaxındır ki, bir azca da əyilsə, burnum saçlarına dəyəcək. Ondan xoş qoxu gəlir və təmizlik saçır, amma mən ölümünə kürsüyə bərkidilmişəm və yerimdən tərpənə bilmirəm. Kristian mənə baxır və yalnız ona məlum olan zarafatla gülümsəyir. O, şəhvət oyadacaq qədər mənə yaxındır. O, yuxarı kəmərləri dartanadək nəfəsalmanı dayandırıram.

- Hə, indi heç yerə qaça bilməzsən, – deyə Kristian pıçıldayır və onun gözləri adamı yaxıb-yandırır. – Nəfəs al, Anasteyşa, nəfəs al. – O, nəvazişlə yanağıma toxunur, uzun barmaqlarını çənəmdə gəzdirir və onu yuxarı qaldırır. Sonrasa bir qədər əyilərək, dodaqlarımda kiçik bir öpüş izi qoyur, bundan bütün içim cuşa gəlir. – Kəmərləri xoşlayıram.

- Nə?

Kristian yanımda oturur, kəməri çəkib bağlayır və sayagəlməz siferblatlar və indikatorlardan inamla baş çıxararaq uzun uçuşqabağı prosedura başlayır. İşıqlar bir-bir yanmağa başlayır, bütün cihaz paneli göz vurur.

- Qulaqcıqları tax.

İtaətkarcasına əmrlərə tabe oluram və bu vaxt pərlər fırlanmağa başlayır. Mənə elə gəlir ki, elə bu an qulaqlarım kar olacaq. Kristian da qulaqcıqları taxır və dəstəkləri şaqqıldatmağı dayandırmır.

- Bütün sistemlərin işini yoxlayıram, – qulaqcıqda onun səsi gəlir.

Gülümsəyirəm.


kitabyurdu.blogspot.com

- Nə etdiyini dəqiq bilirsən?

- Artıq dörd ildir ki, peşəkar pilotam, Anasteyşa. Mənimlə təhlükəsizlikdəsən, – deyə o, yırtıcı təbəssümlə gülümsəyir və hər halda havada, – deyə göz vuraraq əlavə edir. Göz vurur… Kristian!

- Hazırsan?

Gözlərimi qorxudan geniş açaraq, başımla təsdiqləyirəm.

- Yaxşı. Dispetçer məntəqəsini əlaqəyə çağırıram. Portlend, bu, Çarli Tanqo Qolfdur – Qolf-Otel, uçuşa hazıram. Qəbulu təsdiqləyin.

- Çarli Tanqo Qolf, uçuşa icazə verirəm. Min dörd yüzə qalxın, sonra sıfır-bir-sıfır kursu istiqamətini götürün.

- Sizi anladım, dispetçer qülləsi. Havaya qalxıram. Əlaqənin sonu... getdik, – deyə mənə müraciət edərək Kristian əlavə edir və helikopter aramla havaya qalxır.

Portlend ayaqlarımız altında yox olur və biz ABġ-ın hava məkanına yönəlirik, hərgah mədəm qəti şəkildə Oreqonda qalmağa qərarlıdır. Sən bir mənzərəyə bax! Parlaq işıqlar kiçilir, hardasa aşağıda lap kiçik işıldaquşlara çevrilir. Sanki dünyaya akvariumdan baxırsan. Biz getdikcə daha yuxarı qalxırıq və artıq aşağıda heç nəyi görmək mümkün olmur. Ətrafda zülmətdir, lap gözlərini deş, yolumuzu işıqlandırmaq üçün hətta Ay görünmür. O, helikopteri necə havaya qaldırır, hara uçuruq?

- Nədir, qorxuludur? – qulaqlarımda Kristianın səsi eşidilir.

- Hardan bilirsən ki, istiqamətimiz düzdür?

- Budur bax, – deyə o, uzun şəhadət barmağı ilə cihazlardan birini göstərir. Elektron kompas. – Bu, ―Avtrokopter‖ EC 135-dir – öz sinfində ən təhlükəsiz maşın. O, gecə uçuşları üçün xüsusi avadanlıqla təchiz edilib.

Kristian mənə baxır və gülümsəyir.

- Evimin damında helikopter meydançası var. Ora uçuruq.

Əlbəttə, o, helikopter meydançası olan evdə yaşamalıdır, başqa cür ola bilməz. Biz onunla sanki ayrı-ayrı planetlərdənik. Panelin işığı üzümüzü işıqlandırır. Kristian diqqətlidir və cihazlardan gözünü əsla çəkmir. Endirilmiş kirpiklərin altından onun cizgilərinə baxıram. Profil gözəldir.

Düz burun, enli çənə… mən dilimi onun üstündə gəzdirmək istərdim. O, üzünü qırxmayıb, buna görə də perspektiv ikiqat cazibəlidir. Üzündəki tükləri barmaqlarımda, dilimin altında, dərimdə hiss eləmək…

- Gecə uçarkən heç nə görünmür. Cihazlara əsasən istiqamət götürmək lazım gəlir, – erotik fantaziyalarıma onun səsi daxil olur.
- Hələ çox uçacağıq? – deyirəm birnəfəsə. Mən seks haqqında heç düşünməmişdim, yox, yox, yenə də yox.
- Bir saatdan da az, çünki külək arxadan əsir.

Oho! Sietlə bir saatdan az yol qalır… Sürət pis deyil, indi aydındır niyə biz məhz uçuruq.

Təxminən bir saatdan sonra hər şey bəlli olacaq. Kəpənəklər qarnımda hey uçurlar. Maraqlıdır, o, mənə sürpriz nə hazırlayıb?

- Necəsən, Anasteyşa?
- Normal, – qısa və kəsik-kəsik cavab verirəm.

Məncə, o gülümsəyir, amma qaranlıqda bu görünmür.

Kristian yenidən tumbleri şaqqıldadır.

- Portlend, bu Çarli Tanqodur, min dörd yüzdə gedirəm, qəbul, – o, dispetçer qülləsi ilə informasiya mübadiləsi aparır. Lap əsl pilot kimi. Mənə elə gəlir ki biz Portlendin nəzarət zonasını tərk edir və Sietlin hava məkanına daxil oluruq. – Sizi anladım, əlaqənin sonu.
- Bax. – Kristian mənə uzaqda, irəlidəki işıq qığılcımını göstərir. – Bu Sietldir.
- Sən həmişə qadınları valeh etməyə çalışırsan? Onları özünlə helikopterdə uçmağa aparırsan? – Mənə doğrudan da maraqlıdır.
- Mən heç vaxt özümlə qızları aparmamışam, Anasteyşa. Bu ilk dəfədir, – onun səsi sakit və ciddidir.

Ah! Necə də gözlənilməzdir. Birinci dəfə? Bəs nə? Bir yerdə yataq?

- Təəssürat necədir?
- Sadəcə həyəcandan əriyirəm, Kristian.

O gülümsəyir.

- Əriyirsən?

Başımla təsdiqləyirəm.

- Sən elə… peşəkarsan.

- Sağ olun, miss Stil, – Kristian nəzakətlə cavab verir. Mənə elə gəlir ki, o məmnundur, amma buna əmin deyiləm.

Müəyyən müddət danışmadan uçuruq. Sietlin parlaq nöqtəsi get-gedə böyüyür.

- Sietl-Takoma Çarli Tanqo Qolfu çağırır. Eskalaya doğru müəyyən edilmiş istiqaməti saxlayın. Təsdiqləyin. Qəbul.

- Danışan Çarli Tanqodur. Sizi anladım, Sietl-Takoma. Əlaqənin sonu.

- Bu xoşuna gəlir? – deyirəm.

- Nə? – Siferblatların bulanıq işığında onun sualedici baxışını sezirəm.

- Uçmaq.

- Helikopterin idarə edilməsi yüksək diqqət tələb edir. Əlbəttə, bu xoşuma gəlir. Əslində mən planerləri xoşlayıram.

- Planerləri?

- Hə. Planerləri və helikopterləri, onda da, bunda da uçuram.

- Bax a.

Bahalı şakərlərdir. Xatırlayıram, o mənə bunu müsahibəsində demişdi. Mənsə mütaliəni xoşlayıram və hərdənbir kinoya gedirəm. Aviasiyadan başım çıxmır.

- Çarli Tanqo, daxil ola bilərsiz, əlaqənin sonu, – dispetçerin səsi mənasız fikirlərimi kəsir yarıda kəsir. Kristian qərarlı və sakit şəkildə ona cavab verir.

Sietl yaxınlaşır. Biz artıq şəhər kənarındayıq. Mənzərə, doğrudan da, heyranedicidir. Sietl gecə, yüksəkdən …

- Valehedicidir, düzdür? – Kristian deyir.

Mən təsdiqləyici mənada başımı tərpədirəm. ġəhər qeyri-real görünür… sanki ona böyük ekrandan baxıram, Xosenin sevimli –Tiyə üstündə qaçan‖ filmi kimi. Xoseni və onun məni öpmək üçün etdiyi uğursuz


kitabyurdu.blogspot.com

cəhdi xatırlayıram. Yəqin, bu, yetərindən artıq amansızlıqdır, hər halda, ona zəng etmək lazım idi. Yaxşı… Sabahadək gözləyər.

- İki dəqiqədən sonra lazımi yerdə olacağıq, – Kristian biganəliklə deyir və qəfildən gicgahlarımdakı qan döyünməyə başlayır və məsamələrimdə adrenalin axır. O, dispetçerlə danışır, amma mən artıq buna qulaq kəsdirmirəm. İlahi… bir azdan huşumu itirəcəm. Taleyim onun əlindədir.

İrəlidə damında helikopter meydançası olan göydələn göründü. Onun üzərində ağ hərflərlə ―Eskala‖ yazılıb. O getdikcə yaxınlaşır, yaxınlaşır… mənim həyəcanım kimi. Ümid edirəm onun gözləntilərini boşa çıxarmayacam. O elə biləcək ki, mən ona layiq deyiləm. Gərək Keytə qulaq asaydım, onun paltarlarından nəsə götürəydim, amma qara cinsim daha çox xoşuma gəlir. Əynimdə üstdən nanə rəngli bluz köynək və Keytin qarderobundan qara pencək var. Tam ədəbli görkəmdir. ―Öhdəsindən gələcəm. Öhdəsindən gələcəm‖, – deyə oturacağın kənarından yapışaraq mantra kimi təkrarlayıram.

Helikopter havada asıla qalır və Kristian onu damdakı meydançaya endirir. Ürəyim köksümdən qopur. Özüm də bilmirəm mənə nə olub: əsəbi intizar, sapsağlam gəlib çatmağımıza görə rahatlanma, yoxsa uğursuzluq qorxusu? O, motoru söndürür: pərlərin hərəkəti tədricən ləngiyir, gurultu itir və budur, artıq kəsik tənəffüsümdən başqa heç nə eşidilmir. Kristian özünün və mənim qulaqcıqlarımı çıxarır.

- Vəssalam, gəlib çatdıq, – astaca deyir o.

Sifətinin yarısına projektorların parlaq işığı düşüb, digər yarısı dərin kölgədədir. Qara cəngavər və ağ cəngavər – Kristian üçün yerinə düşən məcazdır. Hiss edirəm ki, o gərgindir. Çənəsi və gözləri aşağı enib. O, əvvəlcə öz kəmərlərini açır, sonra mənimkiləri. Üzü düz yanımdadır.

- Sən istəmədiyini etməməlisən. Anlayırsan? – Kristian ciddi danışır, hətta yetərindən artıq, boz gözlər heç bir hissi aşkara çıxarmır.

- Mən iradəmə zidd olan heç nə etməyəcəyəm, – öz sözlərimin doğruluğuna əmin deyiləm, çünki indi mənimlə yanaşı oturan kişi naminə hər şeyə hazıram. Amma bu sözlər işə yaradı. O inandı.

Mənə diqqətli bir nəzər yetirərək Kristian ahəstə hərəkətlə (özünün ucaboyluluğuna baxmayaraq) qapıya yaxınlaşır, yerə atılaraq onları taybatay açır və əlini uzadır ki, mən meydançaya düşə bilim. Çöldə hava çox küləklidir və mən özümü pis hiss edirəm: otuzuncu mərtəbə hündürlüyündəyəm və ətrafda heç bir sədd yoxdur. Yol yoldaşım belimdən yapışır və möhkəm şəkildə məni özünə çəkir.

- Gedək, – deyə Kristian küləkli havada qışqıraraq əmr edir. Liftə yaxınlaşırıq, o, paneldəki kodu yığır və qapı açılır. İçəri istidir, divarlar güzgülü şüşədən düzəldilib. Hara baxırsan-bax, hər yerdə Kristianın sonsuz əksləridir və ən xoş təsir bağışlayan – o, məni qucaqlayır. Kristian digər düyməni basır, qapılar bağlanır və lift aşağı enir.

İki saniyə sonra biz tamamilə ağ rəngli foyeyə düşürük, onun ortasında qara ağacdan böyük dairəvi masa var, masanın üstündəsə ağ çiçəkləri olan iri güldan. Bütün divarlardan rəsmlər asılıb. Kristian ikiqat qapıları açır və ağ çalar füsunkar, işıqlı zala kimi dəhliz uzunu davam edir. Qonaq otağı. Nəhəng – bu hələ yumşaq ifadədir. Uzaqdakı divar eyvana gedib çıxır.

Sağdan – nalşəkilli divan, onun üstündə on nəfər rahatlıqla yerləşər. Onun qarşısında paslanmaz poladdan (bəlkə də platin – kim bilir) müasir soba. Soba artıq yanır və parlaq şölə saçır. Solda girişlə yanaşı mətbəx ərazisi. O tamamilə ağ rəngdədir, qara ayaqlı masa üst taxtası və altınəfərlik bar piştaxtası istisna olmaqla.

Mətbəxlə yanaşı şüşə divarın qarşısında yemək masası, ətrafında on altı stul qoyulub. Otağın küncündə parlaq qara royal var. Aydındır… o hələ fortepiano da çalırmış. Divarlardan müxtəlif forma və ölçülü rəsmlər asılıb. Ümumiyyətlə, mənzil daha çox qalereyaya oxşayır, nəinki evə.

– Pencəyi çıxarmaq istəmirsən? – deyə Kristian soruşur.

Başımı yelləyirəm. Damdakı külək ucbatından mənə hələ də soyuqdur.

– İçəcəksən?

Mən aşağı endirilmiş kirpiklərimin arasından ona baxıram. O gecədən sonra? O, zarafat edir? Ağlıma ondan ―Marqarita‖ istəmək keçir, amma məndə həyasızlıq çatmır.

– Mən ağ şərab içəcəm. Mənimlə içərsən?

– Hə, yəqin ki.

– ―Pyui-Füme‖ səni qane edir?

– Mən şərablardan az baş çıxarıram, Kristian, özün seç, – sakitcə və inamsız deyirəm. Ürəyim bərkdən döyünür. Qaçmaq istəyirəm. Bura əsl saraydır. Bill Geyts ruhunda. Burda nə işim var? ―Guya bilmirsən!‖ – deyə təhtəlşüurum fınxırır. Əlbəttə, bilirəm: Kristian Qreyin yatağına düşmək istəyirəm.

– Tut, – deyə o, şərab dolu qədəhi mənə uzadır. Hətta büllur qədəhlər belə ağır, müasir dizaynlı zənginlikdən xəbər verir.

Bir qurtum içirəm: şərab yüngül, təzə və ləzizdir.

– Susursan və hətta daha çox qızarmırsan. Doğrudan da, Anasteyşa, səni heç zaman belə solğun simalı görməmişəm, – astaca deyir Kristian. – Yemək istəyirsən?

Başımı yelləyirəm. İstəyirəm, amma yemək deyil.

– Çox böyük mənzilin var.

– Böyük?

– Böyük.

– Hə, böyükdür, – deyə razılaşır və onun gözləri parlayır.

– Sən fortepiano çalırsan? – çənəmin hərəkətilə royalı göstərirəm.

– Hə.

– Yaxşı?

– Hə.

– Əlbəttə. Amma heç bacarmadığın nəsə varmı?


kitabyurdu.blogspot.com

– Hə… amma az. – Kristian qədəhdən bir qurtum şərab içir, məndən gözünü çəkməyərək. Otağa göz gəzdirərkən üstümdə onun baxışlarını hiss edirəm. Əslində, buna otaq demək düzgün olmazdı. Otaq deyil, həyat kredosudur.

– Oturmazsan?

Başımla təsdiqləyirəm; o, mənim əlimdən tutaraq ağ taxta doğru aparır. Qəfildən ağlıma gəlir ki, sanki özümü Tess Darbifild kimi hiss edirəm, o, əclaf Aleks d`Erbervillin yeni evinə baxarkən. Bu fikir məni gülümsəməyə məcbur edir.

– Gülməli nə var ki? – Kristian yanımda oturur, biləyi ilə balınca dayaqlanır və üzünü mənə çöndərir.

– Niyə mənim üçün məhz ―d`Erbervill nəslindən olan Tess‖i seçdin? – deyə soruşuram.

O, deyəsən, sualdan təəccüblənib.

– Özün deyirdin ki Tomas Hardi xoşuna gəlir.

– Elə bu? – deyə məyusluğumu gizlədə bilmirəm.

Kristian dodaqlarını kip sıxır.

– Mənə elə gəldi ki, o yerinə düşür. Sənə Enjel Kler kimi uzaqdan pərəstiş edə, yaxud səni Aleks d`Erbervill kimi alçalda bilərəm, – boz gözlər təhlükəli və bədxahlıqla parlayır.

– Əgər mənim iki seçimim olsaydı, mən alçalmanı seçərdim, – deyə pıçıldayıram. Təhtəlşüurum dəhşətlə mənə baxır.

Kristian ürpənmiş halda köks ötürür.

– Anasteyşa, bəsdir dodağını dişlədin, zəhmət olmasa, bunu dayandır. Bu, məni dəhşətli dərəcədə yayındırır. Sən nə dediyini anlamırsan.

– Elə buna görə burdayam.

– Razıyam. Bir dəqiqə gözlə, yaxşı? – O, otağın uzaq küncündəki geniş qapı arakəsməsində yox olur və iki dəqiqə sonra geri qayıdır, əlində hansısa sənəd var. – Məxfiliyin qorunması haqqında müqavilə, – Kristian çiyinlərini çəkir və kağızları mənə uzadarkən, özünü azca utancaq aparır. –

Buna vəkilim təkid edir. – Mən tamamilə heç nə anlamıram. – Əgər sən ikinci variantı – alçalmanı seçirsənsə, burda imza qoymalısan.

– Əgər mən heç nəyi imzalamaq istəmirəmsə?

– Onda Enjel Klerin variantı.

– Bu müqavilə nəyi ehtiva edir?

– Sən öhdəlik götürürsən ki, haqqımızda heç kimə heç nə deməyəcəksən. Heç nə haqda heç kimə.

İnamsız halda ona baxıram. Deyəsən, işlər çox pisdir. Amma maraq mənə qalib gəlir.

– Yaxşı, imzalayaram.

Kristian qələmi mənə uzadır.

– Sən müqaviləni heç oxumaq da istəmirsən?

– Yox.

O, üzünü turşudur.

– Anasteyşa, heç nəyi oxumadan imzalamaq olmaz!

– Kristian, başa düş, mən haqqımızda heç kimə heç nə danışmaq fikrində deyiləm. Hətta Keytə də. Lakin əgər bu, sənin üçün çox mühümdürsə, sənin vəkilin üçün … göründüyü kimi, ona hər şeyi danışırsan, qoy olsun, imzalayaram.

O, yuxarıdan-aşağıya məni süzür və qaşqabaqlı halda başı ilə təsdiqləyir.

– Ədalətli qeyddir, miss Stil, heç nə etmək olmaz.

Hər iki nüsxəni səliqəsiz imzalayır və ona verirəm. Sonra ikinci nüsxəni qatlayıb çantaya qoyuram və şərabdan böyük qurtum alıram. Mən əslində olduğumdan daha cəsarətli görünürəm.

– Deməli, bu gün axşam sən mənimlə sevişəcəksən, Kristian?

Lənət şeytana! Doğrudanmı mən bunu dedim? İlk anda heyrətdən onun ağzı açıla qalır, amma o, tez özünə gəlir.

– Yox, Anasteyşa, yox. Birincisi, mən sevişmirəm. Mən s...işirəm… amansızcasına. İkincisi, biz hələ sənəd işlərini bitirməmişik və üçüncüsü,


kitabyurdu.blogspot.com

sən bilmirsən ki, qarşıda səni nə gözləyir. Sənin fikrini dəyişmək imkanın var. Gedək, mən sənə oyun otağını göstərəcəm.

Mən heyrətdəyəm. S...işirəm! Lənət şeytana, bu, adamı vəcdə gətirir. Amma oyun otağında nəyə baxmalıyıq? Tapmaca.

– Mənə oyuncaqlarını göstərmək istəyirsən?

Kristian bərkdən gülür.

– Yox, Anasteyşa, tapmadın. Gedək. – O, yerindən qalxır və əlini mənə uzadır. Mən yenidən onunla dəhlizlə gedirəm. İçəri girdiyimiz ikiqat qapılardan sağ tərəfdə, pilləkənə aparan başqa bir qapı var. Biz ikinci mərtəbəyə qalxır və sağa dönürük. Kristian cibindən açarı çıxararaq qapını açır və dərindən köks ötürür.

– Sən istənilən an gedə bilərsən. Helikopter hazır vəziyyətdə dayanıb və o, səni istədiyin yerə aparacaq. Gecə burda qala və səhər də gedə bilərsən. Özün qərar ver.

– Bu lənətə gəlmiş qapını aç görək, Kristian.

O, qapını taybatay açır və məni içəri buraxmaq üçün geri çəkilir. Dərindən köks ötürürəm və irəliyə doğru addım atıram…

– Deyəsən, zaman maşınında XVI əsrə gedib çıxmışam, ispan inkvizisiyası dövrünə.

İşə bax a!

kitabyurdu.blogspot.com

## 7-ci fəsil

Nəzərimi cəlb edən ilk şey qoxu olur. Dəri və zəif sitrus ətriylə birgə cila iyi gəlir. İşıq zəif, boğuqdur. Mənbəyi görünmür, dağınıq parlaqlıq hardansa tavan karnizindən gəlir. Tünd-qırmızı rəngdə boyadılmış divarlar və tavan yetərincə geniş otağın müşahidə ölçüsünü azaldır, döşəmə köhnə ağacdan, lakla örtülüdür. Düz qapının qarşısında divara xaçvari şəkildə fiksasiya kəmərləri üçün cilalı qırmızı ağacdan iki hamar lövhə vurulub. Tavanın altında böyük dəmir qəfəslər asılıb, onların sahəsi səkkiz kvadrat futdan az olmaz, qəfəslərdən iplər, zəncirlər və parıldayan qandallar asılıb. Qapının yanında, divarda iki uzun, sürahiyə oxşar oyma şüvül və nərdivan var. Üstəlik, sayagəlməz hər cür bellər, qamçılar, qırmanclar və lələklərdən düzəldilən əcaib-qəraib alətlər.

Digər tərəfdə ağacdan çox böyük qırmızı komod durur, yeşikləri köhnə muzey şkafları kimi ensizdir. Maraqlıdır, onların içində nə var? Amma doğrudanmı mən bunu bilmək istəyirəm? Uzaq küncdə – tünd-qırmızı dəri üzlü skamya və onunla yanaşı divara vurulmuş taxta, bilyard kiyləri üçün altlığa oxşayan dayaq; diqqətlə baxdıqda, onun üstündə müxtəlif uzunluqlu və qalınlıqlı əl ağacları görmək mümkündür. Əks küncdə – oyma ayaqlı, cilalanmış ağacdan masa və iki bənzər kətil.

Lakin otağın böyük hissəsini çarpayı tutur. O, ikiadamlıq taxtdan böyükdür, dörd rezin künclərində barokko üslubunda sütunları və yastı taxt-rəvan var. Görünür, XIX əsrə aiddir. Örtük altından daha nə cürsə parlaq zəncirlər və qandallar görünür. Çarpayıda mələfələr yoxdur, yalnız qırmızı dəri üzlüklü döşək və topa halında digər ucda yığılmış qırmızı ipək balışlar.

Çarpayının ayaq tərəfindən bir neçə futluq məsafədə, sadəcə otağın ortasına, üzüçarpayıya qoyulmuş böyük tünd-qırmızı divan var. Çox qəribədir: Divanı üzüçarpayıya qoymaq... Və bu an ağlıma batır ki, divan əslində otaqdakı bütün mebel arasında ən sıradan bir əşyadır və mən bu fikirdən gülümsəyirəm. Başımı qaldıraraq görürəm ki, tavana təsadüfi

qaydada yaylı qarmaqlar bərkidilib. Yalnız güman etmək qalır ki, onlar nə işə yarayır. Nə qədər qəribə olsa da, bütün bunlar – oyma ağaclar, tünd divarlar, zəif işıq və tünd-qırmızı dəri otağa sakit və romantik görkəm verir… Yəqin ki bu, elə Kristian Qreyin versiyasında romantikadır.

Gözlədiyim kimi o, diqqətlə məni izləyir, amma onun görünüşündən heç nə anlamaq mümkün deyil. Mən otağı dolaşıram, o da arxamca gəlir. Məni bir lələkli əşya maraqlandırdı və mən qətiyyətsiz şəkildə əlimlə ona toxunuram. O, yumşaq dəridən düzəldilib və qamçıya oxşayır, ancaq ondan qalındır. Hər bir lələyin ucuna kiçik plastmas muncuq bərkidilib.

– Bu flogger adlanır, – Kristianın xəfif səsi eşidilir.

Flogger… hm-m. Mən şokdayam. Təhtəlşüurum dəhşətdən qaçıb getdi, ya da nokautdan yerdə sərilib, yaxud ümumiyyətlə, dənizin dibində batıb. Mən mat qalmışam. Gördüklərimdən yaranmış hisslərimi sözlə ifadə eləmək gücündə deyiləm. Həm də bu cür durumda nə demək olar ki... aşkarladıqda ki, potensial məşuqun başıxarab bir sadist, yaxud mazoxistdir? Qorxuludur… hə. Bu ən güclü hissdir. Amma, qəribə olsa da, ondan qorxmuram, fikirləşirəm ki, razılığım olmadan o, mənə barmağının ucuyla da toxunmaz. Başımda saysız-hesabsız suallar dolaşır. Niyə? Necə? Nə vaxt? Tez-tezmi? Çarpayının yanından keçərkən barmağımla mahir ustanın yonduğu sütunlara toxunuram. Sadəcə sənət əsəridir.

– Bir söz de, – saxta sakitliklə Kristian deyir.

– Sən insanlara nəsə edirsən, yoxsa onlar sənə nəsə edir?

Onun ağzı əyilir, ya gülüşdən, ya da rahatlıqdan.

– Adamlarla? – o, cavabda iki saniyə ləngiyir, cavabı düşünür. – Mən bunu qadınlarla edirəm, özü istəyən qadınlarla.

Heç də anlaşılmır.

– Əgər könüllülər varsa, məni bura niyə gətirmisən?

– Mən bunu səninlə etmək istəyirəm, həm də çox istəyirəm.

– Ay-y. – ağzımla havanı uduram. Niyə?

Mən otağın sonuna yollanıram və düşüncəli halda hündür, qurşağıma qədər olan skamyaya əl gəzdirirəm. Qadınları incitmək onun xoşuna gəlir. Bu fikirdən ürəyim bulanır.

– Sən sadistsən?

– Mən – dominantam, – onun baxışları göz görə-görə məni yandırıb-yaxır.

– Bu nə deməkdir? – deyə sakitcə soruşuram.

– Bu o deməkdir ki, sən könüllü şəkildə özün üzərində hakimiyyətimi təsdiqləyirsən. Hər şeydə.

Eşitdiyimi dərk etməyə çalışıram.

– Bunu niyə etməliyəm?

– Mənə həzz vermək üçün, – deyə başını yana əyərək o pıçıldayır və mən onun gülüşünün kölgəsini görürəm.

Ona həzz vermək! İstəyinə bax a! Ağzım açıla qalıb. Kristian Qreyə həzz vermək. Və birdən anlayıram ki, məhz bunu istəyirəm. İstəyirəm ki, lənət şeytana, o, məndən məst olsun. Kəşfə bax!

– Başqa sözlə, istəyirəm ki, sən mənə həzz vermək istəyəsən, – o xəfifcə deyir. Səsi mənə hipnotik təsir edir.

– Nə cür? – boğazım quruyub. Yaxşı, –həzz‖ sözünü başa düşürəm, Amma bunun kraliça Elizabet dövrünə aid işgəncə otağına nə aidiyyəti var? Cavabı bilməliyəmmi?

– Mənim qaydalarım var və mən istəyirəm ki, sən onları öz faydan və mənim həzz almağımdan ötrü icra edəsən. Əgər səndən razı qalsam, mükafat alacaqsan. Həzz almasam, səni cəzalandıracağam, sən də bunu yadda saxlayacaqsan, – deyə o pıçıldayır.

Mən qamçılar üçün altlığa baxıram.

– Bəs bu nədir? – qamçılardan birini öz ətrafımda gəzdirirəm.

– Stimulverici vasitələr. Mükafat və cəza.

– Deməli, öz iradəni mənə sırımaq sənə xoş gəlir?

– Sən mənə etibar etməlisən və könüllü şəkildə tabe olmalısan. Nə qədər itaətkar olsan, mən bir o qədər həzz alacam, bu çox sadədir.

– Yaxşı, bəs mən bundan nə qazanacağam?

O, demək olar ki, günahkar görkəmlə çiyinlərini çəkir.

– Məni.

İlahi!.. Kristian əlini saçlarında gəzdirir.

– Sənin görünüşündən heç nə anlamaq olmur, Anasteyşa, – o, acıqlı halda deyir. – Gəl fikirlərimizi cəmləmək üçün aşağı enək. Burda sənə sakit baxa bilmirəm.

O, əlini mənə uzadır, amma indi onu tutmağa qətiyyətim çatmır.

Keyt dedi ki, o təhlükəli adamdır və o, tamamilə haqlı idi. O, bunu hardan öyrənib? Kristian həyatım üçün təhlükə mənbəyidir, çünki mən ―hə‖ deməyə hazıram. Amma varlığımın bir hissəsi bunu istəmir. Varlığımın bir guşəsi təsəvvürünə gətirdiyindən qışqıraraq bu otaqdan qaçır. Özümü tamamilə itirmişəm.

– Sənə zərər yetirməyəcəm, Anasteyşa, – onun boz gözləri yalvarır və mən anlayıram ki, Kristian həqiqəti deyir. Əlimi uzadıram, o məni otaqdan çıxarır.

– Gəl sənə daha bəzi şeyləri göstərim, – aşağı qayıtmaq əvəzinə, Kristian oyun otağından (buranı belə adlandırır) çıxaraq, sağa dönür və dəhlizlə gedir. Bir neçə qapıdan keçirik və nəhayət, sonuncuya çatırıq. Bura yataq otağıdır: ortada, bircə rəngli ləkəsi olmayan ikiadamlıq böyük çarpayı. Hər şey: divarlar, mebel, yataq dəsti tam ağdır. Durum soyuq və sterildir, amma şüşə divar arxasından Sietlin heyrətamiz mənzərəsi açılır.

– Sənin otağın. Onu öz istəyinə uyğun bəzəyə bilərsən.

– Mənim otağım? İstəyirsən ki, bura köçüm? – dəhşətimi gizlədə bilmirəm.

– Bütün müddətə deyil. Deyək ki, Cümə günü axşamından Bazar gününə qədər. Bunu müzakirə edə bilərik. Əgər istəsən, əlbəttə, – deyə inamsız şəkildə o əlavə edir.

– Mən burda yatacam?

– Hə.

– Tək?



kitabyurdu.blogspot.com

– Hə. Axı mən artıq sənə demişəm ki, həmişə tək yatıram. Hə, bircə o hadisə istisna olmaqla, sənin küpünə qədər içdiyin gün, – deyəsən, o, sözünü sonadək demir.

Dodaqlarımı kip sıxıram. Sadəcə başıma girmir: məni, tamamilə köməksiz qızı xilas eləmiş və ürəyim bulanarkən mənə dayaq olmuş mehriban, qayğıkeş Kristian, sən demə, əzazil adam, zəncirlər və qamçılar həvəskarı imiş...

– Bəs sən harda yatırsan?

– Mənim otağım aşağıdadır. Gedək, sən, yəqin ki, acmısan.

– Nəsə iştaham itdi, – deyə qıcıqlı cavab verirəm.

– Sən yemək yeməlisən, Anasteyşa, – məni astaca dürtmələyir və əlimdən tutaraq özüylə aparır.

Yenidən nəhəng zalda peyda olub həyəcan və qüssədən əzab çəkirəm, sanki uçurumun kənarındayam və qərar qəbul etməliyəm: aşağı tullanım, ya yox?

– Başa düşürəm ki, səni qaranlıq bir yola sövq edirəm, Anasteyşa. Yaxşı-yaxşı fikirləş. Bəlkə, nəsə soruşmaq istəyirsən? – deyir o və əlimi buraxaraq mətbəxə gedir.

İstəyirəm. Amma nədən başlamalı?

– Sən məxfiliyin qorunması haqqında müqavilə imzalamısan, ona görə də istədiyini soruş, cavab verəcəm.

Mən barın yanında durmuşam və Kristianın soyuducudan içində müxtəlif pendirlər və iki iri salxım yaşıl və qırmızı üzüm olan boşqabları necə çıxardığına baxıram. O, boşqabları masaya qoyur və fransız begetini doğramağa başlayır.

– Otur.

O, bar kətillərindən birinə işarə edir və mən onun əmrinə tabe oluram. Əgər razılaşsam, buna alışmaq lazım gələcək. Və qəfildən anlayıram ki, Kristian tanışlığımızın ilk anından belə davranıb.

– Sən hansısa kağızlardan danışırdın?

– Hə.

– Nə sənədlərdir?

– Məxfiliyin qorunması haqda müqavilədən başqa bizim nə edəcəyimiz və nə etməyəcəyimiz barədə saziş də mövcuddur. Mən sənin imkan çərçivələrini, sənsə mənimkini bilməlisən. Hər şey qarşılıqlı razılaşma ilə olacaq.

– Birdən razı olmasam?

– Ola bilər, – ehtiyatla deyir o.

– Amma münasibətlərimiz olmayacaq? – deyə soruşuram.

– Yox.

– Niyə?

– Çünki bu, məni maraqlandıran yeganə münasibətdir.

– Niyə?

O, çiyinlərini çəkir.

– Mən doğuşdan beləyəm.

– Sən niyə beləsən?

– Niyə adamlar belədir, elə deyil? Buna cavab vermək çətindir. Niyə kimsə pendiri xoşlayır, kimsə yox? Sən pendir xoşlayırsan? Missis Cons, mənim qulluqçum, şam yeməyinə saxlayıb…

Kristian bufetdən böyük, ağ boşqabları çıxarır və onlardan birini qarşıma qoyur.

Biz pendir haqda danışırıq … Cəfəngiyat.

– Mən hansı qaydalara əməl etməliyəm ki?

– Onlar yazılıdır. Yeməyi bitirdikdən sonra müzakirə edərik.

Yemək. Bircə tikəni belə uda bilmirəm.

– Mən həqiqətən ac deyiləm.

– Eybi yox, – deyir Kristian. İndi aydındır bu diktatorluq onda hardandır. – Sənə yenə şərab süzüm?

– Hə, zəhmət olmasa.

O, qədəhimi doldurur və yanımda əyləşir. Mən tələsik bir qurtum içirəm.

– Bəs məzə?


kitabyurdu.blogspot.com

Bir salxım üzüm götürürəm.

– Bu səndə çoxdan var?

– Hə.

– Buna razılaşan qadınları tapmaq asandırmı?..

Kristian qaşlarını çatır.

– Sən dediyimə inanmayacaqsan, – deyə quru cavab verir.

– Onda niyə mən? Mən həqiqətən anlamıram.

– Anasteyşa, təkrarlayım, səndə nəsə var. Mən səni rahat buraxa bilmərəm, – o, kinayə ilə gülür. – Mən odun başına dolanan pərvanə kimi sənin yanına uçuram, – onun səsində məkr duyulur. – Səni çox istəyirəm, xüsusən indi, dodağını dişlədiyin an. – Kristian dərindən köks ötürür və udqunur.

İçimdə nəsə bir-birinə qarışır – o, məni istəyir… bir qədər qəribədir, doğrudur, amma yenə də: bu gözəl, təkrarsız, əxlaqsız kişi məni istəyir.

– Məncə, hər şey əksinədir, – donquldanıram. Pərvanə mənəm, o atəş. Və mən yanıb kül olacam.

– Ye!

– Yox. Mən hələ heç nəyi imzalamamışam və istədiyimi edəcəyəm, əgər etirazın yoxdursa.

Onun baxışlarında rahatlıq duyulur, dodaqlarına gülüş qonur.

– Necə istəyirsiniz, miss Stil.

– Bu qadınların sayı nə qədər idi? – ağzımdan qaçırdım, düşünmədən, amma mənimçün maraqlıdır.

– On beş.

O… elə də çox deyil, gözlədiyimin əksinə olaraq.

– Bu, uzun müddət çəkib?

– Bəziləri ilə uzun.

– Kimsə ciddi xəsarət alıb?

– Hə.

Aha, bax a!

– Ciddi?



kitabyurdu.blogspot.com

– Yox.
– Sən mənə ağrı verəcəksən?
– Nəyi nəzərdə tutursan?
– Fiziki. Məni döyəcəksən?
– Səni cəzalandıracam, lazım gəldikdə, bu ağrıdıcıdır.

Hiss edirəm ki, elə bu dəqiqə huşumu itirəcəm. Daha bir qurtum içirəm şərabdan, ümid edirəm ki, alkoqol cəsarətimi artıracaq.

– Səni nə vaxtsa döyüblər?
– Hə.

Oho… təfsilatı ondan öyrənməyə macal tapmamış o, fikirlərimi, gedişini yarıda qoyur.

– Gedək kabinetə. Sənə bəzi şeyləri göstərəcəm.

Düşünürdüm ki, məni şəhvani bir gecə gözləyir, bunun əvəzindəsə biz hansısa müqavilələri müzakirə edirik.

Onunla kabinetə gedirəm, geniş otaqda döşəmədən tavana qədər bir pəncərə var. Kristian masa arxasında oturur, qarşısındakı dəri üzlüklü kürsüdə mənə yer göstərir və mənə bir vərəq göstərir.

– Bu qaydalardır. Onları dəyişmək olar. Onlar imzalayacağımız sazişə daxildir. Oxu, sonra müzakirə edək.

İTAƏT QAYDALARI:

Sabmissiv ləngimədən və sözsüz olaraq Dominantın əmrlərinə tabe olur. Sabmissiv yolverilməz kimi qeyd olunmuşlar istisna edilməklə (əlavə 2) Dominantın məqbul bildiyi və ona həzz verən seksual xarakterli istənilən hərəkətə razılaşır və onlarda şövqlə iştirak edir.

Yuxu:

Sabmissiv Dominantla vaxt keçirməyərkən sutkada minimum səkkiz saat yatmalıdır.

Yemək:

Sabmissiv sağlamlığın və yaxşı əhvali-ruhiyyənin saxlanılması haqda müvafiq ərzaq tövsiyələri siyahısına əsasən (əlavə 4) müntəzəm qidalanmalıdır və qida qəbulu arasında meyvələrdən başqa digər qidaların qəbulu qadağan edilir.

Geyim:

Bu müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv yalnız Dominantın təsdiqlədiyi libasları geyməyi öhdəsinə götürür. Dominant Sabmissivə müəyyən məbləğdə pul verir ki, bu pul geyimə xərclənməlidir. Dominantın geyim alışında iştirak etmə hüququ var. Müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv Dominantın seçdiyi və istədiyi vaxtda bəzək əşyalarını və aksesuarları əynində gəzdirməyə razılıq verir.

Fiziki məşğələlər:

Həftədə dörd dəfə Dominant öz hesabına məşqlər üçün Sabmissivə fərdi məşqçi təqdim edir, onun vaxtını Sabmissiv və məşqçi qarşılıqlı razılaşma ilə müəyyən edir. Sabmissivin uğurları barədə məşqçi Dominanta hesabat verir.

ġəxsi gigiyena / Gözəllik:

Sabmissiv öhdəsinə götürür ki, bədənini həmişə təmiz saxlayacaq və ülgüc, yaxud mumla müntəzəm epilyasiya edəcək. Sabmissiv Dominantın seçiminə əsasən, təyin elədiyi vaxtda gözəllik salonlarına baş çəkir və onun zəruri bildiyi prosedurlardan keçir. Bütün xərcləri Dominant ödəyir.

ġəxsi təhlükəsizlik:

Sabmissiv öhdəsinə götürür ki, spirtli içkilərdən sui-istifadə etməyəcək, siqaret çəkməyəcək, narkotik maddələr qəbul etməyəcək və özünü gərəksiz riskə məruz qoymayacaq.

Fərdi keyfiyyətlər:


kitabyurdu.blogspot.com

Sabmissiv öhdəsinə götürür ki, Dominantdan başqa heç kimlə seksual münasibətlərə girməyəcək. Sabmissiv hər zaman təvazökar və ehtiramlı davranır, dərk edərək ki, onun davranışı Dominanta birbaşa təsir edir. Sabmissiv Dominantın olmadığı zaman öz əməllərinə, sui-istifadəyə və intizamın pozulmasına görə məsuliyyət daşıyır.

Bu qaydalardan hər hansı birinin pozulmasına görə cəza verilir və onların xarakterini Dominant müəyyən edir.

Pis düşünülməyib, hə?!

- ―Yolverilməz hərəkətlər‖ nədir? – soruşuram.
- Hə. Sən nə etməyəcəksən, mən nə etməyəcəm, biz bunu öncədən razılaşdırmalıyıq.
- Geyimə görə pul götürmək … heç də düzgün deyil. – mən heç cür ―fahişə‖ sözündən xilas ola bilmirəm.
- Mən sənin üçün pul xərcləmək istəyirəm, gəl sənin üçün bəzi şeylər alım. Mənə lazım gələ bilərsən, ola bilsin ki məni hansısa tədbirlərdə müşayiət eləyəsən və bu zaman sənin yaxşı geyinmən lazım olacaq. İş tapdığın zaman maaşın sənə əynində görmək istədiyim libasları almağa imkan verməyəcək.
- Amma mən onu yalnız səninlə bir yerdə olduqda geyinə biləcəm?
- Hə, yalnız mənimlə birgə olduqda.
- Yaxşı.

Hesab edəcəm ki, bu formadır.

- Həftədə dörd dəfə idmanla məşğul olmaq nəyə lazımdır?
- Anasteyşa, istəyirəm ki, qıvraq, güclü və dözümlü olasan. İnan, sənə məşq lazımdır.
- Amma həftədə dörd dəfə? Bəlkə heç olmasa, üç?
- Dörd.
- Mən fikirləşirdim ki, biz say məsələsində razılaşarıq.

O, dişlərini qıcırdır.

- Yaxşı, miss Stil. Daha bir ədalətli qeyd. Həftədə üç dəfə, bir saat və bir dəfə yarım saat?

- Üç gün, üç saat. Aydındır ki, mən sənin yanında olanda, fiziki yük təmin olunub.

O, məkrli tərzdə gülümsəyir və məncə, onun gözlərində rahatlanma oxuyuram.

- Hə, düzdür. Yaxşı, razılaşdıq. Sən dəqiq şirkətimdə təcrübə keçmək istəmirsən? Sən yaxşı vasitəçisən.

- Yox. Mənə elə gəlir ki bu yaxşı, fikir deyil, – deyə şərtləri nəzərdən keçirirəm. Mumla epilyasiya? Harda? Bütün bədəni? Br-r!

- Hansı hərəkətlər yolverilməzdir? Bu mənimçündür, – o, mənə daha bir vərəq uzadır.

Yolverilməz hərəkətlər:

Odla oyun;
Sidikburaxma, yaxud defakasiyanı daxil edən hərəkətlər;
İynələri, bıçaqları batırma və qan istifadəli hərəkətlər;
Ginekoloji tibbi alətlərin istifadəsi ilə olan hərəkətlər;
Uşaqların və heyvanların iştirakı ilə olan hərəkətlər;
Bədəndə silinməz izlər buraxa biləcək hərəkətlər;
Tənəffüs oyunları;
Bədənin elektrik cərəyanı və odla (həm birbaşa, həm fasiləli) nəzərdə tutan hərəkətlər.

Fu! O, bunu aşkar deməyə cəsarət eləmədi. Əlbəttə, bu ağlabatandır, zəkalıdır və sözün düzü, zəruridir… axı sağlam zəkada heç kim buna qol qoymaz. Amma ürəyim bulanmağa başlayır.

– Nəsə əlavə etmək istəyirsən? – incəliklə soruşur Kristian.

Lənət şeytana! Heç bilmirəm. Özümü tamamilə itirmişəm.

– Elə bir şey varmı ki, onu eləmək istəməzdin?


kitabyurdu.blogspot.com

– Bilmirəm.

– ―Bilmirəm‖ nə deməkdir?

Mən dişlərimi qıcırdıram və dodağımı dişləyirəm.

– Heç vaxt belə bir şey görməmişəm.

– Hə, sekslə məşğul olanda, elə bir şey vardırmı ki, xoşuna gəlməsin?

Uzun müddətdən sonra ilk dəfə qızarıram.

– Düzünü de, Anasteyşa. Biz bir-birimizlə açıq olmalıyıq, yoxsa heç nə alınmayacaq.

Mən onun bir-birinin arasına keçirilmiş barmaqlarına baxıram.

– De görək! – deyə əmr edir.

– Bilirsən… mən heç vaxt sekslə məşğul olmamışam, buna görə də bilmirəm, – səsim çox asta gəlir.

Kristian ağzını açaraq dəhşətlə mənə baxır.

– Heç vaxt? – pıçıldayır.

Başımı yelləyirəm.

– Sən… bakirəsən? – deyə o, güclə tələffüz edir.

Başımla təsdiqləyirəm və yenidən qızarıram. Kristian gözlərini yumur və mənə elə gəlir ki, ona qədər sayır. O, gözlərini yenidən açdıqda, baxışlarından şimşək çaxır.

– Niyə bunu əvvəlcədən mənə demədin?!

kitabyurdu.blogspot.com

## 8-ci fəsil

Kristian hər iki əlini başına dayayaraq addımları ilə kabineti ölçür – sadəcə hirslənməyib, o, dəli olub. Onun həmişəki polad soyuqqanlılığı, deyəsən, çat verib.

– Başa düşmürəm, niyə bunu mənə əvvəlcədən demədin, – deyir mənə.

– Bu haqda heç söhbətimiz olmayıb. Mənimsə hər kəsə və hamıya şəxsi həyatımı təfsilatı ilə danışmaq vərdişim yoxdur. Axı biz heç düz-əməlli tanış da deyilik. – Gözlərimi əllərimə zilləmişəm. Niyə özümü günahkar hiss edirəm? Niyə o dəliyə dönüb? Kristiana sarı ehtiyatlı nəzər yetirirəm.

– Hə, belə olan halda sən haqqımda daha çox şey bilirsən, – deyə o, dişlərini qıcırdır və onun dodaqları nazik bir xətdə yığılır. – Təcrübəsiz olduğunu bilirdim, amma bakirəliyini deyil!.. – o, bu sözü söyüş kimi tələffüz edir. – Lənət şeytana, Ana, mən sənə hər şeyi göstərdim … – o ah çəkir. – İlahi, məni əfv et. Sən heç öpüşmüsən, mənimlə olanı hesaba almasaq?

– Əlbəttə, öpüşmüşəm, – özümü təhqir olunmuş kimi göstərməyə çalışıram. – Hə… iki dəfə.

– Və o əziz adam səni tovlayarkən ağlını başından almayıb? Anlamıram! Sənin iyirmi bir yaşın var. Demək olar ki, iyirmi iki. Sən gözəl-göyçəksən, – o, yenidən saçlarını didişdirir.

–Gözəl-göyçək‖. Mən həzzdən alışıb-yanıram. Kristian Qrey məni gözəl hesab edir. Yenidən baxışlarım pərçimlənmiş barmaqlarıma zillənir, səfeh gülüşümü gizlətmək üçün. –Yəqin ki, o, uzağı pis görür‖, deyə təhtəlşüurum başını qaldırır. Ona ehtiyacım olduqda görən harada idi?

– Və sən tam ciddiliklə nə edəcəyimi müzakirə edirsən mənimlə, halbuki heç bir təcrübən yoxdur? – o, üzünü turşudur. – Sən seks istəmirdin? Xahiş edirəm, izah elə.

Çiyinlərimi çəkirəm.

– Hə, bilmirəm, nəsə heç kimlə buna gəlib çıxmamışıq. – Yalnız səninlə. Sən də bədheybət çıxdın. – Niyə mənə hirslənirsən? – az qala, pıçıltı ilə soruşuram.

– Mən sənə deyil, özümə hirslənirəm, elə bilirdim… – Kristian ah çəkir. O, dərinliyinə qədər gözlərimin içinə baxır, sonra başını yelləyir. – Sən getmək istəyirsən?

– Yox, əgər sən getməyimi istəmirsənsə, – deyə cavab verirəm. Yooox… Mən getmək istəmirəm…

– Əlbəttə, yox. Yanımda olmağın mənə xoşdur, – deyə o, qaşqabağını tökür və saata baxır. – Artıq gecdir… yenə də dodağını dişləyirsən, – deyir Kristian xırıltı ilə və mənə müştəri gözü ilə baxır.

– Bağışla.

– Üzr istəmə. Sadəcə mən də onu dişləmək istəyirəm. Möhkəm.

Mən ağzımla havanı tuturam… niyə o, bunu deyir, bir halda ki istəmir mən işə düşüm?

– Yanıma gəl, – deyir.

– Nə?

– Biz vəziyyəti elə bu an düzəldərik.

– Hansı mənada? Hansı vəziyyəti?

– Sənin vəziyyətini. Ana, mən səninlə sevişmək istəyirəm.


kitabyurdu.blogspot.com

– O!

Döşəmə ayağımın altından qaçır. Yerimdə donub-qalıram.

– Əgər etiraz etmirsənsə, əlbəttə. İmkanı qaçırmayaq.

– Axı sən sevişmirsən? Sən ancaq s...işirsən. Sərt.

Qəfildən boğazım qurudu. Mən təlaş içində udqunmaq istəyirəm.

O, bic-bic gülümsəyir və içimdə hər şey şipşirin durumda donub-qalır.

– Mən istisna halı da edə bilərəm, ya da birini o biri ilə uyğunlaşdıra, baxarıq. Mən həqiqətən səninlə sevişmək istəyirəm. Burda, yataqda. Xahiş edirəm. Ümid edirəm ki, sonra biz müqavilə imzalayarıq, amma sənə, heç olmasa, başa düşmək gərəkdir ki, nəyə razılaşırsan. Biz sənin tədrisini bu gün başlayarıq, təməl biliklərdən. Bu o demək deyil ki, biz həqiqətən aşiq-məşuq olacağıq, seks yalnız məqsədə çatma vasitəsidir, lakin mən bunu istəyirəm və sənə də ümid edirəm. – Onun boz gözləri dübbədüz gözlərimə zillənib.

Mən qızarıram… ilahi… arzularım çin olur.

– Amma mən heç nə etməmişəm, qaydaların tələb etdiklərindən, – səsim asta və inamsız səslənir.

– Qaydaları unut. Bütün detalları unut. Səni istəyirəm. Mən səni istəyirəm, ofisimə büdrəyə-büdrəyə gəldiyin andan və mən hiss eləyirəm ki, sən də məni istəyirsən. Əks halda sən burda oturmazdın, cəzalar və yolverilməz hərəkətləri müzakirə etməzdin. Xahiş edirəm, Ana, bu gecə mənimlə ol.

Kristian əlini mənə uzadır, boz gözlər od saçır və mən ovcumu onun ovcuna qoyuram. O, məni özünə yaxınlaşdırır və bütün bədənimlə onun təmasını hiss edirəm: hər şey çox tez baş verir. Barmaqlarını mənim boynumun ardında gəzdirərək at quyruğumu biləyinə dolayır və incə tərzdə aşağı əyir: mən üzümü ona doğru qaldırıram və o, yuxarıdan-aşağıya məni süzür.

– Sən cəsarətli qızsan, – deyə o pıçıldayır. – Səninlə fəxr edirəm.


kitabyurdu.blogspot.com

Onun sözləri yandırıcı mərmi kimidir: mən odlanıram. O əyilir və incə tərzdə dodağımı öpür, sonrasa ehtiyatla alt dodağımı əmməyə başlayır.

– Bu dodağı dişləmək istəyirəm, – deyə donquldanır və ehtiyatla onu dodaqları ilə sıxır. Mən asta-asta inildəyirəm və Kristianın təbəssümünü görürəm.

– Sevişəkmi? – deyə o soruşur.

– Hə, – deyə pıçıldayıram, çünki mən məhz bununçün gəlmişəm.

Onun siması təbəssümdən işıqlanır, o məni buraxır və əlimdən tutaraq bütün mənzildən keçirir.

Yataq otağı nəhəngdir. Tavana qədər çatan pəncərələrdən Sietlin gecə işıqlarına bürünən mənzərəsi açılır. Divarlara ağ boya çəkilib, mebel isə açıq-mavi rəngdədir. Nəhəng, ultramüasir çarpayı boz çalardadır, qəlib tiri kimi ağacdan, dördsütunlu, amma taxt-rəvansızdır. Divarda möhtəşəm dəniz peyzajı var.

Mən yarpaq kimi əsirəm. Həlledici an çatıb. İndi bu, ilk dəfə olacaq, həm də sıradan biri ilə deyil, Kristian Qreylə. Mən ağır-ağır nəfəs alıram və gözümü ondan çəkə bilmirəm. O, saatını çıxarır və komoda qoyur. Sonra pencəyini. İndi onun əynində ağ kətan köynək və cins şalvar var. O elə yaraşıqlıdır ki, ürəyim dayanır. Tünd-mis rəngli saçları bir-birinə qarışıb, köynəyi sərbəst şəkildə sallanır, boz gözlər cəsarətli və ehtiraslıdır. O, ―konvers‖lərini, sonra bir-bir corablarını ayağından çıxarır. Kristian Qrey ayaqyalındır… ah… burada nəsə var… çevrilərək o, sual dolu baxışlarla mənə baxır.

– Axı sən doğuşun qabağını alan həblər içmirsən?

―Nə? Lənət şeytana‖.

– Belə də fikirləşirdim.

Kristian komodun üst yeşiyini açır və prezervativ qutusunu götürür.

– Hazırsan? İstəyirsənsə, jalüzü endirək?

– Mənimçün fərqi yoxdur, – deyə pıçıldayıram. – Axı sən heç kimlə eyni yataqda yatmırsan?

– Kim dedi ki, biz yatmağa hazırlaşırıq? – o pıçıldayır.

– A-a.

–Aha, deməli, beləǁ.

O, asta-asta mənə doğru gəlir. Qərarlı, seksual gözlər parlayır və qəlbim bərkdən döyünməyə başlayır. Gicgahlarımda axan qan möhkəm çırpınır. Qatı və isti ehtiras qarnıma dolur. Kristian qarşımda durub, düz gözlərimə baxaraq. Onun füsunkar gözəlliyi var.

– Gəl pencəyini çıxaraq, yaxşı? – o deyir qatlamalardan tutaraq incəliklə jaketi əynimdən çıxarır və stulun başına qoyur. – Heç bilirsən səni necə güclü istəyirəm, Ana Stil?

Nəfəsim kəsilir. Baxışlarımı ondan çəkmək gücündə deyiləm. O, zərif hərəkətlə barmaqlarını yanaqlarımda gəzdirir, aşağı çənəmə doğru.

– Heç bilirsən indi səninlə nə edəcəm? – əlavə edir buxağıma baxaraq.

Hardasa qaranlıq dərinlikdə mənim əzələlərim şirin üzüntüylə sıxılır. Hiss elə xoşdur ki, gözləri yummaq istəyirsən, amma mən sanki odlu baxışlardan hipnoz edilmişəm. Kristian mənə doğru əyilir və onun dodaqları özünə əmin və qeyri-tələskən şəkildə dodaqlarıma qarışır. O, asta-asta köynəyimin düymələrini açır, incə tərzdə yanaqlarımı, buxağımı və ağzımın kənarlarını öpüşə qərq edərək. Köynək yerə düşür. O, geri çəkilir və diqqətlə mənə baxır. Mən əynimdə ideal duran solğun-mavi rəngli lifçiklə qalıram.

– Ana, sənin necə də gözəl dərin var! Ağappaq və ləkəsiz. Mən onun hər qarışını öpüşə qərq etmək istəyirəm.

Mən allanıram. İlahi… niyə o deyir ki, sevişə bilməz? Mən onun istədiyi hər şeyi edərəm.

Kristian saçlarımdan rezin qaytanı çıxarır və tellərim dalğavari şəkildə çiyinlərimə düşərkən dərindən köks ötürür.

– Qarayanız qızları sevirəm, – deyə Kristian pıçıldayır və hər iki əlinin barmaqlarını saçlarıma keçirir, hər iki tərəfdən başımı əhatəyə alaraq. O, acgözlüklə məni öpür, onun dili və dodaqları mənim dodaqlarım və dilimlə cilalanır. Mən iniltimi saxlaya bilmirəm, dilim inamsız halda onunla görüşə tələsir. O, əlləriylə məni tutaraq özünə tərəf çəkir. Bir əlinin


kitabyurdu.blogspot.com

barmaqları hələ də saçlarımda qalır, o birisə belimdən qurşağımadək enir, sonra daha aşağı – g...ümə və onu xəfifcə sıxır. Kristian məni öz ombaları səviyyəsində saxlayır və mən onun ereksiyasını hiss edirəm və o s..ini astaca mənə soxur.

Yenə inləyirəm. Hisslərimi güclə ram edirəm, qarnımdakı hormonlar cuşa gəlir. Mən şəhvətdən yanıb-yaxılıram. Onun əlini sıxaraq bitsepsi hiss edirəm, heyrətamiz güclü... əzələli. İnamsız halda barmaqlarımı onun üzünə toxundurur, saçlarına toxunuram. İlahi!.. Onlar elə yumşaq, sürüşkəndir ki, mən onları xəfifcə dartıram və o inləyir. Kristian məni buraxır və incəliklə yatağa tərəf itələyir, mən çarpayını dizlərimin altında hiss edənə qədər. Gözləyirəm ki, o, məni arxası üstdə atacaq, amma yox, o qarşımda diz çökür, hər iki əlilə ombalarımı sıxır və dilini göbəyimin ətrafında gəzdirir, daha sonra incə tərzdə onu dişləyib, çanaq sümüyünün çıxıntısına doğru, sonra bütün qarnımdan keçərək o biri tərəfə irəliləyir.

Artıq iniltilərimi boğmuram.

Onu qarşımda diz çökmüş vəziyyətdə görmək, bədənimdə onun dodaqlarının toxunuşunu duymaq necə də inanılmazdır. Əvvəlki kimi onun saçlarından yapışmışam, tənəffüsümün ahəngini sakitləşdirməyə çalışaraq. Kristian aşağıdan-yuxarıya, füsunkar kirpikləri arasından mənə baxır: tünd-boz gözlərin baxışı məni təpədən-dırnağa yandırıb-yaxır. O, cins şalvarımdakı düyməni açır. Sonra baxışını çəkmədən əlini arxadan qurşağıma keçirir. Tələsmədən məni cins şalvardan xilas edir. Mən baxışlarımı ondan çəkə bilmirəm. O dayanır və dodaqlarını yalayır, sonra baxış təmasına fasilə vermədən, irəli əyilir və burnu ilə ayaqlarımın arasına toxunur. Onu hiss edirəm. Orda.

– Sənin necə də gözəl ətrin var, – deyə o pıçıldayır və kirpiklərini endirir. Onun üzündə şəffaf həzz ifadəsi var və mən demək olar ki, ürpənirəm. Kristian mələfəni yataqdan dartıb kənara çəkir, sonra yüngülcə məni yatağa itələyir və mən döşəyin üstünə düşürəm.

Yenə də diz üstə qalaraq, o ayağımı götürür –konvers‖in bağlarını açır və corabla birgə kənara atır. Ağır-ağır nəfəs alaraq, mən dirsəklərimi


kitabyurdu.blogspot.com

qatlayıb onun nə etdiyinə tamaşa edirəm. O dabanımdan tutaraq ayağımı qaldırır və orta barmağının dırnağı ilə ayağımın üst tərəfinə toxunur. Mən demək olar ki, ağrıdır, amma hiss edirəm ki, onun toxunuşu qasığımda əks-səda verir. Baxışını məndən çəkmədən, o, dilini ayağımın üst tərəfində gəzdirir, sonra dişlərini. O-o! Həzzdən beli üstə yıxılıram və onun xəfif, özündənrazı gülüşünü eşidirəm.

– Ah, Ana, gör indi sənə neyləyirəm, – deyə Kristian pıçıldayır. O, ikinci ayağa keçir və corabı ayağımdan çıxarır, sonra isə cins şalvarı. İndi onun çarpayısında yalnız lifçik və tumanlayam, uzanmışam, o, yuxarıdan-aşağıya məni süzür.

– Sən çox gözəlsən, Ana Stil. İndi sənə soxacam.

İlahi!.. Bu, onun sözləridir. Bu sözlər adamı necə də cuşa gətirir. Dözməyə taqətim yoxdur.

– Göstər görüm, necə qurtarırsan.

Nə? Anlamıram.

– Utanma, Ana, göstər mənə, – o pıçıldayır.

Mən mənfi mənada başımı yelləyirəm.

– Nəyi deyirsən? – öz xırıltılı, istəkdən dolub-daşan səsimi tanımaqda çətinlik çəkirəm.

– Özünü orqazma necə çatdırırsan? Mən bunu görmək istəyirəm.

– Özüm… heç vaxt… – deyə donquldanıram.

Kristian heyrətlə qaşlarını çatır, boz gözlər tündləşir, o inamsız halda başını yelləyir.

– Yaxşı, baxaq görək bununla nə edirik, – onun səsində incə, həyəcanlı və qeyri-adi hissi təhdid var. O, cins şalvarının qabağını açır və astaca əynindən çıxarır, baxışlarını məndən çəkmədən. Əyilərək topuqlarımdan tutur və ayaqlarımı cəld ayıraraq onların arasına uzanır. O, başım üstə asılı qalır. Mən səbirsizlikdən içimi yeyirəm.

– Sakit qal, – deyə Kristian əmr edir, sonra əyilir və ombalarımın içəri tərəfini və yuxarı hissəni öpməyə başlayır, sonra daha yuxarıya qalxır, naxışlı tumanıma doğru.


kitabyurdu.blogspot.com

O-o… mən dişlərimi qıcırtmaya bilmirəm. Məndə alınmır. Onun altında iztirab çəkirəm.

– Nəsə bir şey fikirləşmək lazım gələcək, balaca, təki sən sakit qalasan, – o, qarnımı öpür, diliylə göbəyimi qıdıqlayır. Sonra yuxarı qalxır, məni öpüşlərə qərq edərək. Dərim alışıb-yanır, qızarıram, bədənim od tutub yanır, soyuq mələfədən yapışıram əlacsızlıqdan. Kristian yanımda uzanır və onun əli ombalarımda, belimdə və döşümdə gəzişir. O, düz gözümün içinə baxır, nəvazişlə döşlərimdən tutaraq.

– Sən ovcumda yerləşirsən, Anasteyşa…

O, şəhadət barmağını büsthalterimin kasasına salır və döşümü azad edərək xəfifcə onu aşağı salır, amma kasanın ipləri döşümü yuxarı itələyir. Kristian eyni şeyi o biri döşümlə də edir. Məmələrim şişir və kəsilməz baxışları altında bərkiyir. Mən öz büsthalterimə sarılmışam.

– Çox gözəldir, – deyir o razılıqla və məmələrim daha da bərkiyir. O, zəriflıklə döşlərimə üfləyir və eyni zamanda, o birini əlinə tutur və dartışdırır. Mən qarnımın altında şirin spazma hiss edirəm. Aşağıda islanmışam.

– Hə, xahiş edirəm, – deyə əllərimlə mələfədən daha möhkəm yapışaraq yalvarıram. Onun dodaqları o biri döşümün giləsindən yapışar və onu dartır. Mən artıq dözə bilmirəm.

– Baxaq görək qurtara bilirsənmi, – deyə Kristian pıçıldayır, bu astagəl hissiyyatlı işgəncəni davam etdirərək. Onun məharətli barmaqları və dodaqları altında məmələr və bədənimin hər bir damarı sanki nəğmə oxuyur.

– O… xahiş edirəm, – deyə yalvarıram. Başım geriyə atılıb, ağzım açıqdır, ayaqlarım qıc olur. Mənimlə nə baş verir?

– Vaxtdır, balaca, – deyə o pıçıldayır. Onun dodaqları döşlərimin birində ilişib qalır, orta və şəhadət barmaqlar isə o birini əlləyir. Mən onun əllərində qum dənələri kimi minlərlə hissəciyə dağılıram, bədənim məstlikdən qıc olub. O, ağzımı öpüşlə örtür, dili qışqırığımla üzləşir.

İlahi!.. Bu necə də xoş idi. İndi mən bilirəm, bütün bu həngamə nəyə görə idi. Kristian razılıq ifadə edən təbəssümlə mənə baxır, cavab baxışımda minnətdarlıq və heyranlıq var.

– Sən çox hissiyyatlısan. Sənə təmkini öyrənmək lazımdır və sənə bunu məşq elətdirəcəyik, – o yenidən məni öpür.

Tənəffüsüm hələ də rəvan deyil, orqazmdan sonra təzə-təzə özümə gəlirəm. Kristianın əlləri qurşağıma doğru enir, ombalarıma, sonra ayaqların arasında dolaşır... İlahi. Onun barmağı incə tərzdə ayaqların arasına enir və asta-asta... ora daxil olur. O, bir anlıq gözlərini yumur və tənəffüsü sürətlənir.

– Sən yam-yaşsan. İlahi... mən səni necə də istəyirəm. – Kristian barmağını içimə soxur və mən qışqırıqla atılıram, çünki bu, dalbadal təkrarlanır. Onun ovcu klitoruma toxunur və mən yenə də çığırtımı saxlaya bilmirəm. Onun barmağı içimə doğru da möhkəm girir. İnləyirəm.

Qəfildən Kristian oturur, tumanımı əynimdən çıxarır və onu döşəməyə tullayır. O, böyük s...ini çölə çıxarır. Oho... masadan bükməni götürərək ayaqlarımı aralayır, sonra ayaqlarım arasında duraraq diz üstə dayanır və prezervativi s..nə keçirir. Ah... Yəni belə?.. Necə?..

– Qorxma, – deyir Kristian, düz gözlərimin içinə baxaraq. – Sən genişlənəcəksən.

O, mənə doğru əyilir və iki əlilə başımı qaldırır ki, düz gözlərinin içinə baxım. Onun əngləri kip qapanıb, gözləri alışıb-yanır. Yalnız indi mən görürəm ki, o hələ də köynəyini əynindən çıxarmayıb.

– Sən həqiqətən bunu istəyirsən?

– Hə, mən yalvarıram.

– Ayaqlarını dizədək qatla, – deyə o, əmr edir və mən tələsik əmrə tabe oluram. – İndi mən sizi s...əcəm, miss Stil, – bu sözlərlə eyni anda onun s...nin başı düz ayaqlarımın arasındakı dəliyə toxunur. – Amansızcasına s...əcəm, – deyə o pıçıldayır və içinə soxur.

– A-a! – ürəkparçalayan ağrıdan qışqırıram – Kristian bəkarətimi pozdu. O duruxur, gözləri zəfərdən parlayır, ağzı azca açıqdır.


kitabyurdu.blogspot.com

– Deşiyin yaman dardır … ağrıtmır?

Mən mənfi mənada başımı yelləyirəm, gözlərim geniş açılıb, əllərim onun çiyinlərindən yapışıb. Onu bətnimdə hiss edirəm. O, tərpənməz halda uzanıb və gözləyir ki, mən yeni hissiyyatlara alışım.

– İndi hərəkət etməyə başlayacam, balaca, – Kristian xəbərdar edir.

Oh.

Zərif astagəlliklə o, geri çəkilir, sonra yenə var gücü ilə içimə soxur. Yenidən qışqırıram və donub-qalır.

– Yenə?

– Hə, – nəfəsim kəsilir.

İniltilərimi çölə çıxarıram. Bədənim onu özünə qəbul edir… O-o, necə də xoşdur.

– Yenə istəyirsən?

– Hə! – deyə yalvarıram.

Bu dəfə Kristian dayanmır. O, dirsəklərinə dayaqlanır və indi üstümdə onun bütün bədənini duyuram. Əvvəlcə o, asta hərəkət edir, içimə sərbəst girib çıxaraq. Amma tədricən onu içimdə hiss eləməyə alışıram, ombalarım inamsız şəkildə ona doğru hərəkət etməyə başlayır. O daha sürətli hərəkət etməyə başlayır, amansız, zəifləməyən ritmlə və mən bu hərəkətə qoşuluram. Kristian başımı əlləriylə sıxır və alt dodağı dişləyərək acgözlüklə məni öpür. O, azca qabağa əyilir və indi hardasa dərinlikdə artıq mənə tanış olan hiss baş qaldırır. Bütünlüklə ağaclaşıram, inləyirəm, tər məni basır… ilahi… mən heç bilmirdim ki, bu məhz belə də olur… heç təsəvvür etməzdim ki, bu, nə qədər xoş ola bilər. Fikirlər dağınıqdır… yalnız hissiyyat qalır… yalnız o… yalnız mən… o, xahiş edirəm…

– Qurtar, Ana, – demək olar ki, səssiz pıçıldayır o.

Onun sözlərindən əriyirəm, həzzin ən yüksək nöqtəsinə qalxıram və minlərlə hissəciyə bölünürəm. Bundan dərhal sonra o daha dərinə baş vurur və iniltiylə mənim adımı tələffüz edərək içimə boşaldaraq donub-qalır.

Mən hələ də rahat nəfəs ala bilmirəm, ürəyim xoşbəxtlikdən guppultu ilə döyünür, fikirlərim tar-mar olub. Əla… bu, çox gözəl idi.


kitabyurdu.blogspot.com

Gözlərimi açıram: Kristian alnını alnıma dayayıb, gözləri qapalıdır, təngnəfəsdir. O, gözlərini açır və baxışlarımız toqquşur. Yalnız bundan sonra o, astaca içimdən çıxır.

– Oh, – mən tanış olmayan hisslərdən diksinirəm.

– Səni ağrıtdım? – əlini uzadaraq Kristian sürüşən telimi qulağımın arxasına keçirir.

Mən özümü saxlaya bilməyib ürəkdən gülümsəyirəm.

– Hələ bir soruşursan da, məni ağrıtmısan, ya yox?

– Aha, istehza… – o, rişxəndlə gülümsəyir, – ciddi soruşuram, özünü necə hiss edirsən?

Kristian sınayıcı nəzərlə, hətta acgözlüklə mənə baxır.

Mən onun yanındaca qəddimi düzəldirəm, hiss edərəm ki, sümüklərim jeleyə çevrilib. Tam gücdən düşmüşəm və üzümdəki təbəssümü silə bilmirəm. İndi aydındır bu qədər hay-küyün nəticəsi. İki orqazm… hissəciklərə bölünürsən, sanki yuyucu maşının barabanında fırlanmısan; dəhşət... Heç bilməzdim ki, bədənim azad ola bilər, gərilmiş yay kimi, elə bir məstliklə, elə bir izahedilməz həzzlə ki...

– Mənə cavab vermədin və yenə də dodağını dişləyirsən. – Kristian üzünü turşudur. Üzümdə dəcəl bir təbəssüm var. O heyrətamizdir, saçları bir-birinə qarışıb, boz gözlər qıyılıb və ciddidir, üzündə tutqun ifadə var.

– Bir də istəyirəm, – deyə pıçıldayıram.

Onun üzündə rahatlıq ifadəsi işıldayır, sonrasa gözlər yenə qapanır və o, yenidən mənə baxır, yarıqapalı gözləriylə.

– Nə danışırsınız, miss Stil? – rişxəndli tərzdə Kristian pıçıldayır, incə tərzdə, ağzımın kənarına. – Demə, sən tələbkar qızsanmış. Qarnı üstə çevril.

Ona becid bir baxış yönəldirəm və çevrilirəm. O, lifçiyimi açır və əlilə belimi tumarlayır.

– Dərin necə də gözəldir…

Onun bir ayağı ayaqlarım arasındadır, o, böyrü üstə uzanıb, azca belimə dayaqlanıb. Saçlarımı yığmaq, üzümdən, çılpaq çiynimi və üzümü

öpmək üçün o əyilərkən köynək düymələrinin bədənimə toxunuşunu hiss edirəm.

– Niyə köynəkdəsən? – soruşuram.

Kristian donub-qalır. Azca ləngiyərək o, köynəyini əynindən çıxarır və yenidən üstümə uzanır. Dərisinin hərarətini hiss edirəm. O-ox… cənnət ləzzəti. Sinəsinin tükləri belimi azca qıdıqlayır.

– İstəyirsən ki, səni bir daha s...im? – deyə o, qulağıma pıçıldayır və boynumu, yanağımı zərif öpüşlərə qərq edir.

Onun əli qurşağıma enir və ombalarımda, ayağıma doğru dizədək sürüşür. Kristian dizlərimi azca yuxarı qatlayır və tənəffüsüm sürətlənir… ilahi, o nə etmək istəyir? O, ayaqlarım arasında uzanıb, belimə sıxılır və indi onun əli yuxarı qalxır. Asta-asta və zərifliklə g...ümü əlləyir, sonra barmaqları ayağımın arasına keçir.

– Mən səni daldan s...əcəm, Anasteyşa. – Kristian saçlarımı yumruq şəklində yığır və incə tərzdə dartır. Başımı tərpədə bilmirəm, əl-qolu bağlı və köməksizəm.

– Sən mənimsən, – deyə o pıçıldayır. – Ancaq mənim. Unutma bunu, – onun səsi adamın ağlını başından alır, sözlər adamı cuşa gətirir. Mən ombalarımda onun güclənən ereksiyasını hiss edirəm.

Kristianın uzun barmaqları astaca dövrə vuraraq incə tərzdə klitorumu tumarlayır. Yanağımda onun nəfəsini və dodaqlarının yumşaq toxunuşunu hiss edirəm.

– Səndən çox xoş qoxu gəlir. – Kristian burnunu qulağıma dayaqlayır. Onun əli hələ də dairəvi hərəkət edir və instinktiv olaraq ombalarım da eyni ritmlə hərəkət edir. Üzücü həzz adrenalin kimi məsamələrimə dolur.

– Qımıldanma, – deyir astaca, amma sərt şəkildə böyük barmağını içimə soxur. Effekt yüzə-yüzdür – bütün daxili enerjim bədənimin kiçik bir nöqtəsində cəmlənir. İnləyirəm.

– Xoşuna gəlir? – deyə qulağımın mərcəyini dişləyərək soruşur. Onun barmağı dayanmaq bilmir.

Gözlərimi yumuram və rəvan şəkildə nəfəs almağa çalışıram, barmaqların buxovunu açdığı hisslər bədənimi yandırıb yaxır. Mən iniltimi eşidirəm.

– Sən yenə də islanmısan və elə tez ki... Çox asan yumşalırsan. Bu, xoşuma gəlir, – deyə Kristian pıçıldayır.

Mən ayaqlarımı gərmək istəyir, amma tərpənə bilmirəm. O, məni çox möhkəm tutub saxlayıb. Növbəti iniltimdən sonra Kristian qəfildən dayanır.

– Ağzını aç, – deyə o, əmr edir və böyük barmağını ağzıma salır. Gözlərimi geniş açıram.

– İndi sən onun dadını biləcəksən, – deyə o, qulağıma pıçıldayır. – Sor, balaca.

Onun barmağı dilimi aşağı sıxır və mən ağzımı bağlayır, dayanmadan soruram. Dadı duzludur, qanın zəif çaları metallik kimidir. Lənət şeytana. Belə olmaz, amma bu, son dərəcədə erotikdir.

– Mən sənin ağzını s..mək istəyirəm, Anasteyşa və tezliklə belə də edəcəyəm.

–Ağzımı s...əcək!..‖ Onun barmağını dişləyirəm. Kristian qışqırır və saçlarımdan dartaraq məni incidir.

– Necə də şıltaq qızsan, – deyə o pıçıldayır və folqadan olan qutunu özünə tərəf çəkir. – Sakit uzan, tərpənmə.

O, cığaranı cırana qədər ağır-ağır nəfəs alıram, gicgahımdakı qanın atışlarını duyuram. Həzz xəyalı belə adamı məst edir. Kristian üstümə uzanır və yenidən saçlarımdan tutur ki, başımı tərpədə bilməyim.

– Bu dəfə hər şey asta olacaq, Anasteyşa.

Və o, asta-asta içimə soxur. Asta, yavaş-yavaş, içimdə tam yerləşənə qədər. Amansızcasına, rəhmsiz. Mən bərkdən inləyirəm. Bu dəfə onu daha dərində və xoş hisslə duyuram. O, bilərəkdən geri çəkilir, bir qədər ləngiyir və yenidən axıracan soxur. Bu, yenidən və bir daha təkrarlanır. Cırnadıcı, asta ritm və aniliklərlə və o, içimdə olarkən məni özümdən çıxmaq dərəcəsinə çatdırır.


kitabyurdu.blogspot.com

– Səni içimdə hiss etmək necə də xoşdur, – deyir Kristian və içimdə hər şey ürpənir. O, yenidən geri çəkilir və gözləyir. – Yox, balaca, indi yox, – deyə pıçıldayır. Titrəmə bitdikdə o hər şeyi yenidən başlayır.

– Xahiş edirəm… – deyə yalvarıram. Bilmirəm, dözə biləcəyəmmi? Bədənim elə gərilib ki, boşalma istəyir.

– İstəyirəm ki, səni ağrıtsın, balaca, – deyə o donquldanır və hey bu astagəl, şirin işgəncəni uzadır, qabağa, gah da geri çəkilərək. – İstəyirəm ki, sabah hər bir hərəkətim sənə mənimlə olmağını xatırlatsın. Sən mənimsən.

Mən inilti çıxarıram.

– Xahiş edirəm, Kristian.

– Nə istəyirsən, Anasteyşa? De.

Yenidən inləyirəm. O, yenidən geri çəkir və ombalarımı yavaş-yavaş irəli çəkərək içimə soxur.

– De, – deyə o, xahiş edir.

– Səni istəyirəm, xahiş edirəm, noolar.

O, azcana ritmi artırır və tənəffüsü sürətlənir. Mən hərəkətlərimi sürətləndirirəm, Kristian da.

– Sən. Sən bilirsən necəsən? ġirin, – deyə o, təkanlararası təkrarlayır. – Mən... Elə... Səni... İstəyirəm ki...

Ancaq inləyə bilirəm.

– Sən. Mənimsən. Qurtar, balaca, – nərildəyir o.

Onun sözlərində aqibətim əks olunub, o, məni uçuruma itələyir. Bədənim təkanlarla havaya qalxıb-enir və mən qurtarıram, ucadan onun adını balışa qışqırıram. Daha iki möhkəm təkan və Kristian üstümə sərilərək donub-qalır. Sonra üzü sifətimə dayaqlanır və o, belimə uzanır.

– Lənət şeytana. Ana, – deyə dərindən nəfəs alır, dərhal içimdən çıxarır və çarpayının o biri tərəfinə fırlanıb düşür. Tamamilə əldən düşmüş halda dizlərimi sinəmə doğru qaldırıram və dərin yuxuya gedirəm.

Yuxudan ayıldıqda pəncərəyə baxıb havanın hələ işıqlanmadığını görürəm. Yuxumun nə qədər uzun çəkib-çəkmədiyini təsəvvürümə gətirə bilmirəm. Adyalın altında ayaqlarımı uzadaraq xoş ağrı hiss edirəm.

Kristian otaqda yoxdur. Gözlərimi qarşımdakı panorama zilləyərək otururam. Demək olar ki, pəncərələrdə işıq görünmür. Musiqi səsləri qulağıma çatır. Notların axınında kədərli, incə şikayət duyulur. Baxın musiqisidir məncə, amma əmin deyiləm buna.

Mən adyala bürünürəm və dəhlizlə qonaq otağına doğru gedirəm. Kristian fortepiano arxasında oturub, tamamilə musiqiyə dalıb. Üzü melodiya kimi Hüznlüdür. O, əla ifa edir, peşəkar musiqiçi kimi. Girişdəki divara söykənərək heyranlıqla dinləyirəm. Kristian köynəksiz oturub, royalın yanında duran torşerin yeganə işığı altında. Evin alatoranında o özünün, dünyadan sərhədlənmiş aləmindədir, toxunulmaz… tənha.

Mən astaca ona yaxınlaşıram, duyğulardan, insan ruhunu oxşayan musiqidən sehrlənərək və hipnoz edilmiş kimi uzun, məharətli barmaqlara baxıram, zərifliklə klavişlərə toxunan o barmaqlara ki, bədənimi ustalıqla tumarlayıb ehtirasa gətirirdi. Bu fikirdən üzüm qızarır və mən ayaqlarımı daha sıx cütləşdirirəm. O, başını qaldırır: dərin, dibsiz boz gözlər şəffafdır, üzdəki ifadədən isə heç nə anlamaq olmur.

– Bağışla, – deyə pıçıldayıram, – sənə mane olmaq istəmirdim.

Kristian üzünü turşudur.

– Üzr istəməli olan adam mənəm, – deyir və ifanı bitirərək əllərini dizlərinə qoyur.

İndi görürəm ki, onun əynində pijama var. O, əliylə saçlarını darayır və yerindən qalxır. ġalvar ombalarından elə sallanır ki… ah. Boğazım quruyur. Kristian yöndəmsiz addımlarla fortepianonun ətrafında dövrə vurub mənə yaxınlaşır. Geniş çiyinlər, incə bel… əzələləri onun qarnında bir-birinə elə cilalanıb ki... Onun əla görünüşü var.

– Sən indi yataqda olmalısan.

– Necə də gözəl pyes idi. Baxındır?

– Baxdan iqtibasdır, əslində bu Alessandro Marçelonun qaboy üçün konsertidir.

– Gözəldir, amma çox kədərli...

Onun dodaqları təbəssümlə azca əyilir.


kitabyurdu.blogspot.com

– Yatmağa, – deyə o, əmr edir. – Sabah özünü çox əzgin hiss edəcəksən.

– Yuxudan oyananda yanımda yox idin.

– Yuxum qaçıb, çünki mən tək yatmağa alışmışam.

Onun əhvalını başa düşməkdə acizəm. Deyəsən, Kristianın kefi bir qədər pozulub, amma qaranlıqda bunu müəyyən eləmək çətindir. Bəlkə bu, musiqiyə görədir. O, zərifliklə məni qucaqlayır və yenidən yataq otağına aparır.

– Çoxdan fortepiano çalırsan? Səndə çox yaxşı alınır.

– Altı yaşından.

– A-a.

Kristianı – altı yaşlı oğlanı… gözəl, kürən saçlı, boz gözləri olan, fövqəladə dərəcədə hüznlü musiqini sevən oğlanı təsəvvür edirəm və ürəyim əriyir.

– Özünü necə hiss edirsən? – deyə Kristian soruşur biz otağa qayıtdıqda. O, çırağı yandırır.

– Normal.

Biz ikimiz də eyni vaxtda çarpayıya baxırıq. Mələfələrdə qan var – bakirəlik nişanəm. Xəcalətdən qızarıram və adyala daha sıx bürünürəm.

– Missis Consun düşünməsi üçün səbəb olacaq, – deyir Kristian mənimlə yanaşı duraraq. O, əlilə çənəmi qaldırır və diqqətlə üzümə baxır. Birdən anlayıram ki, onu heç vaxt köynəksiz görməmişəm. İnstinktiv olaraq onun sinəsindəki tüklərə toxunmaq üçün əlimi uzadıram, o dərhal bir adım geri çəkilir.

– Uzan, yat, – sərt şəkildə buyurur Kristian, – gəlib yanında uzanacam.

Əlimi aşağı endirib üzümü turşuduram. Mən hələ heç vaxt onun çılpaq bədəninə toxuna bilməmişəm. O, komodu açır, ordan futbol köynəyi çıxarır və cəld əyninə geyir.

– Yatmağa, – deyə yenidən əmr edir.

Yenidən çarpayıya girirəm, qan haqda düşünməməyə çalışaraq. Kristian arxamda uzanır və qucaqlayır. O, saçlarımı öpür və köks ötürür.

– Yat, əzizim Anasteyşa, – deyə pıçıldayır və mən gözlərimi yumuram, amma musiqidən və onun sözlərindən məni kədər bürüyür. Kristian Qreyin ruhunun hüznlü tərəfi də varmış.

**9-cu fəsil**

Məni otağı doldurmuş günəş işığı yuxudan oyadır. Bədənimi gərir və gözlərimi açıram. Valehedici may səhəri. Sietl ayaqlarım altındadır. Uh! Mənzərə sadəcə möhtəşəmdir. Yanımdaca Kristian Qrey möhkəm mürgüləyir. Yuxuda onun siması bir qədər cavan görünür. ġişman dodaqlar bir qədər aralıdır, parlaq təmiz saçlar valehedici qarışıqlıqdadır. Belə bir gözəlliyə tamaşa etməmək sadəcə cinayətdir. Elə bu an yuxarıdakı qırmızı otaq yadıma düşür… Yəqin, bu həqiqətən qanunazidd bir şeydir. Mən başımı yelləyirəm – fikirləşməli çox şey var. Əlimlə ona toxunmaq istəyirəm. O yatarkən lap əziz körpə kimidir. Onun dedikləri haqda fikirləşmək lazım deyil, amma onun mənimlə bağlı görən, hansı niyyətləri var...

Mən bütün günü ona baxa bilərəm, amma təbiət məni hamam otağına səsləyir. Çarpayıdan atılaraq Kristianın ağ köynəyini yerdə tapıram və əynimə geyirəm. Qapı arxasına keçirəm, fikirləşərək ki, yəqin, bura


kitabyurdu.blogspot.com

hamamdır, amma bu, qarderob imiş, elə yataq otağı həcmində. Divarlar boyu rəflər uzanır, asılqanlarda bahalı kostyumlar, köynəklər və qalstuklar var. Bu qədər paltar insanın nəyinə lazımdır? Təəccübdən fınxırıram. Əslində yəqin ki, Keytin pal-paltarı bundan az deyil. İlahi, Keyt! Onu necə unuda bilərdim! Axı dünən axşam ona ismarıc göndərməli idim. Lənət şeytana! Başım ağrıyacaq. Maraqlıdır, Eliotla onunku alındımı?

O biri qapını açıram. Bu, hamam otağıdır və o, mənim otağımdan da böyükdür. Bu qədər yer bir adamın nəyinə gərəkdir? İki əl üz yuyan. Maraqlıdır. Əgər Kristian gecəni tənhalıqda keçirirsə, onda onların birindən istifadə edilməyib.

Divardakı böyük güzgüdən özümə baxıram. Dəyişilmişəm? Məncə, hə. Amma düzünü desək, bir az ağrıyıram və əzələlərim... bu elə bir hissdir ki, sanki həyatımda heç vaxt fiziki işlə məşğul olmamışam. ―Sən həyatda heç vaxt fiziki iş görməmişsən‖, – təhtəlşüurum oyanmış diliylə gileylənir. O, mənə baxır, dodaqlarını kip sıxaraq və acıqlı halda ayaqlarını yerə döyəcləyir. Sən elə indicə kişiylə yatmış, ona öz bəkarətini vermisən, o isə səni heç sevmir. Onun səninlə bağlı çox qəribə niyyətləri var, o səni seksual qula çevirmək istəyir.

SƏN AĞLINI İTİRMİSƏN?

Güzgüyə baxaraq üzümü turşuduram. İşə bir bax, şəkk-şübhəsiz, Krez kimi gözəl, zəngin bir kişiyə vurulasan və onun ehtiyatında mənə əzab vermək üçün Qırmızı otağı var. Dəhşət! Mən başımı itirmiş və öz hisslərimdə tamamilə dolaşıb qalmışam. Saçlarım yenə dağınıqdır, tellərim sağa-sola baxır. Saç düzümü ―seksdən sonra‖ adlanır və mənə çox yaraşır. Barmaqlarımla onları darayıb qaydaya salmağa çalışır, amma tezliklə təslim oluram.

Lap canavar kimi acmışam. Yenidən yataq otağına keçirəm. Gözəl oğlan hələ də mürgüləyir və onu yataqda saxlayıb mətbəxə gedirəm.

Lənət şeytana!.. Keyt. Mənim çantam Kristianın kabinetində qalıb. Ora qaçaraq öz mobil telefonumu axtarıb tapıram. Üç ismarıc.

Necəsən, Ana!
Hardasan, Ana!
Ana, zəng et!

Nömrəni yığıram, amma Keyt cavab vermir. Ona yaltaq bir məlumat göndərirəm, sağ-salamatam və Göysaqqalın qurbanı olmamışam, o mənada ki, narahat olmasın. Bəlkə də olmuşam? Demək çətindir. Kristian Qreyə olan hisslərimi saf-çürük eləməyə çalışıram, amma bu vəzifə yerinə yetirilməzdir. Məğlubiyyəti etiraf etmək lazımdır. Mən yalqız qalmalı və hər şeyi düşünüb-daşınmalıyam.

Çantada saç üçün iki rezin qaytan tapıram və saçlarıma iki hörük vururam. Ura! Aypodu çantadan çıxarıram və qulaqcıqları taxıram. Musiqi altında yemək hazırlamağı sevirəm. Pleyeri onun köynəyinin döş cibinə soxur və rəqs etməyə başlayıram.

Qurd kimi acam.

Mətbəx məni valeh edir, par-par parıldayır və müasirdir. Qapılarda dəstəklər yoxdur və onları necə açmaq lazım olduğunu dərk etmək çətindir. Kristiançün nahar hazırlayacam. O, bu yaxınlarda omlet yeyirdi… hm, hələ dünən axşam, –Hitman‖da. Lənət şeytana, o zamandan bəri nə qədər hadisə baş verib! Soyuducuya baxıram: ora yumurtayla doludur və mən bekonlu fəsəli bişirmək qərarına gəlirəm. Mətbəxdə rəqs edirəm, xəmiri yoğurmağa başlayıram.

Baş qatmağa iş olanda kefim əladır. Özün haqda düşünə bilərsən, amma elə də ciddi yox. Qulağımda səslənən musiqi fikirdən yayınmağa kömək edir. Mən bura Kristian Qreyin yatağında gecələmək üçün gəlmişəm və bunu bacarmışam, hərgah öz yatağında yatmağa o heç kimə icazə vermir. Gülümsəyirəm: tapşırıq yerinə yetirilib. Əla. Hə, çox, çox əla və fikrən dünənki gecəyə keçid edirəm. Onun sözləri, onun bədəni, onun sevişməsi… gözlərimi qapadıram və əzələlərim qarnımın hardasa dərinliklərində

möhkəm sıxılır. Təhtəlşüurum acıqlı halda mənə baxır… Biz sevişmirik, s..işirik,‖, – deyə harpiya[1] kimi qışqırır təhtəlşüurum. Mən ona fikir vermirəm, amma qəlbimin dərinlikləində etiraf edirəm: o nədəsə haqlıdır. Yaxşı olar ki, bu haqda düşünməyim və diqqətimi yeməyə yönəldim.

Burada hər şey müasir texnikaya uyğun quraşdırılıb. Deyəsən, mən buna artıq alışmışam və fəsəliləri harasa qoymalıyam ki, onlar soyumasın və bundan sonra bekonu bişirməyə başlamalıyam. Qulaqcıqlarda Emi Stad başqalarına oxşamayan qəribə adamlar haqqında oxuyur. Bu, mahnı mənim haqqımdadır, çünki həmişə ala qarğa olmuşam və heç yerdə özümü özüm kimi hiss etməmişəm… indisə dünyadakı ən qəribə adamdan ədəbsiz təklif almışam. Niyə o bu cürdür? Təbiətən, yoxsa tərbiyədən irəli gəlir bu? Heç vaxt beləsiylə qarşılaşmamışam.

Bekonu qrilin altına qoyur və o qızarana qədər yumurtaları qırmağa başlayıram. Çevrilərkən görürəm ki, Kristian başını əllərinə söykəyərək bar kətillərindən birinin üstündə oturub. Əynində elə həminki futbol köynəyi var. ‒Seksdən sonra‖ saç düzümü ona yaman yaraşır. Tüklü üzü də. Deyəsən, o bir qədər heyrətlənib və heç nə dərk etmir. Yerimdə donub-qalıram, üzüm qızarır və qulaqcıqlarımı çıxarıram, onu görərkən dizlərim titrəyir.

– Sabahınız xeyir, miss Stil. Görürəm, səhərdən kefiniz kökdür.

– Mən yaxşı yatmışam, – deyirəm.

– Bu nədəndir görəsən? – o susur və üzünü turşudur. – Mən də yaxşı yatmışam yatağa qayıtdıqdan sonra.

– Acsan?

– Çox, – deyə Kristian cavab verir və diqqətlə mənə baxır. İnanıram ki, o, yeməyi nəzərdə tutur.

– Fəsəli və bekonlu qayğanaq?

– Pis olmazdı.

---

[1] qədim yunan mifologiyasında tufan ilahəsi (*tərc.*)

– Boşqablar üçün altlıqların harda olduğunu bilmirəm… – Çiyinlərimi çəkirəm, var-gücümlə həyəcanımı gizləməyə çalışaraq.

– Özüm taparam. Sən yeməyi hazırla. Əgər istəyirsənsə, hansısa musiqini səsləndirə bilərəm ki, onun sədaları altında… hm… rəqs edəsən?

Mən inadla öz barmaqlarıma baxır, bilərəm ki, üzüm çuğundur rəngindədir.

– Yaxşı, xahiş edirəm, mənə görə işini dayandırma. Bu, məni əyləndirir. – Onun səsində istehza duyulur.

Mən dodaqlarımı sıxıram. Əyləndirir?.. Təhtəlşüurum uğunub-gedir. Yumurtaları qırmaqdan başqa heç bir çıxış yolu qalmır. Yəqin ki, lazım olduğundan da intensiv. Qəfildən Kristian yanımda peyda olur və astaca hörüyümü dartır.

– Xoşuma gəlir, – deyə o pıçıldayır. – Amma bu, səni xilas etməyəcək.

Aydındır… Göysaqqal…

– Səninçün omlet çəkim, yoxsa yumurta sarısı qoyum?

– Omlet, yaxşıcaəzilmiş.

Təbəssümümü gizlətməkdən ötrü çevrilirəm. Ona acıqlanmaq çətindir. Xüsusən o, özünə xas olmayan dəcəl əhvali-ruhiyyədə olduqda, indiki kimi. Kristian siyirməni açır və iki boz boşqabaltı çıxarır ordan. Mən qayğanaq qarışığını tavaya boşaldır, bekonu götürürəm, çevirir və yenidən qrilin altına qoyuram.

Yenidən geri çöndükdə, masanın üstündə portağal şirəsini görürəm, Kristian isə qəhvə bişirir.

– Sən çay içəcəksən?

– Hə, əgər səndə varsa.

Mən bir cüt boşqab tapıram. Kristian bufetə göz gəzdirir və ordan ―İngilis çayı‖ qutusunu çıxarır. Dodaqlarımı sıxıram.

– Deyəsən, hər şeyi qabaqcadan təşkil eləmisən?

– Doğrudan? Məncə biz hələ münasibətlərimiz barədə qərar qəbul etməmişik, miss Stil.

O, bununla nə demək istəyir? Danışıqlarımızı? Bizim e-e-e… münasibətlərimiz… bu ifadə altında nə nəzərdə tutulurdu? Hə, tapmacadır. Yeməyi qızdırılmış boşqablara çəkirəm, onları masaya qoyur, sonra soyuducuya baxıb ağcaqayın şərbəti axtarıram.

Gözlərimi qaldıraraq görürəm ki, Kristian oturmağımı gözləyir.

– Miss Stil… – o, kətillərdən birini mənə doğru çəkir.

– Minnətdaram, mister Qrey, – başımı razılıq əlaməti olaraq yelləyirəm. Kətilə oturaraq bir qədər üzümü turşuduram.

– Bərk ağrıdır? – deyə o, masa arxasına keçərək soruşur. Onun boz gözləri ifadəsizdir.

Mən pörtürəm. Bu cür intim suallar nəyə lazımdır?

– Sözün düzü, nə deyəcəyimi bilmirəm. Mənə yazığın gəlir? – şirin səslə soruşuram.

– Yox, ancaq bilmək istəyirdim ki, sənin tədrisini davam etdirə bilərikmi.

– O-o! –heyrətlə ona baxıram. Nəfəsim çatmır, içimdəki hər şey möhkəm düyünlənir. O-o… necə də xoşdur. İniltimi boğuram.

– Ye, Anasteyşa.

Hm, heç bilmirəm nə istəyim … Yenə seks? Hə, mümkünsə!

– Yeri gəlmişkən, yemək dadlıdır, – deyə Kristian gülümsəyir.

Omletin kiçik bir tikəsini ağzıma qoyuram, amma dad hiss eləmirəm. –Tədrisi davam etdirmək!‖ –Mən ağzını s...mək istəyirəm!‖ Bu da proqrama daxildir?

– Bəsdir dodağını dişlədin, bu məni yayındırır. Köynəyinin altında tam çılpaq olduğunu da bilirəm; bu, məni daha çox yayındırır.

Paketi qaynar sulu kiçik çaydana salıram. Düşüncələrim dağınıqdır.

– Nə cür tədrisi nəzərdə tutursan? – saxta laqeydliklə soruşuram, amma çox yüksək səsim hisslərimi tamamilə ələ verir.

– Bir halda ki oran hələ də ağrıyır, sən oral vərdişləri öyrənməyə başlaya bilərsən.

Çay nəfəs yolumda qalır, gözlərim geniş açılır. Kristian astaca küreyimə vurur və portağal suyunu mənə uzadır. Onun ağlındakı nədir?

– Əgər qalmaq istəyirsənsə, – deyə o, əlavə edir. Üzünün ifadəsi tamamilə sakitdir.

Bu dəhşətdir.

– Bu gün qalardım, əgər əleyhinə deyilsənsə. Sabahsa işə getməliyəm.

– –Kleytons‖da saat neçədə olmalısan?

– Doqquzda.

– Saat doqquzda səni işə aparıb çıxaracam.

Üzümü turşuduram. O istəyir ki, mən daha bir gecə burda qalım?

– Amma mən evə getməliyəm, burda geyinməyə paltarım yoxdur.

– Sənə nəsə ala bilərik.

Məndə o qədər çox pul yoxdur ki, onu pal-paltara xərcləyim. Kristian əlini uzadır və dodağımı sərbəst buraxmağım üçün çənəmdən tutub dartır. Heç hiss etmirdim ki, dodağımı dişləyirəm.

– Nə olub?

– Bu gün axşam evdə olmalıyam.

– Yaxşı, bu gün axşam, – deyə o, həvəssiz razılaşır. – İndi naharını ye.

Fikrim və düşüncələrim qarmaqarışıqdır. İştaham nədənsə itdi.

– Ye, Anasteyşa.

– Daha istəmirəm, – deyə pıçıldayıram.

– Xahiş edirəm, sonadək ye.

– Sənin yeməyə bu münasibətin nədən qaynaqlanır? – soruşuram.

Kristianın qaşları toqquşur.

– Axı mən bunu demişəm. Tabaqda qalan yeməyi tullamaqdan xoşum gəlmir. Ye, – deyə o əmr edir. Onun gözləri hirsdən tündləşir.

İşə bax da! Ona nə olub? Çəngəli əlimə götürür və yavaş-yavaş yeməyə başlayıram. Gələcəkdə boşqabıma çox az yemək çəkməliyəm, əgər o belə hirslənirsə. Mən omleti sona çatdırana qədər onun üzünün ifadəsi

yumşalır. Görürəm ki, o, boşqabı silib-süpürür. Kristian yeməyi bitirməyimi gözləyir, sonra boşqabı məndən alır.

– Sən yemək hazırladın, mənsə yığışdıraram.

– Çox demokratik qaydadır.

– Hə, – deyə üzünü turşudur. – Mənimçün səciyyəvi deyil. Mən işi bitirdikdə çimərik.

– Necə istəyirsən.

Hə, budur… mən duşa girərdim. Mobil telefonum zəng çalır – xəyallarımı yarıda qoyaraq. Bu Keytdir.

– Salam. – Eyvana çıxıram, Kristian Qreydən uzaq olmaqçün.

– Ana, niyə mənə dünən axşam ismarıc göndərmədin? – o hirslidir.

– Bağışla, belə alındı.

– Sən sağsan?

– Hə, hər şey qaydasındadır.

– Aranızda... olub? – o, maraqdan çatlayır. Onun səsində səbirsiz intizarı duyaraq gözlərimi qapadıram.

– Keyt, mən uzun-uzadı danışa bilmərəm.

– Olub… özüm bilirəm.

O necə başa düşüb? Yoxsa məndən söz almaq istəyir? Danışa bilmərəm, çünki o lənətə gəlmiş müqaviləni imzalamışam.

– Keyt, xahiş edirəm.

– Bu necə olub? Sən sağsan?

– Axı mən dedim, sağ-salamatam.

– O nəvazişli idi?

– Keyt, xahiş edirəm… – həyəcanımı gizlədə bilmirəm.

– Ana, gizlətmə. Mən bunu dörd ildi gözləyirdim.

– Axşam görüşərik, – telefonu söndürürəm.

Hə, asan məsələ deyil. Keyt dəhşətli dərəcədə inadkardır. O, hər şeyi təfsilatı ilə bilmək istəyəcək, amma mən danışa bilmərəm, çünki müqavilə imzalamışam… o necə adlanırdı? Məxfiliyin qorunması haqqında. Keyt özündən çıxacaq və haqlı olacaq. Mənə bir plan lazımdır.

Geri dönür və Kristianın necə zərifliklə mətbəxdə gəzib dolaşdığına baxıram.

– De görüm o məxfiliyin qorunması haqda müqaviləyə nə şamil olunur? – deyə ehtiyatla soruşuram.

– Nə olub ki? – Kristian istifadə olunmuş çay paketini atır və mənə baxır.

– Bilirsən, mənim sekslə bağlı bir neçə sualım var, – deyə barmaqlarıma baxıram. – Mən onları Keytdən soruşmaq istərdim.

– Məndən soruş.

– Kristian, sənə olan hörmətimə baxmayaraq… seks barədə suala sən ancaq qərəzli, qeyri-təbii, təhrifli cavab verə bilərsən. Mənəsə qərəzsiz fikir lazımdır. Bu, sadəcə texniki suallardır. Mən Qırmızı ağrı otağı haqda söz salmayacam.

O qaşlarını çatır.

– Qırmızı ağrı otağı? Bu həzz otağıdır, Anasteyşa. Bundan başqa, sənin rəfiqən mənim qardaşımla yatır. Yaxşı olar ki, ona heç nə danışmayasan.

– Bəs ailən bilirmi sənin… ee… meyillərin haqda?

– Yox. Bunun onlara dəxli yoxdur.

Kristian yavaş-yavaş mənə yaxınlaşır və qarşımda durur.

– Sən nəyi öyrənmək istərdin? – o, barmağını yanağıma çəkir və başımı geri çəkir ki, düz gözlərimin içinə baxa bilsin. Mən özümü dəhşətli dərəcədə naqolay hiss edirəm: yalan danışsam, üzə çıxar.

– Elə əhəmiyyətli bir şey deyil, – deyə pıçıldayıram.

– Ondan başlamaq olar ki, bu gecə xoşuna gəldimi? – onun gözlərində dəhşətli maraq görürəm. Onun üçün bilmək mühümdür. Hə, işə düşdük.

– Çox, – sakitcə deyirəm.

– Mənə də, – deyə Kristian etiraf edir. – Mən heç vaxt vanil sekslə məşğul olmamışam. Etiraf etmək gərəkdir ki, onun da üstünlükləri var. Bəlkə də bu sənə görədir, – o, barmağını üst dodağımda sürüşdürür.


kitabyurdu.blogspot.com

Mən dərindən ah çəkirəm. —Vanil seks‖?

– Gedək çimək. – Kristian əyilir və məni öpür. Ürəyim yerindən atılır və içimdəki istək şişir… ən aşağıda.

Vanna ağ daşdan düzəldilib, dərin, oval formada. Kristian onu divardakı krandan doldurur və suya hansısa bahalı vasitəni qarışdırır. Su şırnağı altımda köpüyə çevrilir və jasminin xoş iyi gəlir. O dayanıb və tündləşmiş gözləriylə mənə baxır, sonra futbol köynəyini çıxarır və yerə atır.

– Miss Stil … – Kristian əlini mənə uzadır.

Mən gözlərimi geniş açaraq qətiyyətsiz halda qapı ağzında dayanmışam, sonra baxışımı ondan çəkmək gücünə malik olmayıb, irəliyə doğru bir addım atıram. Kristian heyrətamiz dərəcədə seksapildir. Təhtəlşüurum hardasa uzaq küncdə huşsuz halda yerə sərilib. Onun əlindən tuturam və o, mənə işarə edir ki, vannada dayanım, hərgah əynimdə hələ də köynək var. İtaətkarcasına əmrə tabe oluram. Əgər onun dəhşətli təklifi ilə razılaşmaqda niyyətliyəmsə, buna alışmaq lazım gələcək. Əgər!.. Su şəhvət doğurucu dərəcədə istidir.

– Mənə tərəf çevril, – deyə o, astaca əmr edir.

Deyiləni edirəm. Kristian diqqətlə mənə baxır.

– Dodağın həqiqətən dadlıdır, bunu təsdiqləməyə hazıram, amma necə olur-olsun, bəsdir onu dişlədin, – deyir o sıxılmış dişləri arasından. – Sən bunu etdikdə, səni s..mək istəyirəm, sənin isə oran hələ sağalmayıb, aydındır?

Gözlənilməzlikdən dərin köks ötürürəm.

– Hə də, – deyə o cırnadır. – Hər şeyi başa düşürsən.

Mən əlacsızlıqdan başımla təsdiqləyirəm. Başa düşmürəm, ona təsir edən nədir?

– Əla.

O, köynəyin cibindən mənim aypodumu çıxarır və onu çanaq kənarına qoyur. – Su və aypod – heç də yaxşı uyğunluq deyil. – deyə Kristian əyilərək ağ köynəyimin ətəklərindən yapışır, onu başım üstündən çıxarır onu yerə atır. Sonra geri çəkilir və nəticəni seyr edir. Onun qarşısında

tamamilə lüt dayanmışam, qızarıram və baxışlarımı qarnımda cütləşmiş əllərimdən yuxarı qaldıra bilmirəm. Mümkün olduqca isti suya, köpüyün altına tez girmək istəyirəm, amma bunu da anlayıram ki, bu, onun xoşuna gəlməyəcək.

– Ey, – Kristian başını yana əyərək məni fikirdən ayırır. – Anasteyşa, sən çox gözəlsən, əla. Utanmağa dəyməz.

O, çənəmdən tutaraq başımı azca yuxarı qaldırır və düz gözlərimin içinə baxır. Onun baxışında hərarət və istək oxuyuram. İlahi!.. O elə yaxındır ki... Mən ona toxuna bilərəm.

– Otur. – Kristian qarışıq fikirlərimi qırır və mən isti suya baş vururam. Oy… göynədir. Bu gözlənilməz həzzdir, amma qoxu daha füsunkardır və yandırma tez keçir. Mən beli üstə uzanıram, gözlərimi qapadır və uyuducu istidə rahatlanıram. Gözlərimi yenidən açdıqda Kristianın yuxarıdan-aşağıya mənə baxdığını görürəm.

– Elə orda dayanıb qalacaqsan? – məncə, həyasızcasına soruşuram, amma səsim xırıltılı çıxır

– İndi gəlirəm, yana çəkil, mənə yer elə, – deyə o əmr edir.

Kristian pijamasını çıxarır arxa tərəfimdən vannaya girir və məni özünə tərəf çəkir. O, uzun ayaqlarını məni ayaqlarımın üstünə qoyur, onları dizlərində qatlayır, buna görə də onun topuğu mənimkilərlə eyni səviyyədə olur və sonra ayaqlarımı aralayır. Heyrətdən ağzım açıla qalır. O, burnuyla saçlarıma toxunur və dərindən köks ötürür.

– Səndən necə də xoş qoxu gəlir, Anasteyşa.

Bütün bədənim ürpənir. Vannada Kristian Qreylə birgə çılpaq uzanmışam. O da çılpaqdır. Əgər dünən onun otel otağında yuxudan oyanarkən kimsə mənə desəydi ki bu belə olacaq, dünyasında inanmazdım.

O, rəfdən duş üçün gel götürür və bir azca ovcuna tökür, sonra əlini sabunlayır, onları yumşaq, qalın köpüklə örtərək və uzun barmaqları ilə yavaşca boynumu və çiyinlərimi masaj edərək sabunlamağa başlayır. Həzzdən inləyirəm.

– Xoşuna gəlir? – onun təbəssümünü duyuram.

– Aha.

Yumşaq hərəkətlərlə o, qoltuqlarımın altına enir. Nə yaxşı ki, Keyt məni tükləri qırxmağa məcbur elədi. Onun əlləri döşlərimdə sürüşür və uzun barmaqlar məmələri tutarkən və heç bir rəhm bilmədən onları əlləyərkən dərindən inləyirəm. Onun əllərinə sarı yönələrə bədən instinktiv olaraq enib-qalxır.. Onun dünən axşam elədiklərindən sonra məmə giləleri gizildəyir. Amma onun əlləri orda çox qalmır və aşağı, qarnıma doğru enirlər. Tənəffüsüm sürətlənir, ürəyim bərkdən döyünür. Arxamda getdikcə güclənən ereksiyanı hiss edirəm. Bunu dərk etmək çox xoşdur: bədənim onda şəhvət oyadır. –Ha-ha… bədən, sən deyil‖, – deyə təhtəlşüurumu fınxırır. Çağırılmamış fikirləri kənara atıram.

Kristian məxmər parçanı götürmək üçün əlini uzadır, mən isə ehtirasdan yanaraq, onunla yanaşı, əllərimlə onun möhkəm əzələli ombalarına dayaqlanaraq ağır-ağır nəfəs alıram. Bir qədər sabunu əsgiyə sıxaraq o əyilir və ayaqlarım arasına çəkir. Nəfəsimi içəri alıram. Uzun barmaqlar parça ilə ustalıqla həssas nöqtələri tapır və mən həzzdən əriyirəm; ombalarım təbii ritmi ilə hərəkət etməyə başlayır. Zehnim dumanlanır, başımı geri atıram və açıq ağzımdan iniltilər çıxmağa başlayır. İçimdəki gərginlik asta-asta, durmadan artır… ilahi...

– Bax belə, balaca, – deyə Kristian qulağıma pıçıldayır, çox incə tərzdə dişiylə qulağımın sırğalığını dişləyərək. – Bax belə.

O, ayaqlarımı vannanın divarlarına sıxır, mənə tərpənmək imkanı verməyərək. Belə bir durumda bədənimin ən intim yerləri ona əlçatandır.

– Xahiş edirəm… – yalvarıram. Bədənim qıc olur, ayaqlarımı düz saxlamağa çalışıram, amma bacarmıram. Mən bu adamın seksual köləliyindəyəm və o, mənə tərpənmək imkanı vermir.

– Məncə, sən artıq təmizsən, – Kristian pıçıldayır və hərəkətlərini dayandırır.

–Nə? Yox! Yox!‖ – deyə təhtəlşüur etiraz edir.

– Niyə dayandın? – deyə mızıldanıram.

– Səninlə bağlı başqa planım var, Anasteyşa.

Nə… ilahi… amma… mən olmuşam… bu ədalətli deyil.

– Çevril. İndi məni yu.

O! Ona tərəf çevrilir və dəhşətlə görürəm ki, o, barmaqlarıyla şəhvətdən dikəlmiş s..ini sıxır. Ağzım açıla qalır.

– İstəyirəm ki, bədənimin ən bahalı və əziz hissəsiylə tanış olasan. Mən ona çox sadiqəm.

Necə də böyükdür! S... ombalarda qabarcıqlar yaradan su səviyyəsinə qalxır. Kristianın üzündə kinayəli təbəssüm dolaşır. O, mənim heyrətli görünüşümdən həzz alır. Və qəfildən anlayıram ki, ağzımı açaraq gözümü ona zilləmişəm. Bu içimə girmişdi! Bu necə mümkün olub? O istəyir ki, mən ona toxunum. Hm… yaxşı.

Mən duş üçün gel götürürəm və Kristian kimi əllərimi sabunlayıram ki, onların üstü qalın köpüklə örtülsün və bu zaman baxışlarımı onun simasından çəkmirəm. Ağzım azca açıqdır… mən bilərəkdən alt dodağımı dişləyirəm, sonra onu, dişlərimin dəydiyi yerləri dilimlə yalayıram, onun baxışları cəmlənib və ciddidir, dilim üst dodağıma dəydikdə onlar getdikcə genişlənir. Əlimlə s..i tuturam, Kristianın hərəkətlərini təkrarlayıram. O, bir anlığa gözlərini qapadır. Aha… toxunuşda s.. düşündüyümdən də çox möhkəmdir. Mən onu sıxarkən Kristian əlini əlimin üstünə qoyur.

– Necə də xoşdur, – deyə o pıçıldayır və barmaqlarımdan möhkəm yapışaraq əlimi yuxarı və aşağı sürüşdürməyə başlayır. Onun tənəffüsü ahəngini itirir, yenidən mənə baxdıqda isə onun gözlərində əriyən qurğuşun görürəm. – Fərasətli qız.

O, əlimi buraxır, mənə sərbəst hərəkət etmək imkanı verir və yenidən gözlərini yumur. Ombalarını bir qədər irəli uzadır və refleksiv olaraq onu daha möhkəm sıxıram. Kristian astaca, hardansa dərindən gələn səslə inləyir. Ağzımı s..dirəcəm… hm-m. Onun baş barmağını ağzıma necə soxduğunu və var gücümlə onu sormağımı əmr etdiyini xatırlayıram. Aşağı əyilirəm, onun gözləri bağlı olduğu vaxt, dodaqlarımla s..ini tuturam və dilimi başında gəzdirərək ehtiyatla sovurmağa başlayıram.

- O-o… Ana… – Kristianın gözləri açılır və mən daha möhkəm sovurmağa başlayıram.

Hm-m… o eyni vaxtda həm yumşaq, həm də bərkdir, polad kimi, məxmərə bükülü və gözlənilməz dadlı – şor və sürüşkən.

- İlahi, – Kristian inləyir yenidən gözlərini qapadaraq.

Aşağı uzanaraq mən onu daha dərinə uduram. Ha! Mənim daxili ilahəm şadyanalıq edir. Mən bunu edəcəm. Mən ağzımı s...dirəcəm. Mən dilimi onun başında oynadıram və Kristian yenidən ombalarını əyir. İndi onun gözləri açıqdır, ehtirasla doludur, dişləri kip sıxılıb. Hiss edirəm onun ombaları altımda necə gərilir. O əyilir, hörüklərimdən tutur və qabağa-geriyə hərəkət etməyə başlayır.

- O-o… balaca… necə də əladır…

Nəhəng s..in başını dilimlə tumarlayaraq onu daha möhkəm sovururam. Kristian ağır-ağır nəfəs alır və inləyir.

- Nə qədər dərin ağzına ala bilərsən?

Hm-m… mən s...i daha dərinə salıram, udlağın arxa divarınadək, sonra yenidən irəli və geri aparıram və eyni zamanda dili başının ətrafında fırladıram. Bu, mənim buz dondurmamdır. Onu daha möhkəm və möhkəm sovururam, udaraq daha dərinə, dilimi də daha sürətlə fırladaraq s...in başının ətrafında. Hm-m… heç vaxt bilməzdim ki, bu belə ehtiraslandırıcı ola bilər – ona həzz verərək Kristianın şəhvətdən necə alışıb-yandığına tamaşa edirəm. Daxili ilahəm, hissiyyatlı şəkildə əyilib-büzülərək salsa rəqs edir.

- Anasteyşa, indi ağzına qurtaracam, – kəsik səsdə açıq-aşkar xəbərdarlıq hiss olunur. – Əgər bunu istəmirsənsə, elə bu dəqiqə dayan.

O, yenidən ombalarını yuxarı qaldırır və Kristianın geniş açılmış gözlərində ehtiyatlanma və şəhvət ehtirası var – o, məni istəyir. Ağzıma qurtarmaq… o-o, ilahi.

Lənət şeytana. O əlləriylə saçlarımdan möhkəm yapışır. Məndə hər şey alınacaq. Mən s..i daha dərin uduram və dişlərimlə sıxıram. Bu, onun –axırına çıxır‖. O çığırır və donub-qalır, boğazımdan keçən şora mayeni hiss


kitabyurdu.blogspot.com

edirəm. Mən tez udqunuram. Br-r… Heç də xoş hiss deyil. Amma Kristianın həzzdən necə əridiyini gördükdə, artıq heç nə vecimə deyil. Mən onunla üzbəüz otururam və özündənrazı, zəfər təbəssümü ilə ona baxıram. O hələ təngnəfəs haldadır.

– Sənin udma refleksin yoxdur? İlahi, Ana… bu əla idi, doğrudan… mən heç gözləmirdim, – deyə o, üzünü turşudur. – Sən məni elə heyrətləndirirsən.

Mən gülümsəyirəm və bilərəkdən dodağımı dişləyirəm. Kristian düşüncəli halda mənə baxır.

– Əvvəllər bunu etmisən?

– Yox, – deyə mən iftixarımı gizlədə bilmirəm.

– Yaxşı, – deyir o özündənrazı halda və mənə elə gəlir ki, rahatlanaraq. – Daha bir ilk, miss Stil. – Kristian mənə müştəri gözü ilə baxır. – Oral seksə görə sənə ―beş‖ yazmaq olar. Gedək yatağa, sənə orqazm borcluyam.

Orqazm! Daha biri!

O, tez-tələsik vannadan çıxır və mən ilk dəfə ilahi quruluşa malik Adonisi görürəm, yəni Kristian Qreyi. Daxili ilahəm ağzının suyunu axıdaraq rəqsini dayandırır: o da Kristiana baxır. Ereksiya bir qədər azalıb, amma o, əvvəlki kimi böyükdür… yəni belə də olurmuş? O, kiçik məhrəbanı qurşağı ətrafına dolayır, yalnız ən mahiyyətli hissəni örtür və mənə məhrəbanın daha böyüyünü – ağ və tüklü olanını verir. Vannadan çıxarkən mən onun uzatdığı ələ dayaqlanıram. Kristian məni yumşaq parçaya bükür, qucaqlayır və dilini ağzıma soxaraq bərk-bərk öpür. Ondan qurtulmaq və onu qucaqlamaq… ona toxunmaq istəyirəm… amma buna taqətim yoxdur. Öpüş dünyanı yadımdan çıxarır. Kristian qayğıkeşliklə başımı tutur, onun dili ehtiyatla ağzımı tədqiq edir və mən başa düşürəm ki, əslində o, mənə minnətdarlıq izhar edir. Ola bilsin ki, ilk minetimə görə. Doğrudanmı?

Kristian geri çəkilir. Yenə də zərifliklə əlləriylə başımı sıxaraq diqqətlə düz gözlərimin içinə baxır.

- –Həll de, – o, ehtirasla pıçıldayır.

Heç nə anlamayaraq üzümü turşuduram.

- Nəyi nəzərdə tutursan?

- Müqaviləmizə –həll de. Mənim ol. Xahiş edirəm, Ana, – yalvarışlı tərzdə pıçıldayır o və məni zərifliklə öpür, sonra buraxır və uzun-uzadı üzümə baxır. Sonra əlimdən tutaraq məni yenidən yataq otağına aparır və mən qəfildən halsızlaşaraq, itaətlə onun ardınca gedirəm. İnanılmazdır. O, doğrudanmı bunu istəyir?

Yataq otağında Kristian məni yuxarıdan-aşağı süzür.

- Sən mənə etibar edirsənmi? – deyə qəfildən o soruşur. Başımla təsdiqləyirəm, dəhşətlə anlayaraq ki, həqiqətən ona etibar edirəm. O, mənimlə nə etmək istəyir? Bədənimi əsəbi titrəmə tutur.

- Lap yaxşı, – Kristian deyir və nəvazişli tərzdə barmaqları ilə üst dodağıma toxunur. Sonra qarderob otağına gedir və geri qayıdır, onun əlində gümüşü-boz ipək qalstuk var.

- Əllərini irəli uzat, – deyə o, əmr edir, bədənimə bükülü məhrəbanı açıb döşəməyə atır.

Onun dediyi kimi edirəm və Kristian düyünləri möhkəm sıxaraq əllərimi qalstukla bağlayır. Onun gözləri ehtirasdan parlayır. Mən qurtula bilməyəcəm. Yəqin ki, o bunu boyskaut düşərgəsində öyrənib. Bundan sonra nə olacaq? Nəbzimin atışları artır, qəlbim quduz sürətlə döyünür.

- İndi lap balaca qız kimi görünürsən, – yavaşca deyir o və üstümə gəlir. İnstinktiv olaraq çarpayıya doğru geri çəkilirəm. Kristian məhrəbanı kənara atır, amma mən gözlərimi onun ehtirasdan təhrif olmuş simasından çəkə bilmirəm.

- O-o-o, Anasteyşa, səninlə nə edim? – deyə o pıçıldayır, məni çarpayıya uzadır və əllərimi qaldıraraq başımın üstünə qoyur. – Əllərini aşağı endirməyi heç ağlına gətirmə. Aydındır? – O, gözləriylə məni odlayıb yandırır və bu təzyiqdən nitq qabiliyyətimi itirirəm. Heç vaxt ona zidd hərəkət etməyəcəm.


kitabyurdu.blogspot.com

- Mənə cavab ver, – Kristian mənə əmr edir, demək olar ki, xəfif pıçıltıyla.

- Mən əllərimi endirməməliyəm, – deyə pıçıldayıram.

- Ağıllı qız. – O, nümayişkaranə tərzdə dodaqlarını yalayır və mən sehrlənərək onun dilinin üst dodağında necə sürüşdüyünə baxıram. Kristian düz gözlərimin içinə baxır, məni dəyərləndirir. Sonra o, əyilir və dodaqlarımda becid öpüş izi qoyur.

- İndi mən sizi öpməyə başlayacam, miss Stil, – incəliklə deyir o və çənəmdən yapışaraq əliylə onu yuxarı qaldırır, boğazım qabarır. Onun dodaqları asta-asta aşağı enir, dişləyərək, sovuraraq və öpərək. Vanna qəbulundan sonra dərim həddən artıq hissiyyatlı olub. İstilənmiş qan qarnımın aşağı hissəsində yığılır, ayaqlarım arasında, düz orda. Mən inləyirəm.

Ona toxunmaq istəyirəm. Yetərincə naqolay bağlanmış əllərimlə onun saçlarına toxunuram. Kristian öpüşlərini dayandırır və acıqlı halda başını yelləyir, sonra əllərimi yenidən başımın arxasına qoyur.

- Əllərini tərpətmə, yoxsa yenidən başlamaq lazım gələcək, – o, xəfifcə deyir.

ģəhvət hissiylə mübarizə aparmağa taqətim yoxdur.

- Sənə toxunmaq istəyirəm, – deyə artıq özümə hakim olmayaraq xırıltılı səslə deyirəm.

- Bilirəm, – deyə o pıçıldayır. – Əllərini başının arxasında saxla, – deyəsən, bu əmrdir.

Kristian yenidən çənəmdən tutur və əvvəlki kimi boğazımı öpməyə başlayır. Heyif. Onun əlləri döşlərimi tumarlayır, dodaqlarısa asta-asta boynumun dibinə enir. Burnunun ucuyla ora toxunur, sonra onun dodaqları asta-asta aşağı enməyə başlayır. Hər bir döşümə öpüş və xəfif dişləmə payı düşür, sonra məmə gilələrinin zərif əmilməsi. İlahi. Ombalarım öz-özünə löngər vurmağa başlayır və onun ağzının hərəkətiylə eyni ritmdə hərəkət edir. Var gücümlə əllərimi unutmamağa çalışıram.

- Tərpənmə. – Dərimdə onun nəfəsinin hərarətini hiss edirəm. Göbəyimə çatarkən Kristian dilini onun dibinə salır, sonra astaca qarnımı dişləyir. Mən çarpayıda əyilib-buruluram. – Hm-m. Necə də şirinsiz, miss Stil.

O, burnunun ucunu qarnımla qasığım arasındakı xətdə gəzdirir, diliylə məni incə tərzdə cırnadır. Sonrasa qəfildən kəskin bir hərəkətlə diz üstə çökür, ayaqlarımın qarşısında və kəskin hərəkətlə onları aralayır.

Ağlım başımdan çıxır. O, sol ayağımı tutur, onu dizlərimə qədər qatlayır və dabanımı ağzına qoyur. Diqqətılə reaksiyamı izləyərək hər bir barmağı xəfifcə öpür və onların altını incəliklə dişləyir. Çəçələ barmağa çatdıqdasa, onu daha bərkdən dişləyir və mən çığırıram. Bu çox erotik təəssüratdır, taqətim qalmır, gözlərimi qapadıram və hisslərimi ayırd etməyə çalışıram. Kristian topuğumu öpür, sonra düz xətlə dizimə qalxır və bir qədər yuxarıda dayanır. Sonra eyni şeyi sağ ayaqla təkrarlayır və məni tam halsızlığa çatdırır.

- Di yaxşı, xahiş edirəm, – deyə yalvarıram.

Kristian çəçələ barmağımı dişləyir və onun əks-sədası qarnımın dərinliklərində hiss olunur.

- Hər şey qaydasındadır, miss Stil, – məni cırnadır.

Bu dəfə Kristian dizdən yuxarıda dayanmır, ombalara doğru qalxır, öpərək, diliylə toxunaraq və ayaqlarım arasında peyda olur, çox incə tərzdə burnunu bədənimin ən zərif yerlərində gəzdirərək yuxarı-aşağı sürüşdürür. Mən qovurulub-buruluram… o, ilahi...

Kristian dayanır və gözləyir ki, mən sakitləşim. Mən vurnuxur və başımı qaldırıram ki, ona baxa bilim. Ürəyim sinəmdən qopmağa çalışaraq möhkəm döyünür.

- Bilirsinizmi, miss Stil, sizdən necə də gözəl ətir gəlir? – deyə o pıçıldayır və məndən gözünü çəkmədən, burnu ilə qasığıma qalxır və pərlərindən hava buraxır.

Bütün bədənim allanır, hiss edirəm ki, huşumu itirməyə çox yaxınam və gözlərimi qapadıram. Bunu necə etdiyinə baxa bilmirəm.


kitabyurdu.blogspot.com

Kristian havanı ayaqların arasına üfürür. İlahi…

- Tüklərin xoşuma gəlir. – o, qasığımdakı tükləri xəfifcə dartır. – Məncə, onu saxlamalıyıq.

- Xahiş edirəm, – deyə yalvarıram.

- Hm-m, daha yaxşı xahiş elə, Anasteyşa.

İnləyirəm.

- Əvəz-əvəzə mənim prinsipim deyil, miss Stil, – deyə Kristian pıçıldayır, aşağı-yuxarıya xəfifcə üfürərək. – Amma siz mənə həzz bəxş etdiniz və sizə mükafat düşür.

Onun səsində masqara var. O, əlləriylə ayaqlarımı tutaraq astaca klitoru diliylə oxşamağa başlayır.

- A-a-a! – dilin toxunuşundan bədənim qatlanır.

O, işgəncəni zəiflətməyərək dilini daha becid şəkildə fırladır. Mən bütün hissiyyatımı itirirəm, yalnız qasığımda doğan hisslər istisna olmaqla. Ayaqlarım gərilir və bu an Kristian barmağını uşaqlıq yoluma soxur. Mən onun xırıltılı iniltisini eşidirəm:

- Ah-h, balaca. Oran yamyaşdır, məni gözləyirsən.

O, barmağını dairəvi şəkildə fırladır, məni gərərək, içimə girərək; onun barmağı dairəvi hərəkəti təkrarlayır… bu artıq dözülməzdir. Bədənim boşalma tələb edir və artıq özümü saxlaya bilmirəm. Qurtarıram. Orqazm məni düşüncə qabiliyyətindən məhrum edir, yenidən və bir daha içimdə hər şey burulur. Aman Tanrım. Mən çığırıram, aləm gözlərimdə dumanlanır, qeyri-maddi olur və gözdən itir.

Kəsik tənəffüs arasından mən cırılan cığaranın çatırtısını eşidirəm. Çox yavaşca Kristian içimə soxur və hərəkət etməyə başlayır. O-o… ilahi. Bu ağrıdıcıdır və həm də xoşdur, incə və kobuddur eyni zamanda.

- Ağrıtmır? – deyə o pıçıldayır.

- Yox, yaxşıdır, – deyə cavab verirəm.

Və o içimdə daha bərkdən hərəkət etməyə başlayır, güclü təkanlarla, yenə və bir daha, amansızcasına, rəhmsiz, mən yenidən son həddə olana qədər.


kitabyurdu.blogspot.com

- Qurtar, balaca, – Kristian düz qulağımın dibində xırıltılı səslə deyir və mən onun ətrafında minlərlə xırda hissəciklərə bölünürəm. – Hə, əla.

Daha bir güclü hərəkət və o donub-qalır, yüksək nöqtəyə çataraq.

Kristian yuxarıdan düz üstümə sərilir, bütün çəkisi ilə, məni dəhşətlə sıxaraq. Mən bağlı əllərimi onun boynuna salıram, var gücümlə onu möhkəm tutmağa çalışıram. Başa düşürəm ki, bu kişidən ötrü hər şeyə hazıram. Mən cismim və ruhumla ona məxsusam. O, heç təsəvvür edə bilmədiyim dünyanı mənim üçün kəşf edib. Və o, məni daha uzaqlara aparır, çox uzaqlara. O-o… mən nə edim?

Kristian dirsəyinə dayaqlanır və öz boz gözləriylə diqqətlə məni süzür.

– Görürsən, ikilikdə bizə necə xoşdur. Və sən mənim olsan, hər şey daha yaxşı olacaq. İnan mənə, Anasteyşa, mən sənə elə aləmləri açacağam ki, onların varlığı haqqında heç gümanın olmayıb.

Onun sözlərində düşüncələrimə cavab var. Və hər şey hələ üzgünlükdə olarkən və ona baxarkən sözlərin mənasını pis anlayıram.

Qəfildən holldan səs eşidilir. Mən o an nə baş verdiyini anlamıram.

– Əgər o, hələ də yataqdadırsa, deməli, xəstələnib, Kristian heç vaxt günortaya qədər yatmır.

– Missis Qrey, xahiş edirəm.

– Teylor. Nə baş verir? Mən oğlumu görmək istəyirəm.

– Missis Qrey, o tək deyil.

– ―O tək deyil‖ nə deməkdir?

– Deməli, yanında kimsə var.

— A-a…

Hətta mən qadın səsində inamsızlıq duyuram. Kristian gözlərini bərkdən döyür və genişlənmiş bəbəkləriylə saxta dəhşətlə mənə baxır.

## 10-cu fəsil

O, tələsik içimdən çıxır, yataqda oturur və istifadə edilmiş prezervativi zibil yeşiyinə atır.

– Qalx, biz geyinməliyik. Əgər əlbəttə, anamla tanış olmaq istəyirsənsə. – Kristian gülümsəyir, tez də yataqdan qalxır və cins şalvarı alt paltarsız əyninə geyir! Mən oturmağa çalışıram, amma əvvəlki kimi əllərim bağlıdır.

– Tərpənə bilmirəm.

Onun gülüşü genişlənir, əyilir və qalstuku açır. Toxumanın rəsmi biləklərimdə dəqiqliklə əks olunur. Çox seksualdır. Kristian razıdır, onun

gözlərində sevinc qığılcımları var. O, tələsik alnımdan öpür və geniş gülümsəyir.

– Bu da bir ilkdir, – deyə o etiraf edir. Mən tamamilə təsəvvür edə bilmirəm ki, o nəyi nəzərdə tutur. – Burda təmiz alt paltarım yoxdur.

Qəfildən məni təlaş dalğası bürüyür və əgər sonuncu hadisələri nəzərə alsaq, təlaş çox dəhşətlidir. Onun anası! Aman Tanrım! Mənim əynimə geyməyə heç nəyim yoxdur; o bizi, demək olar ki, cinayət yerində yaxalayıb.

– Yaxşı olar ki, mən burda qalım.

– Yox, heç bir halda. – Kristian qərarlı deyir. – Mənim paltarlarımdan əyninə bir şey geyin.

O, ağ futbol köynəyini əyninə çəkir və pırtlaşıq saçlarına əl gəzdirir. Həyəcanıma baxmayaraq, düşündüyümü dərhal unuduram. Görəsən, onun bu görkəminə nə vaxtsa alışacağam? Onun gözəlliyi adamı heyran edir.

– Anasteyşa, sən kisənin içində də yaxşı təəssürat oyadacaqsan. Narahat olma. Səni anamla tanış etmək istəyirəm. Tez geyin. Hələlik mən gedib onu sakitləşdirim. – Kristian dodaqlarını kip sıxır. – Beş dəqiqədən sonra gəl. Əgər gəlməsən, hətta çılpaq olsan belə, səni çölə çıxaracam. Futbol köynəklərim komoddadır. Utanma.

O, məni dəyərləndirici bir baxışla süzüb otaqdan çıxır.

Lənət şeytana. Onun anası. Mən belə bir şeyə razılaşmamışdım. Əslində, ola bilsin ki, onunla tanışlıq növbəti həqiqət parçasını yerinə qoymağa kömək edəcək: axı mən anlamaq istəyirəm, niyə Kristian belədir, olduğu kimi… hə, mən onu mütləq görməliyəm. Yerdən bluz köynəyi qaldırıram və sevinclə aşkarlayıram ki, o gecədən bəri heç nə dəyişməyib. Mavi lifçik çarpayının altında qalıb. Lakin təmiz tumansız həyat dözülməzdir. Mən komodda eşələnirəm və bir yığın alt paltarı aşkarlayıram. Əynimə boz ―Kelvin Klayn‖ bokseri keçirərək cins şalvarı və ―konvers‖ləri geyinirəm.

Jaketdən yapışaraq hamam otağına cumuram və öz parlaq gözlərimi, qızarmış sifətimi görürəm … və saçları! Tanrım! İki hörüklə çölə çıxmaq

olmaz axı. Hamam otağını ələk-vələk edirəm, amma yalnız daraq tapılır. Yaxşı, bu da gedər. Həmişə olduğu kimi, yalnız bir variantım var – at quyruğu. Əynimdəki paltar da dəhşətlidir. Bəlkə həqiqətən Kristianın təklifindən istifadə edim? Təhtəlşüurum dodaqlarını şişirir və ―q‖ hərfi ilə başlayan sözü tələffüz edir, amma mən ona əhəmiyyət vermirəm. İndi də pencək. Bəxtə bax: qollar qalstukun izlərini görünməz edir. Mən güzgüdə sonuncu dəfə özümə nəzər yetirirəm… normaldır. İndi qonaq otağına keçmək olar.

– Bu da o. – Kristian taxtdan qalxır. Onun simasında zəriflik və heyranlıq oxuyuram.

Onunla yanaşı olan sarışın qadın min meqavatlıq təbəssüm saçır. O da yerindən qalxır. Əynində zövqlü, dəvə yunu rəngində trikotaj paltar və çalara uyğun ayaqqabı var. Yaraşıqlı və eleqant. Bir qədər xəcalət çəkirəm görünüşümə görə.

– Ana, bu, Anasteyşa Stildir. Anasteyşa, bu, Qreys Trevelyan Qreydir.

Doktor Trevelyan-Qrey mənə əlini uzadır. T… Trevelyan deməkmiş?

– Tanışlığımıza çox şadam, – nəzakətlə deyir o. Mənə elə gəlir ki, onun səsində heyrət və müəyyən qədər də rahatlıq var. Ala gözlərin baxışı hərarət saçır. Onun əlini sıxıram və cavab olaraq gülümsəməyə bilmirəm.

– Doktor Trevelyan-Qrey, – nəzakətlə deyirəm.

– Mənə ―Qreys‖ deyə müraciət edin, – qadın gülümsəyir və Kristian üzünü turşudur. – Hamı üçün mən doktor Trevelyanam, missis Qrey isə qayınanamdır. – Qadın göz vurur. – Siz necə tanış olmusunuz?

Qadın marağını gizlədə bilməyərək Kristiana baxır.

– Anasteyşa yanıma tələbə qəzeti üçün müsahibə almağa gəlmişdi, çünki növbəti həftədə onların kursuna diplom təqdim etməliydim.

Lənət şeytana! Bunu tamam unutmuşam.

– Deməli, tezliklə buraxılış mərasiminiz var? – deyə Qreys soruşur.

– Hə.


kitabyurdu.blogspot.com

Və elə bu vaxt telefonum zəng çalır. Yüzə-yüz Keytdir.

– Üzr istəyirəm.

Mətbəxə gedirəm və hətta nömrəyə baxmayıb telefona cavab verirəm.

– Salam, Keyt.

– İlahi! Ana! – Lənət şeytana, Xosedir. O, deyəsən, çox pərişandır. – Hardasan? Səni görməliyəm, Cümə günü olanlara görə üzr istəməliyəm. Niyə zənglərimə cavab vermirsən?

– Qulaq as, Xose, indi danışmaq imkanım yoxdur, – həyəcanla ətrafa nəzər yetirirəm. Kristian, anası ilə söhbəti kəsmədən məni diqqətlə izləyir.

– Hardasan? Keyt mənə düz-əməlli heç nə başa salmadı, – deyə Xose sızıldayır.

– Sietldə.

– Sən orda neyləyirsən? Sən onunlasan?

– Mən sonra zəng vuraram. İndi danışaq imkanım yoxdur, – telefonu söndürürəm və heç nə olmamış kimi Kristian və anasının yanına qayıdıram. Qreys oğluyla danışır:

–…Eliot zəng edib dedi ki, sən burdasan …səni iki həftədir ki, görmürdüm, əzizim.

– O artıq qayıdıb? – deyə diqqətlə məni süzərək Kristian maraqlanır. Onun siması sakitdir.

– Düşünürdüm ki, bir yerdə nahar edəcəyik, amma görürəm ki, başqa planların var. Onda mane olmayım.

Qadın krem rəngli uzun paltosunu götürür, ona tərəf çevrilir və yanağını uzadır. Kristian nəvazişlə anasını öpür. Qadın ona toxunmur.

– Mən Anasteyşanı geriyə, Portlendə aparmalıyam.

– Əlbəttə, əzizim. Anasteyşa, tanışlığımıza çox şad oldum. Ümid edirəm, bir daha görüşəcəyik.

Qadın əlini mənə uzadır və onun gözləri parlayır.

Müəmma, hardansa Teylor peyda olur.

– Missis Qrey? – deyə o soruşur.



kitabyurdu.blogspot.com

– Sağ ol, Teylor.

Teylor qadınla birgə otaqdan çıxır və onu foyedəki ikiqat qapıdan ötürür. Yəni Teylor bütün bu müddət ərzində burada idi? Bu qədər çox? Və harda?

Kristian acıqlı halda mənə baxır.

– Zəng edən fotoqraf idi?

Lənət şeytana.

– Hə.

– Ona nə lazımdır?

– Sadəcə üzr istəmək istəyirdi … Cüməyə görə.

Kristian gözlərini döyür.

– Aydındır.

Yenidən Teylor peyda olur.

– Mister Qrey, Darfurda nəqllə bağlı problemlər yaranıb.

Kristian yüngülcə başıyla təsdiqləyir.

– Çarli Tanqo indi Sietldədir, Boinq-Filddə?

– Bəli, ser. – Teylor başını mənə tərəf tutaraq yelləyir. – Sabahınız xeyir, miss Stil.

Cavab olaraq qərarsız gülümsəyirəm. O, çönüb otağı tərk edir.

– Teylor burada yaşayır?

– Hə.

Kristianın səsinin ahəngi kəskinləşir. Nə baş verir?

O, mətbəxə gedir, –blekberri‖ni götürür və başa düşdüyüm qədər poçta baxır. Dodaqları kip qapanıb. Sonra kiminsə nömrəsini yığır.

– Ros, nə olub?

Mən nəhəng otağın ortasında dayanmışam – özümü hara dürtməyi bilməyərək. Özümü dəhşətli dərəcədə naqolay və yersiz hiss edirəm.

– Ekipajla risk edə bilmərəm. Yox, ləğv edin… havadan atarıq…

Danışdıq.

Kristian telefonu söndürür. Tələsik mənə baxaraq soyuq gözləriylə kabinetə gedir və beş dəqiqə sonra geri qayıdır.


kitabyurdu.blogspot.com

– Bu müqavilədir. Oxu, növbəti istirahət günlərində şərtləri müzakirə edərik. Məncə, sən məsələni öyrənməlisən ki, səni nə gözlədiyini biləsən. – O, bir saniyəlik susur. – Əgər razılaşsan, əlbəttə, mən buna çox ümid edirəm.

– Məsələni öyrənmək?

– Sən inanmazsan, internetdə bu mövzuya dair nə qədər şey tapmaq olar, – deyə dodaqları qaçır.

İnternetdə! Mənim kompüterim yoxdur, Keyt heç vaxt məni öz noutbukuna yaxın buraxmır, amma mən ―Kleytons‖da kompüterdən istifadə edə bilmərəm bu cür ―əsərlər‖ üçün?

– Nə olub? – deyə bir qədər başını yana əyərək Kristian soruşur.

– Mənim kompüterim yoxdur.

O, qalın kağızdan olan zərfi mənə uzadır.

– Məncə, sənə......e-e, kompüter borc verə bilərəm. ġeyləri götür, səni geriyə Portlendə – aparacam.

– Mən hələlik zəng edim, – Keytin səsini eşitmək istəyirəm.

Kristian üzünü turşudur.

– Fotoqrafa? – onun əngi sıxılır, baxışlarda qəzəb var. Heyrətlə kirpiklərimi döyürəm. – Mən bölüşməyi sevmirəm, miss Stil. Yadda saxlayın, – mənə doğru buz kimi soyuq baxışlar atıb yenidən yataq otağına gedir.

Lənət şeytana. Mən ancaq Keytə zəng etmək istəyirdim!.. Cəmi yarım saat əvvəl sevişdiyim xeyirxah, təmkinli, gülümsəyən insan hara yox oldu?

– Hazırsan? – deyə Kristian qapı ağzında duraraq məndən soruşur.

Mən qərarsız halda başımla təsdiqləyirəm. O, yenə də soyuqqanlı, təmkinli və nəzakətlidir – tamaşaçılara onun adi maskasını seyr etmək imkanı verilib. Əlində dəri çanta var. Bu, onun nəyinə lazımdır? Bəlkə, o Portlenddə qalmağı düşünür? Elə bu zaman buraxılış mərasimini xatırlayıram. Hə, axı… o, Çərşənbə axşamı orada olacaq. Qara dəri pencəkdə Kristian milyarderə deyil, yoxsul rayondan olan oğlana, ekssentrik

rok ulduza, yaxud top modelə oxşayır. Daxilən köks ötürürəm: kaş ondakı dözüm məndə olaydı... O elə sakit və qərarlıdır ki. Üzümü turşuduram, onun Xose ilə bağlı qəzəbini xatırlayaraq … hə, heç olmasa, zahirən.

Teylor arxa planda qalıb.

– Sabah gözləyirəm, – Kristian Teylora deyir və sonuncu başıyla təsdiqləyir.

– Bəli, ser. Hansı maşını götürürsünüz, ser?

Kristian mənə becid nəzər yetirir.

– ―R-8‖.

– Yaxşı yol, mister Qrey. Salamat qalın, miss Stil. – Teylor nəvazişlə baxır, lakin gözlərinin dərinliklərində yazıqlıq görürəm.

Onlar, əlbəttə, məni mister Qreyin şübhəli seksual vərdişlərinin yeni qurbanı hesab edirlər. Tezdir. İndi söhbət qeyri-adi seksdən gedə bilər, hərgah ola bilsin ki, bunda qeyri-adi heç nə yoxdur. Bu fikirdən üzümü turşuduram. Müqayisə apara bilmirəm və bunu Keytdən də soruşa bilmərəm. Kristiandan icazə almaq lazım gələcək. Axı kimləsə danışmalıyam, mən onunla necə müzakirə edə bilərəm axı, əgər indi kübar və nəzakətlidirsə, bir saniyə sonra soyuq və düşmən kimidir.

Teylor bizi ötürərkən qapını tutub saxlayır. Kristian liftin düyməsini basır.

– Nə olub, Anasteyşa?

Fikirləşdiyimi o haradan bilir? O, əlini uzadır və çənəmdən tutur.

– Bəsdi dodağını dişlədin, yoxsa mən səni elə liftdəcə s..əcəm.

Qıpqırmızı qızarıram, amma onun dodaqlarında təbəssüm var.

– Kristian, mənim problemim var.

– Hə? – o bütün diqqətini mənə cəmləyib.

Lift gəlib çatır. Biz içəri keçirik və Kristian ―G‖ düyməsini basır.

– Bilirsənmi… – üzüm qızarır. Bunu necə deyim? – Mən Keytlə danışmalıyam. Mənim sekslə bağlı çoxlu suallarım var. Əgər sən bütün bunları istəyirsənsə, mən bunları hardan bilim… – deyə susuram, sözləri seçməyə çalışaraq. – Bu, qavraya bildiyim şeylər deyil.

O, gözlərini qapadır.

– Yaxşı, danış onunla, əgər lazımdırsa. Amma qoy and içsin ki, Eliota heç nə deməyəcək.

Bu nəyə eyhamdır! Keyt xəbərçi deyil.

– Keyt ona bircə kəlmə də deməyəcək və mən də Eliot barədə eşitdiklərimdən sənə bircə kəlmə də deməyəcəm, – deyə tələsik əlavə edirəm.

– Fərq ondadır ki, məni onun seksual həyatı maraqlandırmır, – əyri təbəssümlə Kristian tələffüz edir. – Eliot çoxbilmiş alçaqdır … o, yəqin ki, məni xayalarımdan tutacaq, əgər sənə nəyi təklif etdiyimi bilərsə, – əlavə edir o, çox sakitcə. Görünür, bu ifadə mənim qulaqlarım üçün nəzərdə tutulmayıb.

– Danışdıq, – deyə hazırlıqlı şəkildə razılaşıram. Kristianın xayalarından tutan Keyt haqqında fikir mənə o qədər də xoş gəlmir.

Kristian dodaqlarını əyir və başını yelləyir.

– Nə qədər tez sabmissivim olsan, bir o qədər yaxşı. Onda bu cür söhbətlərə son qoyulacaq, – burnunda deyir o.

– Nəyə son qoyulacaq?

– Sənin açıq-aşkar itaətsizliyinə, – o, çənəmi qaldırır və dodaqlarımda becid, incə öpüş izi qoyur. Sonra əlimdən tutur və yeraltı qaraja aparır.

–Aşkar itaətsizlik …‖

Liftin arxasında artıq mənə tanış olan ―Audi‖ni görürəm, amma brelokun çağırış səsinə çılpaq uzunayaqlı sarışınla kapotda təsvir edilən füsunkar idman avtomobili hay verir.

– Gözəl maşındır, – istehzayla deyirəm.

Kristian başını qaldırır və gülür.

– Bilirəm, – bir anlığa yenidən gənc və qayğısız insanı görürəm. Ürəyim fərəhlənir. Budur onlar – böyük oğlanların oyuncaqları. Göz qapaqlarımı endirir, amma təbəssümümü gizlədə bilmirəm.

Kristian qapını açır və mən oturacaqda özümə yer edirəm. Ux, necə də aşağıdır… o, zərifliklə maşının ətrafında dövrə vurur və uca boyuna baxmayaraq, yanaşı oturacaqda özünə asanlıqla yer edir. O, bunu necə edir, görəsən?

– Bu nə maşındır?

– ―Audi R8 spayder‖. Hava yaxşıdır, biz üstü açıq qoya bilərik. Mücrüdə beysbol papağı olmalıdır. Hətta iki... – o, maşının mücrüsünü göstərir. – Və tünd eynək, əgər sənə lazımdırsa.

Aramızda motor gurlayır. Kristian çantanı oturacaqların dalındakı boş yerə qoyur, düyməni basır və maşının tavan-qapağı asta-asta açılır. Dəyişdirici açar çıqqıldayır və Bryus Sprinqstinin səsi bizi əhatəsinə alır.

– Bryusu sevirəm, – deyə Kristian gülümsəyir. Maşın yerindən tərpənir, dik pandusla yuxarı qalxır və donub-qalır, şlaqbaumun açılmasını gözləyərək.

Və budur, biz artıq günəşin işıqlandırdığı Sietllə gedirik. Maşının mücrüsündən beysbol papaqlarını çıxarıram. Emblemdə ―Mariners‖ yazısı var. Kristian beysbolu xoşlayır? Ona kepkanı verirəm və onu başına keçirir. Mən ―quyruğu‖ dəlikdən keçirir və ―dimdiyi‖ aşağı dartıram.

Küçədə maşınla gedərkən insanlar bizə baxır. Əvvəlcə mənə elə gəlir ki, bu ona görədir… sonra paranoidal bir fikir gəlir ağlıma: hamı mənə baxır, çünki bilirlər ki, son on iki saatda nə işlə məşğul olmuşam, amma sonradan başa düşürəm ki, bu, maşına görədir. Kristian deyəsən, özünə aid nəyisə düşünür.

Tezliklə biz artıq I-5-lə cənuba doğru gedirik və qulaqlarımda külək fit çalır. Bryus ehtirasdan alışıb-yanması barədə oxuyur. Aktual mövzudur. Sözlərə qulaq kəsərək qızarıram. Kristian başına ―Rey-Ben‖ taxıb, ona görə də görmürəm o nə düşünür. Onun ağzı azca əyilir, o əlini dizimə qoyur və yüngülcə onu sıxır. Nəfəsimi içimə çəkirəm.

– Acmamısan ki?

Hə, amma bu aclığı yeməklə doyurmazsan.

– Elə də yox.

O, dodaqlarını kip sıxır.

– Yemək lazımdır, Anasteyşa. Mən Olimpiya ilə yanaşı yaxşı bir restoran tanıyıram. Ora girərik.

O, yenidən dizimi sıxır, əlini sükana qaytarır və qazı basır. Mən oturacağın arxasına yastıqlanıram. Hə, bu maşın şütüməyi bacarır.

***

Restoran kiçik və səliqəlidir – meşənin ortasında ağacdan düzəldilmiş yaylaq evi. İnteryer kənd üslubundadır: sadə stullar və üstü dama-dama süfrəli masalar, kiçik güldanlarda çöl çiçəkləri. ―Vəhşi mətbəx‖ – qapıdakı elanda belə yazılıb.

- Bura çoxdandır ki, baş çəkmirəm. Seçimimiz yoxdur, onlar tuta bildikləri və ya yığa bildiklərindən yemək hazırlayırlar. – Kristian süni dəhşətlə qaşlarını çatır və mən gülüşümü saxlaya bilmirəm. Ofisiant qız nə içəcəyimizi soruşur. Kristianı gördükdə o qızarır, göz qapaqlarını endirir, baxışlarını sarışın kəkil altında gizlədir. O, qızın xoşuna gəlir! Təkcə mən belə deyiləmmiş!

- İki qədəh ―Pino Qricio‖, – deyə Kristian sifariş verir.

Mən qəzəbdən dodaqlarımı kipləşdirirəm.

- Nə olub?

- Mən pəhriz ―kola‖sı istəyirdim.

Onun boz gözləri kiçilir.

–Burda çox yaxşı ―Pino Qricio‖ verilir, o istənilən yeməklə yaxşı içilir, – deyə o, səbirlə izah edir.

- Nə sifariş veririksə verək?

- Hə. – Kristian füsunkar təbəssümüylə gülümsəyir və başını yana əyərək içimdə hər şey bir-birinə qarışdırır. Mən cavab olaraq gülümsəməyə bilmirəm.


kitabyurdu.blogspot.com

- Sən anamın xoşuna gəldin, – quru tərzdə deyir o.
- Doğrudan? – mən həzzdən qızarıram.
- Aha. O elə bilirdi ki, mən geyəm.

Heyrətdən ağzım açıla qalır və müsahibədəki sualı xatırlayıram. Dəhşət!..

- O niyə belə bir qərara gəlib? – deyə pıçıltıyla soruşuram.
- Heç vaxt məni qızla görməyib.
- On beş qızdan heç birini?

Kristian gülümsəyir.

- Yadda saxlamısan. Yox, on beşindən heç birini.
- Ox.
- Bilirsənmi, Anasteyşa, bu istirahət günləri mən də bəzi şeyləri birinci dəfə elədim, – təmkinlə deyir.
- Məhz nəyi?
- Dünənki gecəyədək mən həmişə tək yatırdım, heç vaxt öz yatağımda sekslə məşğul olmurdum, heç vaxt qızları helikopterdə gəzdirmirdim, heç vaxt onları anama təqdim etmirdim. – Onun gözlərində elə parlaq atəş var ki, nəfəsim kəsilir.

Bizə şərab gətirirlər, mən bir qurtumu dərhal içirəm. Kristian mənə ürəyini açıb, yoxsa baş verənləri qeydə alır?

- ġəxsən mənim xoşuma gəldi hər şey, – utanaraq donquldanıram.

O, gözlərini qıyır.

- Bəsdi dodağını dişlədin, – mırıldanır və əlavə edir, – mənim də.
- Bəs vanil seks nə deməkdir? –onun isti baxışlarından nə cürsə yayınmaq üçün deyə soruşuram.

Kristian gülür.

- Bu, sadəcə, seksdir, Anasteyşa. Heç bir oyuncaq olmadan, heç bir əyləncə olmadan, – o çiyinlərini çəkir.

Ofisiant qız şorba gətirir. Hər ikimiz ona heyrətlə baxırıq.

- Gicitkən şorbası, – deyə o, yenidən çevrilərək mətbəxdə gözdən itməzdən öncə məlumat verir. Yəqin, xoş deyil ki, Kristian ona göz qoymur.


kitabyurdu.blogspot.com

Mən çəkinə-çəkinə şorbanın dadına baxıram. Ox, dadlıdır. Biz Kristianla rahatlıqla bir-birimizə baxırıq. Dodaqaltı gülürəm.

- Necə də gözəl səsdir, – pəsdən deyir.

- Bəs niyə sən əvvəllər vanil sekslə məşğul olmamısan? Sən həmişə məşğul olmusan… e-e, bəs bu necə adlanır? – maraq dolu baxışlarla soruşuram.

- Buna bənzər bir şey, – deyə Kristian ehtiyatla cavab verir. Onun simasında daxili mübarizənin izləri görünür. Qərar qəbul edərək o, gözlərini mənə zilləyir. – Anamın rəfiqəsi on beş yaşım olanda məni yoldan çıxardı.

- A-a.

Lənət şeytana, belə tez!

- Spesifik zövqü olan bir qadın. Mən altı il onun sabmissivi olmuşam, – o çiyinlərini çəkir.

- Ox... – belə bir etirafdan ildırım vurmuş kimi donub-qalıram.

- Buna görə də bilirəm bunun nə olduğunu. – Kristian bəsirətlə mənə baxır.

Bircə kəlmə belə deyə bilməyərək gözlərimi bərəldirəm. Hətta təhtəlşüurum da susur.

– Mənim heç vaxt seksə qədərki münasibətlərim olmayıb.

Maraq vaxtında oyanır.

– Deməli, kollecdə oxuyarkən sən heç kimlə görüşməmisən?

– Yox. – O, başını yelləyir.

Ofisiant qız boşqabları götürmək üçün bircə dəqiqəliyə söhbətimizi yarımçıq qoyur.

– Niyə? –deyə soruşuram ofisiant qız getdikdən sonra.

Kristian rişxəndlə gülümsəyir.

– Sən, doğrudan da, bilmək istəyirsən?

– Əlbəttə.

– Çünki istəmirdim. Mənə ondan başqa heç kim lazım deyildi.

Hə, işə bax! Yaxşı olardı ki, bunu heç bilməyim… amma mən yenə də soruşuram:

– Ananın rəfiqəsi… onun neçə yaşı vardı?

O ―hm‖ deyə mızıldanır.

– Ehtiyatlı olmaqdan ötrü kifayət qədər.

– Siz hələ də görüşürsünüz?

– Hə.

– Və sən əvvəlki kimi… e-e?.. – üzüm allanır.

– Yox. – O, başını yelləyir və lovğa-lovğa gülümsəyir. – O, sadəcə, yaxşı dostdur.

– Bəs anan bunu bilir?

O, mənə səfeh qız kimi baxır.

– Əlbəttə ki, yox.

Ofisiant qız maral əti ilə qayıdır, amma iştaham artıq itib. Kəşfə bir bax. Kristian sabmissiv rolunda. Gör ha. ―Pino Qricio‖dan bir qurtum içirəm.

İlahi, düşünülməli o qədər şey var ki. Mən bunları tənhalıqda həzmdən keçirməliyəm, onun varlığı məni yayındırmadıqda. Mənə elə gəlirdi ki, o hər şeydə əsl alfa-erkəkdir, indisə… O bunu öz üzərində sınayıb.

– Sabmissiv… bütün vaxt? – beynimdə hər şey bir-birinə qarışıb.

– Ümumiyyətlə, biz heç həmişə bir yerdə olmurduq. Bu... çox çətin idi. Axı mən hələ məktəbdə oxuyurdum, sonra kollecdə. Ye, Anasteyşa.

– Düzü, heç istəmirəm.

Onun hekayətindən sarsılmışam.

Kristian qaş-qabağını tökür.

– Ye, – sakitcə deyir, çox sakit.

Ona baxıram. Bu adam yeniyetmə yaşında seksual zorakılığa məruz qalıb…

– Məni tələsdirmə, – təmkinlə deyirəm.

Kristian gözünü döyür.

– Yaxşı, – deyə o razılaşır.

Əgər müqaviləni imzalasam, o mənimlə belə, buyruq sahibi kimi olacaq. Üzümü turşuduram. Bu, mənə lazımdırmı? Bıçaq və çəngəli götürərək ehtiyatla maral ətini yeməyə başlayıram. Doğrudan da, dadlıdır.

– Bizim… e-e… münasibətlər bu qaydada qurulacaq? – deyə pıçıldayıram. – Sən mənə əmr verəcəksən? – özümü onun gözlərinin içinə baxmağa məcbur edə bilmirəm.

– Hə.

– Aydındır.

– Bundan əlavə, sən özün istəyəcəksən ki, bunu edim, – deyə o, asta səslə əlavə edir.

Sözün düzü, buna çox şübhə edirəm. Mən maral ətindən bir tikə də kəsirəm və ağzıma yaxınlaşdırıram.

– Buna cəhd etmək çətindir, – deyirəm və tikəni ağzıma qoyuram.

– Razıyam. – Kristian bir anlığa gözlərini qapadır. O, gözlərini yenidən açdıqda onların qaraldığını görürəm. – Anasteyşa, sən daxili səsinə qulaq verməlisən. İnterneti öyrən, müqaviləni oxu. Mən həvəslə bildiyim hər şeyi sənə başa salaram. Mən cümə gününədək Portlenddə olacam. Əgər bundan əvvəl mənimlə danışmaq istəsən, zəng elə, bir yerdə şam edərik. Məsələn, çərşənbə günü. Çox istəyirəm ki, hər şey alınsın. Düzünü bilmək istəsən, həyatımda heç vaxt heç nəyi belə istəməmişəm.

Gözlərindən görürəm ki, Kristian səmimi danışır, o bunu sidq-ürəklə istəyir. Amma burda nəsə başqa bir əmma var. Niyə məhz mən? Niyə on beş qızdan heç biri? Bəlkə mahiyyət elə rəqəmlərdə gizlənib?

– O biri on beş qızdan niyə ayrıldın? – deyə soruşuram.

O, qaşlarını çatır, sonra təslim olaraq başını yelləyir.

– Hərəsi ilə bir cür alınırdı… – Kristian susur, düzgün sözü axtararaq. – Uyarsızlıq.

– Düşünürsən ki, mən uyarlı olacam?

– Hə.

– Onlarla daha görüşmürsən?

– Yox. Mən öz təbiətimə görə monoqamam.


kitabyurdu.blogspot.com

Aha… bax bu yenilikdir.

– Aydındır.

– İnternetdə qurdalan, Anasteyşa.

Mən bıçaq və çəngəli masaya qoyuram. İştaham tamam itib.

– Elə bu? Daha yeməyəcəksən?

O, açıq-aşkar hirslənir, amma susur. Mən rahatlıqla köks ötürürəm. Qarnım yeni xəbəri həzm edir, başım isə şərabdan azca fırlanır. Kristiana, onun boşqabında olan qidanı necə tam şəkildə həzm-rabedən keçirməsinə baxıram. O, at kimi yeyir! İdmanla nə qədər məşğul olmalısan ki, bu cür formada qala biləsən? Və bu zaman qəfildən pijama şalvarlarının onun ombalarından necə sallandığını xatırlayıram. Bu mənzərə fikirlərimi tamamilə qarışdırır. Mən utanaraq stulda vurnuxuram. Kristian mənə baxır və üzüm allanır.

– Sənin nə haqda fikirləşdiyini bilmək üçün nə qədər pul ödəməliyik, – o deyir və mən daha çox allanıram.

Kristian dəcəl təbəssümlə gülümsəyir.

- Amma deyəsən, bilirəm nə haqda, – deyə məni cırnadır.

- Yaxşı ki, fikirlərimi oxuya bilmirsən.

- Sənin fikirlərini, yox, bacarmıram, amma bədəninin dilini dünəndən etibarən pis öyrənməmişəm.

Səsin ahəngi oynaqdır… onun əhvalı belə tez necə dəyişir? Onunla yarışa bilmirəm.

Kristian işarəylə ofisiant qızı çağırır və hesabı gətirməyi xahiş edir. Hesablaşaraq yerindən qalxır və əlini mənə uzadır.

– Gedək.

Əlimi əlinə alaraq o, məni yenidən maşına doğru aparır. Tamamilə qəfildən bizim təmasımız belə normal, belə yaxındır. Mən elə məhz bunu, adi, incə jesti mənimlə otaqda… Qırmızı ağrı otağında eləmək istədiyi ilə uzlaşdıra bilmirəm.

***


kitabyurdu.blogspot.com

Olimpiadan Vankuverə qədər olan yolda hər ikimiz susuruq, öz düşüncələrimizə təslim olmuşuq. Saat beşə doğru evə çatırıq. Pəncərələrdə işıq yanır – Keyt artıq qayıdıb. Əşyaları toplayır, əgər əlbəttə, o təkdirsə, Eliotsuz. Kristian motoru söndürür; ayrılıq vaxtı yetişib.

– İçəri keçərsən? – soruşuram. Onu buraxmaq istəmirəm.

– Yox, işlərim çoxdur, – deyə cavab verir təmkinli simasıyla.

Barmaqlarımı bururam baxışı anlamayaraq. Qəfildən hissiyyata qapılıram: o, çıxıb gedir!.. Kristian əlimi tutur və dodaqlarına toxundurur, xəfifcə öpür ovcumun arxa tərəfini, köhnə dəblə, əzizləyərək. Kövrəlirəm.

– İstirahət günlərinə görə sağ ol, Anasteyşa. Bu… əla idi. Çərşənbə günü? Səni işdən götürəcəm?

– Çərşənbəyədək, – deyə pıçıldayıram.

Kristian yenidən əlimi öpür və onu dizimə buraxır. Sonra maşından çıxır və sərnişin qapısını mənim üçün açır. Niyə özümü birdən-birə tərk edilmiş və tənha hiss edirəm? Boğazım düyünlənib. Əsas məsələ – bunu üzə vurmamaqdır. Təbəssümlə maşından çıxıram və cığırla evə doğru gedirəm, bilərək ki, qarşıda məni Keytlə görüş gözləyir. Yarı yolda çevrilirəm və Kristiana baxıram. ―Başını dik tut, Still‖ – deyə özümü ruhlandırıram.

– Yeri gəlmişkən, əynimdə sənin tumanındır, – gülümsəyirəm və o görə bilsin deyə boks tumanından rezin qaytanı çıxarıram. Kristianın ağzı açıla qalır. Sən bir reaksiyaya bax! Əhvalım o dəqiqə yaxşılaşır və mən qürurla evə doğru gedirəm, bir ayağım üstdə atılıb-düşməmək üçün çətinliklə özümü saxlayaraq. Ura! Daxili ilahəm coşqudadır.

Keyt qonaq otağındadır, kitabları qutulara yığır.

– Sən qayıtmısan!.. Bəs Kristian hardadır? Hə, necəsən? – səsdə həyəcan və təlaş var, o tələsik mənə yaxınlaşır, çiyinlərimi qucaqlayır və gözlərimin içinə baxır. Heç salamlaşmağa macal tapmıram.

Lənət şeytana… Keyt inadkar və bəsirətlidir, çantamda isə hüquqi sənəd var, ona əsasən, məxfiliyi qorumalıyam. Heç də yaxşı durum deyil.

– Hər şey necə keçdi? Eliot gedəndən bəri sənin barəndə düşünərəm, – onun simasında dəcəl təbəssüm var.

Keyt – maraq və təlaş mücəssəməsidir, lakin qəfildən utanır və allanıram. Bu, çox şəxsi məsələdir. Mən Kristianın gizlətməyə məcbur olduğunu görmüşəm və bilirəm. Amma nəsə danışmaq lazım gələcək, axı Keyt elə-belə əl çəkən deyil.

- Hər şey yaxşı idi. Çox yaxşı, məncə, – sakitcə deyirəm, xəyanətkar xoşbəxt təbəssümünü gizlətməyə çalışaraq.

- Sənə elə gəlir?

- Hə, nəyləsə müqayisə edə bilmərəm, – deyə günahkarcasına çiyinlərimi çəkirəm.

- O, səni orqazma çatdırdı?

Hə də. Axı belə, düz üzə soruşmaq olmaz. Üzüm rəng alır.

- Hə!

Keyt məni taxta aparır və biz otururuq. O, əllərimi əllərinə alır.

- Əla, – rəfiqəm inamsızcasına mənə baxır. – İlk dəfədən orqazm. Kristian az aşın duzu deyilmiş a.

Ah, Keyt, əgər sən bilsəydin!

- Mənim ilk dəfəm çox dəhşətli keçdi, – deyə o, üzünə gülməli sima verərək söhbətə davam edir.

- Doğrudan? – mənə o dəqiqə maraqlı gəlir söhbət. Əvvəllər o, bu haqda heç danışmırdı.

- Hə. Stiv Peton. Hələ məktəbdə. Nadir gicgicəydi. – Keyt çiyinlərini çəkir. – O, kobud idi, mənsə buna hazır deyildim. Hər ikimiz lül-qənbər idik. Özün başa düşürsən, tipik yeniyetmə əhvalatı. Pornoya doyunca baxmışdıq. Sonralar bir neçə ay özümə gələ bilmədim, yenidən sınamazdan öncə. Və əlbəttə, o eybəcərlə deyil… mən çox gənc idim. Sən düz eləyib tələsməmisən.

- Keyt , bu dəhşətdir!

Rəfiqə kədərlənib.


kitabyurdu.blogspot.com

- İlk orqazm məndə bir il sonra oldu, sənsə deyirsən ki, birinci dəfədən?..

Mən utanaraq başımla təsdiqləyirəm. Daxili ilahəm lotos pozunda zahidanə oturub və yalnız dodaqlarında hiyləgər, özündənrazı təbəssüm var.

- ġadam ki, sən bakirəliyini təcrübəli adamla yataqda itirdin. – Keyt göz vurur. – Onunla yenidən nə vaxt görüşürsən?

- Çərşənbə günü. Məni şam yeməyinə dəvət edəcək.

- O, hələ də xoşuna gəlir?

- Hə, amma gələcəklə bağlı ümidim yoxdur.

- Niyə?

- Onunla mürəkkəbliklər var. O, tamamilə başqa bir dünyada yaşayır.

Əla izahatdır. Əsas məsələ isə həqiqətə oxşardır. Mənimçün nəzərdə tutulmuş Qırmızı ağrı otağı və məni öz seksual köləsi etmək istəyi ilə müqayisədə bu, yetərincə yaxşıdır.

- Eliot dedi ki, Kristian heç vaxt qızlarla görüşməyib.

- Doğrudan? – səsim bir neçə oktava yüksəlir.

Riyakarlıq etməyi bacarmırsan, Stil! Təhtəlşüurum acıqlı halda mənə baxır və uzun sümüklü barmaqları ilə məni təhdid edir, sonrasa ədalət tərəzisinə çevrilir, sanki xatırladaraq ki, məni məhkəməyə verəcək, əgər onun sirlərini orda-burda danışsam. Ha… o, mənimlə nə edəcək ki? Cərimə ödəməyə məcbur edəcək? İnternetdə ―məsələni öyrənərkən‖ ―məxfiliyin pozulmasına görə cərimələr‖i barədə axtarış verməyi gərək unutmayam. Ev tapşırığına oxşayır. Ola bilsin ki, buna görə hətta mənə qiymət yazsınlar… üzüm qızarır vannadakı səhər sərgüzəştini xatırlayaraq.

- Nə olub, Ana?

- Heç, bəzi şeyləri xatırladım.

- Sən dəyişmisən, – deyə Keyt heyranlıqla bildirir.

- Aha. Özümü başqa cür hiss edirəm. Ağrıyıram, – deyə etiraf edirəm.

- Ağrıyırsan?

- Bir azca, – üzüm allanır.

- Elə mən də. Kişilər! – nifrətamiz tərzdə deyir rəfiqəm. – Onlar donuzdur!

Hər ikimiz gülürük.

- Sən ağrıyırsan? – deyə heyrətlənirəm.

- Hə… bir az həddi keçmişəm.

Gülürəm.

- Mənə bu çalışqan Eliot haqqında danış, – deyə gülməyi bitirdikdə xahiş edirəm. Nəhayət ki, rahatlanmaq olar. Kristiana tualetdən zəng etdiyim vaxtdan, birinci dəfə hər şeyin başladığı vaxtdan. Əvvəllər mən mister Qreyə uzaqdan-uzağa pərəstiş edirdim. Xoşbəxt, qayğısız günlər.

Keyt qızarır. İşə bir bax… Ketrin Aqnes Kavana Anasteyşa Rouz Stillə yerini dəyişib. Sadədil tərzdə mənə baxır. Heç vaxt onun kişilərə bu cür reaksiya verdiyini görməmişdim. Çənəm yerə dəyir. Mənim Keytim hardadır? Ona nə etmisiniz?

- Ah, Ana, – rəfiqənin nəfəsi kəsilir. – Bilirsən o necədir … qeyri-adi. Və biz … ox… sadəcə əladır. – O, cümlədəki sözləri belə uzlaşdıra bilmir.

- Demək istəyirsən ki, o, xoşuna gəlir.

Keyt somnabula [1]kimi başıyla təsdiqləyir.

- Şənbə günü yenidən görüşürük. O, bizə köç ilə bağlı kömək edəcəyinə söz verib, – rəfiqə əllərini sıxır, divandan atılır və ahəstə tərzdə pəncərəyə uçub gedir. Köç. Lənət şeytana. Tamamilə unutmuşam, halbuki ətrafım qutularla doludur.

- O, çox mehribandır, – minnətdarlıq hissiylə deyirəm. Onunla yaxından tanış olaram. Ümid edirəm, o özünün qəribə, qorxu doğuran qardaşından baş çıxarmağa kömək edər. – Dünən nəylə məşğul olmusunuz?

---

[1] yuxuda gəzən adam, somnambulizmə tutulmuş adam



kitabyurdu.blogspot.com

Keyt başını əyir və qaşlarını qaldırır, özünə mənim səfehliyimdən təəccüblənmə görünüşü verir.

- Elə sənin elədiyinlə, ancaq əvvəlcə şam yeməyi yedik. – O gülür. – Sənin doğrudan qaydasındasan ? Bir qədər… key görünürsən.

- Elədir ki var. Kristian nəfəs almağa imkan verir ki...

- Təsəvvür edə bilirəm. Amma o, səninlə yaxşı davranıb?

- Hə, – deyə onu inandırıram. – Qulaq as, mən qurd kimi acmışam. Gəl bir şey hazırlayım?

Keyt başıyla təsdiqləyir və qutuya qoymaq üçün daha iki kitab götürür.

- Sən on dörd min dollarlıq kitablarla nə etmək istəyirsən?

- Geri qaytaracam.

- Doğrudan?

- Bu, çox bahalı hədiyyədir, onu qəbul edə bilmərəm, həm də indi. – Keytə baxıb gülümsəyirəm və o da başıyla təsdiqləyir.

- Başa düşürəm. Burda sənə bir-iki məktub var, Xose də bir saatdan bir zəng edir. O, deyəsən, pərişandır.

- Ona zəng edərəm, – Keytə Xose haqqında danışmağa dəyməz – onu ağ yuyub qara sərər. Masadan məktubları götürürəm. – Ohoo! Məni müsahibəyə dəvət edirlər! Bir həftə sonra Sietldə.

- Hansı nəşriyyata?

- Hər ikisinə!

- Axı mən deyirdim ki, universitet təhsilli insanlara hər yerdə ehtiyac var.

Keyt, əlbəttə, artıq –Sietl tayms‖a stajor kimi işə düzəlib. Onun atasının tanışlarının sayı-hesabı yoxdur.

- Bəs Eliot köçlə bağlı nə düşünür? – soruşuram.

Keyt mətbəxə gedir. Axşamdan bəri ilk dəfə o, hüznlü görünür.

- O, hər şeyi başa düşür. Bir tərəfdən köçmək istəmirəm, elə istəyirəm ki, özümü bir-iki günə verim. Anam da çox təkid edir, o fikirləşir ki, İtan və mən işə başlamazdan öncə bu, sonuncu ailəvi istirahətimizdir.

Mən heç vaxt xaricdə olmamışam. Keyt, valideynləri və qardaşı İtan iki həftəliyə Barbadosa gedirlər. Yeni mənzildə Keytsiz səliqə-səhman yaratmalı olacam. Bu, çox qəribədir. İtan universiteti keçən il bitirib və bütün dünyanı gəzib-dolaşıb. Maraqlıdır, onlar gedənə qədər onunla görüşə biləcəyəmmi? O, çox yaxşı oğlandır.

Telefon zəng çalır – məni düşüncələrdən ayıraraq.

- Bu Xosedir.

Köks ötürürəm. Başqa çarə yoxdur, onunla danışmaq gərəkdir.

- Salam.
- Ana, qayıtmısan! – Xose açıq-aşkar sevinir.
- Əlbəttə, – səsimdən kinayə süzülür, göz qapaqlarımı endirirəm.

O, bir neçə saniyə susur.

- Görüşə bilərikmi? Mən ötən cüməyə görə üzr diləmək istəyirəm. Mən sərxoş idim… sənsə… Ana, xahiş edirəm, bağışla məni.
- Əlbəttə ki, səni bağışlayıram. Amma bir daha belə etmə. Bilirsənmi, mən sənə dost kimi yanaşıram.

O, ağır-ağır, kədərlə ah çəkir.

- Bilirəm. Mən yalnız ümid edirəm ki, səni öpsəm, hər şey dəyişəcək.
- Xose, mən səni sevirəm, sən mənimçün çox məhrəm adamsan. Mənə heç vaxt olmayan qardaşım kimisən.
- İndi onunlasan? – səsinin ahəngində nifrət duyuram.
- Mən özüm özümləyəm.
- Amma gecəni onunla keçirmisən.
- Nə fərqi var ki?
- Pula görə?
- Xose! Nə cəsarətlə! – onun həyasızlığından heyrətlənərək, demək olar ki, bağırıram.
- Ana… – O sızlayır və üzr istəyir. Amma indi onun səfeh qısqanclığı vecimə də deyil. Bilirəm ki, heyifsilənir, amma səbir kasam artıq daşır.

- Gəl sabah bir yerdə qəhvə içək, ya da daha nəsə bir şey edək. Sənə zəng edəcəm, – deyə barışdırıcı tonda deyirəm.

O dostumdur, ona çox bağlıyam. Amma indi onunla danışmağa taqətim yoxdur.

- Sabahadək. Zəng edəcəksən? – qəlbindəki ümid məni kövrəldir.

- Hə… salamat qal, Xose.

Cavabı gözləmədən dəstəyi asıram.

- O niyə bu qədər nigarandır? – Keyt əllərini böyrünə dirəyərək sərt şəkildə soruşur.

Yaxşı olar ki, hər şeyi olduğu kimi danışım. O, yaman qətiyyətlidir.

- Ötən cümə günü mənə girişirdi.

- Xose? Sonra da Kristian Qrey? Ana, sənin feromonların ikiqat yüklə işləyir!.. Bu axmaq nəyə ümid edirdi ki?

Rəfiqəm hiddətlə başını yelləyir və qutulara qayıdır.

Qırx beş dəqiqə sonra biz mətbəximin ləziz yeməyinə – lozaniyaya görə işə ara veririk. Keyt bir şüşə şərab açır. Qutular arasında oturub ucuz qırmızı şərab içə-içə yemək yeyərək televizorda nəyəsə baxırıq. Əsl sərsəmlik olan qırx səkkiz saatdan sonra arzulanan istirahət. Bu müddətdə ilk dəfə mən sakitcə, qısnamasız yeyə bilərəm. Maraqlıdır, onun yeməklə nə problemi var? Keyt süfrəni yığışdırır, mən qonaq otağındakı əşyaları qutulara yığmağı bitirirəm. Yalnız divan qalır, televizor və yemək masası. Daha nə lazım ola bilər? Yalnız mətbəx ləvazimatı və yataq dəstini qutuya yığmaq gərəkdir, qarşıda isə bütöv həftə var. Əla nəticədir!

Telefon yenə zəng çalır. Eliot. Keyt göz vurur və yataq otağına qaçır... on dörd yaşlı qız kimi. Əslində, o, buraxılış mərasimi üçün nitq yazmalıdır, amma Eliot deyəsən, daha vacib məsələdir. Qrey ailəsindən olan kişilərin görən nə özəlliyi var? Niyə onlar bu qədər gözəldir? ġərabdan bir qurtum da içirəm.

Televizor qarşısında oturaraq bir-bir kanalları adlayıram, amma qəlbən çox yaxşı anlayıram ki, sadəcə vaxtı uzadıram. Müqavilə çantamda dəlik açır. Bu gün onu oxumağa taqətim çatacaqmı?

Əlimlə başımı tuturam. Xose və Kristian — hər ikisi məndən nəsə istəyir. Xosenin öhdəsindən asanlıqla gələrəm. Amma Kristian… Kristian tamamilə başqa yanaşma və anlam tələb edir. Odur ki, ―mən‖imin bir hissəsi qaçıb gizlənmək istəyir. Necə edim? Gözüm qarşısında onun diqqətli boz baxışı durur, bu fikirdən bütün bədənim gərilir. Dərindən köks ötürürəm. Kristian indi uzaqlardadır, mənsə ehtiraslanıram. Amma məsələ təkcə seksdə deyil axı? Mən onun səhər, nahar yeməyi zamanı mənimlə necə zarafat etdiyini, helikopteri necə coşqu ilə idarə etdiyini, gecə necə fortepiano çaldığını, ürəyi riqqətə gətirən, lakin kədərli melodiyanı xatırlayıram.

Onunla heç də asan deyil. Və indi qismən başa düşürəm niyə. Yeniyetməlikdən məhrum olmuş, məkrli missis Robinsonun seksual zorakılığına məruz qalmış gənc… Təəccüblü deyil ki, o, yaşlı görünür. Qəlbim yazıqlıq hissiylə dolur: təsəvvür etdikdə ki o nələrə dözməyə məcbur olub. Mən öz sadəlövhlüyümlə bilirəm ki, məhz nəyə, amma, yəqin ki, internetə baxıb biləcəm bunun nə olduğunu. Başqa bir məsələ budur ki, mən bunu istəyirəmmi? Bu aləmə baş vurmalıyammı?

Kristianla qarşılaşmasaydım, elə beləcə cəhalətdə qalacaqdım. Yenidən dünənki gecəni və bugünkü səhəri… və onunla misilsiz, hissiyyatlı seksi xatırlayıram. Mən bütün bunlardan imtina etmək istəyirəmmi? ―Yox!‖ – deyə təhtəlşüurum bağırır… və daxili ilahəm fikirli halda razılıq əlaməti olaraq başıyla təsdiqləyir.

Keyt qulağının dibinədək gülümsəyərək qonaq otağına qayıdır. Deyəsən, o, aşiq olub… ona heyrətlə baxıram. O, əvvəllər heç vaxt özünü belə aparmayıb.

– Ana, mən yatmağa gedirəm. Gözlərim öz-özünə qapanır.

– Hə, mən də gedirəm.

O, məni qucaqlayır.

– ġadam ki, sən sağ-salamat qayıtmısan. Kristianda nəsə ürküdücü şey var, – rəfiqəm üzrxahlıq edirmiş kimi əlavə edir.


kitabyurdu.blogspot.com

Mən ona sakitləşdirici təbəssümlə cavab verirəm, özümsə bu zaman düşünürəm… O hardan bilir? Keytdən əla jurnalist çıxar: intuisiya onu heç vaxt aldatmır.

Çantanı götürərək tənbəl yerişlə yataq otağına gedirəm. Mən cismani həzzlərdən və qarşımda duran çətin dilemmadan əldən düşmüşəm. Yatağa oturaraq ehtiyatla çantadan qatlanmış zərfi çıxarır və əlimdə fırladıram. Kristianın korlanma dərəcəsini bilmək istəyirəmmi? Qorxuram. Dərindən köks ötürür və qəlbim çırpına-çırpına zərfi açıram.

## 11-ci fəsil

Zərfdə bir neçə vərəq var. Ürəyim əsə-əsə onları çıxarıram, yatağa oturur və oxuyuram:

MÜQAVİLƏ

İmzalanıb___________________ 2011-ci ildə (–Qüvvəyə minmə tarixi‖)

WA 98 889, Sietl, Eskala, ev. 301 ünvanında yaşayan və bundan sonra –Dominant‖ adlanacaq mister Kristian Qrey və WA 98 888, Vankuver, Heven Heyte, Qrin strit, ev. 7, 1114 SW ünvanında yaşayan və bundan sonra –Sabmissiv‖ adlanacaq miss Anasteyşa Stil ARASINDA.

TƏRƏFLƏR AġAĞIDAKILAR HAQQINDA RAZILIĞA GƏLİBLƏR:

İstər Dominant, istərsə də Sabmissiv üçün məcburi olan müqavilənin şərtləri aşağıdakılardır.

ƏSAS ġƏRTLƏR:

Bu müqavilənin əsas məqsədi Sabmissivə öz şəhvətini və şəhvani tələbatını, habelə ruhi və fiziki durumunu yolverilən hədlərdə lazımi ehtiramla və diqqətlə öyrənmək imkanı yaratmaqdır.

Dominant və Sabmissiv razılaşırlar və təsdiqləyirlər ki, bu Müqavilə çərçivəsində baş verən bütün hərəkətlər razılaşdırılmış, məxfi və

razılaşdırılmış məhdudiyyətlərə və bu Müqavilə ilə nəzərdə tutulmuş təhlükəsizlik qaydalarına uyğun olacaq.

Dominant və Sabmissiv zəmanət verirlər ki, onlardan heç biri zöhrəvi, yoluxucu, yaxud həyatı təhdid edən digər xəstəliklər, o cümlədən QİÇS, gerpes və hepatit daşıyıcısı deyil. Əgər müqavilənin qüvvədə olduğu müddətdə (aşağıya bax) və ya ona əlavə edilmiş istənilən dövrdə tərəflərdən birində oxşar xəstəlik qeydə alınarsa, yaxud Tərəf onun varlığını öyrənərsə, onda kişi və ya qadın dərhal, amma Tərəflər arasında istənilən fiziki təmasa qədər digər Tərəfi xəbərdar etmək öhdəliyini öz üzərinə götürür.

Yuxarıda qeyd olunan zəmanətlərə, razılaşmalara və öhdəliklərə, habelə 3-cü bəndə əsasən təsbit edilmiş istənilən əlavə məhdudiyyətlərə və təhlükəsizlik qaydalarına riayət olunması bu Müqavilənin məcburi şərtidir. ġərtlərin istənilən pozulma halı Müqavilənin dərhal qüvvədən düşməsi ilə nəticələnir və Tərəflərdən hər biri digər Tərəf qarşısında Müqavilənin pozulmasından irəli gələn nəticələrə görə tam məsuliyyət daşımağa razılaşır.

Müqavilənin bütün məzmunu oxunmalı, əsas məqsəd və yuxarıdakı 2-5 bəndlərdə qeyd olunan başlıca şərtlərə uyğun şərh edilməlidir.

TƏRƏFLƏRİN VƏZİFƏLƏRİ:

Dominant Sabmissivin yaxşı əhvali-ruhiyyəsi və durumuna, habelə lazımi şəkildə onun tədrisi, nəsihət vermək və cəzalandırılmasına dair öz öhdəsinə məsuliyyət götürür. Dominant tədrisin, nəsihət və cəzaların xarakterini, habelə onların keçiriləcəyi yeri və vaxtını müəyyən edir ki, öz növbəsində, bu Müqavilə ilə müəyyənləşdirilmiş, yaxud 3-cü bəndə əsasən əlavə olaraq razılaşdırılmış şərtlərə, məhdudiyyətlərə və təhlükəsizlik qaydalarına daxil edilir.

Əgər Dominant müqavilədə qeydə alınmış şərtləri, məhdudiyyətləri və təhlükəsizlik qaydalarını, yaxud yuxarıda 3-cü bəndə əlavə razılaşdırılmış şərtləri pozarsa, Sabmissiv Müqavilənin icrasını və xidməti

dərhal və Dominanta xəbərdarlıq edilmədən dayandırmaq hüququna malikdir.

Bu Müqavilənin 2-5-ci bəndlərinə riayət olunması zamanı adı çəkilən məhdudiyyətlər nəzərə alınmaqla, Sabmissiv Dominanta xidmət etmək və hər şeydə ona tabe olmaq öhdəliyi götürür. Bu Müqavilədə qeyd edilən, yaxud 3-cü bəndə əsasən razılaşdırılmış əlavələrə uyğun şərtlər, məhdudiyyətlər və təhlükəsizlik qaydalarına uyğun olaraq, qadın sorğu-sualsız və şəksiz Dominanta onun tələb etdiyi həzzi verməli, habelə sözsüz şəkildə Dominantın müəyyən etdiyi istənilən formada tədrisə, nəsuhət, yaxud cəzaya razılaşmalıdır.

QÜVVƏYƏ MİNMƏ VƏ QÜVVƏDƏ OLMA MÜDDƏTİ:

Dominant və Sabmissiv arasındakı bu Müqavilə –Qüvvəyə minmə tarixi‖ kimi qeydə alınmış vaxtdan qüvvəyə minir. Dominant və Sabmissiv Müqavilənin məzmunu ilə tanışdırlar və istisnasız olaraq bütün şərtlərə əməl etməyi öhdələrinə götürürlər.

Bu müqavilə qüvvəyə mindiyi gündən üç təqvim ayı müddətində qüvvədə olur (―Müqavilənin qüvvədə olma müddəti‖). Müqavilənin qüvvədə olma tarixi bitən kimi Tərəflər qərara gəlir ki, bu Müqavilə və ona uyğun olan hərəkətlər hər iki Tərəfə və onların tələblərinə nə dərəcədə müsbət cavab verib. Tərəflərdən hər biri bu Müqavilə çərçivəsində nail olunmuş şərtlərə, yaxud razılaşmalara düzəlişlər etmək nəzərə alınmaqla, Müqavilənin qüvvədə olma müddətinin uzadılmasını təklif edə bilər. Əgər qüvvədə olma müddətinin artırılması haqqında razılaşma əldə edilməyibsə, Müqavilə qüvvədən düşmüş hesab edilir və Tərəflər bir-birindən ayrı, müstəqil yaşamaq hüququ qazanırlar.

ƏLÇATMA


kitabyurdu.blogspot.com

Müqavilənin qüvvədə olduğu bütün müddət ərzində Dominantın göstərdiyi cümə günü axşamından başlayaraq Bazar gününün ikinci yarısınadək Sabmissiv hər həftə özünü Dominantın istifadəsinə verir (―Ayrılmış müddət‖). Əlavə sessiyaların keçirilməsi haqda qərar qarşılıqlı razılaşma ilə Tərəflər arasında qəbul edilir.

Dominant istənilən vaxtda və istənilən səbəblə Sabmissivin xidmətlərindən imtina edə bilər. Sabmissiv öhdəliklərin yerinə yetirilməsindən azad olunmasını istənilən vaxt xahiş edə bilər və bu xahişin yerinə yetirilməsi Dominant tərəfindən öz istəyinə görə, bu Müqavilənin yuxarıdakı 2-5 və 8-ci bəndlərində razılaşdırılmış hallar istisna olunmaqla qəbul edilir.

MƏKAN ANLAYIġI

Sabmissiv ayrılmış vaxtda və əlavə sessiyalar zamanı Dominantın müəyyən etdiyi ərazidə özünü istifadəyə verir. Dominant Sabmissivin bütün yol xərclərinin ödənilməsini öz üzərinə götürür.

TƏRƏFLƏRİN HƏRƏKƏTLƏRİNƏ TƏLƏBLƏR

Aşağıdakı tələbləri müzakirə edib və razılaşdıraraq, Tərəflər Müqavilənin qüvvədə olduğu bütün müddətdə onları yerinə yetirməyi öhdələrnə götürürlər. Hər iki Tərəf razılaşır ki, Müqavilədə nəzərə alınmamış müəyyən məsələlər ortaya çıxa bilər və onun bəzi müddəalarına yenidən baxıla bilər. Belə halların yarandığı halda, əlavə maddələr bu Müqaviləyə düzəlişlər şəklində əlavə edilir. Tərəflər istənilən əlavə bəndləri, yaxud düzəlişləri müzakirə edir, sənədləşdirir, imzalayır və onlar yuxarıda qeyd olunmuş 2-5-ci bəndlərdəki kimi bu Müqavilənin əsas şərtləri hesab olunur.

DOMİNANT

15.1. Sabmissivin sağlamlığı və təhlükəsizliyi istənilən halda Dominant üçün prioritetdir. Dominantın Sabmissivi bu Müqavilənin 2-ci Əlavəsində sadalanmış hərəkətlərə, yaxud Tərəflərdən hər hansı birinin təhlükəsiz hesab etdiyi istənilən hərəkətə məcbur etmək hüququ yoxdur. Dominant Sabmissivin sağlamlığına ziyan verəcək və ya onun həyatına təhdid olacaq hər hansı bir hərəkəti etməmək öhdəliyini öz üzərinə götürür, habelə qadın oxşar hərəkətlərin edilməməsini özü sərbəst şəkildə izləməlidir. 15-ci maddənin bütün müddəalarına düzəlişlər nəzərə alınmaqla və Müqavilənin 2-5-ci bəndlərində razılaşdırılmış əsas müddəalar çərçivəsində baxılmalıdır.

15.2. Müqavilənin qüvvədə olduğu müddətdə Dominant Sabmissivin tabeçiliyini, ona nəzarəti və onun tədrisini tam ixtiyarına götürür. Dominant öz istəyinə uyğun olaraq Ayrılmış dövrdə və ya əlavə sessiyalar zamanı Sabmissivin bədənindən seksual, yaxud digər hərəkətlər üçün istifadə edə bilər.

15.3. Dominant Sabmissivə zəruri məşqləri və tərbiyəvi təminatı öhdəsinə götürür ki, o, Dominanta lazımi şəkildə xidmət edə bilsin.

15.4. Sabmissiv Dominanta xidmət edərkən həyata keçirə biləcəyi sabit və təhlükəsiz şəraitin qorunmasını Dominant öz öhdəsinə götürür.

15.5. Qadın öz itaətini tamamilə dərk etməsi, habelə arzulanmaz davranışın qarşısını almaqdan ötrü Dominant Sabmissivi cəzalandırmaq hüququna malikdir. Dominant öz seçiminə uyğun cəza olaraq, öz şəxsi həzzi üçün, yaxud digər səbəblə, onun deməyə öhdəçiliyi olmayan Sabmissivi şapalaqlaya, qamçılaya / çubuqlaya, yaxud digər fiziki təsirə məruz qoya bilər.

15.6. Tədris və ya cəza zamanı Dominant Sabmissivin bədənində iz buraxacaq, yaxud tibbi müdaxiləni tələb edən zədələr yaradacaq heç bir hərəkəti etməməyi öhdəsinə götürür.

15.7. Tədris və ya cəza zamanı Dominant izləyir ki, cəzanın özü və onun həyata keçirilməsi üçün vasitələr təhlükəsiz olsun, ciddi xəsarətlərin


kitabyurdu.blogspot.com

vurulması üçün istifadə olunmasın və Müqavilədə qeyd olunmuş hədləri keçməsin.

15.8. Əgər Sabmissiv xəstələnərsə, yaxud zədələnərsə, Dominant onun səhhəti və təhlükəsizliyinin qayğısına qalmalı, ona dəstək verməli və zəruri olduqda onu gərəkli tibbi yardımla təmin etməlidir.

15.9. Dominant təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Sabmissivin sağlamlığının izlənməsini və lazım gəldikdə tibbi yardıma müraciət edilməsini öhdəsinə götürür.

15.10. Sabmissivin istifadəsi zamanı Dominant onu digər Dominantın istifadəsinə verə bilməz.

15.11. Dominant ayrılmış dövrdə, yaxud əlavə sessiyalar zamanı istənilən səbəblə və davamlı müddətdə Sabmissivin əl-qolunu bağlaya, onu qandallaya və ya onun yerişini digər vasitələrlə məhdudlaşdıra bilər, bir şərtlə ki, bu Sabmissivin səhhətini və təhlükəsizliyini təhdid etməsin.

15.12. Dominant tədris və cəza üçün istifadə olunan bütün vasitələrin təmiz və yaxşı gigiyenik vəziyyətdə saxlanılmasını, habelə onların təhlükəsizlik texnikası tələblərinə cavab verməsini öhdəsinə götürür.

SABMİSSİV

15.13. Sabmissiv Dominantı öz ağası kimi tanıyır və bununla razılaşır ki, o, Dominantın mülkiyyətidir, bu Müqavilənin qüvvədə olduğu bütün müddət boyu Dominant xüsusi ayrılmış dövrdə, yaxud əlavə sessiya vaxtı Sabmissivlə öz istəyinə uyğun davranma hüququna malikdir.

15.14. Sabmissiv bu Müqaviləyə Əlavə 1-də sadalanmış qaydalara (―Qaydalar‖) tabe olmağı öhdəsinə götürür.

15.15. Sabmissiv Dominanta ona xoş istənilən üsulla xidmət edir, habelə Dominanta həzz verməyə çalışır.

15.16. Sabmissiv öz sağlamlığının qorunması üçün gərəkli tədbirləri görməli və zərurət halında tibbi yardım üçün müraciət etməli, habelə zərurət


kitabyurdu.blogspot.com

yarandığı təqdirdə məcburi qaydada Dominantı sağlamlığı ilə bağlı problemlər barədə xəbərdar etməlidir.

15.17. Hamiləliyin qarşısını almaq üçün Sabmissiv oral kontrasepsiyaya razılaşır və həkim təyinatına uyğun olaraq və təyin edilmiş vaxtda hamiləlik əleyhinə vasitələri qəbul edəcəyinə razılaşdığına zəmanət verir.

15.18. Sabmissiv Dominantın lazım bildiyi istənilən cəzanı sözsüz qəbul etməyi, habelə Dominanta münasibətdə öz statusunu həmişə xatırlamağı öhdəsinə götürür.

15.19. Sambissiv özünü tumarlamamalı, yaxud Dominantın razılığı olmadan seksual özünü təminetməylə məşğul olmamalıdır.

15.20. Sabmissiv mübahisəsiz və tərəddüdsüz şəkildə Dominantın təklif etdiyi istənilən seksual hərəkətə razılaşır.

15.21. Sabmissiv yanbızlarlının şapalaqlanması, qamçılanması, çubuqla döyülməsi, yaxud Dominantın təyin etdiyi istənilən digər cəzanı sual vermədən və etirazsız qəbul etməyi öhdəsinə götürür.

15.22. Sabmissiv onun razılığı olmadan Dominantın gözlərinə baxmamalıdır. Dominantın yoxluğu halında Sabmissiv baxışını endirməli və ona qarşı ehtiramlı qalmalıdır.

15.23. Sabmissiv Dominanta münasibətdə özünü ehtiramlı aparmağı öhdəsinə götürür və onu ―ağa‖, ―mister Qrey‖, yaxud Dominantın dediyi kimi adlandırmalıdır.

15.24. Sabmissivə Dominanta onun razılığı olmadan toxunmaq icazəsi verilmir.

HƏRƏKƏTLƏR

Sabmissiv hər iki TƏRƏFİN təhlükəli hesab etdiyi, yaxud Əlavə 2-də sadalanmış seksual, yaxud istənilən digər hərəkətdə iştirak etməməlidir.

Dominant və Sabmissiv Əlavə 3-də sadalanmış fəaliyyət növlərini müzakirə ediblər və onlarda iştirakı yazılı şəkildə təsdiqləyiblər.

STOP-SÖZLƏR

Dominant və Sabmissiv dərk edirlər ki, Dominantın bəzi tələbləri (əgər o, onları yerinə yetirməyə razılaşarsa) Sabmissivin fiziki, zehni, psixi və ya emosional durumuna zərər verə bilər. Bu cür hallarda Sabmissiv stop-sözlərdən istifadə (―Stop-sözlər‖) hüququna malikdir. İrəli sürülən tələblərdən asılı olaraq iki stop-sözdən istifadə edilir.

Stop-söz ―sarı‖ Sabmissivin dözüm həddinə yaxın olduqda Dominantın diqqətini cəlb etmək üçün istifadə edilir.

Stop-söz ―qırmızı‖ Sabmissiv Dominantın tələblərini daha yerinə yetirə bilmədikdə istifadə edilir. Bu halda Dominant dərhal və tam şəkildə öz hərəkətlərini dayandırır.

NƏTİCƏ

Biz, aşağıda imza etmiş şəxslər bu Müqaviləni diqqətlə oxuduq və bütün müddəalarını qəbul etdik. Biz könüllü Müqavilənin şərtlərini qəbul etdik və aşağıdakı imzalarımızla bunu təsdiq edirik.

Dominant: Kristian Qrey

Sabmissiv: Anasteyşa Stil

TARİX:________________________________

ƏLAVƏ 1

QAYDALAR

İtaət:

Sabmissiv ləngimədən və sözsüz olaraq Dominantın əmrlərinə tabe olur. Sabmissiv yolverilməz kimi qeyd olunmuşlar istisna edilməklə (əlavə 2) Dominantın məqbul bildiyi və ona həzz verən seksual xarakterli istənilən hərəkətə razılaşır və onlarda şövqlə iştirak edir.

Yuxu:

Sabmissiv Dominantla vaxt keçirməyərkən sutkada minimum səkkiz saat yatmalıdır.

Yemək:

Sabmissiv sağlamlığın və yaxşı əhvali-ruhiyyənin saxlanılması müvafiq ərzaq tövsiyələri siyahısına əsasən (əlavə 4) müntəzəm qidalanmalıdır və, qida qəbulu arasında meyvələrdən başqa digər qidaların qəbulu qadağan edilir.

Geyim:

Bu müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv yalnız Dominantın təsdiqlədiyi libasları geyməyi öhdəsinə götürür. Dominant Sabmissivə müəyyən məbləğdə pul verir ki, bu pul geyimə xərclənməlidir. Dominantın geyim alışında iştirak etmə hüququ var. Müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv Dominantın seçdiyi və istədiyi vaxtda bəzək əşyaları və aksesuarları əynində gəzdirməyə razılıq verir.

Fiziki məşğələlər:

Həftədə dörd dəfə Dominant öz hesabına məşqlər üçün Sabmissivə fərdi məşqçi təqdim edir, onun vaxtını Sabmissiv və məşqçi qarşılıqlı razılaşma ilə müəyyən edir. Sabmissivin uğurları barədə məşqçi Dominanta hesabat verir.

ġəxsi gigiyena / Gözəllik:

Sabmissiv öhdəsinə götürür ki, bədənini həmişə təmiz saxlayacaq və ülgüc yaxud mumla müntəzəm epilyasiya edəcək. Sabmissiv Dominantın seçiminə əsasən, təyin elədiyi vaxtda gözəllik salonlarına baş çəkir və onun zəruri bildiyi prosedurlardan keçir. Bütün xərcləri Dominant ödəyir.

ġəxsi təhlükəsizlik:

Sabmissiv öhdəsinə götürür ki, spirtli içkilərdən sui-istifadə etməyəcək, siqaret çəkməyəcək, narkotik maddələr qəbul etməyəcək və özünü gərəksiz riskə məruz qoymayacaq.

Fərdi keyfiyyətlər:

Sabmissiv öhdəsinə götürür ki, Dominantdan başqa heç kimlə seksual münasibətlərə girməyəcək. Sabmissiv özünü təvazökar və ehtiramlı aparmalıdır, dərk edərək ki, onun davranışı Dominanta birbaşa təsir edir. Sabmissiv Dominantın olmadığı zaman öz əməllərinə, sui-istifadəyə və intizamın pozulmasına görə məsuliyyət daşıyır.

Bu qaydalardan hər hansı birinin pozulmasına görə cəza verilir və onların xarakterini Dominant müəyyən edir.

ƏLAVƏ 2

.

YOLVERİLMƏZ HƏRƏKƏTLƏR:

Odla oyun;

Sidikburaxma, yaxud defakasiyanı daxil edən hərəkətlər;

İynələri, bıçaqları batırma və qan istifadəli hərəkətlər;

Ginekoloji tibbi alətlərin istifadəsi ilə olan hərəkətlər;

Uşaqların və heyvanların iştirakı ilə olan hərəkətlər;

Bədəndə silinməz izlər buraxa biləcək hərəkətlər;

Tənəffüs oyunları;



kitabyurdu.blogspot.com

Bədənən Elektrik cərəyanı və odla (həm birbaşa, həm fasiləli) nəzərdə tutan hərəkətlər.

ƏLAVƏ 3

YOLVERİLƏN HƏDLƏR

Müzakirə və TƏRƏFLƏRİN qarşılıqlı razılaşması ilə müəyyən edilir:
Aşağıdakı seksual hərəkətlərdən hansı Sabmissiv üçün yolveriləndir?
> Mastrubasiya
> Fellatsio
> Kunnilinqus
> Vaginal seks
> Vaginal fistinq
> Anal seks
> Anal fistinq
Spermanın udulması Sambmissiv üçün qəbul ediləndirmi?
Seksual oyuncaqlardan istifadə yolveriləndirmi?
> Vibratorların
> Falloimitatorların
> Anal tıxacların
> Digər
Əl-qol bağlamanın və məhdudiyyətlərin hansı Sabmissiv üçün məqbuldur?
> Əllər qabaqda
> Əllər arxada
> Topuqlar
> Dizlər
> Biləklər
> Biləklər qolbaqla
> Dayaqlar vasitəsilə fiksasiya
> Mebelə bağlama


kitabyurdu.blogspot.com

> Gözlərin bağlanması
> Tıxaclardan istifadə
> İplə bağlama
> Skotçla bağlama
> Dəri qandalların köməyi ilə fiksasiya
> Asma
> Metal qandalların və zəncirlərin istifadəsi
Sabmissiv ona verilən ağrını necə dərk edir? Qiymətləndirmə beşballıq şkala üzrədir, orda vahidə uyğundur – ―çox xoşuma gəlir‖, beş ――çox xoşuma gəlmir‖. 1–2–3–4–5
Sabmissivin almaq istədiyi ağrının intensivliyi necədir? Qiymətləndirmə beşballıq şkala üzrədir, vahidə uyğun gəlir – ―heç bir‖, beş – ―güclü‖. 1–2– 3–4–5
Aşağıda sadalanmış ağrı / cəza növlərindən hansı Sabmissiv üçün məqbuldur?
> Əllə şilləmə
> ġapalaqvuranla zərbələr
> Qamçılama
> Çubuqla döymə
> Dişləmələr
> Məmələr üçün qısqac
> Genital qısqaclar
> Buz
> İsti mum
> Digər növlər / ağrı vermə üsulları.

Sənin ananı!.. Tıncıxaraq udqunuram, ağzım qupqurudur və müqaviləni yenidən oxuyuram.

Başım partlayır. Buna, ümumiyyətlə, necə razılaşmaq olar? Və bütün bunlar, görünür, mənim xeyrimçündür: ―Hissiyyatlılığımı öyrənmək, yolverilən hədlər… təhlükəsizlik…‖ Aha, əlbəttə! Kinayəylə gülürəm.


kitabyurdu.blogspot.com

–Əmrlərə əməl etmək və hər şeydə itaət etmək‖… Hər şeydə! Başımı yırğalayıram – öz gözlərimlə gördüyümə inanmayaraq. Hərgah məgər nikah zamanı bu söz səslənmirmi – –itaət etmək‖? Dəhşət! Doğrudanmı cütlüklər indiyədək onu tələffüz edir? Cəmi üççə ay, buna görəmi onun bu qədər çoxlu qadını olub? Tez bezdirirlər? Yoxsa üç aydan çox dözə bilmirlər?
–Bütün istirahət günləri‖? Yox, bu, ağ oldu. Mən Keytlə görüşə, yaxud yeni işdə heç kimlə dostlaşa bilmərəm, əgər tapa bilsəm, əlbəttə. Məncə, ayda bir uikendi özümçün saxlamalıyam. Deyək ki, aybaşı olduqda, məncə tam… yararlıdır. O, mənim ağamdır! Mənimlə kefi istədiyi kimi rəftar edəcək! Bu iş pox iylənir.

Qamçılanacağımı, çubuqla döyüləcəyimi ağlıma gətirdikdə ürpənirəm. ġilləlınməyə hələ dözmək olar, hərgah yəqin ki, bu alçaldıcıdır. Bəs əl-qolun bağlanmasını necə izah edəsən? Hə, o əllərimi bağlayıb. Bu da olub… çox şəhvanidir, hə. Bir sözlə, əl-qol bağlama o qədər də pis deyil. O, məni başqa bir Dominantın istifadəsinə verməyəcək… özü özlüyündə olmayacaq! Tamamilə qəbul edilməzdir.

Onun gözlərinə baxa bilmərəm. Nə qəribə tələbdir? Mən necə bilim ki, o nə haqda düşünür? Hərgah kimi aldadıram, Kristianı anlamaq mümkün deyil, amma mən onun gözlərinə baxmağı xoşlayıram. Çox gözəl gözləri var: valehedici, zəkalı, dərin və tünd, Dominantın və ağanın sirlərindən də qayət tünd. Yandırıb-yaxan, dumanlı baxışları xatırlayıram və ombalarımı sıxıb xəcalətdən vurnuxuram.

Toxunmaq da olmaz. Hə, burda təəccüblənməyə dəyməz. Hələ bir səfeh qaydalar… yox, mən belə bacarmaram. Əllərimlə başımı tuturam. Bu cür münasibətlər mənimçün deyil. Bir qədər yatmaq lazımdır: özümü döyülmüş kimi hiss edirəm. Son müddətdə məni özünə cəlb etmiş cismani həzzlər, sözün düzü, çox yorucuydu. Ruhi vəziyyətə gəldikdə isə… hə, fikirləşməli çox şey var. –Beynin çölə çıxması‖, – Xose belə deyərdi. Bəlkə, sabah səhər hər şeyi səfeh bir zarafat kimi qəbul edəcəm.

***

Mən yerimdə atılaraq ayağa durur və tez paltarımı dəyişirəm. Eh, Keytin çəhrayı flanel pijaması necə də yerinə düşərdi. Nəsə yumşaq və sakitləşdirici bir şey geyinmək istərdim. Futbol köynəyi və şortda yatmaq üçün. Vanna otağına gedir və dişlərimi fırçalayıram. Aynaya baxıram. ―Bu haqda əsla ciddi düşünmə...‖ Təhtəlşüurumun səsi bəzən kinayəli, sağlam zəkalı səslənir. Daxili ilahəm beş yaşlı uşaq kimi atılıb-düşür və ovuclarını bir-birinə vurur. ―Hə, xahiş edirəm, gəl sınayaq, yoxsa bizi bir neçə pişik və sənin klassik romanların arasında tənha qocalıq gözləyir‖.

Sən bir işə bax, qismətimdə nə varmış: həyatımda xoşuma gəlmiş yeganə kişi ilə birgə lənətə gəlmiş müqavilə, qamçılanma və bir yığın emosional problem! Nə yaxşı ki, ən azı bu istirahət günlərində istəyimə nail oldum. Daxili ilahəm atılıb-düşməyi dayandırır və gülümsəyir. ―Həəə!‖ – deyə o, özündənrazı halda başı ilə təsdiqləyərək pıçıldayır. Onun əllərini və dodaqlarını, bədənini və içimdəki s..ini xatırladıqda üzüm allanır. Gözlərimi qapadıram və dərin şirin daxili titrəyişi hiss edirəm. İstəyirəm ki, bu, yenidən və bir daha təkrarlansın… Bəlkə, mənim yalnız sekslə razılaşmam onunçün yetərli olar? ġübhəlidir... yəqin ki, yox.

Doğrudanmı mən itaətə meylliyəm? Yəqin ki, məhz bu cür təəssürat oyadıram və o, bunu müsahibə zamanı duyub. Mən yetərincə utancağam, amma ―bayquş‖ deyiləm! Hə, mən Keytə əmr etmək imkanı verirəm, məgər bu eyni şeydir? Hələ yolverilən hədləri demirəm, lənət şeytana! Başım hərlənir, məni rahatladan ancaq budur ki, onlar hələ müzakirə olunmalıdır.

Öz otağıma keçirəm. Düşünmək üçün o qədər səbəb var ki! Hər şey haqqında səhər düşünmək lazımdır, ayıq başla. Təhqiredici sənədi çantama qoyuram. Sabah… sabah baxarıq. Yatağa girir, işığı söndürür və uzanıram, gözümü tavana zilləyərək. Yaxşı olardı ki, biz ümumiyyətlə, görüşməyəydik… Daxili ilahəm qınayıcı tərzdə başını yelləyir. Hər ikimiz bilirik ki, bu həqiqət deyil. Hələ heç vaxt özümü bu qədər – indiki kimi canlı hiss etməmişəm.

Gözlərimi qapadır və dərin yuxuya gedirəm, dördsütunlu çarpayı, qandallar və boz gözlərin diqqətli baxışı yuxuma girir.

***

Səhər Keyt məni yuxudan oyadır.

– Ana, səni səsləməkdən yoruldum. Ölü kimi yatmısan!

Gözlərimi güclə açıram. Rəfiqəm, deyəsən, çoxdan yataqdan qalxıb və artıq qaçışdan qayıdıb. Zəngli saata baxıram. Saat səkkizdir. Ox, işə bax, düz doqquz saat yatmışam!

– Noolub? – deyə donquldanıram.

– Sənə bağlama gətiriblər, qol çəkmək lazımdır.

– Nə?

– Di tez elə! Bağlama böyükdür! Maraqlıdır, orda nə var?

Keyt səbirsiz halda bir ayaqdan o biri ayağa atılıb-düşür və qaçıb gedir. Çarpayıdan qalxır və qapıdan asılmış xalatı qapıram. Saçları arxadan quyruqda yığılmış yaraşıqlı bir gənc qonaq otağımızda dayanıb və əlində böyük bir qutu tutub. Onunla anlamsız salamlaşıram.

– Gedib səninçün çay dəmləyim, – Keyt deyir və mətbəxdə yox olur.

– Miss Stil?

Və dərhal anlayıram ki, bağlama kimdəndir.

– Hə, – deyə qorxa-qorxa cavab verirəm.

– Sizə bir şey gətirmişəm. Amma onu quraşdırmalı və necə işlədiyini sizə göstərməliyəm.

– Nə? Belə tez?

– Mən yalnız əmrləri yerinə yetirirəm, mem.

O, mehriban, amma peşəkar təbəssüm nümayiş etdirir, ondan açıq-açkar oxunur: ―Məni elə-belə azdırmaq mümkün deyil‖.

Doğrudanmı o, məni ―mem‖ adlandırdı? Məgər bir gecədə on il qocalmışam? Bütün bunlar müqaviləyə görədir!.. Nifrətlə dodaqlarımı kip sıxıram.


kitabyurdu.blogspot.com

– Yaxşı, bəs bu nədir?

– ―MakBuk Pro‖.

– Buna şübhə yoxdur! – göz qapaqlarımı endirirəm.

– ―Əpll‖in son layihəsi. Mağazalarda hələ yoxdur, mem.

―Niyə bu, məni heyrətləndirmir?‖ Dərindən köks ötürürəm.

– Onu bax, ora qoyun, nahar masasına.

Mətbəxə, Keytin yanına gedirəm.

– Orda noolub? – deyə o, maraqla soruşur, yaxşı əhvali-ruhiyyədə və şən.

– Kristian noutbuk göndərib.

– O, sənə niyə noutbuk göndərsin ki? Sən həmişə mənim kompüterimdən istifadə edə bilərsən.

Amma Kristianın ağlından keçirtdikləri üçün yox.

- Müvəqqətidir. İstəyir ki, mən sınayım.

Yetərincə həqiqətə oxşar izahatdır, amma Keyt müsbət mənada başıyla təsdiqləyir. İlahi, mən Ketrin Kavananın başına corab hördüm! İlk dəfə. O, bir fincan çayı mənə uzadır.

―Mak‖ gümüşü rəngdə və yetərincə gözəldir. Çox böyük ekranı var. Kristian Qrey miqyaslılığı sevir; söhbət genişlikdən getdiyindən onun qonaq otağını, elə bütün mənzili xatırlayıram .

- Müasir əməliyyat sistemi bütün proqram komplekti ilə birgə, üstəgəl bir yarım terabaytlı həcmlə cod disk, bir sözlə, yer yetərincə böyük olacaq, otuz iki giqabayt operativ yaddaş; onu necə istifadə etmək istərdiniz?

- E-e... elektron poçtla məktublaşmaq üçün.

- Vəssalam? – oğlan qaşlarını qaldıraraq heyrətlə deyir. Deyəsən, onun halı yaxşı deyil.

- Hə, yaxşı, deyək ki, bir də internetdə axtarış üçün, – sanki özümü təmizə çıxarıram, çiyinlərimi çəkirəm.

O köks ötürür.

- Burda naqilsiz şəbəkə, vay-fay adaptr var və mən akkauntunuzu quraşdırdım. Bu balaca, demək olar ki, planetin istənilən nöqtəsində işləməyə hazırdır.

O, ehtirasla noutbuka baxır.

- Bu akkaunt nə deməkdir?

- Sizin yeni elektron ünvanınız.

Mənim elektron ünvanım var?

Kompüterçi ekrandakı nişanı göstərir, amma bütün bunlar mənimçün heç bir anlam vermir. Anlamıram, o nə haqda danışır və sözün düzü, mənimçün maraqlı da deyil. Qoy yalnız desin, bu cihazı necə işə salmalı və söndürməli, yerdə qalandan bir təhər baş çıxararıq. Əvvəl-axır, Keytin kompüterindən artıq dörd ildir ki, istifadə edirəm.

–Mak‖ı gördükdə rəfiqəm fərəhlə fit çalır.

- Bu, yeni nəsil texnologiyasıdır, – deyir o və qaşlarını qaldırır. – Əksər qadınlara çiçək verilir…yaxud zinət əşyası.

İkibaşlı səslənir və o, açıq-aşkar təbəssümünü boğmağa çalışır.

Ona qaşqabaqlı nəzər yetirirəm, amma ciddi görkəmimi saxlaya bilmirəm. Hər ikimiz dəli kimi gülüşürük, kompüterçi isə özünü itirmiş halda bizə gözlərini bərəldir. O, işini bitirir və məndən qaiməni imzalamağı xahiş edir.

Keyt onu ötürənə qədər bir fincan çayla oturur, elektron ünvanı açıram və artıq orda məni Kristiandan gəlmiş e-mail gözləyir. Ürəyim yerindən atılır. Kristian Qreydən e-mail, həm də mənə! Həyəcanla məktubu açıram.

Kimdən: Kristian Qrey
Mövzu: Yeni kompüteriniz
Tarix: 22.05.2011, 23:15
Kimə: Anasteyşa Stil

Hörmətli, miss Stil!


kitabyurdu.blogspot.com

Ümid edirəm, yaxşıca yatmışsınız. Güman ki, bu noutbukdan təyinatına görə istifadə edəcəksiniz.

Çərşənbə günü şam yeməyinin intizarındayam. O vaxta qədər ehtiyac yarandığı təqdirdə elektron poçtla istənilən suala cavab verməyə şad olacağam.

–Cavab verməkǁdüyməsinə basıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: Yeni kompüteriniz (müvəqqəti verilmiş)
Tarix: 23.05.2011, 08:20
Kimə: Kristian Qrey

Nə qədər qəribə olsa da, yaxşıca yatmışam, çox sağ olun… ağa. Anladığım qədər, bu kompüter mənə müvəqqəti verilib, deməli, o mənim deyil.

Cavab, demək olar ki, ani gəlir.

Kimdən: Kristian Qrey
Mövzu: Yeni kompüteriniz (müvəqqəti verilmiş)
Tarix: 23.05.2011, 08:22
Kimə: Anasteyşa Stil

Kompüter sizə borc verilib. Qeyri-müəyyən müddətə, miss Stil.
Yazı tonunuza əsasən, sizə verdiyim sənədlərlə tanış olmuşsunuz.
Artıq suallarınız varmı?

Təbəssümümü gizlədə bilmirəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Hər şeylə maraqlanan zəkalar
Tarix: 23.05.2011, 08:25
Kimə: Kristian Qrey

Sorulası çoxlu sualım var, amma onlar elektron poçt üçün deyil və bizlərdən kimsə özünə çörəkpulu qazanmalıdır. Mənə qeyri-müəyyən müddətə kompüter lazım deyil.

Görüşənədək və uğurlar olsun, ağa.

O, dərhal cavab verir və mən yenidən gülümsəyirəm.

Kimdən: Kristian Qrey
Mövzu: Yeni kompüteriniz (müvəqqəti verilmiş)
Tarix: 23.05.2011, 08:26
Kimə: Anasteyşa Stil

Hələlik, balaca.

P.S. Mən də çörək pulu qazanıram.

Noutbuku qapadıram və səfeh qız kimi işıq saçıram. Məgər oyunbaz Kristian Qrey qarşısında duruş gətirmək olar? Deyəsən, mən artıq işə gecikirəm. Yaxşı, bircə həftə qalıb, ola bilsin ki, mister və missis Kleyton nazımla oynasınlar. Duşa qaçıram, yenə də dodaqlarım tam şəkildə qaçmış halda. O, mənə məlumat göndərib! Özümü kiçik, qayğısız uşaq kimi hiss edirəm. Hətta müqaviləyə görə həyəcan da harasa itib-batıb. Başımı yuyuram və düşünürəm: elektron poçtla Kristiandan nə soruşum? Yüzəyüz hər şeyi ətraflı müzakirə etmək lazımdır. Birdən kimsə poçt qutusunun qıfılını sındırsa... Bu fikrin özündən belə qızarıram. Əlüstü geyinir, Keytlə tələsik xudahafizləşir və son həftəmi işləməyə gedirəm.

Xose saat on birdə zəng edir.

- Ey, biz qəhvə içməyə gedirik?

O, əvvəlki Xose kimi danışır. Əziz dostum Xose, yoxsa ki o… Kristian onu necə adlandırırdı? Pərəstişkar. Fu.

- Əlbəttə. Mən işdəyəm. Saat on ikidə, məsələn, gələ bilərsən?
- Əla, görüşərik.

O, dəstəyi qoyur, mənsə rəngsaz fırçaları, Kristian barədə fikirlərə və onun müqaviləsi barədə fikirlərə qayıdıram.

Dəqiqlikdə Xoseyə söz ola bilməz. O, atıla-atıla mağazaya daxil olur: dəcəl qaragöz küçüyü xatırladır.

- Ana! – O, özünün füsunkar latın amerikalı təbəssümü ilə dodaqlarını geniş açır və mən artıq ona acıqlanmıram.
- Salam, Xose! – onu qucaqlayıram. – Qurd kimi acmışam. Ancaq missis Kleytona deyim ki, nahara gedirəm.

Yaxınlıqdakı qəhvəxanaya gedirik və mən Xosenin qoluna girirəm. Ona… normal olduğuna görə ona elə minnətdaram ki. Bu, yenidən tanıdığım və başa düşdüyüm adamdır.

- Ey, Ana, – deyir o, astaca, – sən, doğrudan da, məni bağışlamısan?
- Axı sən bilirsən, Xose, sənə uzun müddət acıqlı qala bilmərəm.

O gülümsəyir.

***

Gözləməyə səbrim çatmır, evə nə vaxt qayıdaram. Kristiana yazmaq istəyirəm və bir də, ola bilsin ki, informasiya tapa bilərəm. Keyt harasa gedib, odur ki, sakitcə yeni noutbuku yandırır və poçtu açıram. Təbii ki, orada Kristiandan e-mail var ―Daxilolmalar‖ qovluğunda. Fərəhdən az qala stuldan yıxılıram.

Kimdən: Kristian Qrey
Mövzu: Ruzi naminə iş
Tarix: 23.05.2011, 17:24
Kimə: Anasteyşa Stil

Ümid edirəm, iş günün uğurlu idi.

Cavab göndərirəm.

Kimdən: Anasteyşa Stil
Mövzu: Ruzi naminə iş
Tarix: 23.05.2011, 17:48
Kimə: Kristian Qrey

Ağa… iş günü əla keçdi. Çox sağ olun.

Kimdən: Kristian Qrey
Mövzu: Tapşırığı yerinə yetirin!
Tarix: 23.05.2011, 17:50
Kimə: Anasteyşa Stil

ġadam ki, vaxtı yaxşı keçirdiniz.
Nə qədər ki, e-maillər yazırsınız, tədqiqat yerində dayanır.

Kimdən: Anastreyşa Stil
Mövzu: Maneələr
Tarix: 23.05.2011, 17:53
Kimə: Kristian Qrey

Mister Qrey, mənə e-maillər göndərməyi dayandırın, onda işin qulpundan tuta bilərəm.
Mən daha bir əla qiymət almaq istərdim.

Əllərimlə özümü qucaqlayıram.

Kimdən: Kristian Qrey
Mövzu: Necə də səbirsiz qızsan!
Tarix: 23.05.2011, 17:55
Kimə: Anasteyşa Stil

Miss Stil, mən deyil, siz mənə yazmağı dayandırın və tapşırığı yerinə yetirin.

Mən daha bir əla qiymət yazmaq istərdim. Birinciyə daha çox haqqınız vardı ;)

Kristian Qrey indicə mənə –smayl–[1] göndərib! İşə baxa a! Google-u açıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: İnternetdə axtarış
Tarix: 23.05.2011, 17:59
Kimə: Kristian Qrey

Mister Qrey, sizcə mən axtarış sistemini suallarla doldurmalıyam?

Kimdən: Kristian Qrey
Mövzu: İnternetdə axtarış
Tarix: 23.05.2011, 18.01
Kimə: Anasteyşa Stil

Miss Stil,
Həmişə –Vikipediya‖dan başlayın.

---

[1] internetdə gülüş işarəsi

Və bir daha e-mail göndərməyin, yalnız suallar peyda olduqda. Aydındır?

Kimdən: Anasteyşa Stil
Mövzu: Buyurmaq!
Tarix: 23.05.2011, 18:04
Kimə: Kristian Qrey

Baş üstə… Ağa. Siz necədə amiranəsiniz.

Kimdən: Kristian Qrey
Mövzu: Rəhbərlik
Tarix: 23.05.2011, 18:06
Kimə: Anasteyşa Stil

Anasteyşa, sən hətta təsəvvürünə gətirmirsən nə qədər. Yalnız güman edə bilərsən.

–Vikipediyada‖ –sabmissiv‖ sözünü axtarıram.

Yarım saat sonra mənim azca ürəyim bulanır və sözün düzü, qəlbimin dərinliyinə qədər sarsılmışam. Doğrudanmı mən başımı bununla doldurmaq istəyirəm? İlahi, deməli, Qırmızı ağrı otağında o, bununla məşğul olur? Ekrana tüpürürəm və bir hissəm, əhəmiyyətli və çox yaş – varlığı haqqında bu yaxınlarda öyrəndiyim – güclü şəkildə ehtiraslanır. Ox, bundan bəzi şeyləri öyrənmişəm, doğrudan da ġƏHVƏT OYADIR. Amma bu mənimdirmi? Lənət şeytana… mən bacararammı? Tək qalmalıyam. Fikirləşmək lazımdır.

## 12-ci fəsil

Həyatımda ilk dəfə qaçışa yollanıram. Köhnə-kürüş, geyilməmiş kross ayaqqabılarını, məşq şalvarı və futbol köynəyini axtarıram. Saçlarıma hörük vururam, xatirələrdən qızarıram və aypodu işə salıram. Müasir texnologiyaların möcüzələri və çılpaq təsvirlər, yaxud az hiddətləndirici bir şey oxumaq qarşısında duruş gətirə bilmirəm. Təcili olaraq artıq qalmış, əzabverici enerjini tükəndirməliyəm. Əgər düzün, desək, məndə otelə qaçmaq və əmretmə pərəstişkarından seks tələb eləmək istəyi oyanır. Amma oracan beş mil məsafə var, inanmıram ki, ən azı bir mil qaça biləm, həm də o, imtina edə bilər və mənimçün bu, alçaldıcı olacaq.

Evdən çıxıram və öz maşınına doğru gedən Keytlə qarşılaşıram. Məni görərkən rəfiqəm, az qala, əlindəkiləri yerə salacaqdı. Ana Stil kross çəkmələrində. Sorğu-sualı gözləmədən ona əl yelləyirəm. Qulaqlarımda –Snow Patrol‖ bağırır və mən yerimdən qopur, solğun, göyümtül-yaşıl rəngli alatoranda yoxa çıxıram.

Ağır yerişlə parkın içindən qaçıram. Nə etməli? Mən Kristianı istəyirəm, amma onun şərtlərini deyil? Bilmirəm. Bəlkə istədiyi ilə razılaşaq? Ya da bu gülüşdoğurucu müqaviləni cırıb atım və deyim ki, nə məqbuldur, nə yox. İnternetdə tapdığıma əsasən hökm versəm, sənədin hüquqi qüvvəsi yoxdur və Kristian yüzəyüz bunu bilir. Gümanıma görə, müqavilə yalnız münasibətlərimizin parametrlərini müəyyən edir. İllüstrasiya edir, Kristiandan nəyi gözləməliyəm və o, məndən nə istəyir – tam itaət. Amma mən buna hazırammı? Və bacararammı?

Mən, elə hey eyni sual düşündürür: niyə Kristian belədir? Çünki onu çox yeniyetmə vaxtında yoldan çıxarıblar. Bu, hələ də mənimçün tapmacadır.

Hündür küknar yanında ayaq saxlayır, əllərimlə dizlərimə dayaqlanır və ağır-ağır nəfəs alıram, qiymətli havanı acgözlüklə ciyərlərimə çəkirəm. Oxx, necə də yaxşıdır, əsl katarsis. Qərarlılığım möhkəmlənir. Hə, demək lazımdır ki, mənə nə uyğundur, nə yox. Ona yazmaq ki, nə fikirləşirəm, çərşənbə günü isə müzakirə edərik. Daha bir dəfə dərindən nəfəs alır və evə qaçıram.

Keyt mağazalara baş vurmuşdu, Barbadosda istirahət üçün pal-paltar alıb. Aldığı, əsasən, onun əynində füsunkar görünən, pareo rənginə uyğun bikinidir. Bununla belə, Keyt bütün paltarlarını bir-bir geyinir, mən də onun xahişi ilə oturub şərh verirəm. ―Keyt, sən çox gözəl görünürsən!‖ deməkdən başqa çıxış yolu yoxdur: onun bədən quruluşuna adamın paxıllığı tutur – tökmə və cazibədardır. Anlayıram ki, Keyt bunu bilərəkdən etmir, amma onun fonunda köhnə futbol köynəyində, məşq şalvarı və kross çəkmələrində özümü yazıq və tərli hiss edirəm və buna görə də sürünüb öz otağıma gedirəm, bu bəhanə ilə: hələ bir neçə qutunu qablaşdırmaq lazımdır. Özümlə müftə yüksək texnologiya nümunəsini götürür və öz masamın üstünə qoyuram. Kristiana yazıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: ġokda
Tarix: 23.05.2011,20:33
Kimə: Kristian Qrey

Yaxşı, mən yetərincə görüb-götürmüşəm.
Sizi tanımaq xoş idi.

E-maili göndərirəm və zarafatıma gülərək özümü qucaqlayıram. Kristian bunu gülməli hesab edəcəkmi? Oxx, lənət… ola bilsin ki, yox. Kristian Qreyin öz yumor hissi ilə məşhur olduğu mübahisəlidir. Hərgah şəxsi təcrübəmdən bilirəm ki, onda bu var. Yəqin ki, çox uzağa getdim. Cavab gözləyirəm.

Gözləyirəm… hələ də gözləyirəm. Zəngli saata baxıram. Artıq on dəqiqə keçib.

İçimi didən bir qaşıq həyəcandan qurtulmaq üçün Keytə dediyim işin qulpundan yapışıram: əşyaları qutuya yığıram. Kitabları yeşiyə dürtürəm. Saat doqquz, cavab hələ də yoxdur. Ola bilsin ki, Kristian harasa gedib. Narazılıqla acıqlanaraq, ayfonun qulaqcıqlarını taxır, –Snow Patrol‖u qoşuram və müqaviləni yenidən oxumaq öz qeydlərimi əlavə etmək üçün masa arxasında otururam.

Bilmirəm, niyəsə baxışlarımı qaldırıram, gözümün kənarı ilə yüngül bir hərəkət və budur, o, Kristian otağımın qapısında dayanıb və məni izləyir. Əynində boz flanel şalvar və ağ kətan köynək var; əlində maşının açarlarını fırladır. Qulaqcıqları çıxarır və donub-qalıram. Sənin ananı!

- Axşamın xeyir, Anasteyşa. – Kristianın səsi soyuqdur, simasında təmkinli ifadə var.

Nitq qabiliyyətimi itirirəm. Keytə min lənət, onu içəri buraxdığına görə və məni xəbərdar etmədiyinə görə! Dumanlı şəkildə anlayıram ki, indiyədək tər hopmuş pal-paltardayam və qaçışdan sonra duşda olmamışam; bir sözlə, dəhşət. Kristian isə sadəcə füsunkardır, şalvar ombalarından yoldan çıxarıcı halda sallanır, bu azmış kimi, o burdadır, otağımda.

- Qərara gəldim ki, ismarıcına şəxsən cavab verməliyəm.

Ağzımı açıb bağlayıram. Zarafata bax da! Nə bu, nə də alternativ kainatda gözləməzdim ki, o hər şeyi atıb bura gələcək.

- Oturmaq olar? – deyə Kristian soruşur, gözlərində cinlər oynayır.

Tanrıya şükür… bəlkə o, durumun komizmini anlayır?

Başımla təsdiqləyirəm. Nitq qabiliyyətim hələ də qayıtmayıb. Kristian Qrey çarpayımda oturub!

- Mənimçün maraqlı idi, yataq otağın necədir, – o deyir.

Geri çəkilmək üçün yollar axtarışındayam, amma faydasız: arxada yalnız qapı və pəncərə var. Otağımda rahatlıqdır, hərgah çox sadə döşənib: bağ hörmə mebel və anamın kənd üslubunda əl işlərinə həvəs göstərdiyi


kitabyurdu.blogspot.com

vaxtlarda tikdiyi solğun-mavi rəngli və krem rəngli qurama yorğanı və sırıq örtüyü olan ikinəfərlik dəmir çarpayı.

- Bura elə sakitlikdir ki... – Kristian astaca deyir.

–Ancaq indi, sən burada olanda yox‖, – deyə beynimdən keçir.

Onurğa beynim, nəhayət ki, öz varlığını xatırladır və mən köks ötürürəm.

- Necə…

Kristian gülümsəyir.

- Mən hələ də oteldə qalıram.

Bilirəm.

- Bəlkə bir şey içəsən? – təklif edirəm.

Nəzakət hər şeydən üstündür, başqa nə deyə bilərsən ki.

- Yox, sağ ol, Anasteyşa.

O, yüngülcə başını yana əyir, üzündə valehedici, bir qədər əyri təbəssüm var.

Mənsə içkidən imtina etməzdim.

- Deməli, məni tanımaq sənə xoş idi?

Həə, nədir, inciyib? Barmaqlarıma baxıram. İndi bu işdən necə çıxım? Zarafat etdiyimi deməyə, yəqin ki, dəyməz.

- Fikirləşirdim ki, sən elektron poçtla cavab verəcəksən, – bir qədər eşidiləcək tərzdə bədbəxt səsimlə donquldanıram.

- Sən bilərəkdən alt dodağını dişləyirsən? – Kristian qaşqabaqlı soruşur.

Ona baxıram, gözlərimi döyərək və ağzı açıla, sonra pıçıldayıram:

- Dodağımı dişlədiyimi bilmirdim.

Ürəyim sanki quduzlaşıb. Aramızdan ecazkar elektrik cərəyanı keçir və ətrafdakı fəza elektrikləşir. Kristian mənə çox yaxın oturub, gözlər tünd-boz rəngdədir, biləklər dizlərin üstündə, ayaqlar bir qədər aralı. Bir qədər irəli gəlir, astaca hörüklərimdən birini açır, barmaqları ilə telləri azad edərək. Havam çatmır və yerimdən tərpənə bilmirəm. Digər hörüyə necə

əlini uzatdığına valeh olmuş halda baxıram, rezin qaytanı çıxararaq o, uzun, məharətli barmaqları ilə saçlarımı çiyinlərimə tökür.

- Deməli, sən bədən tərbiyəsi ilə məşğul olmaq qərarına gəlmisən, – Kristian astaca və ahənglə deyir və yavaşca saçlarımı qulağımın arxasına keçirir. – Nə əcəb, Anasteyşa?

O, ehtiyatla barmağını qulağımda gəzdirir, sonra çox incə tərzdə sırğalığımı dartışdırır. Bu elə şəhvət oyadıcıdır ki!

- Mən fikirləşməli idim…

Mən maşın fənərinin işığında görünən dovşan, şam alovuna dolanan pərvanə, ilan baxışı altındakı quş kimiyəm… və Kristian yaxşı bilir ki, mənə necə təsir edir.

- Nəyi, Anasteyşa?

- Sənin haqqında.

- Məni tanımaq çox xoş idi? Yoxsa Bibliyada deyilən mənada tanımaq, sən bunu nəzərdə tuturdun?

Lənət şeytana! Üzüm allanır.

- Heç bilməzdim ki, sən Bibliya ilə tanışsan.

- Mən kilsə məktəbinə getmiş və orda çox şey öyrənmişəm.

- Heç xatırlamıram ki, Bibliyada məmələr üçün qısqac haqqında nəsə deyilsin. Ola bilsin ki, sənə müasir tərcüməni öyrədiblər.

Kristianın dodaqları güclə görünən təbəssümlə əyilir və mən onun gözəl, sanki heykəltəraşın yonduğu ağız cizgilərindən gözlərimi çəkə bilmirəm.

- Ümumən, fikirləşdim ki, gəlmək və xatırlatmaq lazımdır ki, məni tanımaq sənə necə xoş idi.

Ah, işə bax a! Ağzımı açaraq ona baxıram, onun barmaqları qulağımdan çənəmə doğru sürüşənədək.

- Buna nə deyərdiniz, miss Stil?

Boz gözlərin baxışı Kristiana xas çağırışla parlayır. Dodaqlar azca yaşlanıb, onlar son zərbəni gözləyir. Hiss edirəm ki, qarnımın dərinliklərində kəskin və isti, bütün bədənimə axan istək baş qaldırır.


kitabyurdu.blogspot.com

Kristianı qabaqlayır və özüm ona doğru atılıram. Bircə ani hərəkət və bir göz qırpımında çarpayıda, onun bədəni altında qalıram, o, əllərimi başım altına qoyaraq sərbəst qalmış əliylə üzümə və dodaqlarıma toxunur, dodaqlarımı axtarıb tapır.

O, inadla diliylə ağzıma girir, mənə yiyələnərək və mən bu qüvvədən həzz alıram. Onu bütün bədənimlə hiss edirəm. O, məni istəyir və bundan içimdə qəribə, amma ecazkar hissiyyat yaranır. Ona qısa bikinili Keyt, on beş keçmiş məşuqədən heç biri, missis Robinson deyil, mən lazımam. Bu yaraşıqlı kişi məni istəyir. Daxili ilahəm elə işıqlı halda parlaq parlayır ki, bütün Portlendi işıqlandıra bilər.

Kristian öpüşləri dayandırır, gözlərimi açır və görürəm ki, o mənə baxır.

– Mənə etibar edirsən? – pıçıldayır.

Gözlərmi geniş açaraq başımla təsdiqləyirəm. Qəlbim, az qalır, yerindən atılsın, qanım coşur.

Kristian şalvarının cibindən gümüşü-boz qalstuku çıxarır… dərimdə iz qoymuş həmin o qalstuku. Kristianın hərəkətləri cəlddir, o üstümdə oturur, biləklərimi və qalstukun o biri ucunu çarpayının ağ, dəmir tirinə bağlayır. Mən heç yerə qaçmaram. Əl-qolum yatağa bağlanılıb və hədsiz ehtiraslanmışam.

Ktristian üstümdən düşür, çarpayı ilə yanaşı dayanır və ehtirasdan qaralmış gözləriylə mənə baxır. Zəfər baxışında rahatlıq duyulur.

– Bax belə yaxşıdır, – donquldanır və onun dodaqlarında ədəbsiz təbəssüm oynayır.

O əyilir və kross ayaqqabılarının bağlarını açmağa başlayır. O-o, yox, bicə bu olmasın! Yox! Axı mən qaçışdan yenicə dönmüşəm!

– Lazım deyil! – etiraz edirəm, ayaqlarımla müqavimət göstərərək.

Kristian dayanır.

– Müqavimət göstərsən, ayaqlarını bağlayacam. Səs-küy də salma, Anasteyşa, yoxsa ağzını da bağlamalı olacam. Sakit. Ketrin, ola bilsin ki, qapının arxasında qulaq asır.

–Ağzımı tıxayacaq! Keyt!‖ – beynimdən keçir və mən susuram.

O, cəld kross ayaqqabıları və corablarımı, sonra da yavaşca məşq şalvarını çıxarır. Təlaşla əynimdə hansı tumanın olduğunu xatırlayıram. O, azca məni havaya qaldırır və altımdakı adyalı çıxararaq bədənimi yenidən çarpayıya qoyur, amma artıq mələfə üstünə.

– Həə, – Kristian xəfifcə alt dodağını yalayaraq deyir. – Anasteyşa, sən yenə dodağını dişləyirsən. Sənsə bilirsən bu mənə necə təsir edir.

O xəbərdaredici tərzdə öz şəhadət barmağını ağzıma qoyur.

İlahi! Mən köməksiz halda, güclə özümü saxlayaraq onun otaqda ahəngdar şəkildə necə gəzişdiyini izləyirəm. Bu, məni son həddədək ehtiraslandırır. Asta-asta, demək olar ki, tənbəlcəsinə o, ayaqqabılarımı və corablarımı çıxarır, şalvarımın düyməsini açır və köynəyimi yuxarı qaldırır.

– Məncə, sən çox şey görmüsən, – Kristian hiyləgərcəsinə gülümsəyir.

O, yenidən üstümə oturur, futbol köynəyimi çıxararaq. Deyəsən, indi o, köynəyi tam çıxaracaq, yox, köynəyi boğazımacan bürmələyir, sonra onunla gözlərimi örtür, yalnız ağzımı və burnumu açıq qoyur. Parça qatlanıb. bir neçə dəfə, heç nə görmürəm.

– Hm, – nəfəsini üzümə buraxır durumu qiymətləndirərək, – İndi daha yaxşıdır. Gedib içməyə bir şey gətirim.

Kristian əyilir və məni öpür, zərifliklə dodaqlarını dodaqlarıma toxundurur və çarpayıdan qalxır. Qapının asta cırıltısı qulağıma çatır. İçki dalınca getdi. –Hara? Kimsə var yaxınlıqda? Portlendə? Sietlə?‖ Qulağımı şəkləyir, asta nitqi tuturam və başa düşürəm ki, Kristian Keytlə danışır. Yooox… o, demək olar ki, lütdür! O, Keytə nə deyəcək? Asta bır paçıltı eşidirəm. Bu nədir görən? Yenə qapı cırıldayır: Kristian qayıdır, onun addımları və qədəhdə buzun dınqıltısı eşidilir. Orda nə içki var elə? Kristian qapını örtür və eşitdiyim xışıltıya əsasən, şalvarını çıxarır. ġalvar yerə düşür və anlayıram ki, Kristianın əynində heç nə yoxdur. O, yenidən üstümə oturur.

– Sən içmək istəyirsən, Anasteyşa?

– Hə, – pıçıldayıram, çünki qəfildən bütün ağzım quruyur.

Yenidən buzun dınqıltısını eşidirəm— Kristian stəkanı qoyur, əyilir və məni öpür, ecazkar, büzüşdürücü mayeni ağzıma tökərək. Ağ şərab. Bu, gözlənilməz oldu və içim alovlandı, hərgah şərabın özü soyuqdur, Kristanın dodaqları da.

– Yenə?

Başımla təsdiqləyirəm. ġərab dadlıdır, onun ağzında olan da. Kristian başım üstündən əyilir və mən onun dodaqlarından daha bir qurtum içirəm … İlahi!..

– Gəl buna vaxt itirməyək, Anasteyşa.

Özümü saxlaya bilmirəm və gülümsəyirəm. O əyilir, dodaqlarıma daha bir qurtumu boşaldır, sonra çevrilir və mənimlə yanaşı uzanır, odur ki ombamla ereksiyanı hiss edirəm. O-o-o, mən onu içimdə elə hiss etmək istəyirəm ki!

– Xoşdur?

Mən gərilirəm, osa yenidən stəkanı götürür, məni öpür və şərabla birgə ağzıma bir parça buz dürtür. Sonra asta-asta bədənimdə soyuq öpüş cığırı saxlayır: boğazımdan aşağı, döşlərim arasında və daha sonra qarnıma sarı enir. Soyuq şərabı göbəyimə tökür və ora buz parçasını atır. Buzun bədənimi necə yandırdığını hiss edirəm. Ox-x.

– Sakit uzan, – Kristian pıçıldayır, – tərpənmə, Anasteyşa, yoxsa bütün yataq şəraba bulaşacaq.

Ombalarım qeyri-iradi yığılır.

– Yoox, miss Stil, əgər şərabı dağıtsanız, sizi cəzalandıracam.

İnləyirəm və qalstuku dartıram, ombalarımı tərpətmək istəyini güclə boğaraq. Yox… xahiş edirəm.

Kristian barmağıyla əvvəlcə büsthalterin bir kasasını, sonra o birini aşağı çəkir və sinəm, köməksiz halda onu seyrinə çıxır. O əyilir, növbəylə məmələrimim gilələrini öpür, onları soyuq dodaqları ilə dartır. Nəvazişə hay verən bədənimlə mübarizə aparıram, o bükülür.

– Bəs bu xoşuna gəlir? – Kristian məmə giləsinə üfürərək soruşur.



kitabyurdu.blogspot.com

Yenə də cingilti eşidirəm və hiss edirəm ki, Kristian buz parçasını sağ məməmin giləsi ətrafında necə dolandırır, eyni vaxtda dodağı ilə o birini sıxır. Məndən inilti qopur, tərpənməməyə çalışıram. Necə də şirin, əzabverici işgəncədir!

– ġərabı dağıtsan, sənə qurtarmaq imkanı verməyəcəm.

– O-o, xahiş edirəm… Kristian… ağa… xahiş edirəm!

O, ağlımı başımdan alır. Mən, demək olar ki, onun gülümsədiyini eşidirəm. Göbəyimdəki buz əriyir, mənsə alışıb, yanıram – yanır və soyuyuram dəhşətli dərəcədə ehtiraslanmışam. Kristianı içimdə hiss etmək istəyirəm. İndi.

Onun soyuq barmaqları birdən-birə çox həssas olmuş qarnımın dərisində ağır-ağır sürüşür. Özümdən asılı olmayaraq bədənimi qaldırıb-əyirəm və artıq isti maye göbəkdən bütün qarnıma axır. Kristianın hərəkətləri cəlddir, o şərabı diliylə yalayır, məni öpür, incə tərzdə dişləyir və sovurur.

– Ay-ya-yay, Anasteyşa, sən tərpəndin. İndi səninlə nə edim?

Mən ağır-ağır nəfəs alıram, indi mənimçün yalnız onun toxunuşu və səsi mövcuddur. Yerdə qalanlar qeyri-realdır, heç bir əhəmiyyət daşımır və radarımla tutulmur. Kristianın barmaqları tumanımın içinə girir və məni ucadan köks ötürməklə mükafatlandırır.

– Ooo, balaca, – o pıçıldayır və iki barmağını içimə soxur.

Ağzımla havanı tuturam.

– Sən artıq mənimçün hazırsan, həm də belə tez, – Kristian deyir, dözülməz dərəcədə asta-asta barmaqları içəri soxaraq və çölə çıxararaq, mənsə onun əlinə qısılır və ombalarımı yuxarı qaldırıram.

– Necə də xəsis qızsan, – sərt tələffüz edir o, böyük barmağını klitorum ətrafında fırladır, sonrasa onu sıxır.

Bədənim onun mahir barmaqlarının təsiriylə əyilib-burulur, ucadan səslənən iniltilərimi artıq boğmuram. O, başım üstündən futbol köynəyini çıxarır və mən onu görürəm, gecə çırağının işığından gözlərimi qırparaq. Toxunmaq istəyi məni üzür…

– Sənə toxunmaq istəyirəm, – nəfəsimi buraxıram.

– Bilirəm, – o pıçıldayır və əyilir – məni öpmək üçün. Onun barmaqları hələ də ritmik şəkildə bədənimin içində hərəkət edir, böyük barmaq isə dairələr cızır və sıxır.

Kristianın dili barmaqların hərəkətini təkrarlayır və mən ona bədənimin hərəkətilə qoşuluram. Ayaq əzələlərim gərilir, onun əlinə qısılıram, amma o donub-qalır, məni saxlayaraq müəyyən həddə, sonra yenidən məni ən son həddə çatdırır və dayandırır və bir də… elə əzabvericidir ki! ―Xahiş edirəm, Kristian!‖ – fikrən qışqırıram.

– Bu cəzandır, belə yaxın və uzaq. Sənə xoşdur?

Dözümsüzlükdən sızıldayır, qollarımı azad etməyə çalışıram. Tamamilə köməksizəm, erotik işgəncədə özümü itirmişəm.

– Xahiş edirəm, – deyə yalvarıram və Kristian qərara gəlir, nəhayət, onun mənə yazığı gəlir.

– Səni necə s..im, Anasteyşa?

O-o… məni titrəmə tutur. O, yenə də dayandı.

– Xahiş edirəm!

– Nə istəyirsən, Anasteyşa?

– Səni… indi! – Artıq ağlayıram.

– Səni necə s..im – belə, yoxsa belə, bəlkə bu cür, yoxsa başqa cür? Seçimin sonsuzdur.

Dodaqlarımda onun nəfəsini hiss edirəm. Kristian əlini uzadır və dolabçadan cığara paketi götürür. O, ayaqlarım arasında diz çökür və asta-asta tumanımı aşağı çəkib əynimdən çıxarır. Prezervativi keçirir, mənsə sehrlənmiş kimi onun hərəkətlərini izləyirəm.

– Belə xoşdir? – özünü sığallayaraq Kristian soruşur.

– Bu zarafat idi, – güclə deyirəm. ―Xahiş edirəm, Kristian məni s..‖.

O, qaşlarını qaldırır, onun əli şeyində aşağı-yuxarı sürüşür.

– Zarafat?

Sakit səsdə təhdid hiss olunur.

– Hə. Hə, xahiş edirəm, Kristian! – deyirəm.

– Gülməlidir?

– Yox!

Mən artıq danışmıram, sızıldayıram. Bədənim dözülməz istəkdən gərilmiş yumağa dönüb. Kristian mənə dəyərləndirici baxışla nəzər yetirir, sonra qəfildən məni qarnım üstə çevirir. Əl-qolum bağlı olduğundan dirsəklərimə dayaqlanmalı oluram. Kristian dizlərimi irəli itələyir, özümdən asılı olmayaraq dalımı qaldırıram və möhkəm bir şapalaq yeyirəm. Və elə bu anda Kristian cəld içimə soxur. Ağrıdan və gözlənilməzlikdən qışqırıram, yenidən və bir daha qurtarıram, o hərəkət etdikcə sanki xırda hissəciklərə bölünürəm. Ləzzət... O dayanmır. Artıq taqətim qalmayıb, daha dözə bilməyəcəm… o, daha güclü şəkildə içimə yeridir… yenidən ehtiraslanıram… ola bilməz… yox…

– Hə, Anasteyşa, daha bir dəfə! – o, qıcırdılmış dişləri arasından nərildəyir.

Qəribə olsa da, bədənim çağırışa cavab verir, şirin titrəyişlə yığılır və yenidən qurtarıram, onun adını çığıraraq. Kristian, nəhayət, partlayır və orqazma yetişərək sakitcə donub-qalır. Ağır-ağır nəfəs alaraq o, taqətsiz halda üstümə sərilir.

– Bəs bu xoşuna gəldi? – dişlərini sıxaraq soruşur.

İlahi!

Ağır-ağır nəfəs alıram, taqətsizəm və gözlərimi açmıram, Kristian astaca içimdən çıxır. O, dərhal durur və geyinir. Tam geyindikdən sonra çarpayıya qayıdır, qalstukunun düyününü ehtiyatla açır və futbol köynəyini aşağı salıb əynimə geyindirir. Barmaqlarımı əyir, biləklərimi oynadır və gülümsəyir, biləyimdə qalmış izlərə baxıram. Lifçiyimi düzəldirəm, Kristian isə üstümü adyalla örtür. Özündənrazı halda gülümsəyir.

– Çox xoşdur, – utancaqlıqla gülümsəyərək pıçıldayıram.

– Yenə də həmin söz!

– Xoşuna gəlmir?

– Yox. O, mənə yaraşmır.

– Nə bilim… deyəsən, o, sənə çox səmərəli təsir edir.



kitabyurdu.blogspot.com

– Səmərəli!.. Miss Stil, siz gələcəkdə də mənim heysiyyətimə zərbə vuracaqsınız?

– Məncə, heysiyyət cəhətdən səndə hər şey qaydasındadır.

Deyirəm və anlayıram ki, sözlərim inandırıcı səslənmir, hansısa aydın olmayan fikir beynimdə peyda olur və mən onu tutub yaxalayana qədər yox olur.

— Sən belə hesab edirsən? – Kristian astaca soruşur.

Başını əlinə dayaqlayaraq yanımda uzanıb, tam geyimli halda, mənimsə əynimdə yalnız büsthalter var.

– Niyə sənə toxunulmasını xoşlamırsan?

– Xoşlamıram, vəssalam. – O, mənə doğru əyilir və xəfifcə alnımdan öpür – deməli, o e-mail zarafat idi.

Mən xəcalətlə gülümsəyir və çiyinlərimi çəkirəm.

– Aydındır. Sən hələ də mənim təklifimi düşünüb-daşınırsan?

– Sənin ədəbsiz təklifini… Hə, amma bəzi etirazlarım var.

O sanki rahatlanaraq gülümsəyir.

– Əgər onlar olmasaydı, mən məyus olardım.

– Mən onları elektron poçtla bildirmək istəyirdim, amma sən sözümü yarımçıq qoydun.

– Yarımçıq qalmış cinsi akt.

– Gördün ki... bilirdim ki, hardasa içinin dərinliklərində yumor hissin var, – gülümsəyirəm.

– Anasteyşa, hər şeyə gülmək olmaz. Fikirləşdim ki, sən qəti şəkildə imtina edirsən, – o, məyus halda deyir.

– Hələ qərara gəlməmişəm. Sən boynuma xalta salacaqsan?

Kristian qaşlarını qaldırır.

– Deyəsən, mövzunu həqiqətən öyrənmisən. Bilmirəm, Anasteyşa. Heç vaxt xalta gəzdirməyə məcbur etməmişəm.

Ox. Heyrətlənməyə dəyərmi? Axı mən mövzuyla heç tanış deyiləm…

– Bəs sənin boynuna xalta keçiriblər? – pıçıldayıram.



kitabyurdu.blogspot.com

– Hə.
– Kim? Missis Robinson?
– Missis Robinson!
Kristian başını geri atır və ucadan qəhqəhə çəkib gülür. İndi o, elə cavan və qayğısız görünür ki!
Cavab olaraq dodaqlarım geniş təbəssümlə açılır.
– Dediklərini ona çatdıracam. O, buna sevinəcək.
– Siz hələ də görüşürsünüz?
Mən sarsılmışam və bunu gizlədə bilmirəm.
– Hə. – Kristian yenə də ciddidir.
Ox… Qəfildən qısqanclıq sancısı hiss edirəm və hissimin dərinliyi məni həyəcanlandırır.
– Aydındır. Deməli, öz alternativ həyatını müzakirə etmək üçün kiminsə varındı, mənəsə olmaz.
O qaşqabağını tökür.
– Bu haqda heç vaxt dediyin mənada düşünməmişəm. Missis Robinson bu həyatın bir hissəsi olub. Axı demişəm, indi biz yalnız yaxın dostuq. İstəyirsənsə, səni kəniz keçmiş qızlarımdan biri ilə tanış edə bilərəm, onunla danışa bilərsən.
–Kimlə-kimlə? Məni ələ salır?‖
– İndi də sən zarafat edirsən, hə?
– Qətiyyən.
– Sağ ol, özüm həllə edərəm, – acıqlı halda deyirəm və adyalı çənəmə qədər yuxarı dartıram.
Kristian heyrətlə mənə baxır.
– Anasteyşa, mən…
O, açıq-açkar deməyə söz tapmır: məncə, həyatında ilk dəfə.
– Xətrinə dəymək istəmirdim.
– Xətrimə heç dəymədi də. Hiddətlənmişəm.
– Niyə?

– Sənin keçmiş rəfiqənlə... kölənlə... kənizinlə... – bilmirəm onlara nə deyirsən – heç danışmaq fikrim də yoxdur.

– Anasteyşa Stil, qısqanırsan?

Utanıram və üzüm allanır.

– Qalacaqsan?

– Səhər oteldə, nahar süfrəsi arxasında görüşüm var. Həm də, artıq dediyim kimi, qızlarla, kölələrlə, ... , yaxud başqa kimləsə gecə bir yerdə qalmıram. Cümə və ġənbə günləri istisna idi. Bundan sonra belə bir şey olmayacaq. – sakit, xırıltılı səsdə qərarlılıq duyulur.

Dodaqlarımı sıxıram.

– Vəssalam, yorulmuşam.

– Məni qovursan?

Kristian qaşlarını qaldırır: deyəsən, o heyrətlənib və azca qorxub.

– Hə.

– Nə olar, daha bir ―ilk‖. – O, mənə tədqiqedici nəzər yetirir. – deməli, indi heç nəyi müzakirə etmək istəmirsən? Müqaviləni nəzərdə tuturam.

– Yox, – sərt şəkildə sözünü kəsirəm.

– Səni necə də şapalaqlamaq istərdim! Onda yaxşı olardın, elə mən də yüngülləşərdim.

– Belə danışmağa haqqın yoxdur. Mən hələ heç nə imzalamamışam.

– Arzulamaq da olmaz? – Kristian əyilir, çənəmdən tutur və xəfifcə dodağımı öpür – Çərşənbə günü?

– Çərşənbə günü, – razılaşıram. – Bir dəqiqə gözlə, səni ötürərəm.

Otururam və futbol köynəyimi geyinirəm, Kristianı geri itələyirəm. O, həvəssiz çarpayıdan qalxır.

– Zəhmət olmasa, şalvarımı ver.

O, yerdən çalvarı qaldırır və mənə verir, təbəssümünü gizlədə bilmir.

– Hə, sahibə xanım.

Gözlərimi qıyıram və qaçış paltarını geyənə qədər acıqlı halda ona baxıram. Saçlarım didilib-dağılıb və bilirəm ki, o gedəndən sonra məni

Ketrin Kavana və ehtiraslı istintaq gözləyir. Saç üçün rezin qaytanı götürüb qapını açır və qulaq verirəm. Keyt qonaq otağında deyil; deyəsən, öz otağında, telefonla danışır. Kristian arxamca gəlir. Biz çıxışa doğru gedirik. Bu qısa müddətdə fikirlərim və hisslərim kəskin şəkildə dəyişir. Artıq Kristiana acıqlanmıram, əksinə, əzabverici tərzdə utanıram. Onun getməsini istəmirəm. İlk dəfə heyifsilənirəm ki, o, sıradan biri – on səhifəlik müqaviləyə, Oyun otağında qamçılara ehtiyacı olmayan deyil.

Giriş qapısını açır və aşağı, əllərimə baxıram. İlk dəfə öz evimdə sekslə məşğul olmuşam və seksin özü də, doğrudan, əla idi. Amma indi özümü hardasa dölqəbulediciyə oxşar, yalnız Kristianın nazı ilə dolan saxsı qab kimi hiss edirəm. Təhtəlşüurum başını yelləyir: ―Seks üçün otelə qaçmağa hazır idin və onu ekspress-çatdırma ilə əldə etdin‖. Əllərimi sinəmdə çarpazlayaraq, təhtəlşüurum ayaqlarını yerə döyür və onun sifətindən açıq şəkildə oxunur: ―İndi nədən şikayətçisən?‖

Kristian astanada ayaq saxlayır, çənəmdən tutur və başımı qaldırmağa məcbur edir. Baxışlarımız toqquşur.

- Hər şey qaydasındadır? – incəliklə soruşur, baş barmağı ilə alt dodağımı xəfifcə tumarlayır.

- Hə, – cavab verirəm, hərgah sözün düzü, buna əmin deyiləm.

Əqidə sistemimin necə dəyişdiyini hiss edirəm. Onun şərtləriylə razılaşsam, onda sonradan əzab çəkəcəm. O, bundan artığını mənə təklif etməyə qabil deyil, bunu heç istəmir və əksini heç nəzərdə də tutmur… mənsə daha çox istəyirəm. Daha çox... Keçirdiyim qısqanclıq yalnız ona olan hisslərimin daha dərin olduğunu isbatlayır.

- Çərşənbə günü... – Kristian təkrarlayır, əyilir və məni öpür.

Dodaqlarımız bir-birinə toxunarkən nəsə baş verir və üzümü ovcuna alaraq o, məni daha möhkəm-möhkəm öpür. Kristianın tənəffüsü sürətlənir, o mənə qısılır, acgözlüklə ağzıma soxulur. Ovuclarımı onun əllərinin üstünə qoyuram. Saçlarını elə oxşamaq istərdim ki... amma mən özümü saxlayıram, bilirəm ki, bu, xoşuna gəlməyəcək.

- Anasteyşa… mənimlə nə edirsən?

- Eyni şeyi mən də soruşa bilərəm, – cavab olaraq pıçıldayıram.

Dərindən köks ötürüb Kristian alnımdan öpür və çıxıb gedir. O, qərarlı şəkildə cığırla avtomobilinə doğru addımlayır və əliylə saçlarını qarışdırır. Qapını açır, mənə sarı baxır və özünün adamın ağlını başından alan təbəssümü ilə gülümsəyir, bundan içim odlanır. Azca gülümsəyirəm və yenidən özümü Günəşə çox yaxınlaşmış İkar kimi hiss edirəm. Kristian öz idman avtomobilinə oturur, mənsə giriş qapısını örtürəm. Tənhayam və ağlamaq istəyirəm, üzgün nigarançılıq qəlbimi sıxır. Otağıma tələsirəm, qapını bağlayıram və ona dayaqlanıram, hisslərimi rasionallaşdırmağa çalışıram, ancaq əfsus!.. Yerə sürüşüb otururam, üzümü qapayıram və göz yaşlarımı saxlaya bilmirəm.

Keyt astaca qapını döyür.

- Ana? – pıçıltıyla məni çağırır.

Onu içəri buraxıram. Mənə bircə dəfə nəzər yetirir və möhkəm qucaqlayır.

- Nə olub? Bu alçaq yaraşıqlı düdəmə sənə nə edib?
- Ah, Keyt, yalnız özüm istədiyimi.

O, məni çarpayıya sarı aparır və biz onun üstündə otururuq.

- Saçların elə dağınıqdır ki, elə bil çılğın sekslə məşğul olmusan.

İçimi göynədən üzüntüyə baxmayaraq gülürəm.

- Seks pis yox, əla idi.

Keyt gülümsəyir.

- Lap yaxşı. Niyə ağlayırsan? Axı sən heç vaxt ağlamırdın.

Siyirmədən darağı götürür, yanımda oturur və asta-asta kilkələrimi darayıb açmağa başlayır.

- Sadəcə fikirləşirəm ki, münasibətlərimiz yaxşı bir şeylə sonuclanmayacaq, – deyir və barmaqlarıma baxıram.
- Axı demişdin ki, Çərşənbə axşamı görüşürsünüz?
- Hə, belə nəzərdə tutmuşduq.
- Onda o, niyə bu gün gəldi?
- Ona e-mail göndərmişdim.

- Gəlmək xahişli?
- Yox, yazmışdım ki, daha onu görmək istəmirəm.
- Və o, dərhal qaçıb gəlib? Ana, sən dahisən!
- Əslində zarafat etmişdim.
- Ah, bax indi heç nə anlamıram.

E-mailin məzmununu ona səbirlə danışıram, başlıca məsələni isə demirəm.

- Deməli, fikirləşirdin ki, o, sənə elektron poçtla cavab verəcək.
- Hə.
- Bunun əvəzində isə öz ayağı ilə bura gəlib.
- Hə.
- Məncə, o, səninçün dəli-divanə olub.

Üz-gözümü turşuduram. Mənimçün dəli-divanə olub? Aha, əlbəttə. O, mənə sadəcə yeni oyuncağı kimi baxır: əylənmək və başına min cür oyun açılacaq rahat oyuncaq. Ürəyim ağrıdan sıxılır. Barış, gerçək budur.

- O, məni s..məkçün gəlmişdi, vəssalam.
- Romantikanın öldüyünü kim deyirdi? – Keyt dəhşətlə pıçıldayır.

Onu inandıra bilmişəm. Heç fikirləşməzdim ki, bu mümkündür. Xəcalətlə çiyinlərimi çəkirəm.

- O seksdən silah kimi istifadə edir.
- Səni tam tabe edənədək s..ib? – rəfiqəm narazı halda başını yelləyir.

Mən sarsılaraq gözümü döyürəm və üzümün necə allandığını hiss edirəm. Ah, Ketrin Kavana, Pulitser mükafatı laureatı, düz hədəfi vurdun…

- Ana, başa düşmürəm, sən sadəcə onunla sevişirdin?
- Yox, Keyt, biz sevişməmişik, biz s..işmişik – Kristian bunu öz meyarı ilə belə adlandırır. O, sevgini tanımır.
- Mən belə də bilirdim, bilirdim ki, onun qəribəlikləri var. Onda yaxın münasibətlərdən hürkü var.

Sanki razılaşaraq başımla təsdiqləyirəm, hərgah qəlbimdə pərişanlıq hökm sürür. Ah, Keyt, heyif ki, bu əcaib-qəraib pozgun haqqında sənə hər


kitabyurdu.blogspot.com

şeyi danışa bilməyəcəm, yoxsa mənə onu unutmağı əmr edəcəksən. Məni axmaq hərəkətlərdən çəkindirəcəksən.

- Bütün bunlar narahatlıq doğurur, – donquldanıram.

Həəə, yumşaq deyildi.

Kristian haqda daha danışmaq istəmirəm və buna görə də Eliot barədə soruşuram. Onun adının xatırlanması ilə Keyt sanki içdən işıqlanır və ətrafa şüa saçaraq gülümsəyir.

- Eliot şənbə günü səhər gələcək, əşyaları yükləməyə kömək edəcək.

O, darağı sinəsinə qoyur. Oho... hə Keyt deyəsən aşiq olub! Artıq mənə tanış olan paxıllıq hissinin kiçik sancmasını hiss edirəm. Keyt özünə normal kişi tapıb və xoşbəxt görünür!

Onu qucaqlayıram.

- Həə, tamam unutmuşam. Atan zəng eləmişdi, sən... e-e-e… məşğul olarkən. Məsələ ondadır ki, Bob hansısa zədə alıb və onlar ananla birgə buraxılış mərasiminə gələ bilməyəcəklər. Amma atan cümə axşamı burda olacaq. O xahiş etdi ki, zəng edəsən.

- Bəs anam heç nə demədi? Bob necədir, hər şey qaydasındadırmı?

- Hə. Ona səhər zəng elə, indi artıq gecdir.

- Sağ ol, Keyt. Sakitləşdim. Sabah Reyə də zəng edərəm. İndisə sadəcə uzanıb yatacam.

O gülümsəyir, əslində gözlərinin kənarındakı qatlar həyəcandan xəbər verir.

Keyt çıxıb getdikdə oturur və bir daha müqaviləni oxuyur, qeydlər aparıram. Bunu bitirib noutbuku işə salıram. Müzakirəyə hazıram.

Poçtda Kristiandan e-mail var.

Kimdən: Kristian Qrey
Mövzu: Bugünkü axşam
Tarix: 23.05.2011, 23:06
Kimə: Anasteyşa Stil


kitabyurdu.blogspot.com

Miss Stil, müqaviləyə dair qeydləri intizarla gözləyirəm.

Hələliksə gecən xeyrə qalsın.

Kimdən: Anasteyşa Stil
Mövzu: Mübahisəli məsələlər
Tarix: 24.05.2011,00:02
Kimə: Kristian Qrey

Möhtərəm mister Qrey!

Mübahisəli məsələlərə dair sadalamam bunlardır. Çərşənbə günü şam yeməyi zamanı onları müzakirə etmək imkanını intizarla gözləyirəm.

Saylar müqavilənin bəndlərinə müvafiqdir:

2: Əmin deyiləm ki, MƏNİM hissiyyatlılığımın və yolverilən hədlərin tədqiqi müstəsna olaraq MƏNİM maraqlarıma uyğun aparılacaq. Güman edirəm ki, bu halda mən on səhifəlik müqaviləsiz də keçinə bilərdim. Bu, daha çox SİZİN maraqlarınıza uyğundur.

4: Çox gözəl bilirsiniz ki, mənim yeganə seksual tərəfdaşımsınız. Mən narkotik maddələr qəbul etmirəm; mənə heç vaxt qan köçürməyiblər. Böyük ehtimalla durumum qaydasındadır. Bəs Sizinki necə?

8: Razılaşdırılmış məhdudiyyətlərə riayət etmədiyinizi güman etdiyim təqdirdə mən müqaviləni istənilən anda pozmaq hüququna malikəm. Yaxşıdır... bu, məni qane edir.

9: Sizə hər şeydə tabe olmaq? Cəzaları etirazsız qəbul etmək? Bu, müzakirə edilməlidir.

11: Sınaq müddəti – bir ay. Üç yox.

12: Sizinlə hər istirahət günləri görüşə bilməyəcəm. Mənim şəxsi həyatım var… hə, ya da olacaq. Dörd əvəzinə üçünü təklif edirəm.

15.2: Sizin istəyinizə uyğun olaraq bədənimdən seksual, yaxud digər hərəkətlər üçün istifadə – zəhmət olmasa, ‒yaxud digər‖ təyinatına aydınlıq gətirin.

15.5: Cəzalara dair bütöv bənd. Əmin deyiləm ki... qamçılanmağıma çubuqla döyülməyimə, yaxud digər fiziki təsirə məruz qalmaq istədiyimə inanmıram. Məncə, bu, 2-5 bəndlərdəki müddəaların pozulması olacaq. Və bir də – ―Başqa səbəbə görə‖. Bu, sadəcə, amansızdır, hərgah sadist olmadığınızı iddia edirdiniz.

15.10: Guya ki, mən kiməsə müvəqqəti istifadəyə verilməyimə razılaşardım. Amma şadam ki, Müqavilədə bu bənd mövcuddur.

15.14: Qaydalar. Sonra müzakirə edərik.

15.19: Niyə səni oxşamaq mənə qadağandır? Onsuz da bunu etmirəm, sadəcə maraqlıdır, niyə?

15.21: Cəza. Zəhmət olmasa, yuxarıdakı 15.5 bəndini bir daha oxuyun.

15.22: Niyə Sizə toxuna bilmərəm?

Qaydalar:

Yuxu – sutkada altı saata razıyam. Qida – tövsiyə olunan ərzaq siyahısı əsasında qidalanmayacam. Onu yığışdırın, əks halda Müqaviləni imzalayacağımı unudun. Paltar – əgər yalnız Sizin yanınızda olduqda Sizin seçdiyiniz paltarları geyinməliyəmsə, yaxşı, olsun. Fiziki məşğələlər – biz üç saata razılaşmışıq, Müqavilədəsə əvvəlki kimi dörd saat qeyd olunub.

Yol verilən hədlər:

Bəlkə hər şeyi ətraflı müzakirə edək? Heç bir fistinq. ―Asma‖ nə deməkdir? Genital qısqaclar – Zarafat edirsiniz.

Zəhmət olmasa, çərşənbə günü ilə bağlı məlumat verin. Mən axşam saat beşə kimi işləyirəm.

Gecəniz xeyrə qalsın.

Kimdən: Kristian Qrey
Mövzu: Bugünkü axşam
Tarix: 24.05.2011, 00:07

Kimə: Anasteyşa Stil

Miss Stil, çox uzun siyahıdır. Niyə hələ də yatmamısan?

Kİmdən: Anasteyşa Stil
Mövzu: Gecələr işləyirəm
Tarix: 24.05.2011, 00:10
Kimə: Kristian Qrey

Ağa, xatırlayırsınızsa, məni işdən ayırıb cütləşməyə məcbur edərkən mən məhz bu siyahıyla məşğuldum.

Gecəniz xeyrə.

Kimdən: Kristian Qrey
Mövzu: İşi dərhal dayandırmalı!
Tarix: 24.05.2011, 00:12
Kimə: Anasteyşa Stil ANASTEYġA,
BİRBAġ YATAĞA!

Oy, bağıran böyük hərflər! Noutbuku söndürürəm. Burdan altı mil uzaqlıqda belə Kristian məni qorxuda bilir? Başımı yelləyirəm. Ürəyim yenə narahatdır, yatağa uzanır və dərhal dərin, amma narahat yuxuya gedirəm.


kitabyurdu.blogspot.com

## 13-cü fəsil

Növbə axşam, işdən evə gəldikdən sonra anama zəng edirəm. Gün sakit keçdi və düşünüb-daşınmağa yetərincə vaxtım oldu. Özümə yer tapmıram, Əmr etmək həvəskarı ilə qarşıdakı görüş ərəfəsində münasibətlərin aydınlaşdırılması ilə bağlı həyəcan keçirirəm və hardasa qəlbimin dərinliklərində narahatam ki, bəlkə müqavilə haqda çox sərt qərar vermişəm. Yəqin, Kristian hər şeyi ləğv edəcək.

Anamın ürəyi peşmançılıqla doludur: çox heyifsilənir ki, buraxılış mərasiminə gələ bilməyəcək. Bob əzələsini əzib və indi çox pis axsayır. Sözün düzü, onun başına daim iş gəlir, lap mənim kimi. O, əlbəttə, sağalacaq, amma indi canım anam onun qayğısına qalmalıdır: sözün hərfi mənasında onu tam şəkildə ayağa durğuzana qədər.

- Ana, əzizim, çox heyifsilənirəm! – telefon dəstəyində anam sızıldayır.
- Qorxulu heç nə yoxdur, Rey gəlməyə söz verib.
- Ana, səsindən üzüntü duyulur. Balam, hər şey qaydasındadır?
- Hə, ana.

Ah, bircə biləydin! Mən var-dövləti hesaba gəlməz cavan bir oğlanla tanış olmuşam. O, qəribə, çox pozğun münasibətlər istəyir və mənim bu münasibətlərdə etiraz haqqım olmayacaq.

- Kiminləsə tanış olmusan?
- Yox, ana.


kitabyurdu.blogspot.com

İndi bu mövzuda danışmaq niyyətim yoxdur.

- Yaxşı, əzizim, Cümə axşamı yanına gələcəm. Səni sevirəm … Özün bilirsən, balaca!..

Gözlərimi qapadıram, anamın şirin-şəkər sözlərindən qəlbimə hərarət çökür.

- Mən də səni sevirəm, anacan. Boba salam de. Yəqin, o tezliklə sağalar.

- Mütləq, balaca. Sağ ol.

- Hələlik.

Nə cür olubsa, telefonqarışıq öz otağıma keçmişəm. Cihazı tənbəlcəsinə işə salır və poçtuma girirəm. Orda Kristiandan məktub var. O, dünən gecəyarı, ya da bu gün erkəndən göndərilib; nəzər-nöqtəsindən asılı olaraq. Nəbzimin döyüntüsü sürətlənir və qanın döyüntüsünü qulaqlarımda eşidirəm. Lənət şeytana! Ola bilsin ki, o imtina edir… Hə, yəqin ki, o, şam yeməyini ləğv etmək qərarına gəlib. Bu haqda düşünmək belə ağrılıdır. Pis fikirləri beynimdən atıram və e-maili açıram.

Kimdən: Kristian Qrey
Mövzu: Sizin iradlar
Tarix: 24.05.2011, 01:27
Kimə: Anasteyşa Stil

Hörmətli miss Stil, mübahisəli məsələlərin ətraflı öyrənilməsindən sonra diqqətinizi –sabmissiv‖ anlayışının [sabmissive] aşağıdakı mənalarına yönəltmək istərdim:

1. Sözəbaxan, hər şeyə itaət edən. İtaətli qullar.
2. İtaətli, həlimlik ifadə edən. Qısa cavab.

Mənşə: 1580–1590; sabmissive

Sinonimlər: 1. Üzüyola, sözəbaxan, güzəştəgedən. 2. Sadəqəlbli, dinc.

Antonimlər: 1. sözəbaxmaz, qiyamçı, intizamsız.


kitabyurdu.blogspot.com

Zəhmət olmasa, Çərşənbə günü görüşümüzdə bunu nəzərə alın.

O dəqiqə narahatlanıram. Hər halda, o, mübahisəli məsələləri müzakirə eləməyə razıdır və hələ də sabah mənimlə görüşmək istəyir. Bir qədər fikirləşib cavab yazıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: İradlarım… Bəs sizin iradlar?
Tarix: 24.05.2011, 18:29
Kimə: Kristian Qrey

Ağa, zəhmət olmasa, mənşə tarixinə diqqət yetirin: 1580–1590. Bütün ehtiramımla bərabər, Sizə xatırlatmaq istərdim ki, iki min on birinci ildir. O vaxtdan gör neçə illər keçib.

Görüşümüz zamanı üzərində düşünməmiz lazım olan təriflə bağlı təklifim:

kompromise [compromise]

1 Hər hansı maraqların, səylərin toqquşması zamanı qarşılıqlı güzəştlər yolu ilə razılaşma;

2 Bu cür razılaşmanın nəticəsi;

3 Müxtəlif şeylər arasında aralıq halqası. İki ev – fermer evi ilə çoxmərtəbəli ev arasında kompromis.

Kimdən: Kristian Qrey
Mövzu: Mənim iradlarım necə olsun?
Tarix: 24.05.2011, 18:32
Kimə: Anasteyşa Stil

Faydalı qeyddir, miss Stil və həmişə olduğu kimi vaxtlı-vaxtında. Sabah saat yeddidə ardınca gələcəm.

Kimdən: Anasteyşa Stil
Mövzu: 2011 – Qadınlar maşın sürə bilir
Tarix: 24.05.2011, 18:40
Kimə: Kristian Qrey

Ağa, mənim maşınım var və mən sürə bilirəm.
Sizinlə hardasa başqa yerdə görüşmək istərdim.
Harda görüşəcəyik? Sizin oteldə yeddidə?

Kimdən: Kristian Qrey
Mövzu: İnadcıl gənc qadınlar
Tarix: 24.05.2011, 18:43
Kimə: Anasteyşa Stil

Möhtərəm miss Stil, diqqətinizi 24 may 2011-ci il tarixli 01:27-də göndərilmiş məktubuma yönəldirəm; tərif orda var.

Nə vaxtsa sənə deyiləni yerinə yetirməyi öyrənəcəksən?

Kimdən: Anasteyşa Stil
Mövzu: Tərs kişilər
Tarix: 24.05.2011, 18:49
Kimə: Kristian Qrey

Mister Qrey, mən maşınla gəlmək istəyirəm.
Xahiş edirəm.

Kimdən: Kristian Qrey
Mövzu: Əsəbiləşmiş kişilər
Tarix: 24.05.2011, 18:52
Kimə: Anasteyşa Stil


kitabyurdu.blogspot.com

Əla.
Mənim otelimdə axşam saat yeddidə.
Mərmər barda gözləyəcəm.

Hətta e-maildən hiss olunur ki, o hirslənib. Doğrudanmı o anlamır ki, bəlkə, mən tez aradan çıxmalı oldum? Axı ―Böcəy‖im sürətiylə fəxr edə bilməz… Necə olur-olsun, mənə təxliyə vasitəsi lazımdır.

Kimdən: Anasteyşa Stil
Mövzu: Tərs kişilər məgər belə deyilmi
Tarix: 24.05.2011, 18:55
Kimə: Kristian Qrey

Sağ ol.

Kimdən: Kristian Qrey
Mövzu: Dözülməz qadınlar
Tarix: 24.05.2011, 18:59
Kimə: Anasteyşa Stil

Dəyməz.

***

Reyə zəng edirəm, o bu an ―Sietl Saunders‖ və Solt-Leyk-Sitidən olan hansısa komanda arasında futbol matçına baxmağa hazırlaşır. Buna görə də söhbətimiz, xoşbəxtlikdən, uzun çəkmir. Rey Cümə axşamı buraxılış mərasiminə gələcək və mərasimdən sonra məni restorana dəvət edəcək. Qəlbim fərəhlənir, qəhərlənirəm. Anamın romantik eniş və yüksəlişləri zamanı Rey həmişə yanımda olub. Onunla məhrəm


kitabyurdu.blogspot.com

münasibətlərimiz var və mən buna dəyər verirəm. O – atalığımdır, amma mənimlə doğma qızı kimi rəftar edir və onun gəlişini həsrətlə gözləyirəm. Gör nə vaxtdır görüşmürük! Ola bilsin ki, sabahkı görüş zamanı mücəssəməsi məni ruhlandırsın.

Biz Keytlə əşyaları toplayırıq və əlüstü ucuz qırmızı şərabı içirik. Hər şeyi qutulara yığdıqdan sonra yatmağa gedirəm. Özümü çox sakit hiss edirəm. Fiziki əmək fikirlərdən yaxşı yayındırır, həm də yorulmuşam. Doyunca yatmaq istəyirəm. Yeri rahlayır və tezliklə mürgüləyirəm.

Pol Prinstondan qayıdıb, Nyu-Yorkdakı maliyyə şirkətində təcrübə keçməzdən öncə bir qədər evdə dincəlmək istəyir. Bütün mağaza boyu məni izləyir, məni özüylə harasa aparmağa dəvət edir. Məni dəli edir!

– Pol, yüzüncü dəfə deyirəm, bu gün görüşüm var.

– Yalandır, məndən qurtulmaqçün belə deyirsən. Sən məndən qaçırsan.

Aha… nəhayət məğzə yetişdik.

– Mən həmişə düşünmüşəm ki, bossun qardaşı ilə görüşmək olmaz.

– Cümə sonuncu günündür, sabahsa işləmirsən.

– ġənbə günü artıq Sietldə olacam, sənsə yaxın günlərdə Nyu-Yorka gedəcəksən. Bir-birimizdən uzaq düşmək çətindir, hətta çox çalışsaq da. Həm də bu gün görüşüm var.

– Xoseylə?

– Yox.

– Onda kiminlə?

Acıqlı halda köks ötürürəm. Deyəsən, əl çəkməyəcək.

– Kristian Qreylə, – xəcalətimi gizləmədən deyirəm.

Təsir edir! Polun çənəsi sallanır, o, heyrətlə mənə baxır. Hm, sən demə, insanlar Kristianın adının çəkilməsi ilə belə lal olurlar.

– Kristian Qreylə görüşürsən? – Pol özünə gələrək deyir. Onun səsində etibarsızlıq var.

– Hə.

– Aydındır.

Görkəmi qayğılıdır, hətta məzlum və onun bu qədər heyrətli hala düşməsinə görə özümü bir qədər günahkar sayıram. Daxili ilahəm də narazıdır. O, Pola barmaqlarla ədəbsiz bir işarə göstərir.

Bu söhbətdən sonra Pol məni rahat buraxır və düz saat beşdə mən evə tələsirəm.

Keyt mənimçün bir cüt ayaqqabı və iki don seçib: həm bugünkü görüş, həm də sabahkı mərasim üçün. Heyif ki, geyim-kecim həvəskarı deyiləm və demək olar ki, dəbə fikir vermirəm – pal-paltar mənlik deyil. –Bəs xoşunuza gələn nədir, Anasteyşa?‖ – Kristianın asta səsi qulağımda cingildəyir. Başımı yelləyir, özümə hakim olmağa çalışıram və bu gün ... gavalı rəngli, qılafşəkilli don geyinməyə qərar verirəm. O, təvazökar və işgüzar görkəm yaradır – əvvəl-axır axı mən müqaviləni müzakirə edəcəm.

Duş qəbul edir, ayaqlarımı və qoltuqlarımın altını qırxır, başımı yuyur və düz yarım saat fenlə saçlarımı elə qurudub-darayıram ki, onlar yumşaq dalğalarla sinəmə və kürəyimə axsın. Saç düzümümə şana batırıram ki, tellərim üzümün ancaq bir tərəfini örtsün. Kirpiklərimə tuş çəkir, dodaqlarıma bir qədər parıltı verirəm. Kosmetikadan nadir hallarda istifadə edirəm – özümü rahat hiss etmədiyimdən. Sevimli ədəbi qəhrəmanlarımdan heç biri boyadan istifadə etməyib, əks halda mən makiyaj etməyi bacarardım. Ayaqlarımı mismardaban tuflilərə keçirirəm, onlar rənginə görə dona tam uyğun gəlir və yeddinin yarısında mən artıq tam hazıram.

– Hə, necədi? – deyə Keytdən soruşuram.

O gülümsəyir.

– Ana, nəhayət lələklərini təmizləmisən ki! – O, razılıqla başını tərpədir. – Çox seksual görünürsən.

– Seksual? Mən istəyirdim ki, çox təvazökar və işgüzar görünüm!

– Bu da öz yerində, amma ilk növbədə seksual. Paltar sənə yaraşır, rəngi də üzünə düşüb. Həm də bədəni elə qabardır ki... – Rəfiqəm mənalı-mənalı gülümsəyir.

– Keyt! – hirslənirəm.

– Ana, həqiqətin gözümə düz bax. Hər şey əladır, yaraşır. Paltarı özünə saxla. Kristian sənə ağzıaçıla baxacaq.

Dodaqlarımı sıxıram. ―Ah, Keyt, hər şey tərsinədir‖.

– Mənə uğur arzula.

– Sənə görüşdə uğur lazımdır? – O, qayğıyla qaşlarını çatır.

– Hə, Keyt.

– Hə, onda uğurlar!

Məni qucaqlayır və evdən çıxıram.

Maşını ayaqyalın sürmək lazım gəlir. Vandanı – mavi səma rəngli maşınımı, aydındır ki, hündürdaban həvəskarı olan qadınlar üçün yaratmayıblar. Düz saat yeddiyə on dəqiqə qalmış ―Hitman‖ oteli qarşısında dayanır və maşının açarını parklama işlərinə baxana verirəm. O, ikrahla ―Böcəy‖imə baxır, amma bu, vecimə də deyil. Dərindən köks ötürür və otelə girirəm.

Kristian dayanıb – barın dirəyinə ehtiyatsız söykənərək – və ağ şərab içir. Əynində, adətən olduğu kimi, ağ kətan köynək var, üstəlik, qara pencək və cins şalvar, qalstuk da qaradır. Saçları necə gəldi qarışdırılıb. Köks ötürürəm. O, əla görünür, buna azacıq belə şübhə yoxdur. Bir müddət qapıda dayanır və Kristianı heyranlıqla seyr edirəm. Onun ilahi gözəlliyi var! Kristian, mənə elə gəlir ki, girişə azca narahat nəzər yönəldir və məni görərək donub-qalır. Bir neçə dəfə gözlərini döyür və asta, tənbəl və seksual təbəssümüylə gülümsəyir; bundan nitq qabiliyyətimi itirirəm və içimdə hər şey əriyir. Alt dodağımı dişləməməyə çalışaraq, bara daxil oluram. Bir saniyə belə unutmuram ki, mən, Anasteyşa Stil, köntöy qız, nə cür olur-olsun, bu gün hündürdabanlar üstündəyəm. Kristian ahəstə yerişlə mənə qarşı gəlir.

– Sən əla görünürsən, – o pıçıldayır və yavaşca yanağımdan öpür. – Donu nəzərdə tuturam, miss Stil. Dəstəkləyirəm.

O qoluma girir, özəl kabinəyə aparır və ofisianta əl yelləyir.

– Nə içəcəksən?

Kabinəyə girdikdə və masa arxasında oturduqda dodaqlarımda hiyləgər təbəssüm oynaşır: Kristian nə içəcəyimi soruşur!

– Siz içəndən.

Bax belə! Mən yaxşı qız ola və özümü necə lazımdır apara bilərəm. Heyrətlənərək o, daha bir ağ şərab sifariş edir və mənimlə üzbəüz oturur.

– Onların əla şərab anbarı var, – Kristian deyir və başını yana əyir.

Biləklərini masaya qoyaraq o, barmaqlarını gözəl ağzına dayayır, boz gözlərdə qeyri-müəyyən hisslər işıldayır. Və budur… içdə, dərinlikdə artıq mənə tanış olan hissi duyuram və məni sanki elektrik cərəyanı vurur. Kristianın baxışları altında qurcalanıram, qəlbim bərkdən döyünür. Sakitliyimi qoruyub saxlamalıyam.

– Həyəcanlanırsan? – sakitcə soruşur o.

– Hə.

Kristian mənə doğru əyilir.

– Elə mən də, – məkrli ahənglə pıçıldayır.

Kəskin hərəkətlə baxışlarımı qaldırıram. O həyəcanlanır. Belə şey ola bilməz. Özümü itirərək gözümü döyürəm, osa özünün ecazkar əyri təbəssümüylə gülümsəyir. Ofisiant şərabımı gətirir, qoz-fındıqlı nimçəni və daha birini – zeytunlunu.

– Hə, biz nəyi müzakirə edəcəyik? – soruşuram. – İradlarımı bir-bir nəzərdən keçirək?

– Həmişəki kimi səbirsizsiniz, miss Stil.

– İstəyirsiniz ki, bugünkü havayla bağlı rəyinizi soruşum?

O gülümsəyir, uzun barmaqları ilə zeytun dənəsini götürür və onu ağzına göndərir. Baxışım bu ağızda, bədənimdə... hər yerdə hiss etdiyim dodaqlarda donub-qalır. Mən alışıram.

– Məncə, hava xüsusən bu gün çox yaxşıdır, – o, özündənrazı halda gülümsəyir.

– Məni ələ salırsınız, mister Qrey?

– Hə, miss Stil.

– Bilirsinizmi, bu müqavilənin hüquqi qüvvəsi yoxdur?


kitabyurdu.blogspot.com

– Əlbəttə, miss Stil.

– Bunu mənə deyəcəkdiniz?

O, üzünü turşudur.

– Səncə, mən səni istəmədiyin şeyə məcbur edərdim, sonra da yalandan deyərdim ki, sənə malik olmağa qanuni hüququm var?

– Ümumiyyətlə… hə.

– Deyəsən, mənim haqqımda çox da yüksək fikirdə deyilsən.

– Sualıma cavab vermədin.

– Anasteyşa, bu müqavilənin qanuni olub-olmaması qətiyyən əhəmiyyətli deyil. Bu müqavilə səninlə bağlamaq istədiyim razılaşmanı özündə ehtiva edir – mənim səndən istəyəcəyimi və sənin məndən gözləyə biləcəyini. Xoşuna gəmirsə, imzalama. Əgər imzalasan, sonra qərara gəlsən ki o səni qane etmir, orda yetərincə bəhanə var və sən istədiyin zaman gedə bilərsən. Hətta bu müqavilə qanuni olsaydı belə, doğrudanmı düşünürsən ki, mən səni məhkəmələrdə süründürərdim?

ġərabdan böyük bir qurtum içirəm. Təhtəlşüurum əlini çiynimə vurur. –Sağlam zəkanı qoruyub saxlamalısan, – özüm-özümə deyirəm. – çox içmə‖.

– Oxşar münasibətlər düzgünlük və etimad üzərində qurulur, – deyə o, davam edir. — Mənə etibar edirsənsə, səninlə davranışımda son hədd nə ola bilər. Əgər mənimlə səmimi ola bilmirsənsə, onda heç başlamasaq yaxşıdır.

Nəsə yaman tez işə girişdik. Mənimlə o nə qədər uzağa gedə bilər ki münasibətlərdə. Lənət şeytana. Bu, nə deməkdir ki?

– Odur ki, hər şey sadədir, Anasteyşa. Mənə etibar edirsən, yoxsa yox? – Onun gözləri od tutub yanır.

– Bəs onlarla… hm… on beş qızla da bunu müzakirə eləmisən?

– Yox.

– Niyə?

– Çünki onların hamısı kəniz kimi idilər. Onlar bilirdi ki, münasibətlərimdən nə gözləyirlər və mən onlardan nə istəyirəm. Bütün müzakirələr yolverilənin hədləri və sair xırdalıqlarla bitirdi.

– Onları hardan tapırsan? Qulların satıldığı xüsusi mağazadan?

O gülür:

– Heç də yox.

– Onda hardan?

– Bunu müzakirə eləmək istəyirsən? Yoxsa söhbətimizin məğzinə qayıdaq? Daha doğrusu, dediyin kimi, mübahisəli məsələlərə.

Udqunuram. Ona inanırammı? Doğrudanmı hər şey etimaddan asılıdır? Və məgər etimad qarşılıqlı olmamalıdırmı? Xose zəng etdiyi zaman Kristianın necə hirsləndiyini xatırlayıram.

– Ac deyilsən ki? – məni fikirlərdən ayıraraq Kristian soruşur.

–Yoox… bircə yemək olmasın!‖

– Yox.

– Bu gün yemək yemisən?

Ona baxıram. Lənət şeytana, cavabım xoşuna gəlməyib.

– Yox, – pıçıldayıram.

O, acıqlı halda gözünü qıyır.

– Sən yemək yeməlisən, Anasteyşa. Biz ya burda, ya da mənim otel otağımda şam etməliyik. Seçimin nədir?

– Qələbəlik olan, neytral ərazidə qalmaq istərdim.

Kristian rişxəndlə gülümsəyir.

– Səncə, belə asanlıqla əl çəkəcəm? – o, sakitcə soruşur, onun hissiyyatlı səsi xəbərdaredici səslənir.

Gözlərimi geniş açır və udqunuram.

– Ümid edirəm.

– Gedək, mıən özəl kabinə hazırlatdırmışam. Odur ki, heç bir publika olmayacaq. – O, müəmmalı tərzdə gülümsəyir, kabinədən çıxır və əlini mənə uzadır.

– ġərabını götür, – Kristian xəfifcə deyir.


kitabyurdu.blogspot.com

Onun əlinə dayaqlanaraq kabinədən çıxır və yanaşı dururam. Biləyimi buraxır, qoluma girib bardan keçirir, sonrasa böyük pilləkənlə mansard mərtəbəsinə qalxıram. Otelin xüsusi geyimində olan cavan bir oğlan bizə yaxınlaşır.

– Mister Qrey, bura zəhmət olmasa.

Onun ardınca zövqlü istirahət zonasından özəl kabinəyə yollanırıq. Orda bircə masa var. Otaq kiçik, amma bərbəzəklidir. Parlaq büllur çıraq, nişastalanmış masa dəsti, büllur qədəhlər, gümüş çəngəl-bıçaq və ağ qızılgül dəstəsi. Divarlarına ağacla sarılmış kabinəyə sanki keçmişin nəfəsi çöküb. Ofisiant stulu geri çəkir və mən otururam. O, salfeti dizlərim üstə qoyur. Kristian qabaq-qənşər oturur. Çəkinə-çəkinə ona tərəf baxıram.

– Dodağını dişləmə! – o pıçıldayır.

Üz-gözümü turşuduram. Lənət şeytana! Heç özüm də bunun necə baş verdiyini sezə bilmirəm.

– Mən artıq yeməyi sifariş etmişəm. Əminəm, etiraz etmirsən.

Düzünü desək, sevinirəm, çünki əmin deyiləm ki, indi qərar qəbul edə bilərəm.

– Yox, hər şey qaydasındadır. – Başımı endirməklə təsdiqləyirəm.

–Əla, səni hələ islah etmək olar. Hə, nədə qalmışdıq?

– Söhbətimizin məğzində.

ġərabdan bir qədər də içirəm. Çox ləzizdir. Kristian şərabdan baş çıxarır. Yataqda mənə içirdiyi son şərab damlasını xatırlayır və bezdirici fikirlərdən allanıram.

– Hə, sənin mübahisəli məsələlərin. – O, pencəyinin içəri cibini eşələyir və bir vərəq çıxarır, – məktubun... İki bənd. Razıyam. Bu, ümumi maraqlarımıza uyğundur. İfadə tərzini dəyişirəm.

Xəcalətlə gözlərimi döyürəm. Lənət şeytana, bütün bəndləri bir-bir müzakirə edəcəyik. Kristianla təkbətək qaldıqda tutulur və özümü itirirəm. O elə ciddidir ki! Özüm özümü daha bir qurtum şərabla ruhlandırıram. Kristian davam edir:


kitabyurdu.blogspot.com

– Mənim seksual sağlamlığım. Deməli, bütün əvvəlki qadın tərəfdaşlarım qanın analizini götürüb, mənsə hər yarım ildə xatırlatdığın yoluxucu xəstəliklərə dair yoxlamadan keçirəm. Son testlərin cavabı mənfidir. Heç vaxt narkotik maddələr qəbul etməmişəm. Ümumiyyətlə, narkotik əleyhdarıyam. Öz şirkətimdə istənilən narkotik maddəyə qarşı dözümsüzlük siyasəti yeridir və tələb edirəm ki, əməkdaşlar qaydasız seçimlə narkotestdən keçsinlər.

Paho… onun hər şeyə nəzarət eləmək səyləri dəlilik həddinə çatıb. Heyrətlə gözlərimi döyürəm.

– Mənə heç vaxt qan köçürməyiblər. Cavab təminedicidir?

Sakitcə başımla təsdiqləyirəm.

– Növbəti bəndləri müzakirə eləmişik. Sən münasibətləri istədiyin vaxt qıra bilərsən, Anasteyşa. Qarşını almayacam. Amma getsən, həmişəlik gedəcəksən. Sadəcə bunu bilməlisən.

– Yaxşı, – sakitcə deyirəm. – Getsəm, həmişəlik gedəcəm.

Bu fikir nədənsə məni ağrıdır.

Ofisiant ilk buludu gətirir. İndi necə yeyəsən? Ox, bax a, Kristian buzlu istridyə[1] sifariş verib.

– Yəqin ki, istridyə xoşlayırsan. – Kristianın səsi incədir.

– Heç dadmamışam.

– Doğrudan? – O, istridyə götürür. – Bu, çox asandır, ilbiz qabığının içindəkini sovurur və udursan. Məncə, bunu edə biləcəksən.

Kristian diqqətlə məni süzür: başa düşürəm o, nəyə eyham vurur və qırmızı rəng alıram. O gülümsəyir, istridyəyə limon suyunu çilədir və onu ağzına dürtür.

– M-m-m, ləzzət. Dəniz dadı. – O gülümsəyir və təklif edir, – hə, bir dadına bax görək.

– Deməli, çeynəmək lazım deyil?

---

[1] yeyilən dəniz ilbizi


kitabyurdu.blogspot.com

– Yox, Anasteyşa, ehtiyac yoxdur.

Onun gözlərində şən parıltı var: indi o, çox cavan görünür.

İxtiyarsız olaraq dodağımı dişləyirəm və Kristianın üzündəki ifadə dərhal dəyişir. O, sərt baxışını mənə zilləyir. Boşqabdan həyatımın ilk istridyəsini götürürəm. Di yaxşı, çətin ki alına, amma yoxlayaq … istridyəyə limon suyu çiləyirəm və ehtiyatla sovururam. O, boğaza sürüşür və mən dəniz suyunun duzlu dadını, kəskin sitrus turşuluğunu, molyuskun ətli cismini duyuram … O-o, dadlıdır! Dodağımı yalayıram, Kristian yarıaçıq göz qapaqları arasından məni diqqətlə izləyir.

– Hə, necədir?

– Birini də götürəcəm, – quru cavab verirəm.

– Ağıllı qız, – iftixarla deyir o.

– Axı sən bilərəkdən onu sifariş etmisən, hə? Çünki onlar afrodiziak[1] hesab olunurlar?

– Heç də yox, sadəcə onlar içimə birinci daxil olur. Sən yanımda olarkən mənə ehtiraslandırıcı vasitələr lazım deyil. Bu da sənə məlumdur. Məncə, mənimlə birgə olduqda eyni şeyi sən də hiss edirsən, – o deyir. – hə, söhbətimiz nədə yarımçıq qalmışdı?

Kristian məktubuma baxır, mənsə daha bir istridyə götürürəm. Mən ona təsir edirəm, o da eyni şeyi hiss edir… işə bax a!

– Mənə hər şeydə itaət etmək. Hə, mən tam itaət tələb edirəm. Mənimçün bu zəruridir. Buna bir rol kimi yanaş.

– Amma mən ağrı verəcəyindən qorxuram.

– Nə cür?

– Fiziki.

Həm də ruhi.

---

[1] təbii mənşəli, cinsi cazibəni artıran və aktivləşdirən maddə


kitabyurdu.blogspot.com

– doğrudan belə düşünürsən? Güman edirsən ki, qoyulmuş hədləri keçəcəyəm?

– Özün dedin ki, bir qız xəsarət alıb.

– Hə, lap çoxdan.

– Bu necə baş verib?

– Onu Oyun otağının tavanından asmışdım. Ümumiyyətlə, bu sənin suallarından biriydi. Tavandakı asqılar məhz asmaq üçündür – əl-qolu bağlama oyunları. Kəndirlərdən biri çox möhkəm düyünlənmişdi.

Əlimi qaldırıram – onun susmasını yalvarmaq üçün.

– Xahiş edirəm təfsilatsız. Deməli, məni asmayacaqsan?

– Yox, əgər istəmirsənsə. Asmanı yolverilməz hərəkətlər siyahısına daxil edə bilərsən.

– Yaxşı.

– İtaət məsələsinə gəlincə, necə bilirsən, səndə alınar?

Boz gözlərin baxışı qərarlı və tələbkardır. Saniyələr qaçır.

– Çalışaram, – pıçıldayıram.

– Yaxşı. – O gülümsəyir. – Hə, indi də müddətlər məsələsi. Üç ay əvəzinə bir ay çox azdır, xüsusən ―uik-end‖lərdən birini mənsiz keçirmək istəyini nəzərə aldıqda. Məncə, sənsiz bu qədər uzun müddətə qala bilmərəm. İndisə bu heç mümkün deyil. – O susur.

O mənsiz qala bilmir? Mən düz eşitdim?

– Bəlkə, mənsiz ayda yalnız bir istirahət gününü keçirəsən? Onda mən həftənin ortasında bir gecə tələb edirəm.

– Razıyam.

– Xahiş edirəm, gəl üç aylığa razılaşaq. Əgər qərara gəlsən ki bu sayaq münasibətlər səni qane etmir, istədiyin an çıxıb gedə bilərsən.

– Üç ay? – təkrar soruşuram, dalana dirəndiyimi hiss edirəm.

Bir qədər şərab içir və daha bir istridyə yeyirəm. Yəqin ki, artıq onları bəyənirəm.

– Tam yiyələnməyə gəlincə, bu sadəcə kökünü itaət prinsipindən götürən termindir. O, səni müəyyən düşüncə obrazına çatdırmaq, sənin nə

cür insan olduğunu anlatmaq üçündür. Yadda saxla, mənim köləm olduqda səninlə istədiyimi edəcəyəm. Bunu qəbul etməli olacaqsan, etirazsız. Buna görə də mənə etibar etməlisən. Səni istədiyim vaxt, istənilən yerdə və istədiyim kimi s..əcəm. Səni cəzalandıracam, çünki səhvlər edəcək və qaydaları pozacaqsan. Sənə mənə həzz verməyi öyrədəcəm. Bilirəm, əvvəllər bununla toqquşmamısan, buna görə də biz tədricən buna yetişəcəyik və mən sənə kömək edəcəm. Müxtəlif ssenarilər işləyib yaradacağıq. İstəyirəm ki, mənə etibar edəsən, amma bunu da başa düşürəm ki, əvvəlcə sənin etimadını qazanmalıyam və mən ona layiqəm. İndi də
–mənim istəyimə uyğun digər hərəkətlər‖ barədə: yenə də deyirəm, bu ifadə ona görə istifadə olunur ki, sən müvafiq duruma köklənəsən, istənilən gözlənilməz hala hazır olasan.

O, hərarətli və ehtiraslı danışır, onun sözləri adamı sehrləyir. Deyəsən, bu mübtəlalıqdır... Ondan gözümü çəkə bilmirəm. Kristian həqiqətən bu münasibətləri istəyir. O dayanır və mənə baxır.

– Mənə qulaq asırsan? – isti, dərin, ehtirasla dolu səs ahəngiylə danışır və bir qurtum şərab içir, baxışları ilə ağlımı başımdan alır.

Ofisiant qapıya yaxınlaşır və Kristian yüngül baş hərəkəti ilə ona masanı yığışdırmaq icazəsi verir.

– ġərab istəyirsən?

– Mən maşınımla gəlmişəm.

– Bəlkə su?

Başımla təsdiqləyirəm.

– Qazlı, qazsız?

– Qazlı... zəhmət olmasa.

Ofisiant çıxıb gedir.

– Bu gün susqunsan, – Kristian pıçıldayır.

– Sənsə dilotu yemisən.

O gülümsəyir.

– İndi də cəzalar barədə. Həzzlə ağrı arasında çox nazik hədd var, Anasteyşa. Bir medalın iki üzü... onlar bir-biri olmadan mövcud deyil. Sənə

ağrının necə xoş ola biləcəyini göstərə bilərəm. İndi mənə inanmırsan, amma mən etibardan danışarkən, məhz bunu nəzərdə tuturam. Ağrılı olacaq, amma sən buna tam dözə bilərsən. Və yenə də deyirəm, əsas məsələ etibardır. Mənə etibar edirsən, Ana?

–Ana!‖

– Hə, – düşünmədən deyirəm. Və bu həqiqətdir – doğrudan da, ona etibar edirəm.

– Hə, elə isə, – açıq-aşkar rahatlanaraq deyir o, – yerdə qalan xırda təfərrüatlardır.

– Mühüm xırdalıqlar.

– Yaxşı, gəl onları müzakirə edək.

Başım hərlənir. Eh, gərək Keytdən diktofonu götürəydim, sonrasa sakitcə qulaq asmaq. Düşüncə üçün o qədər informasiya yığılıb! Ofisiant əsas yeməyi gətirir: qara treska, qulançar[1] və holland souslu külləmə kartof. Hiss edirəm ki, tikə boğazımdan aşağı düşmür.

– Əminəm ki, balıq xoşlayırsan, – Kristian asta səslə deyir.

Yeməyi çəngəllə qurcalayır və sudan böyük bir qurtum içirəm. Heyif ki bu, şərab deyil!

– Gəl qaydaları müzakirə edək. Deməli, sən yeməklə bağlı bəndin tam əleyhinəsən?

– Hə.

– Əgər o bənddə yalnız sənin gündə ən azı üç dəfə yemək yemən deyiləcəksə?

– Fərq etmir.

Dünyasında güzəştə getmərəm. Heç kim mənə nə yeyib-yeməyəcəyimi əmr edə bilməz. Necə s..işmək – hə, amma yemək… heç bir halda.

O, dodaqlarını kip sıxır.

---

[1] yaxud "quşqonmaz", "mərəçüyüd" adlanan bitki (*tərc.*)


kitabyurdu.blogspot.com

– Sənin ac olmadığını bilməliyəm.

Üzümü turşuduram. Bu nəyə görə?

– Bəs etibar məsələsi?

Hansısa müddət Kristian məni baxışları ilə deşir, sonra yumşalır.

– Haqlısınız, miss Stil, – sakitcə deyir o. – Yemək və yuxu məsələsində sizinlə razılaşıram.

– Niyə gözlərinin içinə baxmaq olmaz?

– Dominantlar və sabmissivlər arasında belə qəbul olunub. Alışarsan.

Alışarammı?

– Niyə sənə toxunmaq mənə qadağan edilib?

– Ona görə.

Onun dodaqları inadkar xətdə birləşir.

– Bu, missis Robinsona görədir?

Kristian sual dolu baxışlarla mənə baxır.

– Bu hardan ağlına gəldi? – o soruşur və dərhal ağlına batır. – fikirləşirsən ki, məni zədələyib?

Başımla təsdiqləyirəm.

– Yox, Anasteyşa, iş o qadında deyil. Bundan savayı, o, şıltaqlıqlara dözmürdü.

Hə, amma mən tam əksinə … İncimiş kimi dodaqlarımı şişirirəm.

– Deməli, onun bu məsələyə dəxli yoxdur?

– Hə. Mən istəmirəm ki, sən özünə də toxunasan.

Nə? Hə, özünə həzz vermə bəndi.

– Sadəcə maraq xətrinə soruşuram, niyə?

– İstəyirəm ki, sən həzzi ancaq məndən alasan.

Ox… Bilmirəm ona nə deyim. Bir tərəfdən, bu elə ―Mən o dodağı dişləmək istəyirəm‖ kimi bir şeydir, digər tərəfdən, xudpəsəndlik! Qaşqabağımı tökürəm bir tikə balığı ağzıma ötürür, fikrən öz uğurlarımı hesablayıram. Yemək, yuxu, onun gözlərinə baxa bilərəm. O, tələsmədən

hərəkət edəcək və biz yolverilən hədləri nəzərdən keçirirdik. Əmin deyiləm ki, onları yemək vaxtı müzakirə edə bilərəm.

– düşünmək üçün informasiya çoxdur, hə?

– Hə.

– İstəyirsənsə, yolverilən hədlərdən danışaq.

– Amma şam yeməyində yox.

O gülümsəyir.

– Ürəyinə yatmır?

– Buna oxşar bir şey.

– Demək olar ki, heç nə yeməmisən.

– Bəsimdir.

– Üç istridyə, dörd tikə balıq və bir saplaq qulançar. Nə kartof, nə qoz, nə zeytun və bütün günü ac-yalavac. Və hesab edirsən ki, sənə etibar etmək olar.

Lənət şeytana! O nədi, nə qədər yediyimi hesablayır?

– Kristian, zəhmət olmasa... mən bu sayaq mövzuları müzakirə etməyə alışmamışam.

– Anasteyşa, sən mənə sağlam və möhkəm lazımsan.

– Bilirəm.

– Və mən elə bu an əynindəki paltarı cırıb çıxarmaq istəyirəm.

Udqunuram; Keytin əynimdəki paltarını cırmaq... İçimin dərinliklərində tanış ağırlığı duyuram. Varlığını bildiyim əzələlər Kristianın sözlərindən yığılır. Amma yumşalmaq olmaz. O, yenə də mənə qarşı özünün ən qüdrətli silahından istifadə edir – seks. Seksdə onun əvəzsiz olması isə hətta mənə də aydındır.

– Heç də yaxşı fikir deyil, – asta səslə deyirəm. – Bəs desert necə olsun?

– Desert istəyirsən? – Kristian fınxırır.

– Hə.

– Sən özün desert ola bilərsən, – o təklif edir.

– Qorxuram o qədər də şirin olmayım.



kitabyurdu.blogspot.com

- Anasteyşa, sən çoox şirinsən, bunu məndən yaxşı bilən yoxdur.

- Kristian, sən seksdən silah kimi istifadə edirsən. Bu düzgün deyil, – pıçıldayır və baxışlarımı əllərimə endirirəm, sonrasa düz gözlərinin içinə baxıram.

O, təəccüblə qaşlarını qaldırır, görürəm ki, sözlərim onu qayğılandırıb. Düşüncəli halda çənəsini sığallayır.

- Doğrudan da, seksdən silah kimi istifadə edirəm. Bildiyini təcrübədə sınaqdan keçirə bilərsən, Anasteyşa. Amma yenə də olsun, səni istəyirəm. İndi və bu dəqiqə.

Görəsən, yalnız səsiylə o, məni necə yoldan çıxara bilir? Artıq ağır-ağır nəfəs alıram: coşmuş qan damarlarımla axır, əsəblərim son həddədir.

- Mən bəzi şeyləri dadmaq istərdim, – Kristian nəfəsini buraxır.

Üzümü turşuduram. Əvvəlcə məndə ehtiras oyadır, indi də öz istədiyini qabağa verir.

- Əgər mənim kənizim olsaydın, bu haqda düşünməzdin. Hər şey çox sadə olardı. – O, asta və ehtiraslı danışır. – Sən ancaq qərar qəbul etməli olmayacaqdın, heç bir sual da qalmazdı: düzmü hərəkət edirəm, ya yox; bu, burada baş verəcəkmi; bu, indi olacaqmı? Sən heç nədən narahat olmazdın, hər şey mən həll edərdim, sənin sahibin. Əminəm, Anasteyşa, sən də məni istəyirsən.

Üzümü daha çox turşuduram. O hardan bilir?

- Bilirəm, çünki …

Hə, işə düşdük, o özü ağlımdan keçirdiyim suala cavab verir. Bəlkə o, fikirləri oxuya bilir?

- Bədənin səni ələ verir. Ombalarını sıxdın, qızardın və tənəffüsün dəyişdi.

Ah, yetər, bəsdi!

- Ombaları hardan bildin?

Səsim quyunun dibindən çıxır və onda inamsızlıq duyulur. Müqəddəslərə and olsun ki, ombalarım masanın altındadır!


kitabyurdu.blogspot.com

– Süfrənin necə dalğalandığını duydum; ümumən bu gümandır, çoxillik təcrübəyə əsaslanır. Axı mən haqlıyam, hə?

Qızarıram və aşağı, əllərimə baxıram. Bu şəhvət oyununda yalnız o bilir və başa düşür qaydaları və bu, mənə mane olur. Mən çox sadəlövh və təcrübəsizəm. Yeganə məsləhətçim – Keytdir, o, kişilərlə çənə döymür. Digər mənbələr uydurmadır: Elizabet Bennet, yəqin ki, hiddətlənərdi, Cen Eyr qorxardı, Tess[1] isə şəhvətə uyardı, lap mənim kimi.

– Sən balığı yeyib bitirmədin.

– Soyuq balıq yerinə məni istərdin?

Kəskin hərəkətlə başımı qaldırıram ki, Kristiana baxa bilim; onun gözləri ərimiş gümüş kimi ehtirasdan alışıb-yanır.

– Elə bilirdim ki, boşqabdakı yeməyi sonadək yeyib bitirməm xoşuna gəlir.

– Miss Stil, indi bu, məni narahat eləmir.

– Kristian, sən qaydaları pozursan.

– Hə, həmişə olduğu kimi.

Daxili ilahəm qaş-qabağını tökür. –Başla, sən bacararsan! – deyə o, məni dilə tutur. – Bu seks ilahəsini onun oyununda məğlub et‖. Bacararammı? Yaxşı, sınayaq. Nə etməli? Təcrübəsizliyim ağır yük kimi boynumdan asılıb. Bir saplaq qulançar götürərək Kristiana baxır və dodağımı dişləyirəm. Sonra çox ləng hərəkətlə saplağın ucunu ağzıma qoyur və sovurmağa başlayıram.

Kristianın göz bəbəkləri azca genişlənir, amma mən hər şeyi görürəm.

– Anasteyşa, nə edirsən?

Tikədən bir dişləm vururam.

– Qulançar yeyirəm.

Kristian stulda qurcalanır.

---

[1] klassik ingilis ədəbiyyatının qadın qəhrəmanları (*tərc.*)


kitabyurdu.blogspot.com

– Fikrimcə, mənimlə oynayırsınız, miss Stil.

Üzümə mələk siması verirəm:

– Mən, sadəcə şam yeməyini tamamlayıram, mister Qrey.

Ən uyğunsuz anda ofisiant qapını döyür və icazə almadan içəri girir. O, öncə qaş-qabağını tökmüş Kristiana nəzər yetirir, sonuncu başını azca tərpətməklə boşqabların götürülməsinə izn verir. Ofisiantın peyda olması sehri batil edir və aydın düşüncəm yerinə qayıdır. Getmək vaxtıdır. Görüşümüz çox müəmmalı bitəcək – əgər qalsam – bu cür ciddi söhbətdən sonrasa mənə şəxsi fəza gərəkdir. Bədənim toxunuş təşnəsindədir, amma zəkam üsyan edir. Fikirləşənə qədər Kristiandan uzaq durmaq gərəkdir. Mən hələ qərar verməmişəm, onun seksual cazibəsi və təcrübəsi isə yalnız mane olur.

– Desert istəyirsən? – o – əsl centlmen soruşur, amma gözlərində hələ də şölələr oynaşır.

– Yox, sağ ol. Məncə, getmək vaxtıdır. – Əllərimə baxıram.

– Vaxtdır? – O, heyrətini gizlətmək gücündə deyil.

– Hə.

Ofisiant tələsik yox olur.

Düzgün qərardır. Onunla bu otaqda təklikdə qalsam, məni o ki var s..əcək. qərarlı şəkildə ayağa qalxır və deyirəm:

– Sabah hər ikimiz üçün buraxılış mərasimi var.

Kristian ixtiyarsız qalxır, kök salmış nəzakət qaydaları özünü büruzə verir.

– Sənin getməyini istəmirəm.

– Xahiş edirəm… Mən getməliyəm.

– Niyə?

– Çünki çox şey barədə düşünüb-daşınmalıyam … Və bunu səndən uzaqda etməm yaxşı olar.

– Səni saxlaya bilərəm, – Kristian təhdid edir.

– Əlbəttə, amma mən bunu istəmirəm.

O, saçlarını qarışdırır və şüa saçan baxışlarla mənə baxır.


kitabyurdu.blogspot.com

– Bilirsənmi, müsahibə üçün mənim kabinetimə girib yerə sərələndiyin vaxt sən elə ehtiram gözləyən və sözə baxan idin ki, düşündüm ki, sən təbiətən kənizsən. Amma, sözün düzü, Anasteyşa, əmin deyiləm ki, sənin füsunkar bədənində kölə damarı var.

Kristian boğuq səslə danışır və asta-asta mənə yaxınlaşır.

– Ola bilsin ki, sən haqlısan, – nəfəsimi buraxıram.

– Mənə bunu yoxlamaq şansı ver, – o pıçıldayır, düz gözlərimin içinə baxır, sonra incə tərzdə üzümə baxır, böyük barmağını alt dodağımda gəzdirir. – Mən başqa cür bacarmıram, Anasteyşa. Mən olduğum kimiyəm.

– Bilirəm.

O, məni öpmək üçün əyilir, amma dodaqlarıma toxunmadan donub-qalır, acgözlüklə baxışlarımı arayır, sanki icazə istəyir. Onun dodaqlarına doğru can atıram, məni öpür. Bilmirəm, dodaqlarımı nə vaxtsa bir daha öpəcəkmi və ona görə də fikirləşməkdən vaz keçirəm, əllərim öz-özünə onun saçlarına sarı uzanır, onu mənə yaxınlaşdırır. Ağzımı açıram, dilimlə dilini tumarlayıram. Kristianın ovcunu boynumda hiss edirəm, o, öpüşü dərinləşdirir, çağırışa hay verirəm. Onun digər əli belimdə sürüşür və yanlarıma çatdıqda hərəkətini dayandırır, məni öz bədəninə sıxır.

– Səni qalmağa inandıra bilərəmmi? – deyə öpüşlərarası pıçıldayır.

– Yox.

– Bəs mənimlə gecəni keçirmək necə?

– Və sənə toxunmamaq? Yox.

O inləyir.

– Sən dözülməzsən. – O, kənara çəkilir və mənə baxır. – Niyə mənə elə gəlir ki, sən vidalaşırsan?

– Çünki indi gedirəm.

– Mən bunu nəzərdə tutmurdum... özün başa düşürsən.

– Kristian, mən fikirləşməliyəm. Əmin deyiləm ki, məni sənin istədiyin münasibətlər qane edəcək.

O, gözlərini qapadır və alnını alnıma dayayır, hər ikimizə nəfəsimizi dərmək imkanı verir. Bir an sonra məni öpür, dərindən nəfəsini buraxır, burnunu saçlarının arasında gəzdirir, sonra məni buraxır və geri çəkilir.

– Necə istəyirsiniz, miss Stil, – deyir təmkinli simasıyla. – Sizi ötürərəm.

Kristian əlini mənə uzadır. Mən çantamı götürməkçün əyilir, sonra əlimi onun ovucuna qoyuram. Lənət şeytana, hər şey beləcə də olardı. Müticəsinə nəhəng pilləkənlə onun ardınca, otelin vestibülünə gedirəm və hiss edirəm ki, başımın dərisi sanki iynəylə deşilir, gicgahlarda qan təbil kimi döyünür. İmtina eləsəm, bu, sonuncu görüşümüz olacaq. Ürəyim ağrılı sıxılır. Qəfil dönüş. Həqiqət anı qız başına nə oyun gətirə bilərmiş.

– Sənin parklama talonun varmı?

Onu çantadan çıxarıb Kristiana verirəm, o da talonu qapıçıya ötürür. Biz dayanıb gözləyincə ürkək-ürkək Kristiana baxıram.

– ġam yeməyi üçün sağ ol, – donquldanıram.

– Minnətdarlıq etməyə dəyməz, miss Stil, – o, nəzakətlə, amma yayğın cavab verir, amma düşüncələrdən ayrılmır.

Ona baxır, gözəl profilini yadımda saxlayıram. Bir daha görüşməyəcəyimiz ehtimalı barədə zəhlə tökən fikir ağrılı və xoşagəlməzdir və mən əlacsız şəkildə onu qovmağa çalışıram. Kristian qəfildən çevrilir və diqqətlə mənə baxır.

– Həftənin sonunda Sietlə köçürsən. Düzgün qərar qəbul etsən, bazar günü görüşürük? – Səsi qətiyyətsiz səslənir.

– Baxarıq. Ola bilsin, – pıçıldayıram.

Onun siması anidən işıqlanır, amma yenə qaş-qabaq tökür:

– Hava soyudu, jaketi özünlə götürmüsən?

– Yox.

Kristian başını yelləyir və pencəyini çıxarır.

– Götür. Soyuqlanmanı istəmirəm.

O pencəyi tutub... sakitcə gözlərimi döyürəm... əllərimi arxama qoyur və öz ofisində gödəkcəni necə çiynimə keçirdiyini xatırlayıram – ilk

görüşümüz! – və o vaxtkı duyğularım. Heç nə dəyişməyib, sözün düzü, indi onun varlığı mənə daha güclü təsir edir. Pencək istidir, əynimə çox böyükdür və ondan Kristianın qoxusu gəlir. M-m-m… füsunkar ətir.

Maşınımı ayağıma gətirirlər və Kristianın çənəsi sallanır.

- Sən bunu sürürsən?

O, açıq-aşkar təsirlənib. Əlimi tutaraq məni oteldən çıxarıb. Maşını gətirən oğlan avtomobildən çıxır və açarı mənə verir, Kristian naqolay hərəkətlə ona bəxşiş verir.

- Heç olmasa, saz vəziyyətdədir? – O, acıqlı halda mənə baxır.

- Hə.

- Sietlə gedib çıxar?

- Əlbəttə.

- Sağ-salamat?

- Hə! – mırıldayıram. – Razıyam, çox köhnədir, amma bu, mənim maşınımdır və saz vəziyyətdədir. Onu mənimçün atalığım alıb.

- Ooo... Anasteyşa, biz bundan yaxşısını taparıq.

- Nəyi nəzərdə tutursan? – Qəfildən ağlıma gəlir. – Sən mənə maşın almazsan.

Çənəsini sıxaraq, o, qəzəblə mənə baxır və qısa bir kəlmə deyir:

- Baxarıq.

Üzünə əcaib sima verərək Kristian sürücü qapısını açır və mənə maşına girməkdə kömək edir. Ayaqqabılarımı və pəncərə şüşəsini endirirəm. Kristian qaralmış gözlərini məndən çəkmir, üzündə təmkinli ifadə var.

- Ehtiyatlı sür, – sakitcə nəsihət edir.

- Xudahafiz, Kristian, – boğuq göz yaşlarına bənzər, xırıltılı səslə deyirəm.

Yox, ağlamayacam. Zəif təbəssüm... və çıxıb gedirəm.

Ürəyim qısılır, gözlərimdən yaş gəlir və hıçqırıqdan boğuluram. Az sonra göz yaşlarım sel kimi axır və özüm də niyə ağladığımı anlamıram. Öz mövqelərimi müdafiə edirdim. Kristiansa hər şeyi dəqiqliklə izah elədi və


kitabyurdu.blogspot.com

yetərincə aydın danışdı. O, məni istəyir, amma həqiqət budur ki, mənə daha çox şey gərəkdir. İstəyirəm ki, mən ona ehtiyalı olduğum qədər o da mənə ehtiyaclı olsun, lakin qəlbimin dərinliklərində anlayıram ki, bu mümkün deyil. Özümü tam itirmişəm.

Hətta bilmirəm onu hansı dərəcəyə aid edim. Əgər razılaşsam… mənim aşiqim sayılacaqmı? Onu dostlarımla tanış edə biləcəyəmmi? Onunla bara, kinoya, boulinqə gedə biləcəyəmmi? Sözün düzü, çətin ki. O, özünə toxunmağa və birgə yatmağa izn verməyəcək. Bilirəm, keçmişdə buna bənzər heç nə yaşamamışam, amma istəyirəm ki, gələcəkdə bütün bunlar olsun. Kristiansa gələcəyi tam başqa cür görür.

Tutalım ―həǁ dedim, üç ay sonrasa Kristian dedi ki, vəssalam, bəsdir, məni ixlas etmək cəhdlərindən yorulub. Onda halım necə olacaq? Tam üç ay ruhi sarsıntı və çətin ki, onun mənlə etdikləri xoşuma gəlsin. Və əgər sonra münasibətlərimizi kəsmək qərarına gəlsə, imtinanı necə unudacam? Bəlkə elə indi geri çəkilim, özünəhörmətin qalıqlarını qoruyub saxlayım?

Təkcə onu bir daha görə bilməyəcəyim haqda fikrin özü mənə dözülməz əzab verir. O, nə vaxt qəlbimə bu qədər dərin girə bilib? Axı bu yalnız seksə görə deyil, hə? Göz yaşlarımı silirəm. Kristiana olan hisslərimi təhlil etmək istəmirəm: üzə çıxacaq şeydən qorxuram. İndi nə etməli?

Evimizin yanında maşını saxlayıram. Heç yerdə işıq yanmır. Güman ki, Keyt harasa gedib. ġadam... İstəmirəm ki, necə ağladığımı görsün. Paltarımı soyunur, lənətə gəlmiş noutbuku işə salıram və görürəm ki, mənə Kristiandan elektron məlumat gəlib.

Kimdən: Kristian Qrey
Mövzu: Bugünkü axşam
Tarix: 25.05.2011, 22:01
Kimə: Anasteyşa Stil

Anlamıram, niyə qaçdın. Səmimi şəkildə inanıram ki, suallarına qaneedici cavablar verdim. Bilirəm ki, burda düşünülməli şeylər var, amma

çox istəyirəm ki, təklifimi bütün ciddiyyətilə nəzərdən keçirəsən. Əminəm ki, bizdə hər şey alınacaq. Biz tədricən hərəkət edəcəyik.

Mənə etibar et.

Kristian Qrey,

–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Onun məktubundan daha möhkəm ağlayıram. Mən – Kristianın birləşmək və aktivləri üzərində nəzarəti əldə etmək istədiyi şirkət deyiləm. Osa, e-mailinin məzmununa əsasən mənə məhz bu cür yanaşır. Cavab yazmıram. Sadəcə bilmirəm, ona nə yazım. Pijamanı əynimə keçirirəm, onun pencəyinə bürünür və yatağa girirəm. Uzanmışam, gözümü zülmətə zilləyərək və Kristianın ondan uzaq durmam haqqında xəbərdarlıqlarını xatırlayıram.

–Anasteyşa, məndən uzaq dur. Mən sənə lazım olan kişi deyiləm‖.

–Mən qızlarla romantik münasibətlər qurmuram‖.

–Gül-çiçək və yaralı ürəklər mənlik deyil‖.

–Mən sevişmirəm‖. –Bu, bildiyim şeylərdir‖.

Mən susqun halda balışıma göz yaşlarını axıdıram və qəfildən beynim sonuncu cümlədən yapışır. Mən də heç nə bilmirəm. Ola bilsin ki, birlikdə yeni yol aça bilərik.

## 14-cü fəsil

Kristianın əynində ancaq bozarmış və yırtıq cins şalvar var, başım üzərində dayanıb, hörmə dəri qamçını əlində sıxır. O mənə baxır, qamçını ovucuna azca döyəcləyir və zəfərlə gülümsəyir. Hərəkət edə bilmirəm. Uzanmışam... çılpaq, iri çarpayıda, əllərim və ayaqlarım dirəklərə möhkəm bağlanıb. Kristian əyilir və yavaş-yavaş qamçının başlığını alnım, burnumda (bahalı, yaxşıca aşılanmış dəri iyi gəlir) və açıq qalmış ağır tənəffüsün çölə çıxdığı dodaqlarımda gəzdirir. O, qamçını ağzıma soxur və mən onun dadını duyuram.

- Sovur! – asta səslə əmr edir.

Dodaqlarımı başlıq ətrafında yığır və əmrə itaət edirəm.

- Bəsdir!

Ağır-ağır nəfəs alıram. Kristian qamçını ağzımdan çıxararaq çənəmə, boynuma və körpücük sümükləri arasındakı çökəyə yaxınlaşdırır. Qamçını asta-asta hərəkət elətdirir və başlığını bədənimə, döşlərim arasına, sonra aşağı, göbəyimə doğru sürüşdürür. Ağzımla havanı qapıram, üzülürəm, ipləri dartıram, onlar biləklərimə, topuğuma nüfuz edir. Dəri başlıq göbəyim ətrafında dövrə cızır, aşağı enir və qasıqdakı tüklər arasından klitora yetişir. Kristian qamçını havaya qaldırır, kəskin zərbə bədənimin şirin-şəkər yerini yandırır və mən rahatlanma çığırtısıyla tam qurtarıram.

Qəfildən yuxudan oyanıram, havam çatmır, tərdən nəmlənmiş bədənimi orqazmdan titrəmə tutub. Lənət şeytana! Özümü itirmişəm və xəcalət çəkirəm. İndi nə baş verib? Otaqda tək-tənhayam. Necə? Niyə? Sarsılmış halda yataqda otururam… oy. Artıq səhərdir. Saata baxıram – səkkiz. Başımı əllərimə doğru endirirəm. Heç bilmirdim ki, seksi yuxuda görə bilərəm. Yəqin, mənə nəsə olub. Ola bilsin ki, istridyə və internetdəki son axtarışlar həyatımda ilk erotik yuxunu doğurub. Ağlagəlməzdir... Heç düşünməzdim ki, mürgüləyərkən orqazm hiss edə bilərəm.

Mətbəxə gedirəm, Keyt artıq orda iş görür.

– Ana, hər şey qaydasındadır? Nəsə qəribə görünürsən. Əynindəki nədir, Kristianın pencəyi?

– Hər şey qaydasındadır.

Lənət, güzgüyə baxmaq lazım idi. Yaşıl gözlərin diqqətli baxışlarından yayınıram. Səhərki hadisədən sonra hələ özümə gəlməmişəm, amma sözümə davam edirəm:

– Hə, bu onun pencəyidir.

Keyt üzünü turşudur.

– Yatmışdın?

– Pis.

Çaydanı ocağa qoyuram. Çay içmək lazımdır.

– ġam yeməyi necə keçdi?

Hə, başladı.

– Biz istridyə yeyirdik, sonra qara treska. Bir sözlə, dəniz məhsulları.

– Fu… istridyədən iyrənirəm, mən yeməyi soruşmuram. Kristian necədir? Nə haqda danışdınız?

– Çox nəzakətli idi, – deyib susuram.

Keytə nə deyim? Deyim ki, Kristian QİÇS-daşıyıcı deyil baş rol oyunlarına maraq göstərir, istəyir ki, hər şeydə ona itaət edim, yatağın üzərindəki tavandan asarkən o, hansısa qadını şikəst edib və özəl kabinədə şam yeməyi yeyərkən az qala məni s..əcəkdi? Çətin ki bu, yaxşı rezüme

olsun. Cidd-cəhdlə Keytə danışa biləcəyim hər hansı detalı xatırlamağa çalışıram.

– Vanda onun xoşuna gəlmir.

– O, kimin xoşuna gəlir ki, Ana? Guya təzə xəbərdi. Xeyir ola belə, qapalı olmusan? Hə, rəfiqə, danış görək!

– Ah, Keyt, onunla daha nədən danışmadıq! Bilirsən, o, yemək məsələsində elə vasvasıdır ki… Hə, söz düşmüşkən, paltarın onun çox xoşuna gəldi. – Çaydan qaynadı və mən özümə çay dəmləyirəm. – İçəcəksən? İstəyirsən, bugünkü nitqini dinləyim?

– Hə, zəhmət olmasa. Dünən onun üzərində bütün axşamı işləmişəm. İndi gətirərəm. Hə, çay da istəyirəm, – Keyt deyir və mətbəxdən qaçaraq çıxır.

Ha-ha, Ketrin Kavana azdırılıb! Beyqlı doğrayır və tosterə dürtürəm. Səhərki yuxunu xatırlayıram və üzüm allanır. Hər şey sanki gerçəkdə baş verirdi. Bu nə məna verir?

Ötən gecə güclə mürgülədim. Başım fikir çəkməkdən partlayırdı. Özümü itirmişəm. Kristianın məni cəlb eləmək istədiyi münasibətlər, daha çox, iş təklifinə bənzəyir. Müəyyən edilmiş zaman, vəzifə öhdəlikləri və əmək mübahisələrinin yetərincə sərt həll qaydası. İlk məhəbbətimi mən heç belə təsəvvür etməmişdim. Hərgah əlbəttə, Kristianı romantika özünə çəkmir. Əgər desəm ki mənə bundan da artığı gərəkdir, o, məndən imtina edər… və onda mən hətta təklif etdiyini də ala bilməyəcəyəm. Bu, məni qayğılandırır, çünki onu itirmək istəmirəm. Əmin deyiləm ki, onun köləsi olmağa cəsarətim çatsın. Sözün düzü, mən qamçı və şallaqdan qorxuram. Mən qorxaq dovşanam və hər şeyi edərəm, təki fiziki ağrıdan qurtulum. Yuxumu xatırlayıram… doğrudanmı hər şey müqavilədəki kimi olacaq? Daxili ilahəm atılıb-düşür, çirlinder pomponları yelləyir və ―hə‖ qışqırır.

Keyt öz noutbuku ilə qayıdır. Mən diqqətimi tostlara cəmləmişəm və səbrlə onun buraxılış mərasimi üçün hazırladığı nitqə qulaq asıram.

Artıq geyinmişəm və evdən çıxmağa hazıram. Rey məhz bu vaxt gəlib çıxır. Qapını açıram və budur o, pis biçilmiş kostyumla artırmada

durub. Qəlbim bu sadə adama minnətdarlıq və sevgi hissi ilə dolur, boynuna sarılıram, hərgah, adətən, öz duyğularımı heç vaxt bu cür izhar etməmişəm. Rey özünü itirib və xəcalət çəkir.

– Ey, Ana, səni görməyə mən də şadam! – donquldanır və məni qucaqlayır. Sonra məndən aralanır və üzünü turşudaraq əlini çiynimə atır diqqətlə üzümə baxır. – Balaca, hər şey yaxşıdır?

– Əlbəttə, ata! Məgər qız öz qocasını görməyə sevinə bilməz?

O gülümsəyir, buna görə qara gözlərinin kənarlarında qırışlar peyda olur və o, mənimlə qonaq otağına gedir.

– Əla görünürsən!

– Bu, Keytin paltarıdır, – boyun qayışından boz şifon libasa baxıram.

Rey üzünü turşudur.

– Bəs Keyt hardadır?

– Kampusa getdi. Bu gün nitq söyləməlidir, odur ki, tezdən çıxıb.

– Bəs bizim getmək vaxtımız deyil?

– Ata, hələ yarım saatımız var. Çay istəyirsən? Danış görək Montesanoda nə yenilik var. Səfər necə keçdi?

Rey maşını universitet dayanacağında saxlayır və biz idman zalına yollanırıq: insan axınının ardınca gedirik, qələbəlikdə çoxsaylı qara və qırmızı mantiyalar görünür.

– Uğurlar, Ana. Deyəsən, çox həyəcanlısan. Sən də çıxış eləməlisən?

Lənət! Niyə Rey qədərindən artıq müşahidəçilik üçün məhz bu günü seçib?

– Yox, ata. Sadəcə, çox mühüm bir gündür.

–Və mən Kristianı görürəm‖, – deyə fikrən əlavə edirəm.

– Hə, balacam bu gün diplom alır. Səninlə fəxr edirəm, Ana.

– E-e… sağ ol, Rey.

Bu insanı sevirəm.

İdman zalında iynə atmağa yer yoxdur. Rey tamaşaçı tribunasına doğru gedir, orda qohumlar və dostlar oturub, mənsə özümə yer axtarıram. Əynimdə qara mantiya və dördkünc papaq var, onların müdafiəsində özümü


kitabyurdu.blogspot.com

tanınmaz hiss edirəm. Səhnədə hələ heç kim yoxdur, amma heç cür sakitləşə bilmirəm. Ürəyim quduz atışla döyünür, tənəffüsüm qaydasında deyil. Kristian hardasa buralardadır. Kim bilir, bəlkə də indi Keyt onunla danışır, sorğu-sual edir. Soyadı ―S‖ hərfiylə başlayan digər tələbələr arasındakı yerimi tuturam. İkinci sırada oturmuşam; bu, məni daha da görünməz edir. Ətrafıma boylanır və tribunanın yuxarısında Reyi görürəm. O, utancaq halda gah əl yelləyir, gah da mənə cavab göndərir. Oturub gözləyirəm.

Zal çox tez dolur, coşqulu səslərin uğultusu daha da, bir daha güclənir. Qarşımdakı sırada artıq boş yer qalmayıb. Başqa fakültədən olan iki tanımadığım qız yanımdakı stullarda otururlar. Aydın şəkildə görünür ki, onlar rəfiqədirlər və yanımdan bir-birinə boylanaraq söhbət edirlər.

Düz saat on birdə səhnənin arxasından üç prorektorun müşayiətilə rektor ortaya çıxır, onun ardınca isə yaşlı müəllimlər – hamı qara və çəhrayı rəngli akademik libaslardadır. Yerimizdən qalxırıq, pedaqoji heyəti alqışlarla salamlayırıq. Bəzi müəllimlər başlarıyla bizi salamlayır, yaxud əl yelləyirlər, digərləri deyəsən darıxırlar. Professor Kollinz – elmi rəhbərim və ən sevimli müəllimim həmişəki kimi təsir bağışlayır: sanki indicə yataqdan qalxıb. Ən sonda səhnəyə Keyt və Kristian çıxır. Kristian sifarişlə tikilmiş boz kostyum geyinib və parlaq işıqda saçları mis çalarlı parıltı verir. O, başqalarından çox seçilir. Ciddi və özünə hakim görünüşlə o, öz yerində oturur, biryanlı pencəyinin düyməsini açır və mən onun qalstukunu sezirəm. Lənət şeytana… bu, həmin qalstukdur! İxtiyarsız olaraq biləklərimi ovuram. Gözlərimi Kristiandan çəkə bilmirəm: onun gözəlliyi həmişəki kimi məni həyəcanlandırır və o, bu qalstuku yüzəyüz məqsədli boynuna bağlayıb. Dodaqların nazik xətdə necə birləşdiyini duyuram. Tamaşaçılar oturur və alqışlar sönür.

– Sən bir buna bax! – yanımdakı qızlardan biri rəfiqəsinə müraciətlə heyranlıqla köks ötürür.

– O elə seksualdır ki!..

Duruxuram. Çətin ki, o bunu professor Kollinz haqda desin.

– Bu, yəqin ki, Kristian Qreydir.

– O subaydır?

Artıq səbrim tükənir.

– Məncə, yox, – donquldanıram.

– Oy! – hər iki qız heyrətlə mənə baxır.

– Məncə, o geydir, – sözü güclə çölə çıxarıram.

– Heyif! – qızlardan biri ah çəkir.

Rektor yerindən qalxıb mərasimi açana qədər Kristianın zala necə göz gəzdirdiyinə tamaşa edirəm. Oturduğum stulda özümü sıxıram və mümkün qədər gözə görünməmək üçün özümü büzüşdürürəm. Mənasız – bir saniyə sonra boz gözlər mənimlə üzləşir. Kristian təmkinli halda mənə baxır, üzündə dəlinməz ifadə var. naqolay şəkildə yerimdə qurcalanıram, onun baxışlarından hipnoz edilmişəm və tədricən necə allandığımı hiss edirəm. İxtiyarsız olaraq səhərki yuxunu xatırlayıram və qarnımın əzələləri xoş ovqatla yığılır. Kəskin şəkildə nəfəsimi içəri çəkirəm. Kristianın dodaqlarında yüngül təbəssüm oynayır. Bir anlığa gözlərini qapadır, sonra sifəti təmkinli ifadə alır. Rektora gözucu baxaraq Kristian qarşısındakı mənzərəni seyr edir, girişdə, üstdəki universitetin embleminə baxır. Onun baxışları daha mənə sarı yönəlmir. Rektor hey danışır, Kristiansa əvvəlki kimi mənə doğru boylanmır, gözünü düz irəli zilləyərək oturub.

O, niyə mənə tərəf baxmır? Bəlkə fikrini dəyişib? Özümü pis hiss edirəm. Yəqin, dünən axşamkı qaçışım onun səbrinin son damlası olub. Mən qərar qəbul edənə qədər o, gözləməkdən yorulub. Ah, yox, deyəsən, hər şeyi korlamışam. Sonuncu e-maylını xatırlayıram. Ola bilsin ki, cavab vermədiyim üçün mənə acıqlıdır.

Qəfildən zal alqışlardan partlayır və söz Ketrin Kavanaya verilir. Rektor oturur, Keyt isə uzun saçlarını çiyinlərinin arxasına ataraq nitqinin yazıldığı vərəqləri qarşısına qoyur. O tələsmir, gözlərini ona zilləmiş min nəfərlik tamaşaçı kütləsi onu utandırmır. Hazırlığı tamamlayaraq Keyt gülümsəyir, sehrlənmiş kütləyə baxır və danışmağa başlayır. O, elə özünəarxayın və hazırcavabdır ki, yanımda oturmuş qızlar elə ilk zarafat kəlməsindən şövqlə gülümsəyirlər. –Ah, Ketrin Kavana, sən diqqəti necə

cəlb eləməyi bilirsən!‖ Onunla fəxr edirəm və hətta Kristian haqda fikirlər belə ikinci plana keçir. Bu nitqi artıq eşitmişəm, amma yenə də hər kəlməyə qulaq kəsdirirəm. Keyt auditoriyanı ələ alıb və onu ardınca aparır.

Nİtq kollecdən sonrakı aqibətimizə həsr edilib. Məhz nə? Kristian Keytə baxır, azca qaşlarını qaldırıb. Məncə o heyrətlənib. Hə, ola bilərdi ki, Kristiandan müsahibəni Keyt götürsün. Və o, Keytə ədəbsiz təklif edərdi. Füsunkar Keyt və yaraşıqlı Kristian bir yerdə... Mən uzaqdan-uzağa onlardan heyranlıq duyardım, lap yanımda oturmuş bu iki qız kimi. Yüzəyüz Keyt onu təhdid etməzdi. O, bu yaxınlarda Kristianı necə adlandırdı? Dözülməz. Kristianla Keyt arasında konfrontasiya fikrindən halım pisləşir. Sözün düzü, heç bilmirəm kimin tərəfində olardım.

Keyt çıxışını effektli bitirir və zalda razılıq dolu alqış fırtınası qopur, hamı ayağa qalxır. Keytin ilk gurultulu alqışları... Mən ona baxıb gülümsəyir və nəsə donquldanıram. Afərin, Keyt! O oturur, tamaşaçılar da... rektorsa yerindən qalxır və Kristianı təqdim edir. Lənət, Kristian nitq söyləyəcək! Rektor qısa şəkildə onun uğurlarını sadalayır: fövqəladə uğurlara imza atmış şəxsi şirkətin baş direktoru, öz səyləri ilə yüksəlmiş insan.

– …habelə universitetimizin əsas xeyriyyəçisi mister Kristian Qreyi salamlayırıq!

Rektor Kristianın əlini silkələyir, zaldasa nəzakətli alqışlar səslənir. Ürəyim boğazıma doğru qalxır. Kristian tribunaya yaxınlaşır və auditoriyaya nəzər yetirir. Keyt kimi o da özünəinamlıdır. Yanımdakı qızlar qabağa əyilir: onlar məftunluq içindədir. Məncə, qadın auditoriyasının böyük hissəsi onlar kimi davranardı, hətta kişilərdən də bəzisi. Kristian danışmağa başlayır. Onun asta, ləng səsi adamı ovsunlayır.

– Mən çox məmnunam və universitetin ekologiya kafedrasının apardığı nəhəng iş haqqında danışmaq üçün mənə verilən bu nadir imkana görə Vaşinqton Universiteti rəhbərliyinə minnətdaram. Bizim ilkin məqsədimiz üçüncü dünya ölkələri üçün kənd təsərrüfatında rentabelli və ekoloji cəhətdən təhlükəsiz üsulların tətbiqi, son məqsəd isə bütün dünyada

aclıq və yoxsulluğun aradan qaldırılmasıdır. Əsasən Böyük Səhradan aşağıdakı Afrika, habelə Cənubi Asiya və Latın Amerikasından olan bir milyarddan artıq insan yoxsulluqdan da aşağı səviyyədə yaşayır. Bu regionlar üçün kənd təsərrüfatının bədbin vəziyyəti xarakterikdir və bunun səbəbi ətraf mühit kompleksi və sosial mühitin dağılmasıdır. Mən aclığın nə olduğunu öz həyat təcrübəmdən bilirəm. Bu, mənimçün məhrəm bir duyğudur…

Çənəm yerə dəyir. Nə? Kristian nə vaxtsa aclıq görüb. İşə bax ha! Hə, bu, çox şeyi aydınlaşdırır. Müsahibəni xatırlayıram – o, həqiqətən bütün dünyanı doydurmaq istəyir. Keytin məqaləsini ürpərtiylə xatırlayıram. Onu dörd yaşında övladlığa götürüblər. Təsəvvürümə gətirə bilmirəm ki, Qrey onu ac saxlasın. Yəqin, bu, övladlığa götürülməyə qədər olub, Kristian çox balaca olarkən. Udqunuram, boz gözlü uşağın ac olması fikrindən ürəyim sıxılır. Yoox. Qrey ailəsi onu tapana və övladlığa götürənə qədər o, nə cür həyat sürüb? Hiddət hissi baş qaldırır. Yazıq, aşağılanmış, pozğun filantrop Kristian. Əslində mən çox əminəm ki, özünü bu işıqda görmür və istənilən mərhəmət və şəfqət təzahürünü özündən rədd edərdi. Qəfildən zal alqışlarla partlayır və ayağa qalxır. Mən də ayağa qalxıram – nitqin yarısına qulaq asmasam da. O, xeyriyyəçiliklə məşğul olur, nəhəng şirkətə rəhbərlik edir və eyni zamanda da, məni təqib edir. Əla. Darfur barədə söhbətin qırıntılarını xatırlayıram … Hər şey uyğun gəlir. Yemək.

Kristian hərarətli qarşılanmaya xəfifcə gülümsəyir – hətta Keyt əl çalır – və öz yerinə oturur. O, mən tərəfə baxmır, mənsə sarsılaraq yeni informasiyanı dərk etməyə çalışıram.

Prorektorlardan biri ayağa qalxır və diplom təqdimatının uzun, üzücü mərasimi başlayır. Onların sayı dörd yüzə yaxındır və adımı eşidənədək təxminən bir saat keçir. Dişlərini ağardan iki qızın əhatəsində səhnəyə doğru gedirəm. Kristian mənə baxır, amma təmkinli baxışla.

– Təbrik edirəm, miss Stil, – o deyir və əlimi sıxır. Toxunuşu nəvazişli, amma qərarlıdır. – Noutbukunuz xarab olub?

O, mənə diplom təqdim edir, mənsə üzümü turşuduram.


kitabyurdu.blogspot.com

– Yox.

– Onda niyə e-mayllarıma cavab vermirsiniz?

– Mən yalnız aktivlərə nəzarətin verilməsi haqda məktubu görmüşəm.

Kristian qayğıyla mənə baxır.

– Sonra danışarıq, – o deyir və mən səhnədən getmək məcburiyyətindəyəm ki, növbədə durmuş məzunları ləngitməyim.

Mərasim daha bir saat davam edir. Elə bil heç qurtarmayacaqdı. Nəhayət, gurultulu alqışlar altında rektor bütün müəllim heyətini səhnəyə çıxarır, irəlidəsə Kristian və Keyt addımlayır. Kristian mənə baxmır, mən bunu istəsəm də. Daxili ilahəm narazıdır.

Dayanıb gözləyirəm – bizim tamaşaçı cərgəsinin dağılmasını; bu vaxt Keyt məni səsləyir. O, səhnə arxasından mənə tərəf istiqamətlənir.

– Kristian səninlə danışmaq istəyir! – deyə o qışqırır.

Məndən uzaqlaşmış qonşu qızlar geri çevrilir və heyrətlə mənə baxırlar.

– O, məni sənin dalınca göndərib, – Keyt sözünə davam edir.

Oh…

– Gözəl nitq idi, Keyt.

– Hə, pis alınmadı. – O işıq saçır. – Hə, gəlirsənmi? O, çox inadkar ola bilər.

Keyt göz qapaqlarını endirir və mən gülümsəyirəm.

– Heç təsəvvür edə bilməzsən ki, nə dərəcədə… mən Reyi uzun müddət tək qoya bilmərəm.

Baxışımla Reyi tapır və əlimi qaldırıram, beş dəqiqəliyə ləngiyəcəyimə işarə edirəm. O, razılıqla başını tərpədir və mən Keytin ardınca səhnə arxasındakı dəhlizlə gedirəm. Kristian rektor və iki müəllimlə söhbət edir. Məni görcək o, başını qaldırır.

– Üzr istəyirəm, centlmenlər, – deyir və Keytə ani təbəssüm bəxş edərək mənə doğru gəlir.


kitabyurdu.blogspot.com

– Çox sağ ol, – Kristian minnətdarlıq bildirir və Keyt ona cavab verməzdən öncə biləyimdən tutur, kişi paltar dəyişmə otağına oxşar hansısa məkana dartıb aparır.

O, ətrafa boylanır və içəridə özümüzdən başqa kimsənin olmadığına əmin olduqdan sonra qapını açarla bağlayır.

Lənət şeytana, onun ağlındakı nədir? Gözlərimi döyürəm o mənə doğru çevrilərkən.

– Niyə məktubuma cavab vermədin? Yaxud SMS-ismarışa?

O, vəhşi baxışlarını üzümə zilləyib. Özümü itirmişəm və pərişanam.

– Bu gün nə kompüterə, nə də telefona baxmışam.

Bax a, doğrudanmı mənə zəng edib? Yayındırma texnikasını işə salıram, Keytlə ünsiyyətdə bu üsul yaxşı işləyir.

– Nitqin gözəl idi.

– Sağ ol.

– İndi aydındır yeməyə niyə bu qədər aludəsən.

Kristian əlini saçlarda gəzdirir və deyəsən, əsəbiləşir.

– Anasteyşa, indi bunu müzakirə eləmək istəmirəm. – O, əzabkeş görkəmlə göz qapaqlarını yumur. – Səninçün narahat idim.

– Niyə?

– Çünki evə maşın adlandırdığın konserv qutusunda getmişdin.

– Konserv qutusu? O, əla vəziyyətdədir. Xose müntəzəm olaraq onu yoxlayır və təmir edir.

– Xose? O fotoqraf? – Kristianın gözləri kiçilir, üzünə buztək ifadə qonur.

Poxa düşdük!

– Hə, ―Folksvagen‖ bir vaxtlar onun anasına məxsus olub.

– Aha, ondan əvvəl də nənəsinə və ulu nənəsinə. Bu, təhlükəsiz maşın deyil.

– Mən onu artıq üç ildir ki, sürürəm. Bağışla ki, sənin narahat olmana səbəb olmuşam. Niyə zəng etmədin?

İlahi, o hər şeyi necə də ürəyinə salır!


kitabyurdu.blogspot.com

Kristian dərin bir köks ötürür.

– Anasteyşa, sənin cavabını gözləyirəm. İntizar məni dəli edir.

– Kristian, mən... Qulaq as, mən atalığımı tək qoymuşam.

– Sabah. Mən sabah cavab almaq istəyirəm.

– Yaxşı. Sabah cavabımı alarsan.

Gözlərimi döyərək ona baxıram.

O, geri çəkilir, məndən soyuq baxışlarını çəkmir, çiyinləri boşalır.

– İçki içmək üçün qalacaqsan?

– Bilmirəm, Rey necə deyərsə.

– Atalığın? Onunla tanış olmaq istəyirəm.

O-o-o, yox… Bu nəyə lazımdır?

– Dəyməz.

Kristian qapını açır, onun ağzı pərt halda qapanıb.

– Mənə görə utanırsan?

– Yox! – İndi mənim hirslənmək növbəmdir. – Fikrincə mən səni ona təqdim etməliyəm? ―Bu adam məni bakirəlikdən məhrum edib və indi əcaib münasibətlərdə olmaq istəyir?‖ Sən kross ayaqqabılarını geyməmisən.

Kristian acıqlı halda mənə baxır, sonra onun dodaqları təbəssümdən əyilir. Hirsimdən dəliyə dönsəm də, özümü saxlaya bilmirəm və qarşılıq olaraq gülümsəyirəm.

– Məlumun olsun ki, mən çox sürətli qaçıram. Sadəcə, de ki, sənin dostunam, Anasteyşa.

O, qapını açır və mən birinci çıxıram. Fikirlərim dağınıqdır. Rektor, üç prorektor, dörd professor və Keyt heyrətlə gözlərini mənə zilləyib, mən tələsərək onların yanından keçib gedirəm. Sənin ananı!.. Kristianı müəllimlərin yanında qoyaraq, Reyi axtarmağa gedirəm.

―De ki sənin dostunam …‖ ―Hə də, çarpayı dostu‖, – təhtəlşüurum qaşqabaqlı halda pıçıldayır. Hə, bilirəm, bilirəm. Xoşagəlməz fikri başımdan rədd eləyirəm. Hə, indi onu Reyə necə təqdim edim? Zal hələ də yarıyacan doludur və Rey elə dayandığı yerdən tərpənməyib. O, məni görür, əl yelləyir və aşağı enir.

– Salam, Ana. Təbriklər. – O, məni bir əliylə bağrına basır.

– Gedək çadıra... içəkmi?

– Əlbəttə. Bu, sənin şənliyindir. Yolu göstər.

– Əgər istəyirsənsə, getməyə də bilərsən.

–Di xahiş edirəm, imtina et …‖

– Ana, iki saat yarım oturub cəfəngiyat dinləmişəm. Mən mütləq içməliyəm.

Onun qoluna girirəm və qələbəliklə birgə günəşin günorta sonrası hərarətinə çıxırıq. Fotoqrafa növbənin yanından keçirik.

– Hə, az qala yadımdan çıxacaqdı. – Rey rəqəmsal fotoaparatı çıxarır. – Albom üçün foto çəkməliyik.

Göz qapaqlarımı endirirəm, osa şəklimi çəkir.

– Bəs indi mantiya və papağı çıxara bilərəmmi? Özümü səfeh qız kimi hiss edirəm.

–Sən elə səfeh qız təəssüratı oyadırsan… – Təhtəlşüurum heç vaxt olmadığı kimi rişxənd edir. – Reyə s..işdiyin kişini təqdim etmək istəyirsən? – O, qorxuducu eynəklərin şüşəsindən acıqlı halda mənə baxır. – Bax gör necə fəxr edəcək bununla!‖ İlahi, təhtəlşüuruma hələ bu qədər nifrət etməmişdim!

Nəhəng çadır və içəridə iynə atmağa yer yoxdur: tələbələr, valideynlər, müəllimlər və dostlar: hamı şən halda çənə döyür. Rey şampan qədəhini mənə uzadır, daha doğrusu, ucuz köpüklənən şərab. O, şirin və istidir. Yenə də Kristian haqda düşünürəm. Onun xoşuna gəlməzdi...

– Ana! – Çevrilirəm və İtan Kavananın ağuşuna düşürəm.

O, məni fırladır, bu zaman inanılmaz məharətlə şərabın üstümə çilənməsinə imkan vermir.

– Təbrik edirəm! – O, sevinclə gülümsəyir, yaşıl gözlərdə gülməcələr atılıb-düşür.

Bax bu, əsl sürpriz oldu! Onun sarışın saçları dağınıqdır və çox seksual görünür. İtan elə Keyt kimi gözəldir. İnanılmaz ailəvi oxşarlıq...

– O-o-o, İtan! Səni görməyə necə də sevindim! Ata, bu İtandır, Keytin qardaşı. İtan, bu atamdır, Rey Stil.

Onlar bir-birinin əlini sıxır, atam mister Kavanaya dəyərləndirici soyuq nəzər yetirir.

– Avropadan nə vaxt qayıtmısan? – soruşuram.

– Bir həftə əvvəl, amma bacıma sürpriz eləmək istəyirdim, – o, qəsdçi ahənglə cavab verir.

– Çox yaxşı, – gülümsəyirəm.

– Keyt kursun əlaçısıdır, ona vida çıxışını etibar ediblər. Məgər bu imkanı əldən buraxa bilərdim?

O, bacısı üçün son dərəcədə fəxr edir.

– O, çox yaxşı çıxışetdi.

– Hə, düzdür, – Rey razılaşır.

İtan əlini belimə atır. Başımı qaldırıram və Kristian Qreyin buz kimi soyuq baxışlarının mənə zilləndiyini görürəm. Keyt onunla yanaşı dayanıb.

– Salam, Rey!

Keyt Reyin hər iki yanağından öpür; o, xəcalətdən qızarır.

– Siz artıq Ananın boyfrendi ilə tanışsınız? Kristian Qrey.

Sənin ananı! Keyt! Üzümün ağardığını hiss edirəm.

– Mister Stil, sizinlə tanış olmağıma çox şadam, – hərarətli və gülər üzlə deyir Kristian, Keytin sözləri onu əsla haldan çıxarmır.

O, əlini uzadır, Rey onu sıxır və sözün düzü, özünü elə aparır ki, sanki bu heyrətamiz xəbərdən əsla təəccüblənməyib.

Çox sağ ol, Ketrin Kavana! Mən, demək olar ki, hirsimdən partlamaq üzrəyəm. Məncə, təhtəlşüurum huşunu itirib.

– Salam, mister Qrey, – Rey donquldayır.

Onun simasında təmkinli ifadə var, yalnız böyük, ala gözlər daha da böyüyüb və mənə yönəlmiş baxışlardan bu, açıq-aşkar oxunur: ―Hə, bunu mənə deməyə nə vaxt hazırlaşırdınız?‖ Dodağımı dişləyirəm.

– Bu isə qardaşımdır, İtan Kavana, – Keyt Kristiana deyir.

Kristian soyuq baxışlarını İtana yönəldir, o hələ də belimi qucaqlayıb.

‒ Mister Kavana.

Onlar bir-birinin əlini sıxır. Kristian ovcunu mənə uzadır.

‒ Ana, balacam, – astaca deyir o və nəvazişli səsdən, az qala, ayaqlarım yerdən üzülür.

Soyuq nəzərlərlə Kristian mənim İtanın ağuşundan necə çıxmağıma və ona yaxınlaşmağıma baxır. Keytin dodağı qaçır. O, nə etdiyini yaxşı bilir, qancıq!

‒ İtan, anam və atam bizimlə danışmaq istəyir.

Keyt İtanı götürüb özüylə aparır.

‒ Nə vaxtdan tanışsınız? – Rey təmkinli baxışlarını Kristiandan mənə doğru yönəldir.

Nİtq qabiliyyətimi itirmişəm, istəyirəm ki, yer yarılsın və mən onun altına girim. Kristian bir əliylə məni qucaqlayır, böyük barmağını nəvazişlə belimdə gəzdirir və çiynimi möhkəm şəkildə özünə çəkir.

‒ Təxminən bir həftə, – sakitcə deyir o. – Ana məndən tələbə qəzeti üçün müsahibə almağa gələrkən tanış olmuşuq.

‒ Tələbə qəzetində işlədiyini heç bilmirdim, Ana, – Rey deyir yumşaq məzəmmətlə. O, açıq-aşkar narazıdır.

Poxa düşdük!

‒ Keyt xəstələnmişdi, – güclə dillənirəm. Deməyə sözüm yoxdur.

‒ Yaxşı çıxış elədiniz, mister Qrey.

‒ Sağ olun, ser. Bildiyim qədər balıq ovu həvəskarısınız, eləmi?

Rey qaşlarını qaldırır, gülümsəyir. Budur, səmimi, açıq, amma məhz nadir təbəssüm! Onlar balıq ovu haqda söhbətə başlayırlar. Sözün düzü, özümü artıq adam kimi hiss edirəm. Kristian, deyəsən, atamı tamamilə heyran qoyub… ‒Elə sənin kimi‖, – təhtəlşüurum qeyd edir. Kristianın gücü sərhəd tanımır. Üzr istəyir və Keyti axtarmağa gedirəm.

O, valideynləri ilə söhbət edir, onlar həmişəki kimi məni dostcasına və hərarətlə salamlayırlar. Biz mehribanlıqla söhbət edirik: əsasən Barbadosdakı istirahət və Keytlə köçümüz haqqında.

– Keyt, məni Reyə niyə satdın? – soruşuram; bizi heç kim eşitmir.

– Özün ona əsla deməzdin və mən Kristiana ciddi münasibətlər qorxusunu adlamaqda kömək edirəm.

Keyt xəfifcə gülümsəyir. Üz-gözümü turşuduram. Səfeh, ciddi münasibətləri istəyən mənəm!

– Ana, Kristian səninçün dəli-divanədir. Qaşqabağını tökmə. Bax gör gözləriylə səni necə yeyir.

Başımı çevirir və görürəm ki, Rey və Kristian bizə tərəf baxırlar.

– O, quzğun kimi səni izləyir.

– Ya Reyi, ya da Kristianı xilas etmək gərəkdir, amma bilmirəm kimi. Biz hələ bu söhbətə dönəcəyik, Ketrin Kavana!

Ona acıqlı nəzər yetirirəm və çıxıb gedirəm.

– Ana, mən səninçün əlləşdim! – deyə o, ardımca çığırır.

– Salam. – Həm Reyə, həm də Kristiana gülümsəyirəm.

Deyəsən, onlar ümumi dil tapıblar. Kristian gülümsəyir hansısa zarafata, atamsa vəziyyəti nəzərə alaraq heyrətamiz dərəcədə çox sərbəst davranır. Maraqlıdır, balıqdan başqa onlar daha nə haqda danışıblar?

– Ana, burda tualet hardadır?

– Çadırın arxasından sola.

– İndi qayıdram. Əylənin, uşaqlar.

Rey çıxıb gedir. Əsəbi halda Kristiana baxıram. Bir müddət susuruq – fotoqraf şəklimizi çəkənədək.

– Sağ ol, mister Qrey.

Fotoqraf işini görüb tələsik gedir. Parlaq işıqdan gözlərimi qırpıram.

– Deməli, atamı da valeh etmisən?

– Atanı da?

Kristianın boz gözləri alışıb-yanır və o, sual işarəsi kimi qaşlarını qaldırır. Mən odlanıram. O, yanağımı sığallayır.

– Sənin nə düşündüyünü necə də bilmək istərdim, Anasteyşa! – o, pərt halda pıçıldayır, üzümü ovuclarına alaraq azca qaldırır ki, gözlərimə baxa bilsin.

Nəfəsim kəsilir. Niyə o, mənə bu qədər təsir edir, hətta qələbəliyin olduğu çadırda belə?

– İndi fikirləşirəm ki, qalstukun qəşəngdir, – nəfəsimi buraxıram.

Kristian razı halda –hmlıldayır.

– Bu yaxınlardan etibarən o, sevimli qalstukuma çevrilib.

Allanıram.

– Çox gözəl görünürsən, Anasteyşa, bu paltar sənə çox yaraşır, bu paltarda belini oxşaya, sığallaya bilirəm, gözəl dərinə toxuna bilirəm.

Qəfildən mənə elə gəlir ki, biz burda tək-tənhayıq... ikilikdə və bədənim dərhal canlanır, hər bir damarım sanki nəğmə oxuyur, aramızdan elektrik cərəyanı keçir və mən qarşısıalınmaz dərəcədə ona meyllənirəm.

– Axı sən bilirsən, balaca, hər şey yaxşı olacaq, – o pıçıldayır.

Gözlərimi qapadır və sanki içəridən əridiyimi hiss edirəm.

– Amma mən bundan da çox istəyirəm, – pıçıldayıram.

– Bundan da çox?

O, qayğılı görkəmlə yuxarıdan-aşağı mənə baxır, gözləri tündləşir. Mən başımla təsdiqləyir və udqunuram. İndi o bilir.

– Daha çox, – Kristian sakitcə təkrarlayır.

O, sanki bu sözü damağa vurur, qısa, sadə söz, amma içində nə qədər vəd var! Kristian barmağını alt dodağımda gəzdirir.

– Sən gül-çiçək, əhd-peyman istəyirsən.

Mən yenə də başımla təsdiqləyirəm. Kristian gözlərini qıyaraq mənə baxır və onun gözlərində daxili mübarizə əks olunur.

– Anasteyşa, – incə tərzdə tələffüz edir o, – bu haqda heç nə bilmirəm.

– Mən də.

O, azca gülümsəyir.

– Sən, ümumiyyətlə, heç nə bilmirsən.

– Bildiyin isə düz deyil.

– Düz deyil? Məndən başqa hamı üçün.

Kristian başını yelləyir. O elə səmimi görünür ki...

– Özün sına, – pıçıldayır.

Onun sözlərində çağırış ahəngi var, o məni cırnadır, başını yana əyir və özünün füsunkar təbəssümü ilə gülümsəyir.

Havam çatmır, sanki cənnətdəki Həvvayam, Kristian isə ilan və mən günaha batıram.

– Yaxşı, – pıçıldayıram.

– Nə?

Onun bütün diqqəti məndə cəmlənib. Udqunuram.

– Yaxşı, mən sınayaram.

– Deməli, razısan? – Səsdə inamsızlıq duyulur.

– Hə, yolverilməz hədlərin gözlənilməsi şərtilə. Mən sınayaram. – Səsim, demək olar ki, eşidilmir.

Kristian gözlərini qapadır və məni bağrına basır.

– İlahi!.. Ana, sən tapmaca adamsan. Məni hər dəfə heyrətləndirirsən.

O, geri çəkilir və qəfildən anlayıram ki, Rey artıq qayıdıb və çadırdakı hay-küy daha da güclənib. Sən demə, biz tək deyilmişik. Lənət şeytana, mən indicə onun kənizi olmağa razılıq verdim. Kristian Reyə baxaraq gülümsəyir, onun gözləri sevincdən parlayır.

– Ana, bəlkə nahar edək?

– Yaxşı.

Mən gözlərimi döyərək Reyə baxır və özümə gəlməyə çalışıram.

–Sən nə elədin?‖ – təhtəlşüurum qışqırır. Daxili ilahəm geriyə salto edir, bunu ancaq Rusiya olimpiya komandasının gimnastı bacarardı.

– Kristian, bizə qoşularsan? – Rey soruşur.

Kristian, işə baxa a! Ona yalvarışlı nəzərlə baxıram – təklifdən imtina etməyini istəyirəm. Düşünməliyəm. Lənət şeytana, mən neylədim?

– Sağ olun, mister Stil, işlərim var. Görüşümüzə şadam, ser.


kitabyurdu.blogspot.com

– Elə mən də, – Rey cavab verir. – Balacamın qayğısına qal.

– Əlbəttə, mister Stil, məhz bunu etməyi nəzərdə tuturam.

Onlar bir-birinin əlini sıxır. Azca ürəyim bulanır. Kristianın mənim qayğıma necə qalmaq istəyindən Reyin anlayışı belə yoxdur. Kristian əlimdən tutur, dodaqlarına yaxınlaşdırır və incə tərzdə barmaqlarımı öpür, onun odlu gözləri düz gözlərimin içinə baxır.

– Sonra, miss Stil, – vədedici səslə pıçıldayır o.

İçimdə hər şey bircə bu fikirdən sıxılır ki … Bir dəqiqə, ―sonra‖ nə deməkdi?

Rey biləyimdən tutur və çıxışa doğru aparır.

– Deyəsən, ədəbli cavan oğlandır. Həm də maddi imkanlı. Sən özünə daha pisini tapa bilərdin, Ana. Hərgah pis oldu ki, onun haqqında Ketrindən xəbər tutdum, – o deyinir.

Özümü itirərək çiyinlərimi çəkirəm.

– Yaxşı sevməyi və qursasız qarmaqla balıq tutmağı bacaran oğlan məni qane edir.

Ah, işə bax a, Rey Kristianı bəyənir! Əgər o bilsəydi ki …

Rey, demək olar ki, qaranlıqda məni evə gətirir.

– Anana zəng elə, – o deyir.

– Mütləq. Sağ ol ki, gəldin, ata.

– Sənin buraxılış mərasimini dünyasında buraxmazdım, Ana. Səninlə fəxr edirəm!

Ah, yox! Özümü hissiyyatlılığa qapada bilmərəm. Kövrəlirəm və Reyi möhkəm qucaqlayıram. O sarsılaraq məni özünə çəkir və mən artıq özümü saxlaya bilmirəm. Gözlərim yaşla dolur.

– Ey, Ana, əzizim, sənə nə oldu? – Rey nəvazişlə pıçıldayır. – Belə bir mühüm gündə … İstəyirsən evə keçim, səninçün çay dəmləyim?

Göz yaşları arasından gülürəm. Reyin fikrincə çay – həyatın bütün halları üçün sınanmış məlhəm vasitəsidir. Anamın Reydən necə


kitabyurdu.blogspot.com

şikayətləndiyini xatırlayıram: o iddia edirdi ki, iş çaya və qarşılıqlı anlaşmaya yetişdikdə Reyin çay dəmləməkdə tayı-bərabəri yoxdur, anlaşma məsələsində isə vəziyyət bərbaddır.

– Yox, ata, hər şey qaydasındadır. Səninlə görüşmək elə xoşdur ki! Mən tezliklə sizə gələcəm, qoy bircə Sietlə köçüm.

– Müsahibələrdə sənə uğurlar diləyirəm. Necə keçdiyini xəbər verərsən.

– Əlbəttə, ata.

– Səni sevirəm, Ana.

– Mən də səni, ata.

O gülümsəyir, ala gözlərin hərarətli baxışları ilə mənə baxır və avtomobilə oturur. Ona əl yelləyirəm və o, tündləşən alaqaranlıqda çıxıb gedir, mənsə evə üz tuturam.

İlk növbədə mobil telefonu yoxlayıram. Onun enerjisi bitib, yükləmə cihazını axtarmaq və telefonu yüklənməyə qoymaq lazım gəlir. Dörd buraxılmış zəng, bir səsli ismarış və iki SMS. Üç buraxılmış zəng Kristiandandır… səsli yoxdur. Bir buraxılmış zəng Xosedən və səsli ismarış da ondandır: məni universiteti bitirməyim münasibətilə təbrik edir.

Mətnli ismarışlarını açıram.

–Evə çatdınmı‖

–Mənə zəng et‖

Hər iki SMS Kristiandandır. Niyə ev telefonuna zəng eləməyib? Öz otağıma keçirəm və lənətə gəlmiş noutbuku yandırıram.

Kimdən: Kristian Qrey
Mövzu: Bugünkü axşam
Tarix: 25.05.2011, 23:58
Kimə: Anasteyşa Stil

Əminəm, o maşın dediyin şeydə gedib çatmısan. Hər şeyin qaydasında olduğunu xəbər elə.

Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Ah, niyə mənim maşınım ona rahatlıq vermir? O, üç ildi mənə sədaqətlə qulluq edir, Xose isə təmirdən ötrü həmişə yanımda olub. Növbəti ismarış bugünkü tarixdədir.

Kimdən: Kristian Qrey
Mövzu: Yolverilən hədlər
Tarix: 26.05.2011, 17:22
Kimə: Anasteyşa Stil

Sənə başqa nə demişdim?
Onları səninlə müzakirə eləməyə şad olaram.
Bu gün çox gözəl idin.
Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Onu görmək istəyirəm. Cavab göndərirəm.

Kimdən: Anasteyşa Stil
Mövzu: Yolverilən hədlər
Tarix: 26.05.2011, 19:23
Kimə: Kristian Qrey

İstəyirsənsə, onları bu gün müzakirə edə bilərik. Maşınla gələrəm.
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Yolverilən hədlər.


kitabyurdu.blogspot.com

Tarix: 26.05.2011, 19:27
Kimə: Anasteyşa Stil

Mən özüm gələrəm. Sənin bu maşını sürmən həqiqətən xoşuma gəlmir.

Tezliklə gələcəm.

Kristian Qrey,

–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Lənət şeytana … Kristian indi gələcək. Onun gəlişinə bəzi şeyləri hazırlamalıyam: Tomas Hardinin ilk nəşri hələ də qonaq otağındakı rəfdədir. Bu kitabları özümdə saxlaya bilmərəm. üççildliyi bağlama kağızına bükürəm və –Tess‖dən dəqiq sitatı paketin üzəruinə yazıram:

–Mən bu şərtlərə razıyam, Encel, çünki sən hansı cəzaya layiq olduğumu məndən yaxşı bilirsən. Amma bircə … ancaq elə et ki, ona tab gətirə bilim!‖

## 15-ci fəsil

– Salam.

Qapı açılarkən dəhşətli dərəcədə utanıram. Kristian cins şalvar və dəri gödəkcədə artırmada dayanıb.

– Salam, – o cavab verir və üzü işıqlanır. Anı tutaraq onun yaraşığına tamaşa edirəm. Ah, dəri libasda o necə də gözəldir!

– İçəri keç.

– İcazənlə, – şən halda deyir o. Əlində şampan şüşəsi var. – Fikirləşdim ki, universitetin bitirilməsini qeyd etmək gərəkdir. –Bolanje‖nin yerini heç nə verməz.

– Maraqlı söz seçimidir, – quru şərh verirəm.

O gülümsəyir.

– O-o, sənin hazırcavablığın xoşuma gəlir, Anasteyşa.

– Evdə yalnız çay fincanları var. Stəkanları artıq qablaşdırmışıq.

– Fincan? Əla.

Mətbəxə gedirəm. Çox həyəcanlıyam, qarnımda sanki kəpənəklər qanad çalır. Elə bir hissdir ki, sanki qonaq otağında bir yırtıcı – bəbir, yaxud kuquar gizlənib.

– Nəlbəkiləri də gətirim?

– Fincanlar bəs edər, – Kristian cavab verir.

Mən qayıdarkən o, kitablar olan çəhrayı paketə nəzər yetirir. Fincanları masanın üstünə qoyuram.

– Bu sənə çatacaq, – həyəcanla deyirəm.

Poxa keçdik… deyəsən, münaqişə yaranacaq.

– Hm, ürəyimə dammışdı. Çox yerinə düşən sitatdır. – O, dağınıq nəzərlə uzun şəhadət barmağını yazıların üstündə gəzdirir. – Mənsə düşünürdüm ki, mən – Encel yox, d'Erbervilləm. Deyəsən, məni aşağılamaq qərarına gəlmisən.

Kristian mənə əsəbi təbəssüm bəxş edir və sözünə davam edir:

– Yalnız sən duruma uyğun sitatı seçməyə qabilsən.

– Bu həm də xahişdir, – pıçıldayıram.

Niyə bu qədər həyəcanlıyam? Ağzım quruyub.

– Xahiş? Yəni səninlə çox sərt olmayım?

Başımla təsdiqləyirəm.

– Bu kitabları səninçün almışam, – sakitcə tələffüz edir o, üzündə soyuq ifadə var. – Söz verirəm ki, bu kitabları hədiyyə kimi qəbul eləsən, səninlə çox sərt olmayacam.

Pərt halda udqunuram.

– Kristian, mən qəbul edə bilmərəm, onlar çox bahalıdır.

– Görürsən, mən sənə elə bu haqda danışırdım, sənin itaətsizliyin haqda. İstəyirəm ki, onları götürəsən, vəssalam. Hər şey çox sadədir. Bu haqda düşünməməlisən. Mənim kənizim kimi, sən minnətdar olmalısan, vəssalam. Sən yalnız hədiyyələrimi qəbul edirsən, mən bağışlamağı xoşlayıram.

– Bu kitabları aldığın vaxt sənin kənizin olmamışam, – pıçıldayıram.

– Hə… amma sən razılaşdın, Anasteyşa. – Onun baxışı diqqətlidir.


kitabyurdu.blogspot.com

Köks ötürürəm, bu mübahisəni udmasam, deməli, ‒B‖ planına keçməliyəm.

– Bir halda ki bu kitablar mənimdir, deməli, onlarla nə istəsəm, edə bilərəm?

Kristian şübhəli nəzərlə mənə baxır, sonra həvəssiz razılaşır.

– Hə.

– Onda mən bu kitabları Darfurda fəaliyyət göstərən xeyriyyə cəmiyyətinə ianə verəcəm, çünki bu ərazi səninçün xüsusilə doğmadır. Qoy bu kitabları hərraca çıxarsınlar.

– Hə, bunu istəyirsənsə.

Onun ağzı sərt bir xətdə qapanır. Kristian açıq-aşkar hirslənib.

Ona acıq verirəm.

– Bir az da fikirləşərəm, – donquldanıram.

Kristianı pərişan eləmək istəmir və onun sözlərini xatırlayıram: ‒İstəyirəm ki, mənə yarımaq istəyində olasan‖.

– Fikirləşmək gərək deyil, Anasteyşa. Ən azı, bu haqda, – Kristian sakitcə və ciddi şəkildə deyir.

Necə yəni fikirləşməyim? ‒Bəlkə özümü yalandan elə göstərim ki, guya maşınsan, onun icadlarından birisən‖, – deyə təhtəlşüurum kinayəylə bildirir. Mən tələbsiz məsləhəti görməzliyə vururam. Ah, görəsən söhbətin lap əvvəlinə qayıtmaq olmazmı? Hər ikimiz naqolay durumdayıq. Nə edəcəyimi bilmirəm və susaraq barmaqlarıma baxıram. Vəziyyətdən necə çıxım?

Kristian şampan şüşəsini masanın üstünə qoyur, yaxın gəlir və çənəmdən tutaraq başımı qaldırır. O, diqqətlə üzümə baxır: üzündə pərişanlıq var.

– Mən sənə çoxlu və müxtəlif əşyalar alacam, Anasteyşa. Buna artıq alış. Bunun əksinə imkan verə bilmərəm. Mən çox varlı adamam. – O əyilir və xəfifcə, demək olar ki, bakir şəkildə dodaqlarımı öpür. – Xahiş edirəm.

O, məni buraxır.

‒Yox!‖ – təhtəlşüurum pıçıldayır.

– Özümü naqolay, düşük hiss edirəm, – donquldanıram.

Kristian barmaqlarını saçlarına keçirir... deyəsən, hirslənir.

– Lazım deyil. Sən qədərindən artıq fikirləşirsən, Anasteyşa. Özünü mühakimə etmə və bu zaman başqalarının sənin haqqında nə düşünəcəyinə istinad eləmə. Öz enerjini boşuna xərcləmə. Bütün bunlar ona görədir ki, sənin razılaşmamızla bağlı müəyyən şübhələrin var və bu, tamamilə təbiidir. Sən nəyə baş qoşduğunu bilmirsən.

Mən qaşlarımı çatır və onun sözlərini dərk eləməyə çalışıram.

– Ey, di bəsdi! – sakitcə deyir o və yenidən çənəmdən tutur, ehmalca aşağı dartır ki, daha dodağımı dişləməyim. – Səndə düşük heç nə yoxdur, Anasteyşa, bu cür düşünməyi tərgit. Mən yalnız səninçün köhnə kitablar almışam, düşündüm ki, onlar xoşuna gələcək. ġampan iç.

Onun baxışları yumşalır və hərarətlənir; mən qərarsız gülümsəyirəm.

– Bax belə, – Kristian pıçıldayır.

O, şampan şüşəsini götürür, tıxacı deyil, cığaranı və məftili fırladır, şüşəni azca çevirir və yüngül bir partıltı ilə, bircə damlanı belə yerə tökmədən effektli şəkildə şərab şüşəsini açır. Fincanları yarıyacan doldurur.

– Qırmızıdır, – təəccüblənirəm.

– Min doqquz yüz doxsan doqquzuncu ilin –Blanje Qrand Anne Rozelsi... – Kristian həzzlə deyir.

– Fincanlarda.

O gülümsəyir.

– Düzdür. Universiteti bitirmən münasibətilə təbrik edirəm, Anasteyşa.

Fincanlarımızı toqquşdururuq və Kristian bir qurtum alır, mənsə şərabı təslimçiliyimin şərəfinə içməyimiz fikrindən qurtula bilmirəm.

– Sağ ol, – sakitcə deyir və şampanı dadıram.

O əladır, şübhəyə yer yoxdur.

– Bəlkə yol verilən hədləri müzakirə edək? – təklif edirəm.

Kristian gülümsəyir, üzüm allanır.

– Sən həmişəki kimi əzmkar ruhdasan.

O əlimdən tutur, divana sarı aparır, özü oturur və məni yanında əyləşdirir.

– Atalığın yaman qaraqabaq adamdır.

Ox… deməli, yolverilən hədləri hələ müzakirə etməyəcəyik. Mən tez-tələsik onu məhv etmək istəyirəm; həyəcan içimi parçaladı.

– Sən onu valeh etmisən, az qala ağzına girəcəkdi.

Narazı halda dodaqlarımı şişirirəm. Kristian asta səslə gülür.

– Yalnız ona görə ki, mən balıq ovlaya bilirəm.

– Hardan bildin ki, o həris balıq ovu həvəskarıdır?

– Sən demişdin, biz qəhvə içərkən.

– Doğrudan?

Daha bir qurtum içirəm. Görəsən, Kristian bütün bunları necə yadda saxlayır? Hm, şampan həqiqətən əladır.

– Sən qəbulda şərab içmisən? – soruşuram.

Kristian sifətini əyir.

– Hə. Küpünədək içirlər.

– Onu dadarkən səni düşünürdüm. Sən necə şərab bilicisi olmusan!..

– Mən əsla bilici deyiləm, Anasteyşa. Sadəcə, xoşum gələn şeylərdən başçıxarıram.

Onun boz gözləri gümüşü şöləylə parlayır və onların baxışından üzüm allanır.

– Bir az da? – şampanı nəzərdə tutaraq Kristian soruşur.

– Hə, zəhmət olmasa.

Kristian gözəl hərəkətlə yerindən qalxır, şüşəni götürür və fincanımı doldurur. O nədi, məni kefləndirmək istəyir? ġübhəylə ona baxıram.

– Otaq, demək olar ki, bomboş görünür, hər şeyi qablaşdırmısınız?

– Demək olar ki.

– Sabah işləyirsən?

– Hə, mağazada sonuncu günümdür.

– Sizə köç məsələsində kömək edərdim, amma bacıma söz vermişəm ki, onu hava limanında qarşılayacam.

Oy, bax bu, əsl xəbərdir!

– Mia ģənbə günü tezdən Parisdən gəlir. Sabah Sietlə gedirəm, amma eşitdik ki, Eliot sizə kömək edəcək.

– Hə, Keyt sevincdən göydə uçur.

Kristian üzünü turşudur.

– Keyt və Eliot... kimin ağlına gələrdi? – o donquldanır, hansısa səbəbdən bu, onun heç xoşuna gəlmir. – ģənbə günü Sietldə görüşə nə deyirsən?

–Bu hədləri nə vaxt müzakirə edəcəyik, görəsən?‖ – başımda bu fikir dolaşır və mən cavab verirəm:

– Mən bir-iki müsahibəyə getməliyəm... təcrübə keçmək istəyirəm.

– Bunu mənə indi deməyk gərək idi? – O, qaşlarını qaldırır.

– E-e-e… indi deyirəm də.

Kristian gözlərini qırpır.

– Müsahibə harda olacaq?

Onun bilməsini istəmirəm, birdən öz nüfuzundan istifadə edər.

– Nəşriyyatlarda.

– Naşirliklə məşğul olmaq istəyirsən?

Qorxa-qorxa başımla təsdiqləyirəm.

– Hə? – O mənə baxır, növbəti informasiyanı səbrlə gözləyir.

– Nə –hə‖?

– Özünü axmaq yerinə qoyma, Anasteyşa, hansı nəşriyyatlarda? – o acıqlanır.

– Ən kiçiklərdə, – donquldanıram.

– Niyə mənim bunu bilməməyimi istəyirsən?

– Nüfuzdan sui-istifadə.

O, üz-gözünü turşudur.

– O-o, indi sən özünü axmaq yerinə qoyursan.

O gülür.

– Kim, mən? Cəsarətə bax a! İç, gəl bu hədləri müzakirə edək.

Krtistian cibindən ismarışımın daha bir kağız nüsxəsini və siyahını çıxarır. Nədi, o, bu kağızları həmişə cibində gəzdirir? Xatırlayıram ki, məndə qalmış pencəyində də bir cüt vərəq qalmaqdadır. Lənət şeytana, onları unutmamaq lazımdır. ġampan olan fincanı boşaldıram.

Kristian mənə becid nəzər yetirir.

– Yenə?

– Hə, zəhmət olmasa.

O, özündənrazı halda gülümsəyir, butulkanı götürür və yerində donub-qalır.

– Bu gün yemək yemisən?

O-o, yox, yenə dediyindən yapışdı!

– Hə, Reylə üç cür yemək yemişik.

Göz qapaqlarımı endirirəm. ġampandan cəsarətlənmişəm. O, mənə tərəf əyilir, çənəmdən tutur və düz gözlərimin içinə baxır.

– Bir də belə eləsən, o dəqiqə dizlərini yana qatlayaram.

Nə?!

– Oy! – nəfəsimi buraxır və görürəm ki, onun gözləri ehtirasdan od saçır.

– Oy! – Kristian məni cırnadır. – Vəssalam, Anasteyşa, başladı.

Ürəyim quduz sürətlə döyünür, kəpənəklərsə, deyəsən, qarnımdan pərtlikdən sıxılan boğazıma uçub gediblər. Niyə bu, onu bu qədər ehtiraslandırır?

Kristian mənə şampan süzür və mən, demək olar ki, bütün şərabı içib qurtarıram. Bir qədər sakitləşərək ona baxıram.

– Sənin diqqətini cəlb elədim, hə?

Başımla təsdiqləyirəm.

– Cavab ver.

– Hə… bütün diqqətim səndədir.

– Əla. – O anlaşıqlı şəkildə gülümsəyir. – Deməli, seksual hərəkətlər. Biz, demək olar ki, hər şeylə məşğul olmuşuq.

Ona yaxın oturur və siyahıya baxıram.


kitabyurdu.blogspot.com

## ƏLAVƏ 3

## YOLVERİLƏN HƏDLƏR

Müzakirə edilməli və TƏRƏFLƏRİN qarşılıqlı razılaşması ilə müəyyən edilir:

Aşağıdakı seksual hərəkətlərdən hansı Sabmissiv üçün yolverilləndir?

> Mastrubasiya
> Fellatsio
> Kunnilinqus
> Vaginal seks
> Vaginal fistinq
> Anal seks
> Anal fistinq

– Sən dedin ki, heç bir fistinq olmayacaq. Başqa etirazlar da olacaq? – Kristian incə tərzdə soruşur.

Udqunuram.

– Anal seks xoşuma gəlmir.

– Mən fistinqi yığışdırmağa hazıram, amma dalınla bağlı mənim planlarım var, Anasteyşa. Tələsməyəcəyik, həm də bunu atüstü eləmirlər. – O, özündənrazı halda gülümsəyir. – Arxa dəliyinə məşq lazımdır.

– Məşq? – pıçıltıyla təkrarən soruşuram.

– Əlbəttə. Onu ehtiyatla hazırlamaq gərəkdir. İnan, anal seks daha çox həzz verə bilər. Amma əgər sınasaq və bu xoşuna gəlməsə, anal sekssiz də keçinmək olar.

Kristian üzümə baxaraq gülümsəyir, mənsə ancaq gözlərimi döyürəm. Doğrudanmı o düşünür ki bu xoşuma gələcək? O hardan bilir ki, bu xoşagələn şeydir?

– Bəs özün sınamısan? – pıçıldayıram.

– Hə.

Ox, işə bax a! Ağzımla havanı tuturam.

– Kişiylə?

– Yox, heç vaxt kişiylə sekslə məşğul olmamışam. Bu mənlik deyil.

– Missis Robinsonla?

– Hə.

Zəhrimar… amma necə? Kristian siyahıya nəzər yetirir.

– Spermanın udulması … Hə, bu məsələdə sən əlaçısan.

Üzüm allanır, daxili ilahəm isə dodaqlarını marçıldadır və sifəti iftixarla işıldayır.

– Deməli, spermanın udulmasını siyahıda saxlayırıq? – O, mənə baxır və gülümsəyir.

Başımla təsdiqləyirəm, onun gözlərinin içinə baxmaq gücündə deyiləm və yenidən fincanımı başıma çəkirəm.

– Yenə? – o maraqlanır.

– Hə.

Və o, fincanımı doldurana qədər bu gün nə haqda danışdıqlarımızı xatırlayıram. Kristian nəyi nəzərdə tutur, söhbətimizi, yoxsa şampanı? Bəlkə elə o ‒yenə ‖deməkdir?

– Seksual oyuncaqlar? – Kristian soruşur.

Çiyinlərimi çəkir və siyahıya baxıram.

Seksual oyuncaqların istifadəsi yolverilәndirmi?

> Vibratorların

> Falloimitatorların

> Anal tıxacların

> Digər

– Anal tıxac? Onun istifadəsi adına müvafiqdir? – Narazı halda burnumu qırışdırıram.

– Hə, – Kristian gülümsəyir. – Bu elə anal seks haqqında dediyimdir. Məşq.

— Bəs... ―digərǁ sözü altında nə nəzərdə tutulur?

– Muncuqlar, yumurtalar… və sair.

– Yumurtalar? – Mən ciddi şəkildə həyəcanlanmışam.

– Həqiqi deyil.

Kristian başını yelləyərək ucadan gülür. Dodaqlarımı sıxıram.

– ġadam ki, məni maarifləndirdin, – səsimdəki incikliyi gizlətmədən deyirəm.

O susur.

- Üzrxahlığımı bildirirəm, miss Stil, mən səmimi şəkildə heyifsilənirəm, – o, sarsılmış görkəmlə deyir, amma gözlərində gülməcələr oynaşır. – Oyuncaqlara dair hər hansı etirazlar varmı?

- Yox, – kəskin şəkildə cavab verirəm.

- Anasteyşa, – Kristian qılığıma girir, – mən həqiqətən peşmanam. Düz sözümdür, inan. Mən gülmək istəmirdim. Mən hələ təfsilatı ilə bu sayaq söhbətləri heç kimlə etməmişəm. Sən, sadəcə, tam təcrübəsizsən. Bağışla.

İri boz gözlərin baxışı səmimidir.

Bir qədər yumşalır və bir qurtum da şampan içirəm.

– Hə, indi də əl-qolu bağlama.

Siyahıya baxıram və daxili ilahəm dondurma vəd edilmiş uşaq kimi atılıb-düşür.

Əl-qol bağlamanın və məhdudiyyətlərin hansı Sabmissiv üçün məqbuldur?

> Əllər qabaqda

> Əllər arxada

> Topuqlar

> Dizlər

> Biləklər



kitabyurdu.blogspot.com

> Biləklər qolbaqla
> Dayaqlar vasitəsilə fiksasiya
> Mebelə bağlama
> Gözlərin bağlanması
> Tıxaclardan istifadə
> İplə bağlama
> Skotçla bağlama
> Dəri qandalların köməyi ilə fiksasiya
> Asma
> Metal qandalların və zəncirlərin istifadəsi

– Biz artıq asma haqqında danışmışdıq. Onu yolverilməz hədlər bölməsinə aid edə bilərsən. O, çox vaxt aparır, sənsə mənim ixtiyarımda uzun müddət olmayacaqsan. Daha nəsə?

– Amma gülmə, –dirək‖ nə deməkldir?

– Söz verdim ki, gülməyəcəm və iki dəfə üzr istədim. – Kristian mənə acıqlı nəzər yetirir. – Bunu bir daha etməyə məni məcbur eləmə.

Mənə elə gəlir ki, onun xəbərdarlığından boyum kiçilir. O elə amiranədir ki...

– Dirək – qandalların və yaxud ayaqlar üçün zəncirlərin bərkidildiyi tamasadır. Maraqlı əşyadır.

– Yaxşı… Bəs tıxac necə olsun? Əgər nəfəs ala bilməsəm, bu məni ürpərdə bilər.

– Bu, məni həyəcanlandırdı. Sənin boğulmanı əsla istəmirəm.

– Bəs ağızda tıxac olarkən stop-sözlərdən necə istifadə eləmək olar?

– Hər şeydən öncə onlar sənə lazım olmayacaq. Amma ağzın bağlı olarsa, jestlərdən istifadə edə bilərik, – bir qədər susaraq deyir o.

Mən kirpiklərimi qırpıram. Əgər əl-qolum bağlı olarsa, bunu necə edəcəm? Beynim tədricən dumanlanır … Hm, alkoqol.

– Mən tıxaca görə əsəbiləşirəm.

– Yaxşı, bunu yadda saxlayaram.


kitabyurdu.blogspot.com

Bəsirət gözüm qəfildən açılır və baxışımı Kristiana tuşlayıram.

– Kənizlərinin əl-ayağını bağlamaq xoşuna gəlir, çünki onlar bu halda sənə toxuna bilmirlər, hə?

O, geniş açılmış gözləriylə mənə baxır:

– Bu, səbəblərdən biridir, – sakitcə deyir.

– Buna görə də əllərimi bağlamışdın, hə?

– Hə.

– Bunu müzakirə etməyi xoşlamırsan, – astaca deyirəm.

– Xoşlamıram. Yenə içmək istəyirsən? Spirtli içkidən cəsarətlənirsən, mənsə sənin ağrıya necə yanaşdığını bilmək istəyirəm.

Ah, lənət… ən xoşagəlməz bölmə. Kristian mənimçün şampan süzür və mən bir qurtum içirəm.

– Ağrıya necə yanaşırsan?

Kristian intizarla mənə baxır, sonra pərt halda deyir:

– Yenə də dodağını dişləyirsən.

O dəqiqə dayandırıram, amma bilmirəm ona nə cavab verim. Üzüm allanır və mən aşağı, əllərimə baxıram.

– Uşaq vaxtı sənə fiziki cəza veriblərmi?

– Yox.

– Deməli, bunu heç nəylə müqayisə edə bilmirsən.

– Hə.

– Çox pis, məncə. Təxəyyül – sənin qatı düşmənindir, – Kristian pıçıldayır.

– Sən mütləq kiməsə ağrı verməlisən?

– Hə.

– Niyə?

– Bu məsələdə qarşılıqlı bağlılıqlar var, Anasteyşa. Mən bunu edirəm, vəssalam. Görürəm narahatsan. Gəl ağrı növlərini müzakirə edək.

O, siyahını mənə göstərir. Təhtəlşüurum qışqıra-qışqıra qaçıb gedir və divanın arxasında gizlənir.


kitabyurdu.blogspot.com

> Əllə şilləmə
> ġapalaqvuranla zərbələr
> Qamçılama
> Çubuqla döymə
> Dişləmələr
> Məmələr üçün qısqac
> Genital qısqaclar
> Buz
> İsti mum
> Digər növlər / ağrı vermə üsulları.

– Deməli, sən genital qısqaclardan imtina eləmisən, eləmi? Razıyam. Ümumiyyətlə, ən ağrılı cəza çubuqla döyülmədir.

Sifətim ağarır.

– Buna mərhələ-mərhələ hazırlıq görəcəyik.

– Ya da tam çıxararıq, – pıçıldayıram.

– Bu, sövdələşmənin bir hissəsidir, qızcığaz, amma biz tələsməyəcəyik. Anasteyşa, səni son həddə çatdırmayacam.

– Hər şeydən çox məni cəzalar qorxudur. – Səsim, demək olar ki, eşidilmir.

– Yaxşı ki, bunu mənə dedin. Gəl hələlik çubuqla döyməni siyahıdan çıxaraq. Bir qədər alışdıqdan sonra artırarıq. Tədricən hərəkət edəcəyik.

Udqunuram, Kristian əyilir və sonra öpür.

– Buna qədər hər şey pis deyildi, hə?

Çiyinlərimi çəkirəm. İçimdə elə bir hiss var ki, sanki ürəyim boğazımda dəlicəsinə döyünür.

– Qulaq as, gəl bəzi başqa şeylər haqda da danışaq, sonra da yatağa girək.

– Nə?

Mən gözlərimi sürətlə döyürəm və bu yaxınlaradək bədənimdəki varlığından belə xəbərim olmayan yerlə qanın necə dolaşdığını hiss edirəm.


kitabyurdu.blogspot.com

– Hə, Anasteyşa, bütün bu söhbətlər ucbatından gələn həftəni gözləmədən səni bu dəqiqə s..mək istəyirəm. Əminəm, bu söhbətlər sənə də artıq təsir edib.

Özümü itirərək qurcalanıram. Daxili ilahəm güclə nəfəs alır.

– Əmin oldun? Bundan başqa, mən bəzi şeyləri sınamaq istəyirəm.

– Ağrıdacaq?

– Yox, bəsdi hər şeyi ağrıyla bağladığın. Bu həzzdir. Məgər indiyədək ağrı keçirməmisən?

Üzüm odlanır.

– Yox.

– Bax görürsən. Qulaq as, bu gün səhər deyirdin ki, daha çox istəyirsən.

Qəfildən o dayanır; deyəsən, özünü azca itirib.

Bax ha! Bu nə anlam verir?

O, biləyimi sıxır.

– Biz bunu kənizim olmadığın günlərdə də sınaya bilərik. Bilmirəm nə alınacaq, bilmirəm... birini o birindən necə ayırmaq olar?.. Güman ki, heç nə alınmayacaq, amma mən sınamaq istəyirəm. Deyək ki, həftədə bir gecə.

Pis fikirləşməyib a! Çənəm yerə dəyir, təhtəlşüurum heyrətdədir. Kristian Qrey ―daha çox‖a razıdır! O sınamaq istəyir! Təhtəlşüurum divanın arxasından boylanır, amansız yırtıcı simada əvvəlki kimi sarsıntı ifadəsi var.

– Ancaq bir şərtim var, – Kristian ehtiyatla deyir.

– Hansı? – nəfəsimi buraxıram. Mən razıyam. İstədiyin hər şey.

– Universiteti bitirməyin münasibətilə aldığım hədiyyəni sidq-ürəklə qəbul edəcəksən.

Qəlbimin dərinliyində bunun nə olduğunu bilirəm. Bütün bədənimlə ürpənirəm.

– Gedək, – Kristian əmr edir və sıçrayışla məni ayağa qaldırır.

O, gödəkcəni çıxarır, onu çiynimə atır və məni qapıya doğru aparır.

Evin yanında qırmızı bir maşın dayanıb – ikiqapılı kompakt ―Audi‖.

– Bu sənindir. Təbrik edirəm, – Kristian deyir, məni özünə tərəf çəkir və saçlarımı öpür.

O, mənə lənətə gəlmiş avtomobil alıb, görünüşə görə, təptəzə. Kitab az idi, indi də bu! Karıxmış halda maşına baxır və nə hiss etdiyimi anlamağa çalışıram. Bir tərəfdən, başlıca hissim – qəzəbdir, ikincisi – Kristiana minnətdarlıq... Onun hərəkətindən heyrətdəyəm, amma yenə də başlıca hiss – qəzəb mənə hakim kəsilib. Hə, mən qəzəblənirəm, xüsusən kitablarla bağlı ona dediyim bir yığın sözdən sonra… amma o, bu maşını haçan alıb. Kristian əlimdən tutur və cığırla yeni avtomobilə doğru aparır.

– Anasteyşa, sənin ―Folksvagen‖in çox köhnədir və düzünü desək, çox təhlükəlidir. Hər şeyi yoluna qoya biləcəyim halda başına bir iş gəlsə, özümü bağışlaya bilmərəm.

O susur və diqqətlə mənə baxır, amma baxışlarımızla toqquşmağa cəsarətim çatmır. Sakitcə parlaq-qırmızı, füsunkar maşına baxıram.

– Atalığına bu haqda demişdim. O, seçimimi bəyəndi, – Kristian deyir.

Qəzəblə çevrilirəm və sərt baxışımı ona zilləyirəm.

– Sən Reyə demisən? Axı niyə!

Sözlər boğazımda ilişib qalır. Sən bir cürətə bax! Yazıq Rey. Halım pisdir, atalığıma görə özümü təhqir olunmuş hesab edirəm.

– Anasteyşa, bu hədiyyədir. Yəni buna görə minnətdarlıq bildirmək olmazdı?

– Çox bahalı hədiyyə... Sən də bunu bilirsən.

– Ancaq mənimçün deyil, söhbət ruhi rahatlığımdan gedirsə.

Qaşqabaqla ona baxır, deməyə söz tapmıram. O, sadəcə, başa düşmür! Onun həmişə pulu olub. ―Di yaxşı, həmişə yox – uşaq vaxtında olmayıb‖, – deyə fikirləşərək dünyaya baxışımı dəyişirəm. Bu fikirlərdən donubqalıram və maşına görə artıq hirslənmirəm, əksinə, öz qəzəbimə görə özümü günahkar hiss edirəm. Kristian xeyirxah məqsədlərdən bu addımı atıb, bəlkə bu, o qədər də düzgün addım olmayıb, amma əsla xətrimə dəymək istəməyib.


kitabyurdu.blogspot.com

– Bu maşını mənə noutbuk kimi icarəyə versən, sevinərəm.

Kristian dərindən köks ötürür.

– Yaxşı, verərəm. Qeyri-müəyyən müddətə, – deyir və ürkək-ürkək mənə baxır.

– Qeyri-müəyyən müddətə yox. Müvəqqəti. Çox sağ ol.

O, üz-gözünü turşudur, amma mən cəld yanağından öpürəm və açıq-aşkar qılıqlı səslə deyirəm:

– Maşın üçün sağ ol, ağa.

Qəfildən Kristian məni tutub özünə çəkir, bir əliylə belimdən tutur, o biriylə saçlarımdan yapışır.

– Cəsarətli qızsanmış, Anas Stil!

O, ehtirasla məni öpür, diliylə dodaqlarımı aralayır və fikirləşirəm ki, mənə aman olmayacaq.

Qanım coşur və ona qaytardığım öpüş Kristianınkı kimi ehtiraslıdır. Kristianı dəlicəsinə istəyirəm: maşına, kitaba, yolverilən hədlərə baxmayaraq… çubuqla döyülməyə… Onu istəyirəm.

– Səni elə bu dəqiqə, maşının kapotunda s..məkdən özümü güclə saxlayıram və sübut etmək istəyirəm ki, mənimsən, əgər sənə bu cındır maşını almaq istəyirəmsə, deməli, alacam, – o nərildəyir. – İndisə səni evə aparaq və soyunduraq.

Kristian mənə kobud və şirin öpüş bəxş edir. Deyəsən, o əməlli-başlı hirslənib. Əlimdən tutaraq məni evə aparır, dübbədüz otağıma… Təhtəlşüurum yenidən divan arxasında gizlənir və əlləriylə başını gizlədir. Kristian gecə çırağını yandırır və mənə baxaraq dayanır.

– Zəhmət olmasa, mənə hirslənmə, – pıçıldayıram.

Onun baxışı heç nə ifadə eləmir, soyuq boz gözlər bulanıq şüşənin qırıntılarına bənzəyir.

– Kitab və maşın məsələsinə görə peşmanam, – deyib susuram.

Kristian düşüncəli halda susur.

– Hirslənərkən səndən qorxuram, – ona baxaraq nəfəsimi buraxıram.



kitabyurdu.blogspot.com

O, başını yelləyir və gözlərini yumur. Gözlərini açdıqda üzünün ifadəsi artıq yumşalmış olur. O, dərindən ah çəkir və udqunur.

– Çevril, – deyir. – Səni bu paltardan çıxarmaq istəyirəm.

Əhvali-ruhiyyənin növbəti dəyişkənliyi... bu, adamdan asılı məsələ deyil. İtaətkarlıqla çevrilirəm, ürəyim dəlicəsinə çırpınır, naqolaylıq tədricən istəklə çıxdaş edilir, ehtiras qanla bütün bədənimə yayılır və hardasa içimin dərinliklərində yumaqlanır. Kristian kürəyimdəki saçları toplayır və onlar dalğavari olaraq sağ çiynimdən sinəmə yayılır. O, şəhadət barmağıyla peysərimə toxunur və əzabverici ləngliklə fəqərə sümüyüm boyu sürüşdürür. Cilalı dırnağıyla belimi azca cızır.

– Bu paltar xoşuma gəlir, – Kristian donquldanır. – Sənin qüsursuz dərinə baxmaq xoşuma gəlir.

Belimin ortasında barmağın hərəkəti paltarın kənarında dayanır. Kristian barmağını parçaya soxur və məni özünə elə çəkir ki, arxam ona yapışır. Onun bədənimə necə nüfuz etdiyini və saçlarımı qoxuladığını duyuram.

– Səndən elə gəşəng qoxu gəlir ki, Anasteyşa, elə şirin ki!..

O, burnuyla qulağıma toxunur, boynumla aşağı enir və çiynimdə zərif, incə öpüş sədəfi qoyur. Tənəffüsüm sürətlənir, indi o kəsik, ümidlə doludur. Kristianın barmaqlarını libasımın zəncirində hiss edirəm. O, iztirablı ləngliklə onu açır, Kristianın dodaqları o biri çiynimə doğru hərəkət edənə qədər o, dərimi öpür və yalayır. Bədənim məharətli nəvazişə hay verir, ixtiyarsız olaraq əzilib-büzülürəm.

– Sən. Mütləq. Öyrənməlisən. Farağat. Dayanmağı, – o pıçıldayır... hər bir sözü öpüşlə bir-birindən ayıraraq...

O, boynumdakı boyun qayışını açır, paltar yerə və ayaqlarım sanki gölməçəyə düşür.

– Siz büsthaltersizsiz, miss Stil. Bu xoşuma gəlir.

Kristian əlini sinəmə qoyur və onun toxunuşlarından döşlərim şişir.

– Əllərini qaldır və onları başımın arxasına qoy, – lap astadan boynuma pıçıldayır o.



kitabyurdu.blogspot.com

Mən itaət edirəm, döşlər yuxarı qalxır və Kristianın biləklərinə dayaqlanır, məmələr daha da möhkəmlənir. Əllərimi onun yumşaq, seksual saçlarına keçirirəm və ehtiyatla dartıram. Başımı yana əyirəm, boynumu onun öpüşlərinə təslim edirəm.

– M-m-m… – o, qulağımın arxasındakı çökəyə pıçıldayır və barmaqları ilə döşlərimi oxşamağa başlayır, əllərimin saçlarındakı hərəkətini təkrarlayaraq.

Qarnımın altındakı həzz sancısından iniltimi boğa bilmirəm.

– Bəlkə elə-belə qurtarasan? – Kristian pıçıldayır.

Belimi əyirəm, döşlərimi qabağa, əllərinin içinə təslim edirəm.

– Xoşunuza gəlir, miss Stil, eləmi?

– M-m-m…

– De!

O, asta, hissiyyatlı işgəncəni davam etdirir, incə tərzdə döşlərimi burur.

– Hə.

– Nə –hə‖?

– Hə… ağa.

– Ağıllı qız.

Qəfildən Kristian məni güclü şəkildə çimdikləyir və ona qısılmış bədənim pərişan halda qıclaşır.

Kəskin, zərif, həzzqarışıq qarışıq ağrıdan ah çəkirəm. Kristianın bədənini duyuram. Daha bir inilti çıxararaq, saçlarından daha güclü yapışıram.

– Məncə, hələ qurtarmağa hazır deyilsən, – Kristian pıçıldayır, zərifliklə qulağımın sırğalığını dişləyir və döşümü oxşamağı dayandırır. – Həm də səndən narazıyam.

―O-o, yox… bu nə deməkdir?‖ – ehtirasdan dumanlanmış beynimdən bu fikir keçir.

– Ola bilsin ki sənə, ümumiyyətlə, qurtarmağa icazə verməyim.


kitabyurdu.blogspot.com

O, yenidən məmələrimi oxşamağa başlayır, barmaqları fırladır, dartır, çimdikləyir. Mən inləyir və dalımla ona qısılıram.

Boynuma necə gülümsədiyini hiss edirəm, əllərisə aşağı, ombalarıma doğru hərəkət edir. Onun barmaqları arxadan tumanıma girir, parçanı dartışdırır, sonra o, kəskin hərəkətlə tumanımı cırır və qabağıma atır ki, mən onu görə bilim … Bax a. Onun əlləri daha aşağıya doğru enir… və astaca barmağını içimə soxur.

– O-o, hə, mənim şirin qızcığazım artıq hazırdır, – Kristian pıçıldayır, məni özünə tərəf çevirir və tənəffüsü sürətlənir. O, barmağını yalayır. – Siz elə dadlısınız ki, miss Stil.

O köks ötürür və yarıqapalı göz qapaqları arasından mənə baxaraq sakitcə əmr edir:

– Məni soyundur.

Əynimdə heç nə yoxdur – hündürdaban tuflilərdən başqa; heç onlar da mənim deyil, Keytindir. Özümü itirmişəm. Hələ heç vaxt kişi soyundurmamışam.

– Başla, sən bacararsan, – Kristian zərif tərzdə məni həvəsləndirir.

İlahi! Özümü itirmiş halda gözlərimi döyürəm. Nədən başlayım? Futbol köynəyindən yapışıram, amma o, əlimdən yapışır və hiyləgərcəsinə gülümsəyərək başını yelləyir.

– Yox, yox. Bircə futbol köynəyi olmasın, mənim bəzi planlarım var, ola bilsin ki, mənə toxunmağın lazım gəldi.

Bu, nəsə, yeni bir şeydir … mən ona paltardan toxuna bilərəm. O, əlimi tutur, cins şalvarının üstünə qoyur və mən onun ereksiyasını duyuram.

– Mənə bax belə təsir edirsiniz, miss Stil.

Ağzımla havanı tuturam və barmaqlarımı azca sıxıram. Kristian gülümsəyir.

– İçində olmaq istəyirəm. ġalvarımı çıxart. Sən əmr edirsən.

Ah, bax a… mən əmr edirəm! Heyrətdən ağzım açıla qalıb.

– Hə, mənimlə nə edəcəksən? – Kristian məni cırnadır.


kitabyurdu.blogspot.com

İmkanlar o qədər çoxdur ki… Daxili ilahəm sevincdən nərildəyir, Stil ailəsinə xas olan içim istəklə, narazılıq və qarşısıalınmaz şücaətlə dolub-daşır. Kristianı çarpayıya itələyirəm və o gülərək yatağa sərələnir. Əzəmətli baxışla ona zillənirəm, daxili ilahəm indi səbirsizlikdən bu dəm partlamağa hazırdır. Naqolay və tələskən halda Kristianın tufli və corablarını çıxarıram. Onun gözləri həzz və ehtirasdan parlayır. O necə də… füsunkar… və mənimdir. Çarpayıya çıxıram və üstündə otururam ki, cins şalvarının düyməsini açım, əllərimi qurşaqdan içəriyə salıram, toxunuram… ox… tükləri dartıram. Kristian gözlərini yumur və əzilib-büzülür.

– Sən sakit uzanmağı öyrənməlisən, – sərt şəkildə deyirəm və qarnının altındakı tükləri dartıram.

Kristian nəfəsini içəri çəkir və gülümsəyir.

– Hə, miss Stil, – o, parlayan baxışları ilə gülümsəyir və pıçıldayır, sözünə güclə davam edir: – ġalvarın cibində prezervativ var.

Cibi asta-asta araşdırıram, gözlərimi Kristiandan çəkmirəm. Onun ağzı yarıaçıqdır. Cığaradan iki paket dartıb çıxarıram, Kristianla yanaşı çarpayıya qoyuram. İki! Tələsik şalvarının düyməsinə sarı əyilirəm və naqolay barmaqlarımlıa onu açıram. Ehtirasdan od tutub yanıram.

– Yaman əzmkarsınız, miss Stil, – Kristian zarafatla deyir.

Zəncirin dilini aşağı dartıram və anlayıram ki, cins elə-belə onun əynindən çıxmayacaq… hm. Aşağı sürüşürəm və dartıram. Cins azca aşağı enir. Qaşlarımı çatıram. Axı niyə belə çətindir?

– Əgər bundan sonra da dodağını dişləsən, mən fərağat uzana bilmərəm, – Kristian xəbərdarlıq edir, sonra belini yuxarı qaldırır, mən cins şalvarı və tumanı birgə dartıb çıxarıram – bax ha! – və onu geyimdən xilas edirəm.

O, ayağı ilə paltarı kənara tullayır: indi tam şəkildə mənimdir, onunla istədiyimi eləyə bilərəm. Miladdakı kimi.

– Nə etməyi düşünürsən? – Kristian nəfəsini buraxır, zarafatcıl ağəngindən artıq heç nə qalmayıb.

Ona toxunur, baxışımla simasını tədqiq edirəm. O, ağzını açır və havanı dərindən içəri çəkir. Dərisi incə və şümaldır, amma həm də elastik – m-m-m, füsunkar uyarlıq! Kristiana sarı əyilirəm, saçlar üzümə tökülür və budur, s.. ağzımdadır. Var gücümlə sovururam. Kristian gözlərini qapadır, onun ombaları bədənimin altında dartınır.

– Oh, Ana, bir az yavaş…

Özümü heç zaman olmadığı kimi qüdrətli hiss edirəm. Onu dadıram, dilim və dodaqlarımla cırnadıram və bu hiss məni məst edir. Başımı yuxarı-aşağı hərəkət etdirirəm, demək olar ki, s..i udaraq, dodaqlarım kip sıxılıb… yenə və bir daha… Kristianın bədəni gərilir.

– Bəsdi, Ana, yetər. Mən hələ qurtarmaq istəmirəm.

Oturuparam və kirpiklərimi qırpıram. Tənəffüsümün ritmi pozulub, özümü tam itirmişəm. Dayanın, məgər burda mən əmr vermirəm? Deyəsən, daxili ilahəmin dondurmasını əlindən alıblar.

– Sənin bakirəliyin və əzmkarlığın adamın ağlını əlindən alır, – Kristian güclə tələffüz edir. – Sən üstdən… bizə lazım olan budur.

Ox.

– Al, üstünə keçirt. – O, cığaradan paket çıxarır.

Lənət şeytana. Necə geydirim? Paketi cırıram və yapışqan, elastik prezervativi dartıb çıxarıram.

– Barmağınla ucundan tut və fırlatmaqla aç. Ona hava gərək deyil, – Kristian ağır-ağır nəfəs alaraq məsləhət görür.

Çox ləng tərzdə, var gücümü toplayaraq buyrulduğu kimi hərəkət edirəm.

– İlahi, Anasteyşa, məni öldürürsən …

Gördüyüm işdən və Kristiandan həzz alıram. O, həqiqətən insan növünün gözəl nümayəndəsidir, ona bircə dəfə nəzər yetirməklə ehtiraslanıram.

– İnd... içində olmaq istəyirəm, – o pıçıldayır.

Anlamaz baxışla ona baxıram. Bu an Kristian kəskin hərəkətlə yerindən qalxır və budur, biz üz-üzə oturmuşuq.


kitabyurdu.blogspot.com

– Məsələn, belə, – köks ötürür, əlləriylə ombalarımdan yapışır, azca qaldırır, bircə hərəkətlə altımda oturur və astaca içimə girir.

İniltimi boğa bilmirəm, içimə keçərkən, məni dartışdırır və içdən doldurur. Necə də heyrətamiz, şirin, füsunkar tamlıq duyğusudur! O-o-o… xahiş edirəm!

– Hə, balaca, məni hiss elə, bütünlüklə, – Kristian inləyir və bir anlığa gözlərini qapadır.

Və budur, onun s..i içimdədir, dərində, dibdə, sonadək və Kristian məndən yapışıb, tərpənməyə imkan vermir… saniyələr… dəqiqələr… bilmirəm. O, gözlərimin içinə baxır.

– Necə də dərindir, – astaca deyir, əyilir və ombaları ilə hərəkət edir.

Ağzından inilti çıxır – ilahi! – və füsunkar hiss dairə vuraraq qarnıma... bütün bədənimə yayılır.

– Yenə! – pıçıldayıram.

Kristianın dodağı azca qaçır və mənim xahişimi yerinə yetirir.

İnildəyərək başımı geri atıram, saçlarım kürəyimə dağılır. Kristian çox asta şəkildə geriyə, çarpayıya doğru enib uzanır.

– Hərəkət et, Anasteyşa, yuxarı-aşağı, necə istəyirsən. Əllərimdən tut, – asta, xırıltılı və seksual səslə deyir o.

Onun əllərindən yapışıram: boğulan adam saman çöpündən yapışan kimi. Ehtiyatla ombalarımı qaldırır endirirəm… ləzz-zət! Kristianın gözləri ehtirasdan odlanıb yanır. O da ağır-ağır nəfəs alır və ombalarını qaldırır – mən endirərkən. Biz lazımi ritmi tapırıq: yuxarı-aşağı, yuxarı-aşağı, ahənglə hərəkət edirik… və bu… iztirabdır… xoşdur. Kəsik-kəsik nəfəs alıb-buraxmalarda, bu füsunkar iç doyumda… gözəl hisslərin nəbzi atır və güclənir, Kristianın gözlərinə baxıram… və onlarda heyranlıq, məndən duyduğu heyranlığı görürəm.

Mən onu s..irəm. Mən ona əmr edirəm. O, mənə məxsusdur, mən də ona. Bu fikir məni vəcdə gətirir, bədənim ağırlaşır, daha özümü saxlaya bilmirəm və onun ətrafında şirin titrəyişlə yığılır, nəsə anlamsız şeylər çığırıram. O, ombalarımdan yapışır, gözlərini qapadır, çənəsini sıxır və

mənim kimi qurtarır. Sinəsinə çökür, taqətsiz halda təxəyyüllə gerçəklik arasına düşürəm; orda qadağalar, hədlər və rüsxətlər yoxdur.

## 16-cı fəsil

Zahiri aləm tədricən hisslərimə təcavüz edir – ilahi, bax bu, əsl təcavüzdür! Mən sanki üzürəm, boşalmış bədənim tamamilə taqətsizdir və qımıldana bilmir. Kristianın üstündə uzanmışam, başım sinəsi üzərindədir. Ondan çox xoş iy gəlir: tərtəmiz yuyulmuş paltar, bahalı duş geli və dünyada ən yaxşı, ən ehtiraslandırıcı qoxu… özü. Hərəkət edə bilmir, bu qoxunu daim içimə çəkmək istəyirəm. Burnumu Kristianın futbol köynəyinə dürtürəm və bədəninə girişi mənə qapatdığı üçün heyifsilənirəm. Tədricən özümə gəlir, əlimi uzadıram və ilk dəfə sinəsinə toxunuram. O elə möhkəm... qüvvətlidir ki... Kristian kəskin hərəkətlə əlimdən tutur, onu dodaqlarına yaxınlaşdırır və kobudluğunu yumşaldaraq, barmaqlarımın sümüklərini nəvazişlə öpür. Qarnı üstə uzanır və yuxarıdan-aşağı mənə baxır.

– Lazım deyil, – xəfifcə deyir və zərifliklə məni öpür.

– Niyə sənə toxunulmasını xoşlamırsan? – boz gözlərə baxaraq pıçıldayıram.

– Çünki zülmün əlli çaları ilə özüm də üzləşmişəm, Anasteyşa.

Ox… onun səmimiliyi adamı heyran edir. Gözümü döyürəm.

– Həyatımın ilk dövrü çox ağır keçib. Səni təfsilatla yormaq istəmirəm... sadəcə istəmirəm.

Kristian burnunu burnuma dayayır, sonra çarpayıda oturur.

– Məncə, başlıca şeyləri biz artıq keçmişik. Necədi?

O, özündən çox razı görünür, amma işgüzar tonda danışır, sanki siyahıda növbəti bəndə ―quş‖ qoyub. Mən hələ də onun ağır həyat barədə sözünü unuda bilmirəm. Bu dözülməzdir, mən onun uşaqlığı haqda hədsiz dərəcədə daha çox bilmək istəyirəm, lakin çətin ki o, bu barədə danışsın. Başımı yana əyir, onu yamsılayır və güclə gülümsəyirəm.

– Axı düşünmürsünüz ki, həqiqətən də, nəzarəti mənə verdiyinizə inanıram? Əgər belə düşünürsünüzsə, deməli, intellekt səviyyəmi nəzərə almırsınız. – Hiyləgərcəsinə gülürəm. – Amma hər halda, illüziya üçün çox sağ olun.

– Miss Stil, siz sadəcə gözəl qız deyilsiniz. Artıq altı orqazmınız olub və hamısı mənim hesabıma, – Kristian da hiyləgərcəsinə fəxr edir.

Üzüm allanır və onun baxışları altında utandığımdan gözlərimi döyürəm. Doğrudanmı o hesab aparır? Kristian qaşlarını çatır.

– Mənə nəsə demək istəyirsən? – Qəfildən səsi ciddiləşir.

Qaşqabağımı tökürəm.

– Səhər yuxu görmüşdüm.

– Hə? – Kristian zalimanə görkəmlə mənə baxır.

İşə düşdükmü?

– Yuxuda qurtardım.

Əlimlə gözlərimi qapadıram. O susur. Barmaqlarım arasından ehtiyatla ona baxıram. Deyəsən, o heyrətlənib.

– Yuxuda?

– Hə, sonra oyandım.

– Şübhə etmirəm. Yuxuda nə görürdün?

Lənət şeytana.

– Səni.

– Nə edirdim?

Yenə də əlimlə üzümü örtürəm. Sanki balaca uşağa hansısa anda elə gəlir ki, mən onu görmürəmsə, o da məni görmür.

– Anasteyşa, sonuncu dəfə soruşuram, yuxuda nə görürdün?

– Əlində qamçı vardı.

Kristian əlimi üzümdən götürür.

– Doğrudan?

– Hə, – deyirəm və qıpqırmızı qızarıram.

– Deməli, düzəlməyinə ümid var. Mənim bir neçə qamçım var.

– Hörmə çəhrayı dəridən?

O gülür.

– Yüzəyüz beləsini də taparam, – Kristian deyir və onun boz gözləri həzzdən parlayır.

Əyilərək o, məni yüngülcə öpür, ayağa qalxır və yerdən bokser tumanını götürür. Ah, yox… o gedir. Tez saata baxıra:, hələ 10.00-a iyirmi dəqiqə qalır. Tədricən yataqdan qalxıram, məşq şalvarı və maykanı əynimə geyinirəm, sonra yenə, ayaqlarımı çarpazlayaraq və otururam ona baxıram. Onun getməsini istəmirəm. Nə edim?

– Aybaşın nə vaxt olur? – Kristian düşüncələrimi dağıdaraq soruşur.
– Ona heç dözümüm yoxdur, – prezervativi göstərərək deyinir, sonra onu yerə qoyur və şalvarını geyinir.–Hə?‖ deyə təkid edir, mən cavab vermədikdə isə intizarla üzümə baxır, sanki hava haqda rəyimi bilmək istəyir.

Poxa düşdük də! Bu, özəl informasiyadır.

– Gələn həftə, – əllərimə baxaraq donquldanıram.

– Kontrasepsiya məsələsini həll etmək gərəkdir.

Əmr verməyi necə də xoşlayır! Səfeh görkəmlə ona baxıram, osa çarpayıda oturaraq corablarını, ayaqqabılarını geyinir.

– Həkimin varmı?

Başımı yelləyirəm. Biz yenidən aktivlər üzərində nəzarətin başqasına ötürülməsi mövzusuna qayıtmışıq, yüz səksən dərəcəlik növbəti dönüş.

Kristian üzünü turşudur.

– Öz həkimimi sənin yanına göndərəcəm. Bazar günü, səhər, sən yanıma gələnədək. Ya da səni evimdə müayinədən keçirər. Necə olsun?

Bu nə deməkdir: o, mənə təzyiq göstərmir? Haqqını ödədiyi daha bir dəlilik… hərgah öz maraqlarına uyğun.

– Sənin evində.

Deməli, bazar günü onu mütləq görəcəm.

– Yaxşı, vaxtı sənə bildirərəm.

– Gedirsən?

–Getmə… Mənimlə qal, xahiş edirəm‖, – qışqırmaq istəyirəm.

– Hə.

–Axı niyə?‖ – sual dodaqlarımdan qopmağa hazırdır. Bunun əvəzinə pıçıldayıram:

– Nəylə gedəcəksən?

– Teylor aparacaq.

– Səni apara bilərəm. Yeni, həm də əla maşınım var.

O, hərarətli baxışla mənə nəzər yetirir.

– Bax bu, tamamilə başqa məsələ. Amma məncə, sən yaman çox içmisən.

– Sən bilərəkdən məni dəmləndirdin?

– Hə.

– Niyə?

– Sən yaman çox fikirləşirsən – atalığın kimi. Dilini ancaq bir az içdikdən sonra açmaq olar, mənsə istəyirəm ki, mənimlə səmimi olasan. Ağlından nə keçirdiyini hec cür anlamıram. Həqiqət şərabda gizlənir, Anasteyşa.

– Sənsə guya mənimlə həmişə səmimisən?

– Çalışıram. – O, ürkək nəzərlə mənə baxır. – Münasibətlərimiz yalnız o vaxt qaydasında olacaq ki, səmimi dost olaq.


kitabyurdu.blogspot.com

– Sənin qalmağını və bundan istifadə etməyini istəyirəm, – deyirəm və ona ikinci prezervativi göstərirəm.

O gülümsəyir, gözləri şən halda gülür.

– Anasteyşa, mən bu gün onsuz da çox uzağa getmişəm. Getməliyəm. Bazar günü görüşərik. Müqavilənin yeni nüsxəsini hazırlatdıraram və biz əsl oyuna başlayarıq.

– Oyuna?

Lənət... Ürəyim daralır.

– Səninlə səhnə təşkil eləmək istəyirəm, amma gözləyəcəm, müqaviləni imzalayana qədər. Onda biləcəm ki, sən hazırsan.

– O-o, deməli, müqaviləni uzadana qədər vədi uzada bilərəm?

Kristian müştəri gözü ilə məni süzür, sonra əyri təbəssümlə gülümsəyir.

– Prinsipcə, hə, amma dözməyib sına da bilərəm.

– Necə?

Daxili ilahəm yuxudan oyanıb və diqqətlə dinləyir. Kristian gülümsəyir... deyəsən o, məni cırnadır.

– Çox təhlükəli olacam.

Təbəssümü valehedicidir.

– Necə yəni?

– O-o, bilirsənmi, hər cür partlayışlar, avtomobil təqibləri, adam qaçırma, azadlıqdan məhrum etmə.

– Məni oğurlayacaqsan?

– Hə-ə, – Kristian rişxəndlə gülümsəyir.

– Və zorla saxlayacaqsan?

Bax a, lap adamı ehtiraslandırır!

– Əlbəttə. Onda söhbət hakimiyyətin tam şəkildə təhvil verilməsindən gedəcək.

– Bu nə deməkdi?

Ağır-ağır nəfəs alıram, ürəyim quduz nəbzlə döyünür. O ciddi danışır?


kitabyurdu.blogspot.com

– Sutkanın iyirmi dörd saatı sənə nəzarət edəcəm.

Kristianın gözləri parlayır, hətta oturduğum yerdən belə onun sevincli həyəcanını duyuram.

Lənət şeytana!

– Qısası, seçimin yoxdur, – kinayəylə qeyd edir.

– Əlbəttə.

Səsindəki kinayənin mənasını aça bilmirəm, gözlərimi süzdürürəm.

– Anasteyşa Stil, elə indicə gözlərini süzdürdün.

– Yox, – ciyildəyirəm.

– Hə-ə. Bir də yanımda gözlərini süzdürsən, mən nə edə bilərəm? – Kristian çarpayının kənarında oturur və sakitcə əmr edir: – Bura gəl.

Rəngim solur. İlahi… o ciddidir. Tamamilə qımıldanmadan oturmuşam və ona baxıram.

– Mən hələ müqaviləni imzalamamışam…

– Sözümə həmişə əməl edirəm. İndi səni şapalaqlayacam, sonrasa cəld və ağrıdıcı s..əcəm. Deyəsən, prezervativ bizə, doğrudan da, lazım olacaq.

O, sakit, təhdidli səslə və son dərəcə seksual danışır. İçalatım yumağa dönür isti, acgöz, bütün bədənimə yayılan istəkdən. Kristian ehtiraslı gözləriylə mənə baxır, gözləyir. Həvəssiz halda ayaqlarımı düz qoyuram. Bəlkə qaçım? Budur, münasibətlərimiz tükdən asılı qalıb, burda və indi. Razılaşım, yoxa imtina edim? İmtina eləsəm, hər şey bitəcək. Mən dəqiq bilirəm. ―Razılaş!‖ – daxili ilahəm yalvarır, təhtəlşüurum isə, demək olar ki, iflic olub.

– Gözləyirəm, – Kristian deyir, – mənsə gözləməyi xoşlamıram.

Ah, aman Tanrım! Ürkmüş və ehtiraslanmış halda ağır-ağır nəfəs alıram. Qanın bədənimdə necə atdığını, ayaqlarımın pambıq kimi olduğunu duyuram. Yavaşca Kristiana sarı sürünürəm.

– Ağıllı qız, – deyir. – İndi ayağa qalx.

Poxa düşdük … yəni bunu tez-tələsik bitirmək olmaz? Bilmirəm: ayaq üstə qala biləcəyəmmi? Qətiyyətsiz qalxıram. Kristian əlini uzadır və

mən prezervativi onun ovcuna qoyuram. Qəfildən o, məni tutur və bədənimi dizləri üstə əyir. Azca çevrilir və gövdəm çarpayıda onunla yanaşı qalır. Kristian sağ ayağını ombalarım üstündən aşırır və sol əlini kürəyimin arasına elə qoyur ki, tərpənə bilmirəm.

– Əlini başına qoy, – o əmr edir.

Dərhal itaətkarlıq göstərirəm.

– Anasteyşa, mən bunu niyə edirəm? – Kristian soruşur.

– Çünki gözlərimi sənin yanında süzdürdüm, – güclə tələffüz edirəm.

– Səncə, bu nəzakətli davranışdır?

– Yox.

– Bir də belə edəcəksən?

– Yox.

– Gözlərini süzdürdükdə səni hər dəfə şapalaqlayacam, anladın?

O, yavaş-yavaş şalvarımı aşağı endirir. Bu aşağılayıcı, qorxuludur və adamı çox ehtiraslandırır. Kristian əsl tamaşa qurub və bundan açıq-açkar həzz alır. Ürəyim az qalır yerindən atlansın, güclə nəfəs alıram. Lənət şeytana, yəqin ki, ağrıdacaq?

Kristian əlini çılpaq g..ümə qoyur, onu ovcu ilə zərifliklə oxşayır. Sonrasa əlini götürür … yanbızlarımı möhkəm şapalaqlayır. Oy! Ağrıdan gözlərim alnıma çıxır, qalxmağa çalışıram, lakin Kristian imkan vermir: onun yanı kürəyimin ortasındadır. O, indicə vurduğu yeri sığallayır, tənəffüsü güclənir və xırıltılı olur. Məni bir daha şapalaqlayır və yenə. Ağrıdır! Susuram, ancaq ağrıdan üzümü turşuduram. Adrenalin dalğası bədənimə yayılır və onun təsiriylə mən iztirab çəkirəm, zərbələrdən yayınmaq istəyirəm.

– Sakit dur, – Kristian xəbərdarlıq edir, – yoxsa daha çox şapalaqlayacam.

O, məni sığallayır, sonrasa şapalaqlayır. Ritmik mənzərə yaranır: nəvaziş, oxşama, kəskin zərbə. İşgəncəyə dözmək üçün diqqəti cəmləmək gərəkdir. Zəkam boşalır, ağır hissiyyata alışmağa çalışıram. Kristian eyni yerə iki dəfə şapalaq vurmur, o, ağrını ətrafa yayır.


kitabyurdu.blogspot.com

– A-a-a! – onuncu şapalaqdan sonra bərkdən çığırıram: sən demə, fikrən zərbələri saymışam.

– Mən hələ indi həvəslənmişəm.

Kristian yenidən məni şapalaqlayır. Yandırıcı zərbə və incə oxşamanın harmoniyası ağlımı başımdan alır. Bir daha şapalaqlayır… dözülməzdir. Üzüm ağrıyır, çünki çox güclü qırışdırıram. Yenidən qışqırıram.

– Səni heç kim eşitməyəcək, balaca.

Zərbə... bir daha. Qəlbimin dərinliyində Kristiana yalvarmaq istəyirəm ki, divan tutmanı dayandırsın, amma susuram. Ona bu həzzi nəyin bahasına olur-olsun, verməyəcəyəm. Qərarlı ritm davam edir. Daha altı dəfə qışqırıram. Ümumən on səkkiz zərbə. Bədənim sanki rəhmsiz zərbələrdən nəğmə oxuyur.

– Bəsdir, – Kristian xırıltılı səslə deyir. – Əla, Anasteyşa. İndi səni s..əcəm.

O, yanbızlarımı və getdikcə aşağı, lap aşağı düşərək dərimi incə toxunuşlarla oxşayır. Qəfildən o, iki barmağını içimə soxur və mən diksinirəm, ağzımla havanı tuturam. Bu yeni işgəncə dumanlı beynimi ayıldır.

– Məni hiss et. Bax gör bu, bədəninə xoş gəlirmi. Sən artıq axırsan, yalnız mənimçün, – deyir və onun səsində iftixar hiss olunur.

Kristian iki barmağını gah içimə soxur, gah da çıxarır, daha və bir daha sürətlə.

Böyürürəm… yox, bitdi; yox… qəfildən o əlini götürür… və mən istəyimlə təkbətək qalıram.

– Gələn dəfə səni ucadan saymağa məcbur edəcəm. Prezervativ hardadır?

O, prezervativi barmaqları arasında oynadır, məni ehtiyatla qaldırır və üzü üstə uzadır. ġalvarın açılan zəncirininn xışıltısını və folqa kağızının cırıltısını eşidirəm. Kristian şalvarımı dartıb çıxarır, ehtiyatla dizlərimi qatlayır və nəvazişlə göynəyən yanlarımı oxşayır.


kitabyurdu.blogspot.com

- İndi sənə soxacam. Qurtara bilərsən, – o pıçıldayır.

Nə? Guya başqa çıxış yolum var.

Və budur o, artıq, içimdədir, məni qabardır və artıq iniltimi gizlədə bilmirəm. Kristian kəskin, güclü təkanlarla içəri dürtür, onun bədəni dözülməz dərəcədə ağrıyan, şapalaqlanmış g..ümə yapışıb. Dözülməz kəskin hiss – yandırıcı, xəcalətli və çox ehtiraslı. Başqa hisslər boğulub, ya da yox olub, mən fikrimi ancaq Kristianın mənimlə qarnımın dərinliyində artıq tanıdığım, sürətlə artan yerlə etdiklərinə cəmləmişəm. YOX... bədənim mənə xəyanət edir və dağıdıcı orqazmla partlayır.

- O-a, Ana! – Kristian qışqırır və qurtarır, möhkəm şəkildə məndən yapışaraq və tərpənməyə imkan verməyərək, həzzi sonadək dadaraq. Sonra ağır-ağır nəfəs alır, taqətsiz halda yanıma yıxılır, məni özünə elə çəkir ki, onun üstünə çıxmış oluram və özünü saçlarım arasında gizlədir. – Ah, balaca, – nəfəsini buraxır, – mənim dünyama xoş gəldin.

Uzanmışıq, havanı acgözlüklə uduruq və tənəffüsümüzün zəifləməsini gözləyirik. Kristian nəvazişlə saçlarımı sığallayır. Yenə sinəsi üstəyəm, amma indi taqətsizəm, əlimi qaldırıb ona toxuna bilmirəm. Bax a… hələ də sağam. Daha dözümüm yoxdur, fikirləşdiyimi eləməyə belə. Daxili ilahəm boşluqdadır… hə, ən azı, səsi eşidilmir. Kristian saçlarımı iyləyərək dərindən nəfəs alır.

- Əla, balaca, – səsindəki sevinc hissiylə o pıçıldayır.

Onun sözləri məni ―Hitman‖ otelindəki yumşaq, tüklü məhrəbaya bükür və mən sevinirəm ki, Kristian razıdır. O, maykamın bretelini dartır.

- Doğrudanmı sən bunda yatırsan?

- Hə, – yuxulu halda tələffüz edirəm.

- Belə bir gözəl ipək-qumaş paltar geyməlidir. Səni mağazalarda gəzdirəcəm.

- Libasım məni tam qane edir, – qəzəblənməyə çalışaraq donquldanıram.

O, yenə başımı öpür.

- Baxarıq.


kitabyurdu.blogspot.com

Daha bir neçə dəqiqə, bəlkə də saat uzanıqlı qalırıq və deyəsən, mən mürgüləyirəm.

– Mən getməliyəm. – Kristian dodaqları ilə xəfifcə alnıma toxunur. – Özünü necə hiss edirsən?

Hansısa müddət onun sualını düşünürəm. Yanbızlarım od tutub yanır, amma qəribə olsa da, özümü yaxşı hiss edirəm, doğrudur, taqətim heç qalmayıb. Qəfildən, yetərincə aşağılayıcı dərketmə. Heç nə anlamıram.

– Yaxşı, – pıçıldayıram. Daha heç nə demək istəmirəm.

Kristian ayağa qalxır.

– Hamam otağı hardadır?

– Dəhlizlə sola.

O, yerdən prezervativi götürür və çölə çıxır. Güclə yerimdən qalxır və məşq şalvarını geyinmirəm. Parçanın toxunuşundan arxamın dərisi azca göynəyir. Məni öz reaksiyam utandırır. Kristianın sözlərini xatırlayıram (bunu dəqiq nə vaxt dediyini xatırlamıram): yaxşıca kötəklənməylə halım dərhal yaxşılaşacaq. Bu necə mümkündür ki? Hərgah, qəribə olsa da, o haqlıdır. Cəzadan heyranlıq keçirdiyimi deyə bilmərəm, sözün düzü, nəyə desən hazıram, bircə ağrı çəkməyim, amma indi… Qəribə, amma məmnunluq və təhlükəsizlik hissi duyuram. Heç nə anlamıram.

Kristian içəri daxil olur. Utandığımdan onun üzünə baxa bilmirəm, buna görə də gözlərimi əllərimə zilləmişəm.

– Uşaq yağı tapmışam. Gəl yanına çəkim.

Nə?

– Lazım deyil, hər şey normaldır.

– Anasteyşa, – xəbərdaredici səslə deyir o.

Gözlərimi süzdürmək istəyirəm, amma vaxtında bundan vaz keçirəm. Üzü çarpayıya dayanıram. Kristian yanaşı oturur və ehtiyatla məşq şalvarımı əynimdən çıxarır: növbəti dəfə. ―Yuxarı-aşağı, qəhbənin tumanı kimi‖, – təhtəlşüurum məni cırnadır. Fikrən onu harasa uzaqlara göndərirəm. Kristian ovcuna bir qədər uşaq yağı basıb tökür və qayğıkeş nəvazişlə onu dərimə sürtür. Bax a, bu cür universal məhsuldan hətta

makiyajın silinməsində də, şapalaqlanmış g.. dərisinin yanğısını sakitləşdirmək üçün də istifadə olunur.

– Sənə toxunmağı xoşlayıram, – Kristian pıçıldayır və etiraf etməyə məcburam ki, onun toxunuşu mənim də xoşuma gəlir.

– Vəssalam, – deyir o və şalvarı yuxarı çəkir.

Saata nəzər yetirirəm. On birin yarısı.

– Getmək vaxtıdır.

– Səni ötürərəm.

Əvvəlki kimi üzünə baxa bilmirəm. O, əlimdən tutur və qapıya sarı aparır. Xoşbəxtlikdən Keyt hələ evdə deyil. Ola bilsin ki, hələ də valideynləri və İtanla şam yeməyi yeyir. Səmimi-qəlbdən sevinirəm ki, necə cəzalandırıldığımı o eşitməyib.

– Məgər Teylora zəng etməli deyilsən? – baxışımı yana çəkərək soruşuram.

– Teylor saat doqquzdan burdadır. Üzümə bax, – Kristian pıçıldayır.

Gözlərimi qaldırıb ona zilləməyə özümü məcbur edirəm və heyran baxışlarla üz-üzə gəlirəm.

– Ağlamamısan, – Kristian sakitcə deyir, sonra məni qucaqlayır, ehtirasla öpür və dodaqlarıma pıçıldayır, – bazar günü...

Onun səsindən təhdid qarışıq vəd oxunur. Cığırla necə getdiyinə və qara ―Audi‖yə necə oturduğuna baxıram. O, geriyə boylanmır. Qapını örtür və köməksiz halda mənzilin qonaq otağında qalıram, burda cəmi iki gecəni keçirməyimiz qalır. Təxminən dörd il burada xoşbəxt həyat sürmüşəm… amma indi, həyatımda ilk dəf, özümlə təkbətək qaldıqda özümü narahat və pis hiss edirəm. Bəlkə mən gerçəkdən çox uzaqlaşmışam? Zahiri rahatlığım arxasında göz yaşı dənizi gizlənib. Bədbəxtlik ondadır ki, mən heç oturub düz-əməlli ağlaya da bilmirəm. Dayanmağa məcburam. Artıq gecdir, amma anama zəng etmək qərarına gəlirəm.

– Əzizim, necəsən? Buraxılış mərasimi necə keçdi? – o, sevinclə dəstəyə deyir və onun səsi mənə məlhəm kimi təsir edir.

– Bağışla ki, belə gec zəng edirəm, – pıçıldayıram.

Anam susur.

– Ana, nə baş verib? – anam ciddi tonla soruşur.

– Heç nə, anacan, sadəcə, səsini eşitmək istəyirdim.

Hansısa müddətə o susur.

– Ana, sənə nə olub? Danış.

Anamın səsi nəvazişli sakitləşdiricidir və bilirəm ki, o mənimçün səmimi-qəlbdən qayğılanır. Gözlənilməz göz yaşları... Son günlərdə o qədər ağlamışam ki!

– Ana, xahiş edirəm, – anam narahat halda deyir, sanki ağrımı ifadə edən səslə.

– Ah, ana, bütün bunlar bir kişiyə görədir.

– O, sənə nə edib?

Onun həyəcanı hiss edilən çalar alır.

– Məsələ bunda deyil.

Hərgah sözün düzü, məhz bundadır… Zibil. Kefini pozmaq istəmirəm.

– Ana, xahiş edirəm... məni qorxudursan.

Dərindən havanı içimə çəkirəm.

– Deyəsən, aşiq olmuşam, amma biz elə müxtəlif adamlarıq ki, əmin deyiləm: bir yerdə olmağımıza dəyərmi?

– Ah, əzizim, necə də yanında olmaq istərdim! Bağışla ki, buraxılış mərasiminə gələ bilmədim. Nəhayət ki, kiməsə vuruldun! Qızım, kişilər qəliz məxluqlardur! Onlar başqa biologi növə aiddir. Onunla çoxdan tanışsan?

Kristian yüzəyüz başqa növə aiddir… o, ümumiyyətlə, başqa planetdəndir.

– Təxminən üç həftə.

– Vur-tut! Bu qısa müddətdə insanı necə tanımaq olar? Dərd eləmə, sadəcə sənə layiq olduğunu anlamayınca onu özünə yaxın buraxma.


kitabyurdu.blogspot.com

Bax a… mən təsirlənmişəm, anam quşu düz gözündən vurub, amma məsləhəti bir qədər gecikib. O, mənə layiqdirmi? Maraqlı yanaşmadır. Mənsə həmişə şübhələnmişəm ki, ona layiqəmmi?

– Əzizim, səsin çox kədərlidir. Bizə gəl. Səninçün çox darıxmışam. Bob da səni görməyə çox sevinəcək. Sən şeylərə başqa bucaqdan baxa bilərsən. Sənə sadəcə istirahət gərəkdir, axı çox işləmisən.

Cazibədar təklifdir! Corciyaya qaçmaq – Günəş və kokteyllərə. Anamın yumor hissinə… onun qayğıkeş qoynuna.

– Bazar ertəsi Sietldə iki müsahibəm var.

– O-o, əla xəbərdir.

Qapı açılır və Keyt içəri daxil olur. O gülümsəyir, amma ağladığımı görüb o dəqiqə üzünü turşudur.

– Ana, sağollaşmaq vaxtıdır. Fikirləşərəm, bəlkə gəldim. Sağ ol.

– Əzizim, kişilərə ciddi yanaşma, sən hələ çox cavansan. Kefin istədiyi kimi yaşa.

– Hə, ana. Səni sevirəm.

– Mən də səni çox sevirəm, Ana. Özünü qoru.

Dəstəyi qoyur və Ketrin Kavana ilə üz-üzə qalıram. O, amansız nəzərlə mənə baxır.

– Nədi, bu pulu başından aşan səfeh yenə xətrinə dəyib?

– Yox… buna bənzər… e-e-e… hə.

– Onu cəhənnəmə yolla. Kristianla tanış olduğun vaxtdan sən özündə deyilsən. Səni heç vaxt belə görməmişəm.

Ketrin Kavananın ağ-qara dünyası sadə və şəffafdır. Onda boz rəngin sirli, bulanıq və əllə tutulmaz çalarları yoxdur. Mənim dünyama xoş gəlmisiniz!

– Otur, gəl söhbət edək, şərab içək … Hə-ə, şampan içmisiz! – Keyt şüşəni tədqiq edir. – Pis deyil a.

Mən könülsüz gülümsəyir və ürkək nəzərlə divana baxıram. –Hm… oturmaq‖.

– Sənə nə olub?

– Yıxılmışam və dalım yerə dəyib.

Sözlərimə şübhəylə yanaşmaq əsla ağlına gəlmir, halbuki bütün Vaşinqton ştatında yerişini nizamlaya bilən yeganə adamam. Heç vaxt fikirləşməzdim ki, buna sevinəcəm. Ehtiyatla otururam, hər şeyin elə də pis olmadığına çox heyrətlənərək və keytə baxıram. Qəfildən beynimdə Kristianla –Hitman‖ otelindəki söhbət peyda olur: –Əgər mənim olsaydın, dünən elədiyinə görə hələ bir həftə oturmaq çətin olacaqdı‖. Mən yalnız –əgər mənim olsaydın‖ sözlərinə fikir vermişdim, hərgah elə o vaxtlar da düşüncəmdə həyəcanlı fikirlər peyda olurdu. O an özümü itirmişdim və başıma eşq vurmuşdu, onları görə bilməzdim.

Keyt bir şüşə qırmızı şərab və yuyulmuş fincanlarla geri qayıdır.

– Hə, başlayaq?

O, şərab dolu fincanı mənə uzadır. Çətin ki o, –Blanje‖dən dadlı olsun.

– Ana, əgər bu səfeh ciddi münasibətlərdən çəkinirsə, onu unut. Əslində, sözün düzü, mən nəyisə başa düşmürəm. Buraxılış mərasimində qəbuldan sonra o, gözünü səndən çəkmirdi, sənin hər bir hərəkətini izləyirdi. Mən hətta deyərdim ki, Kristian sənə görə ağlını belə itirib, amma ola bilsin ki, o, sevgisini qəribə üsulla nümayiş etdirir.

Ağlını itirib? Kristian? Qəribə üsulla? Məhz bu.

– Keyt, hər şey çox dolaşıqdır. Bəs sən axşamı necə keçirdin? – soruşuram.

Ağzımdan artıq-əskik söz qaçırmamaq üçün Kristianla münasibətlərimizi müzakirə etmək istəmirəm. Keytin isə bir sual verməyi bəsdir, vəssalam, onu saxlamaq mümkün olmayacaq. Belə oturmaq və onun boşboğazlığına qulaq asmaq yaxşıdır, çox sakitləşdirir. – Son xəbər: İtan, ola bilsin ki, məzuniyyətdən qayıtdıqdan sonra bizimlə yaşasın. Maraqlı olacaq, İtan itoynadandır. Üzümü turşuduram. Çətin ki bu, Kristianın xoşuna gəlsin. Hərgah… günah özündədir. Qoy dözsün. İki fincan şərab içdim və yatmaq qərarına gəldim. Yorucu gün keçirdim. Keyt məni qucaqlayır və Eliota zəng eləməkdən ötrü telefonu götürür.

Dişlərimi təmizləyir və lənətə gəlmiş noutbuku yoxlayıram. Poçtda Kristiandan ismarış var.

Kimdən: Kristian Qrey
Mövzu: Sən
Tarix: 26.05.2011, 23:14
Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Sizə söz ola bilməz! Rastıma çıxanlar arasında ən gözəl, adamı anlayan, hazırcavab və cəsarətli qadınsınız. ―Advil‖ qəbul edin və bu xahiş deyil. ―Böcəy‖inizin sükanı arxasına əyləşməyin. Bunu biləcəm.

Kristian Qrey,
―Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Verdiyi məsləhətə bax: maşınımın sükanı arxasına keçməyim! Cavabın hərflərini döyəcləyirəm.

Kimdən: Anasteyşa Stil
Mövzu: Yaltaqlıq
Tarix: 26.05.2011, 23:20
Kimə: Kristian Qrey

Yaltaqlıq etməyin mənası yoxdur, amma bir halda ki artıq hər yerdə olmuşsunuz, bu, mübahisəli məsələdir. Maşını avtotəmirə aparmalıyam ki, sata biləm. Odur ki, heç bir səfeh etiraz qəbul olunmur. Qırmızı şərab həmişə ―advil‖dən yaxşıdır.

Ana

P.S. Çubuqla döyülmə mənimçün YOLVERİLMƏZ hərəkətdir.

―Göndərmək‖ komandasına vururam.


kitabyurdu.blogspot.com

Kimdən: Kristian Qrey
Mövzu: Kompliment qəbul etməyi bacarmayan karıxmış qadınlar
Tarix: 26.05.2011, 23:26
Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Mən yaltaq deyiləm. Yatmaq vaxtınızdır. Yolverilməz hərəkətlərə əlavəni qəbul edirəm.

Yetərindən artıq içki içməyin.

Teylor sizin maşının məsələsini həll edər və onu babat qiymətə satar.

Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Teylor öhdəsindən gələrmi?
Tarix: 26.05.2011, 23:40
Kimə: Kristian Qrey

Möhtərəm mister Qrey!

Təəccüblüdür ki, öz əlaltınıza maşınımı sürməyə icazə verməklə onun həyatı ilə risk edirsiniz, amma arada-bərədə s..diyiniz qadına bu imkanı vermirsiniz. Teylorun sözügedən maşını yaxşı qiymətə satacağına şübhə edirəm. Keçmişdə, hələ görüşmədiyimiz vaxtlarda mən alver etmək şöhrətinə malik idim.

Ana

Kimdən: Kristian Qrey
Mövzu: Ehtiyatlı ol!
Tarix:26.05.2011, 23:44
Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Məncə, danışan QIRMIZI ġƏRABDIR və yorucu bir gün keçirmisiniz. Hərgah məhz indi yanınıza gəlmək və bircə axşam deyil, düz bir həftə oturmağınızı əngəlləyəcək işi görmək istəyirəm.

Teylor – keçmiş hərbçidir və motosikldən tutmuş ―ġermana‖ tankınadək hər şeyi idarə etmək qabiliyyətindədir. Maşınınız onun üçün təhlükəli deyil.

Və xahiş edirəm, özünüzü ―arada-bərədə s..diyim qadın‖ adlandırmayın, çünki sözün düzü, bu məni hədsiz dərəcədə HİRSLƏNDİRİR və hirsli vaxtımda qabağıma çıxmaq xoşunuza gəlməz.

Kristian Qrey,
―Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Özün ehtiyatlı ol!
Tarix: 26.05.2011, 23:57
Kimə: Kristian Qrey

Möhtərə mister Qrey!
Əmin deyiləm ki, ümumiyyətlə, xoşuma gəlirsiniz, xüsusən indi.
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Özün ehtiyatlı ol!
Tarix: 27.05.2011, 00:03
Kimə: Anasteyşa Stil

Niyə xoşuna gəlmirəm?
Kristian Qrey,
―Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Özün ehtiyatlı ol!
Tarix: 26.05.2011, 00:09
Kimə: Kristian Qrey

Çünki heç vaxt mənimlə qalmırsan.

Bax belə... qoy fikirləşsin. Noutbuku qətiyyətlə qapadıram, əslində bu qətiyyəti özümdə hiss eləmir və yatağa uzanıram. Gecə çırağını yandırıram və tavana baxıram. Gün yaman yorucu oldu: başdan-başa əsəbi təlatümlər... Reylə vaxt keçirmək xoş oldu. O, pis görünmür və nə qədər qəribə də olsa, Kristianı dəstəkləyir. Hələ çənəsiboş Keyti demirəm. Kristianın bir vaxtlar aclıq çəkməsi barədə etiraf. Bu necə olub, lənət şeytana? İlahi, maşın. Mən Keytə maşın barədə heç nə demədim!.. Kristian məni işə saldığını heç düşünməyibmi?

Hə, bir də bu gün o, ilk dəfə məni vurdu. Məni heç vaxt döyməyiblər. Başımı gör nə cür işlərə soxmuşam. Keytin geri dönməsi göz yaşlarımı saxlamaqda mənə kömək oldu, amma indi onlar asta-asta gözlərimdən, gicgahlarımdan qulaqlarıma doğru süzülür. Mən emosional baxımdan qılaflı bir adama aşiq olmuşam və bu eşqdən düz-əməlli bir şey alınmayacaq – taqətsiz halda bunu anlayıram. Öz etirafına görə o, zülmün əlli çalarına məruz qalıb. Necə? Niyə? Bu, əlbəttə, dəhşətdir və Kristianın uşaq vaxtı dözülməz işgəncələrə məruz qalması fikrindən mən daha möhkəm ağlayıram. ―O bir az normal olsaydı, səni istəyərdi‖, – təhtəlşüurum kinayəylə qeyd edir və qəlbimin dərinliyində onunla razıyam. Üzümü balışla gizlədirəm və sanki şlüzlər açılır – uzun illərdən sonra ilk dəfə ağlayıram və özümü toxtada bilmirəm.

Zülmət gecədən məni Keytin qışqırığı ayırır.

―Burda nə ölümün var?‖

―Yox, olmaz!‖

‒Bu dəfə başına nə oyun açmısan?‖
‒Görüşdüyünüz vaxtdan o, daim ağlayır!‖
‒Hünərin var, ora girəsən!‖
Kristian otağıma dürtülür və salamsız-kəlamsız işığı yandırır. Mən ixtiyarsız büzüşürəm.
– İlahi, Ana! –Kristian donquldanır, işığı söndürərək yanıma cumur.
– Burda nə işin var? – hönkürtü arası gücə tələffüz edirəm.
Bax da, heç cür toxtaya bilmirəm. Kristian gecə çırağını yandırır və mən yenə gözlərimi qıyıram. Keyt içəri girir və qapı ağzında dayanır.
– İstəyirsənsə, bu düdəməni çölə atım? – o soruşur, termo-nüvə düşmənçiliyi saçaraq.
Kristian qaşlarını qaldırır. O, ‒yaltaq ifadə‖dən və Keytin bəlli düşmənçiliyindən açıq-aşkar heyrətlənib. Başımı yelləyirəm və Keyt hiddətlə gözlərini süzür. Ox… mister Q.-nin yanında mən bunu etməzdim.
– Məni səslə, lazım olaramsa, – Keyt artıq sakit səslə deyir və acıqlı halda əlavə edir, – özünü yaxşı apar, Qrey!
O, başıyla təsdiqləyir və Keyt çönüb qapını kip bağlamadan gedir.
Kristian solmuş sifətindəki pərişan görkəmlə mənə baxır. Nazik zolaqlı pencəyinin içəri cibindən cib yaylığını çıxarır və mənə verir. Xatırlayıram ki, bu cib yaylıqlarından biri çoxdan məndədir.
– Nə olub? – Kristian sakitcə soruşur.
– Niyə gəlmisən? – onun sualına cavab vermədən özüm soruşuram.
Göz yaşları möcüzəvi şəkildə qurudu, amma hönkürtülər bədənimi titrədir.
– Sənin qayğına qalmaq mənim öhdəliklərimə daxildir. Sən dedin ki, mənim burda qalmamı istəyirsən; buyur, gəlmişəm. Mən də gəlib səni bu halda görürəm? – O, özünü itirmiş halda gözlərini qıyır. – Əminəm ki, mənim günahımdır, amma anlamıram nə baş verib. Səni vurduğum üçün ağlayırsan?
Taqətimi toplayır və Kristianla üzbəüz otururam. Yanım hələ də göynəyir və mən üzümü qırışdırıram.

– –Advil‖ içdinmi?

Başımı yelləyirəm. Kristian acıqlı halda gözlərini döyür və otaqdan çıxır. Onun Keytlə söhbət etdiyini eşidirəm, amma sözləri ayırd etmək olmur. Bir dəqiqə sonra o, həblər və bir fincan suyla qayıdır.

– İç, – nəvazişlə əmr edir və yanımda əyləşir.

Buyrulanı yerinə yetirirəm.

– Mənimlə danış, – Kristian pıçıldayır. – Dedin ki, hər şey qaydasındadır. Sənin nə durumda olduğunu bilsəydim, dünyasında tək-tənha qoymazdım.

Əllərimə nəzər yetirirəm. Daha nə deyim ki? Daha çox şey istəyirəm. İstəyirəm ki, o qalsın, ağlayıb-sızladığıma görə deyil, bunu özü istədiyinə görə. Və istəmirəm ki, məni döysün. Məgər bu, yerinə yetirilməsi imkansız arzudur?

– Deməli, hər şeyin qaydasında olduğunu deyərkən məni aldatmısan?

Üzüm allanır.

– Mən elə də fikirləşirdim.

– Anasteyşa, sən öz fikrinə əsasən heç nə deməli deyilsən, mən eşitmək istəyirəm. Bu düzgün deyil, – Kristian məni danlayır. – Sənin sözlərinə necə etibar edə bilərəm?

Baxışımı qaldırır və Kristianın məyus görkəmini görürəm. O, hər iki əliylə saçlarını qarışdırır.

– Səni şapalaqladıqda və ondan sonra nə hiss edirdin?

– Xoşuma gəlmədi. Çox istərdim ki, bunu bir daha etməyəsən.

– Bu heç xoşuna gəlməli də deyildi.

– Bəs niyə sənin xoşuna gəlir? – Düz gözlərinin içinə baxıram.

Kristian heyrətlənib.

– Sən, doğrudan da, bilmək istəyirsən?

– İnan, maraqdan ürəyim partlayır! – kinayəmi gizləməyə güc tapmayıb deyirəm.

Kristian yenidən gözlərini qıyır.

– Ehtiyatlı ol! – o, xəbərdarlıq edir.

Rəngim solur.

– Məni yenə də döyəcəksən? – acıqlı soruşuram.

– Yox, bu gün deyil.

Uf… təhtəlşüurumla birgə rahat nəfəs alırıq.

– Hə, de görək, – təkid edirəm.

– Mən həmin an yaranan hakimiyyət hissindən həzz alıram. İstəyirəm ki, müəyyən qaydada davranasan, əks halda səni cəzalandıracam və sən tələblərimi yerinə yetirəcəksən. Səni cəzalandırmaq xoşuma gəlir. Mənim gey olub-olmadığımı soruşduğun andan səni şapalaqlamaq istəyirdim.

Od tutub yanıram. İlahi, o sualdan sonra mən özüm özümü şapalaqlamaq istəyirdim! Deməli, bütün günahlar Ketrin Kavanadadır və əgər müsahibəyə o getsəydi və bu sualı versəydi, indi göynəyən dalıyla o burda oturacaqdı. Bu fikir əsla xoşuma gəlmir. Təəccüblüdür, hə?

– Deməli, mən olduğum kimi xoşuna gəlmirəm.

O, fikirli halda mənə baxır:

– Məncə, sən füsunkarsan.

– Onda niyə məni dəyişmək istəyirsən?

– İstəmirəm. Mən nəzakətli olmanı, qoyulmuş qaydalara əməl etməni və mənimlə söz güləşdirməyini istəyirəm. Hər şey çox sadədir, – o deyir.

– Amma sən məni cəzalandırmaq istəyirsən?

– Hə.

– Bunu anlamıram.

O köks ötürür və yenidən saçlarını qarışdırır.

– Mənim quruluşum belədir, Anasteyşa. Sənə nəzarət etməliyəm. Mənə lazımdır ki, özünü lazım olduğu kimi aparasan, sözə baxmadıqda isə sənin gözəl kirəc dərinin qızarması və əlimin altında od tutub yanması xoşuma gəlir. Bundan həzz alıram.

Pis deyil ha. Nəhayət ki, top yerindən tərpəndi.


kitabyurdu.blogspot.com

– Deməli, mənə verdiyin ağrı səni ehtiraslandırır?

Kristian udqunur.

– Azca... mən buna baxdıqda, sən dözə bilərsənmi... amma iş bunda deyil. Məni ehtirasa gətirən odur ki, mənimsən və səninlə kefim istəyəni edə bilərəm – kiminsə üzərində mütləq hakimiyyət. Heç bilirsən bu, necə həzz verir, Anasteyşa. Qulaq as, bunu düz-əməlli izah edə bilmirəm… əvvəllər bunu heç etməmişəm. Bu təfsilatlar barədə düşünməmişəm. Məni həmişə oxşar düşüncəli insanlar əhatə edib. – O, çiyinlərini çəkir, sanki özünə bəraət qazandırır. – Amma sən mənim sualıma cavab vermədin: səni şapalaqladıqdan sonra nə hiss edirsən?

– Özümü itirmişdim.

– Seksual ehtiraslanma hiss etdin, Anasteyşa. – Kristian bir anlığa gözlərini qapadır, açdıqda isə onun gözləri boz kül rənginə çalan şölə saçır.

Onun baxışı içimdəki, qarnımın dərinliyindəki qaranlıq hissəni oyadır – mənim libodom, gözü doymaz şəhvət.

– Mənə elə baxma, – Kristian pıçıldayır.

Üzümü turşuduram. İlahi, indi mən neylədim ki?

– Özümlə prezervativlər götürməmişəm, Anasteyşa, həm də sənin kefin pozulub. Mən qonşunun hesab etdiyi kimi sadəcə şəhvətpərəst monstr deyiləm. Deməli, fikirlərin dolaşıq idi?

Dik baxışlar altında xəcalətlə qurcalanıram.

– Mənə e-mayl yazdıqda səmimiyyətlə problemin olmur. Onlar həmişə hiss etdiyini dəqiq ifadə edir. Niyə həqiqəti deməkdən çəkinirsən? Doğrudanmı mən səni çox qorxuduram?

Anamın krem-mavi rəngli adyalında təsəvvür edilən ləkəni qaşıyıram.

– Məni tamamilə ram edirsən. Özümü Günəşə çox yaxınlaşan İkar kimi hiss edirəm, – pıçıldayıram.

Kristianın ağzı açıla qalır.

– Məncə, haqlı deyilsən. Hər şey əksinədir.

– Nə?

– O-o, Anasteyşa, məni ovsunlamısan. Məgər bu bilinmir?

Yox, mən bunu qətiyyən görmürəm. ―Ovsunlamısan…‖ daxili ilahəm ağzı açıla qalaraq heyrətlə göz zilləyib. Hətta o da buna inanmır.

– Sən hələ də sualıma cavab verməmisən. Bunu mənə yaz, zəhmət olmasa. İndi möhkəm yuxum gəlir. Burda qala bilərəm?

– Qalmaq istəyirsən? – pis gizlədilən ümidlə soruşuram.

– Mənim gəlməyimi istəyirdin?

– Sualıma cavab vermədin.

– Sənə e-mayl göndərərəm, – Kristian narazı halda donquldanır.

O ayağa qalxır və cins şalvarının cibindən ―Blekberri‖ni, açarları, cüzdanı və xırda pulları çıxarır. İlahi, kişilər öz ciblərində nə qədər zir-zibil gəzdirirlər ki!.. Sonra saatı qolundan açır, ayaqqabıları, corabları və cins şalvarı çıxarır, pencəyini stulun belinə keçirir. Çarpayının ətrafında dövrə vurur və o biri başda özünə yer edib uzanır.

– Uzan! – o əmr edir.

Asta-asta ədyalın altına girir və gözlərimi qıyaraq Kristiana baxıram. Vay səni… o, burda qalacaq. Sanki fərəhdən dilim tutulub. Kristian azca qəddini düzəldir, dizlərinə dayaqlanıb mənə baxır.

– Ağlamaq istəyirsənsə, mənim yanımda elə. Bunu bilməliyəm.

– Ağlamağımı istəyirsən?

– Elə də yox. Sənin nə hiss etdiyini bilmək istəyirəm. Məndən yayınmağını istəmirəm. İşığı söndür. Artıq gecdir, hər ikimiz səhər işə getməliyik.

O burdadır… və yenə də əmr verir, əslində, şikayət eləmək günah olardı. Axı o, mənim yatağımdadır. Sözün düzü, anlamıram niyə. Bəlkə onun yanında tez-tez ağlayıb-sızlamam yaxşı olar? Gecə çırağını söndürürəm.

– Arxanı mənə tərəf çevir, – Kristian qaranlıqda pıçıldayır.

Tam qərarlılıqla gözlərimi süzdürürəm, o bunu görməyəcək, amma əmrə tabe oluram. Kristian ehtiyatla mənə yaxınlaşır, qucaqlayır və sinəsinə sıxır.

– Yat, balaca, – Kristian pıçıldayır və onun dərindən köks ötürməklə burnunu saçlarım arasına necə dirədiyini hiss edirəm.

Buna söz ola bilməz. Kristian Qrey mənimlə yatır və onun ağuşunda tam rahatlanaraq dərin yuxuya gedirəm.

## 17-ci fəsil

ġölə yandırır. O, isti küləkdə dalğalanır və küləyin dalğaları belə istidən xilas eləmir. Kövrək, şəffaf qanadlar aşağı-yuxarı yellənir, işıq ətrafında xırda izlər qoyur. Ayaqda qalmağa çalışıram, amma faydasız. Ətrafda hər şey dözülməz parlaq rəngdədir və mən Günəşə çox yaxın uçuram – onun şüalarından kor olaraq. İstidən əriyirəm, havada qalmaq səylərim tükənib. Elə istidir ki… Dözülməz hərarət məni boğur və mən yuxudan oyanıram.

Gözlərimi açır və anlayıram ki, demək olar ki, Kristian Qreyə bürünmüşəm. Onun bədəni zəfər bayrağı kimi sarınıb. Kristian möhkəm

mürgüləyib; məni özünə çəkib başını sinəmə qoyaraq, ayağını ayağım üstünə aşırıb. O, çox ağırdır və mən onun bədəninin hərarətindən boğuluram. Yalnız bir müddət keçdikdən sonra dərk edirəm ki, bu həqiqətən odur, yatağımda uzanıb, çöldəsə dan yeri ağarıb. O, gecəni mənimlə keçirib. Sağ əlim qabağa uzanıb, sərinlik axtarışındadır. Kristianın hələ də mənimlə olduğuna alışana qədər ona toxuna biləcəyim fikri ağlıma gəlir. O yatıb. Ehtiyatla əlimi qaldırır və barmaqlarımın ucunu belində gəzdirirəm. Kristian boğuq inilti çıxarır, vurnuxur. Burnu sinəmə dirənir, dərindən köks ötürür və yuxudan oyanır. Yuxulu boz gözlər pırtlaşmış saçlar arasından qıyılır.

- Sabahın xeyir, – Kristian donquldanır və üz-gözünü turşudur. – İlahi, hətta yuxuda da səni arzulayıram.

O, astagəl ətrafı seyr edir, ayağını bədənimin üstündən götürür. Ombamın ereksiya vəziyyətində olan s..ə necə dayaqlandığını duyur və gözlərimi geniş açıram. Heyrətimi sezən Kristian tənbəlliklə və seksual tərzdə gülümsəyir.

- Hm… cazibəli perspektivdir, amma məncə, bazar gününü gözləmək məsləhətdir.

O, burnunu qulağıma dayayır.

Üzüm allanır və onun bədəninin necə od tutub yandığını duyuram, bu hərarətdə al-qırmızının yeddi çaları var.

- Necə də istisən, – pıçıldayıram.

- Elə sən də pis deyilsən, – ikibaşlı mənayla gülümsəyərək Kristian deyir və mənə qısılır.

Daha möhkəm qızarıram. Bunu nəzərdə tutmurdum! Kristian dirsəklənərək bədənini azca qaldırır və şən halda mənə baxır, sonrasa təəccübü oyadaraq dodaqlarımı nəvazişlə öpür.

- Yaxşıca yata bildin?

Gözümü ondan çəkmədən başımla təsdiqləyirəm və başa düşürəm ki, əla yatmışam, amma son yarım saat çox isti oluib.


kitabyurdu.blogspot.com

- Elə mən də. – Kristian üzünü turşudur. – Hə, sadəcə, əla. – O, təəccüb və bir qədər xəcalətli halda qaşlarını qaldırır. – Saat neçədir?

Zəngli saata baxıram.

- Səkkizin yarısı.
- Səkkizin yarısı? Lənət şeytana!

O, çarpayıdan atılır və cins şalvarı əyninə dartır. Otururam. İndi şən maraqla baxmaq növbəsi mənimdir. Kristian Qrey gecikir və həyəcanlanır. Belə bir şeyi heç vaxt görməmişəm. Gec də olsa anlayıram ki, dalım artıq ağrımır.

- Sən mənə pis təsir göstərirsən. Görüşüm var. Qaçmaq lazımdır, saat səkkizdə Portlenddə olmalıyam. Sevinirsən-nədir?
- Hə-ə.

Kristian gülümsəyir.

- Gecikirəm. Əvvəllər heç vaxt gecikməmişəm. Daha bir ―ilk‖, miss Stil.

O, pencəyini geyinir, sonra mənə doğru əyilir və hər iki əliylə başımı tutur.

– Bazar günü.

Kristianın səsində tələffüz olunmamış vəd var. İçimdəki hər şey bir-birinə qarışır, sonrasa füsunkar cazibədən sıxılır. Əla hissdir!

Lənət şeytana, zəkam bədənimi haqlaya bilmir! Kristian məni qaçaraq öpür, dolabçada bütün xırdavatını götürür və corabsız tuflilərini geyinir.

– ―Böcəy‖in sükanı arxasına keçmə. Teylor gəlib onunla məşğul olacaq. Ciddi deyirəm. Bazar günü görüşərik. Vaxtı e-maylda deyərəm.

O, quduz sürətlə çıxıb gedir.

Hə-ə, Kristian Qrey gecəni mənimlə keçirib və özümü rahat hiss eləyirəm. Seks də olmadı, yalnız qucaqlaşdıq. O dedi ki, həmişə tək-tənha yatır, mənimləsə üç dəfə yatıb. Gülümsəyir və tələsmədən çarpayıdan qalxıram. Son günlərlə müqayisədə bu gün həyata daha böyük optimizmlə yanaşıram. Mətbəxə gedirəm: mütləq çay içməliyəm.

Nahardan sonra duş qəbul edirəm və ―Kleytons‖dakı sonuncu iş günümçün tez-tələsik geyinirəm. Bütöv bir mərhələnin sonu – mister və missis Kleyton, Vaşinqton Universiteti, Vankuver, mənzil və ―böcəy‖imlə vidalaşma. Lənətə gəlmiş noutbuka nəzər yetirirəm. Səkkizə səkkiz dəqiqə qalıb. Hələ vaxt var.

Kimdən: Anasteyşa Stil
Mövzu: Kötəkləmə ilə hücum: nəticələr
Tarix: 27.05.2011, 08:05
Kimə: Kristian Qrey

Möhtərəm mister Qrey!

Siz bilmək istəyirdiniz ki, məni – hansı efemizmi istifadə edim? – şapalaqladıqdan, cəzalandırdıqdan, döydükdən, təhqir etdikdən sonra niyə özümü itirmişdim. Hiddət doğurucu proses zamanı özümü alçaldılmış, rüsvay olunmuş və zorlanmış kimi duyurdum. Xəcalətliyəm, haqlısınız, şəhvət hiss edirdim, əslində bunu heç gözləmirdim də. Sizə məlum olduğu kimi, sekslə bağlı hər şey mənimçün yenilikdir. Heyif ki, yetərincə təcrübəm yoxdur və çox şeyə hazır deyiləm. Ehtiraslandığım üçün şok keçirirdim.

Məni həqiqətən həyəcanlandıran cəzalanmadan sonrakı hisslər oldu. Onları təsvir eləmək çətindir. Mən ona görə xoşbəxt idim ki, Siz razı qaldınız. Ona görə rahatlandım ki, gözlədiyimin əksinə olaraq cəza o qədər də ağrılı olmadı. Məni qucaqladığınız zamansa özümü kafi hiss edirdim. Amma duyğularıma görə xəcalət çəkir və utanıram. Onlar ətraf aləmlə bağlı dünyama sığışmır və buna görə də özümü itirmişəm. Sualınıza cavab verə bildimmi?

Əminəm ki, şirkətlərin birləşməsi və bir-birini udması həmişəki kimi maraqlıdır… və Siz görüşə çox da gecikmədiniz.

Yanımda qaldığın üçün çox sağ ol.

Ana

Kimdən: Kristian Qrey
Mövzu: ġüurunu azad et
Tarix: 27.05.2011, 08:24
Kimə: Anasteyşa Stil

Maraqlı… düzü, durumu bir qədər dramatikləşdirən başlıqdır, miss Stil.

Bənd-bənd cavab verirəm:

Səni şapalaqlayacam, vəssalam, başqa izah olmayacaq.

Deməli, özünü aşağılanmış, rüsvay olunmuş, zora məruz qalmış və təhqir edilmiş kimi hiss eləmisən? Xalis Tess Darbeyfild ruhundadır. Səhv eləmirəmsə, sən özün aşağılanmanı seçmisən. Sən həqiqətən hiss edirsən, yoxsa hesab edirsən ki, hiss eləməlisən? Bu, eyni şey deyil. Əgər oxşar hissləri həqiqətən duyursansa, bəlkə onları qəbul eləməyə, onlarla barışmağa cəhd eləyəsən? Mənimçün? Kənizlər məhz belə hərəkət edir.

Təcrübəsizliyinə görə minnətdaram. Onun qədrini bilirəm və yalnız indi bunun nə olduğunu anlayıram. Qısası, bu, bütün mənalarda mənim olman mənası verir.

Hə, sən ehtiraslanmışdın və bu, öz növbəsində, məni də ehtiraslandırırdı. Odur ki, hər şey qaydasındadır.

–Razıyam‖ sözü keçirdiyim hissə qətiyyən uyğun gəlmir. Yəqin ki, bu, sevinc idi.

Cəza olaraq şapalaq hissiyyatlı şapalaqlanmadan yetərincə artıq ağrılıdır; odur ki, bundan pis olmayacaq, əgər ciddi səhvə yol verməsən. Ola bilsin ki, hansısa qurğudan istifadə edilsin, çünki bu dəfə qolum ağrımağa başlayıb. Amma xoşuma gəldi.

Mən də özümü kafi hiss elədim, hətta təsəvvür eləməzsən nə qədər.

Özünü günahkar və s. saymağa boş yerə güc sərf eləmə. Yetkin adamlarıq və qapı arxasında hər nə ediriksə, bu, şəxsi işimizdir. Sən öz zəkanı azad buraxmalısan və bədəninə qulaq asmalısan.

İşgüzar dünya Sizin kimi elə də cazibədar deyil, miss Stil.


kitabyurdu.blogspot.com

Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Bax a… –bütün mənalarda mənim‖. Tənəffüsüm sürətlənir.

Kimdən: Anasteyşa Stil
Mövzu: Yetkin adamlar
Tarix: 27.05.2011, 08:26
Kimə: Kristian Qrey

Məgər indi görüşdə deyilsən?
Çox şadam ki, qolun ağrıyır.
Əgər bədənimə qulaq assaydım, indi Alyaskada olardım.
Ana
P.S. Mən bu hissləri qəbul etmək haqda düşünmüşəm.

Kimdən: Kristian Qrey
Mövzu: Polis çağırmamısan
Tarix: 27.05.2011, 08:35
Kimə: Anasteyşa Stil

Miss Stil.

Əgər Sizinçün belə maraqlıdırsa, mən həqiqətən görüşdəyəm və fyuçers bazarının durumunu müzakirə edirəm.

Yeri gəlmişkən, mənimlə yanaşı durmuşdun və çox gözəl bilirdin ki, nə etmək istəyirəm. Məndən dayanmağı xahiş və stop-sözlərdən istifadə eləmədin. Yetkin adamsan və sənin seçimin var.

Sözün düzü, intizarla növbəti dəfə ovcumun ağrıdan sızıldamasını gözləyirəm.

Deyəsən, bədəninin o hissəsini dinləmirsən. Alyaskada çox soyuqdur və qaçmağa yer yoxdur. Yoxsa səni tapardım. Mobil telefonunu izləyə bilərəm, yadındadır?

İşə get.

Kristian Qrey,

–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Qaşqabaqlı halda ekrana baxıram. Əlbəttə, Kristian haqlıdır. Bu, mənim seçimimdir. Hmm. Doğrudanmı birdən müəyyən müddətə qaçıb-eləsəm məni tapa biləcəyini ciddi deyir? Anamın dəvətini bir anlıq xatırlayıram. Cavab yazıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: Təqibçi
Tarix: 27.05.2011, 08:36
Kimə: Kristian Qrey

Öz təqibçi maillərinizə görə psixoterapevtə müraciət etmisinizmi?

Ana

Kimdən: Kristian Qrey
Mövzu: Təqibçi? Mən?
Tarix: 27.05.2011, 08:38
Kimə: Anasteyşa Stil

Təqibçi və sair meyillərimə görə üzərimdə işləyən məşhur doktor Flinnə torbalarla pul verirəm.

İşə get.

Kristian Qrey,

–Qrey enterprayzes‖ holdinqinin baş direktoru



kitabyurdu.blogspot.com

Kimdən: Anasteyşa Stil
Mövzu: Bahalı şarlatanlar
Tarix: 27.05.2011, 08:40
Kimə: Kristian Qrey

İcazə verin, itaətkarcasına Sizə başqa bir mütəxəssisə müraciət etmənizi təklif edim.
Əmin deyiləm ki, doktor Flinnin yardımı effektlidir.
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Başqa mütəxəssis
Tarix: 27.05.2011, 08:43
Kimə: Anasteyşa Stil

Bu, sənə qətiyyən dəxli olmasa da, itaətkarcasınadır, ya yox, doktor Flinndən başqa mütəxəssis var.
Öz maşınının sükanı arxasında oturarkən sürəti artırmalı və özünü qeyri-məqbul riskə atmalı olacaqsan. Məncə bu, qaydalara ziddir.
CƏLD İŞƏ GET!
Kristian Qrey,
"Qrey enterprayzes" holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: BAĞIRAN BÖYÜK HƏRFLƏR
Tarix: 27.05.2011, 08:47
Kimə: Kristian Qrey

Ümumiyyətlə, məhz mən Sizin təqib obyektiniz olmuşam.
Mən hələ heç nəyi imzalamamışam. Odur ki, cəhənnəm olsun qayda-maydalar.

İş yalnız 9:30-da başlayır.
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Təsviri linqvistika
Tarix: 27.05.2011, 08:49
Kimə: Anasteyşa Stil

Maydalar? İzahlı lüğətdə belə bir söz yoxdur.
Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Təsviri linqvistika
Tarix: 27.05.2011, 08:52
Kimə: Kristian Qrey

–Əmr etmək həvəskarı‖ ilə –təqibçi‖ arasında fərq var.
Təsviri linqvistika mənimçün yolverilməz hərəkətlər bölümünə aiddir.
Və xahiş edirəm, bəsdir zəhləmi tökdün.
İşə yeni maşınımda getmək istəyirəm.
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Ötkəm, amma əyləncəli gənc qadınlar
Tarix: 27.05.2011, 08:56
Kimə: Anasteyşa Stil

Ovcum qaşınır.

Ehtiyatla sürün, miss Stil.
Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

–Audi‖ sürmək həzzdir. Sükanın hidrogücləndiricisi var. Vandanın, köhnə maşınımın isə belə gücləndiriciləri yoxdur. Necə olur-olsun, onu sürmək mənimçün bundan sonra olmayacaq gündəlik məşq idi. Oy, unutdum, Kristianın qaydalarına uyğun olaraq, şəxsi məşqçiylə üzləşməliyəm. Qaşqabağımı tökürəm. Fiziki məşğələlərdən zəhləm gedir.

İşə gedərkən yolda elektron poçtla məktublaşmalarımızı təhlil eləməyə çalışıram. Bəzən Kristian iltifatlı köpək oğlu olur. Qəfildən Qreysi xatırlayıram və utanıram. Hərgah əlbəttə, o, doğma ana deyil. Hm... sən demə, ağrının mənə bəlli olmayan bütöv bir dünyası var. Noolar, onda –iltifatlı köpək oğlu‖ tərifi lap yerinə düşür. Hə, mən yetkin insanam, çox sağ ol, Kristian Qrey, yaxşı ki yada saldın. Və bu, mənim seçimimdir. Problem ondadır ki, mən Kristianın özünü istəyirəm, onun… baqajı olmadan, indisə onun baqajı ilə –Boing-747‖-ni doldurmaq olar. Bəlkə bununla barışmalıyam? Onun kənizi kimi? Dedim ki, çalışaram. Çox çətin yerinə yetiriləsi tələbdir.

–Kleytons‖un parklama yerinə girirəm. Girirəm və inanmıram ki bu, son günümdür. Xoşbəxtlikdən, mağazada alıcı çoxdur və vaxt yel kimi əsib keçir. Nahar fasiləsi vaxtı mister Kleyton məni anbardan çağırır. Yaxınlaşıb görürəm ki, mister Kleytonun yanında motosiklçi-kuryer dayanıb.

– Miss Stil? – o soruşur.

Sual dolu nəzərlə mister Kleytona baxıram, o, çiyinlərini çəkir, mənim qədər qayğılıdır. Ürəyim qısılır. Görəsən, bu dəfə Kristian mənə nə göndərib? Qol çəkirəm kiçik bağlamaya görə və nə olduğunu bilmək üçün içinə baxıram. –Blekberri‖. Ürəyim daha bərk qısılır. Cihazı qoşuram.

Kimdən: Kristian Qrey
Mövzu: BORCA –Blekberri‖

Tarix: 27.05.2011, 11:15
Kimə: Anasteyşa Stil

Sənin hər zaman mənimlə əlaqədə olmanı istəyirəm. Tez-tez ismarışla ünsiyyətdə olursan, buna görə də bu qərara gəldim ki, sənə ―blekberri‖ lazımdır.

Kristian Qrey,
―Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteryşa Stil
Mövzu: Azğın istehlakçılıq
Tarix: 27.05.2011, 13:22
Kimə: Kristian Qrey

Məncə, Siz təcili olaraq doktor Flinnlə görüşməlisiniz. Təqibçi meyilləriniz nəzarətdən çıxıb.

Mən işləyirəm. Evə qayıdandan sonra yazaram.

Növbəti texniki yeniliyə görə çox sağ olun. Sizi superistehlakçı adlandırarkən səhv etməmişəm.

Bunu niyə edirsən?
Ana

Kimdən: Kristian Qrey
Mövzu: Bu cür gənc bir qadın üçün heyrətamiz bəsirət.
Tarix: 27.05.2011, 13:24
Kimə: Anasteyşa Stil

Həmişəki kimi düz hədəfə vurdunuz, miss Stil.
Doktor Flinn məzuniyyətdədir.
Bunu bacardığıma görə edirəm.
Kristian Qrey,


kitabyurdu.blogspot.com

–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Lənətə gəlmiş əşyanı arxa cibimə qoyuram. Ona nifrət edirəm. Kristiana yazmaq istəyindən yayına bilmirəm, amma işləməliyəm. –Blekberri‖ arxamda cırıldayır. –Sənin yerin elə oradır‖, – deyə kinayə ilə düşünürəm və bütün iradəmi toplayıb cavab vermirəm.

Saat dördə mister və missis Kleytonlar mağazanın bütün əməkdaşlarını bir yerə yığır və ürəyi riqqətə gətirən nitqdən sonra mənə üç yüz dollarlıq çek təqdim edirlər. Bu dəqiqədə son üç həftənin bütün hadisələri – imtahanlar, buraxılış mərasimi, ehtiraslı, pozğun milyonçular, bəkarətin itirilməsi, yolverilən və yolverilməz hərəkətlər, oyun əlavələri olmadan oyun otağı, helikopterdə uçuş – sabahkı köçlə birgə qəfildən üstümə gəlir və gözlərimin necə dolduğunu duyuram. Qəribə olsa da, özümü ələ ala bilirəm. Təhtəlşüurum sayıqdır. Kleytonları möhkəm şəkildə bağrıma basıram. Onlar çox mehriban və səxavətli işəgötürən idilər və mən onlarçün darıxacam.

Mən evə gələrkən Keyt maşından düşür.

- Bu nədir? – o, ittihamedici ahənglə soruşaraq, –Audi‖ni göstərir.

Kinayəli təbəssümü gizlədə bilmirəm.

- Maşın.

Keyt acıqlı halda gözlərini qıyır və hansısa anda mənə elə gəlir ki, o da dizlərimi yanpörtü əymək istəyir.

- Universitetin bitirilməsi münasibətilə hədiyyə, – təmkinimi qorumağa çalışaraq deyirəm.

Hə, mənə hər gün bahalı maşınlar bağışlayırlar. Keytin ağzı açıla qalıb.

– Sən demə, səxavətliymiş bu füsunkar düdəmə.

Başımla təsdiqləyirəm.

– İmtina eləmək istəyirdim, amma sözün düzü, onunla bəhsə girmək mənasızdır.

Keyt dodaqlarını sıxır.

– Təəccüblü deyil, sanki özündə deyil. Fikir verdim, gecə yanında qalmışdı.

– Hə. – Xülyalarla gülümsəyirəm.

– Hə, yır-yığışı bitirək?

Başımla təsdiqləyir və Keytin ardınca evə girirəm. Poçtu yoxlayıram. Kristiandan e-mayl var.

Kimdən: Kristian Qrey
Mövzu: Bazar günü
Tarix: 27.05.2011, 13:40
Kimə: Anasteyşa Stil

Bazar günü saat birdə görüşərik. 13:30-da həkim gələcək: səni yoxlamaq üçün.

Sietlə gedirəm.

Əminəm ki, köç normal keçəcək. Bazar gününü həsrətlə gözləyirəm.

Kristian Qrey,
‒Qrey enterprayzes‖ holdinqinin baş direktoru

İlahi, o sanki havanı müzakirə edir! Ona zəng etmək qərarına gəlirəm – yır-yığışı qurtaran kimi. Təəccüblüdür, bəzən o elə zarafatcıl, bir müddətdən sonrasa həddən artıq rəsmi və ciddi olur ki... Onun əhvali-ruhiyyəsinin dəyişkənliyini tutmaq çətindir. Yox, düzdür, rəisdən e-mayl. Mən nümayişkaranə tərzdə gözlərimi süzür və Keytin yanına, yır-yığış eləməyə gedirəm.

Keytlə mətbəxdə qurdalanırıq. Elə bu vaxtqapı döyülür. Teylor artırmada dayanıb. O, kostyum geyinib və şıq görünür. ‒Kirpi‖ saç kəsimi, polad bədən və soyuq baxış onun hərbi keçmişini ələ verir.

– Miss Stil, maşınınıza görə gəlmişəm, – deyir.

– Hə-ə, əlbəttə. İçəri keçin, mən açarları gətirim.

Yüzəyüz bu, Teylorun xidməti vəzifələrinə daxil deyil. Amma yenə də maraqlıdır, o nəylə məşğul olur? Ona açarı təqdim edirəm və biz naqolay – mənimçün!– sükutla açıq-mavi –böcəy‖ə doğru addımlayırıq. Qapını açırıq və mücrüdən kiçik fənəri çıxarıram. Vəssalam. Burda artıq mənim əşyalarım yoxdur. –Əlvida, Vanda. Çox sağ ol‖. Avtomobilin üstünü nəvazişlə sığallayır və qapını örtürəm.

- Mister Qreylə çöxdan işləyirsiniz?

- Dörd ildir.

Qəfildən onu sual yağışına tutmaq istəyirəm. Yəqin ki, Kristian haqda onun danışılası çox sözü var – onun bütün sirləri barədə. Amma Teylor, şübhəsiz, məxfi informasiyanın açıqlanmaması haqqında müqaviləni imzalayıb. Ona ürkək nəzər yetirirəm. Görünüşdən qaraqabaqdır, Rey kimi və ürəyim hərarətdən isinir.

- O, yaxşı insandır, miss Stil, – Teylor deyir və azca gülümsəyir.

O, başıyla təsdiqləyir, maşınıma oturur və sürüb gedir.

Mənzilimiz, –böcək‖, –Kleytons‖ – bütün bunlar keçmişdə qaldı. Başımı silkələyir və evə keçirəm. Həyatımdakı ən böyük dəyişiklik isə – Kristian Qreydir. Teylor onu yaxşı adam hesab edir. Teylora inanmaq olarmı?

* * *

Axşam saat səkkizdə Xose Çin yeməyi ilə gəlib çıxır. Yır-yığışı bitirmişik. Bütün əşyalar qutulara yığılıb, getmək olar. Xose bir neçə şüşə pivə gətirib. Keytlə divanda otururuq, osa ayaqlarını çarpazlayaraq ikimizin arasında döşəməyə əyləşir. Səfeh teleproqramlara baxır, pivə içir və içkinin təsiriylə xatirələrə dalırıq. Bu dörd il gözəl keçdi.

Xose ilə yenə də mehriban təmasımızı bərpa etmişik; uğursuz öpüş unudulub. Daha doğrusu, bu olay daxili ilahəmin uzandığı xalıya bükülüb;

o, üzüm yeyir, barmaqlarını şaqqıldadır və bazar gününün yetişməsini həsrətlə gözləyir. Qapı döyülür və ürəyim yerindən atılır. Birdən bu…

Keyt qapını açır və Eliot az qalır onu yerə aşırsın. O, Hollivudun ən yaxşı ənənələrində Keyti öpür və onlar bir-birinə sarılır, lap Avropanın arthaus filmlərindəki kimi. Utanıb yerə girmirlər! Xose ilə bir-birimizə baxırıq. Mən mat qalmışam.

– Bəlkə, bara gedək? – Xoseyə təklif edirəm və başının hərəkətiylə cəld razılığını bildirir.

Seksual əyləncələrin olduğu yerdə görünmək hər ikimiz üçün naqolaydır. Keyt qızararaq parlayan gözləriylə mənə baxır.

– Xose ilə içməyə gedirik.

Gözlərimi süzdürürəm. Ha! Mən hələ də göz süzdürürəm, çünki o, yanımda deyil.

– Yaxşı, – Keyt gülümsəyir.

– Salam, Eliot, sağ ol, Eliot.

O, mənə göz vurur və biz Xose ilə qapıya tələsirik – dodaqaltı gülərək, lap yeniyetmə kimi.

Bara doğru addımlayırıq və mən Xosenin qoluna girirəm. İlahi, o necə də sadə oğlandır və mən əvvəllər buna dəyər verməmişəm.

– Sərgimin açılışına gələcəksən, ya gəlməyəcəksən?

– Əlbəttə, Xose. Nə vaxtdır?

– İyunun doqquzunda.

– Həftənin neçənci günü?

Qəfildən təlaşa düşürəm.

– Cümə axşamı.

– Hə, məncə, gələ biləcəm. Bəs sən Sietlə, yanımıza gələcəksən?

– Sözsüz! – Xose gülümsəyir.

Artıq gecdir, bardan qayıtmışam. Keyt və Eliot görünmürlər, amma səsləri eşidilir! Lənət şeytana! Yəqin ki, evə səs-küysüz girdim. Amma Kristianın heç cınqırı da çıxmır. Onu düşünən kimi mən alışıb-yanır və cəld otağıma keçirəm. Ayrılarkən Xose ilə yüngülcə qucaqlaşdıq – Tanrıya


kitabyurdu.blogspot.com

şükür, səmimi – və o çıxıb getdi. Bilmirəm onu bir də nə vaxt görəcəm, yəqin ki, ancaq sərgidə. Onun, nəhayət ki, sərgisini keçirə biləcəyi fikrindən sevinc hissi keçirirəm. Xose və onun uşaq siması üçün darıxacam. Maşın haqda ona heç nə deyə bilmədim. Maşınının satışı haqda eşitdikdə o, yəqin ki hirslənəcək, mənəsə bircə hirsli kişi bəs edir. Otağımda lənətə gəlmiş şeyi işə salıram və (şübhə etməyə dəyərmi?) Kristianın e-maylını görürəm.

Kimdən: Kristian Qrey
Mövzu: Hardasan?
Tarix: 27.05.2011, 22:14
Kimə: Anasteyşa Stil

‒İşləyirəm. Evə qayıdanda yazaram‖.

Hələ də işdəsən, yoxsa mobil telefonu, ‒blekberri‖ və noutbuku da qutuya qoymusan?

Zəng et, yoxsa Eliota zəng etməyə məcbur olacam.

Kristian Qrey,
‒Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Lənət şeytana… Xose… poxa keçdik!

Cəld mobil telefonu götürürəm. Buraxılmış beş zəng və bir səsli ismarış. İsmarışa qorxa-qorxa qulaq asıram. Bu Kristiandır.

Məncə, sənin mənim ümidlərimə uyğunluğu öyrənmən zəruridir. Mən heç də ən səbirli adam deyiləm. Əgər işdən sonra mənimlə əlaqə saxlayacağını deyirsənsə, zəhmət çək, vədini yerinə yetir. Əks halda narahat olacam, narahatlıqsa mənimçün alışdığım hiss deyil və mənim ona dözümüm yoxdur. Mənə zəng elə.

Poxlu kvadrat. Yəni o, həmişə mənə təzyiq göstərəcək? Kədərlə telefona baxıram. Kristian, demək olar ki, məni boğur! Qorxudan diksinirəm, onun nömrəsini arayır və düyməni basıram. Cavab gözləyir və

hiss edirəm ki, ürəyim indicə yerindən çıxacaq. Ola bilsin ki, o, bədənim yeddi ayrı-ayrı çalara düşənədək məni döyəcək. Axmaq fikirdir.

– Xoş gördük, – Kristian sakitcə deyir.

Müvazinəti güclə saxlayır, gözləyirdim ki, o acıqlı danışacaq, amma səsində rahatlıq var.

– Salam, – pıçıldayıram.

– Səninçün narahat idim.

– Bilirəm. Bağışla ki zənglərinə cavab verə bilmədim, amma hər şey qaydasındadır.

Hansısa müddətə o susur, sonra buz kimi soyuq nəzakətlə soruşur:

– Axşamı yaxşıkeçirdin?

– Hə, Keytlə yır-yığışı bitirdim, sonra Xoseylə Çin yeməyi yedik.

Xosenin adını çəkərkən gözlərimi qapadıram. Kristian heç nə demir.

– Bəs sən? – əsəbi pauzanı doldurmaq üçün soruşuram.

İstəyir ki, Xoseyə görə özümü günahkar hiss edim? Nəhayət, Kristian ah çəkir.

– Mən adama ölü darıxdırıcılıq gətirən şam yeməyindəydim, xeyriyyə üçün ianə toplantısı ilə bağlı... və imkan düşən kimi ordan çıxıb getdim.

O elə kədərli və asta danışır ki, ürəyim ağrıyır. Onun gecələr, öz nəhəng salonunda royal arxasında oturaraq acılı-şirinli melodiyanı necə ifa etməsini təsəvvürümə gətirirəm.

– Mənimlə olmanı istəyirəm, – pıçıldayıram.

Onu qucaqlamaq və təskinlik vermək istəyirəm; hətta o, imkan verməsə belə. Onun yanımda olmasını istəyirəm.

– Doğrudan? – o, nəvazişlə tələffüz edir.

Bax a! Kristiana heç oxşamır və başımda ehtiras sancılarını duyuram.

– Hə, – nəfəsimi buraxıram.

Bütöv bir əbədiyyət keçir və ağır-ağır köks ötürür.

– Bazar günü görüşərik?


kitabyurdu.blogspot.com

– Hə, Bazar günü, – donquldanıram, bədənimdən ürpərti keçir.
– Gecən xeyrə qalsın.
– Gecəniz xeyrə qalsın, ağa.

Kəskin ah çəkməyinə əsasən, Kristian onu belə adlandıracağımı gözləmirdi.

– Sağ-salamat köçəsiniz, Anasteyşa, – kübar danışır.

Biz yeniyetmələr kimi telefondan asıla qalmışıq və heç birimiz də dəstəyi birinci asmaq istəmirik.

– Dəstəyi qoy, – pıçıldayır və onun təbəssümünü duyuram.
– Yox, birinci sən.

Bilirəm ki, o gülümsəyir.

– İstəmirəm.
– Elə mən də.
– Bərk hirslənmişdin?
– Hə.
– Bəs indi hirslisən?
– Yox.
– Deməli, məni cəzalandırmayacaqsan?
– Yox. Mən hal adamıyam.
– Buna fikir vermişəm.
– Dəstəyi asa bilərsiniz, miss Stil.
– Siz doğrudanmı bunu istəyirsiniz, ağa?
– Get yat, Anasteyşa.
– Baş üstə, ağa.

İkimiz də xətdə qalırıq.

– Maraqlıdır, sən nə vaxtsa buyrulanı yerinə yetirəcəksənmi?

Kristianın səsində narazılıqla qarışıq şən heyrət duyulur.

– Ola bilsin, Bazar günündən sonra görərik, – deyirəm və ―No‖ düyməsini basıram.

Eliot dayanaraq öz işinə tamaşa edir. O, indicə Payk-Pleyk-marketdəki mənzilimizdə televizoru peyk antenasına qoşub. Keytlə divana sərələnərək hırıldayırıq, Eliotun drellə ustalıqla rəftar etməsi dodağımızı qaçırıb. Yastı ekran mənzilə çevrilmiş keçmiş anbarın kərpic divarında nəsə qəribə görünür, amma məncə, buna alışacam.

– Görürsənmi, balaca, beş dəqiqəyə hazır oldu.

Eliot geniş, saf dişlərini göstərərək gülümsəyir, Keyt bu təbəssümdən divanda əriyib axır. Bu cütlüyə baxıb göz süzdürürəm.

– Balaca, səninlə elə qalmaq istəyirəm ki... amma bacım Parisdən qayıdıb. Bu gün ailəvi şam yeməyində olmalıyam; mütləq ora getməliyəm.

– Bəlkə şam yeməyindən sonra gələsən? Keyt qətiyyən özünə xas olmayan xəfif səslə soruşur.

Yeşiyi açmaq bəhanəsi ilə yerimdən qalxır və mətbəxə gedirəm. Deyəsən, onlar bu an bir-birini əzizləyəcək.

– Baxarıq, bəlkə aradan çıxa bildim, – Eliot vəd edir.

– Səni ötürərəm, – Keyt təbəssümlə deyir.

– Xudahafiz, Ana.

– Hələlik, Eliot. Kristiana salam çatdır.

– Ancaq salam? – Eliot ikibaşlı gülümsəyir və qaşlarını qaldırır.

– Hə.

Utandığımdan qızarıram. O, göz vurur və Keytin ardınca otaqdan çıxır, mənsə allanıram.

Eliot – çox mehribandır və Kristiana heç oxşamır. O, istiqanlı, səmimidir və Keyti yalqız qoymur. Bu cütlüyün arasından su da keçməz. Sözün düzü, onlar qucaqlaşarkən utanır və paxıllıqlarını çəkirəm.

İyirmi dəqiqə sonra Keyt pitsayla dönür və biz yeni mənzilimizdəki yeşiklər arasında oturaraq birbaşa qutudan yeyirik. Keytin atası bizimçün xeyli zəhmət çəkib. Mənzil elə də böyük deyil, amma yer boldur: üç yataq otağı və geniş qonaq otağı, Payk-Pleys-marketə açılan pəncərələr. Taxta döşəmə, kərpic divarlar, üzü laklanmış betondan mətbəx masaları – hər şey


kitabyurdu.blogspot.com

əyani və müasirdir. ġəhərin düz göbəyində yaşamağımız Keytlə mənim xoşumuza gəlir.

Saat səkkizdə çöl qapısındakı evxəbərçisi[1] zəng çalır. Keyt yerindən atılır, mənimsə ürəyim həyəcanla çırpınır.

– Miss Stil, miss Kavana, sizə bağlama var.

Qəfil peşmançılığın damarlarıma necə yayıldığını duyuram. Bu, Kristian deyil.

– İkinci mərtəbə, mənzil iki.

Keyt kuryeri içəri buraxır, onu görərkən oğlanın ağzı açıla qalır: dar cins şalvar və futbol köynəyi... yuxarı qaldırılmış saçlara bir neçə hörük vurulub. Keyt həmişə kişilərə belə təsir göstərir. Oğlan şampan şüşəsini əlində tutub, şüşəyə helikopterə oxşar şar bağlanıb. Füsunkar gülümsəyərək Keyt kuryeri yola salır və kartdakı yazını ucadan oxuyur:

Xanımlar, yeni evinizdə sizə xoşbəxtlik arzulayıram.

Kristian Qrey.

Keyt narazı halda başını yelləyir.

- Sadəcə –Kristiandan‖ yaza bilməzdi? Bu nə qəribə şar-helikopterdir?

- Çarli Tanqo.

- Nə?

- Kristianla Sietlə helikopterdə uçub gəlmişdik.

Çiyinlərimi çəkirəm. Keyt ağzı açıla halda mənə baxır. Deyim ki, oxşar durumları xoşlayıram: Keyt Kavana karıxmış halda susur; heyif ki, belə hallar az-az olur. Fürsətdən istifadə edib anın həzzini yaşayıram.

- Hə, onun helikopteri var və Kristianın özü onu idarə edir, – qürurla deyirəm.

- Əlbəttə, bu cür var-dövləti aşan düdəmənin helikopteri olmalıdır. Bunu mənə niyə deməmisən?

---

[1] qapılarda qoyulan xəbərdaredici qurğu



kitabyurdu.blogspot.com

Keyt ittihamedici nəzərlə mənə baxır, amma gülümsəyir və başını yelləyir, sanki eşitdiklərinə inanmır.

- Son vaxtlar beynim yaman qarışıb.

O, üzünü turşudur.

- Mən olmayanda öhdəsindən gələ biləcəksən?

- Əlbəttə, – Keyti inandırır və bu zaman məyus halda düşünürəm: ―Yeni şəhər, iş-güc yox… qəribəlikləri olan boyfrend‖.

- Ona ünvanımızı sən vermisən?

- Yox, amma izləmə ayrıca ixtisasdır, – işgüzar görkəmlə deyirəm.

Keyt sərt halda qaşlarını çatır.

- Nədənsə mən heç təəccüblənmirəm. Bu, məni narahat edir, Ana. Yaxşı, ən azı, şampan yaxşıdır və soyuqdur.

Əlbəttə, yalnız Kristian soyuq şampan göndərə bilər. Hə, yəqin katibəsinə tapşırıb… bəlkə də Teylora. ġüşəni açır və çay fincanlarını tapırıq – onları ən sonda qablaşdırmışdıq.

- Min doqquz yüz doxsan doqquzuncu ilin ―Blanje Qrand Anne Rozesi‖.

Keytə baxaraq gülümsəyirəm və biz fincanlarımızı toqquşdururuq.

Bazar günü, təəccüblü olsa da, gecə yaxşıca yataraq boz səhər günü ayılır və gözlərimi qutulardan çəkməyərək uzanıqlı qalıram. ―Əşyaları çıxarmanın vaxtıdır‖ – təhtəlşüurum deyingən halda bildirir və dodaqlarını kip sıxır. Yox… bircə bu gün olmasın. Daxili ilahəm sadəcə özündə deyil, bir ayağından o birinə tullanır. Ağır, məşum bəsirət tünd-qırmızı bulud kimi başım üzərində dolaşır. Qarnımda sanki kəpənəklər qanad vurur, Kristianın mənimlə nə edəcəyini təsəvvürümə gətirdikdə isə içimin dərinliyində ağır, cismani, hər şeyi unutduran ehtiras yaranır. Axı hələ bu lənətə gəlmiş müqaviləni imzalamaq lazımdır, ya yox? Çarpayımın yanında, döşəmədə qalmış mənfur noutbukdan asta bir çıqqıltı səsi eşidilir: elektron ismarış gəlib.


kitabyurdu.blogspot.com

Kimdən: Kristian Qrey
Mövzu: Həyatım rəqəmlərdə
Tarix: 29.05.2011, 08:04
Kimə: Anasteyşa Stil

Əgər öz maşınında getsən, sənə Eskaladakı yeraltı qarajın kodu lazım olacaq: 146 963.

Beşinci parklama bölümü; bu, mənə məxsus olanlardan biridir.

Liftin kodu: 1880

Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Əla içki
Tarix: 29.05.2011, 08:08
Kimə: Kristian Qrey

Bəli, ser, hər şey aydındır.

ġampan şərabı və üfürülmüş Çarli Tanqo üçün çox sağ olun, o indi çarpayıma bağlanılır.

Ana

Kimdən: Kristian Qrey
Mövzu: Həyatım rəqəmlərdə
Tarix: 29.05.2011, 08:04
Kimə: Anasteyşa Stil

Bir şey deyil... dəyməz.

Gecikmə.

Bəxtəvər Çarli Tanqo.

Kristian Qrey,
–Qrey enterprayzes‖ holdinqinin baş direktoru

Hiddətlənərək gözlərimi süzdürürəm – mənimçün komandir olub! – amma sonuncu sətri oxuyaraq təbəssümümü gizlədə bilmirəm. Hamam otağına gedirəm, öz-özümə sual verirəm ki, Eliot dünən bura qayıdıbmı və həyəcanımı boğmağa çalışıram.

Ura, mildaban tufliləri ayağımdan çıxarmadan –Audi‖ni sürə bilərəm! Düz saat on ikiyə beş dəqiqə qalmış Eskalanın qarajına daxil olur və beşinci bölmədə maşını parklayıram. Maraqlıdır, burda neçə bölmə Kristiana məxsusdur? Bölmədə iri, qara basar-keçər avtomobili, –R-8‖ və –Audi‖ markasından olan iki yolsuzluq maşını dayanıb. Hm… Yoxlayıram, çox nadir çəkdiyim sürmə axıb gedibmi, – gündən qoruyucu örtükdəki işıqlandırılan güzgüyə baxıram. ―Böcək‖də belə əndrəbadi şeylər yox idi.

Hə, qızım, başla! – daxili ilahəm əlində pomponlar tutub, əsl çirlider əhvali-ruhiyyəsindədir. Liftin saysız-hesabsız güzgülərində özümün gavalı, daha doğrusu, Keytin gavalı rəngli libasına baxıram. Keçən dəfə Kristian məni ondan çıxarmaq istəyirdi. Bu fikirdən içimdəki hər şey yığılır. Ox, bax a, elə kəskin hissdir ki, nəfəsim tutulur. Əynimdə Teylorun aldığı alt paltarı var. Öz –kirpi‖ saç kəsimi və işgüzar görkəmiylə onun –Xəfiyyə-Təxribatçı‖ olduğunu, yaxud bahalı alt paltarların satıldığı digər bir mağazanı necə gəzib dolaşdığını təsəvvüümə gətirir və allanıram. Liftin qapısı açılır və mən bir saylı mənzilin qarşısında peyda oluram.

Teylor ikiqat qapıda dayanıb və mənim liftdən necə çıxdığıma tamaşa edir.

– Günaydın, miss Stil.

– O-o... xahiş edirəm, məni sadəcə Ana çağırın.

– Ana, – Teylor gülümsəyir. – Misret Qrey sizi gözləyir.

Buna heç şübhə edən də yoxdur.

Kristian qonaq otağındakı divanda əyləşib və bazar günü çıxan qəzetləri oxuyur. Teylor məni içəri keçirərkən o, başını qaldırır. Otaq yaddaşımda qaldığı kimidir. Burda olduğum müddətdən bir həftə keçib, amma indi daha böyük görünür. Kristian sakit və təmkinli görünür, sözün düzü, ilahi görünüşü var. Əynində enli kətan köynək və cins şalvar var; özü də ayaqyalındır. Saçları pırtlaşıqdır, boz gözlərdə dəcəl parıltı var. O ayağa qalxır və mənə doğru gəlir, sanki heykəltəraşın yonduğu dodaqlarda heyrətli və dəyərləndirici təbəssüm var.

Tərpənməz qapıda dayanmış, onun gözəlliyindən iflic olmuşam və şəhvət təşnəsindəyəm. Aramızda yenə tanış elektrik qığılcımı keçir, Kristianın cazibəsinə necə düşdüyümü hiss eləyirəm və qarnımda yavaş-yavaş istək oyanır.

– M-m-m… bu paltar, – mənə nəzər yetirərək Kristian razılıqla donquldanır. – Xoş gəlmisiniz, miss Stil, – o pıçıldayır və çənəmdən tutaraq dodaqlarıma zərif öpüş qondurur.

Dodaqlarının toxunuşundan bədənimi əsməcə tutur. Tənəffüsüm sürətlənir.

– Salam, – pıçıldayıram və və üzüm allanır.

– Vaxtında gəldin. Dəqiqlik xoşuma gəlir. Gedək. – O, əlimdən tutur və məni divana sarı aparır. – Sənə bəzi şeyləri göstərmək istəyirəm.

Otururuq və o, mənə ―Sietl tayms‖ı uzadır. Səkkizinci səhifədə buraxılış mərasimindəki şəklimiz var. Bax a! Mən qəzet fotosundayam. ġəkilaltını oxuyuram.

Kristian Qrey Vaşinqton Universitetinin (Vankuver) buraxılış mərasimində görlfrendi ilə.

Gülürəm.

– Deməli, artıq sənin görlfrendinəm.

– Ona oxşayır. Əgər bunu qəzetdə yazıblarsa, deməli, həqiqətdir. – O, göz vurur.

Kristian oturub: bir ayağını yığaraq və gövdəsini tam şəkildə mənə tərəf çevirərək. O, mənə doğru əyilir və uzun şəhadət barmağıyla saçlarımı

qulağımın arxasına keçirir. Toxunuşdan bədənim canlanır və səbirsizliklə hərəkətin davamını gözləyir.

– Anasteyşa, sonuncu dəfə burda olduğun müddətdən bəri mənim barəmdə daha çox şey öyrənmisən.

– Hə.

O, nəyə eyham vurur?

– Amma yenə də qayıtdın.

Utanaraq başımla təsdiqləyirəm və onun boz gözləri qəfildən alışıb-yanır. Kristian azca başını yelləyir, sanki hansısa bezdirici fikirlə çarpışır.

– Yemək yemisən? – səbəbsiz-filansız birdən soruşur.

Poxa keçdik də.

– Yox.

– Acsan? – o soruşur: narazılığını cidd-cəhdlə gizlədərək.

– Hə, amma mənə yemək lazım deyil, – pıçıldayıram və onun burun pərləri azca şişir.

Kristian mənə doğru əyilir və qulağıma pıçıldayır:

– Siz həmişəki kimi səbirsizsiniz, miss Stil. Kiçik bir sirr açım: mən də acam. Amma tezliklə doktor Qrin gələcək.

O, düz oturur.

– Gərək yemək yeyəydin, – astaca deyinir o.

Coşmuş qanım soyuyur. Lənət şeytana, həkim... Tamam unutmuşam.

– Bu həkim haqda danış, xahiş edirəm, hər ikimizi yayındırmaq üçün.

– Qadın Sietldə ən yaxşı mamaça-ginekoloqdur. Daha nə danışım? – O, çiyinlərini çəkir.

– Elə bilirdim ki, məni sənin həkimin müayinə edəcək. Ancaq demə ki, sən əslində qadınsan, onsuz da inanmayacam.

O, nəzərini mənə zilləyir, baxışlardan oxunur: ―Axmaqlıq eləmə!‖

– Məncə, mütəxəssisdən məsləhət alman düzgün olar. Necə fikirləşirsən? – asta səslə deyir o.

Başımla təsdiqləyirəm. Bax a, Sietldə ən yaxşı mamaça-ginekoloq və Kristian onunla danışıb ki, Bazar günü, həm də günorta vaxtı məni müayinədən keçirsin! Heç təsəvvür də eləmirəm bu neçəyə başa gəlib. Kristian üz-gözünü turşudur, sanki nəsə xoşagəlməz bir şey xatırlayıb.

– Anasteyşa, anam bu gün səni şam yeməyinə dəvət edir. Məncə, Eliot da Keytlə gələcək. Bilmirəm buna necə yanaşacaqsan. ġəxsən mənimçün səni ailəmə təqdim eləmək bir qədər qəribə görünür.

Qəribə? Niyə?

– Məndən utanırsan? – səsimdəki incikliyi çox pis gizlədərək soruşuram.

– Əlbəttə, yox.

O, gözlərini süzdürür.

– Niyə qəribə?

– Əvvəllər bunu etməmişəm.

– Bəs niyə sən göz süzdürə bilərsən, mənsə yox?

Kristian karıxaraq gözlərini döyür.

– Göz süzdürməyimi hiss eləmədim.

– Mən də, adətən, hiss eləmirəm, – acıqlı halda deyirəm.

Kristian susaraq mənə baxır. Deyəsən, o, nitq qabiliyyətini itirib. Teylor qapıda peyda olur.

– Ser, doktor Qrin gəlib.

– Onu yuxarı, miss Stilin otağına ötür.

–Miss Stilin otağına!‖

– Kontrasepsiya məsələsi ilə məşğul olmağa hazırsan? – Kristian ayağa duraraq deyir və əlini mənə uzadır.

– Başa düşmədim, sən də orda olacaqsan? – heyrətlə soruşuram. O gülür.

– İnan, Anasteyşa, mən orda olmaq üçün nə desən verərdim, amma həkim əsla buna icazə verməz.

Onun ovcundan tuturam; o, məni özünə çəkir, qəfildən və möhkəm öpür. Heyrətdən ona sarılıram. O, barmaqlarını saçlarıma keçirir və başımdan tutaraq alnını alnıma dirəyir.

– Sənin burda olmana çox sevinirəm, – Kristian pıçıldayır. – Səni soyunduracağım anı həsrətlə gözləyirəm.


kitabyurdu.blogspot.com

## 18-ci fəsil

Doktor Qrin – ucaboy, sarışın, misilsiz görünüşü olan, tünd-göy rəngli kostyum geymiş qadın. Kristianın şirkətindəki əməkdaşları xatırlayıram. Bu qadın onlara çox oxşayır – daha bir Stepford sarışını. Açıq rəngli saçları eleqant düyündə toplanıb. Görünür, qırx yaşını təzəcə adlayıb.

– Mister Qrey. – O, Kristianın əlini sıxır.

– Sağ olun ki, dərhal gəlməyə razılıq verdiniz, – Kristian deyir.

– Siz də sağ olun, bu işə vaxt sərf etməyimə məmnunam.

Onunla əl verib salamlaşırıq və başa düşürəm ki, qarşımda səfeh insanları görməyə gözü olmayan bir qadın var. Lap Keyt kimi. Doktor Qrin xoşuma gəlir. O, diqqətlə Kristiana baxır və naqolay sükutdan sonra Kristian eyhamın mənasını anlayır.

– Aşağıda olacam, – o donquldanır və gələcək otağımdan çölə çıxır.

– Hə, miss Stil, Sizə məsləhət verməyim üçün mister Qrey mənə bir dünya sərvət verib. Sizə nəylə kömək edə bilərəm?

Ciddi müayinədən və uzun söhbətdən sonra doktor Qrin mənimçün mini-pili üsulu seçir, resept yazır və hamiləlik əleyhinə kiçik həbləri sabah götürməyimi buyurur. Onun işgüzar yanaşması xoşuma gəlir: o,

danışmaqdan çənəsi yorulanadək mənə həbləri eyni vaxtda necə qəbul eləməyi başa salır. Və mən yüzəyüz əminəm ki, həkim Kristianla olan qondarma münasibətlərimiz haqda çox şey bilmək istəyir. Təfsilatı ona danışmıram. Nədənsə mənə elə gəlir ki, Kristianın Qırmızı ağrı otağını gördükdə bu qadın təmkinli və itaətkar olmayacaq. Qapalı qapıların yanından keçərkən içdən alışıb-yanıram və biz ―Kristianın qonaq otağı‖ adlanan rəsm qalereyasına enirik.

Kristian divanda oturub və mütaliə edir. Otaq ecazkar ariya musiqisi ilə dolub, füsunkar musiqi sanki Kristianı əhatəsinə alıb və hansısa anda sükut abidəsi kimi görünür. O çevrilib bizə baxır və hərarətli təbəssümlə gülümsəyir.

- İşinizi bitirdiniz? – soruşur, sanki bu onunçün doğrudan da maraqlıdır.

Kristian diastansion idarəetmə pultunu sobanın altındakı eleqant ağ qutuya yönəldir, sobanın üstündəki aypoddan çıxan füsunkar musiqi səsi yox olur, amma arxa fonda o, hələ də səslənməkdədir. O, ayağa qalxır və bizə doğru gəlir.

- Hə, mister Qrey. Miss Stilin qayğısına qalın, o çox gözəl və ağıllı gənc qadındır.

Onun sözləri Kristianı heyrət içində qoyur, elə məni də. Nəsə... həkimə yaraşmayan qeyddir! Bəlkə o, Kristianı üstüörtülü xəbərdar edir? Kristian özünə gəlir.

- Mütləq, – xəcalətlə donquldanır o.

Özümü itirmiş halda Kristiana baxır və çiyinlərimi çəkirəm.

- Hesabı Sizə göndərərəm, – doktor Qrin sakitcə tələffüz edir və Kristianın əlini sıxır.

- Sağ olun, Ana, sizə uğurlar.

O, əlimi sıxır, gülümsəyir, gözlərinin kənarında qırışlar peyda olur.

Teylor heçlikdən peyda olur və ikiqat qapıdan liftə doğru gedərək onu müşayiət edir. Bax a, gör bunu necə edir? Görəsən, o harda gizlənir?

- Hə, nə oldu? – Kristian soruşur.

- Hər şey yaxşıdır, çox sağ ol. O dedi ki, dörd həftə istənilən növ seksual əlaqələrdən çəkinim.

Kristian heyrətlə ağzını açır, mən üzümün ciddi ifadəsini bundan artıq saxlaya bilmirəm və səfeh kimi gülürəm.

- Aldandın!

O, gözlərini qıyır və mən dərhal gülüşümü dayandırıram. Ümumiyyətlə, Kristianın yetərincə qəzəbli görkəmi var. Lənət! Təhtəlşüurum küncə sığınır, çünki Kristianın məni yanpörtü uzadacağını təsəvvürümə gətirirəm və rəngim ağarır.

- Aldandın! – Kristian deyir və gülümsəyir. O, belimdən yapışır və məni özünə tərəf çəkir. – Miss Stil, siz islaholunmazsınız.

Kristian düz gözlərimin içinə baxır, barmaqlarını daraq kimi saçlarıma keçirir, mənə tərpənmək imkanı vermir. O, məni kobudcasına öpür, yıxılmamaq üçün onun əzələli əllərindən yapışıram.

- Səni indi və burda elə s..ərdim ki... Amma sən də, mən də yemək yeməliyik. Heç istəmirəm ki, elə üstümdə ürəyin getsin, – astaca dodaqlarıma pıçıldayır o.

- Deməli, sənə ancaq bədənim lazımdır? – pıçıldayıram.

- Əlbəttə... və bir də sənin lovğa ağzın, – Kristian nəfəsini buraxır.

O, bir daha ehtirasla məni öpür, sonra kəskin hərəkətlə məni buraxır, əlimdən tutur və mətbəxə aparır. Əsməcəyə tutulmuşam. Bax a, indicə zarafat elədik, sonrasa… Qızarmış sifətimi əlimi yelləməklə soyuduram. O, sadəcə yeriyən seksdir, mənsə müvazinətimi bərpa eləməli və yemək yeməliyəm. Qonaq otağında hələ də astaca ariya səslənir.

- Bu nə musiqidir?

- Villa-Lobos,[1] –Braziliya çəkmələri‖ndən ariya. Doğrudan, yaxşıdır?

Onunla tamamilə razıyam.

---

[1] braziliyalı bəstəkar

Bar piştaxtasında ikinəfərlik yemək süfrəsi açılıb. Kristian soyuducudan içində salat olan kasanı çıxarır.

- ―Toyuqlu ―sezar‖ yeyəcəksən?

Tanrıya şükür, ağır yeməklər yoxdur.

- Hə, çox sağ ol.

Mən Kristianın ahəngdar hərəkətlə mətbəxdə necə davrandığına tamaşa edirəm. Deyəsən, o, öz bədəni ilə tam uyumda yaşayır, amma digər tərəfdən, toxunuşu heç sevmir… odur ki, ola bilsin, uyum tam deyil. ―Öz-özlüyündə ada olan insan yoxdur‖,[1] – deyə düşünürəm, – yəqin ki, Kristian Qreydən başqa‖.

- Nə düşünürsən? – Kristian soruşur, məni düşüncələrdən ayırır.

Allanıram.

- Sadəcə, necə hərəkət etdiyinə baxırdım.

O, təəccüblənərək qaşlarını qaldırır və quru tərzdə soruşur:

- Burda nə var ki?

Daha möhkəm qızarıram.

- Sanki uçursan.

- Kompliment üçün sağ olun, miss Stil, – deyir və şərab şüşəsini əlində tutaraq yanımda oturur. – ġabli?[2]

- Hə, zəhmət olmasa.

- Salat da, – astaca təklif edir. – Hansı üsulu seçdiniz?

Mən heyrətdən donub-qalıram, sonradan mənə çatır ki, o, doktor Qrinin müayinəsindən danışır.

- Mini-pili.

O, üzünü turşudur.

- Və sən onları hər gün eyni vaxtda qəbul edəcəksən?

---

[1] Con Donnonun "Zəng kiminçün çalınır" şeirindən misra

[2] şərab növü



kitabyurdu.blogspot.com

İlahi… əlbəttə, qəbul edəcəm. O hardan bunu bilir? Yəqin ki, məndən əvvəlki on beş qızın birindən öyrənib. Mənsə qızara-qızara gedirəm.

- Yadıma salarsan, – quru tərzdə cavab verirəm.

Kristian mənə heyrətamiz mərhəmətlə baxır.

–Təqvimimə səsli siqnal yazdıraram, – gülümsəyir. – Ye.

Salat ləzizdir. Təəccüblü olsa da, əməlli-başlı ac olduğumu müəyyən edirəm və tanışlığımızdan bəri ilk dəfə yeməyi Kristiandan əvvəl yeyib bitirirəm. ġərab təzə, yüngül, meyvə ətirlidir.

- Həmişəki kimi dözümsüzsünüz, miss Stil? – Kristian boşalmış tabağa baxaraq gülümsəyir.

Endirilmiş kirpiklərim arasından baxaraq pıçıldayıram:

- Hə.

Onun tənəffüsü sürətlənir. Kristian diqqətlə mənə baxır və ətrafımızdakı atmosferin asta-asta dəyişdiyini, sanki elektrikləndiyini hiss edirəm. Onun tünd baxışı alışır, elə bil məni harasa uzaqlara aparır. Kristian ayağa qalxır və məni hündür kətildən qaldıraraq ağuşuna alır.

- Sınamaq istəyirsən? – düz gözümün içinə baxaraq nəfəsini buraxır.

- Mən hələ heç nəyi imzalamamışam.

- Bilirəm. Amma son vaxtlar mən tez-tez qaydaları pozuram.

- Məni döyəcəksən?

- Hə, amma sənə ağrı vermək üçün yox. Səni cəzalandırmaq istəmirəm. Amma dünən axşam əlimə düşsəydin, onda başqa məsələ.

Lənət şeytana. O, mənim ağrı duymamı istəyir… hə, indi nə edim? Dəhşətdən ağzımı aça bilmirəm.

- Heç kimin səni inandırmasına izn vermə, Anasteyşa. Mənim kimi insanların bunu etməsinin səbəblərindən biri də onunla izah olunur ki, bizi ağrıdanda biz də ağrı verməyi xoşlayırıq. Hər şey çox sadədir. Bu xoşuna gəlmir və dünən axşam bu haqda xeyli fikirləşmişəm.

O, məni özünə çəkir və gərilmiş s..in qarnıma dirəndiyini duyuram. Qaçmaq lazımdır, amma bacarmıram. Məni Kristiana dərin, ibtidai səviyyədə çəkən qüvvə var, bunun səbəbini əsla anlamıram.

- Nəsə qərar vermisən? – pıçıldayıram.

- Yox, amma indi əl-qolunu bağlayıb nəbzini itirənədək səni s..mək istəyirəm. Hazırsan?

- Hə, – nəfəsimi buraxır, bütün bədənimin gərildiyini hiss edirəm… ah.

– Əla. Getdik.

O, əlimdən tutur və biz bulaşığı elə piştaxta üzərində saxlayaraq yuxarı qalxırıq.

Ürəyim bərkdən döyünür. Budur o an. Mən hazıram. Daxili ilahəm ekstra-klass balerinası kimi fırlanır: bir piruet ardınca o biri. Kristian öz oyun otağının qapısını açır, məni irəli buraxır və budur, yenidən Qırmızı ağrı otağındayam.

Burda hər şey əvvəlki kimidir: dəri, sitrus, cilalı qırmızı ağac qoxusu, çox hissiyyatlı mühit. Qan damarlarımda qaçır: bütün bədənimə isti və qorxunu yayaraq – şəhvət və ehtirasla qarışmış adrenalin. Məstedici qarışıq. Kristianın davranışı görünməz halda dəyişib, o sanki sərtləşib. Mənə baxır və onun gözləri şəhvətdən şölə saçır… adamı ovsunlayır.

– Burda sən bütövlüklə mənə məxsussan, – o, nəfəsini buraxır, hər bir sözü asta və dəqiqliklə tələffüz edir. – Və sən kefim istəyəni eləyəcəksən. Aydındır?

Onun baxışı qərarlıdır. Başımla təsdiqləyirəm, ağzım qupqurudur, qəlbimsə bax elə indicə yerindən atılacaq.

– Ayaqqabılarını çıxart, – Kristian astaca əmr edir.

Udqunur və naqolay şəkildə tuflilərimi çıxarıram. Kristian onları yerdən götürür və səliqəylə qapı ağzında qoyur.

– Yaxşı. Sənə nəsə əmr etdikdə ləngimə. İndisə səni bu paltardan çıxaracam. Yadımdadır, bunu hələ bir neçə gün əvvəl də eləmək istəyirdim. İstəyirəm ki, Anasteyşa, öz bədənindən utanmayasan. O gözəldir və mən

ona tamaşa etməyi xoşlayıram. Mənimçün bu, böyük sevincdir. Sözün düzü, sənə bütün günü tamaşa edərdim və sən çılpaqlığından nə xəcalət çəkməli, nə də utanmalısan. Aydındır?

– Bəli.

– Nə ―bəli‖? – O, mənə sərt halda nəzər yetirir.

– Bəli, ağa.

– Səmimi deyirsən? – o, sərt halda soruşur.

– Bəli, ağa.

– Yaxşı. Əllərini başın üstə qaldır.

Buyrulanı edirəm. Kristian əyilir və paltarımın yan uclarından tutur. O, yavaş-yavaş libasımı yuxarı qaldırır. Ombalarımı, qarnımı, döşümü, çiyinlərimi çılpaqlaşdıraraq başımdan çıxarır. Bir addım geri çəkilir, alınmış nəticəni dəyərləndirir və dalğın halda paltarı qatlayır, gözlərini əsla məndən çəkmir. O, paltarı qapı ağzındakı böyük komoda qoyur və əlini uzadaraq çənəmi dartışdırır. Toxunuş məni odlayır.

– Dodağını dişləyirsən, – Kristian nəfəsini buraxır və qaşqabaqlı halda əlavə edir, – sənsə bunun mənə necə təsir elədiyini bilirsən. Çevril.

Mən itaətkarlıqla çevrilirəm. O, büsthalterimi açır və yavaş-yavaş hər iki kasacığı aşağı çəkir. Onları qollarımdan aşağı endirir, dırnaqları və barmaqlarının ucuyla dərimə toxunur. Onun toxunuşundan fəqərəm boyu ətim ürpəşir və bütün əsəb nöqtələrim oyanır. O, arxadan mənə elə yaxın durub ki, bədəninin hərarətini duyur və alışıb-yanıram. Kristian saçlarımı geriyə, kürəyimə doğru yığır, sonra onları yumruğunda toplayır və dartır, başımı yana əyməyə məcbur edir. Kristian burnunu çılpaq boynumda gəzdirir, qoxunu içəri çəkir, sonra qulağıma doğru yuxarı qaldırır. Hissiyyatlı istəkdən qarnımın əzələləri burulur. Ah, Kristian mənə azca toxunan kimi onu arzulayıram.

– Səndən həmişə gözəl qoxu gəlir, Anasteyşa, – o pıçıldayır və zərifliklə qulağımın arxasını öpür.

İniltimi boğa bilmirəm.

– Sakit, – Kristian nəfəsini buraxır. – Səs-səmir çıxarma.

Saçlarımı geri yığaraq o, təəccüblü olsa da, mahir, cəld barmaqları ilə tellərimə hörük vurur. İşini bitirib hörüyün ucuna rezin qaytan keçirir və kəskin hərəkətlə özünə doğru çəkir

– Saçlarının hörüklənməsi xoşuma gəlir, – pıçıldayır.

Hm... niyə?

Kristian saçlarımı buraxır.

– Çevril, – əmr edir.

Mən buyrulanı yerinə yetirirəm. Tənəffüsüm nizamını itirir, qorxu və ehtiras məstedici kokteyldə birləşib.

– Sənə bura gəlməyi əmr etdikdə tumanınacan soyunmalısan. Aydındır?

– Bəli.

– Nə ―bəli‖? – o, acıqlı halda mənə baxır.

– Bəli, ağa.

Ağzının kənarı təbəssümdən əyilir.

– Ağıllı qız. – O, diqqətlə gözlərimin içinə baxır. – Sənə bura gəlməyi əmr etdikdə, istəyirəm ki, burda diz üstə qalasan. – O, qapı ağzındakı döşəməni mənə göstərir. – Hə, qalx görək.

Mən özümü itirmiş halda gözümü döyürəm, əmri beynimdə çözürəm, sonra naqolay tərzdə diz çökürəm.

– Dabanın üstə otura bilərsən.

Mən dabanım üstə otururam.

– Biləklərini və bazu önlərini ombalarına qoy. Yaxşı. İndi də dizlərini arala. Geniş. Daha geniş. Əla. Yerə, döşəməyə bax.

Kristian mənə yaxınlaşır, yalnız onun topuğunu və ayağının altını görürəm: yalın ayağının altını. Onun sözlərini yazmaq gərəkdir, əgər hər şeyi yadımda saxlamasını istəyirsə. O, yenidən hörüklərimdən tutur və başımı geri dartır. Ağrı həddində olan hiss. Kristiana baxıram.

– Bu pozanı yadda saxlayarsan, Anasteyşa?

– Bəli, ağa.

– Yaxşı. Burda gözlə, tərpənmə.

O, otaqdan çıxır.

Diz üstə dayanaraq gözləyirəm. Hara getdi? Mənimlə nə edəcək? Vaxt gedir. Bilmirəm, məni uzun müddətəmi... yoxsa beşcə dəqiqəlik beləcə saxlayacaq? Tənəffüsüm qırıq-qırıq olur, intizar məni daxilən yandırır.

Qəfildən Kristian qayıdır və mən dərhal sakitləşirəm, amma eyni anda daha da ehtiraslanıram. Daha? Onun ayaqlarını görürəm. Başqa bir cins şalvar geyinib. Bu, çox köhnədir, süzülmüş və cırıq. Lənət şeytana! Çox seksualdır. Kristian qapını bağlayır və ona nəyisə asır.

– Ağıllı qız Anasteyşa. Bu pozada sən çox gözəl görünürsən. Afərin. İndisə ayağa qalx.

Ayağa qalxıram, amma sifətimi qaldırmıram.

– Mənə baxa bilərsən.

Ürkək-ürkək ona baxıram. Kristian dəyərləndirici nəzərlə gözlərini mənə zilləyib, amma baxışları əvvəlki kimi çox sərt deyil. O köynəksizdir. Ah… ona necə də toxunmaq istərdim! Cins şalvarının üst düyməsi açıqdır.

– İndi əllərinə qandal keçirəcəm, Anasteyşa. Sağ əlini mənə uzat.

Əlimi uzadıram. Ovcu ilə onu yuxarı qaldırır və ani hərəkətlə düz ortasını qamçılayır. Onu əvvəlcədən görməmişdim. Hər şey elə ani baş verir ki, heyrətlənməyə macal tapmıram. Heyrətamizdir, ağrı hiss etmirəm... sadəcə, azacıq yanğı.

– Hansı hissiyyatdır? – Kristian soruşur.

Utanaraq gözümü döyürəm.

– Cavab ver.

– Hər şey qaydasındadır. – Üzümü turşuduram.

– Üzünü turşutma.

Gözümü döyür və hissiz sima almağa çalışıram. Alınır.

– Ağrıtdı?

– Yox.

– Heç ağrıtmayacaq da. Aydındır?

– Bəli, – inamsız cavab verirəm.

Doğrudanmı heç ağrıtmayacaq?

– Ciddi deyirəm.

Lənət şeytana, havam çatmır. Nə düşündüyümü Kristian hardan bilir? O, mənə qamçını göstərir. Qamçı hörmə dəridəndir. Baxışlarımı Kristiana yönəldir və gözlərinin həzzdən alışıb yandığını görürəm.

– Məqsədimiz müştərini razı salmaqdır, miss Stil, – o tələffüz edir. – Gedək.

O, biləyimdən və dirsəyimdən tutur, qəfəsin altına aparır və ordan qara dəri qandalları olan zənciri aşağı endirir.

- Bu qəfəs elə quraşdırılıb ki, zəncirləri hərəkət etdirə bilsin.

Yuxarı baxıram. Ox, bax a, lap metro sxeminə oxşayır.

- Burda başlayaq, amma mən səni ayaq üstə s..mək istəyirəm. Odur ki biz, bax o divarda qurtaracağıq.

O, ―X‖ şəkilli böyük, ağac xaçı göstərir.

- Əllərini başın üstə qaldır.

İtaət edirəm. Elə bir duyğudayam ki, sanki bədənimi tərk etmişəm və baş verənləri kənardan izləyirəm. Bu, şövqdən, erotikadan kənar bir hissdir. Mən heç vaxt eyni vaxtda həm qorxulu, həm də həzzverici bir şey etməmişəm: bütövlüklə, öz sözlərinə görə, zülmün əlli çalarını görmüş bir adama etimad göstərmişəm. Təlaş hissini dəf edirəm: Keyt və Eliot burda olduğumu bilirlər.

Kristian yanımda durur, qandalları bağlayır. Onun sinəsinə baxıram. Onun yaxınlığı məstedicidir. Bədənindən duş gelinin iyi gəlir və öz-özlüyündə baş dumanlandırıcı olan qoxu məni gerçəyə qaytarır. Burnumu onun sinəsinə toxundurmaq, sinəsini örtən tüklərin arasından dilimlə cığır açmaq istəyirəm. Əgər o, azca irəli gələrsə…

O, bir addım geri çəkilir və yarıyacan endirilmiş kirpikləri arasından açıq-aşkar şəhvət və ehtiras hissiylə mənə baxır. Bağlanmış əllərimlə mən tamamilə köməksizəm, amma onun simasına bircə, yeganə baxışdan ayaqlarımın arasının, paçamın nəmləndiyini hiss edirəm. Kristian yavaş-yavaş ətrafımda dövrə vurur.

– Bağlı əllərlə çox gözəlsiniz, miss Stil. Kobud ağzınızdan səs çıxmır. Bu xoşuma gəlir.

O, qarşımda durur, barmaqlarını tumanıma ilişdirir və tələsmədən onu aşağı, ayaqlarıma doğru endirir, dözülməz dərəcədə asta hərəkətlə məni tam çılpaqlaşdırır və nəhayət, qarşımda diz çökür. Gözünü məndən çəkməyərək o, tumanımı yumaqlayır, burnuna yaxınlaşdırır və qoxunu dərindən içinə çəkir. Sənin ananı! Doğrudanmı o, bunu elədi? Dəcəl təbəssümlə Kristian tumanımı cins şalvarının cibinə dürtür.

Ahəngdar və tənbəlcəsinə, böyük, vəhşi pişik kimi Kristian ayağa qalxır, qamçının ucuyla göbəyimə toxunur, onu asta-asta dolandıraraq məni cırnadır. Dərinin toxunuşundan mən diksinir və ağzımla havanı qapıram. Kristian yenidən başıma dolanır, qamçını bütün bədənimə toxundurur. İkinci dövrədə o, gözlənilmədən qamçını havaya qaldırır, məni arxadan, aşağıdan… düz ayaqlarımın arasından vurur. Gözlənilməzlikdən qışqırıram, əsəb çıxıntılarım sanki közərib. Zərbə qəribə bir şirinlik və ecazkar hissiyyatla əks-səda verir. Dartınıram, zəncirləri gərirəm.

– Sakit! – Kristian pıçıldayır və yenidən başıma dolanır, qamçını azca yuxarıdan bədənimdə hərləyir.

Bu dəfə artıq mən şiddətli zərbəyə hazıram… ah. ġirin, yandırıcı ağrıdan bədənim təlatümə gəlir.

Daha bir dövrə... bu dəfə zərbə döşümü yandırır və mən başımı geri atıram, əsəblərim zəng çalır. Qamçı ikinci məməmə toxunur… qısa, şirin işgəncə. Döşlərim şişir və zərbələr altında bərkiyir, ucadan inləyərək mən dəri qandallardan asıla qalıram.

– Sənə xoşdur? – Kristian nəfəsini buraxır.

– Bəli.

O, yanlarıma vurur. Bu dəfə qamçı dərimi ağrılı göynədir.

– Nə ―bəli‖?

– Bəli, ağa, – zingildəyirəm.

Kristian dayanır, amma mən onu görmürəm. Qapalı gözlərimlə hisslərimi aydınlaşdırmağa çalışıram: onlar bütün bədənimdə dolaşır.

Kristian yavaşça qarnıma sancılı zərbələr endirir və zərbələr getdikcə daha aşağılara doğru enir. Biliriəm onlar hara yönəlib, gücü toplayıram, amma dözə bilməyib bərkdən çığırıram: qamçı klitorumu yandırır.

– O-o-o… xahiş edirəm!

– Sakit! – o əmr edir və yenidən arxama zərbə endirir.

Heç bilməzdim ki, hər şey belə olacaq … sanki itmişəm. Hisslər dənizində yox olmuşam. Qəfildən Kristian qamçını ayaqlarım arasında gəzdirir – qasıqdakı tüklər arasından vaginin girişinə doğru.

– Bax gör necə nəmsən, Anasteyşa. Gözlərini və ağzını aç.

Mən ovsunlanmış halda əmri icra edirəm. O, qamçının ucunu ağzıma soxur, lap yuxumdakı kimi. Bax a!

– Öz dadına bax. Yala. Daha möhkəm yala, balaca.

Baxışlarımız toqquşur və mən qamçını dodaqlarımla tuturam. Dərinin açıq qoxusu şəhvətimin duzlu tamına qarışıb. Kristianın gözləri od tutub yanır. O, öz mühitindədir.

O, qamçını ağzımdan çıxarır, məni tutaraq ehtirasla öpür, onun dili ağzıma girir. Kristian məni özünə çəkir, sinələrimiz bir-birinə dayaqlanır. Mən dəlicəsinə ona toxunmaq istəyirəm, amma bunu edə bilmirəm: əllərim başım üzərində qandallanıb.

– Ooo.., Anasteyşa, füsunkar dadın var! – Kristian nəfəsini buraxır. – Qurtarmaq istəyirsən?

– Xahiş edirəm! – yalvarıram.

Qamçı yanlarımı göynədir. Oy!

– Nə ―xahiş edirəm‖?

– Xahiş edirəm, ağa, – sızlayıram.

O, zəfərlə gülümsəyir.

– Bunun vasitəsiylə? – qamçını qaldırır.

– Bəli, ağa.

– Sən əminsən? – Kristian sərt baxışla mənə baxır.

– Bəli, xahiş edirəm, ağa.

– Gözlərini yum.

İtaət edirəm və hər şey yox olur: otaq, Kristian… qamçı. Kristian yenidən qarnıma yüngül, sancılı zərbələr səpməyə başlayır. O, aşağı düşür, qamçı klitoruma toxunur, bir dəfə, ikinci dəfə, üçüncü, yenə və bir daha və nəhayət, budur o – mən artıq dözə bilmirəm, ucadan fərəh çığırtısı ilə bağırıram və taqətsiz halda zəncirlərdən asılı qalıram. Ayaqlarım pambıq kimidir və Kristian məni tutur. Onun ağuşunda əriyirəm, başımı onun sinəsinə qoyuram və yalnız astaca zingildəyirəm, içimdəki orqazm əks-sədası hələ də nəbzini atır. Kristian məni qaldırır və aparır, əllərim hələ də yuxarıdan bağlıdır. Kürəyimdə cilalı ağac xaçın soyuq təmasını hiss edirəm. Kristian bir anlığa məni buraxır, cins şalvarının düymələrini açır və prezervativi taxır, sonra qaldırır və ombalarımdan tutur.

– Ayaqlarınla məndən tut, balaca.

Artıq taqətim qalmayıb, amma mən onun əmrini yerinə yetirirəm. Kristian kəskin təkanla içimə soxur, ucadan qışqırıram, osa asta səslə qulağıma inləyir. Əllərim onun çiyinlərindədir, o, növbəti təkanlarla içimin dərinliklərinə girir. Ah, lap dibinə kimi! Kristian mənə yapışır , üzünü boynuma dayayır, qırtlağımda onun xırıltılı tənəffüsünü eşidirəm. İçəridə artıq mənə tanış olan ağırlıq artmağa başlayır. İlahi, yox… bircə indi olmasın… Bədənim daha bir təlatümə dözə bilmir. Amma seçim yoxdur və artıq adiləşmiş labüdlüklə mən parlaq, əzabverici orqazmla partlayıram. Vəssalam, başqa duyğulara yer qalmayıb. Kristian mənim ardımca qurtarır, nərildəyir, dişlərini qıcırdaraq məni möhkəm qucaqlayır.

O, ehtiyatla məndən aralanır və bədənimi xaça söykəyir. Qandalları açaraq əllərimi sərbəst buraxır və hər ikimiz yerə düşürük. Kristian məni özünə sarı çəkir, qucaqlayır, başımı onun sinəsinə qoyuram. Taqətim olsaydı, ona toxunardım, amma qımıldana bilmirəm. Gecikmiş halda dərk edirəm ki, o hələ də cins şalvardadır.

– Əla, balaca, – Kristian pıçıldayır. – Ağrıdırdı?

– Yox, – nəfəsimi buraxıram.

Gözlərim qapanır. Niyə bu qədər yorulmuşam?

– Sənsə ağrı gözləyirdin? – o, məni özünə çəkərək pıçıldayır və üzümdən saçları kənara çəkir.

– Hə.

– Görürsəm ki, Anasteyşa, qorxu əsasən başındadır. – O susur, sonra soruşur: – Bunu təkrarlamaq istərdin?

Bir anlığa fikrə gedirəm, yorğunluq beynimi dumanlandırıb … Təkrarlamaq?

– Bəli, – astaca deyirəm.

Kristian məni möhkəm qucaqlayır.

– Yaxşı. Elə mən də, – o, yavaşca tələffüz edir və nəvazişlə məni öpür. – Amma biz səninlə hələ bitirməmişik.

Hələ bitirməmişik!? Bax a! Mənə bəs edir. Tamamilə əldən düşmüşəm və yuxuyla mübarizə aparıram, amma deyəsən, mənasız. Kristianın sinəsində uzanmışam, gözlərim qapalıdır, o, əlləri və ayaqları ilə mənə sarılıb və mən özümü... təhlükəsizlikdə və çox rahat hiss edirəm. Bəlkə o, mənə yatmaq imkanı verəcək, yaxud heç olmasa, yuxumu almaq? Aha, gözlə. Axmaq fikirlərdən dodaqlarımı əyir, çevrilirəm və burnumu Kristianın sinəsinə dayayıram, onun misilsiz ətrini içimə çəkirəm, amma Kristian o dəqiqə bədənini gərir… lənət şeytana. Gözlərimi açıram. O, diqqətlə mənə baxır.

– Lazım deyil, – xəbərdaredici tərzdə nəfəsini buraxır.

Üzüm allanır və baxışımı onun sinəsinə yönəldirəm. Sinəsindəki tüklərin arasından dilimi sürüşdürərək onu elə öpmək istəyirəm ki!.. Qəfildən Kristianın sinəsində bir neçə dairəvi çapıq görürəm. ―Suçiçəyi? Qızılca?‖ – yayğın halda düşünürəm.

– Qapı ağzında diz üstə dayan, – o əmr edir, oturur, məni buraxır və ələrimi dizlərim üstə qoyur. Kristianın səsində artıq hərarət yoxdur, temperatur bir neçə dərəcə düşüb.

Naqolay şəkildə qalxır, qapıya doğru gedir və otururam: buyrulduğu kimi. Titrəyirəm, mən çox, çox yorulmuşam və özümə qətiyyən hakim deyiləm. Kim düşünə bilərdi ki, bu otaqda misilsiz həzz dadacam? Və kimin

ağlına gələrdi ki, bu son dərəcə əzablı olacaq. Gözü doymuş bədən füsunkar ağırlıq qazanır. Daxili ilahəm öz otağının qapısından lövhə asıb: ―Narahat olmayın!‖.

Kristian hardasa baxış sahəmdən kənardadır. Gözlərim qapanır.

– Sizi darıxdırıram, miss Stil?

Özümə gələrək və başımı kəskin halda qaldıraraq Kristianı görürəm. O, qarşımda dayanıb və baxışları ilə üzərimdə qəzəb dəliyi açır. Poxa düşdük: o, yatdığımı görüb! İndi nə olacaq? Ürkərək ona baxıram; baxışlarında hərarət oyanır.

– Ayağa qalx! – Kristian əmr edir.

Qorxa-qorxa qalxıram. O, mənə baxır, kinayəylə dodaqlarını əyir.

– Deyəsən, taqətsizsən.

Utanaraq başımla təsdiqləyir və qızarıram.

– Dözümlülük, miss Stil. – O, gözlərini qıyır. – Mən hələ səni əməlli-başlı qayırmamışam. Əllərini önə qoy, sanki dua edirsən.

Mən yayğın halda gözlərimi döyürəm: ― Sanki dua edirsən!?‖ Dua edirəm ki, mənimlə kobud rəftar etməyəsən. Əmri icra edirəm. Kristian biləklərimi kabel qarmaqlarıyla bağlayır. Lənət şeytana! Kristiana sarı boylanıram.

– Tanış gəlir? – o soruşur – gülüşünü gizlətmədən.

Ah, işə bir bax a! ―Kleytons‖dan alınan plastik kabel qarmaqları. İndi hər şey aydındır. Ağzımı açaraq Kristiana baxıram, bədənimin adrenalin çatışmazlığından necə sancıladığını duyuram. Hə, o, istəyinə nail oldu, – yuxudan tam ayılmışam.

– Bu da qayçı, – Kristian deyir və mənə göstərir. – Səni istənilən an azad edə bilərəm.

Əllərimi ayırmağa çalışır, buxovların möhkəmliyini yoxlayıram; plastik ağrıdıcı halda dərimə keçir, amma biləklərimi boş saxladıqda buna dözmək olar.

– Gedək.

Kristian əlimdən tutaraq məni dördsütunlu çarpayıya doğru aparır. Onun mələfələri tünd-qırmızı rəngdədir, künclərə isə buxovlar bərkidilib.

– Mən çox istəyirəm, daha çox, – Kristian qulağıma pıçıldayır.

Ürəyim dəlicəsinə döyünür yenidən. İlahi!..

– Söz verirəm, hər şey çox tez bitəcək. Yorulmusan, sütuna söykən.

Qaşlarımı çatıram. Deməli, çarpayıda olmayacaq? Sən demə, mən ovuclarımı açıq qoya bilərəmmiş. İtaətkarlıqla oyma ağac sütundan yapışıram.

– Aşağı! – Kristian əmr edir. – Yaxşı. Buraxma. Buraxsan, səni şapalaqlayacam. Aydındır?

– Bəli, ağa.

– Yaxşı.

O, arxa tərəfdə durur, ombalarımdan tutur və azca qaldıraraq geriyə çəkir. Odur ki, sütundan tutaraq irəli əyilirəm.

– Əllərini aralama, Anasteyşa, – Kristian xəbərdarlıq edir. – Səni arxadan s..əcəm, çox sərt. Sütuna söykən ki, ayaq üstə dayana biləsən. Başa düşdün?

– Bəli.

O, arxamı şapalaqlayır. Oy… ağrıdır!

– Bəli, ağa, – tələsik donquldanıram.

– Ayaqlarını arala.

Kristian arxada dayanır və ombalarımdan tutaraq sağ ayağımı kənara çəkir.

– Bax belə yaxşıdır. Sonra sənə yatmağa icazə verərəm.

Nə yuxu? Ağır-ağır nəfəs alıram və yuxu haqda heç düşünmürəm də. Kristian nəvazişlə belimi sığallayır.

- Sənin elə gözəl dərin var ki, Anasteyşa, – o, nəfəsini buraxır və məni öpür, fəqərəm boyu lələk kimi yüngül öpüş yerləri buraxır.

Onun ovucları döşlərimi arasına alır, gilələri barmaqları ilə sıxır və ehtiyatla dartır. Boğuq iniltimi dəf edə bilmirəm, bütün bədənim hayqırır, canlanır nəvazişdən.


kitabyurdu.blogspot.com

Kristian zərif dişləmələri ilə qurşağadək dərimi sovurur, gilələri dartır və mən mahir oymalı sütundan daha möhkəm yapışıram. Qəfildən o, əllərini geri çəkir, cığaranın artıq tanış xışıltısını eşidirəm və Kristianın ayağıyla cins şalvarı kənara atdığını görürəm.

– Sənin füsunkar, seksual g..ün var, Anasteyşa Stil. Onun başına o qədər oyun açmaq istəyirəm ki!..

Kristian yanbızlarımı sığallayır, sonra onun əlləri aşağı sürüşür və bir cüt barmaq içimə girir.

– Bura necə də nəmdir! Siz məni peşman eləmirsiniz, miss Stil! – o pıçıldayır və səsində heyrət oxunur. – Möhkəm yapış, balaca, bu, asan olmayacaq.

Kristian ombalarımdan tutur, ayaqlarım arasında dayanır və mən kəskin təkana hazırlaşıram, amma Kristian əyilir və hörüyümü əlinə dolayır. O, çox yavaş-yavaş içimə soxur və eyni vaxtda saçlarımı dartır… o-o-o, həzzə bax! Eyni astagəlliklə içimdən çıxır, o biri əliylə ombamı əlləyir, sonra kəskin təkan bütün bədənimi silkələyir, mən az qala irəli yıxılıram.

– Özünü saxla, Anasteyşa! – qıcırdılmış dişləri arasından bağırır o.

Mən sütundan daha möhkəm yapışır, yırğalanıram, o, yenidən və bir daha içimə soxur, barmaqlarını ombama daha möhkəm yeridərək. Ayaqlarım sızıldayır, qatlanır, başımın dərisi göynəyir, çünki Kristian hörüyümdən dartır… amma içimdən tanış hissin baş qaldırdığını duyuram. O-o, yox… ilk dəfədir ki, orqazmdan qorxuram… əgər qurtarsam… huşumu itirəcəm. Kristian kəskin, kobud təkanlarla hərəkət edir, xırıltılı nəfəs alır, inləyir və aydın olmayan kəlmələr tələffüz etməklə böyürür. Bədənim ona hay verir… nə? Özümü son həddə hiss edirəm. Qəfildən Kristian lap dibə soxur və donub-qalır.

– Hə, Ana, mənimçün! – o, nəfəsini buraxır.

Adımı eşitdikdə özümü artıq saxlaya bilmirəm, bədənim xoş hisslə dolub-daşır, bu duyğu sanki məni burulğana çəkib aparır, mən partlayıram və gerçəklik yox olur.

Tədricən özümə gəlir və anlayıram ki, Kristianla birgə qurtarmışam. O, döşəyə sərələnib, mən füsunkar cinsi əlaqədən sonrakı yorğunluqdayam, arxası ona tərəf uzanmışam və tavana baxıram. –Oy…yaylı qarmaqlar‖, – yayğın halda düşünürəm; onları unutmuşdum. Kristian burnunu qulağıma dirəyib.

– Əllərini qaldır, – astaca deyir o.

Əllərim sanki qurğuşundandır, amma mən itaətkarlıqla əllərimi irəli uzadıram. Kristian qayçını işə salır və kabel qarmağından yapışır.

– Bu Ananı açıq elan edirəm, – bəyan edir o və plastiki kəsir.

Gülür və biləklərimi ovuşdururam. Kristianın necə gülümsədiyini duyuram.

– Necə də xoş səsdir, – o, düşüncəli halda deyir.

Qəfildən o oturur, məni əldən buraxmır və mən onun dizləri üstə düşürəm.

– Günah məndədir, – o deyir, məni elə çevirir ki, keyimiş əllərimi və çiyinlərimi ovuşdurmaq rahat olsun. O, nəvazişlə bədənimi masaj edir, tədricən cismim özünə gəlir.

Kristian nəyi nəzərdə tuturdu?

Kristiana tərəf çevrilir, onun nəyi nəzərdə tutduğunu anlamağa çalışıram.

– Nəsə sən çox nadir hallarda gülürsən.

– Mən, ümumiyyətlə, az gülürəm, – yuxulu halda donquldanıram.

– Bəli, miss Stil, amma gülüşünüzdən adamın ürəyi açılır.

– Misilsiz komplimentdir, mister Qrey, – gözlərimi güclə açaraq deyirəm.

Baxışları hərarətlə dolur və o gülümsəyir.

– Deyərdim ki, sən proqram üzrə tam s..ilmisən və indi yatman lazımdır.

– Bax bu, heç kompliment olmadı, – zarafatla donquldanıram.

Kristian gülümsəyir, məni qayğıyla dizlərindən düşürür və özünün füsunkar çılpaqlığını nümayiş etdirərək ayağa qalxır. Mən, demək olar ki,

ani olaraq yuxulamağıma və ona ürək dolusu tamaşa edə bilməməyimə heyifsilənirəm. O, cins şalvarı birbaşa çılpaq bədəninə geyinir.

– Teyloru, ya da missis Consu qorxutmaq istəmirəm, – o donquldanır.

Hm… onlar yüzəyüz bilirlər ki, o pozğun düdəmədir. Bu fikir yamanca xoşuma gəlir.

Kristian mənə ayağa durmaqda kömək edir, qapıya sarı aparır. Qapıdan boz dama-dama xalat asılıb və Kristian səbrlə onu əynimə geydirir, lap balaca uşaq kimi. Qollarımı qaldıra bilmirəm. Geyindikdən və ədəbli göründükdən sonra Kristian nəvazişlə dodaqlarımı öpür və təbəssümlə dodaqlarını əyir.

– İndi düz çarpayıya, – o deyir.

Oy, yox… bircə bu olmasın …

– Yatmaq üçün, – üzümün ifadəsini görərək Kristian məni sakitləşdirir.

Qəfildən o, məndən yapışır və sinəsinə sıxaraq dəhlizlə bir qədər əvvəl doktor Qrinin məni müayinə elədiyi otağa aparır. Ürəyim onun sinəsində çırpınır. Tamamilə gücsüzəm. Hətta sonuncu dəfə nə vaxt belə yorulduğumu da xatırlamıram. Kristian adyalı kənara atır, məni çarpayıya uzadır və təəccüblü olsa da, yanımda uzanır və mənə qısılır.

– Yat, gözəlim, – pıçıldayır və saçlarımı öpür.

Kinayəli atmaca atmağa macal tapmıram, çünki yuxu girdabına düşürəm.


kitabyurdu.blogspot.com

kitabyurdu.blogspot.com

## 19-cu fəsil

Yumşaq dodaqlar gicgahıma toxunur, yüngül, incə öpüş yerlərinin zəncirini yaradır və mənim hansısa hissəm çevrilir cavab vermək, amma əsasən hələ də yatmaq istəyir. İniltiylə başımı balınca basdırıram.

– Anasteyşa, oyan! – Kristian incə tərzdə məni yola gətirir.

– Yox, – mırıldanıram.

– Yarım saatdan sonra çıxmalıyıq ki, valideynlərimlə birgə şam yeməyinə gecikməyək.

Deyəsən, kefi kökdür. Gözlərimi həvəssiz açıram. Pəncərənin arxasında qaş qaraldığı görünür. Kristian mənə doğru əyilərək diqqətlə üzümə baxır.

– Hə, yatağan, qalx görək! – O, yenə də məni öpür. – Səninçün içki gətirmişəm. Aşağıda gözləyirəm. Hünərin var, yenə yatasan, dərsini verəcəm, – acıqlı olmayan səsiylə məni xəbərdar edir.

Kristian məni yavaşca öpür və çıxıb gedir, mənsə yuxulu halda gözümü döyür, sərin, demək olar ki, bomboş otaqda qalıram.

Pis dincəlmədim, amma nədənsə narahatam. Lənət şeytana, axı onun valideynləriylə görüşüm var! O, bir az əvvəl məni qamçılayıb və özüm ona satdığım kabel qarmaqlarıyla əl-qolumu bağlayıb, indisə onun əcdadları ilə görüşməliyəm. Keyt də onları ilk dəfə görəcək. Noolar, heç olmasa, mənə dəstək verər. Çiyinlərimi fırladıram. Onlar şişib. İndi Kristianın şəxsi məşqçiylə bağlı tələbi heç də məntiqsiz yox, əksinə, tam zəkalı görünür. Əgər normal görünmək istəyirəmsə, bu lazımdır.

Yataqdan yavaş-yavaş çıxır və paltarımın şkafdan, lifçiyimin isə stuldan asıldığını görürəm. Bəs tumanım hanı? Stulun altına baxıram. Heç nə yoxdur. Qəfildən xatırlayıram ki, Kristian onu öz cins şalvarının cibində gizləyib. Xatırlarkən qızarıram, bu haqda düşünmək belə utandırıcıdır! Ədəbsiz hərəkətdir. Qaşlarımı çatıram. Niyə Kristian tumanımı mənə qaytarmadı?

Ürkək-ürkək hamam otağına keçirəm, əynimdə alt paltarı olmadığından utanıb yerə girirəm. Duşun altında azca qaldıqdan sonra bədənimi qurulayır və birdən anlayıram: Kristian bunu bilərəkdən edib! İstəyir ki, tumanımı geri istəyim, osa qərar verəcək: qaytarsın, ya qaytarmasın. Daxili ilahəm gülümsəyir. Cəhənnəmə ki… bu oyunu ikilikdə oynayırlar. Qərara gəlirəm ki, Kristiandan tumanımı geri istəməyəcəm, bunu görməyəcək. Deməli, onun valideynləri ilə görüşə alt paltarsız getmək lazım gələcək. ‒Anasteyşa Stil!‖ – təhtəlşüurm mənə giley-güzar edir, amma ona qulaq asmıram, çünki özümdən çox məmnunam: Kristian dəli olacaq!

Otağa qayıdaraq büsthalteri geyinir, paltarı əynimə dürtürəm, sonra da tufliləri. Hörüyümü açır, tələsik saçlarımı darayıram, sonra mənə nə içki gətirildiyinə baxıram. O, solğun, çəhrayı rəngdədir. Bu nədir? Quşüzümü və qazlı su. M-m-m… əla dadı var və susuzluğu yaxşı yatırır.

Tələsik hamam otağına qaçır və aynaya baxıram: gözlər yanır, yanaqlar allanıb, görünüş tuman məsələsinə görə azca özündənrazıdır. Aşağı enirəm. Beş dəqiqəyə geyinib-kecindim. Pis deyil, Ana.

Kristian panoram pəncərəsinin yanında dayanıb; əynində boz flanel şalvar var – onu çox xoşlayıram: şalvar onun ombalarından elə seksual asılır ki... Əlbəttə, bir də ağ köynək. Maraqlıdır, onun başqa rəngdə paltarı varmı? Dinamiklərdən astaca Frenk Sinatranın səsi gəlir.

O, mənə sarı çevrilir və gülümsəyir. Kristian intizarla mənə baxır.

‒ Salam, – astaca deyirəm, onun üzündə müəmmalı təbəssüm oynaşır.

‒ Salam, – o cavab verir. – Özünü necə hiss edirsən?

Onun gözləri sevinclə parlayır.

‒ Yaxşı, çox sağ ol. Bəs sən?

‒ Əla, miss Stil.

O, söhbəti davam etməyimi gözləyir.

‒ Frenk. Bilməzdim ki, sən Sinatranın pərəstişkarısan.

– Mənim elektik zövqüm var, miss Stil, – Kristian yavaşca deyir, bəbirə xas ahəngdar yerişlə mənə doğru gəlir, onun diqqətli baxışından həyəcanlanıram.

Frenk ürəyi riqqətə gətirərək köhnə, sevimli ―Sehrləmə‖ mahnısını oxuyur. Kristian barmaqlarının ucunu asta-asta boynumda gəzdirir və onun toxunuşu içimin dərinliyində əks-səda verir.

– Mənimlə rəqs elə, – o, xırıltılı səslə təklif edir.

Cibindən pultu çıxararaq o, musiqinin səsini ucaldır və əlini mənə uzadır, boz gözlərinin şən baxışı vəd və ehtirasla doludur. Kristian adamı məftun edir və mən onun sehrinə düşürəm. Əlimi ona uzadıram. O, tənbəlcəsinə gülümsəyir, məni özünə sarı çəkir və belimdən tutaraq astaca yırğalanmağa başlayır.

Əlimi onun çiyninə qoyur və gülümsəyirəm, onun dəcəl əhvali-ruhiyyəsi mənə də yoluxur. Kristianla rəqs edirəm. İlahi, o necə də gözəl rəqs edir! Pəncərədən mətbəxə doğru hərəkət edir, fırlanaraq və çevrilərək musiqinin ritmini tuturuq. Kristianın ardınca çətinlik çəkmədən ayaqlarımı hərəkət etdirirəm.

Biz nahar süfrəsi ətrafında dövrə vururuq, sonra royalın və şüşə pəncərənin yanında, şüşədən o üzdə tünd və sehrli dekorasiyada Sietlin işıqları parlayır və mən xoşbəxt gülüşümü dəf edə bilmirəm. Musiqinin son akkordunda Kristian mənə baxaraq gülümsəyir.

- ―Səndən əziz cadugər yoxdur‖, – deyə o, mahnının sözlərini təkrarlayır və məni incə tərzdə öpür. – Hə, miss Stil, yanaqlarınız azca qızarıb. Rəqsçün çox sağ olun. Valideynlərimin yanına getməyə hazırsınızmı?

- Həmişə hazıram və bu görüşü həsrətlə gözləyirəm, – boğularaq cavab verirəm.

- Sizə lazım olan hər şey üstünüzdədir?

- Əlbəttə, – xoş səslə cavab verirəm.

- Əminsiniz?

Onun diqqətli, heyrətli baxışları altında bütün qərarlılığımı toplayır və qayğısız halda başımla təsdiqləyirəm. Kristianın siması geniş təbəssümləaçılır və o, başını yelləyir.

- Yaxşı. Əgər belə qərar vermisinizsə, miss Stil.

O, əlimdən yapışır, bar kətilinin üstündən pencəyini götürür və vestibüldən liftə doğru aparır. Çoxsimalı Kristian Qrey... Bu dəyişkən insanı nə zamansa anlayacağammı?

Liftdə ürkək-ürkək Kristiana baxıram. Onun gözəl dodaqlarında yüngül təbəssüm oynaşır, deyəsən o, oğrun-oğrun gülür. Bundan artıq nə gözləyirdim ki? Onun valideynləri ilə görüşə hazırlaşıram və əynimdə tuman yoxdur! Təhtəlşüurum bədxahlıqla gülür: ―Axı sənə demişdim!‖ Mənzilin şərti təhlükəsizliyində bu ideya mənə əyləncəli və cazibədar görünmüşdü. İndisə, küçədəyəm və TUMANSIZ! Kristian mənə baxır və aramızdan yenə elektrik keçir. ġən ifadə Kristianın üzündən sürüşüb düşür; o qaşqabaqlıdır, gözləri tündləşir… lənət şeytana.

Aşağıda liftin qapıları açılır. Kristian başını silkələyir, sanki çağırılmamış fikirləri qovur və əsl centlmen jestiylə liftdən çıxmaq üçün mənə yol verir. O kimi aldadır? O heç də centlmen deyil. Tumanım ondadır.

Böyük yolsuzluq maşını olan ―Audi‖də Teylor gəlib çıxır. Kristian arxa qapını mənimçün açır və mən bütün zərifliyimlə avtomobilə otururam, həm də alt paltarın imkan verdiyi ədəbsizliklə. Tanrıya şükür, Keytin paltarı dizə çatır və bədənə sıx gəlir.

Maşın I-5 şosesiylə şütüyür, Kristianla birgə susuruq – Teylorun susqun varlığı bizi çəkindirir. ġimala doğru getdikcə Kristianın əhvali-ruhiyyəsi dərkedilən, həm də dəyişkən və kefsizdir. Kristian nə haqdasa düşünür, pəncərəyə baxaraq məndən nə qədər uzaqlaşdığını duyuram. O, nə haqda düşünür? Soruşa bilmərəm. Teylor yanımızda ikən nə barədə danışa bilərik ki?

– Rəqs eləməyi harda öyrənmisən? – ürkək-ürkək soruşuram.

O, mənə sarı çevrilir, fənərlərin sayrışan işığında gözlərinin ifadəsini oxumaq mümkün deyil.

– Bunu bilmək istədiyinə əminsən? – o, sakitcə cavab verir.

– Hə, – sözü güclə çölə çıxarıram.

– Missis Robinson rəqs etməyi xoşlayırdı.

Ən pis bəsirətlərim doğruldu. O qadın Kristiana yaxşı dərs verib və bu fikir mənə əzab verir: özüm ona heç nə öyrədə biməyəcəm. Xüsusi qabiliyyətlərim yoxdur.

– Yəqin ki, yaxşı müəllimədir.

– Hə, yaxşı, – Kristian sakitcə deyir.

Mənə elə gəlir ki, başım ürpənir. Doğrudanmı ən yaxşı şeylər ona qismət olub? Kristian belə qapalı olana qədər? Yoxsa o qadın Kristiana içini kəşf etmək imkanı verib? O elə əziz və nəvazişli ola bilir ki... İxtiyarsız olaraq gülümsəyirəm, məni necə qucaqladığını, qonaq otağında necə dövrə vurduğumuzu xatırlayıram... Bu, elə gözlənilməzdi ki... həm də tumanım onun cibindədir.

Hə, bir də Qırmızı ağrı otağı. Biləklərimi ixtiyarsız ovuşdururam... Gör bir nazik plastiklər qızların başına nə oyun açır. Bunu da Kristiana o qadın öyrədib, ya da Kristianı korlayıb – bu, baxış bucağından asılıdır. Hərgah Zülmətdə missis Robinsonsuz da ola bilərdi. Qəfildən anlayıram ki, həmin qadına nifrət edirəm. Ümid edirəm ki, onunla heç vaxt üz-üzə gəlməyəcəyik, yoxsa əlimdən xəta çıxa bilər. Belə bir nifrəti heç vaxt duymamışam – üstəlik, heç vaxt görmədiyim insana qarşı. Kor baxışla pəncərəyə boylanır, irrasional qəzəb və qısqanclıqdan üzülürəm.

Fikrən bu günə qayıdıram. Kristianın meyl elədiyi şeyləri nəzərə alaraq düşünürəm ki, o mənimlə yumşaq davranıb. Bunu təkrarlamaq istərdimmi? Özümü aldada bilmərəm, istərdim. Əlbəttə, istəyirəm. O, xahiş eləsə... bircə şərtlə ki, çox ağrıtmayacaq və bu, onunla qalmaq üçün yeganə üsuldur.

Bütün mahiyyət də bundadır. Kristianla qalmaq istəyirəm. Daxili ilahəm nahatlanaraq köks ötürür. Bu fikrə gəlirəm ki, o, beyniylə deyil, indi seyrə çıxarılmış bədəninin başqa bir mühüm hissəsiylə düşünür.

– Lazım deyil, – Kristian donquldanır.


kitabyurdu.blogspot.com

Üzümü turşudaraq ona sarı çevrilirəm.

– Nə lazım deyil?

Ona toxunmamışam.

– Çox düşünmək lazım deyil, Anasteyşa. – O, əlimdən tutur, dodaqlarına yaxınlaşdırır və barmaqlarımın sümüklərini incə tərzdə öpür. – Xoş bir gün idi. Çox sağ ol.

O, yenə də mənimlədir. Yayğın halda gözlərimi döyür və xəcalətlə gülümsəyirəm. Kristian elə ziddiyyətlidir ki... Məni çoxdan incidən sualı verirəm:

– Kabel qarmağından niyə istifadə elədin?

O gülümsəyir.

– Sadəcə rahatdır və sən yeni hissiyyatları keçirdin. Kabel qarmaqları fiksasiya üçün çox sərt qurğudur, bu da xoşuma gəlir. – O, xəfifcə gülümsəyir. – Səni layiq olduğun yerdə saxlamaq üçün çox kəsərli üsuldur.

Allanır və Teylora həyəcanlı bir baxış yönəldir, O, gözünü yoldan çəkmədən təmkinli halda maşını idarə edir. Hə, indi bu sözləri necə cavablandırım? Kristian günahsız görkəmlə çiyinlərini çəkir.

– Bütün bunlar mənim dünyamın bir hissəsidir, Anasteyşa.

O, ovcumu sıxır, sonra buraxır və pəncərəyə sarı çevrilir.

Hə, onun dünyası... və mən ona daxil olmaq istəyirəm; amma onun şərtləriyləmi? Bilmirəm. O, lənətə gəlmiş müqaviləni heç xatırlamadı. Düşüncələr kefimi qaldırmır. Pəncərədən boylanır və şüşə arxasındakı peyzajın dəyişdiyini görürəm. Biz körpüdən keçirik, ətrafda mürəkkəb rəngli zülmət mövcuddur. Zülmət gecə daxili əhvali-ruhiyyəmi əks etdirir, o sanki məni özünə bürüyür və boğur.

Kristiana baxıram və baxışlarımız toqquşur.

– Nə yaman fikrə getmisən? – o soruşur.

Üz-gözümü turşudaraq köks ötürürəm.

– Doğrudanmı hər şey bu qədər pisdir?

– Beynindən nə keçirdiyini bilmək istərdim.

Kristian özündənrazı halda gülümsəyir.

– Mən də sənin... – sakitcə deyir o və Teylor maşını gecənin içindən Belvyu qəsəbəsinə çatdırana kimi susur.

***

Artıq təxminən saat səkkizdir, ―Audi‖ dönərək müstəmləkə üslubunda tikilmiş malikanənin giriş cığırına çıxır. Qapısını qızılgüllər sarmış ev möhtəşəmdir. Sanki rəsm əsərindən gerçəyə köçürülüb.

– Hazırsan? – Kristian soruşur, Teylor da maşını nəhəng giriş qapısı ağzında saxlayır.

Başımla təsdiqləyirəm və kristian dəstəkləyici tərzdə ovcumu sıxır.

– Mənimçün də bu ilk dəfədir, – o pıçıldayır, sonra hiyləgərcəsinə gülümsəyir. – mərc gəlirəm ki, əynində tuman olmadığına heyifsilənirsən.

Allanıram. Onu tamam unutmuşdum. Xoşbəxtlikdən Teylor qapını mənimçün açmaqdan ötrü maşından çıxıb, odur ki, söhbətimizin məzmunundan onun xəbəri yoxdur. Qaşqabaqlı halda Kristiana baxıram, osa cavab olaraq geniş gülümsəyir. Üzümü yana tutaraq maşından düşürəm.

Doktor Qreys Trevelyan-Qrey artırmada dayanıb, bizi gözləyir. O, eleqant-zövqlü solğun-mavi ipək paltardadır, yanında gümanıma görə, mister Qrey – ucaboy, sarışın və Kristian kimi, özünə görə gözəl kişi dayanıb.

– Anasteyşa, sən artıq anam Qreyslə tanışsan. Bu isə atamdır, Kerrik.

– Mister Qrey, tanışlığımıza şadam.

Gülümsəyir və onun əlini sıxıram.

– Mən də şadam, Anasteyşa.

– Ana deyə bilərsiniz.

Onun mehriban mavi gözləri var.

– Ana, sizinlə yenidən görüşmək necə də xoşdur! – Qreys mehribanlıqla məni qucaqlayır. – Tez içəri keçin.

– O qız burdadır?

Evdən ciyiltili qışqırıq eşidilir. Həyəcanlı baxışımı Kristiana yönəldirəm.

– Bu, Mia olmalıdır, kiçik bacım, – o, demək olar ki... – amma tam yox – acıqlı halda dillənir.

Kristianın sözləri arxasında dərin bağlılıq duyulur, çünki Mianın adını çəkərkən səsinin ahəngi yumşalır və gözləri qıyılır. Deyəsən, o, Miaya çox bağlıdır. Mənimçün bu kəşfdir. Və elə həmin an Mia şəxsən holla daxil olur. O, təxminən mənimlə eyni boydadır: ucaboy, tökməbədənli, zil qara saçlı.

– Anasteyşa! Sənin haqqında o qədər eşitmişəm ki! – O, boynuma sarılır.

İşə bir bax! İxtiyarsız gülümsəyirəm, onun hüdudsuz əzmkarlığından lap karıxmışam.

– Məni ―Ana‖ çağırın, – donquldanıram. Mia məni nəhəng vestibülə dartıb aparır. Burda döşəmə tünd rəngli ağacdandır, yerə xalılar sərilib və yuxarı, ikinci mərtəbəyə aparan enli, burma pilləkən var.

– Kristian heç vaxt evə qız gətirməyib, – Miaya məlumat verir, onun gözlərində canlı parıltı oynaşır.

Kristian gözlərini süzdürür, sual dolu baxışlarla qaşlarımı qaldırıram. O, narazı halda gözlərini qıyır.

– Mia, sakitləş, – Qreys incə tərzdə ona öyüd verir. – Salam, əzizim.

O, Kristianın hər iki yanağından öpür. Kristian ona hərarətli təbəssümlə baxır, sonra atasının əlini sıxır.

Hamımız qonaq otağına keçirik. Mia əvvəlki kimi əlimdən tutub. Otaq geniş, zövqlə krem, çəhrayı və açıq-mavi rəngli mebellə bəzədilib, rahat və dəbli görünüşü var. Keytlə Eliot divanda özlərinə yer edib, əllərində şampan qədəhləri tutublar. Məni qucaqlamaqdan ötrü Keyt yerindən atılır və Mia, nəhayət ki, ovcumu buraxır.

– Xoş gördük, Ana! – Keyt sevinc təbəssümüylə çiçək açır, sonra təntənəli şəkildə Kristianla başıyla salamlama işarəsi verir. – Kristian.

– Keyt. – O, Keytlə rəsmi üslubda danışır.

Onlara baxaraq üzümü turşuduram. Eliot məni qucaqlayır. Bu nədir belə, ―Ananı qucaqla‖ həftəsi keçiririk? Mən rəğbətin bu qədər gurultulu ifadəsinə alışmamışam. Kristian yanımda dayanır və məni qucaqlayır: əlini ombama qoyur və özünə tərəf çəkir. Digərləri gözlərini bizdən çəkmir. Sözün düzü, bu, məni əsəbiləşdirir.

– Bir şey içərsiniz? – deyəsən, mister Qrey özünə gəlib. – Prosekko?

– Hə, zəhmət olmaza, – Kristianla eyni anda cavab veririk.

Ah… necə də qəribə alındı. Mia əl çalır.

– Onlar hətta eyni cür danışırlar! Mən gətirərəm.

Mia otaqdan qaçaraq çıxır. Mən azca allanıram, sonra Keytlə Eliota baxır və qəfildən anlayıram ki, Kristian məni yalnız Keytə görə evə dəvət edib. Yüzəyüz Eliot onu şam yeməyinə sərbəst şəkildə dəvət eləyib və razılığı da asanlıqla alıb, Kristiansa tələyə düşüb, çünki əks halda hər şeyi Keytdən öyrənəcəkdim. Qaş-qabağımı sallayıram: Kristianı məni dəvət etməyə vadar ediblər. Xoşagəlməz və üzücü kəşf. Təhtəlşüurum dərin mənalı şəkildə başıyla təsdiqləyir, onun üzündə yazılıb: ―Nəhayət ki anladın, səfeh qız!‖

– Şam yeməyi, demək olar ki, hazırdır, – Qreys bildirir və Mianın ardınca otaqdan çıxır.

Kristian mənə baxır və üzünü turşudur.

– Otur, – o əmr edir və mənə plüş divanı göstərir.

İtaətkarlıqla əmri icra edir, ayaqlarımı səliqəylə çarpazlayıram. Kristian yanımda oturur, mənə toxunmur.

– Biz məzuniyyətimiz haqda söhbət edirdik, Ana, – mister Qrey dostyana tələffüz edir. – Eliot Keytin ailəsiylə birgə bir həftəliyə Barbadosa uçmaq qərarına gəlib.

Keytə sarı baxıram və o, üzümə gülümsəyir, gözlərini geniş açır. O, fərəhdən işıq saçır. Ketrin Kavana, ləyaqətiniz hardadır?

– Bəs siz universitetdən sonra dincəlmək istəmirsiniz? – ata-Qrey soruşur.

– Corciyaya getmək haqda düşünürəm, – cavab verirəm.

Kristian təəccüb dolu baxışlarını mənə zilləyir, bir-iki dəfə gözlərini döyür, sonra siması yenidən təmkinli görkəmini alır. Poxa keçdik! Axı ona heç nə deməmişdim.

- Corciyaya? – o, təkrarən soruşur.

- Anam orda yaşayır, onunla çoxdandır görüşmürük.

- Haçan getməyi düşünürsən? – yavaşca maraqlanır.

- Sabah gecəyarısı.

Mia tələsmədən qonaq otağına daxil olur və solğun-çəhrayı rəngli prosekko qədəhlərini bizə təqdim eləyir.

- Sizni sağlığınıza! – mister Qrey qədəhi qaldırır.

Arvadı həkim olan kişiyə xas sağlıqdır. Gülümsəyirəm.

- Uzun müddətə? – Kristian məndən əl çəkmir, onun səsində saxta incəlik var.

Lənət şeytana… deyəsən, o qəzəblənib.

- Hələ bilmirəm. Sabahkı müsahibələrin necə keçəcəyindən asılıdır.

O, çənəsini oynadır, Keytin üzündəki ifadədən isə aydın olur ki, o bu an söhbətə müdaxilə edəcək. O, şən təbəssümlə gülümsəyir.

- Ana istirahətə layiqdir, – Keyt çoxmənalı tərzdə Kristiana deyir.

Niyə Keyt ona qarşı bu qədər düşmən münasibətdədir? Bu nə işdir belə?

– Sabah müsahibəyə gedəcəksiniz? – mister Qrey soruşur.

– Bəli, iki nəşriyyata.

– Uğur olsun.

– ģam yeməyi süfrədədir, – Qreys elan eləyir.

Ayağa qalxırıq. Keyt və Eliot mister Qrey və Mianın ardınca otaqdan çıxırlar. Onların ardınca getmək istəyirəm, amma Kristian kəskin şəkildə biləyimdən tutaraq məni dayandırır.

- Gedəcəyini mənə elə indimi deməliydin? – o soruşur.

Kristian sakit danışır, hərgah qəzəbini boğması aydın görünür.

- Mən yalnız anamı görməyi düşünürəm, köçmək niyyətim yoxdur və bu, yalnız niyyətdir.


kitabyurdu.blogspot.com

– Bəs müqaviləmiz?

– Aramızda hələlik heç bir müqavilə yoxdur.

Kristian acıqlı halda gözlərini qıyır, sonra elə bil özünə gəlir. O, biləyimi buraxır, qoluma girir və otaqdan çıxırıq.

– Bu söhbət hələ bitməyib, – yemək otağına keçərkən o, təhdidlə fısıldayır.

Cəfəngiyat... Ondansa tumanımdan danışsaydıq, yaxşı olardı... onu qaytarmağı lazımdır. Ona hiddətlə baxıram.

Yemək otağı mənə Kristianla ―Hitman‖dakı naharı xatırladır. Tünd ağacdan olan masa üzərində büllur çil-çıraq asılıb, divarda oyma taxta çərçivəli güzgü. Masaya dümağ süfrə sərilib və qab-qacaqla doludur, ortada içində solğun-çəhrayı pionlar olan güldan var. Füsunkar mənzərədir.

Yerlərimizi tuturuq. Mister Qrey masanın başında oturub, mən ondan sağdayam, Kristian yanımda özünə yer eləyir. Mister Qrey ağzıaçıq qırmızı şərab şüşəsini götürür və Keytə içki təklif eləyir. Mia Kristianla yanaşı əyləşir və onun ovcundan möhkəm yapışır. O, nəvazişlə gülümsəyir.

– Anayla harda tanış olmusan? – Mia soruşur.

– O, tələbə qəzeti üçün məndən müsahibə alırdı.

– Keytin redaktə elədiyi, – söhbəti özümdən yayındırmaq ümidiylə əlavə edirəm.

Mia Keytə baxaraq gülümsəyir, Keyt onunla üzbəüz, Eliotla yanaşı oturub və onlar tələbə qəzeti haqda çərənləməyə başlayırlar.

– ġərab? – mister Qrey mənə təklif eləyir.

– Bəli, zəhmət olmasa, – gülümsəyirəm.

Mister Qrey ayağa qalxır ki, o biri qədəhlərə də şərab süzə bilsin. Ürkək-ürkək Kristiana baxıram: o, çevrilib başını yana əyir, mənə tərəf boylanır.

– Nə? – o soruşur.

– Xahiş edirəm, mənə acıqlanma, – pıçıldayıram.

– Acıqlanmıram.

Baxışımı yana çəkmirəm. Kristiasn köks ötürür:

– Hə, yaxşı, hirsliyəm.

O, bir anlığa gözlərini qapadır.

– O dərəcədə ki əllərin qaşınır? – həyəcanla soruşuram.

– Nə haqda pıçıldaşırsınız? – Keyt maraqlanır.

Allanıram, Kristiansa –Burnunu sənə aid olmayan işlərə soxma, Kavana!‖ qəbilindən olan baxışını ona yönəldir. Keyt naqolay halda yerində qurcalanır.

– Mənim Corciyaya səfərimlə bağlı, – sakitcə cavab verir, onların qarşılıqlı düşmənçiliyini yumşaltmağa ümid edirəm.

– Cümə günü barda olarkən Xosenin səninlə rəftar elədiyi kimi?

Sənin ananı, Keyt! Gözlərimi bərəldirəm. O neyləyir? Keyt də gözlərini bərəldir və mən anlayıram ki, o, Kristianın məni qısqanmasını istəyir. Ay cahil! Mənsə elə bilirdim ki, sən...

– Əla, – donquldanıram.

Kristian mənə sarı əyilir:

– Elə hirslənirəm ki, əllərim qaşınır, – o pıçıldayır. – Xüsusən indi.

Onun səsində öldürücü soyuqluq var.

O-o, yox! Mən yerimdə naqolay şəkildə qurcalanıram.

Qreys iki sini gətirir, onun ardınca sarışın hörüklü qəşəng bir qız içəri daxil olur, əynində solğun-mavi paltar var. O, boşqabları gətirib. Kristianı baxışlarıyla tapdıqda onun gözləri parlayır və tünd boyanmış kirpikləri arasından ona baxır. Bu nə deməkdir?

Hardasa evin dərinliyində telefon zəng çalır.

Mister Qrey üzrxahlıq edib yemək otağından çıxır. Qreys üzünü turşudur.

– Çox sağ ol, Qrethen, – o, nəzakətlə minnətdarlığını bildirir. – məcməyini masaya qoyun.

Qrethen başıyla təsdiqləyir və altdan-altdan Kristiana nəzər yetirərək çıxıb gedir.


kitabyurdu.blogspot.com

Deməli, Qreylərin qulluqçusu var və bu qulluqçu utanıb-qızarmadan mənim potensial dominantımı gözüylə yeyir. Əla axşamdır, bundan yaxşısı ola da bilməz. Qaş-qabaqlı halda dizlərim üstə qoyduğum əllərimə baxıram.

Mister Qrey qayıdır.

– Əzizim, zəng sənədir. Xəstəxanadan, – o, Qreysə deyir.

– Yeməyə mənsiz başlayın, – Qreys gülümsəyir, boşqabı mənə ötürür və çıxıb gedir.

Yeməkdən gözəl qoxu gəlir: qırmızı bibər, şalot-soğanla qızardılmış çarizo və göbələk və üstünə səpilmiş cəfəri. Kristianın qapalı təhdidlərindən, Sarışın Hörüklü qızın altdan-altdan zillədiyi baxışlardan və alt paltarının yoxluğundan qarnımda mədəm bulansa da, möhkəm acmışam. Birdən anlayıram ki, bu aclıq günortadan sonrakı fiziki yorğunluqdan yaranıb və mən xəcalətdən qızarıram.

Bir neçə dəqiqədən sonra Qreys qayıdır; o, qaşlarını çatır. Mister Qrey başını yana əyir… lap Kristian kimi.

– Noolub?

– Daha bir qızılca halı, – Qreys köks ötürür.

– Doğrudanmı?

– Hə, həm də yenə də uşaq. Ay ərzində dördüncü haldır. Əgər valideynlər uşaqlarına peyvənd etsəydilər! – O, kədərlə başını yelləyir, sonra gülümsəyir. – Uşaqlarımızın xəstələnməməsinə elə sevinirəm ki... Tanrıya şükür, onlarda qızılcadan başqa heç nə olmayıb. Yazıq Eliot.

Qreys öz yerinə oturur və nəvazişlə Eliota baxır. Eliot vecinə almadan çeynəyir, amma Qreysin baxışları altında üzünü qırışdırır və qurcalanır.

– Kristian və Mianın bəxti gətirdi. Onlarda suçiçəyi yüngül formada oldu, bir-iki həblə iş bitdi.

Mia gülür, Kristiansa gözlərini süzdürür.

– Ata, ―Sietl Mariners‖in oyununa baxmısan?

Deyəsən, Eliot söhbətin mövzusunu dəyişməyə həvəslidir.

Məzə çox ləzizdir və mən diqqətimi yeməyə yönəltmişəm, bu vaxt Eliot, mister Qrey və Kristian beysbol oyununu müzakirə edirlər. Ailə çevrəsində Kristian təmkinli təsir bağışlayır. Beynim kortəbii halda işləyir. Lənətə gəlmiş Keyt nə oyun düşünüb? Doğrudanmı o, məni cəzalandıracaq? Fikrən diksinirəm. Hələ bu müqaviləni imzalamamışam. Bəlkə də heç imzalamadım. Corciyada qalaram, orda Kristianın əli mənə çatmaz.

– Yeni mənzilinizdə rahatlanmısınız? – Qreys soruşur.

Onun sualı məni ziddiyyətli fikirlərdən ayırır: buna çox sevinirəm. Köçümüz barədə danışıram.

Məzəni yeyib bitirdikdə Qrethen peyda olur və mən yenidən Kristiana toxuna bilməməyimə heyifsilənirəm: qoy bu qulluqçu görsün kim kimdir: onda zülmün əlli çaları olsa da, o mənimdir, yalnız mənim. Qrethen süfrəni yığışdırır və bu zaman Kristiana sürtünür ki, bu da xoşuma gəlmir. Xoşbəxtlikdən Kristian ona əhəmiyyət vermir, amma daxili ilahəm yaxşı mənada od tutub yanır.

Keyt və Mia Parisi tərif edərək göylərə qaldırırlar.

– Ana, Parisdə olmusan? – Mia günahsız səslə soruşur və məni qızqanc fantaziyalardan ayırır.

– Yox, amma orada olmağı çox istərdim.

Hə də, bu masa arxasında olanlardan yalnız mən Birləşmiş ġtatlardan kənara çıxmamışam.

– Biz bal ayını Parisdə keçirmişik.

Qreys mister Qreyə baxaraq gülümsəyir, o da arvadına təbəssümlə cavab verir. Mən, demək olar ki, xəcalət çəkirəm.

– Gözəl şəhərdir, – Mia onların fikriylə razılaşır, – parisliləri nəzərə almasaq. Kristian, sən Ananı Parisə aparmalısan.

– Məncə o, Londonda olmağa üstünlük verəcək, – Kristian zərif tərzdə deyir.

Oy… o xatırlayır. Kristian əlini dizimə qoyur, onun barmaqları fəqərə sümüyümlə yuxarı qalxır. Bədənim o dəqiqə çağırışa hay verir. Yox… bircə burda və indi olmasın. İçim odlanıb yanır və ondan aralı

qalmağa çalışıram. Onun əlləri dizlərimdə ilişib qalır, mənə qımıldanmağa imkan vermir. Çarəsizlikdən qədəhi götürürəm.

Masaya isti yemək gətirilir – ―Vellinqton‖ mal əti – məncə bu, belə adlanır. Miss Avropa Hörükləri otağa qayıdıb gözləriylə güllə atır və ombalarını oynadır. Xoşbəxtlikdən qulluqçu qız məcməyini qoyaraq çıxıb gedir, hərgah boşqabı Kristiana verərkən onun yanında açıq-aşkar ləngiyir. O, sual dolu baxışla mənə boylanır, çünki Qrethenin arxasınca baxıram.

– Hə, o parislilərə nə olub ki? – Eliot bacısından soruşur. – Doğrudanmı onları məftun edə bilmədin?

– Yox. Müsyö Flober isə qorxunc heyvandır, onunla işləmək olmaz! Əsl tiran, dominant olmağı sevir.

ġərab boğazımda qalır.

– Anasteyşa, hər şey qaydasındadır? – Kristian nəzakətlə soruşur və əlini ayağımdan çəkir.

O, yenidən yumorla danışır. Tanrıya şükür... Başımla təsdiqləyirəm. O, ehtiyatla kürəyimi döyəcləyir və özümə gələnədək əlini kürəyimdən çəkmir.

Ət çox dadlıdır. ġirin kartof, kök, şüyüd çiçəyi və yaşıl lobya. Yemək həm də ona görə yaxşıdır ki, Kristian sakitliyini sonadək qoruyub saxlayır. Məncə, iştahamın açılması onu sevindirir. Qrey ailəsinin üzvləri bir-birinə dostyana replikalar deyir, bir-birini məkrsiz cırnadırlar. Desert – limonlu sillabab yeyərkən Mia bizi Paris macəraları ilə əyləndirir və hansısa anda fransızca danışır. Biz qayğılı halda gözlərimizi ona zilləyirik, O isə bizə. Kristian fransıcza ona nə baş verdiyini anladır. Mia şən halda gülür. O, öz gülüşünü bizə yoluxdurur, hamımız gülürük.

Eliot özünün son inşaat layihəsindən – Sietldən şimalda yerləşən yeni ekoloji yaşayış kompleksindən ağız dolusu danışır. Keytə nəzər yetirirəm. O, Eliotun hər bir sözünə qulaq kəsdirir, gözləri sevgi, ya da şəhvətlə alışıb-yanır. Hələ aydınlaşdırmamışam konkret nəylə. Eliot ona

baxaraq gülümsəyir; aralarında lal təmas var. O sanki deyir: ―Sonra, balaca‖, – və bu, seksual təsir bağışlayır. Hətta deyərdim ki, çox seksual, bu cütlüyə bircə nəzər yetirmə rəngimi dəyişir.

Köks ötürür və xəlvətcə Əlli Çalara nəzər yetirirəm. O elə gözəldir ki, saatlarla Kristiana tamaşa edərdim. Çənəsi azca tüklənib və mən barmaqlarımla ona toxunmaqdan özümü güclə saxlayıram, onu üzümdə, sinəmdə... ayaqlarım arasında hiss eləmək istəyirəm. Xəcalətdən mənə hərarət gəlir, qızarıram. Kristian mənə baxır və çənəmdən tutur.

– Dodağını dişləmə, – xırıltıyla deyir o. – Mən özüm onu dişləmək istəyirəm.

Qreys və Mia desert qablarını və qədəhləri masadan yığır və mətbəxə gedirlər; mister Qrey, Keyt və Eliot isə Vaşinqton ştatında günəş panellərinin istifadəsinin üstünlüklərini müzakirə edirlər. Kristian özünü elə göstərir ki, guya söhbət onunçün çox maraqlıdır. O, əlini yenidən dizimə qoyur, barmaqları dizimdə yuxarı sürüşür. Nəfəsim tutulur və mən ayaqlarımı bir-birinə sıxır, onun əlini saxlamağa çalışıram. Kristian özündənrazı halda gülümsəyir.

– Gəl sənə evin ətrafını göstərim, – deyə mənə açıq şəkildə təklif eləyir.

Bilirəm ki, razılaşmalıyam, amma ona etibar eləmirəm. Cavab verməyə macal tapmamış o ayağa qalxır və əlini mənə uzadır. Əlindən


kitabyurdu.blogspot.com

tuturam və acgöz boz gözlərin baxışları altında içimin dərinliyindəki əzələlərin necə sıxıldığını duyuram.

– Bağışlayın, – mister Qreyə deyirəm və Kristianın ardınca qonaq otağından çıxıram.

Kristian dəhlizlə məni mətbəxə aparır, orda Mia və Qreys qabları qabyuyan maşına doldururlar. Miss Avropa Hörükləri gözə dəymir.

– Anasteyşaya arxa həyəti göstərmək istəyirəm, – Kristian astaca anasına deyir.

Qrey bizə əlini yelləyir, Mia isə yemək otağına qayıdır.

Biz daxili həyətə çıxırıq, yerə döşənmiş boz plitələr içlərinə quraşdırılmış işıq lampalarıyla işıqlanır. Orada bitkilər üçün boz rəngli daş dibçəklər, küncdəsə gözəl metal masa və bir neçə stul var. Kristian məni həyətdən keçirərək pillələrlə yuxarı çəmənliyə aparır, çəmənlik körfəzə doğru enir. İlahi… necə də gözəldir! Üfüqdə Sietlin işıqları parlayır, soyuq və parlaq may hilalı suda – dalğaqıranda gümüşü cığır açıb, sahilə iki qayıq yan alıb. Dalğaqıranın yanında qayıqlarçün ellinq var. Füsunkar və heyranedici mənzərə... Ağzı açıla halda ona tamaşa edirəm.

Kristian əlimi dartır, tuflilərimin nazik dabanı yumşaq otlar arasında batıb qalır.

– Dayan, xahiş edirəm, – dabanlarımı güclə otlardan ayırıram.

O dayanır və təmkinli simasıyla mənə baxır.

– Ayaqqabımın dabanları. Tufliləri çıxarmalıyam.

– Keçinərsən, – o deyir, məni qaldırır və çiyninə götürür.

Qəfildən ucadan zırıldayıram və arxama möhkəm bir şapalaq dəyir.

– Bağırma! – Kristian nərildəyir.

Yo-o-o-x… deyəsən, işlər fırıqdır. Təhtəlşüurum diz üstə çöküb və tir-tir titrəyir. Kristian qəzəblənib, ola bilsin ki Xoseyə, Corciya səfərimə, mənim çılpaq g..ümə, ya da dodağımı dişlədiyimə görə. İlahi, onu hirsləndirmək elə asandır ki!

– Hara gedirik? – nəfəsimi buraxıram.

– Ellinqə, – kəskin şəkildə cavab verir.

Başım aşağı sallanır, demək olar ki, onun ombalarına toxunuram, osa məqsədyönlü şəkildə ayın işıqlandırdığı çəmənliklə addımlayır.

– Niyə? – Güclə nəfəs alıram, onun çiynində atılıb-düşərək.

– Səninlə təklikdə olmalıyam.

– Nə üçün?

– Səni döymək, sonra da s..mək istəyirəm.

– Niyə? – sızlayıram.

– Bilirsən niyə, – o fısıldayır.

– Elə bilirdim, sən əhvali-ruhiyyə adamısan, – yalvarışlı tərzdə nəfəsimi buraxıram.


kitabyurdu.blogspot.com

– Anasteyşa, sən mənim indi hansı əhvali-ruhiyyədə olduğumu bilmirsən!

Sənin ananı!


kitabyurdu.blogspot.com

## 20-ci fəsil

Kristian ellinqin taxta qapısından içəri keçir və işığı yandırmaq üçün ayaq saxlayır; Fluorosent lampalar bir-birinin ardınca çıqqıldayıb yanır, astaca uğuldayır və parlaq, kəskin işıq böyük taxta tikilini işıqlandırır. Çevrilmiş vəziyyətdə iri motorlu kateri görürəm, o sakitcə suda yırğalanır, amma ona yetərincə baxa bilmirəm: Kristian taxta pilləkənlə məni yuxarıya aparır.

O, qapı ağzında dayanır, dəstəyi şaqqıldadır, bu dəfə parlaqlıq nizamlayıcısı olan qalogen lampalar yanır, işıq elə də kəskin deyil və mən əyri tavanlı mansarda olduğumuzu görürəm. Tavan ―nyu-inqland‖ dəniz


kitabyurdu.blogspot.com

üslubunda düzəldilib: tünd-göy və krem rəngdə, bir azca da qırmızı. Mebel, demək olar ki, yoxdur, yalnız bir cüt divan.

Kristian məni taxta döşəməyə qoyur. Ətrafa göz gəzdirməyə macalım yoxdur – Kristiandan gözümü çəkə bilmirəm. Sanki ovsunlanmışam… onu izləyirəm; nadir, yırtıcı heyvanı izləyirmiş kimi, onun hücum edəcəyi anı gözləyirəm. Kristian xırıltılı nəfəs alır, bu da təəccüblü deyil: o, indicə məni çəmənlikdən keçirib apararaq ikinci mərtəbəyə gətirib. Boz gözlər qəzəb, şəhvət və pozğun ehtirasdan parlayır.

Lənət şeytana!.. Onun bircə baxışından yanıb kül ola bilərəm.

– Xahiş edirəm, məni vurma, – yalvarışlı tərzdə pıçıldayıram.

O, qaşlarını çatır, gözlərini geniş açır, bir-iki dəfə döyür.

– Məni şapalaqlamanı istəmirəm... yalnız burda və indi deyil. Xahiş edirəm, lazım deyil.

Kristian heyrətlənmiş halda ağzını açır və üzücü cəsarətlə barmaqlarımı onun yanaqlarında və tüklü çənəsində gəzdirirəm. Kristian yavaş-yavaş gözlərini qapadır, üzünü mənim toxunuşlarıma tuş gətirir və onun tənəffüsü sürətlənir. O biri əlimlə onun saçlarını qarışdırıram. Onun saçlarını sevirəm. Kristian güclə eşidiləcək tərzdə inləyir, göz qapaqlarını qaldırır, ürkək tərzdə baxır, sanki nə etdiyimi anlamır.

Kristiana, demək olar ki, sıx dayanaraq ehtiyatla saçlarını dartır, başını əyməsini istəyirəm, sonra dodaqlarımı onun dodaqlarına

toxundururam, dilimi ağzına soxuram. Kristianın inləyir, məni qucaqlayır. Onun barmaqları saçlarımda dolaşır və o, öpüşə kobud, amiranə tərzdə cavab verir. Dillərimiz bir-birinə toxunur, bir-birinin dadına baxır. Kristianın gözəl dadı var.

Qəfildən o, geri çəkilir, tənəffüsümüz bir-birinə qarışıb, hər ikimiz boğuluruq. Əllərimi onun çiyinlərinə endirirəm, osa qəzəblə mənə baxır.

– Mənimlə nə edirsən? – demək olar ki, özünü itirmiş halda məndən soruşur.

– Öpürəm.

– Məndən imtina elədin.

– Nəyi?

O nədən danışır?

– Masa arxasında, ayaqlarınla.

A… demək belə.

– Axı biz masa arxasında valideynlərinlə birgə oturmuşduq!

Təəccüblə ona baxıram.

– Hələ heç kim heç vaxt məndən imtina eləməyib. Və bu, məndə… elə şəhvət oyadır ki...

Onun bəbəkləri azca genişlənir, gözlərindən heyrət və pozğunluq oxunur. Məstedici qarışıq... İxtiyarsız udqunuram. Kristianın əlləri yanıma enir, o, kobudcasına məni özünə çəkir və mən onun ereksiyasını duyuram.

Bax a…

– Deməli, sənə əl vermədiyim üçün həm qəzəblənmiş, həm də ehtiraslanmısan? – təəccüblə nəfəsimi buraxıram.

– Mən ona görə qəzəblənirəm ki, Corciya səfərin barədə mənə heç nə deməmisən. Bir də ona görə ki, sərxoş olduğun vaxt və tamamilə yad bir adamla köməksiz halda qaldığın vaxt səni yoldan çıxarmağa çalışmış oğlanla bara getmisən. Məgər dostlar bu cür rəftar edir? Hə, mən hirsliyəm və ehtiraslanmışam, çünki ayaqlarını aralamamışdın.

Onun gözləri parlayır, Kristian yavaş-yavaş paltarımın uclarını yuxarı qaldırır.

– Səni elə indi istəyirəm. Və əgər mənə səni şapalaqlamaq izni verməsən – sənsə yaxşıca payını almalısan! – yalnız özümün – sənin deyil – həzz almağım üçün səni tələm-tələsik divanda s..əcəm.

Paltar çılpaq g..ümü azca örtür. Kristian cəld hərəkətlə əlini ayaqlarım arasından keçirir, onun barmağı içimə girir. O biri əliylə o, belimdən tutaraq məni möhkəm saxlayır. İniltimi güclə boğuram.

– Bu mənimdir! – aqressiv şəkildə pıçıldayır o. – Yalnız mənim! Başa düşdün?

O, barmağını çıxarır və yenidən vaginama soxur, diqqətlə mənə baxır və od saçan gözləriylə reaksiyamı izləyir.

– Hə, sənindir, – nəfəsimi buraxıram, ehtirasın necə artdığını duyuram, yandırıcı və ağır şəhvət hissi qan damarlarımla hərəkət edir… və bütün varlığım hayqırır. Əsəb tellərim cingildəyir, tənəffüsüm sürətlənir, qəlbim dəlicəsinə döyünür, sinəmdən çıxmağa çalışır, qanım qulaqlarımda guruldayır.

Kristian kəskin tərzdə aralanır və bir neçə şeyi eyni anda edir: əlini çəkir, məni istəyimlə təklikdə qoyur, şalvarının önünü açır, məni divana itələyir və üstümə yıxılır.

– Əllərini başın üstə qaldır! – dişlərini qıcırdaraq əmr edir.

O, diz üstə dayanır, ayaqlarımı zorakılıqla aralayır və əlini pencəyinin içəri cibinə salaraq prezervativi çıxarır, məkrli baxışları ilə simamda sanki dəlik açır. Çiyinlərini oynadaraq pencəyini çıxarıb döşəməyə atır və prezervativi öz böyük s..inə keçirir.

İtaətkarlıqla əllərimi qaldırıram, başa düşürəm ki, Kristian ona toxunmamı istəmir. Mən ehtiraslanmışam. Ombalarım ixtiyarsız olaraq irəli dartınır, onunla qarşılaşmaya. İstəyirəm ki, lap dibinə, həm də kobudcasına girsin. O-o-o… şirin ehtiras.

– Vaxtımız azdır. Bu, tez, ancaq mənim həzz almam üçün olacaq, səninçün yox. Aydındır? Qurtarmağa cəsarət eləmə, yoxsa səni cəzalandıracam, – Kristian qıcırdılmış dişləri arasından deyir.

İşə bir bax ha… özümü necə saxlayım?

O, bircə kəskin təkanla içimə soxur. Bərkdən qırtlağımdan inləyirəm, bütövlüklə ona məxsus olmağımdan həzz alıram. Kristian ovuclarını ovuclarımın içinə qoyur, biləkləriylə əllərimi möhkəm şəkildə tutub saxlayır, mənə tərpənmək imkanı vermir. Sanki tələdəyəm. O, hər yerdə məni əzir, demək olar ki, boğur, amma bu xoşuma gəlir. Öz gücümü duyuram, – axı ona məhz bu cür təsir edirəm! – və məni gedonist zəfər hissi bürüyür. Kristian cəld və amansız hərəkət edir, qulağıma xırıltılı nəfəs alıb-buraxır, bədənim ona cavab verir və sanki onun altında əriyir. Mənə qurtarmaq olmaz. Yox!.. Lakin mən onunla eyni ritmdə hərəkət edirəm. Qəfildən – çox tez! – o, sarsıdıcı zərbəylə bütün içimə dürtülür və xırıltılı tənəffüslə donub-qalır, – boşalır. O dəqiqə yumşalır və mən Kristianın bədəninin füsunkar ağırlığını duyuram. Onu buraxmağa hazır deyiləm, bədənim orqazm təşnəsindədir, amma Kristian elə ağırdır ki, qımıldana bilmirəm. Qəfildən o, s..ini çıxarır və mən narazı halda qalıram. Kristian amansız baxışını mənə yönəldir.

– Hünərin var, özünə toxunasan. Əzab çəkməni istəyirəm: mənə danışmadığın və mənə məxsus olanı mənə vermədiyin üçün.

Onun gözləri od saçır, o, yenə hirslidir.

Başımla təsdiqləyirəm, ağır-ağır nəfəs alıram. Kristian ayağa qalxır, prezervativi çıxarır, ona düyün vurur və şalvarının cibinə qoyur. Gözlərimi ona zilləyirəm, tənəffüsümün rəvanlığını bərpa etməyə çalışıram və

ixtiyarsız olaraq ombalarımı oynadıram ki, heç olmasa azca həzz alım. Kristian şalvarının önünü bağlayır, saçlarını sığallayır və pencəyini yerdən götürməkçün əyilir. Yenidən mənə baxdıqda baxışından hərarət duyulur.

– Evə qayıtmalıyıq.

İnamsız halda otururam, azca titrəyirəm.

– Budur, geyinə bilərsən.

Pencəyinin içəri cibindən tumanımı çıxarır. Ciddi simayla onu götürürəm, amma qəlbimin dərinliyində bilirəm: məni cəza olaraq s..sələr də, kiçik bir qələbə qazanmışam. Daxili ilahəm razılıqla başını tərpədir, onun simasında özündənrazı təbəssüm var: ―Xahiş eləməli olmadın‖.

– Kristian! – birinci mərtəbədən Mia haylayır.

O çevrilir və qaşlarını qaldırır.

– Düz vaxtında. İlahi, hərdən Mia o qədər zəhlətökən olur ki!

Ona qaşqabaqlı baxıram, tumanımı tələsmədən qanuni yerinə qaytarıram və (s..iləndən sonra olub-qalan) bütün ləyaqətimlə ayağa qalxıram. Saçlarımı tələm-tələsik qaydaya salıram.

– Mia, biz yuxarıdayıq! – Kristian qışqırır, mənə sarı dönür və deyir, – hə, miss Stil, mən özümü daha yaxşı hiss edirəm, bununla belə, sizi şapalaqlamaq istəyirəm.

– Məncə, mən bu cəzaya layiq deyiləm, mister Qrey, xüsusilə qərəzli hücuma məruz qaldıqdan sonra.

– Qərəzli? Sən mıəni öpdün!

Kristian var gücü ilə təhqirə məruz qalmış sima yaratmaq istəyir. Dodaqlarımı bir-birinə sıxıram.

– Yalnız özümü müdafiə eləmək məqsədiylə.

– Kimdən?

– Səndən və qaşınan ovcundan.

O, başını yana əyir və gülümsəyir. Mianın dabanlarını döyə-döyə pilləkənlə yuxarı qalxdığı hiss olunur.

– Axı dözdün?! – Kristian sakitcə soruşur.

Üzüm allanır.

– Güclə, – pıçıldayıram, amma özündənrazı təbəssümü gizlədə bilmirəm.

– A-a, deməli, burdasınız! – Mianın dodaqları geniş açılır.

– Anasteyşaya ətraf ərazini göstərirdim.

Kristian əlini mənə uzadır, boz gözlərdə ciddilik var. Əlindən tuturam və o, yüngülcə ovcumdan tutur.

– Keyt və Eliot artıq gedirlər. Bu cütlük xoşunuza gəlir? Bir-birindən qopa bilmirlər. – Mia saxta mühakimə görünüşü ilə köksünü ötürür və bizə baxır. – Bəs siz burda nəylə məşğulduz?

Həyasıza bax! Üzüm tünd-qırmızı rəng alır.


kitabyurdu.blogspot.com

– Anasteyşaya kürəkçilikdə qazandığım mükafatları göstərirdim, – Kristian bir göz qırpımında cavab verir. Üzündə təmkinlilik var. – Gedək, Keyt və Eliotla xudahafizləşək.

–Kürəkçilik üzrə mükafatlar‖... sözə bax!

Kristian ehtiyatla məni özünə çəkir və Mia pilləkənə sarı çevrildikdə dalımı şapalaqlayır. Gözlənilməzlikdən diksinirəm.

– Bunu təkrarlayacam, Anasteyşa, həm də tezliklə, – sakitcə qulağıma pıçıldayıb təhdid edir, sonra məni arxadan qucaqlayır və saçlarımı öpür.

Biz evə qayıdırıq, Keyt və Eliot Qreys və mister Qreylə vidalaşırlar. Keyt məni möhkəm qucaqlayır.

– Biz Kristian barədə danışmalıyıq. Onu niyə cırnadırsan? – qulağına pıçıldayıram.

– Onun nə cür biri olduğunu görmən üçün. Ehtiyatlı ol, Ana, o əmr verməyi xoşlayır! – Keyt pıçıldayır. – Sonra görüşərik.

–ONUN NƏ CÜR ADAM OLDUĞUNU BİLİRƏM, SƏNSƏ YOX!‖ – fikrən qışqırıram.

Başa düşürəm ki, Keytin sözləri xeyirxah niyyətindən irəli gəlir, amma bəzən o, bütün hədləri keçir, elə bugünkü kimi – demək olar ki, başqa


kitabyurdu.blogspot.com

ştatdadır. Qaşqabaqlı halda ona baxıram, o, mənə dil çıxarır və mən ixtiyarsız gülümsəyirəm. Dəcəl Keyt – bu, nəsə yeni şeydir, yəqin ki, Eliotun təsiridir. Biz onlara əl yelləyirik və Kristian mənə sarı dönür.

– Getmək vaxtıdır, sabah da müsahibən var.

Xudahafizləşirik və Mia məni dostyana qucaqlayır.

– Fikirləşirdik ki, o heç vaxt özünə qız tapa bilməyəcək! – Mia ağzından qaçırır.

Qızarıram, Kristiansa yenidən göz süzdürür. Dodaqlarımı bir-birinə sıxıram. Niyə ona olar, mənə yox? Mən də gözümü süzdürmək istəyirəm, amma cəsarət eləmirəm, ellinqdəki təhdidi xatırlayıram.

– Ana, əzizim, özündən muğayat ol, – Qreys nəvazişlə deyir.

Kristian xəcalətlə, yaxud qayğılı diqqətdən pərt olmuş haldadır, ailəsinin mənə olan münasibəti onu karıxdırır əlimdən tutaraq məni özünə tərəf çəkir.

– Siz bu nəvazişinizlə onu ya qorxudacaq, ya da ərköyünləşdirəcəksiniz, – o deyinir.

– Kristian, bəsdir özünü axmaq yerinə qoydun, – Qreys iltifatla deyir, onun gözləri oğluna sevgiylə parlayır.

Nədənsə əminəm ki, o, Kristianı axmaq yerinə qoymur. Altdan-altdan onları izləyirəm. Aydındır ki, Qreys onu çox sevir, həm də xalis ana sevgisiylə. Kristian əyilir və anasını bir qədər soyuq öpür.

– Ana, – o deyir, onun səsi hansısa duyğunu gizlədir... bəlkə sitayiş?

Vidalaşma bitdikdə Kristian məni maşına doğru aparır, Teylor bizi gözləyir. Doğrudanmı bütün bu müddətdə o, bizi gözləyib? Teylor mənimçün qapını açır və mən ―Audi‖nin arxa oturacağına dürtülürəm.

Gərginliyin bir qədər tədricən azaldığını duyuram. Hə, əcəb gün keçirdik! Mən fiziki və ruhi cəhətdən əldən düşmüşəm. Teylorla qısa söhbətdən sonra Kristian yanımda oturur və üzünü mənə tutur.

– Deyəsən, ailəmin də xoşuna gəlmisən, – mızıldanır.

―Ailəmin də?‖ Evə necə dəvət olunmağımla bağlı səfeh fikir yenə beynimi yeyir. Teylor maşını işə salır və giriş cığırındakı işıq dairəsindən şosenin zülmətinə çıxır. Diqqətlə Kristiana baxıram, o da mənə.

– Noolub? – o, astaca soruşur.

Özümü ani itirirəm. Yox, ona demək lazımdır. Daima şikayətlənir ki, onunla söhbət eləmirəm.

– Məncə, sən məni valideynlərinlə görüşdürməyə məcbur olmuşdun, – sakit və inamsız tərzdə deyirəm. – Əgər Eliot Keyti dəvət eləməsəydi, mən də dəvət olunmazdım.

Qaranlıqda onun siması görünmür, amma o heyrətlənərək başını yana əyir.

– Anasteyşa, valideynlərimlə tanış olmana şadam! Bu qərarsızlıq səndə hardandır? Məni təəccübləndirirsən. Sən güclü, ləyaqətli gənc

qadınsan, amma deyəsən, özün özünü anlamaq gücündə deyilsən. Əgər onlarla görüşməni istəməsəydim, onda burda olmazdın. Deməli, bütün günü şübhələr səni didib?

Bax a! Kristian mənim bura gəlməyimi istəyib! Məncə, o, səmimi danışır və heç nə gizlətmir. Deyəsən, burda olmamağı həqiqətən sevinir… Damarlarıma xoş hərarətli qanın necə yayıldığını duyuram.

Kristian başını yelləyir və əlimdən tutur. Əsəbi halda Teylora baxıram.

– Teyloru unut. Mənimlə danış.

Çiyinlərimi çəkirəm.

– Hə, şübhə edirdim. Və bir də Corciya haqda ona görə dedim ki, Keyt Barbadosdan söz saldı. Əslində hələ qərar verməmişəm.

– Yaxşı, sən ananı görmək istəyirsən?

– Hə.

Kristian qəribə tərzdə mənə baxır və susur, sanki öz-özüylə mübarizə aparır.

– Səninlə gələ bilərəm? – nəhayət, o soruşur.

Nə?!

– E-e-e... Məncə bu, yaxşı ideya deyil.

– Niyə?


kitabyurdu.blogspot.com

– Ümid edirəm bu... inadkarlıqdan dincələrəm və hər şeyi düşünüb-daşınaram.

O, sarsılmış halda mənə baxır.

– Səncə, mən çox inadam?

Gülüşümü boğa bilmirəm.

– Bu hələ yumşaq sözdür!

Yandan ötən fənərlərin işığında Kristianın dodağının əyildiyini görürəm.

– Nə lağ edirsiniz, miss Stil?

– Buna cəsarət eləməzdim, mister Qrey, – saxta ciddiliklə cavab verirəm.

– Mənəsə elə gəlir ki, cəsarət elədiniz. Siz mənə lağ edirsiniz, həm də tez-tez.

– Çox nəşəlisən.

– Nəşəli?

– Bəli.

– ―Nəşəli‖ hansı mənada, yəni gülməli, yoxsa yelbeyin?

– O-o… həm o, həm də bu, üstəlik, yetərindən artıq.

– Konkret desək?

– Özün tap.

– Qorxuram, sənə münasibətdə heç bir açma düzgün olmayacaq, Anasteyşa, – Kristian acı-acı deyir, sonrasa sakitcə əlavə edir: – Corciyada nə haqda fikirləşmək istəyirsən?

– Bizim barəmizdə, – pıçıldayıram.

O, təmkinli halda mənə baxır, sonra deyir:

– Dedin ki, sınayarsan.

– Bilirəm.

– Fikrini dəyişdin?

– Ola bilər.

Kristian qurcalanır, sanki oturmaqla narahatdır.

– Niyə?

Zəhrimara qalasan. Söhbət birdən-birə niyə ciddi və mühüm şəkil aldı? Tamamilə gözlənilmədən, imtahan kimi... mən buna hazır deyiləm. Ona nə deyim? Deyəsən, səni sevirəm, sənsə məni ancaq oyuncaq sanırsan... Çünki sənə toxuna bilmirəm və hisslərimi üzə çıxarmaqdan çəkinirəm: ya qapanacaqsan, ya da söyəcəksən, yaxud bundan da pis – vuracaqsan! Nə deyim?

Pəncərəyə sarı çevrilirəm. Maşın körpüdən keçir. Kristianla zülmətə qərq olmuşuq,; o, fikirlərimizi və duyğularımızı gizlədir, hərgah bundan ötrü bizə gedə lazım deyil.

– Niyə, Anasteyşa? – Kristian inad edir.

Çiyinlərimi çəkirəm. Öz sualı ilə o, məni dalana dirəyib. Onu itirmək istəmirəm, bütün tələblərinə, nəzarət eləmək tələbatına, qorxulu meyillərinə baxmayaraq. Heç zaman özümü bu qədər canlı hiss eləməmişəm. Onunla yanaşı oturmaq xoşuma gəlir. O elə iddialı, seksual, zəkalı və əyləncəlidir ki... Bircə qəribəlikləri olmaya… hə, üstəlik o, mənə ağrı vermək istəyir. O deyir ki, iradlarımı nəzərə alacaq, amma yenə də qorxuram. Nə deyim? Qəlbimin dərinliyində mən sadəcə daha çox şey umuram, daha çox bağlılıq, daha şən və dəcəl Kristian… daha çox sevgi.

O, ovcumu sıxır.

– Mənimlə danış, Anasteyşa. Səni itirmək istəmirəm. Bu həftə… – O susur.

Körpünün sonuna çatırıq, küçə fənərlərinin neon işığı yenidən yolu işıqlandırır və Kristianın siması gah aydınlanır, gah da qaranlıqda itir. Yerinə düşən məcazdır. Nə vaxtsa romantik qəhrəman hesab elədiyim bu adam – eyni zamanda həm öz zirehində parlayan ağ cəsur və öz sözlərinə görə məkrli cəngavərdir. Kristian qəhrəman deyil, məni zülmətə aparan ciddi emosional pozğunluqları olan adamdır. Onu işığa çıxara biləcəyəmmi?

– Mən əvvəlki kimi daha çox istəyirəm, – pıçıldayıram.

– Bilirəm. Çalışaram.

Gözümü döyür, ona baxıram, Kristian ovcumu buraxır və ehtiyatla çənəmdən tutaraq dartır və dişlənmiş dodağımı sərbəst buraxdırır.


kitabyurdu.blogspot.com

– Çalışaram, Anasteyşa, səninçün.

O, elə səmimi danışır ki, özümə hakimliyi itirirəm. Təhlükəsizlik kəmərini açır, Kristianın dizləri üstə otururam – onu heyrətdə qoyuram. Başından tutaraq onu qucaqlayıram, möhkəm öpürəm və saniyədən də az qısa müddətdən sonra o, öpüşlərimə cavab verir.

– Bu gün mənimlə qal, – nəfəsini buraxır. – Çıxıb getsən, düz bir həftə görüşə bilməyəcəyik. Xahiş edirəm.

– Yaxşı, – güzəştə gedirəm. – Mən də çalışaram. Müqaviləni imzalayaram.

Bu, qəfil qərardır. Kristian mənə baxır.

– Corciyadan sonra imzalayarsan. Hər şeyi yaxşıca fikirləş, balaca.

– Mütləq.

Bir, yaxud iki mil uzunluqda yol boyu susuruq.

– Kəməri bağlamaq lazımdır, – Kristian qınayıcı tərzdə saçlarıma pıçıldayır, amma dizlərindən düşürmək istəmir.

Qapalı gözlərimlə ona qısılıram; başımı çiyninə qoyur və burnumu boynuna dayayıram. Bədəninin seksual ətrini içimə çəkirəm, bu ətrə duş üçün gelin muskus qoxusu qarışıb. Təxəyyülümə sərbəstlik verirəm, Kristianın məni sevdiyini təsəvvürümə gətirirəm. Demək olar ki, toxunulmaqla duyulan hissdir və o qədər realdır ki, qəzəbli təhtəlşüurumun hansısa hissəsi özünə xas olmayan tərzdə aparır və ürkəkcə ümid edir. Hətta

Kristianın sinəsinə belə toxunmaq istəmirəm, amma ağuşunda yerimi rahatlayıram.

Tezliklə məni xəyallardan qoparıb ayırırlar.

– Evə çatmışıq, – Kristian pıçıldayır.

Necə də həyəcanverici ifadədir və onda o qədər imkanlar gizlənib ki!..

Evdə, Kristianla birgə. Düzdür, bu, evdən çox rəsm qalereyasıdır.

Teylor maşının qapısını açır və mən utancaq halda ona minnətdarlıq bildirirəm; anlayıram ki, o, bütün söhbətimizi eşidib, amma Teylor sadəcə təmkinli görkəmlə gülümsəyir. Maşından çıxaraq Kristian mənə narazı baxış yönəldir.

Yo-o-ox… indi neylədim ki?

– Niyə jaket geyinməmisən? – o, acıqlı halda soruşur, pencəyini çıxarır və çiynimə atır.

Rahatlanıb köksümü ötürürəm.

– O, yeni maşınımda qalıb, – yuxulu halda cavab verir və əsnəyirəm.

Kristian özündənrazı kinayə ilə mənə baxır.

– Yorulmuşsunuz, miss  Stil?

– Əlbəttə, mister Qrey. – Sınayıcı nəzərlərindən utanaraq onu sancmaq imkanını əldən qaçırmıram, – bu gün məni ən inanılmaz üsullarla yorublar.


kitabyurdu.blogspot.com

– Hm, əgər bəxtin gətirməsə, ola bilsin, səni bir daha yordum, – vəd edir o, əlimdən tutaraq binaya doğru aparır.

Ah, gör a… Bir daha?!

Liftdə Kristianın gözlərini görmürəm. Əvvəlcə fikirləşirəm ki, onunla yatmağımı istəyir, amma sonra onun, bir neçə dəfəni istisna etməklə, həmişə tək yatdığını xatırlayıram. Üzümü turşuduram və Kristianın baxışı o dəqiqə tündləşir. O, çənəmdən tutur və dodağımı dişlərimin arasından çıxarır.

– Nə vaxtsa, Anasteyşa, səni elə liftdə s..əcəm, amma bu gün yorulmusan, çarpayıyla kifayətlənərik.

Kristian mənə doğru əyilir, dişlər alt dodağımda birləşir və ehtiyatla onu dartır. Nəfəsim tutulur, ayaqlarım əsir, içimin dərinliyində istəyin necə gücləndiyini duyuram. Kristiana cavab verirəm: dişlərimlə onun üst dodağını tuturam, onu cırnadıram, inləyir. Lift açılır və Kristian əlimdən tutaraq foye boyu məni dartır – ikiqat qapılara və holla.

– İçmək istəyirsən?.. Ya da daha nəsə?

– Yox.

– Yaxşı. Onda yatağa gedək.

Heyrətlə qaşlarımı qaldırıram.

– Sən iddiasız, köhnə dəbli vanilə razılaşarsan?

O, başını yana əyir.


kitabyurdu.blogspot.com

– Elə demə. Vanilin intriqalı dadı var, – nəfəsini buraxır.

– Haçandan belə?

– Ötən ģənbədən. Noolub? Sən nəsə ekzotik bir şeyə ümid edirdin?

Daxili ilahəm sevinclə başını qaldırır.

– Yo-o-ox. Bu günlük ekzotika bəsdir.

Daxili ilahəm incimiş halda dodaqlarını şişirir və məyusluğunu gizlətmir.

– Əminsən? Seçimimiz böyükdür: ən azı, otuz bir dad. – Kristian şəhvani gülür.

– Aydın görünür, – quru tərzdə deyirəm.

Kristian başını yelləyir.

– Di bəsdi, miss Stil, sabah sizinçün ciddi gündür. Yataqda nə qədər tez olsanız, sizi bir o qədər tez s..əcəm, bundan sonra yata bilərsiniz.

– Misret Qrey, siz anadangəlmə romantiksiniz.

– Məni cırnadırsınız, misS Stil. Deyəsən, ölçü götürmək lazım gələcək. Gedək.

O, məni dəhlizlə yataq otağına aparır, təpiklə qapını bağlayır və əmr edir:

– Əllər yuxarı!

İtaətkarlıqla əllərimi yuxarı qaldırıram, Kristian paltarımdan yapışır və bircə yüngül, demək olar ki, hissolunmaz hərəkətlə sehrbaz kimi başım üstdən çıxarır.

– Ta-dam! – şən halda qışqırır o.

Gülürəm və nəzakətlə əl çalıram. O gülümsəyir və incə şəkildə baş əyir. Onun qarşısında necə sakit dayanmaq olar – kefi də kök olduqda? Kristian paltarı komodun yanındakı yeganə stulun başından asır.

– Başqa hansı fokuslar bilirsən? – onu cırnadıram.

– Əzizim miss Stil, – o nərə çəkir, – yatağıma girin, sizə göstərim.

– Bəlkə bircə kərə toxunulmaz qalım? – cilvə atıram.

Onun gözləri heyranlıqla yuvarlaqlaşır və coşqulu şəhvətdən parlayır.

– Hə… qapı açıqdır. Düşünmürəm ki, əlimdən qaça biləcəksiniz, – kinayəylə deyir o. – Sizcə, iş bitib.

– Mən al-ver etməyi bacarıram.

– Mən də.

O, diqqətlə mənə baxır və üzündəki ifadə dəyişir, yayğınlaşır və aramızın soyuduğunu duyuram.

– S..işmək istəmirsən? – Kristian soruşur.

– Yox, – nəfəsimi buraxıram.

O, üz-gözünü turşudur.

Eh, nə olur-olsun… Dərindən köks ötürür və deyirəm:

– Sevişməyimizi istəyirəm.

Kristian karıxır və köməksiz halda mənə baxır.

Üzü qaralır. Lənət şeytana, deyəsən, zibilini çıxardım. ―Onu tələsdirmə!‖ – təhtəlşüurum sərt halda qışqırır.

– Ana, mən...

O, hər iki əliylə saçlarını qarışdırır. Paho, o, əməlli-başlı özünü itirib!

– Məncə, biz məşğul olmuşuq, – o, bir qədər susub deyir.

– Sənə toxunmaq istəyirəm.

Kristian ixtiyarsız geri çəkilir, onun üzündə qorxu oynaşır, amma dərhal da yox olur.

– Xahiş edirəm.

O, özünə gəlir.

– Yo-ox, miss Stil. Bu günlük etiraflar yetər. Mən ―yox‖ deyirəm.

– Yox?

– Yox.

Hm… onunla bəhsə girmək mənasızdır… bəlkə yola gətirdim?

– Qulaq as, sən yorulmusan, elə mən də... gəl sadəcə yataq, – Kristian deyir və diqqətlə mənə baxır.

– Deməli, toxunuşlar yolverilməz hərəkətlər bölümünə daxildir?


kitabyurdu.blogspot.com

– Hə. Guya yeni xəbərdir?!

– Xahiş edirəm, de: niyə.

– Anasteyşa, yetər! – o, acıqlı halda donquldanır.

– Bunu bilmək mənimçün çox mühümdür.

Kristian yenə də iki əliylə saçlarını qarışdırır və astaca söyüş söyür. Kəskin şəkildə dönərək o, komoda yaxınlaşır, ordan futbol köynəkçəsi çıxarır və üstümə atır. Heyrətlənib köynəkçəni havada qapıram.

– Geyin və uzanıb yat, – Kristian acıqlı halda deyir.

Qaşqabağımı tökür, amma onu şənləndirməyə qərar verirəm. Kürəyimi ona tərəf çevirir, lifçiyi çıxarıram və çılpaqlığımı örtmək üçün tələsik futbol köynəkçəsini əynimə keçirirəm. Tumanı çıxarmıram, onsuz da günün böyük hissəsini tumansız qalmışam.

– Hamama keçməliyəm, – güclə eşidiləcək tərzdə pıçıldayıram.

Kristian təəccüblə qaşlarını çatır.

– İcazə istəyirsən?

– E-e-e… yox.

– Anasteyşa, hamamın harda olduğunu bilirsən. Bu gün, qəribə münasibətlərimizin bu mərhələsində sənə icazə lazım deyil ki, ondan yararlana biləsən.

Kristian qıcığını gizlətmir. O, köynəyini əynindən çıxarır, mənsə hamam otağına qaçıram.

Böyük güzgüdə özümə baxır və əvvəlki kimi göründüyümə əmin oluram. Bütün bugünkü təlatümlərdən sonra aydan mənə elə öncəki qız boylanır. ―Bəs sən nə gözləyirdin? Elə bilirdin buynuz və quyruq çıxarmısan? – təhtəlşüurum acıq verir. – Neylədiyini bilirsən? Axı bilirsən ki o, toxunuşu xoşlamır! Tələsmə, səfeh qız, qoy ayaq açsın, sonra qaçmağı öyrənər!‖ Təhtəlşüurum qəzəb içindədir və Qorqona Meduzanı xatırladır: saçlar dimdik, əllər üzə dayaqlanıb, Edvard Munkun ―Qışqırıq‖ rəsmindəki kimi. Ona fikir vermirəm, amma o da öz qutusuna qayıtmaq istəmir. ―Onu acıqlandırırsan, sənə nə dediyini xatırla, bütün etiraflarını‖. Kədərlə əksimə baxıram. Kristiana mənə əziz olduğunu göstərmək gərəkdir. Bəlkə o, qarşılıq verdikdə...

Başımı silkələyir və Kristianın diş fırçasını götürürəm. Əlbəttə, təhtəlşüurum haqlıdır. Hadisələri çox tələsdirirəm. Kristian hələ buna hazır deyil, elə mən də. Sanki qəribə münasibətlərimizin yelləncəyində tarazlıq yaradırıq: inamsız şəkildə fərqli uclarda dayanırıq və yelləncək bizi gah yuxarı, gah aşağı aparır. Hər ikimiz ortaya yaxınlaşmalıyıq. Ümid edirəm, proses zamanı heç birimiz yıxılmayacağıq. Hər şey çox tez baş verir. Deyəsən, doğrudan da, bir müddətə çıxıb getməliyəm. Corciya əvvəlkindən də çox adamı cəlb edir. Dişlərimi fırçalamağa başlayıram, Kristian qapını döyür.

– İçəri keç, – diş məcunu ilə dolu ağzımla kəkələyirəm.

Kristian astanada dayanır, pijama şalvarı ombalarından asıla qalıb və mən adətən olduğu kimi, bədənimin hər bir hüceyrəsinin necə canlandığını duyuram. O, qurşağadək çılpaqdır və mən bu mənzərədən zövq alıram, sanki təşnədən ölürəm, osa soyuq dağ çeşməsidir. Kristian soyuqqanlılıqla baxır, sonra gülümsəyərək mənə doğru gəlir. Baxışlarımız güzgüdə toqquşur – bozla mavi. Dişlərimi fırçalamağı bitirirəm, fırçanı yaxalayır və gözümü bir an belə kənara çəkmədən Kristiana uzadıram. O, sakitcə fırçanı götürür və ağzına soxur. Özümdənrazı halda gülümsəyirəm və onun gözlərində cavab gülüşü oynaşır.

– Utanmayın, diş fırçamdan istifadə edin, – Kristian azca kinayə ilə deyir.

– Çox sağ olun, ağa.

Mən şən halda gülümsəyirəm, hamam otağından çıxır və yataq otağına yollanıram. Bir neçə dəqiqədən sonra Kristian da gəlib çıxır.

– Bilirsən, bugünkü axşamı belə təsəvvür eləmirdim, – o, narazı halda donquldanır.

– Bİrdən mən özümə toxunmağa icazə verməsəydim?

O, çarpayıda oturur, ayaqlarını çarpazlayır.

– Anasteyşa, axı mən sənə demişdim. Əlli çalar... Mən ağır uşaqlıq dövrü yaşamışam. Niyə beynini bu cür zibillə doldurursan?

– Səni yaxşı tanımaqdan ötrü.

– Sən məni artıq yaxşı tanıyırsan.

– Bunu hansı haqla deyirsən?

Üzümü ona tərəf tutaraq diz üstə otururam. O, narazı halda gözlərini süzdürür.

– Yenə gözünü süzdürürsən. Bunu sonuncu dəfə etdikdə məni şapalaqlamışdın.

– Elə indi də edərdim.

Mənə ilham gəlir.

– Danış və şapalaqla.

– Nə?

– Eşitdiyin.

– Mənimlə alver edirsən?

Onun səsində təəccüblü inamsızlıq var. Başımla təsdiqləyirəm. Hə… başqa nə edim ki?

– Danışıqlara başlayıram.

– Anasteyşa, bu, sən deyən deyil.

– Yaxşı. Danış, mən də gözlərimi süzdürüm.

O uğunub gedir və mən qayğısız Kristiana tamaşa eləmək zövqü alıram. Çoxdandır onu bu cür görməmişəm. O susur.

– Həmişəki kimi, informasiya toplamada inanılmaz dərəcədə inadkarlıq, – deyir.


kitabyurdu.blogspot.com

Onun boz gözləri hədsiz maraqla parlayır. Bir an sonra Kristian çarpayıdan atılır.

– Heç yerə çıxıb getmə! – əmr edir və otaqdan çıxır.

Məni həyəcan bürüyür və mən çiyinlərimdən yapışıram. O nə edir? Bəlkə onun nəsə məkrli planı var? Zibilə düşdük! Birdən qamçıyla qayıtdı, ya da başqa bir mənfur seks-oyuncaqla? Lənət şeytana, neyləyək? Kristian qayıtdıqda əlində nəsə kiçik bir şey tutduğu görünür. Nə olduğunu anlamıram və maraqdan partlayıram.

– İlk müsahibən nə vaxtdır? – o, sakitcə soruşur.

– Saat ikidə.

Onun siması pozğun təbəssümlə əriyir.

– Əla.

Kristian gözümün qarşısında dəyişir; indi o, sərt və inaddır… ġəhvət oyadıcıdır bu. Dominant Kristian.

– Çarpayıdan düş və burda dayan.

Tələsik çarpayı ilə yanaşı dayanıram. Kristian diqqətlə mənə baxır, onun gözlərində vəd parlayır.

– Mənə etibar edirsən? – astaca deyir o.

Başımla təsdiqləyirəm. Kristian əlini mənə uzadır, onun ovcunda iki parlaq şar var, onlar qalın iplə bir-birinə birləşib.

– Onlar təzədir, – o, çoxmənalı tərzdə deyir.



kitabyurdu.blogspot.com

Ona sual dolu nəzər yetirirəm.

– Onları içinə soxacam, sonrasa şapalaqlayacam, amma cəza olaraq deyil, həzz almağımız üçün. – O susur, reaksiyamı izləyir.

Mənə! Heyrətdən ağzım açıla qalır, içimin dərinliyində əzələmin sıxıldığını duyuram. Daxili ilahəm yeddi mələfə rəqsi oynayır.

– Sonra s..işərik və əgər o vaxtadək yuxulamasan, mən uşaqlıq çağlarımla bağlı sənə danışacam. Razısan?

O, məndən izn istəyir! Başımla təsdiqləyirəm, boğuluram. Nitq qabiliyyətimi itirmişəm.

– Ağıllı qız... Ağzını aç.

Ağzımı?

– Geniş.

Kristian ehtiyatla şarları ağzıma qoyur.

– Onları nəmləndirmək lazımdır. Sovur, – asta səslə əmr edir.

ġarlar soyuq, sürüşkən, heyrətamiz dərəcədə ağır və aydın metal daddadır. Onları dilimlə tədqiq edirəm və ağzım seliklə dolur. Kristian baxışını gözlərimdən çəkmir. Lənət şeytana, maraq məni boğur. Azca dartınıram.

– Farağat dayan, Anasteyşa! – Kristian xəbərdar edir. – Bəsdir.

O, şarları ağzımdan çıxarır, çarpayıya sarı çevrilir, adyalı kənara çəkir və oturur.


kitabyurdu.blogspot.com

- Bura gəl.

Onun qarşısında dururam.

- Çevril, qabağa əyil və əllərinlə topuqlarından tut.

Özümü itirərək gözümü döyürəm və onun sifəti sərtləşir.

- Ləngimə, – Kristian səsindəki təhdidlə sakitcə xəbərdarlıq edir və şarları öz ağzına soxur.

Ah, bu ki diş fırçasından da seksualdır! Əmri icra edirəm. Doğrudanmı mən əllərimi topuqlarıma çatdıra biləcəm? Bilərəm, həm də çox asan. Futbol köynəkçəsi belimdən yuxarı qalxır, dalımı açıq qoyur. Tanrıya şükür, əynimdə tuman var, uzun zaman əynimdə qalacağına şübhəm var.

Kristian qayğıkeşliklə əlini dalıma qoyur və nəvazişlə sığallayır. Gözlərim açıqdır, amma yalnız onun ayaqlarını görürəm. Gözlərimi qıyıram, osa ehtiyatla tumanımı aşağı çəkir və asta-asta barmağını aşağı-yuxarı salıb çıxarır. Ehtiraslı gözləntidən və şəhvətdən bədənim gərilir. Məstedici qarışıq. Kristian barmağını içimə soxur və asta-asta içində fırladır. Necə də xoşdur! İniltimi boğa bilmirəm.

O, kəsik-kəsik nəfəs alır, barmağını bir daha hərlədir və boğuq inilti çıxarır. Kristian əlini çəkir və ecazkar bir şəkildə astagəlliklə şarları içimə soxur: əvvəlcə birini, sonra o birini. O-o-o… Onlar istidir, ağzımızla

isidilib. Qəribə duyğudur. ġarlar içəri keçdikdə, onları hiss etmirəm, amma bilirəm, onlar ordadır.

Kristian tumanımı düzəldir, əyilir və zərifliklə yanbızımı öpür.

– Qalx, – əmr edir.

Güclə qəddimi düzəldirəm. Ox! Bax indi onları duyuram… deyəsən. Kristian ombalarımdan yapışır və müvazinətimi saxlayana qədər məni tutur.

– Hər şey qaydasındadır? – sərt səslə soruşur.

– Hə, – güclə eşidiləcək tərzdə pıçıldayıram.

– Çevril.

Üzü ona sarı dururam. ġarlar aşağı dartınır və mən ixtiyarsız olaraq əzələlərimi sıxıram. Gözlənilməz duyğudur, amma xoş.

– Necədir? – Kristian soruşur.

– Qəribə.

– ―Yaxşı‖ mənasında qəribə, yoxsa ―pis‖ mənasında?

– Yaxşı, – qızararaq etiraf eləyirəm.

– Əla, – Kristian deyir. Onun gözlərində gülməcələr oynaşır.

– Su istəyirəm. Mənə bir stəkan su gətir, Anasteyşa.

Ox.

– Sonra səni öz dizlərimin yanında yanpörtü qoyacam. Bu haqda fikirləş, Anasteyşa.

Su? Su nəyinə gərəkdir?


kitabyurdu.blogspot.com

Yataq otağından çıxmağa macal tapmamış çox aydın şəkildə anlayıram ki, Kristian niyə məni yeriməyə məcbur edib: hər bir hərəkətdən şarlar fırlanır və məni içəridən masaj eləyir. Çox qəribə hissdir və xoşagəlməz olduğunu iddia eləmək olmaz. Tənəffüsüm sürətlənir, mətbəx şkafından stəkanı götürməyə cəhd edirəm və heyrətdən ixtiyarsız donub-qalıram. Bax a… yəqin ki, şarları özümçün saxlayacam. Bu şarlara görə sekslə məşğul olmaq istəyirəm.

Kristian yataq otağına necə qayıtmağımı diqqətlə izləyir.

– Çox sağ ol, – deyir və stəkanı məndən alır.

Kristian suyu cəld içir və stəkanı kətilin üstünə qoyur. Cığara paketi orda artıq hazır durur, gözləyir, lap mənim kimi. Bilirəm ki, Kristian bunu bilərəkdən edir, vəziyyəti gərginləşdirir. Nəbzim sürətlənir. Kristian baxışımı tutur.

– Bura gəl. Yanımda dur; o dəfəki kimi.

Ona yaxınlaşır, qanın bədənimdə necə becid dolaşdığını duyuram və bu dəfə… Ehtiraslanmışam və gözləyirəm.

– Xahiş elə, – Kristian sakitcə deyir.

Üzümü turşuduram. Nəyi xahiş edim?

– Xahiş elə, – indi daha sərt təkrarlayır o.

Nə? Su? O, məndən nə istəyir?

– Xahiş et, Anasteyşa, sonuncu dəfə deyirəm.


kitabyurdu.blogspot.com

Onun səsində aşkar təhdid hiss olunur və qəfildən anlayıram. Kristian istəyir ki, ondan döyülməmi xahiş edim.

Lənət şeytana. O, intizarla, soyuq nəzərlə mənə baxır. Poxa düşdük.

– Xahiş edirəm, məni şapalaqla... ağa, – pıçıldayıram.

Kristian bir anlığa gözlərini qapadır, sözlərimi –bişirir‖. Sonra sol əlimdən tutur və təkanla özünə tərəf çəkir. Yıxılıram, məni tutur və dizləri üstə aşırır. Ürəyimin boğazımda çırpındığını duyuram. O, nəvazişlə yanımı ovur. Yenə də dizləri üstə elə qatlanmışam ki, bədənimin yuxarı hissəsi çarpayıya düşüb. Bu dəfə Kristian ayağını ayağımın üstündən aşırır, saçlarımı ehtiyatla üzümdən qulağımın arxasına yığır. Sonra saçlarımı əllərinə dolayır: qımıldanmağıma belə imkan verməyərək və dartır ki, başımı geri atım.

– Üzünü görmək istəyirəm, Anasteyşa, səni şapalaqlayacağım vaxt, – o donquldanır, yanımı sığallamanı dayandırmadan.

Onun əlləri g..ümü aralayır, aşağı düşür, itələyir və doyumluq hissi elədir ki... Bərkdən inləyirəm. Əcaib bir duyğu...

– Bu həzz üçündür, Anasteyşa, sənin və mənim, – Kristian pıçıldayır.

O, əlini qaldırır və gurultulu şapalağını yanıma endirir, baldırlarıma doğru və azacıq ayaqlarımın arasındakı həssas yerə toxunur. İçəridəki şarlar irəli fırlanır və mən duyğular girdabında batıram. Yanlarımın yanğısı,

içəridəki şarlardan doyumluluq və Kristianın möhkəm əli. Üzümü qıcıyır, qeyri-adi hissi təcrübəmə uyğunlaşdırmağa çalışıram. Anlayıram ki, Kristian məni keçən dəfəki kimi vurmayıb. O, yenə də arxamı sığallayır, tumanımın üstündən ovcunu dərimə toxundurur.

Niyə o, tumanımı çıxarmadı? Kristian biləyini qaldırır və yenə də yanbızlarımı şapalaqlayır. Hisslər bolluğundan inləyirəm yenə. Ovuc xüsusi sxemlə hərəkət edir: soldan sağa və aşağı. Aşağıdan şapalaq ən xoşagələndir – içimdəki hər şey təkanla irəliləyir… şapalaqlararası o, nəvazişlə yanımı ovur. Heyrətamiz erotik duyğudur: məni həm içdən, həm də çöldən masaj edirlər. Nədənsə indi ağrıya etiraz eləmirəm, ola bilsin ona görə ki, hər şey mənim şərtlərimə uyğundur. Demək olar ki, ağrımıram... hərgah yox, ağrıdır, amma dözmək olar. Bu ağrıya dözə bilərəm və o hətta xoşdur. Yenidən inləyirəm. Hə, buna dözərəm.

Kristian məni şapalaqlamağı dayandırır və asta-asta tumanı aşağı çəkir. Onun dizləri üstə can çəkirəm, amma ondan qurtulmaq üçün yox. Mən istəyirəm ki… nəsə daha böyük bir şey, boşalma. Həddən artıq hissiyyatlı olmuş dəriyə toxunuşlardan bədənimi şirin bir əsməcə tutur. Bu əladır. Kristian məni şapalaqlamağı davam etdirir. Bir neçə asta şapalaq, sonra ovuc bərkdən zərbə endirir, soldan sağa və aşağı. O-o, aşağıya dəyən şapalaqlar… yenidən inləyirəm.

– Anasteyşa, yaxşı qız, – Kristian ağır-ağır nəfəs alaraq pıçıldayır.


kitabyurdu.blogspot.com

O, məni daha iki dəfə şapalaqlayır, sonra şarları birləşdirən ipi dartır və onları içimdən çıxarır. Az qalır qurtarım – inanılmaz duyğu. Kristian ehtiyatla məni çöndərir. Cırılan cığaranın xışıltısını eşidirəm və Kristian mənimlə yanaşı uzanır. O, əllərimdən tutur, başımın arxasına keçirir, yavaş-yavaş üstümə çıxır və içəri soxur, gümüşü şarların olduğu yeri doldurur. Ucadan inləyirəm.

– Ox, balaca, – Kristian pıçıldayır və irəli-geri hərəkət edir, asta, şəhvani tempdə, məni duyaraq, məndən həzz alaraq.

O, hələ heç vaxt belə zərif olmayıb və mən anidən zirvəyə yetişirəm, ecazkar, hər şeyi unutduran orqazma çatıram. Kristianı bağrıma basıram və adımı çəkərək qurtarır:

– Ana!

Hansısa müddətdə o, üstümdə uzanıqlı qalır, ağır-ağır nəfəs alır, əvvəlki kimi öz əlləriylə əllərimi saxlayır. Nəhayət, kənara çəkilir və düz gözlərimin içinə baxır.

– Çox xoşuma gəldi, – o pıçıldayır və incə tərzdə məni öpür.

Bununla zəriflik bitir: Kristian qalxır, üstümü adyalla örtür və hamam otağına gedir. O, bir şüşə ağ losyonla qayıdır və çarpayıda yanımda əyləşir.

– Çevril, – əmr edir və itaətkarlıqla qarnım üstə uzanıram.

Bu narahatlıq nəyə gərəkdir? Dəhşətli dərəcədə yuxum gəlir.

– Sənin g..ün əla rəngdədir, – Kristian bəyəndirici halda deyir və ehtiyatla qızarmış yanlarımı soyuq losyonla silir.

– Hə, Qrey, etiraf elə, – əsnəyirəm.

– Miss Stil, siz xoş məqamı pozmaqda mahirsiz.

– Biz razılaşmışıq.

– Özünü necə hiss edirsən?

– Elə bil mənə kələk gəliblər.

Kristian ah çəkir, yanımda uzanır məni özünə sarı çəkir, göynəyən arxama toxunmamağa çalışır.

– Məni dünyaya gətirmiş qadın qəhbə idi və krekə ―oturmuşdu‖. İndisə yat.

Sənin ananı… bu, nə deməkdir?

– İdi?

– O ölüb.

– Çoxdan?

Kristian yenidən köksünü ötürür.

– O ölüb, o vaxt dörd yaşım vardı. Onu düz-əməlli xatırlamıram. Ancaq müəyyən şeyləri yadda saxlamışam. Bəzi şeyləri mənə Kerrik danışıb. Xahiş edirəm, yat.

– Gecən xeyrə qalsın, Kristian.

– Gecən xeyrə, Ana.


kitabyurdu.blogspot.com

Mən dərin yuxuya gedirəm və dörd yaşlı, boz gözlü oğlan yuxuma girir. Onu nifrət doğuran, qaranlıq və qorxulu bir yerdə atıb gediblər.


kitabyurdu.blogspot.com

## 21-ci fəsil

Hər yerdə işıq var: parlaq, isti. Hələ də bürünmək, heç olmasa, azca mürgüləmək istəyirəm! Amma işıq gözlərimi deşir və həvəssiz halda yuxudan oyanıram. Məni füsunkar səhər qarşılayır: günəş şüaları pəncərədən döşəməyədək düşür. Niyə pərdələri dünən qapatmadıq? Kristian Qreyin nəhəng çarpayısında uzanmışam. Bircə Kristianın özü çatışmır.

Yenidən başımı balışa atır, Sietlin ecazkar mənzərəsinə tamaşa edirəm. Buludlar üzərində həyat – illüziya. Havadan asılı, həyatın sərt gerçəyindən uzaq qəsr: gərəksizlikdən, aclıqdan, krekə aludəçi fahişə-anadan. Diksinirəm, Kristianın uşaqlıq çağlarında hansı çətinliklərdən keçdiyini və indi niyə burda, incəsənət əsərlərinin əhatəsində, doğulduğu yerdən uzaqda tək yaşadığını anlayıram… hə, o, bunun səbəblərini

gizlətmir. Kədərlənirəm, bütün bunlar ona niyə toxuna bilməməyimi izah edir.

İroniya ondadır ki, onun zövqlə bəzədilmiş qəsrində mən özüm də yüksəliş hiss edirəm. Sanki yerdən havaya qalxıram. Fantastik dərəcədə gözəl yataqda uzanmışam, fantastik boy-frendlə fantastik sekslə məşğulam. Halbuki həyatın sərt gerçəyi budur: Kristian mənə daha çox şey vəd etsə də, müqavilə bağlamaq istəyir. Nə qədər çox? Mən bunu bilməliyəm, biz bir-birimizdən əvvəlki kimi uzağıq, sanki yelləncəyin fərqli uclarında... Yoxsa bir qədəryaxınlaşmışıq?

Yataqdan qalxıram, əzələlərim sözümə baxmır. Özümü, daha yaxşı ifadə tapmadığımdan, qoca qarı kimi hiss edirəm. Seksdə ölçü bilməyənlərin sonu belə olurmuş... Təhtəlşüurum narazı halda dodaqlarını sıxır. Zehnən gözlərimi süzdürürəm – yaxşı ki, bu dəli müstəbid mənimlə deyil – və şəxsi təlimatçı barədə soruşmaq istəyirəm. Əlbəttə, əgər müqaviləni imzalasam. Daxili ilahəm mənə məyus bir nəzər yetirir: ―Şübhələnmə, imzalayacaqsan‖. Özümü elə göstərirəm ki, guya onların simasını görmürəm və yanından keçərkən hamam otağına ötəri nəzər yetirir, Kristianı axtarıram.

Qalereyada o yoxdur, ortayaşlı, yaraşıqlı bir qadın mətbəxdə iş görür. Onun görünüşü məni yarı yolda dayanmağa məcbur edir. Qısa saç kəsimli, mavi gözlü, sarışın; sadə ağ bluz köynək və dar, tünd-göy ətəklik. Məni görcək naməlum qadın gülümsəyir.

– Sabahınız xeyir, miss Stil. Nahar edəcəksiniz?

Səsin ahəngi dostyana və işgüzardır. Özümü itirirəm. Bu cazibədar, sarışın Kristianın mətbəxində neyləyir? Əynimdə yalnız futbol köynəkçəsi var.

– Özümü lap itirdim, – yavaşca deyirəm, xəcalətimi gizlədə bilmirəm.

– Bağışlayın. Mən missis Consam, qulluqçu.

Hə, indi bildim.

– Sabahınız xeyir, missis Cons.

– Nahar edəcəksiniz, mem?

–Mem!‖ Bircə bu çatışmırdı!

– Çay içəcəm, minnətdaram. Bilmirsiniz, misret Qrey...

– Kabinetdə.

– Çox sağ olun.

Üzümü turşudaraq cəld onun kabinetinə sarı yollanıram. Gözəl sarışınları işə götürmək nə adətdir? Doğrudanmı onların hamısı onun kənizləridir? Bu fikir elə də əyləncəli deyil.

Ehtiyatla kabinetə boylanıram. Kristian telefonla danışır, pəncərədən çölü seyr edir. Kristianın əynində qara şalvar və ağ köynək var. Saçları duşdan sonra hələ də qurumayıb, onun görkəmindən bütün şübhələr və qorxular bir andaca beynimdən uçub gedir.


kitabyurdu.blogspot.com

– Ros, əgər şirkət gəliri artırmasa, mən oyundan çıxıram. Ölü yük nəyimizə lazımdır və nəhayət, bəhanələr məni bezdirib… Qoy Marko zəng eləsin, bəsdi yerində döydük… Söz düşmüşkən, Barniyə çatdır ki, təcrübə nümunəsi yaxşı təsir bağışlayır, amma interfeysə şübhəm var… Yox, nəsə çatışmır… Mən bu gün onun özü və komandasıyla görüşmək istəyirəm, beyin hücumuna keçmək vaxtıdır. Yaxşı, zəngi Andreanın telefonuna ötür…

O gözləyir: öz kainatının ağası; qəsrinin ayağındakı xırda insan fiqurlarını seyr edərək.

– Andrea…

Kristian gözlərini qaldırır və məni görür. ġirin təbəssümdən dodaqlar dartınır və onun baxışından əriyirəm, kəlmə kəsə bilmirəm. O, dünyada ən yaraşıqlı kişidir, qüllənin aşağısındakı insanlarçün yetərindən artıq gözəldir, elə mənimçün də. ‒Yox, – bu, daxili ilahəmdir, kədərlənir, – yox, səninçün deyil. Məgər onun müəyyən mənada sənə məxsus olmadığını unudursan?‖ Bu fikirdən titrəmə şübhələri qovaraq bədənimi sarsıdır.

O, telefonla danışır, amma gözünü məndən çəkmir.

– Bu gün səhər Billdən başqa hamı üçün məşğulam, qoy mənə zəng eləsin. Saat ikidə olacam. Marko ilə görüşürəm, bu, yarım saat vaxt aparacaq… Barnini də qeydə al, komandası ilə birgə, Markodan sonra, ya da sabah və bu həftə Klodla görüş üçün vaxt müəyyən elə… Qoy gözləsin…

Bax belə… Yox, Darfurda aşkarlıq bizə gərək deyil. Qoy Sem bununla məşğul olsun. Yox… Hansı hadisə? Gələn ġənbə günü? Gözlə.

– Corciyadan nə vaxt qayıdırsan?

– Cümə günü.

Yenə dəstəyə:

– Bir bilet də lazımdır, mənimlə bir qız olacaq. Hə, Andrea, düz eşitmisən. Qız. Miss Anasteyşa Stil… Tamam.

O, söhbəti bitirir.

– Sabahınız xeyir, miss Stil.

– Mister Qrey, – utanaraq gülümsəyirəm.

Füsunkar hərəkətlə o, masanı dolanıb keçir və mənimlə üzbəsurət dayanır. Ondan gözəl iy gəlir: təmizlik, təravət, Kristian ətri. Ovcunun tərs tərəfini yanağımda zərifliklə gəzdirir.

– Səni oyatmaq istəmədim... elə möhkəm yatmışdın ki. Yuxudan doydunmu?

–Çox yaxşı dincəldim, sağ ol. Duş qəbul etməzdən əvvəl salamlaşmağa gəldim.

Gözümü çəkmir, ondan kam alıram. Kristian əyilir, incə tərzdə məni öpür və mən dözmürəm, onun boynunu qucaqlayır, barmaqlarımı saçlarına keçirirəm. Kristiana sarılaraq öpüşünə öpüşlə cavab verirəm. Onu istəyirəm. Mənim təzyiqimdən Kristian özünü itirir, ani karıxma və iniltiylə istəyimə

hay verir. Onun ovucları saçlarımdan çılpaq yanlarıma enir, dili ağzıma girir. Sonra Kristian məni buraxır, gözlərini qıyır.

– Yuxu xeyrinizə olub, – nəfəsini buraxır. – Duşa get... əgər səni elə masanın üstündə qayırmamı istəmirsənsə.

– Mən masanı seçirəm, – ürkmədən pıçıldayıram. Ehtiras adrenalin kimi məni cənginə alır, hər şeyi yolundan silib-süpürür.

Saniyənin mində bir hissəsində o, heyrətlə mənə baxır.

– Deyəsən, dadanmısınız. Damağa xoş gəlib, miss Stil, eləmi? Bu doyumsuzluq sizdə hardandır belə… – pıçıldayır.

– Mən ancaq səni dadmışam, – hay verirəm.

Onun gözləri genişlənir və qaralır, əllərisə yanbızlarımda sürüşür.

– Hə, lənət şeytana! – Kristian nərildəyir və inanılmaz tezliklə kağızları yerə atır, məni kəskin şəkildə qaldırır və masaya uzadır, başım masanın əks kənarından sallanır.

– Bunu istəyirdin, balaca, indi özündən küs, – pıçıldayır, cibindən paketi çıxarır və şalvarının qabağını açır. Ah, mənim boyskautum! Enerogenləşmiş şeyinə prezervativi geydirərək o, baxışlarını aşağı endirir.

– Məni qəbul etməyə hazırsan?

Kristianın üzündə şəhvani təbəssüm var.

An və o içimdədir, biləklərim böyürlərə sıxılıb, Kristiansa təkanla içimin dərinliyinə daxil olur.


kitabyurdu.blogspot.com

İnləyirəm… hə-ə-ə.

– İlahi, Ana, mən heç soruşmaya da bilərdim, – şövqlə deyir o.

Ayaqlarımla onun ombalarından tutmuşam, osa boz, parlayan və amiranə gözlərini məndən çəkmir. Kristian hərəkət etməyə başlayır. Bu, sevişməyə əsla bənzəmir, Kristian məni s..ir və bu, xoşuma gəlir. Azğınlıq, şəhvət xoşuma gəlir. Onun ehtirasına ram oluram, onun şəhvəti şəhvətimi təşnədən xilas edir.

O, asan hərəklət eləyir, məndən həzz və kam alaraq, dodaqlar birləşir, tənəffüs sürətlənir. Kristian ombalarını bir tərəfdən o biri tərəfə yelləyir... mənə inanılmaz həzz verərək.

İlahi-i-i. Gözlərimi qapadır, asta-asta, tədricən həzzin artdığını duyuram, yuxarı, yuxarı, qülləylə göylərə qalxıram. Hə-ə-ə… təkanlar daha da güclənir, ucadan inləyirəm, özümü bütünlüklə hisslərə tabe edirəm, Kristianda əriyirəm. Daha yüksəyə pərvaz edir, hər bir hərəkətdən həzz alıram. O da daha sürətli, bədənim onun ritmiylə hərəkət edir, ayaqlarımın əzələləri bərkiyir, bədənimi xoş titrəmə tutur.

– Hə, balaca, bunu mənimçün elə, – Kristian dişləri arasından nəfəsini buraxır və səsindəki ehtiraslı yalvarış kasanı daşdırır.

Qışqırıram – sözsüz, coşqun fəryad – Günəşə, istiyə toxunarkən, fırlanıram və nəfəsi kəsilmiş halda yerə yıxılıram. Kristian dartınır və


kitabyurdu.blogspot.com

orqazma çataraq qəfildən dayanır. Sonra biləklərimi sıxır və halsız vəziyyətdə üstümə sərilir.

O… bunu gözləmirdim. Yer kürəsində, asta-asta əşyaya çevrilirəm.

– Lənət şeytana, mənimlə neyləyirsən? – Kristian pıçıldayır, burnuyla boynumu dəlir. – Məni ovsunlamısan, Ana.

O, biləklərimi buraxır və mən barmaqlarımı onun saçlarına keçirirəm, yavaşca yüksəkliyi itirir, amma hələ də onu ayaqlarımla saxlayıram.

– Yox, sən məni ovsunlamısan, – pıçıldayıram.

Kristian gözlərini qaldırır, o utanır, demək olar ki, ürküb. Ovucları ilə başımı tutur.

– Sən… mənimsən, ancaq… mənim, – kəsik-kəsik deyir o. – Başa düşürsən?

O elə qısqanc, elə həyəcanlıdır ki... əsl fanatik. Onun coşqusu qəfil və dağıdıcıdır. Ona nə olub?

– Səninəm, sənin, – onun coşqunluğu ilə deyirəm.

– Corciyaya mütləq uçmalısan?

Başımla yavaş-yavaş təsdiqləyirəm. Və qəfildən üzündəki ifadə dəyişir; sanki pəncərələri qapatdılar. Kristian birdən-birə ayağa qalxır, məni kədərlənməyə məcbur edir.

– Ağrıdır? – O, mənə sarı əyilir.


kitabyurdu.blogspot.com

– Lap az, – etiraf edirəm.

– Ağrıtması yaxşıdır. – Onun gözləri alovlanıb yanır. – Mənim, yalnız mənim harda olduğumu unutmağa imkan vermir.

Kristian çənəmi qaldırır və acgözlüklə dodaqlarımı öpür, sonra qalxır və əlini mənə uzadır. Yerdə cığara paketini görürəm.

– ―Boyskaut həmişə hazırdır‖, – yavaşca deyirəm.

O, qayğılı halda mənə baxır. Paketi döşəmədən qaldırıram.

– Kişi ümid etməlidir, Anasteyşa, arzulamalıdır və nə vaxtsa arzu çin olur.

Onun gözləri od saçır. Kristianı anlamıram. Eyforiyam tədricən heçliyə dönür. Onu nə narahat eləyir?

– Deməli, bu, arzuladığın şey idi? – atmosferin gərginliyini aradan qaldırmaq üçün quru tərzdə soruşuram.

Kristian sirli şəkildə gülümsəyir – gözlərisə kədərlidir – və anlayıram ki, onunçün bu, bir ilk deyil. Buna xoşagələn kəşf demək olmaz. Eyforiyanın heç izi də qalmayıb.

– Gedib duş qəbul edim. – Qalxıb qapıya sarı gedirəm.

Kristian qaşlarını çatır və barmaqlarını saçlarında gəzdirir.

– Bir cüt telefon zəngi və mən səhər yeməyində sənə qoşulacam. Missis Cons sənin paltarlarını yuyub və şkafdan asıb.

Nə? O, nə vaxt bunu elədi? Lənət şeytana! Doğrudanmı o, səsimizi eşidib?

– Çox sağ ol, – donquldanır və qızarıram.

– Can sağlığı ilə, – o dəm cavab verir, amma səs kəskindir.

Mən –çox sağ ol‖u məni s..diyi üçün demədim. Doğrudur, bu da olub…

– Nə xoşuna gəlmədi? – soruşur.

Üzümü turşuduram.

– Yəni?

– Sənə noolub?

– Bu gün özünü əvvəlkindən də qəribə aparırdın.

– Məni qəribə adam hesab edirsən? – Kristian təbəssümünü boğmağa çalışır.

Büsbütün allanıram.

– Bəzən.

Bir anlığa məni maraqla seyr edir.

– Belə deyək, həzz mənə hər şeyi unutdurdu.

– Məqsədimiz – müştərini razı salmaqdır, mister Qrey. – Onun sözlərini təkrarlayaraq başımı yana əyirəm, Kristianın elədiyi kimi.

– Bunu bacardınız, – Kristian başıyla təsdiqləyir, amma xəcalət çəkdiyi hiss olunur. – Deyəsən, kimsə duş qəbul etməli idi?

Aydındır, mənim xidmətlərimə ehtiyacı yoxdur.

– Hə-hə… görüşərik. – Kabinetdən qaçaraq çıxıram, hisslərim çilik-çilik olub.

Kristian özünü itirmiş görünür. Niyə? Fiziki cəhətdən tam məmnun, emosional cəhətdən isə… lovğalanmalı heç nəyi yoxdur.

Missis Cons əvvəlki kimi mətbəxdədir.

– Çay, miss Stil?

– Əvvəlcə duş qəbul edəcəm, – od tutub yanan üzümü gizlədərək donquldanıram.

Hamam otağında Kristianla nə baş verdiyini anlamağa çalışıram. O, tanıdıqlarım arasında ən mübhəm insandır və mən heç vaxt onun əhvali-ruhiyyəsinin dəyişkənliyinə alışa bilməyəcəm. Kabinetə girəndə o, həyatdan tam razı görünürdü. Sonra biz sevişdik… daha sonra onu elə bil dəyişdilər. Təhtəlşüurum fit çalaraq gözlərini gizlədir, daxili ilahəmsə hələ də seks sonrası eyforiyadadır. Deyəsən, bu tapmacanı çözmək bizlik deyil.

Saçlarımı məhrəbayla qurudaraq, yeganə əlyetən daraqla tellərimi darayır və arxadan at quyruğu formasında yığıram. Keytin ütülənmiş bənövşəyi donu büsthalter və tumanla yanaşı qoyulub. Missis Cons əsl sehrbazdır. Keytin tuflilərini ayağıma keçirərək paltarın büzmələrini düzəldirəm, dərindən nəfəs alır və otağa qayıdıram.

Kristian hələ qayıtmayıb, missis Conssa anbarda eşələnir.

– Çay, miss Stil? – soruşur.

– Hə, çox sağ olun, – gülümsəyirəm. Don və və tuflilərdə özümü daha inamlı hiss edirəm.

– Yemək yeyəcəksiniz?

– Yox, sağ olun.

– Əlbəttə, yeyəcək. – Kristian işıq saçır, səsinin ahəngi etiraza yer saxlamır. – O, oladya və bekonlu qayğanağı xoşlayır, missis Cons.

– Yaxşı, mister Qrey. Siz nə yeyəcəksiniz?

– Omlet, zəhmət olmasa və meyvə.

Kristian gözünü məndən çəkmir, onların ifadəsini çözmək mümkün deyil.

– Otur, – o, əmr edir və bar stulunu göstərir.

İtaət edirəm və missis Cons yemək hazırlayanadək o, mənimlə üzbəüz özünə yer edir. Lənət şeytana, yad adamın bizim söhbəti eşitdiyindən narahatam.

– Bilet almısan?

– Yox hələ, evdə internetdən sifariş edəcəm.

Dirsəyinə söykənərək o, fikirli halda çənəsini qaşıyır.

– Pul bəs edər?

Bircə bu çatışmırdı!

– Yetərindən də artıqdır, – kinayəylə deyirəm, sanki uşaqla danışıram.

Kristian üzünü turşudur. Qır-saqqız...

– Bəsdir, çox sağ ol, – sözümə düzəliş verirəm.

– Mənim təyyarəm var. Yaxın üç gündə sənin ixtiyarındadır.

Ağzım açıla qalır. Əlbəttə, başqa cür ola da bilməzdi, amma gözlərimin alnıma çıxmaması üçün özümü güclə saxlayıram. Elə ürəkdən gülmək istəyirəm ki... amma onun əhvali-ruhiyyəsini tuta bilmir və özümü zorla ələ alıram.

– Biz onsuz da sənin şirkətinin aviasiyasından yetərincə sui-istifadə eləmişik.

– Bu mənim şirkətim, mənim təyyarəmdir. – Kristian incimiş görünür. Ah, bu kiçik oğlanlar... oyundan heç vaxt doymurlar!

– Təklif üçün çox sağ ol, amma adi reyslə uçmaq mənə daha rahatdır.

Deyəsən, o, mübahisə eləmək istəyir, amma güzəştə gedir.

– Özün bilən yaxşıdır, – köks ötürür. – Müsahibəyə hazırlaşmalısan?

– Yox.

– Yaxşı. Hansı nəşriyyata düzəlmək istədiyini hələ də demək istəmirsən?

– Yox.


kitabyurdu.blogspot.com

Onun dodaqları istəksiz təbəssümlə genişlənir.

– Mənim öz imkanlarım var, miss Stil.

– Qətiyyən şübhə etmirəm, mister Qrey. Zənglərimi izləməyə hazırlaşırsınız? – sadəlövhlüklə soruşuram.

– Ümumiyyətlə, bu gün günorta yeməyindən sonra məşğulam, amma bu işi tapşıracaq adamım var.

Kristianın dodağı qaçır. Yəni ciddi deyir?

– İşçilərinizin məşğul olmalı işi-gücü yoxdur? Məsləhət görürəm ştat cədvəlinə yenidən baxasınız.

– Bundan ötrü kadrlar üzrə müavinimə yazmaq gərəkdir. Qoy o, adamları bir-bir saysın.

O, dişlərini sıxır: gülməmək üçün.

Tanrıya şükür, yumor hissini özündə saxlaya bilib.

Missis Cons bizimçün nahar yeməyini çəkir və biz bir müddət ağzımıza qıfıl vururuq. Qazan-boşqabla işini bitirib, o, nəzakətlə otağın o biri küncünə keçir.

Mən ürkək nəzərlə Kristiana baxıram.

– Noolub, Anasteyşa?

– Mənə heç vaxt deməmisən, niyə özgə toxunuşlardan xoşlanmırsan?

Onun rəngi ağarır və mən soruşmağıma peşmanam.


kitabyurdu.blogspot.com

– Sən haqqımda dünyada hamıdan çox bilirsən, –baxışlarımız toqquşarkən təmkinlə cavab verir o.

O, heç kimə etibar eləmir. Yaxın dostları varmı? Ola bilsin ki, missis Robinsona danışıb. Soruşmaq istəyirəm, amma zəhlətökən görünməkdən qorxuram. Başımı yelləyirəm. O, doğrudan da, uzaq adadır.

– Corciyada müqaviləmiz barədə düşünməyə söz verirsən?

– Söz verirəm.

– Mənimçün darıxacaqsan?

Məni yaman yerdə yaxalayıb.

– Darıxacam, – səmimi etiraf edirəm.

Bu qısa müddətdə mənə necə əziz ola bilib? Ürəyimə girib… hərfi mənada desək.

Kristian gülümsəyir, gözlər parlayır.

– Mən darıxacam. Düşündüyündən də çox.

Onun sözləri qəlbimi qızdırır. Ola bilərmi ki, o doğrudan da, mənə daha artığını versin? Kristian yanağımı sığallayır, əyilir və incəliklə öpür.

Axşam mən əsəbi halda stulda qurcalanır və intizarla –Sietl İndependent Pablişn‖dən olan mister C. Haydı gözləyirəm; bu günə olan ikinci müsahibədir, ən mühümü. Birincisi əla keçdi, amma söhbət bütün

ABġ ərazisini əhatə edən təmsilçilikləri ilə nəşriyyat konqlomeratından gedir və mən redaktorun çoxsaylı köməkçilərindən biri ola bilərəm. Nəhəng korporasiyanın öncə məni udmasını, sonrasa necə tüpürəcəyini təsəvvürümə gətirirəm. Yox, SİP daha yaxşıdır. Yerli müəlliflərə ixtisaslaşmış, maraqlı və nadidə müştərilərlə işləyən kiçik, müstəqil nəşriyyat.

Mebel çox deyil, amma deyəsən bu, kasıblıq əlaməti deyil, dizayner tapıntısıdır. İri, tünd-yaşıl, dəri divanlardan birində oturmuşam. Bu divanlar Kristianın oyun otağında olanlara oxşayır. Dərini sığallayıram... o, bu divanlarda görən nəylə məşğul olur? Burda düşüncələrçün genişlik yaranır, amma mən özümü dürtməliyirəm: bura bundan ötrü gəlməmişəm. Katibə – gənc afroamerikalı qadın iri gümüşü sırğalar taxıb və uzununa daranmış saçları var. Görünüşü... belələri ilə rahat dil tapıram. Arada-bərədə o, baxışlarını monitordan ayırır və dostyana gülür. Mən utanaraq gülümsəyirəm.

Təyyarə bileti sifariş vermişəm – anam sevincdən göyün yeddinci qatındadır – və artıq əşyalarımı toplamışam, Keyt isə məni hava limanına çatdırmağa söz verib. Kristian özümlə ―mak‖ və ―blekberri‖ni götürməyi tapşırıb. Onun amiranə ahəngini xatırladıqda gözlərimi süzdürürəm, amma artıq təəccüblənmirəm. O, hər şeyi nəzarətdə saxlamağa adət edib – bu onunçün mühümdür – o cümlədən məni. Amma hərdən elə güzəştcil olur ki... Kristian kübar, mehriban, hətta centlmen olmağı bacarır. Bu zaman onu

anlamaq daha çətin olur. Məni qarajadək ötürməkdə israr elədi. Sanki bir-iki günlüyə deyil, bir neçə həftəliyə çıxıb gedirəm. O, məni daim gərginlikdə saxlayır, rahatlanmağa imkan vermir.

– Ana Stil?

Uzun, qara, prerafelit saçlı qadın məni Yerə qaytarır. Katibə qadın da onun da eynilə bohem, artistik görkəmləri var. Görünüşdən ona qırx yaş vermək olar... ola bilsin ki, daha çox. Özümdən yaşca böyük qadınlarla ünsiyyətim çətin alınır.

– Bəli.

Naqolaycasına yeimdən qalxıram.

O, nəzakətlə gülümsəyir, soyuq ala gözlər dəyərləndirici tərzdə mənə zillənib. Əynimdə Keytin qara sarafan-donu var və ağ bluz köynək, ayağımda dikdabanlı qara ―qayıq‖ – müsahibəyə yarayan zahiri görkəm... Saçlarım ―quyruq‖da toplanıb, sürüşən telim yenə öndədir…

Qadın əlini uzadır.

- Tanışlığımıza şadam, Ana. Mən Elizabet Morqanam, SİP-in kadrlar şöbəsinə rəhbərlik edirəm.

- Axşamınız xeyir, – uzadılmış əli sıxıram.

O, şirkət rəhbərinə oxşamır, görkəmi rəsmilikdən çox uzaqdır.

- Ardımca gəlin.

İkiqat qapıların yanından ötərək biz arakəsmələri olan böyük ofisə keçirik, oradan da danışıqlar otağına. Solğun-yaşıl rəngli divarlarda çərçivəyə salınmış böyüdülmüş kitab üzləri asılıb. Böyük masanın baş tərəfində arxadan quyruq kimi yığılan kürən saçlı gənc kişi oturub. Qulağında gümüş üzük-sırğa parlayır. Əynində solğun-mavi rəngli köynək və boz şalvar var. Qalstuku yoxdur.

Masaya yaxınlaşıram, kişi yerindən qalxır. Gözləri dərin çuxurda və tünd-göydür.

- Mən Cek Haydam – baş redaktor. Tanışlığımıza şadam.

Bir-birimizin əlini sıxırıq. Onun qüssəli simasında təmkinli ifadə var, amma dostyana təsir bağışlayır.

- Uzaqdan gəlirsiniz? – nəzakətlə maraqlanır.

- Yox, bu yaxınlarda Payk-strit-market rayonuna köçmüşəm.

- Doğrudan da, çox yaxındır. Xahiş edirəm, oturun.

Oturutwram, Elizabet öz yerini tutur.

- Hə, Ana, niyə məhz bizim şirkətdə təcrübə keçmək istəyirsiniz?

O, adımı incə tələffüz edir, azca başını yana əyərək, mənə yaxşı tanış olan başqa bir kişi kimi və bu, diqqətimi cəmləməyə mane olur. Özümü ələ alaraq ciddi şəkildə hazırladığımın nitqimin izharına başlayır və yanaqlarımın necə yandığını duyuram. Mən Ketrin Kavanadan öyrəndiyim uğurlu müsahibədən keçmə kursunu xatırlayıram: –Başlıcası, onların

gözlərinin içinə bax, Ana!‖ Lənət şeytana, rəislik meyillərini bu qız hardan əxz edib?

Cek və Elizabet diqqətlə qulaq asırlar.

– Yetərincə yüksək orta balınız var. Təhsildən başqa, universitetdə daha hansı şıltaqlıqlarla məşğul olmusunuz?

ġiltaqlıq? Gözlərimi döyürəm. Qəribə söz yığınıdır. Mən kampusun kitabxanasındakı iş və tələbə qəzeti haqda danışıram, o cümlədən ədəbsiz varlı müstəbiddən götürdüyüm müsahibədən, sonda müsahibəni özümün yox, başqasının yazıya köçürdüyünü qeyd etməyi unudaraq. Üzvü olduğum ədəbi cəmiyyətləri sadalayıram. Xatırladıram ki, Kleytonların mağazasında işləməyim sayəsində dəmir-dümürə dair bir yığın biliyə malikəm.

Onlar gülürlər; mənə də elə bu lazım idi. Tədricən yüngülləşir və özümə gəlirəm.

Cek Hayd ağıllı və dəqiq suallar verir. Ümid edirəm, sevimli yazıçılar haqda danışarkən biliklərim məni xar eləmir, çünki mübahisədə öz fikrimi dəstəkləməli oluram. Cek müharibədən sonrakı Amerika ədəbiyyatına üstünlük verir. Heç bir klassika: nə Henri Ceyms, nə Epton Sinkler, nə də F. S. Fitscerald. Elizabet sakitcə bloknotda qeydlər aparır. Cek mübahisə eləməyi xoşlasa da, özünə görə çox ünsiyyətcildir. Danışdıqca söhbət daha maraqlı olur.

- Beş il sonra özünüzü hansı yerdə görürsünüz? – soruşur.


kitabyurdu.blogspot.com

Beş il sonra mən Kristian Qrey olmaq istəyirəm. Qüssələnir, zəhlətökən fikirləri başımdan qovuram.

- Redaktor, ədəbi agent. Bilmirəm, sınamaqdan qorxmuram.

Cek gülümsəyir.

- Yaxşı, Ana, mənim başqa sualım yoxdur. Bəs sizin? – mənə müraciət edir o.

- Təcrübəçi nə vaxt işə başlamalıdır?

- Mümkün qədər tez, – Elizabet söhbətə qoşulur. – Nə vaxt işə başlaya bilərsiniz?

- Gələn həftə.

- Lap yaxşı, – Cek deyir.

- Əgər hər şeyi razılaşdırmışıqsa... – Elizabet nəzərini məndən Cekə çəkir, – müsahibə bitdi.

- Tanışlığımıza şad oldum, – Cek astaca deyir, əlimi sıxır. Mən heyrətlə gözümü döyür və sağollaşıram.

Maşına doğru gedərkən qəribə naqolaylıq duyuram. Deyəsən, hər şey yaxşı keçdi, hərgah kim bilir... Müsahibələrdə hamı artistlik edir, peşəkar üzlük arxasındakı həqiqi mahiyyəti gizləməyə çalışırlar. Məni bəyəndilərmi? Baxarıq.

Öz ―Audi A3‖-ümə oturur və evə gedirəm, əslində bu, az vaxt aparmır. Təyyarə reysim çox gecdir, üstəlik, Atlantada təyyarə dəyişmə ilə,

amma ona iyirmi beş dəqiqə qalmışdan tez təyyarə havaya qalxan deyil, buna görə də tələsmirəm.

Mətbəxdə Keyt qutuları açmaqla məşğuldur.

- Necə keçdi? – üstümə atılır o. Enli futbol köynəkçəsində, süzülmüş cins şalvarda və tünd-mavi bandanada belə o, gözəl görünməyi bacarır da!

- Yaxşı, çox sağ ol, Keyt. Qorxuram, doğrudur, üslubu dəyişmək lazım gələcək.

- Dəyişmək?

- Məncə, onları bohem şıqlıqla məftun etmək lazımdır.

Keyt qaşlarını qaldırır.

- Sən və bohem şıqlığı?

O, fikirli halda başını yana əyir. Axı niyə, niyə dünyada hər şey mənə onu xatırladır?

- Bilirsənmi, Ana, deyəsən, sənə bu, yaraşar.

Gülürəm.

- İkinci nəşriyyat çox xoşuma gəldi. Məhz bu cür yerdə işləmək istərdim. Doğrudur, mənimlə söhbət edən oğlan mənə rahat nəfəs almaq imkanı vermədi, amma… – Çaşıb qalıram, hıqqanıram.

Sən Ketrin Kavanaya kələk gəlmək istəyirsən? Kəs səsini, Ana!

- Hə?

Ketrin sensasiya axtarışı üçün öz radarını işə saldısa, xilas yoxdur. Həm də bu, ən gərəksiz vaxtda baş verir. Hə, yeri gəlmişkən…

- Söz düşmüşkən, bəsdi Kristiana ilişdin. Sənin şam yeməyi vaxtı Xose barədə boşboğazlığın həyasızlıqdan da betər idi. Kristian qısqancdır. Bundan heç bir xeyir gəlməz.

- Bilirsənmi, əgər o, Eliotun qardaşı olmasaydı, payını yaxşıca verərdim! Sənin Kristianın əmr verməkdən həzz alır. Təəccüblənirəm, ona necə dözürsən? Onu qısqandırmaq istəyirdim, çünki ciddi münasibətlər qurmaqdan çəkinir.

Müdafiə olunarkən Ketrin əllərini irəli uzadır.

- Etiraz edirsənsə, daha heç nə deməərəm! – tələsik əlavə edir, üzümün narazı ifadəsini görərək.

- Yaxşı. İnan mənə, Kristianla onsuz da yola getmək çətindir.

Aman Tanrım, lap onun kimi danışıram.

- Ana, – Keyt hıqqanır, diqqətlə mənə baxır, – hər şey qaydasındadır? Ananın yanına ona görə qaçmırsan ki?

Alışıb partlayıram.

- Yox, Keyt. Özün dedin ki, dekorasiyaları dəyişməliyəm.

O, fırlanıb yanıma gəlir və əllərimdən tutur. Bu, Keytə bənzəyən iş deyil. Yox, bircə bu yox… qətiyyən ağlamaram.


kitabyurdu.blogspot.com

- Sən... bilmirəm necə deyim… dəyişilmisən. Əminəm hər şey qaydasındadır, amma bu Qalın Cüzdanlı cənabla münasibətlərinizin necə alınmasından asılı olmayaraq, sirlərini həmişə mənimlə bölüşə bilərsən. Söz verirəm, onu bir daha cırnatmayacam, amma əslində önu özündən çıxarmaq su içmək kimi bir şeydir. Ana, əgər nəsə qaydasında olmasa, məndən gizləmə, səni mühakimə etməyəcəm, söz verirəm, sadəcə anlamağa çalışacam!

Mən hıçqırır və onu qucaqlayıram.

- O-o, Keyt, deyəsən, mən başımı tamam itirmişəm.

- Guya görmürəm!? O da sənə görə ağlını itirib. Səndən gözünü çəkmir.

İnamsız şəkildə gülümsəyirəm.

- Doğrudan?

- Məgər sənə deməyib?

- O, çoxdanışan deyil.

- Bəs sən?

- Elə mən də.

Günahkarcasına çiyinlərimi çəkirəm.

- Ana, kimsə ilk addımı atmalıdır, yoxsa sizdə heç nə alınmayacaq.

Axı necə… nə hiss elədiyimi ona necə danışım?

- Onu özümdən itələməkdən, qorxutmaqdan çəkinirəm.

- Ola bilsin ki, o da?

- Kristian? Məni qorxutmaqdan çəkinir? Məncə o, heç nədən qorxmur.

Sözümü tamamlaya bilmirəm, elə o dəqiqə Kristianı ürkmüş uşaq kimi təsəvvür edirəm. Ürəyim sıxılır.

Keyt mənə baxır, dodaqlarını sıxaraq və gözlərini daraldaraq; təhtəlşüurum da karıxıb, bircə eynəyi çatışmır.

- Siz çoxdan qabaq-qənşər oturub danışmalıydınız.

- Son vaxtlar çox az danışırıq.

Alışıb-yanıram. Səfehlikdir, qeydiyyatsız ünsiyyət digər söhbətlərdən heç də pis deyil. Hətta yaxşıdır.

Keyt gülümsəyir.

- Elə belə də bilirdim. Noolar, əgər yataqda işləriniz yaxşıdırsa, hesab elə ki, döyüşü udmusan. Yaxşı, gedib Çin yeməyi alım. Uçmağa hazırsan?

- Demək olar ki. Hələ iki saatım var.

- Yaxşı, iyirmi dəqiqəyə qayıdıram.

Keyt gödəkcəsini qapır və qapını bağlamağı unudaraq çıxıb gedir. Mən qapını onun arxasınca örtüb öz otağıma gedirəm və yolda onun sözləri barədə düşünürəm.


kitabyurdu.blogspot.com

Bəlkə, doğrudan da, Kristian öz hisslərindən qorxur? Əgər, əlbəttə, doğrudan da, onda bu hisslər varsa. Bəlkə bu, onun hökmran və fövqəlgüc dominant imicinin bir hissəsidir? Beynimdə son söhbətlərimizi yenidən nəzərdən keçirməsəm, rahatlanmaram. Ola bilsin ki, mən nəyisə nəzərdən qaçırmışam.

Mən də darıxacam. Sənin fikirləşdiyindən də möhkəm.

Sən məni ovsunlamısan, Ana.

Başımı yelləyirəm. Bu haqda indi düşünməyəcəm. ―Blekberri‖m enerji yığır. Ürkək addımlarla ona yaxınlaşıram. Bircə ismarış da yoxdur. Lənətə gəlmiş cihazı işə salıram, yenə də boşdur. ―E-mayl elə həminkidir, Ana,‖ – təhtəlşüurum gözlərini süzdürür və indi anlayıram, niyə göz süzdürdükdə Kristian məni şapalaqlamaq istəyir.

Di yaxşı, qoy e-mayl olsun.

Kimdən: Anasteyşa Stil

Mövzu: Müsahibə

Tarix: 30 may 2011, 18:49

Kimə: Kristian Qrey

Möhtərəm ser, müsahibələr yaxşı keçdi. Əgər Sizinçün maraqlıdırsa. Bəs sizin gününüz necə keçdi?


kitabyurdu.blogspot.com

Ana

Oturub ekrana baxıram. Adətən, Kristian mənə dərhal cavab verir. Gözləyirəm. Nəhayət, siqnal səslənir.

Kimdən: Kristian Qrey

Mövzu: Mənim günüm

Tarix: 30 may 2011, 19:03

Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Məşğul olduğunuz hər şey məndə təbii maraq oyadır. Siz dünyada ən diqqətəlayiq qadınsınız.

ġadam ki, müsahibələriniz uğurla keçdi. Səhərim unudulmaz keçdi. Onunla müqayisədə axşam qəmgin oldu.

Kristian Qrey, ―Qrey enterprayzes‖ şirkətinin baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Unudulmaz səhər

Tarix: 30 may 2011, 19:05

Kimə: Kristian Qrey


kitabyurdu.blogspot.com

Möhtərəm ser!

Masadakı misilsiz seksdən sonra Sizin ekstravaqantlığınıza baxmayaraq, mənim səhərim də ən yaxşı xatirələrlə yadda qaldı. Elə bilməyin ki, buna fikir vermədim.

Dadlı nahar yeməyi üçün çox sağ olun. Minnətdarlığımı missis Consa çatdırın.

Onun haqqında sizə suallarım var, məni səfeh yerinə qoymayın.

Ana

Barmağım ―Göndərmək‖ düyməsinin üzərində asılı qalır. Özümü inandırıram ki, qorxmalı heç nə yoxdur, axı sabah qitənin başqa bir ucunda olacam.

Kimə: Kristian Qrey

Mövzu: Nəşriyyat biznesi

Tarix: 30 may 2011, 19:10

Kimə: Anasteyşa Stil

Anasteyşa, əgər Siz ciddi şəkildə nəşriyyat biznesi ilə məşğul olmaq niyyətindəsinizsə, ―ekstraqavantlıq‖ kimi sözlərdən cəm halında istifadə


kitabyurdu.blogspot.com

etməməyi məsləhət görürəm. Misilsiz? Bunu nəyləsə əvəz edə bilərsiniz? Və bir də, missis Cons haqda nə öyrənmək istərdiniz? Maraqlıdır.

Kristian Qrey, ―Qrey enterprayzes‖ şirkətinin baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Siz və missis Cons

Tarix: 30 may 2011, 19:17

Kimə: Kristian Qrey

Möhtərəm ser!

Dil – canlı varlıqdır və daim inkişaf edir. Onu fil sümüyündən düzəldilmiş, rəngkarlıq şedevrləri ilə bəzədilmiş, damında Sietlin yarısının göründüyü helikopter meydançası olan qüllədə qadağan eləmək olmaz.

Misilsiz – əgər əvvəlki təcrübələrimizi xatırlasaq … həm də bu, Sizin sözlərinizdir… bəli, bəli, sizin… lənət şeytana. Seks həqiqətən misilsiz idi, vəssalam. Mənim acizanə rəyimcə, çünki bu məsələdə təcrübəm azdır.

Missis Cons keçmiş kənizinizdir?

Ana

Barmaq yenə də düymə üzərində ləngiyir. Basıram.


kitabyurdu.blogspot.com

Kimdən: Kristian Qrey

Mövzu: Nə dediyini fikirləş!

Tarix: 30 may 2011, 19:22

Kimə: Anasteyşa Stil

Anasteyşa!

Mən missis Consu əvəzedilməz işçi kimi qiymətləndirirəm, lakin onunla işgüzar münasibətdən başqa heç bir əlaqəyə qol qoymamışam. Birgə sekslə məşğul olduğum adamları heç zaman işə götürmürəm. Sizin sualınızdan şoka düşmüşəm. Bu istisna qaydası yalnız Sizə şamil edilməzdi, çünki Sizə qədər hər şeylə bərabər həm də müqavilələr bağlamaq sahəsində dahiyanə şəkildə qabiliyyətlərə malik olan bu qədər parlaq gənc qadına rast gəlməmişəm.

Amma əgər bundan sonra da oxşar ifadələrdən istifadə eləsəniz, öz rəyimi dəyişəcəm. Sizin seks sahəsindəki təcrübəsizliyiniz məni sevindirir. Əminəm, bundan sonra sözügedən məsələdə bilikləriniz yalnız mənimlə bağlı olacaq.

Misilsiz seks barədə sözlərinizi kompliment kimi qəbul etməyə razıyam, hərgah söhbət Sizdən getdikdə kinayəli, yaxud ciddi danışdığınızı müəyyən eləmək çətindir.

Kristian Qrey, ―Qrey enterprayzes‖ şirkətinin baş direktoru


kitabyurdu.blogspot.com

Fil sümüyündən düzəldilmiş qüllə

Kimdən: Anasteyşa Stil

Mövzu: Dünyasında mümkün deyil!

Tarix: 30 may 2011, 19:27

Kimə: Kristian Qrey

Əziz mister Qrey!

Gərək ki, mən təklifinizlə bağlı öz dəlillərimi sadalamışdım. O vaxtdan fikrim dəyişməyib və dəyişməyəcək də. İndisə sizinlə yazışmanı bitirməli olacağam, çünki Keyt yemək alılıb gətirib. Biz kinayəylə Sizə baş əyirik və şirin yuxular arzulayırıq.

Corciyadan yazaram.

Ana

Kimdən: Kristian Qrey

Mövzu: Doğrudanmı dünyasında mümkün deyil!

Tarix: 30 may 2011, 19:29

Kimə: Anasteyşa Stil

Salamat qalın, Anasteyşa!



kitabyurdu.blogspot.com

Əminəm ki, kinayənizlə birgə uçuşdan həzz alacaqsınız.

Kristian Qrey, ―Qrey enterprayzes‖ şirkətinin baş direktoru

Biz Sietl-Takomo beynəlxalq hava limanının baqajı təhvil vermə seksiyasının yanında dayanırıq. Keyt məni qucaqlayır.

– Barbadosda yaxşıca dincəl, Keyt.

– Qayıtdıqdan sonra görüşərik. O Qalın Cüzdanlının sənə üstün gəlməsinə imkan vermə.

– İmkan verməm.

Yenidən qucaqlaşırıq və mən tək qalıram. Mən qeydiyyat bölməsinə doğru gedir və əl yükü ilə növbəyə dururam. Çamadanım yoxdur, yalnız dəbli arxa çantası... onu ötən ad günümdə Rey mənə bağışlayıb.

– Biletiniz. – Soyuqqanlı əməkdaş mənə baxmadan ovcunu uzadır.

Elə mən də eyni biganəliklə bileti və sürücülük vəsiqəsini verirəm; pəncərə yanındakı yerə ümid edirəm.

– Siz biznes-klassa keçirilmişsiniz, miss Stil.

– Nə?

– Biznes-klass sərnişinləri üçün zala keçib gözləyə bilərsiniz, mem.

Yaxın dəqiqələrədək burnuyla eşələnən hava limanı əməkdaşı parlayır, sanki mən həm də hədiyyə gətirmiş Santa Klausam.

– Səhv etmirsiniz ki?



kitabyurdu.blogspot.com

– Yox, yox. – O, monitora baxıb bir daha yoxlayır. – Anasteyşa Stil, biznes-klass.

Sən bir işə bax. Gözlərimi qıyıram. Əməkdaş mənə eniş talonunu uzadır və mən biznes-klass sərnişinləri üçün olan gözləmə salonuna gedirəm; burunaltı da donquldanıram. Lənətə gəlmiş Kristian Qrey... müstəbid və tiran.


kitabyurdu.blogspot.com

## 22-ci fəsil

Manikür, masaj və iki qədəh şampan şərabı. Deyəsən, tezliklə dəbə uyğunlaşacam. –Moet‖in hər bir qurtumuyla Kristiandan işlərimə daha çox müdaxilə etməsini xahiş eləmək istəyirəm. –Mak‖ı açıram; planetin istənilən nöqtəsində onun fəaliyyət qabiliyyətli olduğunu yoxlamağı düşünürəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Həddən artıq bədxərclik haqqında

Tarix: 30 may 2011, 21:53

Kimə: Kristian Qrey

Əziz mister Qrey!


kitabyurdu.blogspot.com

Bu əhvalatda məni həqiqətən narahat eləyən hansı reyslə uçduğumu hardan öyrənmənizdir. Sizin izləmə həvəsiniz özünə sərhəd tanımır. Ümid edirəm ki, doktor Flinn tezliklə məzuniyyətdən qayıdacaq. Manikür, kürəyimin masajı, iki qədəh şampan şərabı tətilçün pis başlanğıc deyil.

Çox sağ olun.

Ana

Kimdən: Kristian Qrey

Mövzu: Həmişə qulluğunuzdayam

Tarix: 30 may 2011, 21:59

Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Doktor Flinn qayıdıb, bu həftə qəbuluna yazılmışam.

Masajı sizinçün kim elədi?

Kristian Qrey,

–Qrey enterprayzes‖ tərəfdaşları ilə lazımi yerdə və lazımi vaxtda

–Hə, indi dözümlü ol, payını verərəm. Reysimi elan edirlər, təyyarədən cavab verərəm. Belə təhlükəsiz olar,‖ – məni məkr hissi bürüyür.


kitabyurdu.blogspot.com

Biznes-klassda yetərindən artıq genişlik var. Əlimdəki şampanla pəncərə yanındakı dəri üzlüklü kürsüdə yayxanıram, salonsa yavaş-yavaş adamla dolur. Reyə zəng edirəm, tez xəbər verirəm – o, yatağa çox erkən girir – hara uçduğumu.

– Hələlik, ata!

– Hələlik, Ana. Anana salam de. Gecən xeyrə qalsın.

Reyin canı hələ suludur. –Mak‖a baxır, dəcəllik eləmək istəyirəm. Qapağı açır, poçt proqramını işə salıram.

Kimdən: Anasteyşa Stil

Mövzu: Güclü, bacarıqlı əllər

Tarix: 30 may 2011, 22:22

Kimə: Kristian Qrey

Möhtərəm ser!

Kürəyimi xoşsima bir cavan oğlan masaj edirdi. Hə, hə, çox xoşsima. Əgər səxavətiniz olmasaydı, heç vaxt Jan-Polla tanış ola bilməyəcəkdim, buna görə də bir daha çox sağ olun. Əmin deyiləm ki, burda uçuş vaxtı məktublar yollamaq olar, həm də gecə yarısına qədər doyunca yatmalıyam, ötən gecə yuxudan bir çimdik də oğurlaya bilməmişəm.

Yuxunuz şirin olsun, mister Qrey… Siz həmişə düşüncələrimdəsiniz.


kitabyurdu.blogspot.com

Ana

Oho, təsəvvür edirəm o necə cırnayacaq. Mənsə səmadayam, mənə əli çatmaz. Qoy yerini bilsin. Əgər biznes-klass olmasaydı, Jan-Pol kürəyimə toxuna bilməyəcəkdi. Yaxşı oğlandır: sarışın, qarabuğdayı. Həm də Sietldə? Yəqin ki, geydir, amma şübhələrimi Kristianla bölüşmək istəmirəm. Göndərilməyə hazır məktuba baxıram. Keyt haqlıdır. Onu özündən çıxarmaqdan asan heç nə yoxdur. Təhtəlşüurum gülümsəyir: doğrudan da, Kristianı cırnatmaq istəyirsən? Çox da əlləşmə. O, sənin qayğına qalıb, istəyib ki, komfortlu şəraitdə səyahət edəsən. Amma xəbərdar edə bilərdi! Onda qeydiyyat bölməsində səfeh duruma düşməzdim. Barmağımı klavişə basıram; özümü pis qız kimi hiss edirəm.

– Miss Stil, noutbukunuzu söndürməli olacaqsınız, – üzünü yetərindən artıq boyamış stüard-qadın nəzakətlə mənə müraciət edir. Diksinərək yerimdən atılıram, özümü günahkar hiss edirəm.

– Bağışlayın.

Zibil. İndi cavab verə bilib-bilməyəcəyindən xəbər tutmayacam.

Stüard-qadın yumşaq adyalı və dümağ dişlərini nümayiş etdirərək balışı mənə uzadır. Ayaqlarımı ədyalla örtürəm. Qayğına qalınma adama xoş gəlir.

Salon ağzınacan doludur – yanımdakı yer istisna olmaqla. Ola bilməz…

Doğrudanmı bu, Kristiançün nəzərdə tutulmuş yerdir? Lənət

şeytana. Yox, o, adamdan əl çəkən deyil. Əl çəkən deyil? Axı ona demişdim ki, tək uçmaq istəyirəm. Həyəcanla saata baxıram, pilotların kabinəsindən gələn cansız səs elan edir:

– Sərnişinlərdən kəmərləri bağlamağı xahiş edirik.

Bu nə deməkdir? İynə üstə oturmuşam. On altı sərnişinlik salonda yanımdakı kürsü yeganə boş yerdir. Təyyarə yerindən tərpənir və mən rahatlıqla köks ötürürəm. Amma sözün düzü, bir qədər məyus olmuşam. Kristiansız dörd gün! Ürkək nəzərlə öz –makǁıma baxıram.

Kimdən: Kristian Qrey

Mövzu: Nə qədər ki vaxt var, əylən

Tarix: 30 may 2011, 22:25

Kimə: Anasteyşa Stil

Əziz miss Stil!

Sizi ovcumun içindəki kimi görürəm, inanın, planınız tam baş tutdu. Gələn dəfə taxta qutuda uçacaqsınız, əl-qolu bağlı və ağzınızda tıxac. İnanın, bu, mənə çox həzz verəcək, nəinki sizi biznes-klassla yola salmaq. Qayıdışınızı həsrətlə gözləyirəm.

Kristian Qrey, dəli olmaq həddində olan –Qrey enterprayzesǁ şirkətinin başdirektoru

Poxa keçdik! Kristiandan baş açmaq olmur: zarafat edir, yoxsa ciddidir. Deyəsən, bu dəfə zarafat eləmir. Stüard-qadından xəlvətcə adyalın altında cavabı döyəcləyirəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Bu zarafatdır?

Tarix: 30 may 2011, 22:30

Kimə: Kristian Qrey

Bilmirəm, zarafat edirsən, ya yox? Əgər həqiqi sözündürsə, onda Corciyada qalacam. Taxta qutu lap ağ oldu. Səni hirsləndirdimsə, bağışla. De ki, məni bağışlayırsan.

Ana

Kimdən: Kristian Qrey

Mövzu: Zarafat

Tarix: 30 may 2011, 22:31

Kimə: Anasteyşa Stil


kitabyurdu.blogspot.com

Niyə təyyarədən yazırsan? Sən göyərtədəki adamların hamısını təhlükəylə üz-üzə qoyursan, o cümlədən özünü. Həm də bu, qaydalara ziddir.

Kristian Qrey, artıq həddi keçmiş ―Qrey enterprayzes‖ şirkətinin baş direktoru

Artıq həddi aşıram! ―Blekberri‖ni yığışdırır, kürsünün belinə dayaqlanıram və təyyarə yerdən ayrılana qədər ―Tess‖in didilmiş cildinə baş vururam – yol üçün azca yüngül mütaliə. Təyyarə havaya qalxdıqda, kürsünü bir azca geriyə çəkdirir və mürgüləyirəm.

Stüard-qadın məni oyadır, təyyarə Atlantaya eniş edir. Yerli vaxt: 5:45-dir, dörd saat yatmışam. Yuxudan tam ayılmamışam və bir stəkan portağal şirəsinə görə stüard-qadına minnətdaram. Narahat halda ―blekberri‖nin ekranına baxıram: Kristiandan ismarış yoxdur. İndi Sietldə təxminən gecə saat üçdür və güman ki, mobil telefonların, yaxud nəyinsə uçuş vaxtı elektron avadanlıqların işinə mane olmasını istəmir.

Atlantada bir saat gözləmək lazım gələcək və mən yenə də biznes-klassla uçmağın dadını çıxarıram: plüş divanlarda kömbə kimi yumrulanıram, bədənimin ağırlığı altında divan əyilir, amma yuxumu


kitabyurdu.blogspot.com

yarımçıq qoymaq istəyirəm və mürgüləməməkdən ötrü Kristiana uzun bir namə yazıram.

Kimdən: Anasteyşa Stil
Mövzu: Məni qorxutmaq xoşuna gəlir?
Tarix: 31 may 2011, ġərq vaxt qurşağı ilə 06:52
Kimə: Kristian Qrey

Bilirsən, mənə pul xərcləməyini xoşlamıram. Hə, sən çox varlısan, amma mən həmişə özümü naqolay hiss edirəm, sanki sən seksə görə pul ödəyirsən. Amma etiraf eləyim ki, biznes-klassla səyahət xoşuma gəldi. Bir daha çox sağ ol. Masajdan həqiqətən həzz aldım. Jan-Pol yaxşı oğlandır, gey olsa da. Bunu əvvəlki ismarışlarımda qeyd eləməmişəm, çünki məni hirsləndirmişdin. Bağışla.

Lakin sən, həmişəki kimi, hər şeyi ürəyinə saldın. Niyə yazdın ki, əl-ayağımı bağlayıb məni taxta yeşiyə salacaqsan? (Sən zarafat eləmişdin, düzdür?) Amma mən qorxdum… məni qorxutdun. Sənə görə dəli oluram, yeni həyat tərzinə uyğunlaşmağa çalışıram, ötən ġənbə gününədək onun barəsində heç nə bilmirdim, amma son ismarışından sonra səndən dünyanın axırına qaçmaq istəyirəm.

Əlbəttə, heç yerə qaçmayacam, çünki sənə çox bağlanmışam. Səninlə hər şeyə hazıram, amma məni üzərində əldə elədiyin hakimiyyət və məni cəlb eləmək istədiyin qaranlıq cığırlar qorxudur. Seksdə eksperimentlər etmək xoşuma gəlir, amma fiziki və mənəvi ağrı verəcəyindən qorxuram. Əgər üç ay sonra məni atsan, başıma nə iş gələcək? İstənilən münasibətlər ayrılıqla nəticələnə bilər, amma heç vaxt fikirləşməmişəm ki, ilk təcrübəm belə olacaq. Sən məni çox şeyi yenidən düşünüb-daşınmağa məcbur etmisən.

Deyirsən ki, mən kölə doğulmamışam. Bu həqiqətdir, bununla belə, səninlə olmaq istəyirəm və bundan ötrü hər şeyə hazıram. Bircə bundan ehtiyatlanıram ki, buna baş qoşacam və qançırlarla birgə buna heç dözə bilmərəm.

Mənə daha çox şey vermək cəhdlərinə görə xoşbəxtəm. Amma hara qədər olacaq bu? Mən buna hazırammı? Bütün bunları düşünüb-daşınmalı, buna görə də tək-tənha olmalıyam. Səninlə bir yerdə olduqda başımı itirir və dərk etmək gücündə olmuram. Reysimi elan edirlər, getmək vaxtıdır.

Vidalaşmıram.

Sənin Anan


kitabyurdu.blogspot.com

Məktubu göndərir və yuxulu halda ayaqlarımı təyyarəyə doğru sürükləyirəm. Biznes-klassda altı yer var və biz havaya qalxdıqda yumşaq adyala bürünür mürgüləyirəm.

Gözlərimi qapatmağa macal tapmıram, stüard-qadın məni oyadır, növbəti portağal şirəsi stəkanını təklif edir, Savanna hava limanına yetişmək üzrəyik. ġirəni xırda qurtumlarla içir və özümü həyəcandan çəkindirirəm. Anamı altı aydır ki görmürəm. Gözümü –blekberri‖yə ötəri yönəldərək Kristiana uzun, əlaqəsiz cümlələrdən ibarət namə göndərdiyimi xatırlayıram. Cavab yoxdur. Sietldə sübh saat beşdir, əminəm ki, o hələ də yatır, pianoda kədərli melodiyalar ifa eləmir.

Yüngül yüklə səyahətin üstünlüyü ondan ibarətdir ki, baqajı gözləməli olmursan. Arxa çantanı belinə at, vəssalam, azadsan. Biznes-klassla səyahətin həzzi ondadır ki, səni təyyarədən ilk sırada endirirlər.

Anam və Bob artıq məni gözləyirlər. Onları görməyə çox şadam. Bilmirəm bunun günahı nədədir: üzülmə, uzun uçuş, yaxud Kristianla bağlı qayğılar, amma anamı bağrıma basdıqda gözlərim yaşlanır.

– Ah, Ana, qızım, yorulmusan? – O, həyəcanlı halda Bobla baxışır.

– Yox, ana, elə darıxmışam ki! – Onu möhkəm qucaqlayıram.

Anamdan sevgi və ev qoxusu gəlir. Onu həvəssiz buraxıram və Bob naqolay şəkildə məni bir əliylə qucaqlayır. O, inamsız dayanıb; mən onun zədələnmiş ayağını xatırlayıram.

– Xoş gəlmisən, Ana. Niyə ağlayırsan? – Bob soruşur.

– Sadəcə səni görməyə şadam, Bob.

Onun xoş siması var, kvadrat çənə, diri mavi gözlər mənə hərarətlə baxır. ―Bu ərin xoşuma gəlir, ana, ondan muğayat ol.‖

Bob çantamı götürür.

– Aman Tanrım, Ana, çantaya kərpic yığmısan?

Çandatakı ―mak‖dır. Biz qucaqlaşaraq dayanacağa doğru gedirik.

Savannada necə isti olduğunu həmişə unuduram. Hava limanının kondisionerli binasından çıxaraq, Corciyanın bürküsünə düşürük. O-o, lap hamamdakı kimidir! Gödəkcəni çıxarıram, şorlu özümlə götürdüyümə sevinirəm. Hərdən Veqasın isti, quru havası üçün darıxıram: anam və Bobla orda yaşamışıq, on yeddi yaşım olanda, amma rütubətli bürküyə (saat doqquzdur!) alışmaq gərəkdir. Bobun kondisionerli yolsuzluq avtomobili ―Taxo‖ya yetişənədək artıq tərləyirəm, saçlarıma nəmişlikdən burulmağa başlayır. Cipin arxa oturacağında Reyə, Keytə və Kristiana SMS-lər göndərirəm: ―Rahat çatdım. Savannadan salamlar. A:)‖

Düşüncələrim məni Xoseyə qaytarır və onun gələn həftə olacaq şousunu xatırlayıram. Kristianı ora dəvət etməliyəmmi? Sonuncu məktubumdan sonra Kristian mənimlə məşğul olmaq istərmi? Diksinir və bu fikri başımdan qovuram. Bunu sonra fikirləşərəm, indisə həzz almaq niyyətindəyəm.


kitabyurdu.blogspot.com

– Qızım, yorulmusan, bəlkə dincəlmək istəyirsən?

– Yox, ana, çimərliyə getmək istəyirəm.

Mavi bretelli ―tinkini‖də ―Kola-Diet‖i içirəm. Atlantik okeanını seyr edir və xatırlayıram ki, hələ dünən Sakit okeana tamaşa edirdim. Anam yanımda enli yanları olan şlyapa və qara eynəkdə oturub. Biz evdən üç məhəllə o yanda yerləşən Taybi-aylend-biç çimərliyindəyik. Anam əlimdən tutub. Günəş bir anda yorğunluğumu çıxarıb və indi sümüklərim isinib, üstəlik rahatam. Uzun müddətdən sonra ilk dəfə gərginlik yox olub.

– Hə, indi də səni büsbütün dəyişdirmiş o oğlan haqqında danış.

―Məni büsbütün dəyişdirmiş!‖ O hardan bilir? Həm də nə danışa bilərəm ki? Məni məxfiliyin qorunması haqda bənd çəkindirir, amma o ləğv edilməsə belə, Kristianla münasibətlərimiz barədə nəsə danışmağa cəsarət edə bilmərəm. Rəngim qaçır.

– Hə? – O, əlimi sıxır.

– Onun adı Kristiandır. O, çox gözəl və zəngindir... çox zəngindir. Həm də çox mürəkkəb adamdır və dəymədüşər.

Özümlə inanılmaz şəkildə fəxr edirəm ki, Kristianı qısa və dəqiq təsvir elədim. Anama tərəf çevrilir və onun aydın mavi gözlərinin diqqətli baxışları ilə üzləşirəm.


kitabyurdu.blogspot.com

– –Mürəkkəb və dəymədüşər‖... bir az aydın danışa bilərsən?

O-o yox…

– Onun əhvali-ruhiyyəsinin dəyişmələrini tuta bilmirəm. Uşaqlığı çətin keçib, buna görə də çox qapalı adamdır.

– O xoşuna gəlir?

– Həm də çox-çox.

– Doğrudan?

– Hə, ana.

– Kişilər elə də mürəkkəb varlıq deyil, əzizim. Onlar sadə və öncədən anlaşılandır. Adətən, fikirləşdiklərini ucadan deyirlər, bizsə sözlərin sətiraltı mənasını anlamaqdan ötrü saatlarla vaxt sərf edirik. Sənin yerində olsaydım, onu daha sadə şəkildə dərk eləyərdim.

Mən təəccüblə anama baxıram. Pis məsləhət deyil a! Kristianı pyedestala qaldırmamaq, olduğu kimi dərk etmək... Onun sözlərini xatırlayıram:

Səni itirmək istəmirəm…

Məni ovsunlamısan …

Mənə sahib olmusan…

Mən də darıxacam… fikirləşdiyindən də çox…


kitabyurdu.blogspot.com

Anama baxıram. Dördüncü nikah. Ola bilsin ki, onun kişilər barədə rəyinə doğrudan-doğruya qulaq kəsdirmək gərəkdir.

– Kişilərin əksəriyyəti özündən tez çıxır. Götürək elə sənin atanı…

Onun gözlərində hərarət və qüssə görünür. Mənim tanımadığım həqiqi atam təlimlərdə həlak olmuş dəniz piyadasıdır. Bəlkə anam bütün həyatı boyu ona bənzəyən kişi axtarıb? Ola bilsin ki, məhz Bobda bu oxşarlığı görə bilib. Təəssüf ki, Reydə yox.

– Mən fikirləşməyə alışmışam ki, onun mürəkkəb xarakteri var, amma geriyə baxaraq anlayıram ki, o, işə çox vaxt ayırır ki, bizi layiqli dolanışıqla təmin eləsin. – O, ah çəkir. – O vaxt hər ikimiz elə cavan idi ki. Bəlkə də hər şeyin səbəbi buydu.

Hm… Kristian artıq yeniyetmə deyil. Ürəkdən gülümsəyirəm. Atamı xatırlayarkən anam həmişə sentimentallaşır, amma deyəsən, Kristianı mühakimə eləmir.

– Bob bizi şam yeməyinə dəvət eləyir. Qolf-kluba.

– Ola bilməz! Bob artıq oynayır? – şübhəylə gülümsəyirəm.

– Heç demə, – anam gözlərini süzdürərək köks ötürür.

Yüngül lençdən sonra evə qayıdırıq, çantamı açıb içindəkiləri çölə tökürəm. Anam çıxıb gedir ki, bir-iki şam düzəldə bilsin, Bob işdədir və mənim mürgüləməkçün bol vaxtım var. –Mak‖ı açıram. Corciyada günorta

saat ikidir, Sietldə on bir. Maraqlıdır, Kristian məktubuma cavab yazıbmı? Əsəbi halda poçt proqramını işə salıram.

Kimdən: Kristian Qrey
Mövzu: Nəhayət ki!
Tarix: 31 may 2011, 07:30
Kimə: Anasteyşa Stil

Anasteyşa! Məni əsəbiləşdirən odur ki, sən yalnız bir-birimizdən uzaq olduqda etiraflara başlayırsan. Səninlə yanaşı olduqda safürəkli və səmimi olmana nə mane olur? Bəli, mən zəngin adamam. Buna alış. Niyə sənə pul sərf edə bilmərəm? Tanrı xətrinə, axı atana etiraf elədik ki, mən boyfrendinəm! Məgər boyfrendlər özlərini başqa cür aparır? Bir dominant kimi gözləyirəm ki, dinməz-söyləməz sənə verdiklərimin hamısını qəbul edəsən. söz düşmüşkən, haqqımda anana danışmağı unutma.

Özünü fahişə kimi hiss etmənə dair sözündən lap karıxmışam. Bu haqda açıq yazmasan da, eyhamı anladım. Səni fikrindən daşındırmaq üçün nə etməli, yaxud nə deməli olduğumu bilmirəm. İstəyirəm ki, hər şeyin yaxşıdan-yaxşı olsun. Mən gecə-gündüz işləyirəm və pulu istədiyim kimi xərcləmək haqqına malikəm. Sənin ən ümdə arzularını gerçəkləşdirə bilərəm, Anasteyşa; mən onları həyata keçirəcəm. Bunu var-dövlətin ədalətli

bölgüsü adlandır. Bil ki, səni fahişə hesab eləmək ağlıma belə gəlmir, sənin özünü məhv etmən isə dözülməzdir. Bu cür parlaq, zəkalı və gözəl gənc qadın özünü bu qədər ucuz tutmamalıdır və mən səni buna görə doktor Flinnin qəbuluna yazdırmaq istəyirəm.

Bağışla ki, səni qorxutdum. Özüm özümə nifrət edirəm. Sən də doğrudan elə bildin ki, yük bölməsində uçacaqsan? Tanrı xatirinə, axı sənə şəxsi təyyarəmi təklif eləmişdim! Bağışla, zarafatım yersiz olub. Amma gizlətməyəcəm, əl-ayağın bağlı və ağzında tıxacla səni təsvir elədikdə ehtiraslanıram (və bu zarafat deyil). Yeşiksiz keçinərik, o mənə lazım deyil. Bilirəm, səni boğulma qorxudur, bunu artıq müzakirə eləmişik və iznin olmadan heç vaxt buna əl atmaram. Sən əsas şeyi anlamırsan: dominant və kölənin münasibətlərində məhz sonuncu hakimiyyətə malik olur. Təkrar edirəm, mən yox, məhz sən tam hakimiyyətə malik olursan. Qayıqlar üçün anbarda mənə ―yox‖ dedin. Əgər ―yox‖ deyirsənsə, sənə toxuna bilmərəm, məhz buna görə də müqavilə imzalayırıq. Oyunlarımızdan hansısa xoşuna gəlməsə, bunu müzakirə edərik. Bu yalnız səndən asılıdır. Əgər əl-ayağı bağlama və boğulma xoşuna gəlmirsə, qoy sən deyən olsun.

Səninlə öz dünyamı bölüşmək istəyirəm... heç zaman olmadığı kimi istəyirəm. Sənə pərəstiş edirəm. Sənin kimi yoldan çıxmamış bir qızın eksperimentlərdən qorxmaması mənə qeyri-adi görünür. Bunun mənimçün nə qədər mühüm olduğunu anlamırsan. Dəfələrlə təkrarlamışam ki, məni


kitabyurdu.blogspot.com

ovsunlamısan. Səni itirmək istəmirəm. Məni qayğılandıran budur ki, sən üç min mil yol qət etməyə hazırsan, yalnız ona görə ki, mənim yanımda iradəni itirirsən. Mənimlə də eyni şey baş verir. Sən yanımda olduqda ağlımı itirirəm.

Qorxularını başa düşürəm və səndən mümkün olduqca uzaq olmağa çalışacam. Əgər sənin nə dərəcədə təcrübəsiz olduğunu bilsəydim, heç vaxt izləməzdim səni, amma yalnız sən məni ram edə bilmisən. Məsələn, məktubunu götürək: onu dönə-dönə oxudum ki, hisslərini anlayım. Səni üç aylıq müddət qayğılandırır? Onu yarım, yaxud bir il uzatmaq istəyirsən? bu haqda qərar ver. Səni hansı müddət qane edər? Yalnız bunu demən kifayətdir.

Anlayıram ki, mənə etibar etmən çətindir. Ancaq sənin etibarını qazanmalıyam, amma sən də qılaflanmamalısan, mənə kömək etməlisən. özünü sərbəst aparırdın, amma məktubun isbatladığı ki, əminliyin saxtadır. Biz bir-birimiz haqda hələ çox şey öyrənməliyik və yardımın olmadan səni anlaya bilməyəcəm. Mənimlə səmimi ol, Anasteyşa və birlikdə biz bütün çətinlikləri adlayacağıq.

Narahat olursan ki, kölə doğulmamısan. Yəqin ki haqlısan, deməli, bu rolu ancaq oyun otağında oynayacaqsan. Amma orda mənim hakimiyyətimə tabe olmalı olacaq və buyurduğumu edəcəksən. Buna –xüsusi durumlar‖ adı verək. Sən hansı qançırdan danışırsan? Mən incə

qırmızılıq tərəfdarıyam. Oyun otağının hüdudlarından kənarda özünü kobud apara bilərsən. Bu yeni, alışılmamış davranışdır və qoy beləcə də qalsın.

Beləliklə, tələb et! Sənin istəklərinə anlaşıqlı yanaşacam və nə qədər ki Corciyadasan, sənə təzyiq göstərməyəcəm. Cavab məktubunu intizarla gözləyirəm; əylən, amma çox yox.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Lənət şeytana! O, xalis inşa yazısı yazıb, lap orta məktəbdə yazdıqlarımız kimi, həm də çox yaxşı. ―Mak‖la qucaq-qucağa çarpayıda uzanmışam və onun ismarışını dönə-dönə oxuyuram. Ürəyim dəlicəsinə döyünür. Bir illik müqavilə? Mən qalib gəldim! İlahi, doğrudanmı güzəştə getməyə hazıram? Onu olduğu kimi qəbul et. Bəlkə anamın sözlərinə qulaq kəsdirim? O, məni itirmək istəmir, özü dedi! İstəklərimə anlamlı yanaşmağa hazırdır. Mən də, Kristian, sənin istəklərinə anlamlı yanaşmağa!.. mümkün olduğu qədər uzaq qalmağa çalışacam! Belə çıxır ki o, özünə inanmır? Qəfildən məndə onu görmək istəyi baş qaldırır. Biz bir gündən də az müddət əvvəl ayrılmışıq və Kristianı hələ dörd gün görməyəcəyimi xatırlayıb necə darıxdığımı anlayıram. Və onu necə sevdiyimi...

– Ana, əzizim! – Anamın səsi sevgi və ötən günlərlə bağlı şirin xatirələrlə dolub-daşır.

Zərif əl yanaqlarımı sığallayır. Noutbuku qucaqlayaraq çarpayıda uzanmışam.

– Ana, qızım, – solğun-qırmızı günəş şüaları altında yuxudan qalxaraq gözlərimi döydüyüm bir vaxtda melodik səs davam edir.

– Salam, ana.

Qəddimi düzəldir və gülümsəyirəm.

– Yarım saatdan sonra gedirik. Fikrini dəyişməmisən? – xəfifcə soruşur o.

– Yox-yox, sizinlə olacam. – Əsnəməmi nə qədər gizlətmək istəsəm də, alınmır.

– Əcəb cihazdır. – O, noutbukuma işarə edir.

O-o, lənət şeytana!

– Bu… – saxta qayğısızlıqla deyirəm.

Gördü? Boyfrendim peyda olandan ondan heç nə gizlətmək olmur.

– Kristian borca verib. Bununla kosmosa da uça bilərsən, indi məktubu göndərib internetdən çıxacam.

Burda nə var ki? ġübhəli nəzərlə mənə baxıb anam çarpayıya oturur və sürüşən tellərimi qulağımın arxasına keçirir.

– O, sənə məktub yazır?

O-o, lənət, lənət!

– Hə.

Qayğısız görkəmimdən heç nə qalmadı və mən rəng alıb-rəng verirəm.

– Yəqin darıxır.

– Yəqin ki, ana.

– Nə haqda yazır?

Ah, lənət, lənət, lənət!

Həyəcanla Kristianın məktubundan hansı sətirləri ucadan oxuya biləcəyimi düşünürəm. Çətin ki. dominant, əl-ayaq bağlama və boğma haqqında mülahizələr anamın xoşuna gəlsin, üstəlik məxfiliyin qorunması haqda bənd var.

– Yazıb ki, yaxşıca dincəlim, amma çox da uzun müddət olmasın.

– Onun sözlərində ağlabatan fikirlər var. Di yaxşı, mən gedim, sən də hazırlaş.

Anam əyilir və alnımdan öpür.

– ġadam ki gəldin, Ana. Çox darıxmışdım.

Hm, Kristian və ağlabatan fikirlər... buna qədər elə bilirdim ki, bu ifadə öz-özlüyündə istisnadır, amma son məktubdan sonra Kristiana şans verməyə hazıram. Başımı yelləyirəm. Onun mülahizələrini həzm eləmək


kitabyurdu.blogspot.com

üçün mənə vaxt lazımdır. ġam yeməyindən sonra cavab verərəm. ġortu, futbol köynəyini əynimə keçirirəm və birbaş duş almağa...

Keytin bretelli boz donunu özümlə götürmüşəm; onu buraxılış mərasimində də geymişdim. Qarderobumdakı yeganə xalis don... Rütubətli havanın bircə şeyi xoşdur ki. donun büzmələri öz-özünə hamarlanır. Qolf-kluba yaraşan paltardır. Geyinirəm, noutbuku işə salıram. Məktub yoxdur. Kədərlənir və ismarış göndərirəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Çoxlu hərf

Tarix: 31 may 2011, 19:08 ġVQ[1]

Kimə: Kristian Qrey

Ser, Siz alışılmamış dərəcədə çox danışmısınız. Mən Bobun qolf klubunda şam yeməyinə getməyə hazırlaşıram və bu fikirdən gözlərimi süzdürürəm. Amma qəzəbinizlə birgə məndən çox uzaqdasınız, buna görə də g..üm təhlükəsizlikdədir. Məktubunuza heyran qalmışam. İmkan olan kimi cavab yazacağam. Artıq darıxıram.

---

[1] Şərq Vaxt Qurşağı

Axşamınız xeyirli olsun.

Sizin Ana

Kimdən:Kristian Qrey

Mövzu:Sizin g..ünüz

Tarix: 31 may 2011, 16:10

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, məktubunuzun başlığı məni pərişan elədi. İndi təhlükəsiz yerdə olmanızı xatırlatmaq yersizdir. Bu, müəyyən vaxta qədərdir. ġam yeməyiniz nuş olsun. Mən də darıxıram, xüsusən sizin g..ünüz və kobud ağzınız üçün. Axşama heç bir əyləncə ümidi yoxdur, yalnız Sizin və süzülən gözləriniz barədə xatirələrlə təskinlik tapmaq qalır. Deyəsən, məhz Siz bir dəfə demişdiniz ki, bu lənətə gəlmiş vərdişə yaman meyilliyəm.

Kristian Qrey, baş direktor və ―Qrey enterprayzes‖in baş göz süzdürəni

Kimdən: Anasteyşa Stil

Mövzu: Göz süzdürmə

Tarix: 31 may 2011, 19:14 ġVQ

Kimə: Kristian Qrey

Möhtərəm mister Qrey, bəsdir mənə yazdınız! Mən artıq şam yeməyinə gecikirəm. Hətta qitənin o biri ucunda məni utandıra bilirsiniz. Həm də söz düşmüşkən, gözlərinizi süzdürərkən Sizi kim şapalaqlayır?

Sizin Ana

Məktubu göndərir və dərhal bu zalım ifritəni – missis Robinsonu təsəvvürümə gətirirəm. Anam yaşında olan qadın Kristianı şapalaqlayır!.. Mənə gəlincik verin, onu iynəylə dəlik-deşik edəcəyəm!

Kimdən: Kristian Qrey

Mövzu: Sizin g..ünüz

Tarix: 31 may 2011, 16:18

Kimə: Anasteyşa Qrey

Əziz miss Stil, bir çox səbəblərə görə mən köhnə başlıqdan imtina etməmək qərarına gəldim. Bəxtim gətirib ki, özüm özümə ağayam və kimsə davranışımı tənqid eləmir. Anamdan və doktor Flinndən başqa. Və Sizdən...

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Mən... tənqid edirəm?

Tarix: 31 may 2011, 19:22 ģVQ

Kimə: Kristian Qrey

Möhtərəm ser!

Sizi mühakimə etməyə nə vaxt cəsarət göstərmişəm, misret Qrey? Mənə elə gəlir ki, Siz məni kimləsə səhv salmısınız… bu, yetərincə həyəcanlıdır. Amma doğrudan-doğruya gecikirəm.

Sizin Ana

Kimdən: Kristian Qrey

Mövzu: Sizin g..ünüz

Tarix: 31 may 2011, 16:25

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, öz məktublarınızda Siz yalnız məni tənqid eləməklə məşğulsunuz. İcazə verin, paltarınızın yaxasını açım?

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru



kitabyurdu.blogspot.com

Bilmirəm onda bu necə alınır, amma məni əsməcə tutur. O… oyun oynamaq istəyir.

Kimdən: Anasteyşa Stil
Mövzu: On altı yaşına qədər olan uşaqlar
Tarix: 31 may 2011, ġVQ
Kimə: Kristian Qrey

Paltarın yaxasını yaxşı açın.

Kimdən: Kristian Qrey
Mövzu: özünüz bilərsiniz…
Tarix: 31 may 2011, 16:31
Kimə: Anasteyşa Stil

YAXASINI AÇARAM A…
Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil
Mövzu: Karıxmış halda
Tarix: 31 may 2011, 19:33 ġVQ


kitabyurdu.blogspot.com

Kimə: Kristian Qrey

Yavaş-yavaş…

Kimdən: Kristian Qrey

Mövzu: İniltimi güclə saxlayıram

Tarix: 31 may 2011, 16:35 Kimə:

Anasteyşa Stil

Axı niyə yanında deyiləm?

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Göz yaşları içində

Tarix: 31 may 2011, 19:40

Kimə: Kristian Qrey

NİYƏ SƏNDƏN UZAQLARDAYAM?

– Ana! – Anamın səsi məni diksinməyə məcbur eləyir. Lənət şeytana. Günahkarlıq hissi mənə əzab verir.



kitabyurdu.blogspot.com

– Gəlirəm. ana!

Kimdən: Anasteyşa Stil

Mövzu: Ağlayaraq

Tarix: 31 may 2011, 19:41

Kimə: Kristian Qrey

Getməliyəm.

Hələlik, balaca.

Holla çıxıram, anam və Bob orda məni gözləyirlər. Anam həyəcanla qaşlarını çatır.

– Əzizim, qıpqırmızı qızarmısan. Xəstələnməmisən ki?

– Yox, hər şey yaxşıdır. Bu, Keytin donudur. Xoşuna gəlirmi?

Anam daha möhkəm şəkildə qaşlarını çatır.

– Niyə onun paltarlarını geyinirsən?

Mən... yox.

– Mənim xoşuma gəlir, Keytinsə çox da yox, – yolüstü uydururam.

Bob günahkar görkəmlə qapıda dayanıb, bizi ac baxışlarla yeyir.

– Sabah mağazalara baş vurarıq, – anam deyir.

– Lazım deyil, ana, pal-paltarım çoxdur.


kitabyurdu.blogspot.com

– Məgər öz doğma qızıma hədiyyə edə bilmərəm? Gedək, Bob acından ölür.

– Çoxdan, – Bob inləyir, qarnını sığallayır və üzünü turşudur.

Mən qaqqıldayıram və biz küçəyə çıxırıq.

Daha sonralar, ılıq duş altında sərinləməyə çalışaraq anamın necə dəyişməsi haqda düşünürəm. ġam yeməyi zamanı kefi yerindəydi, zarafat və qolf-klubdakı dostları ilə dilxoşluq edir. Bobsa qayğıkeş və diqqətcildir. Onlar bir-biri üçün yaranıblar. Anamçün sevinc hissi keçirirəm. Artıq narahat olmaya və geriyə sayaraq ötən hərəkətlərini təhsil etməyə bilərəm. Deyəsən, üçüncü evliliyinin sərt dönəmi arxada qalıb. O, Bobdan ikiəlli yapışmalıdır. Həm də mənə dəyərli məsləhət verib. Bu dəyişikliklər nə vaxt başlayıb? Kristianla üzləşdiyim zamandan. Niyə belə alınıb?

Qurulanıram, ona qayıtmağa tələsirəm. Məni oxunmamış məktub gözləyir; o, iki saat əvvəl, gedişimdən sonra göndərilib.

Kimdən: Kristian Qrey

Mövzu: Plagiat

Tarix: 31 may 2011, 16:41

Kimə: Anasteyşa Stil



kitabyurdu.blogspot.com

Mənim preplikamı oğurlamısınız.

Və məni asılı vəziyyətdə qoydunuz.

Nuş olsun.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Gör bunu kim deyir a!

Tarix: 31 may 2011, 22:18 ġVQ

Kimə: Kristian Qrey

Ser, əslində bu, Eliotun misrasıydı. Sizi nədən asılı qoymuşam?

Sizin Ana

Kimdən: Kristian Qrey

Mövzu: Natamam iş Tarix:

31 may 2011, 19:22 Kimə:

Anasteyşa Stil

Miss Stil, qayıtmışsınız!.. Məni elə qəfil və yersiz məqamda yalqız qoydunuz ki. Eliotdan iqtibas heç də orijinal deyil. Yüzəyüz o, bu misranı kimdənsə oğurlayıb. ġam yeməyi necə keçdi?

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Natamam?

Tarix: 31 may 2011, 22:26 ġVQ

Kimə: Kristian Qrey

ġam yeməyi doydurucu idi. Qarınqululuq etməyimi bilib sevinəcəksiniz. Necə yəni yersiz məqamda?

Kimdən: Kristian Qrey

Mövzu: Məhz bu

Tarix: 31 may 2011, 19:30

Kimə: Anasteyşa Stil

Özünüzü bilərəkdən axmaq yerinə qoyursunuz? Mənə elə gəldi ki, məndən paltarınızın yaxasını açmağı xahiş elədiniz. Davamını gözləyirdim. Heç olmasa, nadir hallarda nəsə yeməniz şadam.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Bununçün istirahət günləri var

Tarix: 31 may 2011, 22:36 ġVQ

Kimə: Kristian Qrey

Əlbəttə, yeyirəm! Yalnız yanınızda hiss elədiyim naqolaylıq məni qidadan imtinaya məcbur edir. Mən heç vaxt bilərəkdən özümü səfeh yerinə qoymuram, mister Qrey. Ümid edirəm, bunu özünüzçün aydınlaşdırmısınız.

Kimdən: Kristian Qrey

Mövzu: Həsrətdən ölürəm

Tarix: 31 may 2011, 19:40

Kimə: Anasteyşa Stil

Aydınlaşdırdım, miss Stil və şübhə etməyin, gələcəkdə bu bilikdən istifadə edəcəyəm. Mənim yanımda qidadan imtinanızın səbəbini bilmək kədərlidir. Fikirləşirdim ki, varlığım Sizdə başqa, şəhvani hisslər oyadır. Görüşümüzün intizarındayam.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru



kitabyurdu.blogspot.com

Kimdən: Anasteyşa Stil

Mövzu: ġəhvani?

Tarix: 31 may 2011, 22:36 ġVQ

Kimə: Kristian Qrey

Yenə də izahlı lüğətdə qurdalanmısınız?

Kimdən: Kristian Qrey

Mövzu: Əsəbi halda

Tarix: 31 may 2011, 19:40

Kimə: Anasteyşa Stil

Siz məni yaxşıca öyrənmisiniz, miss Stil.

İndisə köhnə dostumla şam yeməyinə hazırlaşıram. Hələlik, balaca (c)

Kristian Qrey, –Qrey enterprayzes‖in baş direktoru

Bu, nə köhnə dost məsələsidir belə? Kristianın dostlarının qaldığını bilmirdim... ondan başqa. Xoş deyil. Doğrudanmı o, həmin qadınla indiyəcən görüşür? Məni yandırıcı yaşıl qısqanclıq dalğası bürüyür. Kimisə,


kitabyurdu.blogspot.com

hamıdan çox da missis Robinsonu vurmaq istəyirəm. Noutbukun qapağını endirib adyalın altına girirəm.

Onun uzun səhər məktubuna cavab vermək lazımdır, amma mən çox acıqlanmışam. Doğrudanmı o başa düşmür ki, bu qadın azyaşlıların əxlaqını pozan bir adamdır? İşığı söndürür və qəzəbdən qaynayıb-daşaraq zülməti seyr edirəm. O, hansı haqla biçarə yeniyetməni təhqir edib? Doğrudanmı həmin qadın hələ də əməllərindən əl çəkməyib? Onlar niyə daha görüşmürlər? Doğrudanmı o, bundan dərs almayıb? Niyə o, hələ də həmin qadınla görüşür? Bəs qadın? Ərdədir? Boşanıb? İlahi, bəs uşaqlar? Onun uşaqları varmı? Uşaqlar Kristiandandır? Təhtəlşüurum baş qaldırır, qəzəblə gülümsəyir. Ürək bulantısı boğazıma gəlib çatır. Doktor Flinnin həmin qadın haqda məlumatı varmı?

Çarpayıdan atılaraq qalxır və yenidən lənətə gəlmiş maşını işə salıram. Barmaqlarım qıcıqlı halda qapağı döyəcləyir – kompüter yüklənənə qədər. ―Kristian Qrey‖i axtarışa verirəm Google-da. Ekranı Kristianın fotoşəkilləri doldurur: kəpənək qalstukda, axşam kostyumunda… İlahi, bu ki Xosenin ―Hitman‖ otelində çəkdiyi şəkillərdir! Kristian ağ köynək-şalvarda. Bu şəkillər internetə necə düşüb? İlahi, o necə də yaraşıqlıdır!

Fotoşəkilləri bir-bir nəzərdən keçirirəm. Bəzilərində o, biznes həmkarlarıyla birgədir, biri o birindən gözəl. Necə olur-olsun, Kristian dünyada ən fotogenik kişidir. Yaxından tanıdığım kişi. Yaxından? Bəlkə

yanılıram? Mən yalnız onun yataqda necə olduğunu bilirəm və daha çox şey bilmək istəyirəm. Kristian dəyişkəndir, qaraqabaq, hazırcavab, biganə, ehtiraslı... ziddiyyətlərin yeriyən yığını.

Növbəti səhifə. O, hər yerdə təkdir və mən Keytin Kristianın gölfrendi ilə bircə fotoşəklini belə tapmadığına əsasən gey olduğunu düşünməsini xatırlayıram. Üçüncü səhifədə Kristianla birgə fotoşəklim var: bu, buraxılış mərasimimdə çəkilib. Onun qadınla birgə olduğu yeganə foto və bu qadın – mənəm.

İşə bir bax! Mən Google-dayam! Bir yerdə olduğumuz şəklə bir daha baxıram. Fotoqraf məni yaman yerdə yaxalayıb. Mən xəcalət içində və həyəcanlıyam. İndi Kristiana deyəcəyəm ki, sınamağa hazıram. Kristiansa əksinə, özünə hakim və çox yaraşıqlıdır. Boynunda həmin o qalstuk var. Onun gözəl çöhrəsinə baxıram: bu an o, lənətə gəlmiş missis Robinsonla üz-üzədir! Fotoşəkli yadda vuraraq digər on səkkiz səhifəni vərəqləyirəm. Google-da missis Robinson yoxdur. Amma onun kimlə şam yeməyi yeməsini bilməliyəm! Kristiana kiçik naməni döyəcləyirəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: ġam yeməyi üçün yaxşı əhatə

Tarix: 31 may 2011, 23:58 ġVQ

Kimə: Kristian Qrey

Əminəm, dostunuzla yaxşı şam yeməyi yediniz.

Ana

P.S.: Bu, missis Robinsondur?

Məktubu göndərərək adyalın altına girirəm. Özümə söz verirəm ki, Kristiandan bu qadınla münasibətləriylə bağlı bütün həqiqəti öyrənəcəm. Bir hissəm hər şeyi cikinə-bikinədək öyrənmək, digər hissəm onun mənə danışdıqlarını əbədi unutmaq istəyir. Aybaşı günlərim başlayır, həb içməliyəm. ―Blekberri‖nin təqvimində ―quş‖ qoyuram. Telefonu dolabçaya qoyaraq başımı balışa atır və qayğısız yuxuya baş vururam; Kristianın yanımda olmasını arzulayıram: daha iki min yarım mil uzaqlıqda deyil.

Mağazalara səhər yürüşündən və günortadan sonra çimərliyə baş vurduqdan sonra anam məni içkiyə qonaq edir. Bobu telefizorla qabaq-qənşər qoyaraq biz Savannadakı ən yaxşı otelin zövqlü barında oturmuşuq. Mən ikinci ―Kosmopoliten‖i aşırıram, anam üçüncünü. O, kövrək kişi eqosunun tədqiqini davam eləyir.

– Başa düşürsənmi, Ana, kişilər belə hesab edirlər: qadın nə deyirsə-desin, bu, həll edilməsi zəruri problemdir. Zərərsiz boşboğazlıq yox, hərəkət rəhbəri.

– Ana, bunu mənə niyə deyirsən? – daha dözməyib soruşuram. O, bütün günü eyni şeyi dönə-dönə təkrarlayır.

– Əzizim, sən bir qədər… karıxmısan. Heç vaxt evə oğlan gətirməmisən. Veqasda da boyfrendin olmayıb. Fikirləşirdim ki, bəlkə Xoseylə nəsə alına bilər…

– Ana, Xose sadəcə dostumdur.

– Bilirəm, əzizim. Axı görürəm ki, səninlə nəsə baş verir, amma sən gizli saxlayırsan.

O, sevgi və qayğıyla üzümə nəzər yetirir.

– Mən Kristiandan məsafə saxlamalıyam ki, düşüncələrimi səliqə-sahmana salım... vəssalam. O, dünyamı alt-üst edib.

– Dünyanı çevirib?

– Hə, onsuz özümü itirirəm.

Bütün günü Kristiandan xəbər-ətər yoxdur. Nə məktub, nə də başqa bir zad. Ona zəng eləmək və nə baş verdiyini bilmək istəyindən alışıb-yanıram. Hər şeydən çox avtomobil qəzasından qorxuram, sonra isə missis Robinsonun onu öz caynaqlarına keçirməsindən. Başa düşürəm ki, heç


kitabyurdu.blogspot.com

nədən özümü yorub üzürəm, amma söhbət o qadından getdikdə ağlımı tamamilə itirirəm.

– Əzizim, mən bir dəqiqəlik çıxıram: üzümə əl gəzdirməkdən ötrü.

Təklikdə qalaraq gün ərzində artıq neçənci dəfədir ki, poçtu yoxlayıram. Nəhayət ki!

Kimdən: Kristian Qrey

Mövzu: kiminlə şam yeməyi yemişəm

Tarix: 1 iyun 2011, 21:40 ġVQ

Kimə: Anasteyşa Stil

Bəli, mən missis Robinsonla şam yeməyi yemişəm. O, mənim köhnə dostumdur, Anasteyşa, vəssalam. Görüşümüzü həsrətlə gözləyirəm. Səninçün darıxıram.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Hə, deməli, o, həmin qadınla şam edib. Adrenalin və gücsüz qəzəb içimdə coşur. Bütün qorxularım gerçək olur. O, buna necə cəsarət edib? İki gündür yoxam, osa tez o ifritənin yanına cumub.

Kimdən: Anasteyşa Stil


kitabyurdu.blogspot.com

Mövzu: KÖHNƏ dost

Tarix: 1 iyun 2011, 21:42 ġVQ

Kimə: Kristian Qrey

Bu qadın köhnə dostdan da üstündür.

O artıq yeni qurban tapıb?

Sən artıq onunçün köhnə-kürüşsən?

Buna görə ayrılmışsınız?

Məktubu göndərirəm. Anam qayıdır.

– Rəngin solub, Ana. Noolub?

Başımı yelləyirəm.

– Heç nə. Yenə içəkmi?

Anam üzünü turşudur, ofisiantı yanına çağırıb, qədəhlərimizi göstərir. Ofisiant başıyla işarə edir – universal dili gözəl anlayaraq: anamın jesti ―təkrarlayın‖ mənasını verir. Ürkək nəzərlərlə telefonun ekranına baxıram.

Kimdən: Kristian Qrey

Mövzu: Bir az yavaş

Tarix: 1 iyun 2011, 21:45 ġVQ



kitabyurdu.blogspot.com

Kimə: Anasteyşa Stil

Bu mövzunu telefonla müzakirə eləmək fikrində deyiləm.

Bu günlük ―Kosmopolitenlər‖ kifayət deyilmi?

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Lənət şeytana, o burdadır!


kitabyurdu.blogspot.com

## 23-cü fəsil

Əsəbi halda bara göz gəzdirirəm. O gözə dəymir.

– Ana, noolub? Sanki kabus görmüsən.

– Kristian... o burdadır.

– Nə?

Anam da ətrafa boylanmağa başlayır.

Mən Kristianın izləmə meyli haqda ona danışmaq istəmirəm.

Onu görürəm. Bizə doğru gələrkən ürəyim sanki yerindən qoparaq yerə düşür. O burdadır... mənə görə... Daxili ilahəm sevinc coşqusuyla divandan atılır. Kristian qalogen lampaların işığında qələbəliyin içindən keçir. Onun saçları qırmızı təhər cilalı mis rənginə çalır. Parlaq boz gözlər parlayır... qəzəblə? Dodaqları kipdir, çənəsi gərilib. Aman Tanrım… az əvvəl onu öldürməyə hazır idim, indisə o burdadır. Anamın gözü qabağında onunla necə dava-dalaş salacağam?


kitabyurdu.blogspot.com

Kristian masaya yaxınlaşır, ehtiyatla gözlərimin içinə baxır. əynində sadə kətan köynək və cins şalvar var.

– Salam, – sarsıntı və fərəhi gizlədə bilməyərək ciyildəyirəm.

– Salam, – o cavab verir, əyilir və gözlənilmədən yanağımdan öpür.

– Kristian, bu anamdır, Karla, – deyirəm. Tərbiyə hər şeyə üstün gəlir.

O çevrilir.

– Missis Adams, tanışlığımıza şadam.

Anamın soyadını hardan öyrənib? Kristian Karlaya öz füsunkar təbəssümünü bəxş edir. Bu təbəssüm qarşısında duruş gətirmək mümkün deyil. Anam heç müqavimət də göstərmir. Onun alt çənəsi az qalır masaya dəysin. İlahi, ana, özünü ələ al. Anam sakitcə onun uzadılmış əlini sıxır. Doğrudanmı sarsıntı anında nitq qabiliyyətini itirmək bizim ailəvi xüsusiyyətimizdir?

– Kristian, – nəhayət ki o, nəfəsini buraxır.

O, anlaşılan tərzdə gülümsəyir, boz gözlərdə qığılcımlar sayrışır. Üzümü turşudub hər ikisini seyr edirəm.

– Burda neyləyirsən?

Bəlkə mən düşündüyümdən də kəskin tərzdə soruşuram və onun təbəssümü sönür, simasında həyəcanlı ifadə peyda olur. Qəlbim şadyanalıq edir, amma mən sarsılmışam, missis Robinsonu xatırladıqda isə qanım


kitabyurdu.blogspot.com

coşur. Bilmirəm nəyi daha çox istəyirəm: onun üstünə qışqırmaq, yoxsa bağrıma basmaq... və heç bilmirəm Kristianın istəyi nədir. Maraqlıdır, yeri gəlmişkən, bizi çoxdan izləyir? Üstəlik məni sonuncu məktubum narahat edir.

– Səninlə salamlaşmaq qərarına gəldim, – Kristian halını pozmadan məlumat verir. O, nə haqda düşünür? – Bu mehmanxanada yaşayıram.

– Mehmanxanada? – Amfetamin qəbul eləmiş ikinci kurs tələbəsi kimi mələyirəm.

– Dünən yazmışdın ki, məni görmək istəyirsən. – O susur, mütəəssirliyini dəyərləndirir. – Məqsədimiz müştərini qane etməkdir, miss Stil.

Onun sakit səsində kinayə yoxdur.

Nədir belə, başı tamam xarab olub? Bəlkə heç missis Robinsondan danışmayaydım? Yoxsa məsələ üçüncü (dördüncünün də növbəsi çatır) ―Kosmo‖dadır?

Anam qayğıyla bizə baxır.

– Bizimlə içki içərsiniz, Kristian? – o, ofisianta sarı əl yelləyir, ofisiant ani olaraq masamızın yanında peyda olur.

– Cin-tonik, – Kristian deyir. – ―Hendriks‖ yoxdursa, ―Bombey göy yaqutu‖. Birincisi varsa xiyarla, ikincisi olarsa, laymla.

Lənət şeytana… o, kokteyl sifariş verərkən də şou göstərir.

– Daha iki –Kosmo‖, – ürkək nəzərlə Kristiana baxaraq əlavə edirəm. Doğrudanmı doğma anamla belə içki içmək hüququm yoxdur?

– Oturun, Kristian.

– Çox sağ olun, missis Adams.

O, incə hərəkətlə kürsünü çəkir və mənimlə yanaşı oturur.

– Beləliklə, sən təsadüfən bizim olduğumuz mehmanxananın barında peyda olmusan? – var gücümlə təmkinli olduğumu nümayiş etdirirəm.

– Yox, siz təsadüfən yaşadığım mehmanxananın barına gəlmişsiniz, – Kristian gözünü belə qırpmadan deyir. – İndicə nahar yemişəm, aşağı endim və sizi gördüm. Sən bir təsadüfə bax! – O, başını yana əyir və mən onun gözlərində təbəssümün kölgəsini görürəm. Tanrıya şükür, ola bilsin ki, hələ hər şey itirilməyib.

– Bu gün səhər mağazalara baş vurmuşuq, günortadan sonra çimərlikdə özümüzü günə vermişik, axşamsa bara getmək qərarına gəldik, – donquldanıram, kənardan elə görünə bilər ki, özümə bəraət qazandırmaq istəyirəm.

– Bu topu səhər almısınız? – O, yaşıl ipəkdən olan yeni bluz köynəyimə nəzər yetirir. – rəngi sənə düşür. Qaralmağa macal tapmısan. Çox əla görünürsən.

Komplimentə nə cavab verəcəyimi bilməyərək od tutub yanıram.

Kristian ovcumu əlinə götürür və böyük barmağını əlimin içində ora-bura gəzdirir. Utanıram. Elektrik cərəyanı dərimin altına nüfuz edir, qanımı odlayır, isti bədənimin hər yerinə yayılır. Biz iki gün görüşməmişik. İlahi... onu istəyirəm. Tənəffüsüm sürətlənir. Gözümü döyür, utancaq halda Kristiana baxıb gülümsəyirəm, onun heykəltəraş əliylə yonulmuş dodaqları da təbəssümdən qaçır.

– Elə bilirdim ki, səni heyrətləndirəcəm, Anasteyşa, amma həmişə olduğu kimi, burda peyda olmaqla sən məni heyrətləndirdin.

Gözlərimi anama sarı yönəldərək görürəm ki, o, baxışlarını Kristiandan çəkmir. Bəsdir, ana! Kristian ekzotik kiçik heyvan deyil. başa düşürəm, heç vaxt boyfrendim olmayıb, Kristianı isə şərti olaraq boyfrend adlandırmaq olar, amma bunu dərk eləmək çətindir ki, mən bu cür kişini özümə cəzb eləmişəm? –Bu kişini? Onu cəlb eləmək asan iş deyil, sən bir ona baxǁ, – təhtəlşüurum dişlərini qıcayır. Ağzını yum, səndən soruşan olmadı!

– Sizə mane olmaq istəmirəm. İçkini içib qaçıram. İşlərim var, – Kristian qərarlı deyir.

– Kristian, şadam ki, tanış olduq, – anam səsini özünə qaytarır. – Ana haqqınızda elə məhəbbətlə danışırdı ki...

– Doğrudan?

Kristian qaşlarını qaldırır, üzündə özündənrazı ifadə var, mənsə yenə rəng verib-rəng alıram.

Ofisiant içkilərlə  yaxınlaşır.

– ―Hendriks‖, ser, – təzyiqlə deyir o.

– Çox sağ olun, – Kristian deyir.

Əsəbi halda ―Kosmo‖nu başıma çəkirəm.

– Corciyaya çoxdan gəlmişsiniz? – anam soruşur.

– Cümə günündən, missis Adams.

– Sabah bizimlə şam yeməyi yemək istərdinizmi? Və xahiş edirəm, mən Karla çağırın.

– Məmnuniyyətlə, Karla.

– Lap yaxşı. Bağışlayın, bir dəqiqəlik çıxmalıyam, üzümə əl gəzdirmək lazımdır.

Ana, axı sən indicə ordan qayıtmısan! Məyus halda arxasınca baxıram.

– Beləliklə, sən hirslənirsən ki, köhnə dostumla şam yeməyi yemişəm, hə? – Kristian mənə odlu-alovlu nəzər yetirir, əlimdən tutur və incəliklə hər bir barmağımı öpür.

İlahi, bircə burda yox!

– Hə, hirslənirəm, – pıçıldayıram, qansa gicgahımda təbil çalır.


kitabyurdu.blogspot.com

– Onunla yaxın münasibətlərimiz keçmişdə qaldı, Anasteyşa, – o sakitcə deyir. – Mənə yalnız sən lazımsan. Bunu nə vaxt anlayacaqsan?

Gözümü döyürəm.

– O, pozğun qadındır, – cavabın intizarında nəfəs almıram.

Kristianın rəngi ağarır.

– Çox subyektiv fikir yürüdürsən, əslində hər şey heç də düşündüyün kimi deyil, – əlimi buraxaraq o pıçıldayır.

Mən subyektiv düşünürəm?

– Onda izah et. – ―Kosmo‖ mənə cəsarət verir.

O, qaşlarını çatır.

Davam edirəm:

– O, on beş yaşlı yeniyetməni yatağına salıb. Əgər bakirə qız olsaydın, osa səni sado-mazoxist oyunlara cəlb eləmiş yaşlı kişi, buna necə baxardın? Birdən sənin yerində Mia olsaydı?

Kristian qaşqabağını tökür.

– Ana, hər şey sən deyən kimi deyil.

Diqqətlə üzünə baxıram.

– Başa düş, mənimçün hər şey başqa cür idi, – o, sakitcə deyir. – Münasibətlərimizdə zorakılıq olmayıb.

– Anlamıram, – mənim təəccüblənmək növbəm çatır.

– Anasteyşa, indi anan qayıdacaq. Onun yanında bu mövzunu müzakirə etməyin yeri deyil. Bəlkə sonra? Əgər getməyimi istəyirsənsə, çıxıb gedərəm, təyyarəm Hilton-Heddə gözləyir.

O hirslənib… yo-o-ox!

– Getmə. Xahiş edirəm! Gəldiyin üçün elə xoşbəxtəm ki... Başa düş, sənin yanında olmadığım vaxt onunla şam yeməyi yemənə hirslənirəm. Üfüqdə Xose peyda olanda necə özündən çıxdığını xatırla! Halbuki o yalnız dostdur və biz heç vaxt sevgililər olmamışıq, sizsə... – Bu fikri davam etdirməmək üçün susuram.

– Qısqanırsan? – O, heyrətlə mənə baxır, gözlərində hərarət yaranır.

– Hə, səninlə törətdiyi şeylərə görə ona nifrət də edirəm.

– Anasteyşa, o, mənə kömək etdi, bundan artıq sənə heç nə deyə bilmərəm. Qısqanclığa gəlincə, mənim yerimdə ol. Son yeddi ildə heç kimə davranışımı müzakirə etmək imkanını verməmişəm. Heç kimə. Mən düşündüyüm kimi hərəkət etməyə alışmışam. Öz müstəqilliyimə dəyər verirəm. Missis Robinsonu şam yeməyinə sənin kefini pozmaqçün dəvət etməmişəm. Arada-bərədə biz birlikdə şam yeməyi yeyirik. O, dostum və iş tərəfdaşımdır.

İş tərəfdaşı? Hə, bu, təzə xəbərdir.

Kristian söylədiyinin mənə necə təsir elədiyini izləyir.

– Bəli, iş tərəfdaşı. Məhrəm münasibətlərimiz keçmişdə qaldı.


kitabyurdu.blogspot.com

– Niyə ayrıldınız?

Kristian dodaqlarını bir-birinə sıxır, gözləri parlayır.

– Əri xəbər tutdu.

Lənət şeytana!

– Gəl bunu başqa vaxt müzakirə edək, daha münasib zamanda, – qıcıqla deyir o.

– Çətin ki, məni o qadının pedofiliyaya meyilli olmadığına inandıra biləsən.

– Onu heç vaxt pozğun hesab etməmişəm və etmirəm də. Bəsdir bu haqda danışdıq! – Kristian bağırır.

– Onu sevirdin? Bir-birinizçün darıxmısınız?

Anam gəlişi ilə bizi qəfil yaxalayır.

Hər ikimiz güclə gülümsəyirik və mən kəskin hərəkətlə kürsüyə yayxanıram. Özümü günahkar hiss eləyirəm.

Anam diqqətlə mənə baxır.

– Bəli, ana.

Kristian sakitcə kokteyli başına çəkir, məndən də gözünü çəkmir. Üzünün ifadəsi həyəcanlıdır. O, nə haqda düşünür? Kristian o qadını sevibmi? Əgər sevibsə, buna tab gətirmərəm.

– Hə, xanımlar, getmək zamanımdır. Sizə xoş axşam arzulayıram.

Yox… yox… məni bu durumda qoyub gedə bilməzsən!


kitabyurdu.blogspot.com

– Zəhmət olmasa, içkiləri mənim hesabıma yazın, altı yüz on ikinci nömrə. Səhər zəng edəcəm, Anasteyşa. Sabahadək, Karla.

– Adımın tam deyilməsi necə də xoşdur.

– Gözəl xanıma yaraşacaq gözəl ad, – Kristian anamın uzatdığı əli sıxaraq sakitcə deyir və anam həzzdən əriyir.

Ah, ana, səndəmi Brut[1]?

Ayağa qalxıram, baxışlarımla sualıma cavab verməsini yalvarıram. Kristian yanağımı marçıltıyla öpür.

– Hələlik, balaca, – pıçıldayır və çıxıb gedir.

Əclaf! Hamıya əmr etməyə alışıb! Aynayla şappıltıyla toqquşaraq anama sarı çevrilirəm.

– Noolar, etiraf etməliyəm ki, məni məftun elədi, Ana. Bundan yaxşı adaxlı olmaz! Amma mənə elə gəldi ki, siz küsmüsünüz. Fikir ayrılıqlarını müzakirə eləmək vaxtı deyilmi? Hər ikiniz ehtirasdan didilirsiniz, az qala özümdə də şəhvət oyanacaqdı. – O, açıq-aşkar əlini havada yelləyərək fikrini başından qovur.

– ANA!

– Get yanına.

– Bilmirəm. Mən bura səninlə bir yerdə olmaqçün gəlmişəm.

---

[1] qətlə yetirilən Yuli Sezarın son sözləri


kitabyurdu.blogspot.com

– Ana, sən ona görə gəlmisən ki, özün özündən qaçmağa çalışırdın! Axı görürəm, bir-biriniz üçün dəli olursunuz. Onunla danış. Aman Tanrım, oğlan üç min mil qət edib ki, səninlə görüşsün! Deyəsən, uçuşun necə çətin keçdiyini unutmusan?

Qızarıram. Anam onun təyyarəsi haqda heç nə bilmir.

– Hə, nooldu?

– Onun şəxsi təyyarəsi var, – utanaraq donquldanıram, – həm də üç deyil, iki min yarım mil.

Niyə xəcalət çəkirəm?

Anamın qaşları alnına qalxır.

– İşə bir bax! – Karla pıçıldayır. – Qulaq as, Ana, gəldiyin vaxtdan bəri nəyi yarı bölə bilmədiyinizi anlamağa çalışıram. Çətinlikləri adlamanın yeganə yolu problemləri bir yerdə müzakirə etməkdir. Öz-özlüyündə istədiyini fikirləşə bilərsən, amma nə qədər ki öz şübhələrini ona deməmisən, yerində sayacaqsan.

Ona acıqlı-acıqlı baxıram.

– Ana, əzizim, içində çox qurdalanırsan. Qəlbinin səsinə qulaq ver. Nə hiss edirsən?

Ovuclarıma baxıram.

– Mənə elə gəlir ki, onu sevirəm, – sakitcə deyirəm.

– Bilirəm, əzizim. O da səni sevir.


kitabyurdu.blogspot.com

– Yox!

– Mənsə deyirəm, sevir! Sənə nə lazımdır? Bunu neon lampaları ilə alnında yazsın?

Heyrətlə ona baxıram, göz yaşları göynədir.

– Ana, əzizim, ağlama.

– Məni sevdiyinə inanmıram.

– Hər adam bir fincan çay içməkçün iş-gücünü buraxıb qitənin o başından bu başına uçub gəlmir. Onun yanına get! Bundan yaxşı yer tapa bilməzsiniz. Başdan-ayağa romantika və həm də neytral ərazi.

Onun baxışları altında özümü itirirəm. Kristianın yanına həm getmək, həm də getməmək istəyirəm.

– Əzizim, mənimlə geri qayıtman məcburi deyil. Xoşbəxt ol! Xoşbəxtliyinin açarı da altı yüz on iki nömrəli otaqdadır. Evin açarısa (işdir gec qayıtsan) içəri həyətdəki yukkanın[1] altındadır. Qayıtmasan… noolar, artıq böyük qızsan.

Saçımın dibinədək qızarıram. İlahi, ana!

– Amma əvvəlcə kokteyli içim.

– Axmaq qızımı guya tanımıram, – anam gülümsəyir.

[1] zanbaq fəsiləsindən bir bitki



kitabyurdu.blogspot.com

Altı yüz on ikinci otağın qapısını qorxa-qorxa döyürəm. Kristian astanadadır, telefonla danışır. Heyrətdən gözlərini döyərək o, qapının laylarını geniş açır və içəri girməm üçün əlini yelləməklə işarə edir.

– Kompensasiya da daxil olmaqla? Bəs məsrəflər? – Kristian dişləri arasından fit çalır. – Hə-ə, bu səhv baha başa gələcək. Bəs Lukas?

Ətrafa boylanıram. Kristian bir neçə otaqdan ibarət lüks nömrədə yaşayır, lap ―Hitman‖dakına oxşayır. Qəttəzə ultramüasir mebel; hamısı tünd-bənövşəyi. Qızılı qammada, divarları bürünc naxışlı. Kristian tünd ağacdan olan yeşiyə yaxınlaşır və mini-barın qapısını açır. Əliylə mənə içki süzməyi buyurur, özüsə yataq otağına üz tutur. Yəqin ki, söhbəti eşitməməyimi istəyir. Çiyinlərimi çəkirəm. O dəfə kabinetə girdiyim zaman da Kristian telefon söhbətini yarımçıq qoymamışdı. Suyun şırıltısını eşidirəm: o, vannanı doldurur. Özümə portağal şirəsi süzürəm.

Kristian qayıdır.

– Qoy Andrea mənə eskizi göndərsin. Barni əmin edir ki, problemi həll edib... – O gülür. – Yox, cümə günü… Məni maraqlandırmış torpaq sahəsi var… Bəli, qoy Bill təkrar zəng eləsin… yox, sabah… Görək Corciya bizə nə təklif edəcək: inadkar olsaq. – Kristian gözünü məndən çəkmir. Stəkanı uzadaraq o, buzlu vedrəni nişan verir.


kitabyurdu.blogspot.com

– Əgər onların duaları bizi qane etsə… fikirləşərik, amma bu lənətə gəlmiş isti... Detroytun öz üstünlükləri var və orda hava da yetərincə sərindir… – Qəfildən onun siması tutqunlaşır. Nə olub? – Qoy Bill bir daha zəng eləsin. Sabah, amma çox erkən olmasın.

Beləliklə, mənim növbəmdir.

– Sualıma cavab vermədin, – donquldanıram.

– Yox, – o, sakitcə deyir, gözlərində ehtiyatlılıq var.

– Sənin ―yox‖ cavabın sevməmisən deməkdir, yoxsa sualı acıq qoyman?

Kristian qollarını çarpazlayır və divara söykənir.

– Niyə gəlmisən, Anasteyşa?

– Mən artıq dedim.

O, dərindən ah çəkir.

– ―Yox‖ sevməmişəm mənasında.

Kristian kədərlə mənə baxır, amma deyəsən, inadkarlığımdan çox təəccüblənib.

Hələ də nəfəs ala bilməm qəribədir. Havanı sinəmdən çölə buraxdıqda isə köhnə kisə kimi oturuRAM. Tanrıya şükür! O ifritəni sevdiyini desəydi, başıma nə iş gələ bilərdi?

– Sən doğrudan da ilahəsən, yaşılgöz ilahə, Anasteyşa.

– Mənə lağ edirsiniz, mister Qrey?


kitabyurdu.blogspot.com

– Buna cəsarət eləmərəm.

O, əzəmətlə başını yelləyir, amma gözlərində dəcəl qığılcımlar var.

– Edirsiniz. Həm də tez-tez.

Kristianın dodağı qaçır: onun öz sözlərini özünə qaytardığım üçün. Boz gözlər qaralır.

– Bəsdir dodağını dişlədin. Mənim otağımdasan, mənimlə üç gün olmamısan və səni görməkçün uzun yol qət eləmişəm.

Kristianın səsi yumşalır.

Onun ―blekberri‖si uğuldayır, amma o, heç ekrana baxmadan telefonu söndürür. Tənəffüsüm sürətlənir. Görürəm o, nəyə eyham vurur... amma axı biz söhbət eləməyə hazırlaşırdıq! Kristian mənə doğru bir addım atır, baxışlar yırtıcı və hissiyyatlıdır.

– Səni istəyirəm, Anasteyşa. Sən də məni istəyirsən. ona görə də burdasan.

– Mən, doğrudan da, həqiqəti bilmək istəyirdim, – müdafiə olunaraq pıçıldayıram.

– Həqiqəti bildikdən sonra burda qalacaqsanmı? Yoxsa gedəcəksən?

O lap yanıma gəlir və mən od tutub yanıram.

– Qalacam, – baxışlarımı qaldıraraq pıçıldayıram.


kitabyurdu.blogspot.com

– O-o, inanmaq istərdim, – Kristian yuxarıdan-aşağı mənə baxaraq deyir. – Etiraf elə, mənə möhkəm acıqlanmısan.

– Hə.

– Xatırlamıram ki, doğmalardan başqa kimsə mənə acıqlansın. Bu, xoşuma gəlir.

Barmaqaltılarını yanağımda gəzdirir. İlahi, onun yaxınlığı, həyəcanverci qoxusu! Biz söhbət eləməyə hazırlaşırdıq, amma ürəyim elə dəlicəsinə döyünür ki; qanım coşur, şəhvani istək bütün bədənimi bürüyür. Kristian əyilir və burnunun ucunu çiynimdən qulağımacan gəzdirir, barmaqları isə saçlarımı darayır.

– Biz söhbət eləməyə hazırlaşırdıq, – pıçıldayıram.

– Sonra.

– Sənə o qədər çox şey deməliyəm ki...

– Mən də.

O, incə tərzdə qulağımın sırğalığını öpür. Saçımı dartaraq başımı geri atır, dodaqlarına boğazımda yol açır. Dərimi incə tərzdə dişləyərək Kristian öpüşüylə xirtdəyimdən yapışır.

– Səni istəyirəm, – pıçıldayır.

İnləyərək onu bağrıma basıram.

– Aybaşısan? – Kristian öpüşlərini yarıda qoymayaraq soruşur.

Ah, lənət şeytana. O, sanki içimi görür!


kitabyurdu.blogspot.com

– Hə, – utanaraq deyirəm.

– Ağrılı keçir?

– Yox. – Allanıram. –İlahi…‖

O, dodaqlarımdan qopur və məni yuxarıdan-aşağıya süzür.

– Həb atırsan?

– Hə.

Nədənsə özümü aşağılanmış kimi  duyuram?

– Gedək hamama.

Yo-o-ox…

Kristian əlimdən tutur və yataq otağına aparır, otağın böyük hissəsini nəfis üzlüklü iri çarpayı tutur, amma biz daha irəli gedirik. Hamam otağı (mərmər və akvamarin) iki hissədən ibarətdir. İkinci hissədə vanna daş pilləlidir və onun içində dörd nəfər yerləşər. Köpüyün üstündən buğ qalxır, ətrafa daş oturacaqlar qoyulub. ġam işıqları şöləlänir. Ah... deməli, telefonla danışdığı vaxt onları yandırıb.

– Sancağın varmı?

Anlaşılmaz halda ona baxır, cins şalvarımın cibində eşələnirəm və ordan rezin qaytan çıxarıram.

– Saçlarını qaldır, – yumşaq tərzdə deyir.

İtaət edirəm.


kitabyurdu.blogspot.com

İsti və rütubətdən bluz köynəyim bədənimə yapışır. Kristian əyilir və ventili bağlayır, sonra məni hamamın birinci hissəsinə aparır və əlüzyuyanla üzbəüz güzgü qarşısında saxlayır, özüsə arxamda dayanır.

– Qollarını qaldır, – arxadan pıçıldayır. İtaətlə qollarımı qaldırıram və o, bluz köynəyimi başım üzərindən qaldırır, məni qurşağadək çılpaq qoyur. Gözünü məndən çəkmədən Kristian cins şalvarımın düyməsini açır və zənciri aşağı çəkir.

– Səni vannada s..məyə hazırlaşıram, Anasteyşa.

O, boynumu öpür. Başımı yana əyirəm ona geniş məkan verməkdən ötrü. Oturaraq Kristian asta-asta cins şalvarı və tumanımı əynimdən çıxarır.

– Ayağını qaldır... indi o birini.

Əlüzyuyanın kənarından tutaraq onun dediyi kimi edirəm. İndi tam çılpağam, osa arxamda diz üstə çökərək, yanbızlarımı öpüb-dişləyir. Nəfəsim kəsilir.

Sonra Kristian ayağa qalxır və aynada mənə baxır. Özümü örtmək istəyir, amma bu fikirdən daşınıram. O, ovcuyla qarnımı örtür.

– Gözünü kənara çəkmə. Sən gözəlsən… İndisə bax gör necə şəhvətdoğurucusan...

O, ovuclarımıdan tutaraq qarnımın üstünə qoyur.

– Dərinin incəliyini duy.


kitabyurdu.blogspot.com

Səs incə və yumşaqdır. Kristian ovuclarımla qarnımı oxşayır, sonra sinəmə doğru qalxır.

– Bax... necə də iri döşlərdir.

O, döşlərimi ovuclarıyla örtür, uzun barmaqlarısa gilələrimi dartışdırır.

İniltiylə belimi əyirəm. Kristian məmələrimin gilələrini sıxır və dartışdırır, onları şişməyə məcbur edir. Aynada şəhvətdən yanıb kül olan pozğun qadını heyrətlə seyr edirəm. Necə də gözəldir! İniltiylə gözlərimi qapadıram, öz ovcumla... onun ovcuyla özündə şəhvət doğuran əxlaqsız qadının gözümün önündə ehtirasdan kül olmasına baxa bilmirəm. Öz bədənimi sığallayıram. Sanki mən oyam, onun toxunuşlarından, asta və yumşaq əmrlərdən ağlımı itirirəm.

– Yaxşı, balaca, – Kristian pıçıldayır.

O, əllərimi aşağı endirir: qurşaqdan ombalarıma və qasığıma. Arxadan diziylə ombalarımı aralayaraq mənim barmaqlarımla: gah bu, gah da o biriylə ritmə uyğun şəkildə a....ımı sığallayır. Güclə tab gətirirəm – təcrübəli kukla ustasının əlindəki marionet.

– Bax gör necə işıq saçırsan, Anasteyşa, – çiyinlərimi öpərək və dişləyərək pıçıldayır. İnləyirəm.

Qəfildən o, əllərimi buraxır.

– İndisə özün, – Kristian geriyə bir addım ataraq əmr edir.


kitabyurdu.blogspot.com

Davam etməyə çalışıram. əfsus... bunu əvvəlki duyğularla müqayisə etmək olmaz. Mənə yalnız o lazımdır, yalnız o! Onsuz məhv oluram.

Kristian köynəyi başı üzərindən çıxarır, cins şalvarı aşağı endirir.

– Nədir, mən daha yaxşı bacarıram?

Aynadakı baxışları məni odlayıb yandırır.

– Hə, hə, xahiş edirəm, – nəfəsimi buraxıram.

O, yenə də əllərini əllərimin üstünə qoyur və klitorumu oxşamağa başlayır. Kürəyimlə sinəsinin cod tüklərini və şahə qalxmış s..ini hiss edirəm. Tez ol... Xahiş edirəm! Kristian kürəyimi dişləyir; gözlərimi qapadır, saya gəlməz hisslər duyuram: boynumda, qasığımda, arxamda.

Qəfildən Kristian dayanır və kəskin şəkildə məni özünə sarı çevirir. Bir əliylə o, biləyimdən yapışır, belimə qoyur, o biri əliylə quyruq şəklində yığılmış saçımdan dartır, başım arxaya dartınır, dodaqlarını ehtirasla dodaqlarıma qondurur.

Onun kəsik-kəsik nəfəsi mənim nəfəsimə qarışır.

- Aybaşın nə vaxt başlayıb, Anasteyşa?

Sual məni karıxdırır.

- E... dünən.

- Yaxşı.

Kristian məni buraxır və arxası özünə tərəf çevirir.

- Əlüzyuyana dayaqlan, – əmr edir və ombalarımı özünə tərəf çəkir, məni əyilməyə məcbur edir, artıq bir dəfə oyun otağında elədiyi kimi.

Əlini ayaqlarım arasına keçirərək o, göy sapı dartır... Yo-o-ox! Kristian səliqəylə tamponu çıxarır və yaxınlıqdakı unitaza atır. İlahi-i-i... budur, artıq içimə soxub!.. Dərisi dərimə dəyir… əvvəlcə yavaş-yavaş hərəkət edir, səy göstərmədən… reaksiyama qulaq verir… o! Mən əlüzyuyanın kənarına dayaqlanır, ağır-ağır nəfəs alır və belimi əyirəm. Kristianı içimdə duyuram. O-o-h, şirin əzab… onun əlləri ombalarımı sıxır. Hərəkətlər kəskinləşir, temp sürətlənir, Kristian əyilir və əliylə klitorumu sığallayır… İlahi. Orqazma yaxınlaşıram.

- Belə-belə işlər, balaca.. yaxşı... – xırıltılı səslə donquldanır o, ombalarını da dəlicəsinə oynadaraq mənə aman vermir və bu an yer ayağımın altından qaçır.

O!.. Ucadan qışqırram: ümidsizcəsinə əlüzyuyanın kənarından yapışaraq. Orqazm məni sarsıdır, içimdə hər şey yığılıb-açılır. Kristian dayanır. Mənə sərilərək, nəfəsini son dəfə buraxdıqda adımı dua kimi çəkərək bağırır.

- Oh, Ana! – Onun xırıltılı nəfəsi mənimkini təkrarlayır. – Ah, balaca, səndən doymaq mümkün deyil!

Doğrudanmı hər şey belə olacaq? Belə füsunkar, ehtiraslı, dağıdıcı, lap sehr kimi. Sözlər dodaqdan çıxmağa can atır. Amma mən elə taqətsizəm


kitabyurdu.blogspot.com

ki... Və yalnız bir şey haqda fikirləşə bilirəm: doğrudanmı nə vaxtsa xirtdəyədək doyacam?

Biz yerə sərilirik və Kristianın əlləri məni nəvazişli əsarətə alır. Üzümü onun sinəsində gizlədirəm. Qarışdıraraq onun misilsiz qoxusunu içimə çəkirəm. Sıxılma. Bu sözü mantra kimi təkrarlayıram. Barmaqlarımı onun sinəsində gəzdirmək istəyirəm, naxışlar çəkərək, amma özümü çəkindirirəm, çünki onun toxunuşu sevmədiyini bilirəm. Sakitcə uzanmışı, içimizə çəkilmişik. Kristianda ərimişəm... son damlayadək əriyirəm.

– Məndən qan gəlir, – aybaşımı xatırlayaraq pıçıldayıram.

– Vecimə deyil, – o donquldanır.

– Görürəm, – quru tərzdə deyirəm.

– Bu, səni narahat edir?

Bu, məni narahat edirmi? Yəqin ki hə, amma vecimə deyil. Kürəyimi döşəməyə dirəyir və aşağıdan-yuxarıya boz-bulanıq gözlərə baxıram.

– Azacıq belə yox.

Kristianın dodağı qaçır.

– Gəl vannaya girək.

O, qollarını açır. Döşəmədən qalxmaq istəyir. Qəfildən onun sinəsində yumru çapıqlar görürəm. ‒Bu, suçiçəyi izləri deyil, – deyə ani olaraq düşünürəm, – Qreys dedi ki, o bu xəstəliyi tutumayıb‖. Lənət şeytana… çapıqlar yanıq izinə bənzəyir. Bəs onda nədəndir? Ani çözüm

məni dəhşət və nifrətdən üzümün ağarmasına məcbur edir. Siqaretlər. Amma bunu kim edib: missis Robinson, onun əsl anası, kim? Bəlkə başqa bir izah var, mənsə yersiz yerə yamanlayıram, içimdə dəli bir ümid alovlanır.

– Noolub? – Kristian həyəcanla mənə baxır.

– Çapıqların... axı bu, suçiçəyi deyil?

Bir anlığa Kristian susur, özünə qapanır: sakitlik və təmkin ehtiyatlanma, hətta qəzəblə əvəzlənir. Üzü tutqunlaşır, dodaqları nazik, möhkəm xətdə sıxılır.

– Yox, suçiçəyi deyil, – qırıq-qırıq deyir, görünür, mövzunun dərinliyinə getmək istəmir; sonra qalxır, əlini mənə uzadır və məni yerdən qaldırır.

– Mənə belə baxmaq lazım deyil, – əllərini çəkərək deyinir.

Üzüm alovlanır və gözlərimi aşağı endirirəm, indi tam əminəm ki, kimsə siqaretləri Kristianın sinəsinə basaraq söndürüb. Özümü pis hiss edirəm.

– Bunu o edib? – nəticəni düşünməyə macal tapmamış soruşuram.

Kristian susur. Gözlərimi qaldırır və acıqlı baxışlarla üzləşirəm.

– O qadın? Missis Robinson? Yox! Onu əzazilə çevirməyinə gərək yoxdur, Anasteyşa. Başa düşmürəm, onu bütün günahlarda ittiham eləmək sənin xoşuna gəlir?


kitabyurdu.blogspot.com

Kristian qarşımda durub; özünün füsunkar çılpaqlığı ilə. Onun bədənində mənim qanım var və biz, nəhayət ki, söhbətə yetişdik. Mən də çılpağam, üstümüzü örtməyə heç nə yoxdur, yeganə çıxış yolu suyun altına girməkdir. Dərindən ah çəkərək mən elə belə də edirəm: nəfis şəkildə isti mayenin içinə girirəm. Artıq dərin vannada oturduqdan gözəl qoxulu köpük içində əriyərək baxışlarımı Kristiana doğru qaldırmaq cəsarətini özümdə tapıram.

– Sadəcə fikirləşdim ki, onunla qarşılaşmasaydın, necə ola bilərdin. Əgər səni özünün... öz həyat tərzinə uyğunlaşdırmasaydı.

Kristian köksünü ötürür, digər tərəfdən vannaya girir, suyun altında mənə toxunmamağa çalışır. Çənəsi sıxılıb, gözlərində amansız soyuqluq var. Lənət şeytana, doğrudanmı mənim sözlərimdən bu qədər qəddarlaşıb?

Onun baxışları soyuqdur, simasındansa nə düşündüyünü oxumaq mümkün deyil. Susqunluq yenə də aramıza girib, amma mən anamın nəsihətini götürmüşəm. Sənin növbəndir, Qrey, bu dəfə səni suallarımla bezdirməyəcəm. Təhtəlşüurum əsəbi halda dırnaqlarını gəmirir – bəlli deyil iş nəylə bitəcək. Biz Kristianla bir-birimizi baxışlarımızla yeyirik, amma mən güzəştə getmək niyyətində deyiləm. Əbədiyyət keçir… nəhayət, o, başını yelləyir və dodağı qaçır:

– Əgər missis Robinson olmasaydı, bəlkə də mən anamın getdiyi yolu gedərdim..

Sarsılmış halda gözlərimi döyürəm. Narkoman olardınmı? Fahişəliklə məşğul olardınmı? Yoxsa ikisi bir arada?

– Onun eşq qəribəlikləri məni qane edirdi.

Nə? Lənət şeytana, o, nəyi nəzərdə tuturdu?

– –Qane edirdi— nə deməkdir?

– O, mənə əyri yola düşməyə imkan vermədi. – Kristian qətiyyətlə mənə baxır. – İdeal ailədə böyümək çətindir, əgər ideal deyilsənsə.

Yo-o-ox. Ağzım quruyur. O, gözlərini məndən çəkmir, üzündə sirli ifadə var, lakin açıq-aşkar görünür ki, öz sirlərini mənimlə bölüşmək fikri yoxdur. Ümidlərim boşa çıxdı... Məni əsməcə tutur. Kristian özünə nifrətlə coşub-daşır. Deməli, missis Robinson nə vaxtsa onu sevib. Lənət şeytana… indi də onu sevir? Həyəcanla köks ötürürəm, sanki kimsə ayağını qarnıma soxub.

– O, hələ də səni sevir?

– Çətin ki... – Kristian qaşqabağını tökür, sanki heç vaxt bu haqda düşünməyib. – Nə qədər təkrarlamaq olar: bu, çoxdan olub. Mən keçmişi dəyişə bilmərəm, hətta istəsəm belə. O, məni özümdən xilas edib. – Kristian acıqlı halda yaş əlini saçında gəzdirir. – Bunu heç kimlə müzakirə etməmişəm. Doktor Flinn istisna olmaqla. Bunu sənə danışmağımın yeganə səbəbi budur: istəyirəm ki, mənə inanasan.

– İnanıram, amma daha çox bilmək istəyirəm! Hər dəfə səninlə danışmaq istədikdə məni özündən itələyirsən.

– Ah... Tanrı xatirinə, Anasteyşa, nəyi bilmək istəyirsən? Mən nə etməliyəm ki? – Onun gözləri alışıb-yanır, hərgah səsi sakitdir, görürəm ki, Kristian qəzəbini güclə ram edir.

Tez baxışlarımı suyun altındakı əllərimə doğru endirirəm. Köpüklər partlamağa başlayır.

– Mən sadəcə, səni anlamağa çalışıram, sən mənimçün tapmacasan. Və xoşbəxtəm ki, suallarıma cavab verirsən.

Bəlkə məni ağılsızlığa sövq edən ―Kosmopoliten‖ günahkardır, amma aramızdakı məsafə mənə dözülməz görünür. Ona doğru yaxınlaşır, başımı sinəsinə qoyuram, dərim dərisinə dəyir. Kristian qəddini düzəldir və həyəcanla mənə baxır, sanki mən onu dişləmək istəyirəm. Bax bu cür daha yaxşıdır! Daxili ilahəm sakit maraqla Kristianı seyr edir.

– Xahiş edirəm, mənə acıqlanma, – pıçıldayıram.

– Acıqlanmıram, Anasteyşa. Sadəcə, mən bu cür sorğu-suala öyrəşməmişəm. Bu vaxtacan ancaq doktor Flinn və... – O hıqqanır və qaşlarını çatır.

– Missis Robinson? Yalnız onunla səmimi olursan? – İndi qəzəbi ram etməyə çalışıram.

– Hə.

– Nə haqda danışırsınız?

Suyu yerə sıçradaraq Kristian qəddini düzəldir, çiyinlərimi qucaqlayır və vannanın kənarına söykənir.

– Heç cür sakitləşə bilmirsən? – qıcıqlı halda donquldanır. – həyat, kainatın sirləri, biznes haqqında. Missis Robinsonla yüz ildir tanışıq, danışmağa sözümüz var.

– Məsələn, mənim barəmdə də?

– Sənin haqqında da.

Boz gözlər diqqətlə müşahidə edir.

Alt dodağımı dişləyir emosiyalara uymamağa çalışıram.

– Niyə məndən söz açırsınız?

Sızıldamaq və naz etmək xoşuma gəlmir, amma özümlə bacara bilmirəm. Çoxdan dayanmaq gərəkdir, ona çox təzyiq göstərirəm. Təhtəlşüurum yenə də Edvard Munk sayaq üzünü sallayıb.

– Heç vaxt sənə bənzərinə rast gəlməmişəm, Anasteyşa.

– Yəni? O birilər bircə sual belə vermədən dərhal müqaviləyə qol çəkiblər?

Kristian başını yelləyir.

– Mənim məsləhətə ehtiyacım vardı.

– Missis Pedofil sənə yaxşı məsləhət verib?

Sən demə, mən öz temperamentimi heç idarə edə bilmirəmmiş.

– Anasteyşa, bəsdir.

Zəhlə tökərək nazik buz qatı ilə təhlükəyə doğru gedirəm.

– Yoxsa səni döyəcəm. Bizi missis Robinsonla nə sevgi, nə də seksual münasibətlər birləşdirir. O, köhnə, mehriban dost və iş tərəfdaşıdır. Biz ümumi keçmişə malikik, mən onu çox qiymətləndirirəm, hərgah münasibətlərimiz onun nikahına son qoysa da, artıq hər şey keçmişdə qalıb.

Necə yəni? Axı o, hələ də ərdədir... Onlar bu müddətdə sudan necə quru çıxıblar?

– Bəs valideynlərin? Onlar bu qadını tanıyırdılar?

– Yox, – o bağırır, – nə qədər təkrarlamaq olar?

Deyəsən, mən lap ağ elədim.

Ondan bundan artıq söz qoparmaq olmaz.

– Sən bitirdinmi?

– Bu günlük.

Kristian dərindən köks ötürür, sanki çiyinlərindən ağır yük götürülüb.

– Yaxşı, indi mənim növbəmdir, – sakitcə deyir o, baxışları sərtləşir.

Alışıb allanıram. Sorğu-suala nifrət edirəm. Həm də hər dəfə nəyisə müzakirə eləmək istədikdə Kristian özündən çıxır. Başımı sağa-sola yelləyirəm. Yüzəyüz mənim hər şeylə maraqlanmam onda da eyni hissləri


kitabyurdu.blogspot.com

doğurur: Kristian özünə bəraət qazandırmağa alışmayıb. Bu fikir məni rahatlıqdan məhrum edir, məndə günah hissi oyadır.

– Mən hazırlaşırdım, amma sən elə qəfil gəlib çıxdın ki...

– Bu, kefini pozdu? – deyə o təmkinlə soruşur.

– Yox, sevindim, – pıçıldayıram.

– Yaxşı. – Kristian təbəssümdə əriyir. – Mən də gəlməyimə şadam. Sənin ehtiraslı sorğu-sualına baxmayaraq. Sənə görə bura gəldiyimçün sadəcə azacıq qorxuyla canını qurtaracağını düşünürsən? Heç ümid eləməyin, miss Stil. Mən daha çox bilmək istəyirəm.

Yo-o-ox…

– Axı dedim ki, sevindim. Və sənə minnətdaram, – donquldanıram.

– Dəyməz, miss Stil.

Onun gözləri parlayır. Kristian əyilir və məni öpür. Ani olaraq odlanıram. Suyun üzərindən hələ də buğ qalxır. O aralanır və yuxarıdan-aşağıya məni süzür.

– Yox, əvvəlcə mən bəzi şeyləri öyrənmək istəyirəm, sonra soruşacaqlarım var.

–Soruşacaqlarım var?‖ – yenə də bu söz. Onu nə maraqlandırır? Keçmişimdə sirr yoxdur, çətin uşaqlıq məsələsi də mənlik deyil. bundan artıq haqqımda nə bilmək istəyir? Bilmədiyi nə qalıb ki?

İtaətkarlıqla ah çəkirəm.

– Nəyi bilmək istəyirsən?

– Əvvəlcə de görüm, müqaviləmiz haqda nə düşünürsən?

Gözlərimi döyürəm. Həqiqət, yoxsa fant[1]? Təhtəlşüur və daxili ilahə əsəbi halda bir-birinə baxır. ―Lənət şeytana, qoy həqiqət olsun‖.

– Özümü bilməməzliyə vura bilmərəm. İstirahət günləri rol oynamaq mənlik deyil.

Alışıb allanır və baxışlarımı endirirəm.

Kristian çənəmi qaldırır və razılıqla gülümsəyir.

– Məncə də öhdəsindən gələ bilməzsən.

Özümü azca xətrinə dəyilmiş kimi hiss eləyirəm.

– Mənə lağ eləyirsən?

– Gülürəm, amma pis niyyətlə deyil.

Sonra əyilir və yüngülcə məni öpür.

– Sən pis köləsən, – o pıçıldayır, əliylə çənəmdən tutur, gözlərindənsə biclik yağır.

Heyrətlə ona baxır, sonra gülməyə başlayıram. Kristian mənimlə birgə gülür.

– Bəlkə müəllimim pis olub.

---

1 püşk oyunu; bu oyunda püşk üçün verilən şey; bu oyun iştirakçısının yerinə yetirməli olduğu tapşırıq


kitabyurdu.blogspot.com

– Ola bilər, – fınxırır. – Gərək səni boş buraxmayaydım.

Kristian məkrli təbəssümlə başını yana əyir.

Əsəbi halda udqunuram. İlahi, yox!.. Elə həmin andaca əzələlərim içəridə şirin bir tərzdə sıxılır. Bu, onun öz hisslərini ifadə eləmək üsuludur. Bəlkə ona yeganə əlçatan, deyə düşünürəm. Kristian reaksiyamı izləyir.

– Səni birinci dəfə şapalaqlamam dəhşətli idi?

Gözlərimi döyür və diqqətlə ona baxıram. Dəhşətli? Öz reaksiyamdan utanaraq xatırlayıram. Ağrıdırdı, amma indi o ağrı elə də dözümsüz görünmür. Kristian daim təkrarlayırdı ki, hər şey beyində baş verir. İkinci dəfəsə... məncə, həzzvericiydi.

– Yox, dəhşətli deyildi, – pıçıltıyla cavab verirəm.

– Əsas beyində baş verənlərdir? – o, iddia edir.

– Yəqin ki. Gözləmədiyin halda həzz duymaq.

– Məndə də eyni şey baş verirdi. Bəzi şeyləri həmin an dərk eləmirsən.

Lənət şeytana. Bu, uşaqkən onun başına gəlib.

– Xüsusi stop-sözlər var, Anasteyşa, onları unutma. Əgər mənim sənə nəzarət etmək və səni müdafiə eləmək tələbatlarımı əks etdirən qaydalara riayət eləməyə hazırsansa, bizdə hər şey alınacaq.

– Mənə nəzarət etməyin zəruridir?

– Bu tələbatımı cavanlığımda ödətdirə bilməmişəm.

– İndi bu, bir növ, terapiyadır?

– Belə də demək olar.

Bunu anlamaq gücündəyəm; bu, mənə kömək edəcək.

– Bircə ziddiyyət var: sən müqavimət göstərməməyi mənə buyurursan, sonrasa deyirsən ki, itaətsizliyim xoşuna gəlmir. Mənimçün çox nazik həddir.

Bir anlığa mənə baxır, sonra üzünü turşudur.

– Başa düşürəm, amma bu vaxtacan öhdəsindən gəlmisən.

– Amma nəyin bahasına? Sanki daim iynə üstə oturmuşam!

– İynə üstə? Hə, pis fikir deyil, – gülümsəyir.

– Birbaşa mənada nəzərdə tutmurdum! – Əlimi suya çırpıram, su ona çilənir.

– Bunu bilərəkdən elədin?

– Yox.

Lənət… belə baxma!

– Miss Stil, – Kristian məni özünə tərəf çəkir, suyu sıçradır, – sizə elə gəlmir ki, biz boş yerə çənə döyürük?

O, sifətimi ovucları arasına alır və zorla ağzıma sahib olur. Başımı geri atır. Boğuq inilti çıxarıram. Kristian vəziyyətə tam nəzarət edir, o bunu bacarır. İçimdə alov şöləsi yaranır, barmaqlarımı onun saçlarına keçirir və öpüşə öpüşlə cavab verirəm. İnləyərək Kristian məni qaldırır və üstünə

oturdur. Altımda onun ehtirasdan dikəlmiş s..ini duyuram. O, məni pozğun nəzərlə seyr edir. Əllərimi endirir, vannanın kənarlarından yapışmağa çalışıram, amma o, biləklərimdən yapışır, əllərimi arxaya keçirir və bir əliylə saxlayır.

– İndi sənə soxacam, – o pıçıldayır və məni özündən yuxarı qaldırır. – Hazırsan?

- Hə, – pıçıldayıram və bu an o, məni öz s..inin üstünə oturdur; bilərəkdən yavaş-yavaş, hər bir andan həzz alaraq.

İniltiylə gözlərimi qapadır və uzanan duyğudan həzz alıram. Kristian əyilir, mən həyəcanla köks ötürürəm, irəli əyilir və alnımı onun alnına dayayıram.

- Xahiş edirəm, icazə ver, sənə toxunum, – pıçıldayıram.

- Yox, mənə toxunmağa cəsarət eləmə! – o yalvarır və biləklərimi buraxaraq ovuclarını ombalarma qoyur.

Vannanın kənarlarından yapışaraq mən asta-asta hərəkət edirəm; gözümü ondan əsla çəkmirəm. Kristian məni izləyir. Onun ağzı yarıaçıqdır, o, kəsik-kəsik və güclə hiss ediləcək tərzdə nəfəs alır, dişlərinin arasından dili parlayır. Kristian elə şəhvani görünür ki... nəm bədənlərimiz sürüşkəndir. Əyilib onu öpürəm. O, gözlərini qapadır. Barmaqlarımla saçlarını darayır və dartıram; başını geri çəkirəm, amma dodaqlarımı qoparmıram. Buna icazə var: bu, ikimizin də xoşuna gəlir. Birgə hərəkət

edirik. Öpüşüm daha da dərinləşir, var gücümlə –çapıram‖: ritmi daha da sürətləndirərək. Kristian məni atıb-tutur; cəld, daha cəld... Nəm ağızlar, bir-birinə dolaşmış saçlar, yaş ombalar. Orqazma yaxınam… artıq onun şirin sıxılmasını duyuram. Və su... su ətrafda dalğalanır, burulğan bizi içinə çəkir, hərəkətlərimiz amansız və şiddətli olur, sıçrantılar hər tərəfə yayılır və eyni burulğan içimdə tüğyan edir... vecimə də deyil bundan sonra nə olacaq.

Onu sevirəm! Onda doğurduğum duyğulaa, onun ehtirasına və coşquya görə. Qitənin o başından uçub gəldiyinə görə onu sevirəm.. məni sevdiyinə görə. Bu elə qəfil, elə heytranedicidir ki... o mənimdir, mənsə ona məxsusam.

– Hə, nooldu, – Kristian pıçıldayır.

Və mən partlayıram, orqazm məni sarsıdır, coşqun, amansız, dağıdıcı... Qəfildən Kristian məni bağrına basır – mənimlə birgə qurtarır.

– Ana, balacam! – o bağırır və onun ehtiraslı çığırtısı qəlbimin ən dərin guşəsinə daxil olur.

Qarnı üstə uzanmış, üstümüzü mələfəylə örtmüşük. İri çarpayıda balışı qucaqlayaraq göz-gözə, – boz və mavi, – qalmışıq. Çılpağıq, amma bir-birimizə toxunmuruq.


kitabyurdu.blogspot.com

– Yatmaq istəyirsən? – Kristian yumşaq tərzdə soruşur. O, çox gözəldir, ağ Misir mələfələri saçların və mənalı boz gözlərin rənginə kölgə salır. Kristian düşüncəli görünür.

– Yox, yorulmamışam.

Özümdə güc axını duyuram; bu elə əladır ki... sadəcə danışmaq istəyir, özümü saxlaya bilmirəm.

– Nə istəyirsən? – soruşur.

– Çərənləmək.

O gülümsəyir.

– Nə haqda?

– Boş-boş şeylər haqda.

– Boş şeylər haqda?

– Sənin barəndə.

– Mənim?

– Xoşladığın film hansıdır?

O gülümsəyir.

– İndi ―Pianino‖.

Onun təbəssümü yoluxucudur.

– Hə, əlbəttə, bunu bilməliydim! Kədərli, həyəcanlandırıcı melodiya... Yəqin ki, onu ifa da edə bilirsən. Uğurlarınız sayagəlməzdir, mister Qrey.


kitabyurdu.blogspot.com

– Onların ən yaxşısı sizsiniz, miss Stil.

– Deməli, sayım on yeddidir.

O qaşqabağını sallayır, heç nə anlamır.

– On yeddi?

– Qadınları nəzərdə tuturam, sizin... sekslə məşğul olduğunuz.

Kristian dodaqlarını əyir, şübhəylə gülümsəyir.

– Heç də elə deyil.

– Dedin ki, onların sayı on beş olub!

Xəcalətim  açıq-aşkar görünür.

– Mən oyun otağında səninlə birgə olmuş qadınları nəzərdə tuturam. Amma ən soruşmamısan ki, ümumiyyətlə, neçə qadınım olub.

– A…

Lənət şeytana… bundan da çox… nə qədər çox?

– Sən vanil seksdən danışırsan?

– Yox, vanil seks yalnız səninlə olub. – O, başını yelləyir, hələ də gülümsəyir.

Burda gülməli nə var ki? Və niyə mən, səfeh qız gülümsəyirəm – ona cavab olaraq?

– Bilmirəm sayı nə qədər idi, mən çarpayının dirəyində sayı bildirən işarələr qoymuram.

– Mən say qaydasında soruşuram. Onlarla? Yüzlərlə?.. Minlərlə?

Hər bir sualla gözlərim genişlənir.

– İlahi, rəhm elə! Onlarla... bu sayda qalaq.

– Hamısı kölə?

– Bəli.

– Bəsdir gülümsədin, – hökmlə deyirəm, əbəs yerə üzümü turşutmağa çalışaraq.

– Bacarmıram, sən elə qəribə qızsan ki.

– ―Qəribə‖ sözü ―xüsusi‖ mənasını verir, yoxsa yelbeyin?

– Həm bu, həm də o biri.

O, sözlərimi təkrarlayır.

– Deyəsən, məni cırnadırsınız.

Kristian burnumun ucunu öpür.

– Hazırlaş, Anasteyşa. Sənə deyəcəyimdən sarsılacaqsan. Hazırsan?

Başımla təsdiqləyir, üzümdəki səfeh ifadəni saxlayıram.

– Bütün kölələr peşəkarlardır. Sietldə, şəhərdən kənarda bu təlimi verən yerlər var.

Nə?

– Oy.

– Əfsus, seksə görə pul ödəmişəm, Anasteyşa.


kitabyurdu.blogspot.com

– Heç də fəxr etməli şey deyil, – təkəbbürlə donquldanıram. – Haqlısınız, sarsılmışam. Və hirslənirəm ki, sizi hövsələdən çıxarmaq üçün heç nəyim yoxdur.

– Mənim alt paltarımı geyinmisən.

– Doğrudanmı bu, sizi şoka salıb?

– Hə.

Daxili ilahəm şüvüllə tullanmaqda on beş futluq hündürlüyü fəth edir.

– Valideynlərimlə tanışlığa isə tumansız gəlmişdin.

– Burda şoka salacaq nəsə var?

– Hə.

İlahi, on altı futluq hündürlük...

– Deməli, bu sahədə bütün uğurlarım alt paltarla bağlıdır.

– Ən böyük şoku sən bakirə olduğunu etiraf eləyərkən yaşadım.

– Hə, həmin an sifətinizə baxmağa dəyərdi, – hırıldayıram.

– Səni qamçılamama izn verdin.

– Necə, bu da şok idi?

– Hə.

Gülümsəyirəm.

– Təkrarlaya bilərik.

- Buna çox ümid edirəm, miss Stil. Yaxın istirahət günlərinə nə deyirsiniz?

- Yaxşı, – utanaraq razılaşıram.

- Doğrudan?

- Hə, mən yenidən Qırmızı otağa daxil olacam.

- Məni adımla çağırırsan.

- Bu da şok edir?

- Xoşuma gəldiyindən şok edir.

- Kristian.

Onun dodağı qaçır.

- Sabaha bəzi planlarım var.

Onun gözləri ehtirasla yanır.

- Hansı planlar?

- Qoy bu, sürpriz olsun, – yumşaq tərzdə deyir o.

Qaşlarımı qaldırır və eyni zamanda əsnəyirəm.

- Sizi yordum, miss Stil? – Kristian istehzayla maraqlanır.

- Əsla.

Kristian başım üstündən əyilir və incə tərzdə dodaqlarımı öpür.

- Yat, – deyə əmr edir və işığı söndürür.


kitabyurdu.blogspot.com

Gözlərimi qapadır, yorğun və yetərincə tox halda özümü siklonun düz mərkəzində hiss eləyirəm. Lakin onun bütün dediklərinə və gizlətdiklərinə baxmayaraq, hələ heç vaxt belə xoşbəxt olmamışam.


kitabyurdu.blogspot.com

## 24-cü fəsil

Kristian yırtıq cins şalvarda dəmir qəfəsdə dayanıb və mənə baxır. O ağadır və qurşağadək çılpaqdır. Gözəl simasında cırnadıcı təbəssüm var, boz gözlər şölə saçır. Əlində çiyələkli boşqab var. Atlet məlahətiylə Kristian qəfəsə yaxınlaşır və çubuqlar arasından yetişmiş şirəli giləmeyvəni uzadır.

- Səninçündür, – Kristian deyir, onun dili ilk səslə çölə çıxır.

Ona doğru addım atmaq istəyirəm, amma görünməz qüvvə məni tutub saxlayır. Buraxın məni!

- Ye, səninçündür, – işarəylə çağıraraq o gülümsəyir.

Giləmeyvəyə sarı dartınıram, əfsus… buraxın da! Qışqırmaq istəyirəm, amma boğazımdan əsla səs çıxmır. Kristian əlini uzadır, giləmeyvəni dodaqlarıma yaxınlaşdırır, adımın hər bir hərfini həzzlə çəkir:

- Ye, Anasteyşa.

Ağzımı açır və dişləyirəm, qəfəs yox olur, biləklərim azaddır. Ona sarı dartınıram, barmaqlarım astaca onun sinəsindəki qıllara dəyir.

- Anasteyşa.

–Yox! İnləyirəm.

- Oyan, balaca.

–Yox, sənə toxunmaq istəyirəm!‖

- Qalx.

–Yox, xahiş edirəm!‖

Göz qapaqlarımı güclə bir-birindən qoparıram. Kimsə burnunu qulağıma toxundurur.

- Oyan, balaca, – zərif səs pıçıldayır və əzələlərimə yayılır. Lap ərimiş karamel kimi.

Bu Kristiandır. Pəncərə arxasında qaranlıqdır. Yuxudakı obrazlar məni rahat buraxmır, cırnadır və utandırırlar.

- Yox…

Geriyə, füsunkar yuxuma qayıtmaq, çılpaq sinəyə qısılmaq istəyirəm. Deməli, o məni gecənin yarısında yuxudan oyadır? Lənət şeytana. Doğrudanmı seksə görə?

- Qalxmaq vaxtıdır, balaca. İndi işığı yandıracam, – Kristian sakitcə deyir.

- Yox!

- Səninlə şəfəqi qarşılayacağıq, – o deyir, göz qapaqlarımı, burnumun ucunu və dodaqlarımı öpür.

Gözlərimi açıram.

- Sabahın xeyir, gözəl, – Kristian pıçıldayır.

Yanıqlı inilti çıxarıram, osa hiyləgərcəsinə gülümsəyir.

- Yuxudan yaman tez durmusan.

Kristian başım üzərindən əyilir. Özündənrazıdır. Hirslənmir. Və geyimlidir! Başdan-ayağa qara rəngdə...

- Elə bildim məni seksə görə yuxudan qaldırmısan, – donquldanıram.

- Anasteyşa, səninlə seksdən heç vaxt imtina eləmərəm. İstəklərimi paylaşman da xoşuma gəlir, – quru tərzdə deyir.

Tədricən gözlərim işığa alışır. Kristian özündənrazı görünür… Tanrıya şükür.

- Etiraz eləmirəm, amma bu vaxt yox.
- İndi gecə deyil, sübh vaxtıdır. Qalx, getməliyik. Seks sonraya qalır.
- Elə yuxu görürdüm ki… – şıltaqlıqla deyirəm.
- Yuxuna nə girmişdi ki?

Kristian səbir təcəssümüdür.

- Sən.

Allanıram.

- Yuxunda bu dəfə nəylə məşğuldum?

- Mənə çiyələk yedizdirirdin.

Onun dodaqları əyilir.

- Doktor Flinn bütün günü bunu çözməyə çalışardı. Hə-ə, qalx və geyin görək. Duşa girmə, onu sonra qəbul edərik.

–Biz!‖

Çarpayıda otururam, mələfə çılpaq bədənimdən sürüşüb düşür. Kristian ayağa qalxır, mənə hərəkət rahatlığı verməkçün kənara çəkilir; gözləri tündləşir.

- Saat neçədir?

- Altının yarısı.

- Adama elə gəlir ki, gecə saat üçdür.

- Vaxtımız azdır. Səni son dəqiqəyə qədər oyatmadım. Qalx.

- Duş qəbul edə bilmərəm?

Kristian köks ötürür.

- Əgər duşa girsən, mən də girmək istəyəcəm və bütün günümü itirəcəm.

Kristian həyəcanlanıb və sanki oğlan uşağı kimi döyüşə can atır. Onun coşqusu məni gülümsəməyə məcbur edir.

- Nə edəcəyik ki?

- Sürpriz, məgər unutmusan?


kitabyurdu.blogspot.com

Mən təbəssümümü ram edə bilmirəm.

- Yaxşı.

Yerimdən qalxıram. Əlbətə ki, paltarım səliqəylə çarpayının yanındakı kürsünün başına qoyulub. Onun Cersidən, –Ralf Loren‖dən olan (başqa cür ola da bilməz!) tuman-şortu da ordadır. Onları əynimə geyirəm və Kristian gülümsəyir. Kolleksiyamın daha bir qəniməti: Kristian Qreydən alt paltarı, maşın, –Blekberri‖, –mak‖, qara gödəkcə və Tomas Hardinin ilk nəşrinə əlavə. O elə səxavətlidir ki... Başımı yelləyir və –Tess‖dən olan məşhur çiyələk səhnəsini xatırlayıb qaşqabağımı tökürəm. Hə, deməli, yuxumun mənbəyi odur! Cəhənnəm olsun doktor Flinn – Freyd; Əlli Çaları təhlil edərək tər tökməm lazım gələcək.

- Bir halda ki durmusan, sənə mane olmayacam, – Kristian çıxıb gedir, mənsə hamam otağına yollanıram. Tualetə və yuyunmağa ehtiyacım var. Yeddi dəqiqə sonra yuyunmuş və daranmış halda qonaq otağında Kristiana qoşuluram. Əynimdə cins şalvar, bluz köynək və alt paltarı var.

Kristian nahar süfrəsi arxasında oturub. Nahar! Həm də bu vaxt!

- Ye, – deyir o.

İblis… yuxum. Ağzı açıla halda dayanmış, onun çölə çıxmış dili haqda düşünürəm. Onun dili...

- Anasteyşa, –o deyir... məni xəyallardan ayıraraq...

Yox, bu, mənimçün çox tezdir. Heç nəyi mədəmə dürtə bilmərəm.

– Çay içəcəm, kruassanı isə sonra yeyərəm, yaxşı?

Kristian inamsız halda mənə baxır və mən təbəssümdə əriyirəm.

– Bayramı qara günə çevirmə, Anasteyşa, –incə tərzdə xəbərdarlıq edir o.

– Sonra yemək yeyərəm, mədəm oyandıqda. Səkkizin yarısında olar?

– Olar, – o razılaşır, amma baxışları hələ də sərtdir.

Doğrudan-doğruya. Özümü güclə əldə saxlayıram ki, üzümü əyib-büzməyim.

- Göz süzdürmək istəyirəm.

- Utanma. Qorxutmağa şey tapdın da, – o, sərt halda tələffüz edir.

Tavana baxaraq gözlərimi qıyıram.

- Məncə, kötəkləmə yuxudan oyanmaqdan ötrü yaxşı vasitədir.

Düşüncəli halda dodaqlarımı şişirirəm.

Kristianın çənəsi yerə dəyir.

- Başqa bir tərəfdən, özündən çıxacaqsan, həm də tərləyəcəksən, buranın iqlimini nəzərə aldıqda. – Günahsız görkəmlə çiyinlərimi çəkirəm.

Kristian ağzını qapadır və əbəs yerə üzünü turşutmağa çalışır. Gözlərinin içində oynaşan şən qığılcımları görürəm.

- Kobudluğunuzun həddi-hüdudu yoxdur, miss Stil. Yaxşısı budur ki, öz çayınızı içəsiniz.

Masada ―Tvayninqs‖ var, qəlbim nəğmə oxuyur. ―Gördün ki, o unutmayıb‖, – təhtəlşüurum deyir. Kristianla üzbəüz oturur, onun gözəlliyindən məst oluram. Görəsən, haçansa bu kişidən gözüm doyacaqmı?

Qonaq otağının qapısında Kristian mənə gödəkcə verir.

- Karına gələr.

Təəccüblə ona baxıram.

- Götür, peşman olmazsan, – Kristian gülümsəyir, üzümü marçıldadır və əlimdən tutaraq küçəyə çıxarır.

ġəfəqöncəsi hava bizi sərinliklə qarşılayır. Mehmanxana əməkdaşı Kristiana füsunkar üstüaçıq idman maşınının açarlarını uzadır. Mən sual dolu nəzərlə ona baxıram, gülümsəyir.

- Bəzən özüm olmaq xoşuma gəlir, – deyir Kristian... hiyləgər və özündənrazı təbəssümlə, bunu təsvir eləmək gücündə deyiləm. Kristian füsunkardır. O, qədərindən artıq təzimlə mənimçün maşının qapısını açır və mən içəri keçirəm. Kristianın kefi çox kökdür.

- Hara gedirik?

- Görərsən, – gülümsəyir, motoru işə salır, Savanna-parkveyə çıxır. GPS-naviqatoru işə salaraq cihaz panelindəki düyməni basır və salon klassik musiqiyə bələnir.

Yüzlərlə skripkanın səsi bizi əsir götürür.

- Bu nədir?


kitabyurdu.blogspot.com

- ―Traviata‖. Verdinin operası.

İlahi, necə də gözəldir.

- ―Traviata‖? Tanış sözdür, xatırlamıram onu harda eşitmişəm. Mənası nədir?

- Təxminən ―əxlaqsız qadın‖. Opera Düma-oğulun ―Kameliyalı qadın‖ının süjetinə əsasən yazılıb.

- Hə, onu oxumuşam.

- Buna şübhə etmirdim.

- Talesiz kurtizan qadın... – geniş dəri oturacaqda qurcalanıram. O mənə nəsə demək istəyir? – Çox kədərli hekayətdir.

- Çox qüssəli? Özün musiqini seçmək istəyirsən? Mənim aypodumdan. – Kristianın simasında artıq mənə tanış olan təbəssüm var.

Aypodu heç yerdə görmürəm. Kristian barmaqlarıyla panelə toxunur və orda pley-list peyda olur.

- Seç.

Onun dodaqları hiyləgərcəsinə əyilir və başa düşürəm ki, o məni sınayır.

Nəhayət ki, onun aypoduna əlim yetdi! Baxışlarımı siyahıda gəzdirirəm. Ggözəl bir mahnı seçir və canlandırma düyməsini basıram. Heç vaxt bilməzdim ki, o, Britninin heyranıdır. ―Miks‖in musiqisi qulaq batırır,

odur ki, Kristian səsi azaldır. Ola bilsin ki, öz partlayıcı temperamenti ilə Britnini dinləmək hələ çox tezdir.

- Bu ―Toxic‖dir, yox? – Kristian üzünü qırışdırır.

- Başa düşmürəm nəyi deyirsən.

Üzümə günahsız ifadə verirəm.

Kristian səsi daha da azaldır və mən fikrən şadyanalıq edirəm. Daxili ilahəm iftixarla pyedestalın ən yuxarı pilləsində dayanır. Kristian səsi azaltdı. Qələbə!

- Bu mahnını yazdırmamışam, – naqolay şəkildə deyir və məni kürsüdən yapışmağa məcbur edərək ayağını qazın pedalına basır.

Nə? Əclaf!.. O, bunu bilərəkdən elədi! O yazdırmayıbsa, bəs onda kim? Britnisə mahnısını heç cür bitirə bilmir. O olmayıbsa, onda kim?

Nəhayət, mahnı bitir, qüssəli Dəmien Raysa növbə çatır. Axı kim? Pəncərəyə baxıram, içimdə hər şey bir-birinə qarışır. Kim?

– Bunu Leyla edib, – o, səslənməmiş suala cavab verir. O, bunu necə bacarır?

– Leyla?

– Keçmiş qızlardan biri bunu mənim aypoduma yazıb. – Dəmien arxa plana keçir, mən kar olmuş halda oturmuşam.

Onun keçmiş kölэsi. Keçmiş…

– On beşdən biri?


kitabyurdu.blogspot.com

– Hə.

– Onun axırı nə oldu?

– Ayrıldıq.

– Niyə?

İlahi... Münasibətləri ayırd etmək üçün günün bu vaxtı heç münasib deyil. amma Kristian sakit görünür, hətta xoşbəxt və ən mühümü: söhbətcil.

– O daha çox şey istədi, – o sakit və düşüncəli tərzdə deyir.

Onun sözləri aramızda asılı qalır. Yenə də bu ifadə: ―daha çox istəmək‖.

– Bəs sən yox? – deyirəm. Lənət şeytana, cavabı bilmək istəyirəmmi?

Kristian başını yelləyir.

– Səndən əvvəl heç vaxt daha çox istəməmişəm.

Nəfəsim kəsilir, başım hərlənir. İlahi!.. Doğrudanmı bu həqiqətdir? Deməli, o da... o da daha çox istəyir! Daxili ilahəm geriyə salto tullanışı edir və stadionda dövrə vurur.

– O biri on dörd kölənin aqibəti necə oldu?

―Bu fürsət bir daha ələ düşən deyil!‖ – təhtəlşüurum pıçıldayır.

– Sənə siyahı gərəkdir? Boşanma, boynu vurulsun, öldü?

– Sən Səkkizinci Henrix deyilsən.

– Yaxşı, qısa desək, Yelenanı çıxmaqla, dörd qadınla ciddi münasibətlərim olub.

– Elen?

– Səninçün missis Robinson. – O, yenə də sirli təbəssümlə gülümsəyir.

Yelena! İblis! Zülmün adı varmış, həm də yadelli. Solğun dərili, qarasaç, qırmızıdodaq vampir-qadın fikrən gözümün qarşısındadır. ―Onu başından dərhal çıxar!‖ – daxili səsimi eşidirəm.

– Hə, o birilərin aqibəti necə olub? – soruşuram, Elen haqda düşünməmək üçün.

– Sizdən heç nə gizlətmək mümkün deyil, miss Stil, – Kristian zarafatla deyinir.

– Doğrudanmı, mister ―Aybaşınız-nə-vaxtdır‖?

– Anasteyşa. Kişiyçün bunu bilmək vacibdir.

– Vacibdir?

– Mənimçün hə.

– Niyə?

– Hamilə qalmanı istəmirəm.

– Heç mən də istəmirəm. Ən azı, yaxın bir neçə ildə.

Kristian heyrətlə gözlərini döyür, sonra rahatlıqla köks ötürür. Deməli, o, uşaq istəmir. İndi, yoxsa ümumiyyətlə? Qəfil səmimilikdən

başım hərlənir. Bəlkə yuxudan erkən oyandığımız üçün? Yoxsa Corciyanın havasına insanı etiraflara sövq edən nəsə qarışdırılıb? Ondan, başqa nə soruşum? Carpe Diem[1].

– O dörd qadın necə oldu?

– Biri başqasına rast gəldi, üçü daha çox istədi. Lakin bu, planlarıma daxil deyildi.

– Bəs o birilər?

Kristian mənə köntöy baxaraq başını yelləyir.

– Yox, bu cür söhbətimiz alınmayacaq.

Deyəsən, ağını çıxardım. Üzümü pəncərəyə sarı çevirir və göydə çəhrayı-akvamarin rəngli zolağın necə genişləndiyini görürəm. ġəfəq bizi izləyir.

– Hara gedirik? – soruşur, həyəcanla I-95 şosesinə baxıram. Hələlik bircə şey aydındır: cənuba doğru hərəkət edirik.

– Hava limanına.

– Sietlə qayıdırıq? – həyəcanla soruşuram. Axı mən anamla xudahafizləşməmişəm! İlahi, o, şam yeməyinə bizi gözləyir!

Kristian gülür.

– Yox, Anasteyşa, biz ikinci ehtirasıma vaxt ayıracağıq.

---

[1] Latın dilindən tərcümədə "anı əldən buraxma" deməkdir.



kitabyurdu.blogspot.com

– İkinci?

Qaşqabağımı tökürəm.

– Bəli, məhz ona. Birincini səhər xatırlatmışam.

Onun yonulmuş profilini seyr edərək dediyini təsəvvürümə gətirməyə çalışıram.

– Siz, miss Stil, mənim başlıca tutqumsunuz. Və mən ona həmişə və hər yerdə sadiqəm.

Ah, işə bir bax…

– Etiraf etməliyəm ki, eyiblərim və qəribəliklərim sırasında siz də yüksək qiymətə maliksiniz, – qızararaq donquldanıram.

– Bunu eşitməyə şadam, – quru tərzdə deyir o.

– Hava limanında neyləyəcəyik ki?

Kristian gülümsəyir.

– Planerçiliklə məşğul olacağıq.

Planerçiliklə? Bu sözü ondan ilk dəfədir ki eşidirəm.

– Biz şəfəqi ötüb keçəcəyik, Anasteyşa. – Kristian təbəssümlə mənə sarı çönür, naviqatorsa ona sağa dönmək göstərişi verir, anqara sarı. Kristian maşını böyük, ağ binanın qarşısında saxlayır. Binadan asılmış lövhədə ―Bransvik planerçilər cəmiyyəti‖ sözləri yazılıb.

Uçmaq! Biz göydə pərvaz edəcəyik!

Kristian motoru söndürür.

– Razısan?

– Bəs sən uçacaqsan?

– Hə.

– Səninlə uçaram! – deyirəm.

Kristian əyilir və məni öpür.

– Yenə bir ilk, miss Stil, – maşından düşərkən deyir.

İlk dəfə? O, nəyi nəzərdə tutur? İlk dəfə səmada? Lənət şeytana! Yox, axı o, planerizmdə yeni adam deyil! rahatlanaraq köks ötürürəm. Kristian maşın ətrafında dövrə vurur və mənimçün qapını açır. Tək-tük buludlar allanmış solğun opal rəngli səmada asılı qalıb. ġəfəq bizi gözləyir.

O, əlimdən tutur və biz təyyarələrin olduğu nəhəng beton meydançaya gedirik. Meydanın kənarında başıqırxıq və dəlisov baxışlı naməlum bir şəxs bizi gözləyir. Onunla yanaşı Teylor dayanıb.

Teylor! Kristian onsuz qolsuz adam kimidir. Ona baxaraq gülümsəyirəm, Teylor da mənə baxaraq işıq saçır.

- Mister Qrey, yedək təyyarənin pilotu mister Mark Benson. – Teylor deyir. Kristian və Benson bir-birinin əlini sıxır, küləyin sürəti, istiqamət və digər incəliklər barədə söhbətə baş vururlar.

- Salam, Teylor, – sakitcə deyirəm.

- Miss Stil, – başının hərəkətiylə məni salamlayır.

Qüssələnirəm.

- Ana, – Teylor düzəliş edir və xəlvət-xəlvət mənə göz vurur. – Axır vaxtlar onunla bacarmaq olmur. Yaxşı ki, burdayıq.

Bacarmaq olmur. Bax a! Burda mənim günahım əsla yoxdur! Bu gün etiraflar günüymüş. Yoxsa Corciyanın suyu hamını buna məcbur edir? Hamı ürəyini boşaltmaq istəyir?

- Anasteyşa, – Kristian əlini mənə uzadır, – gedək.

- Görüşənədək! – Teylora baxaraq gülümsəyirəm və o, mənə hərbi salam verərək dayanacağa sarı yollanır.

- Mister Benson, bu mənim gölfrendim Anasteyşa Stildir.

Bir-birimizin əlini sıxırıq.

- Tanışlığa şadam, – donquldanıram.

Bensonun dodaqları genişlənir.

- Qarşılıqlıdır, – o, cavab verir. Ləhcə onun ingilis olduğunu ələ verir.

Kristianın əlindən tuturam və içimdə hər şey baş-ayaq olur. Səmada pərvaz eləmək! İnanılmazdır! Mark Bensonun ardınca beton meydançada uçuş-eniş zolağına yollanırıq. Onlar qarşıdakı uçuşu müzakirə edirlər. Mən söhbətin mahiyyətini tuta bilirəm. Biz –Blanik L-23‖də uçacağıq, bu model L-13-lə müqayisəedilməzdir, amma mübahisəli məsələdir. Benson –Payper Pauni‖də uçacaq. O, artıq beş ildir ki, planerlərə yedəkçilik edir. Bütün bu

təfsilatlar mənimçün heç bir məna kəsb eləmir, amma Kristian öz havasındadır və onu müşahidə eləmək əsl həzzdir.

Planerin uzanan ağ böyründə narıncı zolaqlar çəkilib. Kiçicik kabinədə iki oturacaq var: biri o birinin arxasında. Ağ tros planeri adi birmotorlu təyyarəylə birləşdirir. Benson pleksiqlas qübbəni açaraq bizi kabinənin içinə dəvət edir.

– Əvvəlcə paraşütləri bağlamaq gərəkdir.

–Paraşüt!‖

– Mən özüm. – Kristian kəmərləri Bensondan alır.

– Mənsə hələlik ballastı götürməyə gedim, – o, gülümsəyərək deyir və təyyarəyə doğru gedir.

– Görürəm məni qayışlarla bağlamaq xoşuna gəlir, – quru tərzdə deyirəm.

– Miss Stil, boşboğazlıq etməyin. Bura gəlin.

Əmrə itaət edərək əlimi Kristianın çiyninə qoyur və onun gərilən əzələlərini duyuram, amma o, yerindən tərpənmir. Ayaqlarımı ilgəklərə qoyuram, Kristian paraşütü dartır, mənsə əllərimi stroplara keçirirəm. Cəld bərkidiciləri şaqqıldadaraq o, kəmərləri yoxlayır.

– Hə, hazırdır, – Kristian sakitcə deyir, amma boz gözlərdə təhlükəli alov var. – Saç üçün rezin qaytanın varmı?

Başımla təsdiqləyirəm.


kitabyurdu.blogspot.com

– Yuxarı qaldırım?

– Hə.

Buyrulduğu kimi eləyirəm.

– İçəri gir, – Kristian əmr edir.

Onun səs ahəngində o qədər sakit amiranəlik var ki...

Arxada oturmaq istəyirəm, amma Kristian buna imkan vermir.

– Yox, qabaqda. Arxada pilot oturur.

– Axı heç nə görməyəcəksən!

– Mənə bu da bəs edir, – gülümsəyir.

Kristianı heç vaxt belə xoşbəxt görməmişəm. Amiranə, amma xoşbəxt. Kabinənin içinə girirəm: dəri oturacaqlar çox yumşaqmış. Kristian başım üstündən əyilir, çiyinləri düzəldir, sonra ayaqlar arasından kəməri çıxararaq qarındakı karabini şaqqıldadır və stropları yoxlayır.

– Hm, səhərdən iki dəfə, bəxtəvər, – o donquldanır və üzümü marçıltıyla öpür. – Havada iyirmi-otuz dəqiqə olacağıq. Səhər elə də isti olmur, şəfəq vaxtı uçuşun isə tayı-bərabəri yoxdur. Həyəcanlanırsan?

– Həzzi indidən duyuram, – deyib gülümsəyirəm.

Nəyə sevinirəm? Əslində, bədənimin hansısa hissəsi qorxudan tir-tir əsir. Daxili ilahəm divanın altına girib, başını da adyalla örtüb.

– Yaxşı. – Kristian təbəssümlə gözdən itir.


kitabyurdu.blogspot.com

Onun kabinəyə necə girdiyini eşidirəm. Kristian kəmərləri çox möhkəm sıxıb, odur ki, ona sarı çevrilə bilmirəm. Təəccüblənmirəm. Qarşımda siferblat var, dəstəklər və nəsə anlamadığım bir şey. Nə deyim, bundan da pis ola bilərdi.

Dodaqlarındakı təbəssümlə Mark Benson peyda olur. O, stropları dartır, sonra başını kabinəyə soxaraq döşəməni yoxlayır. Yəqin ki ballastla nəsə edir.

– Hər şey qaydasındadır. İlk dəfədir?

– Hə.

– Xoşunuza gəlir.

– Çox sağ olun, mister Benson.

– Məni Mark deyə çağırın. – O, Kristiana sarı çevrilir. – Qaydasındadır?

– Hə.

Yaxşı ki, nahar eləmədim. Emosiyalarla dolub-daşıram. Çətin ki, mədəm yerdən ayrılmağa dözə bilərdi. Yenə də taleyimi bu məharətli kişinin ixtiyarına verirəm. Mark kabinənin damını örtür, öz təyyarəsinə doğru gedir və kabinənin içində yox olur.

Təyyarənin motoru taqqıldayır, hissiyyatlı mədəm boğazımadək yuxarı qalxır. İlahi... doğrudanmı bu, mənim başıma gəlir? Mark təyyarəni asta-asta zolaq boyu aparır, tros dartılır, təkan... və planer yerdən ayrılır.


kitabyurdu.blogspot.com

Radio donquldanır. Yəqin ki, Mark dispetçerlə danışır, amma sözləri ayırd etmək olmur. Planer sürət yığır, əməlli-başlı silkələnirik. İlahi, havaya nə vaxt qalxacağıq? Nəhayət, biz yerdən qopururq.

– Uçuruq, balaca! – Kristian qışqırır. Öz şəxsi köpüyümüzdə pərvaz edirik; iki nəfərçün bir köpük. Yalnız küləyin vıyıltısı və yedək təyyarənin motorunun uzaq səsi eşidilir.

Oturacağın kənarlarından elə möhkəm yapışmışam ki, barmaqlarımınm sümükləri ağarıb. Qərbə istiqamət götürmüşük; daha da yuxarı qalxır, zəmilər, meşələr, evlər üzərindən uçaraq İ-95 şosesini adlayırıq. Mərhəmətli Tanrı!.. Başımız üzərində yalnız səma, yayğın və zərif günəş işığı var. Mən Xosenin fotoqrafların şəfəqöncəsi anı haqda dediyi sözləri xatırlayıram... və ecazkar işıqda Kristianla birgə səmada pərvaz edirəm.

Söz düşmüşkən, Xosenin sərgisini tamam unutmuşam. Bunu Kristiana demək lazımdır. Maraqlıdır, görəsən mənə nə cavab verəcək? Qulaqlarım tutulur, yüksəkliyi artırır, Yerdən daha çox uzaqlaşırıq. Yuxarıda səssizlikdir. Deyəsən, Kristianı anlamağa başlayıram. Gündəlik qayğılardan, heç vaxt susmayan ―blekberri‖dən uzaqda, səmada pərvaz eləmək...

Radio oyanır və Mark bizə xəbər verir ki, üç min futluq yüksəkliyə qalxmışıq. İnanılmazdır! Baxışlarımı endirirəm, altda boşluq görünür.

– Endir, – Kristian radioyla deyir və qəfildən təyyarə gözdən itir, həm də elə bir hiss yaranır ki, biz irəli dartınırıq. Corciya üzərində sərbəst şəkildə pərvaz edirik.

Lənət, bu əladır! Küləyin səmtinə itaət edərək planer yavaş-yavaş yüksəkliyi itirir, havada sakitcə sürüşür. İkar, indi mən səni anladım! Mən düz Günəşə sarı uçuram. Amma Kristian da mənimlədir, o məni istiqamətləndirir və səhər işığında biz birgə pərvaz edirik.

– Möhkəm tut! – Kristian çığırır və biz yenidən səmaya baş vururuq. Qəfildən baş-ayaq vəziyyətə düşür, kabinənin şəffaf qapağından yeri görürəm.

Gurultulu ciyiltiylə əllərimlə pleksiqlasdan yapışır və Kristianın gülüşünü eşidirəm. Əclaf! Amma onun şadyanalığı elə yoluxucudur ki, planer əvvəlki vəziyyətinə döndükdə onunla birgə gülürəm.

– Yaxşı ki nahar yemədim! – qışqırıram.

– Ola bilər. Çünki bunu təkrarlamağa hazırlaşıram.

O, yenidən planeri çevirir, amma indi buna hazıram. Kəmərlərdən asılı qalaraq baş-ayaq sallanmış və səfehcəsinə hırıldayıram. Kristian planeri ilkin vəziyyətinə qaytarır.

– Hə, necədir? – qışqırır.

– Adam dəli olar!


kitabyurdu.blogspot.com

Biz səhər günəşinin şüaları altında aşağı enir, külək və sükutu dinləyirik. Bundan gözəl nə ola bilərdi?

– Qarşındakı dəstəyi görürsənmi? – Kristian qışqırır.

Ayaqlarım arasında azca yellənən nəsnəyə baxıram. Yo-ox, onun ağlındakı nədir?

– Ondan yapış.

İblis! O, planeri idarə etməyimi istəyir? Əsla!

– Hə, Anasteyşa! – Kristian çığırır.

Ürkək-ürkək dəstəkdən tutur və pərlərin yellənməsini duyuram, ya da bu şoğəribi havada saxlayan nədisə onu.

– Möhkəm tut... düz. Siferblatı görürsən? Əqrəbi izlə, o tən ortada dayanmalıdır.

Ürəyim sinəmdən qopmağa hazırdır. Lənət şeytana! Mən planeri idarə edirəm... uçuram!

– Afərin! – Kristian manevrimi dəstəkləyir.

– Doğrudanmı mənə rəhbərlik etməyə izn verəcəksən?

– Siz hələ çox heyrətlənəcəksiniz, miss Stil, qarşıda o qədər iznlər olacaq ki... İndi də mən.

Dəstək dartınır, onu buraxıram, planer daha bir neçə fut aşağı enir, qulaqlarım yenə də batır. Yer getdikcə yaxınlaşır. Mənə elə gəlir ki, indicə, bu saat yerə çırpılacağıq. Yo-ox!


kitabyurdu.blogspot.com

– Bransvik, bu Bi-Ci-En Pi-Z-Ey-dir, soldan külək istiqamətində yeddinci zolağa enirəm. Bransvik, qəbul.

Kristian yenidən özü olur: amiranə müstəbid. Qüllə cavab verir, amma çıtırtıdan sözləri ayırd edə bilmirəm. Geniş çevrələr edərək yavaş-yavaş enirik. Hava limanını görürəm; eniş-uçuş zolaqları... yenidən şosenin üzərindən adlayırıq.

– Möhkəm ol, balaca, indi silkələnməyə başlayacaq.

Sonuncu dairə, güclü təkan və biz quduz sürətlə otlaq üzərinə enirik, titrəmədən dişlərimizi bir-birinə döyərək. Nəhayət, planer dayanır və silkələnib sağ böyrü üstə yıxılır. Mən rahatlanaraq dərindən köks ötürürəm. Kristian qapağı qaldırır, kabinədən çıxır və qəddini düzəldir.

– Xoşuna gəldimi? – o soruşur, boz gözlərdəsə qığılcımlar oynaşır. Kristian əyilir, mənim stroplarımı açır.

– Əlbəttə, çox sağ ol, – nəfəsimi buraxıram.

– Bu gün sənə daha çoxunu verdimmi? – ümidlə soruşur.

– Hətta yetərindən artıq, – pıçıldayıram və o gülümsəyir.

– Bura gəl.

Kristian əlini uzadır və mən kabinədən çıxıram.

Yerə tullanmağa macal tapmamış məni qucaqlayır. Bir əli saçlarımı geri dartır, başımı arxaya sallamağa məcbur edir, o biri əli kürəyimlə aşağı enir. Kristian məni öpür, uzun-uzadı və ehtirasla, onun dili ağzımın içinə

girir, tənəffüsü xırıltılı olur… Aman Tanrım, ereksiya... axı biz meydançanın tən ortasında dayanmışıq! Amma dünya vecimə deyil. Əllərim onun saçlarında daraqlanır, Kristianı daha da mənə doğru çəkir. Onu burda istəyirəm, indi, yerdə. O məndən qopur, ehtirasdan qaralmış gözləriylə – inad istək. Nəfəsim tutulur.

– Nahar, – o, ehtirasla pıçıldayır.

Onun dodaqları ilə müqayisədə bekonlu qayğanaq haram təam kimi görünür. Bunu necə bacarır?.. Kristian çönür, əlimdən tutur və cəld maşına doğru addımlayır.

– Bəs planer?

– Onunla məşğul olan tapılar, – qısaca deyir. – Biz yemək yeməliyik.

Yemək! O, hansı yeməkdən danışır, axı mən şəhvətdən yanıb kül oluram?

– Di gedək, – Kristian gülümsəyir.

Onu heç vaxt bu cür görməmişəm... baxmağa dəyər. Biz yanaşı addımlayırıq, sifətimdə səfeh gülüş ifadəsi donub-qalıb. Mən Disneylenddə Reylə keçirdiyimiz günü xatırlayıram. O vaxt on yaşım vardı. deyəsən, bu gün o zamandan pis keçmədi.

Biz Savannaya qayıdırıq. Telefonumdan siqnal eşidilir. Hə, həblər.

– Bu nədir? – Kristian maraqla gözlərini qıyır.

Kosmetika çantamda eşələnirəm.


kitabyurdu.blogspot.com

– Həb qəbul edilməsi haqda siqnal, – qızarmış yanaqlarla donquldanıram.

– Afərin. Prezervativə nifrət edirəm.

Daha da allanıram. Sən bir qayğıkeşliyə bax!

– Marka məni gölfrendin kimi təqdim etmən xoşuma gəldi, – astaca deyirəm.

– Məgər belə deyil?

Kristian qaşlarını qaldırır.

– Gölfrend? Məncə, sən kölə istəyirdin.

– İstəyirdim, Anasteyşa və istəyirəm. Amma sənə demişəm, mənə daha çox lazımdır.

İlahi!.. Doğrudanmı o dəyişir? Ümidlə dolub-daşır və sevincdən boğuluram.

– Bu həqiqətdirsə, xoşbəxtəm, – pıçıldayıram.

– Məqsədimiz müştərini qane etməkdir, miss Stil.

Kristian hiyləgər cildlə maşını –Beynəlxalq oladya evi‖nin qarşısında dayandırır.

– Oladyalar, – gülümsəyirəm. İşə bax ha! Heç vaxt ağlıma gəlməzdi. Kristian Qrey yeməkxanaya baş çəkib!

Səhər saat 8.30-dur, amma zalda seyrəklikdir. Xəmir, qızarmış yağ və dezinfeksiya vasitələrinin qoxusu gəlir. Hm… qoxu elə də cəzbedici deyil. Kristian məni kabinəyə aparır.

– Buranın daimi müştərisi olduğunu bilmirdim, – deyirəm.

– Atam xəlvətcə məni bura gətirirdi, anam tibbi konfranslara gedərkən.

Kristian gülümsəyir, boz gözlərdə qığılcımlar oynaşır. Menyuya baxıram, o, əllərini sürüşən saçlarda gəzdirir.

Onun kəkilini necə də pırtlaşdırmaq istəyirəm! Menyunu götürərək necə möhkəm acdığımı anlayıram.

– Nə istədiyimi bilirəm, – Kristian xırıltılı səslə tələffüz edir.

Gözlərimi qaldırıram və onun baxışından qarnımın əzələləri burulur, təngnəfəs oluram. Lənət şeytana! Qanım damarlarımda guruldayır, onun çağırışına cavab verir.

– Mən də sən istəyəni istəyirəm, – pıçıldayıram.

O, ətrafa boylanır.

– Burda? – Kristian ikibaşlı təbəssümlə qaşlarını qaldırır və dilinin ucunu dişlərində gəzdirir.

İlahi... yeməkxanada seks.

Qəfildən Kristian qüssələnir.

– Bəsdir dodağını dişlədin, – deyir. – İndi vaxtı deyil.

Onun baxışı sərtləşir və bir anlığa Kristian elə təhlükəli görünür ki!..

– Bir halda ki səni burda s..ə bilməyəcəm, məni yoldan çıxarma.

– Salam, adım Leandradır. Nə mən... sizə... təklif... edə bilərəm... uşaqlar?

Leandra qeyd kitabçasından gözlərini ayırır və mister Mükəmməlliyə baxaraq odlanır. Kəkələyən qıza bir qırçın mərhəmət ani olaraq yox olur: Kristian mənə də eyni cür təsir edir! Yaxşı ki, qızın müdaxiləsi onun əxlaqsız baxışından gizlənməyə macal verir.

– Anasteyşa? – o, ofisiant qıza baxmadan soruşur. Adıma bu qədər şəhvəti necə calaya bilir görəsən?

Əsəbi halda udqunur, ümid edirəm ki, yanaqlarım biçarə Leandranınkı kimi al qırmızı deyil.

– Axı dedim, sən istəyəndən, – xırıltılı səslə donquldanıram.

Kristian məni acgöz nəzərlərlə yeyir. İlahi, daxili ilahəm huşsuz vəziyyətə düşür. Yox, bu oyunlar mənlik deyil!

Leandra baxışını məndən Kristiana doğru və əksinə çevirir. Yanaqların rəngi onun açıq kürən çalarını alır.

– Hələ qərara gəlməmisiz?

– Yox, bilmirik nə istəyirik. – Kristianın dodaqları şəhvani təbəssüm şəkli alır. –İki porsiya oladya – ağcaqayın şirəsiylə və bekonla, iki portağal


kitabyurdu.blogspot.com

şirəsi, südlü qara qəhvə və ingilis çayı, əgər varsa, – məndən gözünü çəkmədən deyir o.

– Sifarişçün çox sağ olun, ser. Vəssalam? – Leandra cidd-cəhdlə kənara baxır. Biz eyni zamanda gözlərimizi qaldırırıq, ofisiant qız allanır və tələsik uzaqlaşır.

– Bilirsənmi, bu düzgün deyil. – Süfrədəki plastikdə naxışlar çəkir, özümü təmkinli saxlamağa çalışıram.

– Düzgün deyil?

– İnsanları bu cür valeh etmək düzgün deyil. Qadınları... məni.

– Səni valeh edirəm?

Mən –hm‖ deyə mızıldanıram.

– Daim.

– Bu yalnız görüntüdür, Anasteyşa, – incə tərzdə deyir o.

– Yox, Kristian, yalnız görüntü deyil.

O, qaşlarını çatır.

– Mən yox, siz məni valeh eləmisiniz, miss Stil. Biryolluq və geridönməz. Öz gözütoxluğunuzla valeh etmisiniz. Yerdə qalanlar önəmli deyil.

– Buna görə də fikrini dəyişdin?

– Fikrimi dəyişdim?

– Hə, bizimlə bağlı …


kitabyurdu.blogspot.com

Kristian düşüncəli halda uzun barmaqlarıyla çənəsini sığallayır.

– Yox, dəyişməmişəm. Biz sadəcə vurğuları qoymamalıyıq, əgər istəyirsənsə. Bizdə alınacaq, buna əminəm. Sən oyun otağında kölən olacaqsan. Qaydaları pozduqda səni cəzalandıracam. Yerdə qalanına gəlincə… sənin dəlillərinə qulaq asmağa hazıram. ġərtlərim belədir, miss Stil. Razısınız?

– Deməli, səninlə yata bilərəm? Sənin çarpayında?

– Bunu istəyirsən?

– Hə.

– Yaxşı. Səninlə bir yerdə doyunca yata bilirəm, özüm də bilmirəm niyə. – Kristian qaşlarını çatır və susur.

– Qorxuram ki, məni atasan: əgər şərtlərini qəbul etməsəm, – yavaşca deyirəm.

– Səndən heç yerdə qaça bilmərəm, Anasteyşa. Həm də ki… – Kristian kəkələyir və azca düşündükdən sonra əlavə edir: – …bu, sənin tərifindir – kompromis. Məktubunda yazmışdın. Bu, mənə yarayır.

– Mənə daha çox şey vermək istədiyinə görə xoşbəxtəm, – utanaraq donquldanıram.

– Bilirəm.

– Bilirsən? Hardan?

– Sadəcə bilirəm, – Kristian gülümsəyir. O nəyisə gizlədir. Amma nəyi?

Leandra sifarişlə birgə peyda olur və biz bir müddət susuruq. Mədəm aclıqdan quruldayır. Kristian boşqabı acgözlüklə boşaltmama razılıqla tamaşa edir.

- Səni qonaq edə bilərəm? – soruşuram.

- Qonaq edə?

- Yeməyin pulunu verməyi nəzərdə tuturam.

- Yox əşşi, – gülümsəyir.

- Xahiş edirəm! Kristian

üzünü turşudur.

- Məni əməlli-başlı qadın itaətkarı etmək istəyirsən?

- Sadəcə yeganə yerdir ki, burda iki nəfərin haqqını ödəyə bilərəm.

- Anasteyşa, sənin səyini qiymətləndirirəm, amma bundan imtina etməyə məcburam.

Dodaqlarımı kip sıxıram.

- Bəsdir qaşqabağını tökdün, – məni dümsükləyir.


kitabyurdu.blogspot.com

Kristian hara gedəcəyimiz barədə heç nə demir. Onun izləmə tutqusu sərhəd tanımır. O, maşını anamın evi qarşısında saxladıqda bu faktı şərhsiz saxlayıram. Hər şey onsuz da bəllidir.

- İçəri keçəcəksən? – ürkək ahənglə soruşuram.
- İşlərim var, amma axşam gələcəm. Neçədə?

Məyusluğuma güc gəlmək istəyirəm. Axı niyə bu seksual müstəbid olmadan yaşaya bilmirəm? Hə-ə, mən onun dərdindən dəli-divanəyəm. Üstəlik o, uça da bilir.

- Çox sağ ol… mənə daha çox bəxş edirsən.
- Dəyməz, Anasteyşa.

O, məni öpür və mən yenidən onun füsunkar qoxusunu içimə alıram.

- Tez qayıt.
- Məni saxlamağa cəhd eləmə, – o pıçıldayır.

Vidalaşarkən əl yelləyirəm və Kristian günün parlaq işığında yox olur. Əynimdə onun gödəkcəsi və şortu var mən istidən bişirəm.

Mətbəxdə təlaş hökm sürür. Anam hər gün şam yeməyinə multimilyonçunu gözləmir axı. O, tamamilə əldən düşüb.

- İşlər necədir, əzizim? – anam soruşur və mən od tutub qızarıram, axı bu axşam nəylə məşğul olduğum ona məlumdur.
- Yaxşı. Kristianla planerdə uçduq.
- Planerdə? Bu nədi belə, motorsuz təyyarə?

Başımla təsdiqləyirəm.

- Bax ha!

Anam nitq qabiliyyətini itirir, əslində bu, ona xas xüsusiyyət deyil. Özünə gələrək o, sorğu-sualı davam etdirir:

- Bəs gecə? Söhbət etdiniz?

Lənət! Rəng verib-rəng alıram.

- Gecə də, səhər də söhbətləşdik. Deyəsən, bəzi şeyləri aydınlaşdırdıq.

- Lap yaxşı.

Anam mətbəx masasına qoyulmuş dörd aşpaz kitabına baş vurur.

- Ana, istəyirsənsə, şam yeməyini özüm hazırlayaram.

- Yox, balaca, sən çox qayğıkeşsən, amma mən özüm eləmək istəyirəm.

- Yaxşı, – köks ötürürəm.

Anamın kulinar şedevrləri zay etmək adəti mənə yaxşı məlumdur. Amma kim bilir, bəlkə bu dəfə bir şey alındı? Ola bilsin ki, Savannaya köçdükdən sonra o, öz aşpaz məharətini daha yaxşılaşdırıb. Elə vaxtlar olub ki, onun bişirdiyinin heç düşmənimə də qismət olmasını istəməmişəm. Yalnız missis Robinson istisnadır… Yelena. Bax ona bir damcı da rəhm etmərəm! Görəsən, bu zalım qadını görmək mənə qismət olacaqmı?

Gərək Kristiana məktubla təşəkkür eləyəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Pərvaz etmək, yoxsa kötəkləmək?

Tarix: 2 iyun 2011, 10:20 ġVQ

Kimə: Kristian Qrey

Sən demə, qızı əyləndirə bilirsənmiş.

Çox sağ ol.

Ana

öpücüklər

Kimdən: Kristian Qrey

Mövzu: Pərvaz etmək, yoxsa kötəkləmək?

Tarix: 2 iyun 2011, 10:24 ġVQ

Kimə: Anasteyşa Stil

Pərvaz etmək, yoxsa kötəkləmək – nə fərqi var, hər şey sənin xorultundan yaxşıdır. Mən də vaxtı əla keçirdim. Amma burda təəccüblənəsi nə var ki. Axı vaxtı səninlə keçirdim.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru


kitabyurdu.blogspot.com

Kimdən: Anasteyşa Stil

Mövzu: XORULTU?

Tarix: 2 iyun 2011, 10:26 ġVQ

Kimə: Kristian Qrey

MƏN XORULDAMIRAM! Əgər xoruldayıramsa da, bunu mənə demək ədəbsizlikdir. Siz centlmen deyilsiniz, mister Qrey! Bir də ki unutmayın, siz Cənubdasınız!

Ana

Kimdən: Kristian Qrey

Mövzu: ġübhə

Tarix: 2 iyun 2011, 10:28 ġVQ

Kimə: Anasteyşa Stil

Məgər mən nə vaxtsa centlmen adına iddialı olmuşam? Davranışım buna sübutdur. Nahaq yerə zəhmət çəkirsiniz: Sizin DƏHġƏTLİ baş hərfləriniz məni əsla qorxutmadı. Etiraf edim ki (bu, xilas üçün deyilən yalandır), Siz xoruldamırsınız, yuxuda danışırsınız. Bu, çox gözəldir!

Öpüşüm niyə yox oldu?

Kristian Qrey, –Qrey enterprayzes‖in baş direktoru



kitabyurdu.blogspot.com

İblis! Yuxuda danışdığımı bilirəm, bunu Keytdən də soruşa bilər. Amma lənət şeytana, görəsən, nə danışmışam? Yo-ox!

Kimdən: Anasteyşa Stil
Mövzu: Sirri açın
Tarix: 2 iyun 2011, 10:32 ģVQ
Kimə: Kristian Qrey

Siz kobud əclafsınız və yüzəyüz centlmen deyilsiniz. Dərhal cavab verin: yuxuda nə demişəm? Və bir daha heç bir marçıltılı öpüş gözləməyin, cavab verməyə qədər.

Kimdən: Kristian Qrey
Mövzu: Boşboğaz yuxulu qadın
Tarix: 2 iyun 2011, 10:35 ģVQ
Kimə: Anasteyşa Stil

Yuxuda dediyinizi təkrarlamaq mənim tərəfimdən ədəbsizlik olardı, həm də ki bir daha kobudluq eləməkdən ehtiyatlanıram. Amma özünüzü

ədəbli aparsanız, bunu axşam Sizə etiraf edə bilərəm. İndisə işgüzar görüşə getməliyəm.

Hələlik, balaca.

Kristian Qrey, ədəbsiz və əclaf, ―Qrey enterprayzes‖in baş direktoru

Di yaxşı! Axşam balıq kimi ağzıma su alacam. Əsəbdən partlayıram. Doğrudanmı ona nifrət etdiyimi yuxuda etiraf eləmişəm? Ya da bundan da betər, sevdiyimi? Ümid edirəm ki, yox. Mən Kristiana sevgi etirafı etməyə hazır deyiləm. İnanmıram ki, o, sevgi etirafımı eşitməyə hazırdır, hətta özü istəsə belə. Qaşqabağımı tökürəm, ekrana baxır və qərara gəlirəm: mütləq çörək bişirəcəm.

Anam şam yeməyinə qaspaço şorbası və qrildə bişmiş, zeytun yağı, sarımsaq və limonla turşuya qoyulmuş steyk məsləhət bilib. Kristian ət xoşlayır, resept çox sadədir: Bob barbekyu hazırlığı görür. Kişilər və onların oda olan sevgisi haqda düşünərək supermarketdə anamın ardınca arabanı sürüyürəm.

Əti seçirik və bu vaxt telefon zəng çalır. Zəngə cavab verirəm – birdən Kristian olar deyə? Nömrə tanış deyil.

– Eşidirəm.

– Anasteyşa Stil?

– Bəli.

– Bu, SİP-dən Elizabet Morqandır.

– Hə-ə, salam!

– Sizə mister Cek Haydın köməkçisi vəzifəsini təklif edirik. Bazar ertəsi işə çıxmağa hazırsınız?

– Hazıram! Çox sağ olun!

– Bilirsiniz nə qədər əməkhaqqı veririk?

– Hə, hə… mənə… yəni mən razıyam.

– Əla. Bazar ertəsi sizi gözləyirik, doqquzun yarısında.

– Hələlik. Çox sağ olun.

İşıq saçaraq anama tərəf çevrilirəm.

– İşə düzəlmisən?

Mən sevinc hissiylə başımla təsdiqləyirəm, anam ciyildəyir və düz –Pabliks‖ supermarketin ortasında boynuma sarılır.

– Təbrik edirəm, əzizim! ġampan almaq lazımdır!

Anam atılıb-düşür və əl çalır. Fikirləşmək olar ki, onun qırx iki yox, on iki yaşı var!

Baxışlarımı ekrana endirirəm. Kristiandan cavabsız zəng. Qüssələnirəm. O, hələ mənə zəng eləməyib. Çox fikirləşmədən nömrəni yığıram.


kitabyurdu.blogspot.com

– Anasteyşa, – o, dərhal cavab verir.

– Salam, – utanaraq donquldanıram.

– Mən Sietlə qayıtmalı olacam. Hilton-Hedə gedirəm. Mənim yerimə anandan üzr istə.

Səsin ahəngi işgüzar və ciddidir.

– Xoşagəlməz heç nə yoxdur ki?

– Bəzi problemlər var. Cümə günü görüşərik. Səni hava limanında görməsəm, Teyloru göndərəcəm.

Kristianın səsi acıdır; demək olar ki, acıqlıdır, amma ilk dəfədir ki, onun bu əhvali-ruhiyyəsini öz səhvlərimlə əlaqələndirmirəm.

– Ümid edirəm, hər şey yaxşı olacaq. Yaxşı yol!

– Salamat qal, balaca, – nəfəsini buraxır və mən yenidən öz Kristianımın səsini eşidirəm. Sonra telefon danışığı bitir.

Yo-ox. Onun sonuncu problemi mənim bakirəliyim idi. İlahi, ümid edirəm, bu dəfə oxşar bir şey yoxdur. Anama baxıram. Onun coşqusu həyəcanla əvəzlənir.

– Bu Kristian idi, o, Sietlə qayıtmalı oldu. ġam yeməyinə gələ bilməyəcəyinə görə üzrxahlıq elədi.

– Heyif, əzizim! Amma biz barbekyunu təxirə salmarıq, sənin yeni iş yerini –yuyarıq‖. Mən hər şeyi təfsilatıyla bilməliyəm.


kitabyurdu.blogspot.com

Axşam anamla hovuz kənarında uzanmışıq. İndi, artıq mister Meqabaksla şam yeməyi təhlükəsi arxada qaldıqdan sonra, o rahatlanır; demək olar ki, üfüqi vəziyyətədək. Heç olmasa, azca özümü günə vermək istəyirəm və dünənki gecə, bugünkü səhər haqda düşünürəm. Kristian haqda düşünürəm və dodaqlarım ixtiyarsız olaraq qaçır. Söhbətimizi və elədiklərimizi... onun elədiyini xatırlayıram və dodaqlarım daha geniş qaçır.

Kristian çox dəyişib, bunu inkar etsə də... Ancaq mənə daha çox şey verəcəyini etiraf edir. Bu, nə vaxt baş verib? Bəzən uzun məktublar yazan Kristian və dünənki Kristian – müxtəlif adamlardır. Mənsiz o, nə işlə məşğul olub? Qəfildən otururam, az qala ―Doktor Pepper‖i dağıdacaqdım. O nahar edib… həmin qadınla. Yelenayla.

İblis!

Məni titrəmə tutur. O qadın Kristiana nə deyib? Axı niyə mən milçək deyiləm və divara qonaraq onların söhbətinə qulaq asa bilmirəm? Sonra da birbaş şorbaya, ya da şərab dolu qədəhə düşə bilmirəm ki, Yelenanı zəhərləyim!

– Noolub, Ana, əzizim? – anam özünə gələrək soruşur.

– Heç nə, sadəcə dəli oluram. Saat neçədir, ana?

– Təxminən yeddinin yarısı, əzizim.

Hm… təyyarə hələ yerə enməyib. Ondan soruşum? Bəlkə məsələ Yelenada deyil? Mən buna ümid edirəm. Yuxuda nə demişəm? Lənət…


kitabyurdu.blogspot.com

mərc gəlirəm ki, bir neçə mənasız söz demişəm. Bununla belə, ümid edirəm ki, dəyişikliklər Kristianın qəlbində baş verir və bunun həmin qadına aidiyyatı yoxdur.

İstidən bişirəm. Suya girmək lazımdır.

Kimdən: Anasteyşa Stil

Mövzu: Təyyarə yerə endimi?

Tarix: 2 iyun 2011, 22:32 ġVQ

Kimə: Kristian Qrey

Möhtərəm ser, zəhmət olmasa, Sietlə rahat çatmanızı mənə xəbər verin. Həyəcanlanmağa başlayıram.

Həmişə düşüncələrimdəsiniz.

Sizin Ana

öpücüklər.

Üç dəqiqə sonra siqnal səslənir.

Kimdən: Kristian Qrey

Mövzu: Günahkaram

Tarix: 2 iyun 2011, 19:36



kitabyurdu.blogspot.com

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, artıq yerə enmişəm. Üzrxahlığımı qəbul edin ki, vaxtında məlumat verməmişəm. Sizi boş yerə narahat eləmək istəmədim, amma inanın, narahatlığınız qəlbimi riqqətə gətirdi. Siz də daim düşüncələrimdəsiniz. Ümid edirəm, sabah görüşəcəyik.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Köks ötürürəm. Yenə də bu rəsmi ton.

Kimdən: Anasteyşa Stil

Mövzu: Problem

Tarix: 2 iyun 2011, 22:40 ġVQ

Kimə: Kristian Qrey

Möhtərəm mister Qrey, doğrudanmı sədaqətimə şübhə edirsiniz? Ümid edirəm, probleminiz həll olundu.

Sizin Ana

öpücüklər

P.S. Yuxuda söylədiklərimi mənə necə etiraf eləmək fikrindəsiniz?

Kimdən: Kristian Qrey

Mövzu: Konstitusiyaya Beşinci düzəliş

Tarix: 2 iyun 2011, 19:46

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, qayğınızı yüksək qiymətləndirirəm. Problem həll edilmədi. Postskriptuma gəldikdə, cavab ―yox‖dur.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Anlaqsızlığa düzəliş

Tarix: 2 iyun 2011, 22:48 ġVQ

Kimə: Kristian Qrey

Sizə gülməli görünməyimə şübhə etmirəm. Doğrudanmı anlamaq çətindir ki, mən yaddaşsızlıq haqda danışmışam? Yəqin səhv eşitmişsiniz. Sizin yaşınızda azacıq karlıq üzrlü səbəbdir.

Kimdən: Kristian Qrey

Mövzu: Günahkaram

Tarix: 2 iyun 2011, 19:52

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, bağışlayın, bir az ucadan danışa bilərsiniz? Sizi eşitmirəm.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Yenə də anlaqsızlığa düzəliş

Tarix: 2 iyun 2011, 22:54 ġVQ

Kimə: Kristian Qrey

Ağlımı başımdan alırsınız.

Kimdən: Kristian Qrey

Mövzu: Ümid edirəm ki…

Tarix: 2 iyun 2011, 19:59

Kimə: Anasteyşa Stil

Əziz miss Stil, məhz bunu Cümə günü etməyə hazırlaşıram. Axşamı gözləyə bilmirəm;


kitabyurdu.blogspot.com

Kristian Qrey, –Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu:R-r-r-r-r-r

Tarix: 2 iyun 2011, 23:02 ğVQ

Kimə: Kristian Qrey

Yetər. Məni əməlli-başlı özümdən çıxardınız.

Gecəniz xeyrə qalsın.

Miss Bərkimiş Polad[1]

Kimdən: Kristian Qrey

Mövzu: Vəhşi Pişik

Tarix: 2 iyun 2011, 20:05

Kimə: Anasteyşa Stil

Üstümə bağırmağa cəsarət edirsiniz, miss Stil?

---

[1] İngiliscədən tərcümədə "Steel" soyadı "polad" kimi tərcümə olunur (*tərc.*)

Nahaq yerə, bundan ötrü mənim vəhşi pişiyim var.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Pişik? Nəsə heç bir pişiyi xatırlamıram. Yox, ona cavab verməyəcəm. Bəzən Kristian tamamilə dözülməz olur. Əlli dözülməz çalar. Yatağa girir və tavana baxıram, gözlərim zülmətə alışanadək. Poçta daxil olan məktubun siqnalını eşidirəm. Baxmayacam. Əsla. Heç niyyətim də yoxdur. Yox, bu nə qara-quradır! Kristianın ovsunu qarşısında tab gətirmək olmur.

Kimdən: Kristian Qrey

Mövzu: Sənin yuxuda söylədiyin

Tarix: 2 iyun 2011, 20:20

Kimə: Anasteyşa Stil

Anasteyşa, yuxuda söylədiyin sözləri gerçəkdə eşitmək istərdim, buna görə də onları deməyəcəm. Yaxşısı budur ki, gedib yatasan. Sabah axşam nəylə məşğul olacağımızı nəzərə alaraq doyunca yatsan yaxşıdır.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru



kitabyurdu.blogspot.com

Yo-ox… Nə söyləmişəm ki? Doğrudanmı hər şey düşündüyüm kimi çox pisdir?


kitabyurdu.blogspot.com

## 25-ci fəsil

Anam məni möhkəm qucaqlayır.

– Qəlbinin harayına qulaq as, əzizim və bəsdir içini yedin. Rahatlan və həzz al. Sən hələ cavansan, günəşim! Hələ o qədər görəcəklərin var ki!.. Olacağa çarə yoxdur. Sən ən yaxşısına layiqsən.

Onun səmimi sözləri məni kövrəldir. Saçlarımı öpür.


kitabyurdu.blogspot.com

– Anacan. – Qəfil göz yaşları gözlərimi yandırır və mən onun qucağına atılıram.

– Bilirsən, məsəl var: bəzən şahzadəyə rast gəlməzdən öncə çoxlu sayda qurbağa öpmək lazım gəlir.

Üzümdə əyri təbəssüm peyda olur.

– Deyəsən, öz şahzadəmə rast gəlmişəm, ana. Əminəm o, qurbağaya çevrilməyəcək.

O gülümsəyir: sədaqətli və əfvedici ana təbəssümüylə. Anamı o qədər sevirəm ki!..

– Ana, sənin reysindir, – Bob həyəcanla deyir.

– Mənə baş çəkəcəksən, ana?

– Əlbəttə, əzizim, tezliklə. Səni sevirəm.

– Mən də səni.

Anamın gözləri islaqdır. Ondan ayrılmaya nifrət edirəm. Bobu qucaqlayıram, çevrilir və düz darvazaya sarı gedirəm. Geriyə baxmayacam, amma dözə bilmirəm. Bob anamı qucaqlayır, onun üzündən yaş damçıları axır. Tələsmək lazımdır; başımı endirir və məyus halda dəhlizlə gedirəm, parlaq döşəmə isə gözlərim önündə sanki dalğalanır.

Təyyarədə, komfortda və biznes-klassın zənginliyi olmadan sakitləşməyə çalışıram. Hər dəfə bu başıxarab, arsız, bəsirətli olmuş anamla


kitabyurdu.blogspot.com

vidalaşdıqda ürəyim tikə-parça olur. O, məni sevir. Təmənnasız eşq uşaqların valideynlərindən aldığı bəxşişdir.

Kristian eşqdən nə anlayır ki? Uşaqlıqda o, hamının layiq olduğu valideyn nəvazişindən məhrum qalıb. Ürəyim sıxılır, anamın sözləri yüngül meh kimi qulağımın yanından keçir: ―İstəyirsən ki, o, öz eşqini alına neon lampaları ilə yazsın?‖ O, Kristianın məni sevdiyinə əmindir, amma o anamdır, başqa cür düşünə bilərmi? Anamın fikrincə, mən ən yaxşı qismətə layiqəm. Qüssələnirəm. Və qəfildən aydın şəkildə anlayıram ki, hər şey çox sadədir. Mən Kristian Qreyin eşqini istəyirəm. Qəlbimin ən dərin guşəsində sevgi və qayğıya ehtiyac var, buna görə də qəribə münasibətlərimizi aşkarlamaq-tanıtmaq istəmirəm.

Məhz Əlli çalar məni təmkin nümayiş etdirməyə məcbur edir. Səmimi hisslə bu cür qəribə münasibətlər arasında uçurum mövcuddur. Onunla sekslə məşğul olmaqçün sinov gedirəm. Kristian varlı və gözəldir, amma bu önəmli deyil – əgər məni sevmirsə. Ən çox qorxduğum şey onun, ümumiyyətlə, sevə bilməməsidir. Hətta özünü. Onun özünə qarşı nifrətini, onu qane edən münasibətlərdə olduğu yeganə qadını xatırlayıram. Həmin qadın onu kötəkləyib, döyüb və o, bu fikrə gəlib ki, sevgiyə layiq deyil. Niyə bunu ağlına yeridib? Bu fikrə necə gəlib çıxıb? Kristianın sözləri mənə rahatlıq vermir: ―Özün ideal deyilsənsə, ideal ailədə böyümək çətindir‖.

Gözlərimi qapadır, onun ağrısını təsəvvürümə gətirirəm, amma nə duyduğunu təsəvvürümə gətirə bilmirəm. Diksinirəm. Görəsən, çoxmu boşboğazlıq etmişəm? Yuxuda hansı sirləri çölə tökmüşəm?

–Blekberri‖yə baxır, bulanıq ümidlə cavab gözləyirəm. Əfsus, telefon Kristianın sirlərini mənimlə bölüşməyə tələsmir. Nə qədər ki yerdəyik, öz Əlli Çalarıma məktub yazmaq qərarına gəlirəm.

Kimdən: Anasteyşa Stil

Mövzu: Evə

Tarix: 3 iyun 2011, 12:53 ġVQ

Kimə: Kristian Qrey

Əziz mister Qrey!

Yenə də biznes-klassın üstünlüklərindən həzz alıram. Çox sağ olun. Axşamaqədərki dəqiqələri sayıram, o zaman gecə etiraflarım barədə bütün həqiqətləri Sizdən öyrənəcəm.

Sizin Ana

öpücüklər.

Kimdən: Kristian Qrey

Mövzu: Evə


kitabyurdu.blogspot.com

Tarix: 3 iyun 2011, 09:58

Kimə: Anasteyşa

Anasteyşa, tezliklə qarşılamaq ümidiylə.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kədərlənirəm. Necə də quru və rəsmi cavabdır, onun gündəlik hazırcavab və lakonik üslubuna heç bənzəmir.

Kimdən: Anasteyşa Stil

Mövzu: Evə

Tarix: 3 iyun 2011, 13:01 ġVQ

Kimə: Kristian Qrey

Əziz-girami mister Qrey, ümid edirəm problemləriniz çözülüb. Məktubunuzun tonu məni qayğılandırdı.

Ana

öpücüklər.

Kimdən: Kristian Qrey

Mövzu: Evə



kitabyurdu.blogspot.com

Tarix: 3 iyun 2011, 10:04

Kimə: Anasteyşa Stil

Anasteyşa, əfsus, problem çözümdən çox uzaqdır. Təyyarə artıq havadadır? Bəsdir yazdın. Sən riskə yol verirsən və şəxsi təhlükəsizlik qaydalarını pozursan. Cəza haqda danışarkən mən zarafat eləmirdim.

Kristian Qrey, –Qrey enterprayzes‖in baş direktoru

Lənət şeytana. Çözülməyən problem? Birjada bir-iki milyon itirib? Yoxsa Teylor icazəsiz istirahətə yollanıb?

Kimdən: Anasteyşa Stil

Mövzu: Bu lap ağ oldu!

Tarix: 3 iyun 2011, ġVQ

Kimə: Kristian Qrey

Əziz mister Deyingən!

Təyyarə hələ havaya qalxmayıb. On dəqiqəlik ləngimə var. Mənim təhlükəsizliyim eyniylə sərnişinlərin təhlükəsizliyi kimi narahatlıq doğurmur. Odur ki, əsəbiləşməyin yeri deyil.

Miss Stil



kitabyurdu.blogspot.com

Kimdən: Kristian Qrey

Mövzu: Üzrxahlığım – əsəblərim qaydasındadır

Tarix: 3 iyun 2011, 10:08

Kimə: Anasteyşa Stil

Sizinçün və Sizin ədəbsiz ağzınız üçün darıxıram, miss Stil. Evə mümkün qədər tez qayıdın.

Kristian Qrey, ―Qrey enterprayzes‖in baş direktoru

Kimdən: Anasteyşa Stil

Mövzu: Üzrxahlıq qəbul edilir

Tarix: 3 iyun 2011, ġVQ

Kimə: Kristian Qrey

Onlar lyukları bağlayıblar. Söz verirəm, daha cınqırımı çıxarmayacam, amma sən karlığını nəzərə alaraq, onsuz da eşitməzdin.

Görüşənədək.

Ana

öpücüklər.

–Blekberri‖ni söndürürəm. Özümü yaxşı hiss etmirəm. Kristian nəyisə demir. Problem nəzarətdən çıxıb? Kürsüyə yayxanıram. Qarşımda əşyalarımın olduğu bölmə var. Səhər anamla birgə Kristiançün hədiyyə seçmişik: biznes-klassda və planerdə uçuşa minnətdarlıq əlaməti olaraq. Planerdə uçuşu xatırladıqda dodaqlarım qaçır. Hələ də əmin deyiləm ki, Kristiana səfeh suveniri təqdim edəcəm. O, bunu uşaq hoqqabazlığı hesab edəcək. Amma özünün qəribə əhval-ruhiyyələrindən birində olarsa, bəlkə də bir şey alınar. Evə qayıdış və məni orda gözləyən hadisələr həyəcanımı artırır. Kristianın hansı problemi yoluna qoyduğunu tapmağa çalışaraq yanımdakı yerin yenə də tutulduğunu aşkarlayıram. Başımı yelləyirəm. Doğrudanmı Kristian iki yerə bileti yalnız ona görə alıb ki, yolda heç kimlə ünsiyyətdə olmayım? Bu fikri başımdan qovuram: bu dərəcədə qısqanc və şəkkak olmaq mümkün deyil. Təyyarə uçuş zolağı ilə hərəkət edir və mən gözlərimi qapadıram.

Səkkiz saat sonra Teylor Sietl_Takoma hava limanının qarşılama zalında mənimlə üzləşir. Onun əlində adım yazılmış lövhə var. İşə bir bax! Amma mən onu görməyə sevincəyəm.

– Salam, Teylor.

– Miss Stil, – o, nəzakətlə salamlaşır, amma iti ala gözlərdə təbəssüm oynaşır. Həmişəki kimi Teylor çox şıq geyinib: kömür qarası pencək və qalstuk, dümağ köynək.

– Görünüşün indiyədək yadımdadır, Teylor. Odur ki, lövhəyə ehtiyac yox idi. Bir də ki, nə qədər demək olar, səninçün mən sadəcə, Anayam?

– Ana. Əşyaları götürə bilərəmmi?

– Yox, özüm götürərəm. Minnətdaram. – Teylor sərt şəkildə dodaqlarını kip sıxır. – Yaxşı, əgər səninçün belə rahatdırsa, götür, – güzəştə gedirəm.

– Çox sağ olun.

O, çantanı və təkərli yeni çamadanı götürür. Onun içində anamın hədiyyələri var.

– Bu tərəfə, mem.

Köks ötürürəm. Bax a, necə nəzakətlidir. Teyloriun bir dəfə mənə alt paltar almasını unuda bilmirəm. Sözün düzü, o, dünyada mənimçün bunu eləmiş yeganə kişidir. Hətta Rey belə heç vaxt bu cür avantüraya özündə cəsarət tapmazdı. Biz qara cip ―Audi‖yə sarı gedirik və Teylor mənimçün qapını açır. İçəri keçirəm, düşünürəm ki, görəsən qısa ətəklik geyməklə səhv etməmişəm? Corciyada qısa ətəkliyə yaxşı baxılırdı, Sietldə isə onunla çılpaq görünürəm. Teylor əşyalarımı baqaja qoyur və biz Eskalaya doğru gedirik.

Maşın axınında asta hərəkət edirik. Teylor gözünü yoldan çəkmir. Qaradinməz – buna hələ natamam ayama demək olar. Nəhayət ki, səbrim tükənir:

– Kristian necədir, Teylor?

– Mister Qrey çox məşğuldur, miss Stil.

Yəqin ki, həmin o çözülməmiş problemə görə. Bununla belə, əlimi yaxasından çəkən deyiləm.

– Çox məşğuldur?

– Bəli, mem.

Kədərlənirəm, Teylor güzgüdən mənə baxır, baxışlarımız toqquşur. Hə-ə, ağzını qıfılda tutmaq yarışında Teylor ancaq dəlisov müstəbidə, öz sahibinə uduza bilər.

– O sapsağlamdır?

– Ümid edirəm, mem.

– Mənə ―Siz‖ deyə müraciət etmək sənə rahatdır?

– Bəli, mem.

– Yaxşı.

Bu etiraf məni uzun müddət susmağa məcbur edir. Düşünməyə başlayıram ki, hava limanında Teylorun söylədiyi sözləri (―Kristianın öhdəsindən gəlmək olmur‖) səhv anlamışam. Bəlkə də bu etirafına görə

peşmançılıq çəkir, bunu bossuna qarşı ədalətsizlik sayır. Sükut dözülməz olur.

– Musiqiyə qulaq asa bilərikmi?

– Əlbəttə, mem. Nə istərdiniz?

– Nəsə sakitləşdirici bir şey.

Baxışlarımız yenidən toqquşur və görürəm ki, Teylorun dodaqlarında təbəssüm oynaşır.

– Yaxşı, mem.

O, panelin klavişinə toxunur və Pahelbelə məxsus kanonun sakit melodiyası aramızdakı fəzanı doldurur. Hə-ə-ə… mənə məhz bu lazım idi.

– Minnətdaram. – Oturacağa yayxanıram, Teylorsa maşını I-5 şosesi ilə Sietlə doğru asta sürətlə sürür.

İyirmi beş dəqiqə sonra o, məni Eskalanın füsunkar fasadı qarşısında düşürür.

– İçəri keçin, mem. – Teylor qapını açır. – Mən baqajla məşğul olaram. – Üzündə incə, hərarətli təbəssüm var. Bax ha, mehriban Teylor dayı.

– Çox sağ olun ki, məni qarşıladınız.

– Sizə yardımçı olmağa şad oldum, miss Stil.

Teylor üzündəki təbəssümlə giriş qapısına doğru gedir. Qapıçı başıyla salamlaşır və əl yelləyir.

Mən otuzuncu mərtəbəyə qalxanadək qarnımda minlərlə kəpənək pərvaz edir. Niyə bu qədər həyəcanlıyam? Bilmirəm bu dəfə Kristianla hansı əhvali-ruhiyyədə qarşılaşacağam. Daxili ilahəm yaxşı aqibətə ümid edir, təhtəlşüurum əsəbi halda barmaqlarını şaqqıldadır.

Liftin qapıları foyeyə açılır. Teylorla burada üzləşməmək qəribədir, amma o, aşağıdadır, maşını parklayır. Kristian asta səslə ―blekberri‖ ilə danışır, şüşədən Sietlə enən ilkin alatorana baxır. Əynində boz kostyum var, pencəyin düymələri açıqdır, hə, bir də saçlarını qarışdırır. O nəyləsə qayğılanıb... deməkolar ki, həyəcanlıdır. Nə baş verib? Həyəcanlı, yaxud təmkinli, Kristian gözəldir, onun gözəlliyi könül oxşayır. Bunu necə bacarır? Ondan həzz alıram.

– Heç nə… yaxşı… oldu.

Kristian çevrilir, məni görür və qəfildən onda aşkar dəyişilmə baş verir. Əvvəlcə üzündə yüngülləşmə yaranır, sonra boz gözlər alışıb-yanır, ehtirasla dolu şəhvani baxış daxili ilahəmə doğru yönəlir.

Ağzım quruyur, istək məni bələyir… ah.

– Əlaqədə ol, – qısaca deyir, telefonu söndürür və sürətlə mənə tərəf addımlayır. Donub qalıram. Lənət şeytana… doğrudan da, ona nəsə olub: çənəsi gərgin yığılıb, gözlərində təlaş var. Yolda o, pencəyini çıxarıb atır, qalstukunu açır, xalçanın üstünə atır, mənə yaxınlaşdıqdan sonra bağrına basır, döşəmədən qaldırır, quyruq şəklində yığılmış saçlarımı geri çəkir,

çənəmi dartır və dodaqlarını dodaqlarıma elə ehtiraslı calayır ki, sanki həyatı bundan asılıdır. Lənət şeytana bu nədir? Saçlarımın dibi ağrıyır, amma vecimə deyil. Yalnız onun dodaqlarının isti, amansız təzyiqi əhəmiyyətə malikdir. Mən ona lazımam, indi lazımam və özümü heç vaxt bu qədər istəkli hiss etməmişəm. Onun şövqü məni coşdurur və eyni zamanda da qorxudur. Mən öpüşə ehtiraslı cavab verir, barmaqlarımı onun saçlarına keçirirəm. Dillərimiz qarşılaşır, ehtirasa bələnirik. Onun dadı isti və həyəcanlandırıcıdır, bədəninin ətri qarşısında isə duruş gətirmək mümkün deyil. Qəfildən Kristian aralanır və yuxarıdan-aşağıya mənə baxır. Onu hansı hisslərin bürüdüyünü təsəvvürümə gətirə bilmirəm.

– Noolub? – nəfəsimi buraxıram.

– Nə yaxşı ki gəldin; duş qəbul edək, elə indi.

Bircə bilmək istərdim: bu xahişdir, yoxsa əmr.

– Yaxşı, – pıçıldayıram. Kristian əlimdən tutur və məni hamam otağına aparır.

Orada, iri kabinədə o, isti suyu açır, asta-asta çevrilir və mənə dəyərləndirici baxış yönəldir.

– Ətəkliyin xoşuma gəlir. Çox qısadır, – xırıltılı səslə deyir. – Gözəl ayaqların var.

O, tufliləri və corabları çıxarır, əvvəlki kimi gözünü məndən çəkmir. Onun iztirablı, ac baxışı məni nitq qabiliyyətindən məhrum edir. Yo-ox…

bu yunan tanrısının istək obyekti olmaq!? Onun hərəkətlərini təkrarlayır və dabansız tuflilərimi çıxarıram. Qəfildən Kristian məndən yapışır, divara dirəyir və üzümü, boynumu, dodaqlarımı öpüşlərə qərq edir, barmaqlarısa saçlarımı qarışdırır. Kristian od tutub yanır, kürəyim isə soyuq plitəyə dayaqlanıb. Ehtiyatla əllərimi onun çiyinlərinə qoyur və azca sıxıram.

– Səni istəyirəm, elə indi, – o pıçıldayır, əllərisə ətəkliyimi yuxarı dartır. – Aybaşı bitdi?

– Hə, – od tutub yanıram.

– Yaxşı.

O, tumanımı ombalarımdan aşağı endirir, tez diz üstə çökür və tumanımı ayağımdan çıxarır. Ətəklik qurşağadək yuxarı qaldırılıb, qurşaqdan aşağı lütəm və ehtirasdan boğularaq gözləyirəm. Ombalarımı divara söykəyərək Kristian qasığımı öpür və ayaqlarımı aralayır. Dairəvi hərəkətlə klitorumu oxşayan dilini hiss edərək ucadan inləyirəm. İlahi! Başımı geri ataraq barmaqlarımı saçına keçirirəm.

O rəhmsiz, inadkar və amiranədir. O, dairəvi hərəkət edir, yenə və bir daha, dayanmadan. Həzz ağrıya yaxın həddədir. Bədənim titrəyir, amma qəfildən Kristian aralanır. Nə baş verir? Yo-ox! Mən boğuluram, ondan yalvarıcı baxışımı çəkmirəm. O, sifətimi ovucları arasına alır və dodaqlarıma yapışır, öz ağız seliyimin dadını çıxarmağa mənə imkan verir.


kitabyurdu.blogspot.com

ġalvarının qabağını açaraq Kristian yanbızlarımdan tutur və məni yuxarı qaldırır.

– Ayaqlarını çiyinlərimə qoy, balaca, – xırıltılı səslə əmr edir.

Onun buyurduğu kimi edirəm və sürətli, güclü hərəkətlə Kristian içimə soxur. İnləyirəm. Yanbızlarımdan tutaraq – barmaqlar incə dərini dəlir - o, hərəkət etməyə başlayır; əvvəlcə yavaş-yavaş və ahəstə, amma tezliklə soyuqqanlılıqla tempi artırır. Ah! Başımı geri ataraq fövqəltəbii duyğudan həzz alır və nəhayət, şirin iztiraba dözmürəm, dağıdıcı orqazmla partlayıram. Kristian astaca nərildəyir və burnuyla boynuma dayaqlanır, ucadan inləyərək qurtarır.

Tənəffüsü hay-küylə sinəsindən çıxır, amma Kristian məni incə tərzdə öpür, mənsə sarsılmış halda gözlərimi döyür, baxışımı cəmləməyə çalışıram. Nəhayət, görmə qabiliyyətim normallaşır və Kristian məni buraxır, nəvazişlə tutaraq dabanlarımı yerə qoymağımı gözləyir. Hamam otağı buğa bələnib. Paltarı çıxarmaq istəyirəm.

- Görürəm, gəlişimə şadsan, – utanaraq gülümsəyirəm.

Kristian dodaqlarını büzüşdürür:

- Hə-ə, miss Stil, hisslərimlə bağlı səhvə yol vermək çətindir. İndisə icazə verin, sizi duşa qədər müşayiət edim.

O, köynəyin üç, son düyməsini açır, əynindən çıxarır və döşəməyə atır. Sonra şalvarı və tumanı çıxarır, onları kənara atır və bluz köynəyimin

düymələrini açmağa başlayır. Onun sinəsinə toxunmaq istəyimi güclə boğuram.

- Səfər necə keçdi? – yumşaq səslə soruşur. Seksdən sonra Kristian sakitləşir, gərginlik yatır.

- Əla, – hələ də təngnəfəs halda donquldanıram. – Biznes-klass üçün bir daha çox sağ ol. Onu adi uçuşla eyniləşdirmək olmaz. Səninçün xəbərlərim var, – əsəbi halda əlavə edirəm.

- Xəbərlər? – təkrar soruşur.

Sonuncu düymənin də öhdəsindən gələrək, o, bluz köynəyimi çıxarır və öz paltar yığınının üstünə atır.

- Özümə iş tapmışam.

O dayanır, gülümsəyir, gözlərində hərarət peyda olur.

- Təbrik edirəm, miss Stil. Heç olmasa, indi etiraf edəcəksiniz? – cırnayır.

- Guya bilmirsiniz?

Qaşqabağını tökərək başını yelləyir.

- Hardan?

- Sizin imkanlarınızla, mənə elə gəlirdi ki… – Kəkələyir, onun üzünün dartındığını görürəm.

- Anasteyşa, sənin karyerana qarışmaq istəmirəm, əgər, əlbəttə, özün məndən xahiş eləməsən.

Kristian incimiş görünür.

– Hə, deməli, bilmirsən?

– Yox. Sietldə dörd nəşriyyat var, gümanıma görə, dördündən biridir.

– SİP.

– O-o, kiçik nəşriyyatdır, bəyənirəm. – O, əyilərək məni öpür. – Afərin. İşə nə vaxt başlayırsan?

– Bazar ertəsi.

– Belə tez? Sənin gəlişindən çox şey qoparmaq lazım gələcək. Sağa dön.

Buyruqları verdiyi asanlıq məni hövsələdən çıxarır, amma mən müqavimət göstərmirəm. Kristian yanlarımı sığallayaraq və çiyinlərimi öpərək lifçiyi açır, ətəkliyi endirir. Sonra burnunu saçlarım arasına soxaraq dərindən içinə çəkir, yanbızlarımı sıxır.

– Ağlımı başımdan alırsınız, miss Stil və eyni zamanda da, sakitləşdirirsiniz. Başgicəlləndirici kombinasiya. – O, saçlarımı öpür və əlimdən tutaraq duş altına çəkir.

– Oy! – ciyildəyirəm. Kristian gülümsəyir, isti susa yuxarıdan onun üstünə axır.

– Azca qaynar su.

O haqlıdır – ləzzət. İsti su Corciyadakı yapışqan səhəri və sevişmənin tərini yuyur.

– Kürəyini çevir, – o əmr edir.

Üzüdivara dayanıram.

– Səni yuyundurmaq istəyirəm, – donquldanır, əlini flakona uzadır və geli ovcuna sıxır.

– Sənə hər şeyi deməmişəm hələ, – o, çiynimi masaj etdikdə pıçıldayıram.

– Nəsə qalıb? – təkrar soruşur.

Dərindən köks ötürürəm.

– Cümə axşamı Portlenddə dostum Xosenin foto-sərgisi açılır.

Kristianın əli sinəmdə dayanır. Bilərəkdən ―dostum‖ sözünü vurğuyla dedim.

– Hə? – sərt tərzdə soruşur.

– Söz vermişəm ki, gedəcəyəm. Mənimlə gedərsən?

Uzun vaxt kəsimi (məncə, əsrlər keçdi) ərzində o susur, sonra yenidən kürəyimi ovxalayır.

– Saat neçədə?

– Açılış səkkizin yarısındadır.

Kristian qulağımı öpür.

– Yaxşı.


kitabyurdu.blogspot.com

Təhtəlşüurum rahatlanaraq köhnə, işlənmiş kresloya sərilir.

– Bunu soruşarkən həyəcanlanırdın?

– Hə. Necə bildin?

– Anasteyşa, əzələlərinin hamısı bir anda boşalmışdı, – quru tərzdə deyir.

– Qorxurdum… sənin… m-m-m… qısqanclığından.

– Düz eləyib qorxmusan, – qaşqabaqlı halda deyir. – məsləhət görürəm, bunu unutmayasan. Amma sağ ol ki, dəvət elədin. Çarli Tanqonu götürərik.

Kimi? Hə-ə, onun helikopteri. Yenə də uçuş! Əla!

– Olar səni sabunlayım?

– Gərək deyil, – donquldanır və incə tərzdə boynumu öpür – imtina cavabını yüngülləşdirmək üçün. Dodaqlarımı şişirdir və üzümü divara tutub qaşqabağımı tökürəm.

– Doğrudanmı heç vaxt sənə toxunmama izn verməyəcəksən? – cəsarətlə soruşuram.

Onun əli g...ümdə donub-qalır.

– Əllərini divara qoy, Anasteyşa. Səni elə indi s...əcəm, – Kristian qulağıma pıçıldayır, əllərini ombalarıma qoyur və anlayıram ki, söhbət bitdi.

Daha sonra biz bar piştaxtası qarşısında hamam xalatında oturaraq missis Consun hazırladığı alle vonqoleli spaqetti yeyirik.

– Yenə şərab istəyirsən? – Kristian soruşur, onun gözləri parlayır.

– Bir az.

–Sankarre‖nin tamı kəskin və şirindir. Kristian özü və mənimçün şərab süzür.

– Problemin... m-m-m... necə oldu? –ehtiyatla soruşuram.

O, qaşlarını çatır.

– Nəzarətdən çıxdı, – sakitcə deyir. – Amma sən narahat olmaya bilərsən, Anasteyşa. Bu gün axşam səninçün bəzi şeylər hazırlamışam.

– Hazırlamısan?

– İstəyirəm ki, on beş dəqiqədən sonra məni oyun otağında gözləyəsən.

Kristian ayağa qalxır və yuxarıdan-aşağı mənə baxır.

– Öz otağında hazırlaşa bilərsən. Söz düşmüşkən, şkafda səninçün çoxlu yeni paltar var. Çaşıb korlama.

O, gözlərini qıyır, müqavimət gözləyir. Sonra məndən cavab almadan kabinetə keçir.

Korlamaq? Mən? Sizinlə, Əlli Çalar? G..ümdən hələ bezməmişəm. Bar kətilində oturaraq onun dediyini həzm etməyə çalışıram.

Kristian mənimçün pal-paltar alıb. Gözlərimi süzdürürəm: bilirəm ki, məni görmür. Maşın, telefon, noutbuk... növbədə mənzildir və mən axırda onun məşuqəsinə çevriləcəm.

Yavaş! Təhtəlşüurum ağzını əyir. Onun üz-gözünü büzməsinə əhəmiyyət vermirəm, ayağa durur və öz otağıma keçirəm. Otağıma? Axı o, mənimlə bir yataqda yatmağa razı oldu. Kristian heç kimi öz məkanına buraxmağa alışmayıb. Amma mən də alışmamışam. Ən azı, hardasa daldalanmağa yerimin olması ilə özümə təsəlli verirəm.

Qapıya qıfıl salınıb, amma açar yoxdur. Maraqlıdır, ehtiyat açarı missis Consdadır? Soruşmaq gərəkdir. ġkafın qapısını açır və tez də bağlayıram. Pis deyil ha! O ki var pul xərcləyib! Keyti səliqəylə düzülmüş asılqanları ilə birgə xatırlayıram və qəti şəkildə bilirəm ki, geyib-baxmaya ehtiyac olmayacaq – bütün libaslar düz ölçümə uyğundur. Amma bu haqda düşünməyə vaxtım yoxdur, mən ağrı... ya da həzz (ümid edirəm) otağında diz üstə dayanmalıyam.

Diz üstə dayanmışam... əynimdə yalnız tuman var, ürəyim yerə düşüb. İlahi, doğrudanmı onun gözü doymur? Kristian doyumsuzdur, bəlkə bütün kişilər eyni cürdür? Onu kimsəylə müqayisə edə bilmirəm. Gözlərimi qapadaraq sakitləşməyə, təhtəlşüurumla əlaqə qurmağa çalışıram. O hardasa buralardadır, daxili ilahəm arxasında gizlənib.


kitabyurdu.blogspot.com

Həzz intizarı qaz qabarcıqları kimi damarlarımda coşur. O, nə düşünüb? Dərindən nəfəs alır, amma şəhvətimi sakitləşdirə bilmirəm, ayaqlarımın arası nəmlənir. Bütün bunlar adamı elə... düz deyil, yox, –düz deyil‖ pis ifadədir. Bu, Kristian üçün düzdür. Bu , Kristianın istədiyidir və mənimçün etdiyi bütün şeylərdən sonra onun istənilən xahişinə, istənilən istəyinə güzəştə getməyə hazıram.

Məni qarşılayarkən üzləşdiyim baxışını xatırlayıram: onun dəyişmiş simasını, mənə sarı necə gəldiyini... sanki səhrada vadiyə rast gəlmiş yolçu idi. Bu ehtiraslı baxışı bir daha görməkçün hər şeyi verərəm. İxtiysarsız olaraq ombalarımı sıxır, ayaqlarımın geniş aralandığını da həmin an xatırlayıram. İtaət edirəm. Bircə tez olsun! İntizar içimi əzabverici istəklə doldurur. Oğrun-oğrun zəif işıqlandırılmış otağa göz gəzdirirəm: xaç, masa, divan, skamya… çarpayı. Nəhəng, al-qırmızı rəngli mələfələr sərilmiş çarpayı. Maraqlıdır, o, bu gün hansı əşyalardan istifadə edəcək?

Qapı açılır, Kristian daxil olur; mənə tərəf baxmır. Tez gözlərimi ombalarıma qoyduğum əllərimə sarı endirirəm. Qapının ağzındakı kamodun üstünə nəyisə qoyaraq Kristian çarpayıya yaxınlaşır. Dözə bilmirəm, oğrun-oğrun ona baxıram və az qala ürəyim yerində atılır. Kristianın əynində ancaq yırtıq cins şalvar var və yuxarı düymə naqolay açılıb. İlahi, o necə də şəhvani görünür! Təhtəlşüurum dəlicəsinə vurnuxur, daxili ilahəmsə

halsızlaşaraq özündən getmək üzrədir. Dodaqlarımı yalayıram. Qatı qan damarlarımda guruldayır. O, mənimlə nə edəcək?

Kristian kamoda sarı qayıdır. Siyirməni çəkərək, o, içəridən hansısa əşyaları çıxarır və kamodun üstünə qoyur. Marağa bələnir, iradə gücümlə özümü ora baxmamağa məcbur edirəm. Hazırlığı tamamlayıb Kristian yaxınlaşır və qarşımda dayanır. Onun yalın ayaqlarını görürəm. Onun dabanının hər qarışını elə öpüşlərə qərq edərdim, dilimlə dabanından başlayaraq hər yeri yalayıb barmaqlarının hər birini ayrı-ayrılıqda sovurardım! Lənət şeytana...

– Sən çox yaxşı görünürsən, – Kristian deyir.

Döşəməyə baxır, əynimdə tumandan başqa heç nəyin olmadığını dərk eləyirəm. Rəng alıb-rəng verirəm. Kristian əyilir və çənəmi qaldırır, məni baxışlarına tuş gəlməyə məcbur edir.

– Sən dünyanın ən gözəl qadınısan, Anasteyşa. Və sən yalnız mənə məxsussan, – astaca deyir o. – Qalx.

Onun səsində o qədər incəlik , o qədər ehtiras var ki...

Yırğalanaraq ayağa qalxıram.

– Mənə bax.

Baxışlarımı qaldıraraq onun boz gözlərində közü sönən alov görürəm. Bu, dominantın baxışıdır: ağır, soyuq, dözülməz dərəcədə şəhvani... bir baxışda günahın yeddi çaları. Ağzım quruyur və anlayıram ki,


kitabyurdu.blogspot.com

onun buyurduğu hər şeyi edəcəm. Dodaqlarında, demək olar ki, amansız təbəssüm oynaşır.

– Biz müqaviləni imzalamamışıq, Anasteyşa, hədləri razılaşdırmamışıq. Əsas odur ki, stop-sözləri unutmayasan.

İblisə lənət… o, nə fikirləşib?

– Onları təkrarla, – o, amiranə tələffüz edir.

Güclə seziləcək tərzdə qaşqabağımı tökürəm və onun siması dərhal tutqunlaşır.

– Bu sözləri təkrarla, Anasteyşa, – Kristian asta və dəqiq tələffüz edir.

– Sarı, – donquldanıram.

– Və? – dodaqları nazik xətdə birləşib.

– Qırmızı, – nəfəsimi buraxıram.

– Unutma.

Bu lap ağ oldu! Mən bu məkrli xəbərdarlığı həzm edə bilmərəm, çox yüksək orta balımı ona xatırlatmaq gərəkdir, amma boz gözlərinin buz parıltısı məni bu niyyətdən vaz keçməyə vadar edir.

– Əgər ədəbsiz ağzınızı yummasanız, miss Stil, qorxuram sizi elə diz üstə s..məli olacam. Aydındır?

Di yaxşı, qoy belə olsun. Əsəbu halda udqunuram; itaətlə baxışlarımı endirir, təhdiddən deyil, səsin ahəngindən ram oluram.


kitabyurdu.blogspot.com

– Aydındır?

– Bəli, ağa, – tələsik donquldanıram.

– Afərin.

Bir anlıq Kristian mənə susaraq baxır.

– Stop-sözlər sənə ağrı verməyim üçün lazım deyil. Səni son həddə çatdırmağı düşünmürəm və sən məni istiqamətləndirməli olacaqsan. Anladın?

Tam yox. Həddə? Ox.

– Sənə toxunacam, Anasteyşa, amma məni nə görəcək, nə də eşidəcəksən. Əsas odur ki, məni duyacaqsan.

Qaşqabağımı tökürəm. Necə yəni ―eşitməyəcəksən‖? Hansı mənada?

Kristian çevrilir və mən kamodda qara donuq şüşədən yeşik görürəm. O, əlini yeşiyə doğru uzadır və yeşik iki yerə bölünür. Qapılar aralanır, CD-pleyer və düymələr olan panel görünür. Kristian ardıcıllıqla düymələri basır. Heç nə baş vermir, amma görünüşə görə hər şey düşünüldüyü kimi baş verir.

Özümü çözüm içində itirirəm. Kristian yenidən mənə sarı çevrildikdə onun dodaqlarında sirli təbəssüm oynaşır.

– Səni çarpayıya bağlamaq istəyirəm, Anasteyşa, amma əvvəlcə gözlərini bağlayacam, – o, aypodu çıxararaq deyir, – və bundan başqa, sən məni eşitməyəcəksən... Yalnız musiqi.

Yaxşı. Musiqili interlyudiya... hərgah mən başqa şey gözləyirdim. Amma heyrətlənməyə dəyərmi? Gözlənilməzlik Kristian Qreyin şah əsəridir. İlahi, bircə rep olmasın!

– Gedək. – O, məni dördsütunlu qədim-qaim çarpayıya sarı aparır. Hər bir sütuna qandallar bağlanıb: parlaq metal zəncir və al-qırmızı atlaz fonunda dəri bilərziklər.

İlahi, ürəyim yerindən atılmağa hazırdır, içimdə hər şey əriyir, bədənim istəkdən çilik-çilik olur. Hələ heç vaxt belə şəhvət istəkli olmamışam.

– Burda dayan.

Üzü çarpayıya sarı dayanıram. Kristian əyilir və qulağıma pıçıldayır:

– Qarşıya bax. Təsəvvür elə ki, burada qandallanmış vəziyyətdə uzanmısan, tam hakimiyyətim altındasan.

İlahi!

Bütün hisslərim son həddədək çılpaqlaşıb. Onun qapıya sarı necə geri çəkildiyini, qamçı və şallaq üçün altlığı çıxardığını duyuram. Hə-ə, görəcəklərimiz varmış ! O, nə düşünüb?

Arxamda dayanmış Kristianı hiss eləyirəm. O, saçlarımdan yapışır, at quyruğu şəklində yığır.

– Quyruqların xoşuma gəlir, Anasteyşa, amma çox tələsirəm, odur ki, özün yığacaqsan, – yumşaq tərzdə deyir.


kitabyurdu.blogspot.com

Zaman-zaman onun məharətli barmaqları astaca mənə toxunur və hər dəfə sanki məni cərəyan vurur. Nəhayət, Kristian saçlarımı düyünləyir və hörüyü azca özünə tərəf çəkir. Geri dartınır və ona söykənirəm. O, hörüyü yana əyir və burnunu boynuma toxundurur. Yavaşca mırıldanaraq dilini və dişlərini dərimdə, saçımın dibindən çiynimədək gəzdirir. Onun çıxardığı səslər bədənimi vibrasiya etməyə məcbur edir. Aşağı, bir az da aşağı, içəri. Məndən yüngül inilti çıxır.

– ġ-ş-ş, – nəfəsini boynuma buraxaraq və əllərini irəli uzadır. Sağ əlində flogger var – keçən dəfədən adı yadda saxlamışam.

– Ona toxun, – Kristian pıçıldayır... canalan tərzdə... sanki İblisdir. Qanım alışır. Əlimi uzadır və ehtiyatla yumşaq, uzun telləri sığallayıram. Zamşa tellərin uclarında kiçik muncuq dənələri var.

– Ağrıtmayacaq, qan sadəcə dərinin üzünə çıxacaq, şəhvəti artıraraq.

Ağrıtmayacaq? Belə olsa, nə yaxşı.

– Stop-sözləri təkrarla, Anasteyşa.

— E… sarı və qırmızı, ser, – pıçıldayıram.

– Afərin. Yadda saxla, qorxularının çoxu başındadır.

Kristian floggeri çarpayıya atır və əlini qurşağıma qoyur.

– Bu, sənə lazım olmayacaq, – yavaşca deyir, tumanımı əynimdən çıxarır. Çarpayının oyma sütunundan tutaraq ayaqlarımı qaldırıram.

– Düz dayan, – əmr edir, yanımı öpür və çimdikləyir. – İndisə beli üstə uzan, – əlavə edir və nəşəylə şapalaqlayır məni. Gözlənilməzlikdən atılır və tələsik möhkəm, əyilməyən döşəyə uzanıram. Yumşaq atlaz dərimi ürpədir. Kristian təmkinli görünür, yalnız gözləri güclə ram edilən şəhvətlə alışıb-yanır.

– Əllərini başının arxasına qoy, – əmr edir və mən itaət göstərirəm.

İlahi, bədənim onun təşnəsindədir!

Bir anlığa o, görünüşdən itir. Gözümün kənarıyla görürəm ki, o, kamoda yaxınlaşır, aypod və təyyarədə taxdığıma oxşar maskayla qayıdır. Gülümsəmək istəyirəm, amma dodaqlarım sözümə baxmır. Üzümün əzələləri sanki daşlaşıb, gözlərim genişlənib və baxışlarımı Kristiandan çəkmirəm.

Çarpayıda oturaraq o, aypodu hansısa qəribə antena və qulaqcıqla mənə uzadır. Üz-gözümü turşuduram. Bu nədir?

– Bu cihaz musiqini aypoddan xarici stereosistemə keçirir, – o, verilməmiş sualıma cavab verir. – Sənin eşitdiyini mən də eşidəcəm, məndə pult var. – Kristianın dodağı qaçır və o, kalkulyatora oxşayan kiçik, yastı əşyanı göstərir. Mənə sarı əyilərək qulaqcıqları taxır və aypodu başımın arxasında çarpayıda qoyur.

– Başını qaldır, – o deyir və mən sözsüz, itaətlə əmri yerinə yetirirəm.


kitabyurdu.blogspot.com

Kristian asta-asta maskanı üzümə keçirir və mən artıq heç nə görmürəm. Eyni zamanda, rezin qulaqcıqları da saxlayır. Kristian çarpayıdan qalxır. Hələ də onu eşidə bilirəm, amma qulaqlarımı öz tənəffüsümün səsi batırır: sürətli, kəsik-kəsik şəhvətimi ələ verən.

Kristian sol biləyimdən tutur və səliqəylə onu çarpayının sütununa bağlayır. Uzun barmaqlar bütün əlim boyu xətt çəkir. Ah! Onun toxunuşu içimdə şirin bir titrəyiş doğurur. Kristianın o biri tərəfimə keçdiyini duyuram və o, sağ biləyimi sütuna bağlayır. Və yenidən onun barmaqları dərimi sığallayır. İlahi-i-i… Partlamağa hazıram. Amma niyə hər şey bu qədər erotikdir?

Çarpayının ayaq tərəfində duraraq Kristian hər iki topuğumu tutur.

– Başını qaldır, – yenidən deyir o.

İtaət edirəm və o, sıçrayışla məni özünə tərəf çəkir. İndi qandallar məni havada asılı vəziyyətdə saxlayır. Lənət şeytana, onları tərpədə bilmirəm. Coşqu və əzabverici şövq bədənimi sarsıdır. Ayaqlarım arasında nəmlik duyuram. Onları aralayaraq Kristian növbəylə topuqlarımı sütunlara tərəf dartır. Çarpayıda çarmıxa çəkilmiş vəziyyətdə uzanmış, bütünlüklə onun itaətindəyəm. Kristianı görə bilməməyim məni qorxudur və qulağımı şəkləmişəm, amma yalnız ürəyimin kar döyüntüsünü  eşidirəm.

Qəfildən asta şaqqıltıyla aypod işə düşür. Tənha mələk səsi incə bir melodiyanı zümzümə edir, ona başqa bir səs də qoşulur və tezliklə ilahi bir


kitabyurdu.blogspot.com

xor... Başımın içi qədim-qaim bir himnlə dolur. Amma bu nədir? Əvvəllər belə bir musiqini əsla eşitməmişəm.

Nəsə sözlə izah edilməz, incə bir şey boynuma toxunur, boğazıma enir, döş qəfəsimdə incəliklə sürüşür, döşlərimi aralayaraq oxşayır. Bu ki xəzdir! Xəz əlcək?

Kristianın əli tələsmədən aşağı enir, göbəyimdə və ombalarımda gəzir. Bundan sonrakının intizarındayam… və bu musiqi… başımdakı ilahi musiqi… xəz qasıq boyu sürüşür… budur, o, ayaqlarım arasındadır… aşağı, ombalar boyu… az qalır ki, qıdığım gəlsin… yeni səslər… hər kəs öz partiyasını oxuyur… bəxtiyar harmoniyada bir-birinə qarışırlar, onun təsəvvür edilməsi qeyri-mümkündür. –Deus‖[1] sözünü tuta bilirəm, deməli, latınca oxuyurlar. Xəz əlcəksə əllərim boyu yuxarı hərəkət edərək sinəmə qayıdır. İncə toxunuşlardan döşlərim şişir. Boğuluram, Kristianın barmaqlarının xəzi əvəz eləməsinin intizarındayam.

Qəfildən xəz yerini zamşa telə verir. Flogger xəz əlcəyin yolunu davam etdirir və mən yenə də nəvazişli tumarlama ilə musiqi arasında şövqə tutuluram. Başımda yüzlərlə səs qızılı və gümüşü saplardan səmavi qobelen toxuyur, zamşa dərini oxşayır… İlahi… qəfil qırılma. Kəskin zərbə qarnımı yandırıb-yaxır.

---

[1] Latıncadan tərcümədə "Tanrı" deməkdir.


kitabyurdu.blogspot.com

– Aaaaa! – qışqırıram.

Həqiqi ağrını duymuram, bir qədər çimdik, amma qəfil yaxalanmışam. Növbəti zərbə daha güclüdür.

– Aaaaa!

Özümü əllərim arasında gizlətmək, yerimdən atılmaq, qaçmaq... ya da ağrı istəyirəm. Heç nəyə əmin deyiləm, duyğular yepyenidir. Nə qolumu, nə də ayağımı tərpədə bilirəm. Daha bir zərbə; bu dəfə yanpörtü. Yenə qışqırıram. Həzzdən qışqırıram, dözümlü ağrıdır, hətta xoşagələndir, yox-yox, yetər! Dərim musiqi ilə həmahəngdir, hər bir zərbəylə ən gözlənilməz fantaziyalar mürgülədiyi ruhun sirlərinə daha çox baş vururam. Və bu, xoşuma gəlir.

Ombalarıma yanpörtü dəyən zərbələr, qasığıma, ayaqlarıma və yenə də gövdəmə dəyən qısa, sərt zərbələr. Zərbələr davam edir – musiqi kulminasiyaya çatanadək. Qəfildən musiqi səsi qırılır. Qamçı da. Musiqi yenidən səslənir… və zərbə dolusu, inləməyə məcburam və şirin əzabdan qovruluram. Yenidən sükut… yalnız kəsik tənəffüsüm və doyumsuz ehtiras. Mənimlə nə baş verir? O, mənimlə nə edir? ġəhvətimə hakim ola bilmirəm. Mən günahın və şəhvətin olduğu yerdəyəm.

Çarpayı bədənin ağırlığı ilə qatlanır və musiqi yenidən başlayır. Ola bilsin ki, o, ifanı təkrara qoyub. İndi xəzin cızdığı yolla Kristianın burnu və dodaqları... keçir… boyun, boğaz... yalnız kəsik-kəsik tənəffüsüm və


kitabyurdu.blogspot.com

doyumsuz şəhvətim… o, dərini öpür, sovurur, aşağı enir, döşlərimə. Ah! Onun dili döşlərimə əzab verir, ağız biri ilə məşğul olarkən, barmaqlar o biri döşümü əlləyir. Ola bilsin ki, iniltilərim musiqini eşidilməz edir, amma mən iniltilərimi belə eşitmirəm. Özümü unudur, son damlama qədər Kristianda əriyirəm… səmavi səslərdə əriyirəm… məndən güclü duyğuların içində. Bütünlüklə onun məharətli dodaqları və əllərinin mərhəmətinə özümü təslim edirəm.

Kristian aşağı enir, onun dili göbəyimdə dolaşır… xəz və qamçıdan sonra. İnləyirəm. O, dərimi öpür, sovurur, dişləyir… aşağı, daha aşağı enir. Və budur, onun dili ora çatır: ombaların arasına. Başımı geriyə atır və qışqırıram, son həddən asılı qalıram və Kristian hərəkətlərini dayandırır.

Yox! O, diz çökür və topuqlarımdan birini qandaldan azad edir. Ayağımı uzadır… və onu Kristianın çiyninə atıram. O, ikinci topuğumu qandaldan çıxarır. Onun əlləri qıcımış topuqlarımı ovur və masaj edir. Sonra Kristian ombalarımı sıxır və məni yuxarı qaldırır. Belimi əyir, çiyinlərimlə çarpayıya dayaqlanıram. Və budur, diz üstə qalmış halda Kristian bircə güclü hərəkətlə içimə soxur… lənət şeytana… yenidən çığırıram. Orqazm titrəyişimi artıq duyuram, amma qəfildən Kristian donub-qalır. Yo-ox! Bu əzab hələ nə qədər davam edəcək?

– Xahiş edirəm! – yalvarıram.


kitabyurdu.blogspot.com

O, məni daha güclü qucaqlayır… xəbərdarlıq edir? Onun barmaqları yanbızlarıma hopur… boğuluram… deməli, bunu bilərəkdən edir? Çox yavaş tərzdə Kristian ombalarını hərəkət etdirməyə başlayır… əzabverici şəkildə, asta. Lənət şeytana, bu nə vaxt bitəcək? Xora yeni səslər əlavə olunur… onun hərəkətləri sürətlənir, güclə seziləcək tərzdə o, özünə nəzarət edir… musiqinin ritminə uyğun hərəkət edir. Amma mən artıq bu əzaba dözmək gücündə deyiləm.

– Xahiş edirəm, – nəfəsi kəsilmiş halda yalvarıram. Kristian kəskin şəkildə məni çarpayıya buraxır və özü də çəkisini saxlamaqla içimə soxur. Musiqi kulminasiyaya yetişir və mən dağıdıcı orqazma bələnirəm: duyduğum ən güclü orqazm. Kristian da mənim ardımca qurtarır. Üç güclü təkan, bir anlığa o dayanır və üstümə sərilir.

ġüurum – harda veylləndiyini bilmirəm – yerinə qayıdır. Kristian məndən aralanır, musiqi bitib. O, çarpayıda gərnəşir, sağ biləyimi azad edir. İnləyirəm. Kristian cəld sol biləyimi də qandaldan açır, habelə qulaqcığı çıxarır. İncə işıqda onun gözləri qıyılmış halda diqqətli baxışları ilə üzləşirəm.

– Xoş gördük, – o sakitcə deyir.

– Elə səni də, – utanaraq donquldanıram.

Kristianın dodaqlarına təbəssüm qonur, o əyilir və nəvazişlə məni öpür.

– Öhdəsindən gəldin, – pıçıldayır. – Çevril.

Lənət! O, nə etməyə hazırlaşır?

Kristianın gözləri hərarətlənir.

– Çiyinlərini ovxalamaq istəyirəm.

– A… hə, olar.

Qarnım üstə uzanıram. Elə yorulmuşam ki... Kristian çiyinlərimi əzməyə və ovmağa başlayır. Ucadan inləyirəm, onun elə güclü, cəsarətli barmaqları var ki. Kristian qulağımı öpür.

– O, nə musiqi idi? – rabitəsiz donquldanıram.

— Spem in alium, Tomas Tallisin qırx səsi üçün motet.

– Möhtəşəm idi…

– Mən həmişə bu musiqi altında s..işmək istəmişəm.

– Deməli, sizinçün bu, birinci dəfə idi, mister Qrey?

– Bəs siz necə düşünürdünüz, miss Stil?

Yenidən inləyirəm, onun barmaqları doğrudan-doğruya möcüzələr yaradır.

– Mənimçün də bu, ilk dəfəydi, – yuxulu halda donquldanıram.

– Hm… sizinlə birgə ilklərimiz çoxdur, – quru tərzdə deyir Kristian.

– Hə, yuxuda mən nə haqda donquldanmışam, Kri... ağa?

Bir anlığa onun əlləri hərəkətsiz qalır.


kitabyurdu.blogspot.com

– Çox şey haqda, Anasteyşa. Qəfəs və çiyələk haqda… daha çox şey istəməyiniz… mənimçün darıxmağınız.

ģükür Tanrıya.

– Vəssalam? – aşkar rahatlıqla soruşuram.

Kristian qəddini düzəldərək yanımda uzanıb, dirsəyini başının altına qoyub və sərt simayla üzümə baxır.

– Nədən qorxurdunuz?

İblis!

– Birdən yuxuda sizi müştəbeh səfeh adlandırsaydım və desəydim ki, yataqda fərsizsiniz?

Kristian qaşlarını burnu üstündə düyünləyir.

– Bu, mənimçün yenilik deyil, amma məni maraqlandırdı. Nəyi gizlədirsiniz, miss Stil?

Günahsızcasına kirpiklərimi döyürəm.

– Heç nəyi.

– Anasteyşa, yalan danışmaq lazım gəldikdə özünüzü ələ verirsiniz.

– Fikirləşirdim ki, seksdən sonra məni güldürmək istəyirsiniz, amma bu gülməli deyil.

– Mən güldürə bilmirəm.

– Mister Qrey! Doğrudanmı bu dünyada bacarmadığınız bir iş var?.

O, cavab olaraq gülümsəyir.

– Əfsus, bu mənada tam vecsizəm.

Səsdə o qədər iftixar var ki, gülürəm.

– Mən də.

– Bunu eşitmək xoşdur, – o sakitcə deyir, əyilir və məni öpür. – Amma sən yüzə-yüz nəyisə gizlədirsən, Anasteyşa. Tezliklə səninlə ciddi məşğul olacam.

## 26-cı fəsil

Yuxudan oyanır, sanki təkandan kəskin hərəkətlə çarpayıda oturuPuram. Röyada pilləkəndən yıxılırdım. Otaq qaranlıqdır, Kristian yoxdur. Nəsə məni oyadıb; hansısa həyəcanlı fikir. Zəngli saat beşi göstərir, amma

yuxudan doymuşam. Qəribədir. Ah, hə, vaxt qurşaqları... Corciyada indi saat səkkizdir. Lənət… gərək həbi unutmayam. Yataqdan sürüşüb çıxıram. Məni yuxudan nəyin qaldırmasını bilməsəm də, xeyirxahıma minnətdaram. Royalın asta səsi eşidilir. Kristian ifa edir. Bunu görməliyəm. Onun ifasını seyr etməyi xoşlayıram. Kürsüdən xalatı qaparaq oğrun-oğrun dəhlizə çıxır və qonaq otağından gələn kədərli səsləri dinləyirəm.

Hər tərəfdən zülmətlə əhatələnərək Kristian işıq şüası altında oturub, saçları gümüş çalardadır. O çılpaq görünür, əynində pijama şalvarı olsa da. Kristian kədərli musiqiyə bələnərək onu füsunkar tərzdə ifa edir. Qaranlıqdan onu izləyir, işığa çıxmağa tələsmirəm. Onu qucaqlamaq istəyirəm. Kristian itirilmiş, qüssəli və çox tənha görünür, amma bəlkə də hər şey dərin hüznlə dolu musiqidən irəli gəlir.

Pyesi sonadək ifa edərək o, ani olaraq donub-qalır və yenidən ifaya başlayır. Yaxınlaşıram, kəpənək kimi, işığın cazibəsiylə… müqayisə məni gülümsəməyə vadar eləyir. Kristian gözlərini qaldırır, üzünü turşudur və baxışlarını klavişlərə endirir.

Lənət şeytana, doğrudanmı ona mane olmağıma hirslənir?

– Niyə yatmırsan? – Kristian yumşaq qınaqla deyir.

Nəsə onu qayğılandırır... hiss eləyirəm.

– Bəs sən?

O, yenidən gözlərini qaldırır, dodaqlarında təbəssüm oynayır.

– Məni danlayırsınız, miss Stil?

– Tamamilə düzdür, mister Qrey.

– Yuxum qaçıb. – O qüssələnir, üzündə qəzəb və qıcıq ifadəsi sezilir.

Onun ifadələrinə əhəmiyyət vermir, cəsarətlə fırlanan stula otururam, başımı Kristianın çılpaq çiyninə qoyur. Onun cəld, bacarıqlı barmaqlarının klavişləri necə sığalladığını seyr edirəm. Bir anlıq ifası dolaşır, sonra pyesi sonadək ifa edir.

– Bu nədir? – sakitcə soruşuram.

– ġopen. Opus iyirmi səkkiz, prelyudiya mi minor, nömrə dörd... əgər bilmək istəyirsənsə.

– Məşğul olduğun hər iş haqda bilmək istəyirəm.

O, dodaqlarını saçlarıma dayayır.

– Səni oyatmaq istəmirdim.

– Sən təqsirkar deyilsən. Başqa bir şey ifa et.

– Başqa bir şey?

– İlk dəfə yanında qaldığım gecə ifa etdiyin Baxın pyesini.

– A-a, Marçello.

Kristian ifaya başlayır: tələsmədən və cidd-cəhdlə. Onun çiyni başımın altında sürtünür və gözlərimi qapadıram. Qüssəli, sirayətedici melodiya divarlarda əks-səda verərək ətrafımızı bürüyür. O, çox kədərlidir... ġopendən də kədərli və mən fəci gözəllikdə əriyirəm. Melodiya qismən

duyğularımı əks etdirir: mənim bu nadidə kişini, içini göynədən səbəbləri öyrənib dərk etmək istəyimi. Pyes çox tez bitir.

– Niyə yalnız kədərli musiqilər ifa edirsən?

Baxışlarımı qaldırıram və düz Kristianın gözlərinin içinə boylanıram. Onlarda həyəcan sezilir. O, çiyinlərini çəkir.

– Piano çalmağa başlarkən altı yaşın vardı? – geri çəkilmək fikrində deyiləm.

Kristian başıyla təsdiqləyir, onun utancı açıq-aşkardır.

Pauzadan sonra o deyir:

– Ögey anamı sevindirmək üçün musiqiylə məşğul olmağa başladım.

– İdeal ailədə pis ad çıxarmaqdan qorxdun?

– Belə də demək olar, – yayğın cavab verir o. – NİYə qalxmısan? Dünənkinin yorğunluğunu çıxarmaq istəmirsən?

– Mənim saatım səhər səkkizi göstərir. Həb qəbul etmək vaxtıdır.

O heyrətlə qaşlarını qaldırır.

– Yaddaşın yaxşıdır, – sakitcə deyir. Deyəsən, onu mütəəssir eləmişəm. Kristianın dodaqları təbəssümlə əyilir, – amma unutma ki, indi başqa vaxt qurşağındasan. Bu gün həbi yarım saat gec iç, sabah bu vaxta daha yarım saat əlavə elə. Tədricən qrafikə düşəcəksən.

– Yaxşı plandır, – donquldanıram. – Yarım saat nəylə məşğul olacağıq? – Günahsızca gözlərimi döyürəm.


kitabyurdu.blogspot.com

– Bir neçə variant var, – gülümsəyir, boz gözlər parlayır. Ona ehtiraslı baxışla cavab verirəm, içimdə hər şey yığılır və əriyir.

– Təkrarlaya bilərik, – sakitcə təklif edirəm.

Kristian qaşlarını  qaldırır.

– Daha yaxşı ideya var.

O, məni özünə sarı çəkir.

– Seksi həmişə söhbətdən üstün tutursan, – onun dizləri üstə oturaraq gülürəm.

– Xüsusən səninlə. – Kristian burnunu saçlarım arasına dürtür və qulağımdan boğazımadək öpüş cızığı qoyur. – Deyək ki, royal üstündə, – pıçıldayır.

İlahi! Royal üstündə seks fikrindən bədənimi ehtiras bürüyür. Royal üstündə!

– Bəzi şeyləri elə indi aydınlaşdırmaq istəyirəm, – pıçıldayıram, nəbzim artıq sürətlənməyə başlayır. Daxili ilahəm onun öpüşlərindən əriyərək göz süzdürür.

– Sizə ancaq imkan ver, miss Stil. Nəyi bilməyə tələsirsiniz ki? – Kristian pıçıldayır, üzünü peysərimdə gizlədərək məni öpməkdə davam edir.

– Bizim haqqımızda bəzi şeyləri, – gözlərimi qapadaraq sakitcə deyirəm.

– Hm... məhz nəyi? – Çiynimə çataraq öpüşlərini dayandırır.


kitabyurdu.blogspot.com

– Müqaviləmiz haqda bəzi şeylər.

Kristian başını qaldırır, köks ötürür və barmağını yanağımda gəzdirir.

– Müqavilə müzakirə olunmalıdır, – xırıltılı səslə deyir o.

– Müzakirə olunmalıdır?

– Bəli, məhz belə, – o gülümsəyir.

Mən anlaqsız şəkildə ona baxıram.

– Amma sən elə inad edirdin ki...

– Bu, çoxdankı söhbətdir. İstənilən halda qaydalar müzakirə olunmur.

Onun siması sərtləşir.

– Çoxdankı? Bu, nə deməkdir?

– Ona qədər ki... – o kəkələyir, gözlərində həyəcan peyda olur, – bundan çoxunu istədikdə.

– Deməli, belə …

– Bundan başqa, sən artıq iki dəfə oyun otağında olmusan, amma indiyədək yanımdan dördnala qaçıb getməmisən.

– Gözləyirdin ki, qaçacam?

– Səndən nəyi gözləsəm də, Anasteyşa, heç vaxt ümidləri doğrutlmursan, – quru tərzdə deyir o.


kitabyurdu.blogspot.com

– Gəl hər şeyi sonadək aydınlaşdıraq. İstəyirsən ki, mən qaydalara tabe olum, amma yalnız onlara?

– Oyun otağı istisna olmaqla. İstəyirəm ki, orda müqavilənin ruhuna uyğun hərəkət edə, başqa vaxt isə yalnız qaydalara tabe olasan. Onda sənin təhlükəsizliyinə əmin olacam və istədiyim vaxt səninlə olacam.

– Birdən qaydaları pozsam?

– Onda səni cəzalandıracam.

– Bəs mənim icazəm?

– Ona ehtiyacım var.

– Birdən –yox‖ desəm?

Bir anlıq Kristian qayğılı tərzdə mənə baxır.

– Səni inandırmağın yolunu taparam.

Onun dizləri üstündən qalxıram. Kristian qaşqabağını sallayır, gözlərində təəccüb və təlaş var.

– Deməli, cəza qalır.

– Ancaq qaydaları pozduğun halda.

– Müqaviləni oxumaq istəyirəm, – detalları xatırlamağa çalışım.

– İndi gətirərəm.

Qəfildən onun danışıq ahəngi quru və işgüzar olur.

O ayağa qalxır və ahu yerişiylə kabinetinə yollanır. Hə, başıma iş açdım da... İndi bir fincan çay içmək pis olmazdı. Səhər saat altının


kitabyurdu.blogspot.com

yarısında münasibətlərimizin gələcəyini müzakirə eləmək, həm də Kristianın biznes işləri sahmanda olmadığı bir vaxtda səfehlik deyilmi? Qaranlıq mətbəxə gedirəm. İşığın yandırma dəstəyi hardadır? Yandırır və çaydanı suyla doldururam. Həb! Piştaxta üstündə unutduğum kosmetika çantamda qurdalanaraq, həbi uduram.

Kristian məni gözləyir, bar stulunda oturub və diqqətlə üzümə baxır.

– Budur, – o, mənə bir vərəq uzadır və görürəm ki, bəzi sətirlərin üzərindən xətt çəkilib.

QAYDALAR:

Sabmissiv ləngimədən və sözsüz olaraq Dominantın əmrlərinə tabe olur. Sabmissiv yolverilməz kimi qeyd olunmuşlar istisna edilməklə (Əlavə 2) Dominantın məqbul bildiyi və ona həzz verən seksual xarakterli istənilən hərəkətə razılaşır və onlarda şövqlə iştirak edir.

Yuxu:

Sabmissiv Dominantla vaxt keçirməyərkən sutkada minimum səkkiz saat yatmalıdır.

Yemək:

Sabmissiv –Sağlamlığın və yaxşı əhvali-ruhiyyənin saxlanılması‖ müvafiq ərzaq tövsiyələri siyahısına əsasən (Əlavə 4) müntəzəm qidalanmalıdır və qida qəbulu arasında meyvələrdən başqa digər qidaların qəbulu qadağan edilir.

Geyim:

Bu müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv yalnız Dominantın təsdiqlədiyi libasları geyməyi öhdəsinə götürür. Dominant Sabmissivə müəyyən məbləğdə pul verir ki, bu pul geyimə xərclənməlidir. Dominantın geyim alışında iştirak etmə hüququ var. Müqavilənin qüvvədə olduğu müddətdə Sabmissiv Dominantın seçdiyi və istədiyi vaxtda bəzək əşyaları və aksesuarları əynində gəzdirməyə razılıq verir.

Fiziki məşğələlər:

Həftədə dörd dəfə Dominant saat hesabı məşqlər üçün Sabmissivə fərdi məşqçi təqdim edir, onun vaxtını Sabmissiv və məşqçi qarşılıqlı razılaşma ilə müəyyən edirlər. Sabmissivin uğurları barədə məşqçi Dominanta hesabat verir.

ġəxsi gigiyena / Gözəllik:


kitabyurdu.blogspot.com

Sabmissiv öhdəsinə götürür ki, bədənini həmişə təmiz saxlayacaq və ülgüc \ yaxud mumla müntəzəm epilyasiya edəcək. Sabmissiv Dominantın seçiminə əsasən, təyin elədiyi vaxtda gözəllik salonlarına baş çəkir və onun zəruri bildiyi prosedurалardan keçir. Bütün xərcləri Dominant ödəyir.

ġəxsi təhlükəsizlik:

Sabmissiv öhdəsinə götürür ki, spirtli içkilərdən sui-istifadə etməyəcək, siqaret çəkməyəcək, narkotik maddələr qəbul etməyəcək və özünü gərəksiz riskə məruz qoymayacaq.

Fərdi keyfiyyətlər:

Sabmissiv öhdəsinə götürür ki, Dominantdan başqa heç kimlə seksual münasibətlərə girməyəcək. Sabmissiv özünü təvazökar və ehtiramlı aparır – dərk edərək ki, onun davranışı Dominanta birbaşa təsir edir. Sabmissiv Dominantın olmadığı zaman öz əməllərinə, sui-istifadəyə və intizamın pozulmasına görə məsuliyyət daşıyır.

Bu qaydalardan hər hansı birinin pozulmasına görə cəza verilir və onların xarakterini Dominant müəyyən edir.

– Deməli, itaət yerində qalır?

– Hə.

Heyrətlə başımı yelləyir və ixtiyarsız gözlərimi bərəldirəm.

– Sən göz süzdürdün, Anasteyşa? – Kristian pıçıldayır.

Lənət şeytana!

– İndi nə etmək fikrin var?

– Həmişə etdiyimi. – Kristian başını yelləyir, gözləri ehtirasdan yanır. Udqunuram, bədənimdən əsməcə keçir.

– Demək istəyirsən ki…

İblis! Başım xarab olub?

– Hə? – O, alt dodağını yalayır.

– Məni kötəkləmək istəyirsən?

– İstəyirəm. Və kötəkləyəcəm.

– Əminsiniz, mister Qrey? – gülümsəyirəm. Bu, ikinəfərlik oyundur.

– Sizcə, mənə mane ola bilərsiniz?

– Əvvəlcə məni yaxalamalı olacaqsınız.

Kristianın gözləri genişlənir, o, təbəssümlə yerindən qalxır.

– Yaxalamaq, miss Stil?

Xoşbəxtlikdən aramızda bar piştaxtası var.

– İndisə dodağınızı dişlədiniz, – Kristian pıçıldayır, yavaşca sola hərəkət edir. Mən o biri tərəfə geri çəkilirəm.

– Sizdə heç nə alınmayacaq, – cırnadıram. – Özünüz də göz süzdürürsünüz. – Kristianı qane etməyə cəhd edirəm. O, masanın sol tərəfindən dönüb keçir, mən geri çəkilirəm.

– Hə, amma bu oyununuzla məni daha ehtiraslandırırsınız.

Kristianın gözləri işıldayır, o, dözümsüzlük şüaları saçır.

– Mən cəld qaçıram, – naqolay tərzdə deyirəm.

– Mən də.

O, məni öz mətbəxində izləməyə hazırlaşır?

– Bəlkə sağlam zəkanıza qulaq kəsdirəsiniz?

– Mən ona nə vaxt qulaq kəsirmişəm ki?

– Miss Stil, odla oynayırsınız, – dodağı qaçır. – Sizi tutsam, pis olacaq.

– Yaxalaya bilsən... mənsə elə-belə təslim olmayacam.

– Anasteyşa, sən yıxıla və yaralana bilərsən, busa yeddinci qaydanın birbaşa pozulmasıdır.

– Tanış olduğumuz vaxtdan bəri, mister Qrey, özümü təhlükəsizlikdə hiss eləmirəm və qaydaların bura dəxli yoxdur.

– Bu haqda mübahisə eləmək çətindir. – Kristian susur və azca qaşlarını çatır.

Qəfildən o, irəli atılır: məni ciyildəməyə və arxasında gizlənməyə ümid elədiyim masaya atılmağa məcbur edərək. Ürəyim yerə düşür,


kitabyurdu.blogspot.com

adrenalin bədənimə yayılır… İlahi, elə həyəcanlanmışam ki!.. Özümü yenə uşaq kimi duyuram, hərgah bu yaşdan çoxdan çıxmışam. Kristian mənə doğru gəlir, amma kənara yayına bilirəm.

– Siz kişini yayındıra bilirsiniz, Anasteyşa.

– Buna çox şadam, mister Qrey. Nədən yayındıra?

– Həyatdan. Kainatdan. – O, əlini əcaib tərzdə yelləyir.

– Royal arxasında diqqətinizi toplaya bilmişdiniz.

O dayanır və qollarını çarpazlayır, üzündə özündənrazı təbəssüm var.

– Biz gün boyu bu cür əylənə bilərik, amma əvvəl-axır səni yaxalayacağam, balaca, onda payını necə lazımdı verəcəyəm.

– Yox, tuta bilməzsən.

Özünəgüvənmə... Bu sözləri mantra kimi təkrarlayıram. Təhtəlşüurum ayağına –Nayk‖ kross-ayaqqabılarını keçirir və starta hazırlaşır.

– Guya ki səni tutmağımı istəmirsən.

– Bəli, istəmirəm. Mənimçün cəza sənin üçün özgənin toxunuşu kimi bir şeydir.

Onun davranışı anidir, nano-saniyədə dəyişir. Dəcəl Kristian yox olur. Ölümcül solğun simalı Kristian qarşımda elə dayanıb ki, sanki onu indicə vurmuşam.

– Doğrudan belə hiss edirsən? – astaca soruşur.

Hər bir sözlə onun səsi güc yığır. Yo-ox. Bu dörd söz onun haqda, qorxuları və nifrəti haqda mənə çox şeyi əyan edir. Qüssələnirəm. Əlbəttə, bu cür hiss eləmirəm, o dərəcədə yox. Bəlkə hiss edirəm?

– Elə də güclü deyil, amma indi məni başa düşürsən.

– Hə.

Zibil! O, gülünc və özünü itirmiş kimi görünür.

Dərindən nəfəs alaraq masanı əyirəm və Kristiana yaxınlaşır, cəsarətlə onun qorxu dolu gözlərinə baxıram.

– Cəzadan belə çox qorxursan? – o, güclə eşidiləcək tərzdə soruşur.

– Mən... yox. – İlahi, doğrudanmı o, özgə toxunuşlara bu dərəcədə nifrət edir? – Yox, mən şəhvani hisslər duyuram. İstəmirəm ki, məni cəzalandırsınlar, amma içimdə nifrət yoxdur.

– Amma dünən oyun otağında… – Kristian kəkələyir.

– Sən buna ehtiyac duyduğun üçün razılaşdım. Mən yox. Dünən ağrıyırdım. O durumda bu, mənə nəsə qeyri-təbii görünürdü və mən sənə etibar edirdim. Əgər məni cəzalandırmaq istəsən, onda məni həqiqətən ağrıdacaqsan.

Onun boz gözlərində fırtına baş qaldırır. O, asta səslə danışana qədər zaman genişlənə və ötüb keçməyə macal tapır:

– Sənə dözə bildiyin qədər ağrı vermək istəyirəm.

Lənət!

– Niyə?

O, barmaqlarını saçlarında gəzdirir və çiyinlərini çəkir.

– Bu, mənə lazımdır. – Kristian susur, mənə yönələn baxışlarında iztirab var, gözlərini qapadır və başını yelləyir. – Deyə bilmərəm.

– Deyə bilmirsən, yoxsa deməzsən?

– Deməərəm.

– Deməli, səbəbi bilirsən.

– Bilirəm.

– Amma mənə deməzsən.

– Əgər desəm, məndən dördnala qaçacaqsan. – Onun baxışları həyəcanla dolur. – Risk edə bilmərəm, Anasteyşa.

– Qalmağımı istəyirsən.

– Düşünə biləcəyindən də çox! Sənin gedişinə dözə bilmərəm.

İlahi!..

Qəfildən Kristian məni bağrına basır və ehtiraslı öpüşlərə qərq edir. O, məni şaşqın vəziyyətdə qoyur və bu ehtirasda mən qorxu və ümidsizlik duyuram.

– Getmə. Yuxuda demişdin ki, məni yalqız qoymayacaqsan və səni tənha qoymamağı xahiş edirdin, – pıçıldayır.

Nəhayət ki! İndi bildik!


kitabyurdu.blogspot.com

– Getmək istəmirəm.

Ürəyim sıxılır.

Ona kömək lazımdır. Kristianın qorxusu açıq-aşkardır! Onun öz qara düşüncələrində sərasər dolaşması üzündən görünür. Genişlənmiş boz gözlərdə əzab donub-qalıb. Amma ona təskinlik verə bilərəm. Onunla zülmətə girə və onun işığa çıxara bilərəm.

– Mənə göstər.

– Göstərim?

– Mənə ağrını göstər.

– Nə?

– Məni cəzalandır. Bilmək istəyirəm, o necə olur.

Kristian geri çəkilir... özünü tamamilə itirib.

– Sınamaq istəyirsən?

– İstəyirəm.

Gizlicə ümid edirəm ki, ona güzəştə getsəm, o özünə toxunmağa imkan verəcək.

Kristian heyrətlə gözlərini döyür.

– Ana, məni dolaşdırdın.

– Özüm də bilmirəm nə edirəm. Sınamaq istəyirəm. Əvəzində haradək dözə biləcəyimi öyrənəcəyik. Və əgər dözə bilsəm, bəlkə sən… – kəkələyirəm.


kitabyurdu.blogspot.com

Kristianın gözləri yenidən genişlənir. O, yaxşı anlayır ki, nəyi nəzərdə tuturam. Ani olaraq özünü itirdikdən sonra özünü ələ alır və maraqla mənə baxır, sanki ehtimalları ölçüb-biçir.

Qəfildən əlimdən yapışır və pilləkənlə oyun otağına aparır. Həzz və ağrı, mükafat və cəza – onun sözləri başımda əks-səda verir.

– Sənə bunun nə olduğunu göstərəcəm, özün hər şeydən baş çıxaracaqsan, – astanada dayanır, – hazırsan?

Başımla təsdiqləyirəm: qərarlıyam. Başım astaca fırlanır, sanki qan üzümdən çəkilib.

Qolumu buraxmadan Kristian qapını açır, qarmaqdan qayışı çıxarır və məni otağın uzaq küncündəki qırmızı dəri üzlüklü skamyaya sarı aparır.

– Skamya qarşısında əyil.

Yaxşı, bu çətin deyil. Yumşaq, sürüşkən dəri qarşısında əyilirəm. Qəribədir ki, o, məni soyundurmadı. Lənət, yəqin ki doğrudan-doğruya ağrılı olacaq. Təhtəlşüurum özündən gedir, daxili ilahə var-gücüylə cəsarət toplayır.

– Biz burda ona görəyik ki, özün bunu istədin, Anasteyşa. Məndən qaçırdın. Səni altı dəfə vurmağı düşünürəm və sən mənimlə birgə sayacaqsan.

Bu mərasimçilik nəyə gərəkdir? Kristianın məni görmədiyini bilərək, göz süzdürürəm.

O, xalatın kənarını qaldırır. Sən demə, bu çox erotik görünüş imiş, tam çıxarsaydı, heç belə olmazdı. Kristianın isti əli yanbızlarımı sığallayır.

– Qaçmaq fikrinə düşməməyin üçün səni kötəkləyəcəyəm və bu təcrübə çox ağır olsa da, məndən qaçmanı istəmirəm.

Kinayəyə bax bir... Cəzadan qaçmaq istəsəm ha!.. Kristian qollarını açdıqda, qaçmaram. Onun ağuşuna sığınacam.

– Və sən mənə göz süzdürdün. Bilirsən buna necə yanaşıram.

Qəfildən onun səsi qüvvətlənir, qorxu və təlaş yox olur – əvvəlki Kristian yerinə qayıdır. Bunu səsinin ahəngindən, əlini belimə necə qoymasından duyuram və otaqdakı atmosfer o dəm dəyişir.

Gözlərimi qapadır, zərbəni qəbul etməyə hazırlaşıram. Və Kristian vurur. Zərbə ehtimallarımı doğruldur. Qışqırır, ağrıdan boğuluram.

– Say, Anasteyşa, – əmr edir.

– Bir! – söyüş kimi çığırıram.

O, yenidən məni vurur və yandırıcı ağrı kəmərin uzunluğu qədər çəkir. Lənət, necə də ağrıdır!

– İki! – bağırıram. Çığırtı rahatlıq gətirir.

Xırıltılı, kəsik-kəsik tənəffüsü eşidirəm. Özümsə güclə nəfəs alır, ümidsizcəsinə ruhi qüvvə tapmağa çalışıram: iztiraba dözmək üçün. Kəmər yenidən bədənimə hopur.

– Üç! – Göz yaşlarım qəfildən yağır. Lənət, bu, düşündüyümdən də, şapalaqdan da ağrılıdır.

– Dörd! – zingildəyirəm. Göz yaşlarım su yerinə axır. Ağlamaq istəmirəm və özümü ələ ala bilməməyimə acıqlanıram.

Daha bir zərbə.

– Beş. – Boğuq hıçqırtı boğazımdan çıxır və bu an mən Kristiana nifrət edirəm. Daha bir dəfə dözməliyəm... daha birinə. Arxam od tutub yanır.

– Altı, – koredici ağrı arasından pıçıldayıram. Kristian kəməri kənara atır və məni bağrına basır, boğularaq və mərhəmətlə dolu halda... amma onu tanımaq belə istəmirəm.

– Burax məni... yox… – Onun qolları arasından çıxıram. – Mənə toxunma! – fısıldayıram; qəddimi düzəldir, qəzəblə ona baxıram və onun heyrətli nəzərləriylə üzləşirəm.

– İstədiyin bu idi? Məni? Bu cür? – xalatın qollarıyla burnumu silirəm.

Kristian həyəcanla mənə baxır.

– Lənətə gəlmiş köpək oğlu.

– Ana, – o, sarsılmış halda mızıldanır.

– Adımı çəkmə... mənə ―Ana‖ demə! Əvvəlcə öz poxunu aydınlaşdır, Qrey! – Kəskin şəkildə çevrilir və otaqdan çıxıram; qapını arxamca səliqəylə bağlayıram.

Artıq dəhlizdə qapının dəstəyindən yapışıb durur və bir anlığa qapıya söykənirəm. Hara gedim? Nə edim? Qaçım? Qalım? Qəzəbdən özümdə deyiləm, üzümdən yandırıcı göz yaşları axır və mən acıqlı halda ovucumla onları silirəm. Küncə sıxılmaq, yumaq kimi yığılmaq və unudulmaq istəyirəm. Mən silkələnmiş inamımı müalicə etməliyəm. Niyə bu qədər axmaq olmuşam?

Ehtiyatla od tutub yanan yanbızlarımı ovmağa çalışıram. Elə ağrıdır ki.. Hara gedim? Öz otağıma: mənim olacaq, yaxud nə vaxtsa mənim olmuş otağa. Deməli, buna görə Kristian istəyirdi ki, evdə mənim də məkanım olsun. Sanki bilirmiş ki, təkliyə ehtiyacım olacaq.

Qətiyyətlə ora yollanır, amma Kristianın ardımca gələ biləcəyini də dərk edirəm. Otaq qaranlıqdır, şəfəq hələ indi-indi doğur. Naqolay halda ağrılı yerlərə toxunmamağa çalışıram; çarpayıya çıxır, xalata bürünür, yumaq kimi yığılıram və burda iradəsizlik edib üzü balışa tərəf hönkürüb ağlayıram.

Bunu niyə ağlıma gətirməmişdim? Niyə özümlə bu cür davranmasına imkan verdim? Onun ardınca zülmətə getməyə hazırlaşırdım, amma zülmət yetərindən artıq qaranlıq çıxdı. Bu həyat mənlik deyil.

Gecikmiş anlama! Kristianda da günah yoxdur, məni xəbərdar etmişdi və bir dəfə yox. Əgər o dəlidirsə, günahkar mənəm? Ona ehtiyacı olanı verə bilmərəm. İndi başa düşürəm. Və bir daha mənimlə bu cür davranmasına imkan verməyəcəm. Əvvəllər məni vura bilərdi, amma belə güclü deyil. Əminəm bu gün o razı qaldı. Balışa hönkürürəm. Getməli olacağam. Ona istədiyini verməsəm, mənimlə qalmayacaq. Hansı ağılla Əlli çalara aşiq oldum?! Niyə Xoseyə, Pol Kleytona vurulmadım... kimə oldu, özüm kimisinə?

O-oh, Kristuianın özünü itirdiyi andakı baxışı – mən otaqdan çıxarkən! onunla sərt davrandım, amansızlığından elə sarsılmışam ki… Məni bağışlaya bilərmi… mən onu bağışlaya bilərəmmi? Fikirlərim dolaşır. Təhtəlşüurum kədərlə başını bulayır, daxili ilahəm gözə görünmür. Anamın yanında olmaq istəyirəm. Hava limanındakı vida sözlərini xatırlayıram: ‒Qəlbinin səsinə hay ver, əzizim, bəsdir içini yedin. Rahatlan və həzz al. Hələ elə cavansan ki, günəşim! Qarşıda o qədər görəcəklərin var ki! Olacağa çarə yoxdur. Sən ən yaxşısına layiqsən‖.

Qəlbimin səsinə hay verdim, nəticəsi nə oldu? Ağrıdan alışıb yanan g..üm və ruh düşkünlüyü. Getməliyəm, onu tərk etməliyəm. O mənə yaraşmır, mənsə ona. Bizdə heç nə alınmayacaq. Kristianı bir daha görə bilməyəcəyim fikrindən boğuluram. Ah, Əlli Çalarım...


kitabyurdu.blogspot.com

Qapı kilidi çıqqıldayır. Yox! Kristian nəyisə dolabçanın üstünə qoyur, sonra çarpayı onun ağırlığından əyilir.

- ġ-ş-ş, – o pıçıldayır.

Ondan aralanmaq istəyirəm, amma ölü kimi uzanmışam, qımıldanmaq gücündə deyiləm.

- Mənə hirslənmə, Ana, xahiş edirəm, – Kristian pıçıldayır, burnuyla saçlarımın arasına dürtülür. – Məni qovma, – yumşaq tərzdə nəfəsini boynuma buraxır.Onun səsi hüznlə doludur.

Ürəyim sıxılır, sakitcə göz yaşlarımı axıdıram. Kristian nəvazişlə məni öpür, amma mən buz kimiyəm.

Bütöv bir əbədiyyət boyu beləcə qalırıq. Kristian sadəcə məni özünə sıxır və tədricən göz yaşlarım quruyur. ġəfəq gəlib-keçir, Günəş şüaları pəncərələri dəlir, bizsə sakitcə çarpayıda uzanmışıq.

- Sənə –advil‖ və öküzgözü[1] kremi gətirmişəm, – Kristian uzun zamandan sonra deyir.

Yavaş-yavaş çevrilirəm. Boz gözlərdə həyəcan donub-qalıb.

Gözəl sima... Kristian gözlərini məndən çəkmir... demək olar ki, gözünü qırpmadan. Qısa müddətdə o, mənə heyrətamiz dərəcədə əziz olub.

---

[1] Başqa bir adla, arnika (həmin bitkinin çiçəklərindən hazırlanan dərman hazırlanır.)


kitabyurdu.blogspot.com

Əlimi uzadır və barmaqlarımın ucuyla tüklənmiş üzünə toxunuram. O, gözlərini qapadır və astaca ah çəkir.

– Bağışla məni, – pıçıldayır.

O, gözlərini açır və təəccüblə mənə baxır.

– Niyə?

– Sənə dediyim sözlərə görə.

– Səndən yeni heç nə eşitmədim. Sən məni bağışla ki, bu qədər ağrı verdim.

Çiyinlərimi çəkirəm.

– Özüm səndən xahiş etmişdim.

İndi bilirəm. Ürpəntiylə udqunuram. ―Cəsarətli ol, ona deməlisən‖.

– Deyəsən, mən sənə lazım olan qadın deyiləm.

Kristianın gözlərində yenə də qorxu oynaşır.

– Sən mənə lazım olan hər şeysən.

O, nəyi nəzərdə tutur?

– Anlamıram. İtaət mənlik deyil və əgər bugünkü kimi mənimlə davranmana icazə versəm, lənətə gəlim. Özünsə etiraf elədin ki bu, səninçün zəruridir.

Kristian yenidən gözlərini qapadır, üzündə sayagəlməz hisslər oynaşır. Gözlərini açdıqda içində məyusluq və boşluq görünür. Yo-ox!

– Sən haqlısan, səni buraxmalıyam. Sənə layiq deyiləm.


kitabyurdu.blogspot.com

Bədənimin bütün tükləri biz-biz durur, yer ayaqlarım altından qaçır. Yerində əsnəyən boşluq qalır.

– Getmək istəmirəm, – pıçıldayıram. Lənət şeytana. Ödə, ya da oyna. Gözlərim yenidən yaşla dolur.

– Mən də getməyini istəmirəm, – xırıltıyla deyir Kristian, böyük barmağıyla yanağımdakı damlanı silərək. – Səni gördüyüm gündən sanki yenidən doğulmuşam. – Barmağı alt dodağımda gəzişir.

– Mən də... səni sevirəm, Kristian Qrey.

Onun gözləri yenidən genişlənir, amma indi onlarda dəhşət donub-qalıb.

– Yox, – nəfəsini buraxır, sanki öz etirafımla ruhunu çıxarmışam.

O-oh, bircə bu olmasın!

– Məni sevə bilməzsən, Ana… Bu düzgün deyil.

– Düzgün deyil? Niyə?

– Bir özünə bax! Məgər səni xoşbəxt edə biləcəyəmmi? – Kristian qəzəbini söndürür.

– Artıq mənə xoşbəxtliyi vermisən, – qaşqabağımı tökürəm.

– İnd, elədiyimlə yox, eləmək istədiyimlə deyil.

Lənət şeytana. Deməli, həqiqət budur. Uyumsuzluq – fikir ayrılığımızın səbəbi budur. Onun köləsi olmuş bütün bədbəxt qızları xatırlayıram.


kitabyurdu.blogspot.com

– Bunu heç zaman adlaya bilmərik? – qorxudan büzüşərək pıçıldayıram.

Kristian kədərlə başını yelləyir.

– Hə, onda getsəm yaxşıdır. – Üzümü qırışdıraraq çarpayıda otururam.

– Yox, getmə, – Kristian pərişanlıqla yalvarır.

– Qalmağın mənası yoxdur.

Qəfildən ölümcül yorğunluğa bələnir və yalnız bircə şey istəyirəm: tez-tələsik getmək. Yataqdan qalxıram.

– Geyinməliyəm və tək qalmaq istəyirəm, – ifadəsiz tərzdə deyirəm və çıxıram, Kristian tənhalıqda qalır.

Aşağı düşürəm. Qonaq otağına göz gəzdirir, xatırlayıram ki, cəmi bir neçə saat əvvəl Kristian royal çalırdı, başımsa onun çiyninə dayaqlanmışdı. O vaxtdan nələr gəlib-keçdi!.. Gözüm açıldı, eyibləri gördüm, anladım ki, o, sevməyə, sevgini qəbul etməyə və qarşılığını verməyə qabil deyil. Ən pis qorxularım doğruldu. Qəribə olsa da, azadlıq duyuram.

Ağrı elə güclüdür ki, onu etiraf eləməkdən imtina edirəm. Bütün duyğularım keyləşib. Sanki kənardan iştirak eləmədiyim dramı seyr edirəm. Duşun altında dayanır. yaxşıca yuyunuram. Maye sabunu ovcuma sıxıram, flakonu rəfə qoyur, süngərlə üzümü, çiyinlərimi ovuram... yenə və bir daha və sadə. Mexaniki hərəkətlər sadə, mexaniki fikirlər doğurur.


kitabyurdu.blogspot.com

Duşdan çıxaraq tez qurulanıram; başımı yumamışam. Çantadan cins şalvar və futbol köynəyini çıxarıram. ġalvarın altında dərim göynəyir, amma şikayətçi deyiləm: fiziki ağrı param-parça olmuş qəlbimi mənə unutdurur.

Çantanı bağlamaqdan ötrü əyilir və Kristiana aldığım hədiyyəni görürəm: ―Blanik L-23‖ planerinin modeli. Gözlərim yaşla dolur. Yo-ox… ah, o köhnə xoş günlər... o vaxt qəlbimdə hələ ümid vardı. Qutunu çantamdan çıxarır, başa düşürəm ki, hədiyyəni təqdim eləməliyəm. Qeyd kitabçasından bir vərəq qopararaq tələsik yazıram:

―Bu, mənə xoşbəxt zamanları xatırladırdı. Çox sağ ol. Ana‖.

Baxışlarımı qaldırıram. Aynadan mənə solğun kabus boylanır. Saçlarımı ―quyruq‖da yığır, ağlamaqdan şişmiş yanaqlarıma fikir vermirəm. Təhtəlşüurum dəstəkləyici tərzdə başını tərpədir, o, minnət götürmür. Öz dünyanın barverməz külə dönməsini, ümid və arzuların amansızcasına tapdanmasını həzm etmək çətindir. Yox, indi bu barədə düşünməyəcəyəm. Dərindən köks ötürərək çantamı qaldırır, hədiyyə və qeydim yazılmış vərəqi Kristianın balışında saxlayıb böyük qonaq otağına gedirəm.

Kristian telefonla danışır. Əynində qara cins şalvar və futbol köynəyi var, ayaqları yalındır.

– O nə dedi? – Kristian dəstəyə qışqırır. Məni diksintiylə atılmağa məcbur edərək. – O, həqiqəti danışa bilər. Mənə onun nömrəsi lazımdır, onunla danışmalıyam… Uelç, bu, tam iflasdır. – Kristian gözlərini qaldırır

və düşüncəli, qaraqabaq nəzərlə mənə baxır. – O qadını tap, – dəstəyə qısaca bunu deyib söhbəti bitirir.

Divana yaxınlaşır, belə keçirilən çantanı götürməkdən ötrü cidd-cəhdlə Kristianı görməməzliyə vururam. –Mak‖ı çıxararaq onu mətbəxə aparır və səliqəylə masaya qoyuram: –bləkberri‖ və maşının açarları ilə yanaşı. Geri çevrilərkən Kristianın gizlədilə bilinməz dəhşətlə mənə baxdığını aşkarlayıram.

– Mənə Teylorun –Böcəy‖in satışından əldə etdiyi pul lazımdır, – sakit və təmkinli tərzdə deyirəm… İnanılmazdır, özüm özümü tanımıram.

– Ana, bəsdir. Bu əşyalar sənə məxsusdur, – o, heyrətlə deyir. – Xahiş edirəm, onları götür.

– Yox, Kristian, onları müəyyən şərtlərlə götürmüşdüm. Artıq onlara ehtiyacım yoxdur.

– Ana, ağlını başına yığ. – O sərtdir, hətta indi də.

– İstəmirəm ki, onlar mənə səni xatırlatsın. Sadəcə, pulu ver: Teylotun –Böcəy‖in satışından əldə etdiyini, – deyirəm.

Kristian təlaşla ah çəkir.

– Məni incitmək istəyirsən?

– Yox.

Üz-gözümü turşudaraq ona baxıram. Əlbəttə, yox, axı mən onu sevirəm.

– Yox, istəmirəm. Sadəcə öz rahatlığımı müdafiə edirəm, – güclə eşidiləcək tərzdə deyirəm. – Çünki sənə mənə ehtiyacın olduğu qədər ehtiyaclıyam.

– Xahiş edirəm, Ana, onları götür.

– Kristian, gəl dalaşmayaq, sadəcə mənə pulu ver.

O, gözlərini qıyır, amma indi məni qorxuda bilməz. Bir azca, vəssalam. Sakitcə ona baxıram, təslim olmaq fikrində deyiləm.

– Çeklə olar? – qıcıqla soruşur?

– Hə, güman ki, sənə etibar edə bilərəm.

Gülümsəmədən çevrilir və kabinetinə doğru addımlayır. Sonuncu dəfə rəsmlərə – abstrakt, sükunətli, soyuq... sadəcə soyuq, onun üçün lap yerinə düşən rəsmlərə – nəzər yetirirəm. Baxışlarım royala yönəlir. İlahi, əgər onda sussaydım, düz royalın üstündə sevişərdik, yox, s..işərdik, sadəcə s..işərdik, mənsə sevişmək istərdim. Kristian mənimlə heç vaxt sevişməyib. Yalnız seks.

O dönür və mənə zərf uzadır.

– Teylor ―Böçək‖dən yaxşı pul əldə edib. İstədiyin nədir, əbədi klassika. Özün ondan soruşa bilərsən. Səni evə aparacaq.

Kristian başıyla qapını göstərir, mən çevrilir və Teyloru həmişəki kimi şıq kostyumda görürəm.

– Çox sağ ol, özüm gedərəm.

Kristiana sarı çevrilir və onun gözlərində güclə sezilən qəzəb görürəm.

– Hər şeydə mənimlə söz güləşdirmək qərarına gəlmisən?

– Mən vərdişlərimi belə tez dəyişmirəm. – Barışdırıcı tərzdə çiyinlərimi çəkirəm.

Kristian pərişan halda gözlərini qapadır və əlini saçlarında gəzdirir.

– Xahiş edirəm, Ana, izn ver, Teylor səni evə aparsın.

– Mən maşını qapı ağzına gətirirəm, miss Stil, – Teylor güclə deyir, Kristian başıyla ona işarə edir və mən geri çevrildikdə Teylorun artıq izi-tozu belə yoxdur.

Kristiana baxıram. Bizi bir-birimizdən dörd fut ayırır. O, mənə doğru addımlayır, instinktiv olaraq geri çəkilirəm. Dayanır... boz gözlərindəki ağrı seziləndir.

– Getməyini istəmirəm. – Sakit səs yalvarışla doludur.

– Qala bilmərəm. Nə istədiyimi bilirəm, amma sən onu mənə verə bilməzsən, mənsə sənə lazım olanı verə bilmərəm.

Kristian yenidən mənə sarı addımlayır.

– Lazım deyil, xahiş edirəm. – Aralanıram.

Onun toxunuşuna tab gətirə bilmərəm, mənə toxunarsa, sadəcə ölərəm.

Hər iki çantanı götürərək vestibülə çıxıram. Kristian təhlükəsiz məsafədə arxamca gəlir. O, liftin düyməsini basır, qapılar açılır. İçəri addım atıram.

– Əlvida, Kristian.

– Ana, hələlik, – incə tərzdə deyir. Kristian tamamilə öləri görünür, əzablı ağrıya tab gətirmiş insan... Eyni hisslər elə mənim də içimi didir. Baxışlarımı kənara çəkir, ona təskinlik vermək tutqusundan özümü çəkindirirəm.

Liftin qapıları bağlanır, məni kürsü mərtəbəsindən şəxsi cəhənnəmimə aparır.

Teylor qapını açır, arxa oturacaqda özümə yer edir və səylə baxışlarımı gizlədirəm. Utanc hissi məni boğur. Tam fəlakətə uğramışam. Əlli çalarımı işığa çıxarmaq istəyirdim, amma vəzifəmin öhdəsindən gələ bilmədim.

Cidd-cəhdlə hönkürməməyə çalışıram. Qırxıncı avenyu ilə hərəkət edirik, görməz gözlərimi pəncərəyə zilləmişəm və tədricən elədiyimin mücərrədliyini dərk etməyə başlayıram. Lənət, onu tərk elədim... sevdiyim yeganə kişini... aşiqim olmuş yeganə kişini. Hönkürürəm və bənd dağılır. Göz yaşları yanaqlarımdan süzülür, çaşqınlıqla onları əllərimlə silməyə başlayıram. Çantamda gün eynəyini axtarmağa çalışıram. İşıqforda Teylor çevrilmədən mənə yaylıq uzadır. Təmkininə görə ona minnətdaram.

– Çox sağ ol, – donquldanıram.

Bu kiçik şəfqət dözümün son damlası olur. Füsunkar oturacağa yayxanaraq özümü göz yaşlarına təslim eləyirəm.

Mənzil yad və narahat görünür. Burda çox az yaşamışam, odur ki, hələ mənim deyil. Birbaş yataq otağına gedir və kədərlə üfürülmüş şar-helikopteri görürəm. Çarli Tanqo məndən heç də yaxşı görünmür. Onu qəzəblə sürahidən qoparır və bağrıma basıram. İlahi, mən neylədim?

Çəkmələrimi çıxarmadan çarpayıya sərilir və ağrıdan ulayıram. Ağrı dözülməzdir: fiziki, ruhi, metafizik... o, hər yerdədir, o, iliyimə işləyir. Bu, həqiqi müsibətdir və mən onu özüm öz başıma gətirdim. İçimin dərinliyində daxili ilahəmin murdar bir fikri baş qaldırır: qayışla zərbələr bu hüdudsuz bədbəxtliklə müqayisədə heç nədir. Yumaq kimi yığılaraq şarı və Teylorun yaylığını əllərim arasında sinəmə sıxaraq öz dərdimə sarılıram


kitabyurdu.blogspot.com